Prof. Dr. Osman Nuri Aras

Dr. Elçin Süleymanov

1970-ci ildə Ərzurum-Xorasanda anadan olan Prof. Dr. Osman Nuri Aras 1990-cu ildə İstanbul Universiteti Siyasi Elmlər fakültəsindən məzun oldu. 1993-cü ildə Dumlupınar Universiteti İctimai Elmlər İnstitutu İqtisad kafedrasında magistratura təhsilinə başlayan Aras, 1995-ci ildə "Pul siyasətinin daxili tarazlıqdakı rolu və 1980-ci il sonrası Türkiyə nümunəsi" adlı dissertasiyası ilə magistr dərəcəsi aldı. Eyni il Marmara Universiteti İctimai Elmlər İnstitutu İqtisad Siyasəti kafedrasında doktoranturaya başladı. 1999-cu ildə "Başlıca pul tələbi nəzəriyyələri və 1980-ci il sonrası maliyyə sistemindəki inkişafların Türkiyədə pul tələbinə təsiri" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 2010-cu ildə isə dosent ünvanını almışdır. 2015-ci ildən Türkiyə Respublikası Fatih Universitetinin professorudur. 1993-98-ci illərdə Dumlupınar Universiteti Bilecik İqtisadiyyat və İdarəetmə fakultəsində müəllim olan Prof. Osman Nuri Aras, 1999-cu ildə Rusiya Federasiyasına bağlı Dağıstan Müxtar Respublikasındakı Beynəlxalq Şərq Universitetində müəllim, 2000-ci ildən etibarən isə Azərbaycan Qafqaz Universitetində müəllim, kafedra müdiri, fakültə dekanı və prorektor kimi işləmişdir. Osman Nuri Aras 2003-2004-cü təhsil ilində araşdırma və təhsil məqsədilə Cənubi Afrika Respublikasında, 2005-2006-cı təhsil ilində isə ABŞ North Texas Universitetində elmi tədqiqat apar-mışdır. Türkiyə Respublikası Fatih Universitetində müəllim və Fatih Universiteti Məslək Yüksək Okulu müdiri olaraq işləmişdir. Hal-hazırda Fatih Universiteti Beynəlxalq Ticarət kafedrasının müdiridir.

Osman Nuri Arasın:

1. "Pul tələbi pul iqaməsi və mali inkişaf" (Bakı-2000),
2. "Rusiya sosio-iqtisadi dəyişmə dalğası" (Bakı-2000),
3. "Azərbaycan iqtisadiyyatı, makro iqtisadi və sektörel analiz (Bakı-2003),
4. "Ağıyla qarasıyla Cənubi Afrika" (Bakı-2004),
5. "Azərbaycan iqtisadiyyatı və sərmayə imkanları" (Bakı-2005),
6. "Azərbaycanın Xəzər iqtisadiyyatı və strategiyası" (İstanbul-2007),
7. "Azərbaycan iqtisadiyyatı" (Bakı-2010),
8. 1997 Asya Krizi (İstanbul-2015),
9. 1998 Rusya Krizi (İstanbul-2015)

adlı kitabları nəşr olunmuşdur.

Müəllifin eyni zamanda iqtisadiyyat sahəsində yüzə yaxın məqaləsi bir çox mötəbər elmi jurnallarda dərc olunmuşdur.

Aras evlidir və bir uşaq atasıdır.

www.osmannuriaras.com

9 789952 468564

1973-cü ildə Qərbi Azərbaycanın Göyçə mahalı Şişqaya kəndində anadan olan Dr. Elçin Süleymanov Türkiyə Dokuz Eylül Universiteti maliyyə ixtisasında bakalavr, Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutu, biznesin təşkili və idarə olunması ixtisası üzrə magistr, Azərbaycan Dövlət İqtisad Universitetində dünya iqtisadiyyatı ixtisası üzrə dokrorantura dərəcəsi almışdır.

1996-2000-ci illərdə BÖTL iqtisadiyyat filialında müdir müavini, 2000-ci ildən Qafqaz Universitetində müəllim, ictimai işlər idarəsində müdir müavini, mədəniyyət şöbəsinin müdiri, tələbə dərnəkləri koordinatoru olaraq fəaliyyət göstərmişdir. Hazırda Qafqaz Universiteti İqtisadiyyat Fakültəsi, maliyyə kafedrasının müdiri, eyni zamanda 2005-ci ildən "Journal of Qafqaz University"nin nəşr redaktorudur.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Ali məktəblər üçün nəşr hüququ (qrıfli nəşr) verilən bir dərs vəsaitinin, dörd fənn proqramının həmmüəllifidir. Beynəlxalq indexcopernicus şəbəkəsinin, Nyu York Elmlər Akademiyası, World Economics Association, World Academy of Science, Engineering and Technology və digər bir sıra elmi qurumların üzvüdür. Social and Human Sciences, World Academy of Science, Engineering and Technology və World Research Journal of Financial Economics and Stochastics Editorial Review Board üzvüdür. Dr. Elçin Süleymanovun yazdığı yeddi kitabın və yüzə yaxın elmi tədqiqatların daxil edildiyi dünyanın məşhur elmi tədqiqat paylaşım portallarından olan Academia.edu, SSRN və Rusiyanın Socionet şəbəkəsində tədqiqatlarından ən çox istifadə edilən müəlliflərdən biridir. Müxtəlif xarici ölkələrdə keçirilən iyirmidən çox beynəlxalq konfransa dəvətli müharizəçi olaraq iştirak etmiş və bir neçə beynəlxalq elmi jurnalın ekspert heyətinə daxil edilmişdir.

Müəllifin altmışdan çox məqalə və tezisləri ABŞ, İtaliya, Almaniya, Rusiya, İsveç, Rumuniya, Türkiyə, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Makedonya və başqa ölkələrdə nəşr olunmuşdur. SSRN, EconPaper, RePEc, University Library of Munich, Germany MPRA, Academia, Researchgate, Indexcopernicus, Citeulike, Scholar.google, Academic.research.microsoft, Mendeley, ORCID Web of Science Thomson Reuters, Socionet və digər elmi resurs bazalarına daxil edilən yüzə yaxın tədqiqatlardan, bu bazaların statistikalarına görə yüzdən çox ölkədən üçyüz minə yaxın tədqiqatçı istifadə etmişdir. 2014-2015 tədris ilində bir semestr Groningen Universiteti, Niderlandda təlim və tədqiqat məqsədi ilə elmi ezamiyyətdə olmuşdur. TQDK maliyyə magistratura ixtisası üzrə ekspert, Dünya Bankının maliyyə dəstəyi ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Tədris mərkəzi və NEXİA international şirkətinin birgə təşkil etdiyi "Büdcə Təşkilatları Maliyyə Xidmət Rəhbərlərinə "Vergi və Biznes Hüququ təlimi" layihəsi çərçivəsində əsas təlimçi olmuşdur. 2015-ci ildən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (Food and Agriculture Organization of the United Nations, FAO) ekspertidir. İngilis, türk, rus, alman dillərini bilir, evli və iki uşaq atasıdır.

http://qafqaz.academia.edu/Elchin
http://az.wikipedia.org/wiki/Elçin_Süleymanov

nəşriyyat sponsoru

Prof. Dr. Osman Nuri Aras
Dr. Elçin Süleymanov

AZƏRBAYCAN İQTİSADİYYATI

AZƏRBAYCAN İQTİSADİYYATI

nəşriyyat sponsoru

yenilənmiş
2-Cİ NƏŞR

Bakı - 2016

AZƏRBAYCAN İQTİSADİYYATI

- YENİLƏNMİŞ 2-Cİ NƏŞR -

Prof. Dr. Osman Nuri Aras
Dr. Elçin Süleymanov

Bakı – 2016

Prof. Dr. Osman Nuri Aras
Dr. Elçin Süleymanov

AZƏRBAYCAN İQTİSADİYYATI

- YENİLƏNMİŞ 2-Cİ NƏŞR -

RƏYÇİLƏR:

Prof. Vilayət Vəliyev
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitunun direktoru,
iqtisad elmlər doktoru

Prof. Rəsul Balayev
Azərbaycan Respublikası
Kənd Təsərrüfatı Nazirliyi
Aqrar Elm Mərkəzinin baş direktoru

Prof. Fərhad Rəhmanov
Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi
hüquq" kafedrasının müdiri, iqtisad elmlər doktoru

Dos. Anar Eminov
Azərbaycan Turizm və Menecment Universitetinin
"Marketinq" kafedrasının müdiri

Dos. Həzi Eynalov
Qafqaz Universitetinin İqtisadiyyat və
İdarəetmə Fakultəsinin müəllimi

Prof. Dr. Cihan Bulut
Qafqaz Universitetinin
tədris işləri üzrə prorektoru

ELMİ REDAKTOR:

Dos. Mayis Əzizov
Qafqaz Universitetinin İqtisadiyyat və
İdarəetmə Fakultəsinin dekanı

DİZAYN:

Sahib Kazımov

ÇAP VƏ CİLDLƏMƏ:

"Şərq-Qərb" Mətbəəsi
Aşıq Ələsgər küç., No: 17, Xətai rayonu, Bakı, Azərbaycan;
Tel: (+994 12) 374 83 43

ISBN: 978-9952-468-56-4

Müəlliflərin yazılı icazəsi olmadan məlumatların nə tam, nə də hissə şəklində çap edilməsi, surətinin çıxarılması, çoxaldılması, tərcümə olunması və ya hər hansı bir digər üsulla istifadə olunması qadağandır.

© Prof. Dr. Osman Nuri Aras, Bakı, 2016
© Dr. Elçin Süleymanov, Bakı, 2016

ÖN SÖZ

SSRİ-nin süqutunun ardınca, 1991-ci ilin sonlarında, tarix səhnəsində beynəlxalq iqtisadi və siyasi stabillik ünsürü olmağa başlayan Azərbaycanda, iyirmi beş illik müddət ərzində iqtisadi-liberal nöqteyi nəzərindən sərbəst bazar şərtlərinə görə bir iqtisadi sistem formalaşdırılmağa başlanıldı.

1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi" ilə başlamış Azərbaycanda sərmayə qoyuluşu, xüsusilə enerji sektoruna xarici sərmayə investisiyaları uğurlu şəkildə inkişaf edir. 2003-cü ildən etibarən isə digər sektorlara istiqamətləndirilmiş yerli və xarici investisiyanın təşviqi məqsədi ilə inkişaf proqramları həyata keçirilməyə başlandı.

Azərbaycanın müstəqillik qazanmasından sonra siyasi, sosial və iqtisadi böyümə, inkişaf və müstəqillik nöqteyi nəzərindən müsbət mənada mühüm addımlar atdığı müşahidə edilir. Vacib hüquqi və idari nizamlamalara baxmayaraq, tətbiqi prosesə və iqtisadi göstəricilərə əks olunan müsbət inkişaf nəzərə alındıqda, Azərbaycanın XXI əsrdə dünyanın inkişaf etmiş, sivil, güclü bir dövləti olmağa namizəddir. Azərbaycanda stabil inkişaf edən bir iqtisadiyyat formalaşdırılsa da, əlbəttə yenə də daha çox və əhəmiyyətli bir sıra addımların atılması vacibdir. Keçid dövrü başa çatsa da, dünya iqtisadi məkanına inteqrasiya üçün bir sıra mühüm işlərin görülməsi zəruri və vacibdir.

Bu kitabın Azərbaycan iqtisadiyyatına maraq göstərən hər kəsə faydalı olması ümidi ilə.

Prof. Dr. Osman Nuri Aras
Fatih Universiteti
İstanbul / Türkiyə

Dr. Elçin Süleymanov
Qafqaz Universiteti
Bakı / Azərbaycan

AZƏRBAYCAN HAQQINDA
ÜMUMİ MƏLUMAT

Ümumi Məlumatlar

Azərbaycan Respublikasının yarandığı tarix	28 may 1918
Müstəqilliyin bərpa edildiyi tarix	18 oktyabr 1991
Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına qoşulduğu gün	30 yanvar 1992
Birləşmiş Millətlər Təşkilatına daxil olduğu gün	2 mart 1992
Müstəqil Dövlətlər Birliyinə daxil olduğu gün	19 sentyabr 1995
Avropa Şurasına daxil olduğu gün	17 yanvar 2001
Ərazi, min kv. km	86.6
Əhalinin sayı, min nəfər (2015-ci ilin əvvəlinə)	9593.0
1 km^2-ə düşən əhalinin sıxlığı, nəfər	111
Paytaxtı	Bakı
Dövlət dili	Azərbaycan
Pul vahidi	Manat
Manatın ABŞ dollarına kursu (01.02.2016)	1$=1.58 AZN
Siyasi quruluş:	
Dövlət Rəhbəri	Prezident
İnzibati ərazi vahidləri:	
Muxtar Respublika	1
Rayonlar	66
Şəhərlər	78
Şəhər rayonları	14
Qəsəbələr	261
Kənd ərazi dairələri	1727
Kənd yaşayış məntəqələri	4249

COĞRAFİ MƏLUMATLAR

ƏRAZİSİ	86.6 min km^2 (12% meşələr, 1.7% su hövzəsi, 54.9% yararlı torpaqlar, cümlədən 31.1 % otlaq və biçənəklə, 31.4% sair torpaqlar). Ölkə 44° və 52° şərq uzunluq dairəsi, 38° və 42° şimal en dairəsində, Bakı 40° paralel üzərindədir. Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə isə 4440 km-dir.
QONŞULARI	Dövlət sərhədləri Cənubdan İranla 765 km və Türkiyə ilə 15 km, şimaldan Rusiya ilə 392 km, şimali-qərbdən Gürcüstan ilə 471 km, qərbdən Ermənistan ilə 1007 km həmsərhəddir. Xəzər dənizinin Azərbaycan sektorunda ən enli sahəsinin uzunluğu 456 km-dir.
ƏN BÖYÜK GÖLLƏR	Sarısu - 67.0 km^2 Ağgöl - 56.2 km^2 Ağzıbirçala - 37.0 km^2 Mehman - 35.0 km^2 Böyükşor - 9.2 km^2 Hacıqabul - 8.4 km^2 **Dünyada ən böyük göl:** Xəzər dənizi - sahəsi 400000km^2, dərinliyi 1025m.
ƏN YÜKSƏK DAĞ ZİRVƏSİ	Bazardüzü - 4466 m.
ƏN BÖYÜK ADALAR	Pirallahı - 14.4 km^2 Çilov - 11.5 km^2 Xərə-Zirə - 3.5 km^2 Böyük-Zirə - 1.4 km^2
ƏN BÖYÜK ÇAYLAR	Kür – 1515 km Araz – 1072 km Alazan (Qanıx) – 413 km İori (Qabırrı) – 389 km Samur – 216 km Tərtər – 200 km

MÜNDƏRİCAT

GİRİŞ **1**

I FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATININ KEÇİD DÖVRÜ **5**

1.1. AZƏRBAYCAN MÜSTƏQİLLİKDƏN ƏVVƏLKİ DÖVRDƏ **7**

1.1.1. Sovet İttifaqı və İttifaqın Süqutu 7

1.1.2. Sovet İttifaqında dövründə Azərbaycan 10

1.2. MÜSTƏQİLLİKDƏN SONRA BİRİNCİ DÖVR (1991-1994) **12**

1.2.1. İlk Dövrlərdə Aparılan İslahatlar 14

1.3. MÜSTƏQİLLİKDƏN SONRA İKİNCİ DÖVR (1995-2003) **14**

1.3.1. İkinci Dövrdəki İslahatlar 21

1.4. MÜSTƏQİLLİKDƏN SONRA ÜÇÜNCÜ DÖVR (2003-Cİ İLDƏN SONRAKI DÖVR) **23**

1.5. KEÇİD DÖVRÜNÜN ÜMUMİ QİYMƏTLƏNDİRİLMƏSİ **24**

II FƏSİL. MAKROİQTİSADİ ANALİZ **28**

2.1. ÜMUMİ DAXİLİ MƏHSUL **29**

2.2. İNFLYASİYA **35**

2.3. MƏŞĞULLUQ **38**

2.4. ÖZƏLLƏŞDİRMƏ **42**

2.4.1. Dövlət-Özəl Sektor Müqayisəsi 45

2.5. DÖVLƏT BÜDCƏSİ **47**

2.6. VALYUTA SİYASƏTİ **51**

2.7. XARİCİ TİCARƏT **54**

2.7.1. Xarici Ticarətdə Əsas Ölkələr 57

2.7.2. MDB Ölkələri İlə Xarici Ticari Əlaqələr 59

2.8. XARİCİ BORCLAR **60**

2.9. ƏTRAF MÜHİT VƏ EKOLOGİYA **66**

2.10. ƏHALİ **68**

III FƏSİL. SEKTORLAR ÜZRƏ ANALİZ **70**

3.1. SƏNAYE **70**

3.1.1. Mədən Sektoru 74

3.1.2. Elektrik Enerjisi 75

3.2. KƏND TƏSƏRRÜFATI VƏ HEYVANDARLIQ **78**
3.2.1. Heyvandarlıq 92
3.2.2. Balıqçılıq 98
3.2.3. Arıçılıq 103
3.3. XİDMƏT SEKTORU **103**
3.3.1 Təhsil 103
3.3.2 Səhiyyə 107
3.3.3 Turizm 108
3.3.4. Maliyyə 112
3.3.4.1. Bank 112
3.3.4.2. Sığorta 121
3.3.4.3. Qiymətli Kağızlar Birjası 127
3.3.5. Nəqliyyat və rabitə 129
3.3.5.1. Dəniz Nəqliyyatı 130
3.3.5.2. Avtomobil yolu nəqliyyatı 133
3.3.5.3. Dəmir Yolu Nəqliyyatı 136
3.3.5.4. Hava Yolu Nəqliyyatı 138
3.3.5.5. Boru xətti nəqliyyatı 140
3.3.5.6. Rabitə 140
3.3.5.7. Yeni İpək Yolu Layihəsi 143
3.3.5.8. Şimal-Cənub nəqliyyat koridoru 147
3.3.6. İnşaat 147

IV FƏSİL. REGİONAL ANALİZ **151**
4.1. İQTİSADİ REGİONLAR **152**
4.1.1. Abşeron İqtisadi Regionu 152
4.1.2. Gəncə-Qazax İqtisadi Regionu 154
4.1.3. Şəki-Zaqatala İqtisadi Regionu 156
4.1.4. Dağlıq Şirvan İqtisadi Regionu 157
4.1.5. Aran İqtisadi Regionu 158
4.1.6. Naxçıvan İqtisadi Regionu 160
4.1.7. Lənkəran İqtisadi Regionu 161
4.1.8. Quba-Xaçmaz İqtisadi Regionu 163
4.1.9. Yuxarı Qarabağ İqtisadi Regionu 165
4.1.10. Kəlbəcər-Laçın İqtisadi Regionu 165
4.2. REGİONAL İNKİŞAF PROQRAMININ ZƏRURİLİYİ **166**
4.3. REGİONLARIN İNKİŞAF PROGRAMI (2004-2008) **168**
4.3.1. Proqramın Ümumi Hədəfləri 170
4.3.2. Proqramın Regional Hədəfləri 171
4.3.3. Proqramdan Sonrakı İnkişaf 173
4.3.5. Proqramdan Gözlənilənlər 176
4.4. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009-2013-CÜ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI PROGRAMI **177**
4.4.1. Dövlət Proqramının məqsədi, vəzifələri və regional inkişafın prioritet istiqamətləri 178
4.4.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri 192

4.5. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-Cİ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI PROGRAMI 192
4.5.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri 205

V FƏSİL. XƏZƏRİN ENERJİ EHTİYATLARI VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ 206
5.1. NEFT VƏ TƏBİİ QAZ POTENSİALI 206
5.2. NEFT VƏ TƏBİİ QAZ MÜQAVİLƏLƏRİ 207
5.2.1. Əsrin Müqaviləsi "Azəri-Çıraq-Günəşli" Yataqları Müqaviləsi 216
5.2.2. "Şahdəniz" Yatağı Müqaviləsi 220
5.2.3. Digər Müqavilələr 221
5.2.3.1. Dənizdəki yataqlar üzrə imzalanan müqavilələr 221
5.2.3.2. Sahildəki Yataqlarla bağlı Müqavilələr 224
5.3. NEFT VƏ TƏBİİ QAZ İSTEHSALI 228
5.4. NEFT VƏ TƏBİİ QAZ SEKTORUNA QOYULAN XARİCİ SƏRMAYƏLƏR 231
5.5. NEFT İXRAC MİQDARI VƏ GƏLİRLƏRİ 231
5.6. BORU XƏTTLƏRİ 235
5.6.1. Bakı- Novorossiysk Neft Boru Xətti 236
5.6.2. Bakı-Supsa Neft Boru xətti 236
5.6.3. Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti 237
5.6.4. Bakı-Tbilisi-Ərzurum Təbii Qaz boru kəməri 238
5.6.5.TANAP layihəsi və Onun Perspektivi 239

VI FƏSİL. İQTİSADİYYATDA "HOLLAND SİNDROMU" VƏ ONA QARŞI TƏDBİRLƏR 245
6.1 HOLLANDİYA XƏSTƏLİYİ 245
6.2. AZƏRBAYCANDA HOLLANDİYA SİNDROMU VƏ FƏSADLARI 247
6.3. HOLLANDİYA XƏSTƏLİYİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR 249
6.3.1. Dövlət Neft Fondu 249
6.3.1.2. Dövlət Neft Şirkətinin Özəlləşdirilməsi ya da Müstəqilliyi 254
6.3.2. Azad İqtisadi Zonaların Qurulması Fəaliyyətləri 255

VII FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ SİYASƏTİ 264
7.1. PUL SİYASƏTİ 264
7.2. MALİYYƏ SİYASƏTİ 272
7.3. VALYUTA KURSU SİYASƏTİ 281

VIII FƏSİL. AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA PROSESİ 291

8.1. İNTEQRASİYA SƏVİYYƏSİ 291

8.2. BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLARLA ƏLAQƏLƏR 292

8.2.1. BVF ilə Əlaqələr 294

8.2.2. Dünya Bankı ilə Əlaqələr 295

8.2.2.1. Çox Tərəfli İnvestisya Təminat Agentliyi (MİGA) ilə Əməkdaşlıq 299

8.2.2.2. Beynəlxalq Maliyyə Təşkilatı (IFC) ilə Əməkdaşlıq 299

8.2.3. Avropa Yenidən Qurma və İnkişaf Bankı ilə Əlaqələr 300

8.2.4. Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə Əlaqələr 301

8.2.5. Asiya İnkişaf Bankı ilə Əlaqələr 301

8.2.6. İslam İnkişaf Bankı ilə Əlaqələr 302

8.2.7. Almaniya İnkişaf Bankı ilə Əlaqələr 303

8.2.8. Qaradəniz Ticarət və İnkişaf Bankı ilə Əlaqələr 303

8.3.XARİCİ BORCUN MƏNBƏLƏR ÜZRƏ QURULUŞU 304

8.4. AVROPA BİRLİYİ İLƏ ƏLAQƏLƏR 304

8.4.1. TRACECA 304

8.4.2. TACIS 307

8.4.3. INOGATE 307

8.5. REGİONAL İQTİSADİ ƏLAQƏLƏR 308

8.5.1. Müstəqil Dövlətlər Birliyi 308

8.5.2. Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı 318

8.5.3. İqtisadi Əməkdaşlıq Təşkilatı 319

8.5.4. GU(Ö)AM 320

8.6. İNTEQRASİYADA YENİ MƏQSƏDLƏR 321

8.6.1. Dünya Ticarət Təşkilatına Üzvlük 321

8.6.2. "Türk İqtisadi İttifaqı" ya da "Avrasiya İqtisadi İttifaqı" Düşüncəsi 324

IX FƏSİL. AZƏRBAYCANDA XARİCİ SƏRMAYƏ QOYULUŞLARI VƏ SƏRMAYƏ POTENSİALI 326

9.1. XARİCİ SƏRMAYƏ QOYULUŞLARI 326

9.2. İNVESTİSİYA MÜHİTİ 333

9.2.1. İnvestisiya mühitində mənfi hallar 333

9.2.2. Aparılan Qanuni Tənzimləmələr 334

9.2.3. Müəsisələrin Hüquqi Qeydiyyat Müddəti 336

9.2.4. Mülkiyyət Hüquqlarının Mühafizəsi və Müqavilələrə Hörmət 338

9.2.5. Əqli Mülkiyyət Hüquqlarının qorunması 338

9.2.6. Özəl Sektora Dövlətin Maliyyə Yardımı 338

9.2.7. Tənzimləmə Sisteminin Şəffaflığı, Ümumi Standartların İdarəsi və Korrupsiyayla Mübarizə 339

9.2.8. Milli Tənzimləmələr 339

9.2.9. Milliləşdirmə 339

9.2.10. Gəlirin Köçürülməsi və ya Yenidən Plasmanı 340
9.2.11. Mübahisələrin Həlli 340
9.2.12. İkitərəfli İnvestisiya Müqavilələri 340
9.2.13. Sərmayəyə İştiraklar və Köməklər 341
9.2.14. Vergilər və Vergi Dərəcələri 341
9.3. İNVESTİSİYA POTENSİALI 343
9.4. İNVESTİSİYA VƏ TİCARƏT SAHƏLƏRİ 344
9.4.1. Kənd Təsərrüfatı və Qida 345
9.4.2. Kimya Sənayesi 345
9.4.3. Yüngül Emal Sənayesi 346
9.4.4. İnşaat və Turizm 346
9.4.5. Nəqliyyat 347

X FƏSİL. ÖLKƏ İQTİSADİYYATININ SWOT ANALİZİ 348
10.1. GÜCLÜ TƏRƏFLƏR 349
10.1.1. Makro İqtisadi Baxımdan Güclü Tərəflər 349
10.1.2. Sektoral və Regional Baxımından Güclü Tərəflər 350
10.1.3. İqtisadi Olmayan Güclü Tərəflər 352
10.2. ZƏİF TƏRƏFLƏR 352
10.2.1. Makro İqtisadi Baxımından Zəif Tərəflər 352
10.2.2. Sektoral və Regional Baxımından Zəif Tərəflər 354
10.2.3. İqtisadi Olmayan Zəif Tərəflər 355
10.3. TƏHDİDLƏR 356
10.3.1. İqtisadi Təhdidlər 356
10.3.2. İqtisadi Olmayan Təhdidlər 356
10.4. FÜRSƏTLƏR 357
10.4.1. İqtisadi Fürsətlər 357
10.4.2. İqtisadi Olmayan Fürsətlər 358
10.5. TƏKLİFLƏR 358

XI FƏSİL. AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ MÜNASİBƏTLƏRİ 362
11.1. İQTİSADİ MÜNASİBƏTLƏRİN HÜQUQİ TƏMƏLLƏRİ 362
11.1.1. Kənd təsərrüfatı Sahəsində Müttəfiqlik 363
11.1.2. Sənaye Sahəsində Müttəfiqlik 363
11.1.3. Standartlar Sahəsində Müttəfiqlik 363
11.1.4. Enerji Sektorunda Müttəfiqlik 364
11.1.4.1. Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti Layihəsi 364
11.1.4.2. Bakı-Tbilisi-Ərzurum Təbii Qaz Boru Xətti Layihəsi 365
11.1.5. Turizm Sektorunda Müttəfiqlik 365
11.1.6. Mədəncilik Sektorunda Müttəfiqlik 365
11.1.7. Təhsil Sektorunda Müttəfiqlik 365
11.1.8. Nəqliyyat Sektorunda Müttəfiqlik 366

11.1.9. Gömrük Müttəfiqliyi 366
11.1.10. Sosial Müdafiə Sahəsində Müttəfiqlik 366
11.1.11. Eximbank Krediti 366
11.1.12. Türk Müttəfiqlik və İnişaf Agentinin (TİKA) Fəaliyyətləri 367
11.2. TİCARƏT MÜNASİBƏTLƏRİ 368
11.3. TÜRKİYƏ İNVESTİSİYALARININ AZƏRBAYCANDAKI ÜSTÜNLÜYÜ 369
11.3.1. Türk İnvestisyalarının Sektoral Bölgüsü 370
11.3.2. Azərbaycan Türk Sənayeci və İşadamları Beynəlxalq Cəmiyyəti (TÜSİAB) 372
11.4. TÜRKİYƏDƏ AZƏRBAYCAN SƏRMAYƏSİ 373
11.5. YENİ DÖVR 373

XII FƏSİL. QLOBAL MALİYYƏ BÖHRANININ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ 378
12.1. QLOBAL MALİYYƏ BÖHRANI VƏ ONUN ORTAYA ÇIXIŞ SƏBƏBLƏRİ 378
12.2. MALİYYƏ BÖHRANIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ 379
12.2.1. İqtisadi böyüməyə təsiri 379
12.2.2. Neft və qeyri-neft sektoruna təsiri 380
12.2.3. Aqrar sektora təsiri 380
12.2.4. Ticarət sahəsinə təsiri 381
12.2.5. Azərbaycanın xarici dövlət borcuna təsiri 381
12.2.6. Tikinti sektoruna təsiri 382
12.2.7. Birbaşa investisiya təsiri 382
12.2.8. Dövlət büdçəsinə təsiri 384
12.2.9. Makroiqtisadiyyata təsiri 385
12.2.10. Mikroiqtisadi sistemə təsiri 386

NƏTİCƏ VƏ TƏKLİFLƏR 389
İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT 399
SPONSORDAN 411

GİRİŞ

Dünyada 1980-ci illərin ortalarından başlayaraq davam edən sosial və siyasi proses, SSRİ-nin dağılması, komunist partiyasının tarix səhnəsindən çəkilməsi və ittifaq üzvü respublikaların hər birinin müstəqil bir dövlət olmaları ilə nəticələndi. Dünyanın ən qədim ticarət və mədəniyyət mərkəzlərindən biri olan, 86.6 min kvadrat kilometr ərazisi və 9 milyondan artıq əhalisi ilə, Cənubi Qafqazın şərqində, Xəzər dənizinin sahilində yerləşən Azərbaycan ilk müstəqilliyini qazanan ölkələr arasında idi.

Azərbaycan 18 Oktyabr 1991-ci ildə öz müstəqilliyini elan etdi. Beləliklə, müstəqil bir dövlət olaraq Azərbaycan XX əsrin sonlarında tarix səhnəsində, beynəlxalq, iqtisadi və siyasi münasibətlərdə balanslaşdırıcı bir ölkə ünsürü olmağa başladı. Bu xüsusiyyət Azərbaycanın zəngin təbii sərvətləri və geosiyasi mövqeyindən qaynaqlanmaqdadır. Şimaldan Rusiya, Gürcüstan, cənubdan İran, qərbdən Ermənistanla dövlətlərlə sərhəd olan Azərbaycan, eyni zamanda Türkiyə vasitəsi ilə Qərbə meylli siyasi və iqtisadi inkişaf kursu həyata keçirən bir geosiyasi mövqeyi var. Bu siyasət Azərbaycanı bəzən qonşu dövlətlərin regionla bağlı münaqişə və mübahisələri ilə müşahidə olunan problemləri miras buraxmışdır.

Keçid dövrünü müəyyən problemlərlə yaşayan Azərbaycan üçün iqtisadi inkişafını həyata keçirərək, siyasi müstəqillik və stabillik əldə etməklə yanaşı, ölkənin iqtisadi müstəqillik və stabilliyə də tam olaraq nail olması vacib idi. Bunun üçün keçid dövrünü yaşayan digər ölkələrdə olduğu kimi, siyasi və sosial olduğu qədər, iqtisadi olaraq da qarşılaşılan problemlər aradan qaldırılması zəruri idi.

Qarşılaşılan problemlər daha çox struktur xarakteri daşıdığından, əvvəlcə ölkə iqtisadiyyatının özünü sərbəst idarə edə biləcəyi şəkildə yenidən qurulması lazım idi. Ölkədə iyirmi beş ildən artıq müddət ərzində qurulmağa çalışılan iqtisadiyyatın, liberal bir nöqteyi nəzərdən sərbəst bazar şərtlərinə görə yenidən qurulmasında uğur qazanmaq olmuşdur.

Yeraltı ehtiyatlar baxımından zəngin bir potensiala sahib olan Azərbaycanın, iqtisadi cəhətdən əsas zənginliyi, istehsalı, digər ehtiyatlara görə birinci yerdə olan enerji qaynağı olan neft və təbii qazdır. 2015-ci ildə ixracatının doxsan faizindən çoxunun energi daşıyıcılarının payına düşməsi bunun əyani sübutudur. Bu səbəblə struktur islahatlarının həyata keçirilməsində, sahib olunan enerji ehtiyatlarından maksimum dərəcədə istifadə edilməlidir.

Keçid dövründə dövlətin müdaxiləsi olmadan, sərmayə yığımına nail olmaq və sərmayənin ən məhsuldar sahələrə istiqamətləndirilməsi həyata keçirilə bil-

məz. Bu səbəblə stabilliyi əldə etməkdə sərbəst bazar iqtisadiyyatındakı "görünməz əl" lə yanaşı, ikinci bir "əl" olaraq dövlət də iqtisadiyyatda rol almaqdadır.

İqtisadi qərarları qəbul etmə və həyata keçirmə baxımından əhəmiyyət kəsb edən siyasi stabillik, Azərbaycanda Ümummlili Lider Heydər Əliyevin iqtidara gəlməsiylə əldə edilmişdir. Azərbaycandakı güclü iqtidar, iqtisadi inkişafın reallaşması üçün önəmli qərarlara imza atmışdır. Bu kurs 2003-cü ildə onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam edilməkdədir.

Sovet İttifaqının dağılmasından sonra Azərbaycan, imzaladığı müqavilələrlə həm siyasi müstəqillik, həm də iqtisadi inkişaf və müstəqillik baxımından tarixi bir fürsətdən istifadə imkanı əldə etmişdir. Heç təsadüfi deyildir ki, Azərbaycanın struktur islahatlarının həyata keçirilməsində ən əhəmiyyətli ünsür olan enerji ehtiyatları ilə əlaqədar önəmli müqavilələr də bu dövrdə imzalanmışdır. Neft müqavilələrində nəzərdə tutulan sərmayə qoyuluşu təxminən 60 milyard dollardır. Neft satışından əldə edilən gəlirlər isə, keçən dövr ərzində, bəzi sosial və iqtisadi problemlərin həllində mühüm rol oynamışdır. Respublikada yaradılan əlverişli iqtisadi mühit, o cümlədən, bu sahənin inkişafı üçün dövlət tərəfindən yaradılan optimal hüquqi-normativ bazanın formalaşdırılması nəticəsində, potensial investorların ölkəmizin neft və qeyri-neft sektorunun inkişafına yönləndirdikləri investisiyaların həcmində günbəgün artım müşahidə olunur. Bu artım təkcə özünü nəzəri cəhətdən deyil, həm də praktiki statistik göstəricilərdə də aydın şəkildə büruzə verir.

Son proqnoz göstəriciləri nəzərə alsaq, görərik ki, 20 sentyabr 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin bir hissəsini təşkil edən BTC boru kəmərinin istismarı nəticəsində özünün ən sürətli ödəmə müddətində, yəni 2005-2015-ci illərdə yüz mlrd. ABŞ dolları həcmində gəlir əldə edilməsibu sahədə əhəmiyyətli uğurdur. Bü illər ərzində Neft Fonduna yığılmış 115 milyard dollardan 80 milyard dollardan çox hissəsi iqtisadiyyatın müxtəlif sahələrinə və büdcə transferdlərinə xərclənmişdir. Neftin 1 barrelinin 30-60 dollar olacağı təqdirdə layihənin son tarixlərinə qədər, yəni 2029-2030-cu illərə qədər bu sahədə götürülən ümumi gəlir həcminin 140-160 mlrd. ABŞ dollarında olması proqnozlaşdırılır.

Bütün bunlarla yanaşı iri rəqəmlərlə ifadə olunan neft gəlirlərinin istifadəsi, onun əldə olunmasından daha vacib və aktual məsələdir. Əgər neftin tükənən sərvət olduğunu və paralel olaraq yaxın 40-60 ildə ölkədə yeni yataqların tapılmamayacağı təqdirdə onun tamamilə tükənmə təhlükəsi ilə qarşı-qarşıya qaldığını nəzərə alsaq, onda bugün büdcəmizə daxil olan hər neft manatından düzgün və məqsədyönlü şəkildə istifadə potensialı sahələrin dirçəlməsinə sərf edilməsi ən əsas vəzifə kimi qarşımızda durmaqdadır. Eyni zamanda 2014-ci ildən neft qiymətinin ciddi şəkildə azalması bütün neft ixrac edən ölkələr kimi Azərbaycan iqtisadiyyatına da çox ciddi mənfi təsir göstərmişdir.

Azərbaycanın yerləşdiyi əlverişli coğrafi, mövqeyi və təbiət şəraiti, zəngin yeraltı və yerüstü sərvətləri burada xalq təsərrüfatının istənilən sahəsinin formalaşdırılması və inkişafına geniş zəmin yaradır. Hazırda mütəxəssislər tərəfindən Azərbaycanın inkişafına daha çox diqqət yetirilməli, prioritet sahələrinin sənaye, informasiya texnologiyaları, aqrar sektor, ticarət və xidmət, tikinti, nəqliyyat, rabitə sahələri kimi təsnifləşdirilməsi heç də təsadüfi deyildir.

Ümumiyyətlə, sahəvi təhlil nəticəsində yuxarıda göstərdiyimiz başlıca sahələrin hazırki və perspektiv inkişaf xarakteri daha maraq doğurandır. Belə ki, Azərbaycanın inkişaf potensialı qeyri-neft sənaye sahələri içərisində maşınqayırma və metal emalı sənayesi, elektroenergetika, elektronika, yüngül və yeyinti, turizm sənayesi və son zamanlar inkişafına xüsusi diqqət yetirilən və bizim üçün heç də ənənəvi olmayan kosmik sənaye sahəsinin inkişafı hazırki iqtisadi inkişaf tempi üçün daha məqsədə uyğundur. Bunlardan əhəmiyyət sırasına görə kənd təsərrüfatı, turizm, energetika, maşınqayırma və metal emalı sənayesi, yeyinti və yüngül sənaye sahələridir.

Başqa bir perspektiv inkişaf potensialı qeyri-neft sektoru kimi turizm xüsusən vurğulanmalıdır. Son statistik göstəricilər də bu sahədə ciddi irəliləyişin mövcud olduğunu ifadə edir. Belə ki, təkcə 2015-cü ildə respublikaya xarici turist axını 2,2 mln. nəfər səviyyəsində qiymətləndirildi ki, bunların da əsas hissəsi MDB, Türkiyə, Böyük Britaniya, ABŞ, Pakistan və Almaniyadan gələn turistlərin payına düşür. Bir digər perspektiv vəd edən sahə kimi insan kapitalının inkişafına yönəldilmiş müxtəlif fəaliyyətlərdir. Müasir dövrdə ölkələrin mövqeyi intellektual potensilla müəyyən olunur. ÜMM-nin artımının 40%-ə qədərini inkişaf etmiş ölkələr effektiv təhsil siteminin inkişafı hesabına əldə edirlər. Təhsilin inkişafına qoyulmuş investisiyalar inkişaf kapitalına qoyulan sərmayenin əsas istiqamətlərindəndir. Ümumiyyətlə, təhsilin inkişafına qoyulan investisiya iqtisadi nöqteyi nəzərdən özünü daha tez doğruldur. Amerika alimlərinin hesablamalarına görə təhsil sisteminə çəkilən 1 dollarlıq xərc, 3-6 dollara qədər gəlir əldə etməyə imkan verər. Ona görə də mahiyyət etibarı ilə iqtisadi və sosial inkişafın tərkib hissəsi olmaqla cəmiyyətin məhsuldar qüvvələrinin formalaşdırılmasında iştirak edən və insanın özünün davranışına zəmin yaradan təhsil sahəsinin davamlı inkişaf etdiriməsi vacibdir. Azərbaycanda yaşlı əhalinin savadlılıq əmsalı, xüsusilə, orta və ali təhsilli işçilərin sayı, 10.000 nəfərə düşən tələbələrin sayı, müəllimlərin sayı və s. göstəricilər ölkəmizin hələ ki, savadlılıq səviyyəsi yüksək ölkələrdən biri olduğunu təsdiqləyir. Ancaq, müxtəlif təhsil növləri tərəfindən yaradılan sosial irəliləyiş imkanları azalmağa başlamışdır. Gənclərin təhsili ilə onların əməyini məzmununun və xarakteri arasında uyğunsuzluq yaranmışdır. Təhsilin və qabiliyyətlilərin tələbatdan kənarda qalması, gənclərin şüurunda təhsilin devalvasiyasına səbəb olmuşdur.

Təhsil sahəsi ilə yanaşı insan kapitalının formalaşmasında elmin də böyük yolu vardır. 2015-ci il statistikasına əsasən il ərzində Azərbaycanda elmə ayrılan vəsaitin həcmi 124,2 milyon manat olmuşdur.

Bu baxımdan elmə ayrılan vəsaitlərin azlığı insan kapitalının inkişafı, başqa sözlə, yüksək ixtisaslı kadrların hazırlanmasına və xarici ölkələrdə kadrların potensiallıq səviyyəsinin artmasına mənfi təsir göstərir.

Nəticədə onu vurğulamaq yerinə düşər ki, müasir inkişaf pirinsiplərinə görə inkişaf etmiş dövlət elə bir dövlətdir ki, o, özünün bütün iqtisadi-sosial və mədəni-ictimai sferalarında maksimum tərəqiyyə nail olsun. Bu prinsipi əlində rəhbər tutan ölkələr bu yolda tez-tez ciddi siyasi və iqtisadi manelərlə qarşılaşır. Lakin bu ünsürlər iqtisadi inkişafın nişanələridir. Mühüm olan isə belə çətinliklərdə büdrəməmək üçün düzgün inkişaf strategiyası seçməkdir. Mövcud reallıqlara əsaslanaraq demək olar ki, seçilmiş inkişaf strategiyası heç bir çətinliyə baxmayaraq inkişaf etmiş və güclü Azərbaycana doğru inamla aparır.

Bu kitabda elmi tədqiqatçı nəzər nöqtəsindən keçid dövrü yaşayan Azərbaycan iqtisadiyyatının ümumi xarakteristikası, makroiqtisadi, sektorlar üzrə və regional analizi, iqtisadi siyasəti, beynəyxalq iqtisadi sistemlərlə inteqrasiya prosesi, xarici investisiya səviyyəsi ilə investisiya mühiti və investisiya imkanları tədqiq ediləcəkdir.

BİRİNCİ FƏSİL

AZƏRBAYCAN İQTİSADİYYATININ KEÇİD DÖVRÜ

Qədim dövrlərdə və Orta əsrlərdə ölkələr arasında iqtisadi əlaqələr Aralıq dənizi və Qara dəniz sahillərindəki başlıca ticarət mərkəzləri vasitəsilə həyata keçirilirdi. Asiyanın daxilindən, Çin və Hindistandan Aralıq dənizi və Qara dəniz sahillərinə uzanan başlıca karvan yolları, xüsusilə "Böyük İpək Yolu" Azərbaycan torpaqlarından keçirdi. Şərqi Avropanı (Rusiya daxil olmaqla) və Volqa sahilini, Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaz, İran və Mərkəzi Asiyaya bağlayan məhşur karvan yolu da yenə Azərbaycandan keçirdi. Beləliklə, ölkə daxilindən keçən beynəlxalq karvan yolları dünya dövlətlərinin diqqətini qədim zamanlardan bəri Azərbaycana yönəltmişdi. Azərbaycan, sanki Qərb ilə Şərq arasında "qızıl körpü" rolunu oynayırdı.

Belə bir coğrafi mövqeyə sahib olması səbəbi ilə Azərbaycan XIX əsrin əvvəllərində, 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri ilə Şimali Azərbaycan və Cənubi Azərbaycan olmaq üzrə iki yerə parçalanaraq, Rusiya və İran tərəfindən bölüşdürüldü. 1917-ci il bolşevik inqilabından sonra, 28 May 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadənin başçılığı altında qurulan və Türkiyə tərəfindən də dərhal tanınan Azərbaycan Demokratik Respublikası, təəssüflər olsun ki qısa ömürlü oldu. 1920-ci il Aprelin 27-dən 28-nə keçən gecə ruslar tərəfindən işğal olunaraq Azərbaycanın iki illik müstəqilliyi tarixə qovuşdu. Azərbaycan 1922-ci ildə Sovet Sosialist Respublikası birliyinə daxil olmuş, 1936-cı ildən sonra isə "Azərbaycan SSRİ" adını almışdır. Nəhayət, Sovet İttifaqı tərkibindəki Şimali Azərbaycan, Sovet İttifaqı dağıldıqdan sonra 1991-ci ildə yenidən müstəqilliyinə qovuşmuşdur.

1980-ci illərin sonunda Mixail Qorbaçov tərəfindən həyata keçirilən "qlasnost" siyasəti nəticəsində çökən SSRİ-nin dağılması ilə, Azərbaycan 1920-ci ildə çiçəklənə bilməyən müstəqilliyini təkrar əldə etdi. Azərbaycan Milli Məclisi 31 avqust 1991-ci ildə ölkənin müstəqilliyini elan etmiş, 18 oktyabr 1991-ci ildə isə Məclis Müstəqillik Aktını qəbul etmişdir.

Müstəqilliyini əldə edən Azərbaycan, sadəcə Sovet imperyalizmindən yaxa qurtarmadı, eyni zamanda totalitar Sovet rejimindən, utopik komunist ideologiyasından və hərbi sənaye kompleksinə xidmət edən bir iqtisadi strukturdan da yaxa qurtarmış oldu.

Azərbaycanın iqtisadi inkişafına və dünya iqtisadiyyatına inteqrasiyasına xidmət edən ən qiymətli milli sərvəti, Azərbaycan Respublikasının yenidən müstəqil bir dövlət olaraq dünya dövlətləri sırasında daxil olmasıdır, çünki,

Azərbaycan xalqı sadəcə müstəqil dövlətə sahib olmaqla tarixinin, taleyinin, milli mənsubiyyətinin və zəngin təbii ehtiyatlarının sahibi olaraq iqtisadiyyatını inkişaf etdirə bilərdi.

Bugün Azərbaycan Respublikası tam müstəqildir, ərazisində heç bir xarici ölkənin ordusu yoxdur, bundan əlavə millətin və ölkənin strateji problemlərinin milli mənfəətlər çərçivəsində həlli dövlət orqanlarının səlahiyyətindədir.

Əlbəttə, siyasi müstəqilliyin qazanılması milli iqtisadiyyatın formalaşmasında başlıca rol oynayır. Ancaq, ölkənin sosial-iqtisadi vəziyyətini qiymətləndirən göstəricilər müstəqilliyi dəyərləndirmək üçün əsas olmamalıdır.

İqtisadi inkişaf və dünya iqtisadiyyatına inteqrasiya baxımından ikinci amil, Azərbaycanın iqlim şərtləri ilə coğrafi şərtləri və mövqeyidir. Dünyanın on bir iqlim qurşağından doqquzu Azərbaycanda müşahidə edilir. Kənd təsərrüfatı və turizmin inkişafına geniş imkanlar açacaq şəkildə əlverişli coğrafiyaya, münbit torpaq ərazilərinə, uzun sahil zolağına, geniş otlaqlara, meşələrə və gözəl iqlim şəraitinə sahibdir.

Coğrafi mövqeyi ilə, Yeni İpək Yolu lahiyəsi adlandırılan yolun keçid trayektoriyasında olmasıyla bərabər, Orta Asiya və Xəzər enerji ehtiyatlarının dünya bazarına daşınmasının həyata keçirilməsi məqsədi ilə bəhs edilən kəmərlərin keçid xətti də Azərbaycan ərazisindən keçir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi Avropa və Asiya ölkələri arasında iqtisadi və siyasi əlaqələrin genişləndirilməsində tarix boyunca mühüm rol oynamışdır. Müstəqilliyini qazanaraq Birləşmiş Millətlər Təşkilatının üzvü olan və dünya ölkələri ilə siyasi, sosial və iqtisadi olaraq müstəqil əlaqələr quran Azərbaycanın geosiyasi mövqeyinə hal-hazırda da böyük əhəmiyyət verilir.

Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan, tədricən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini yaratmaq və tarixdə olduğu kimi güclü kommunikasiya mərkəzinə çevrilmə imkanına sahibdir.

İqtisadi inkişafı reallaşdırmaqda, üçüncü amil isə təbii ehtiyatlar baxımından Azərbaycanın əhəmiyyətli ehtiyatlara sahib olmasıdır. Təbii ehtiyatlar ilə zəngin olan Azərbaycanda qurğuşun, sink, mis, dəmir mədəni, barıt, kobalt, mərmər, əhəng, mədən suyu, mədən duzu və qaya duzu ehtiyatlarlar arasında diqqət çəkir. Az miqdarda qızıl və gümüş kimi dəyərli mədənlər də vardır[1].

Azərbaycanın ən mühüm təbii zənginliyi isə, istehsalı digər qaynaqlara görə birinci sırada olan neft və təbii qazdır. Azərbaycanda neftə Xəzər Dənizində, Xəzər Dənizinə uzanan Abşeron yarımadasında, Kür sahili ərazilərdə, Qobustan bölgəsində və Gəncə yaxınlığındakı ərazilərdə rast gəlinir. Neftin böyük bir qismi Xəzər dənizindən əldə edilir. Ticari istehsala başlandığı 140 ildən artıq bir müddətdə çox mühim bir rol oynayan neft, Azərbaycanın müstəqillik qazanma-

[1] Məhəmmədhəsən Vəlili, *Azərbaycan*, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993, s.131.

sından sonra da ölkənin başlıca valyuta mənbəyi və ixrac qabiliyyətinin vacib qaynağı vəziyyətindədir.

Keçid dövründə iqtisadi inkişafın reallaşmasında yuxarıda ifadə edilən amillərə sahib olan Azərbaycanın iqtisadi inkişafı müstəqillik qazandıqdan bu tarixədək üç başlıca dövrdən ibarətdir. Azərbaycanın müstəqillik qazanmadan əvvəlki dövr, ilə bir-birindən seçilən üç başlıca dövr olaraq, müstəqillik sonrası keçid dövrü aşağıda təhlil olunmuşdur.

1.1. AZƏRBAYCAN MÜSTƏQİLLİKDƏN ƏVVƏLKİ DÖVRDƏ

1.1.1. Sovet İttifaqı və İttifaqın Süqutu

XVIII əsrin əvvəlindən bəri Sovet xalqları, Böyük Pyotr, Lenin və Qorbaçovun adıyla birgə çəkilən, üç böyük sosial-iqtisadi dövr yaşamışdır. Pyotr ilə birinci keçid dövrünü yaşayan Sovet xalqları baxımından ikinci vacib böyük keçid dövrü 1917-ci il inqilabıdır. İlk dəfə 1905-ci ildə baş verən inqilab 1917-ci ildə də çar imperiyasını yerləbir etdi. Qısa bir müddət sonra bolşeviklər inqilabı dəstəklədilər və ruslar demokratiya ilə bazar iqtisadiyyatını rədd etməyə məcbur oldu[2]. Kapitalizmin daha yeni inkişafa başladığı Sovet İttifaqında, siyasi mexanizmaya hakim olan "intellektual" güclər mərkəzi planlamaya əsaslanan iqtisadi təşkilat modeli olan sosializmi tətbiq etməyə başladılar. Beləliklə, yarım əsrdən artıq bir müddət ərzində, ruslar özlərini və dünyanın altıda birini əhatə edən hissəsini totalitar diktatorluq və mərkəzi planlama sistemində kütləvi şəkildə bir təcrübəyə tətbiq edərkən, beynəlxalq və milli sərhədlər ilə milli mənsubiyyətlər də müxtəlif formalarda Sovet İttifaqı tərəfindən istiqamətləndirilən Leninist rejimdən meydana gələn bir dünyanın varlığına görə formalaşdırılmağa çalışıldı[3].

Sovet İttifaqı 1985-ci ildən etibarən, yetmiş ildən artıq bir müddət əvvəl qədəm qoyduqları və öz inkişaf və tərəqqi taleyini həll edəcək yol ayrıcına yenidən gəlmiş, yeni bir tarixi dövrə başlamış oldu. Həm bir idarə forması, həm də güclü idealogiyaya sahib bir sistem və siyasi cazibə istiqaməti olan Marksizm-Leninizmin çöküşünə şahid olundu. Tarixin təbii inkişaf seyri və dialektik nəzəriyyə sosializmi kökündən sarsıtdı, Maksist-Leninist təlimini həyatla və həqiqətlə əlaqəsi olmayan bir sistem olaraq rədd etdi. Bu vəziyyət dünyanın altıda birini əhatə edən, azad dünyanı daima narahat edən və qorxuya salan totalitar Sovet İttifaqında da hiss edilməyə başladı.

Sosialist sistemin sadəcə sənayeləşmə müddətində uğurlu ola bildiyi Sovet İttifaqında, müəyyən zaman ərzində iqtisadiyyatda ortaya çıxan həddindən artıq

---

[2] Daniel Yergin– Thane Gustafson, *Rusiya 2011 və Dünyadakı Yeri*, (Çev: Özden Arıkan), Sabah Yayınları, İstanbul, 1994, s.1.

[3] Ken Jowitt, "Yeni Dünya Düzensizliği", (Çev: Levənt Köker), *Demokrasinin Küresel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, s.303.

məşğulluq, yeni texnika istehsal etməməsi, işsizliyə səbəb ola biləcəyi narahatçılığı ilə yeni texnologiyanın idxal edilməməsi, müəssisə idarə və təşkilatçılıqda uğursuzluq kimi səbəblərlə iqtisadiyyat durğunluğa girmişdir. Keyfiyyətsiz mal istehsalı ilə, iqtisadi artım görünsə də, əslində baş verən hadisə satılmayan malların miqdarının artmasıydı. İstehsal alətlərindəki kollektiv mülkiyyət, həvəsləndirməni (motivasiyanı) aradan qaldırmış və bu vəziyyət iqtisadiyyatda məhsuldarlığı böyük ölçüdə aşağı salmışdı. İqtisadiyyatda rəqabətin olmaması və inkişaf strategiyasının bağlı bir iqtisadi modelə əsaslanması, müəssisələri texnologiya baxımından geridə qalmağa məcbur etmişdir. İstehlakçı seçimlərini və qaynaqların yoxsulluq dərəcəsini göstərməyən idari qiymət sistemi qaynaq paylanmasını pozmuş, qara bazarı, sui istifadəni və israfı böyük miqdarda artırmışdı. Məhsuldarlığın ön plana çıxdığı dünyada sosializmin tıxanması və mərkəzi planlamanın natamam olmasıyla iqtisadi müvazinətin pozulması müşahidə olunmağa başladı. ABŞ ilə silah yarışına girilməsi isə investisiyaya mənfi təsir göstərərək, kənd təsərrüfatı sektorunda və istehlak malları istehsalında tənəzzülə səbəb olmuşdur[4]. Nəticədə, fəza yarışlarına qatılan bir cəmiyyət minimal həyat tərzindəki bir həyat səviyyəsindən belə məhrum qalmışdır.

Belə bir şəraitdə, Sovet İttifaqı sistemi, davam edən sosial-iqtisadi durğunluqla islahat arasında bir seçimlə qarşı-qarşıya qalmışdı. Ancaq mütəvazi islahatlar durğunluğu dayandıra bilməmiş, daha köklü bir islahatın da, kommunist sistemini böyük ölçüdə zəiflətmədən keçirilməsinin mümkün olmadığı reallığını ortaya çıxmışdı[5]. Çernenkonun vəfatından sonra 1985-ci ilin mart ayında yerinə keçən və ən az Pyotr qədər səbrsiz və iddiaları olan Mixail Qorbaçov, Sovet iqtisadiyyat sisteminin təşəbbüs ruhunu öldürdüyünü, işləməyə deyil, tənbəlliyə təşviq etdiyini, bu səbəblə iqtisadi cəhətdən inkişafın mümkün olmadığını əsas alaraq, Komunist Partiyasının 1986-cı ilin fevralındakı plenumunda dilə gətirdiyi, *Qlastnost* və *Perestroika* siyasəti ilə sosialist dünyasının XXI əsrin başlanğıcında ciddi dəyişiklik ehtiyacını təmin etməyə çalışmışdı. Bu siyasətlə iqtisadi cəhətdən dünyaya açıq sərbəst bazar iqtisadiyyatı, siyasi cəhətdən isə plüralist demokratiya nəzərdə tutulmuşdu:

> ***"Perestroyka**, bəzi etiraslı şəxslərin və ya bir liderlər qrupunun ağlına gələn bir həvəs deyildir. Sosialist cəmiyyətimizdə dərin tərəqqi yoluna əsaslanan təxirə salınmaz bir zərurətdir. Bu cəmiyyət yenidən qurma üçün təkmilləşmişdir. Uzun müddətdir yenidən qurmanın həsrətini çəkməkdəydi. Perestroykanı başlatmaqdakı hər hansı bir gecikmə yaxın gələcəkdə, açıq danışmaq lazım gələrsə, ciddi sosial, iqtisadi və siyasi*

[4] İsmail Özsoy, *Dağıstan'ın Sosyo-İqtisadi Tarihi*, Kaynak Yayınları, İzmir, 1997, s.246;
İsmet Ergün, "Kollektivist Bir Sistemde Piyasa Ekonomisine Geçiş Sorunları", *Türkiye Modeli və Türk Kökenli Cumhuriyetlerle Eski Sovyet Halkları*, Yeni Forum Yayınları, Ankara, 1992, s.109; Yergin–Gustafson, ss. 22-23.

[5] Marc F Plattner, "Demokrasi Anı", (Çev: Ergun Özbudun), *Demokrasinin Küresel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, s.55.

böhranlarla yüklü çox şiddətli bir vəziyyətə yol aça bilərdi. "Kapitalizmdən sosializmə keçmək asandır. Yumurtaları qırıb qayğanaq bişirməyə bənzəyir. Amma sosializmdən kapitalist bir rejim hasil etmək asan deyildir. Qayğanaqdan çiy yumurta çıxarmağa çalışmaq mənasına gəlir."[6]

Qorbaçov da Çinli dostları kimi, bazar mexanizmasının kapitalizm ilə müqayisə edilməsinə qarşı çıxır, bazar kollektivinin sosialist (marksist) nəzəriyyəsini çürütməyəcəyini irəli sürürdü. Bəzi başlıca dəyərlərdən böyük qurbanlar verməmək şərtiylə, sərbəst bazar sisteminin sosialist cəmiyyətinə uyğunlaşdırmasına cəhd edilmiş və bunun cəmiyyətin təbiətini dəyişdirməyəcəyi düşünülmüşdür[7].

Beləliklə, Sovet xalqları, həyata keçirilməsi asan olmayan, üçüncü böyük sosial islahat dalğasına da məruz qalmış oldular. Üçüncü keçid dövründə Rusiya diktatorluqdan demokratiyaya, mərkəzdəki planlama ilə məşğul olan şəxslər tərəfindən idarə olunan və pulun həqiqi mənada, rol oynamadığı planlı iqtisadiyyatdan sərbəst bazar iqtisadiyyatına və dört əsrlik bir imperatorluqdan sivil dövlətə keçid kimi, eyni anda çox çətin üç keçidi birdən həyata keçirməyi vacibləşdirən çox ağır bir gündəliklə qarşı qarşıya qaldı:

Perestroyka və Glastnost siyasətinin təsiri ilə 1986-cı ildə liberal iqtisadi məfhumlar istifadə olunmağa başlanmış, 1988-ci ildə bazar, mülkiyyət, işsizlik kimi məfhumlar müzakirə olunmağa başlanmışdır. Beləliklə, özəl təşəbbüs formlarının qanuniləşdirilməsi baxımından radikal addımlar atılmışdır. 1991-ci ildə mülkiyyət haqları tanınmışdır. Ailə fermalarının qurulması, fabriklərin işçilərə verilməsi, səhmlərin çıxarılması, Qərbli firmalarla müştərək təşəbbüslərin qurulması qəbul edilmişdir[8].

Qorbaçova görə, sosializmin və sosialist dəyərlərin yox olması mənasına gəlməyən Perestroika və Glastnost siyasətləri gözlənilməz nəticələr doğurmuşdur. Sovet xalqlarının milliyətçilik duyğuları iqtisadi cəhətdən rifahdan əvvəl müstəqilliyini düşünəcək şəkildə hərəkətə keçmişdir. Beləliklə, 1990-cı ildə edilən konstitusiya dəyişikliyi ilə Nazirlik sisteminə keçilmişdir. 5 Fevral 1991-ci ildə konstitusiyada edilən dəyişikliklə Komunist Partiyasının hakimiyyətinə son verilərkən, ölkənin fəlakətə sürüklənməsinin qarşısını almaq üzrə[9], Marksist-Leninistlərin vurduqları zərbə təşəbbüslərinin uğursuzluqla nəticələnməsinin ardınca, Komunist Partiyası ləğv edildi. 21 dekabr 1991-ci ildə isə, Alma-Atada

---

[6] Mikhail Gorbachev, *Perestroika: New Thinking for Our Country and the World*, New York, 1987, s.17'den naklen Mustafa Özel, *Değişim və Kriz*, İz Yayıncılık, İstanbul, 1994. s.120.

[7] Özel, s.114.

[8] İlhan Uludağ–Salih Mehmedov, *Sovyetler Birliği Sonrası Bağımsız Türk Cumhuriyetleri və Türk Gruplarının Sosyo-İqtisadi Analizi Türkiye İlişkiləri*, TOBB Yayınları, İstanbul, 1992, s.28.

[9] Charles S. Fairbanks, "Moskova Darbesinden Sonra", (Çev: Levənt Köker), *Demokrasinin Küresel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, s.333.

keçirilən zirvə ilə Müstəqil Dövlətlər Birliyi rəsmi olaraq elan edilərkən, SSRİ də dağılmış oldu[10]. Digər tərəfdən də "Proletaryat diktatorluğu"ndan, "qabaqcılar partiyası"ndan, "düz xətt "dən və "demokratik mərkəziyətçilik"dən bəhs edilmədən təsəvvür edilməyəcək "Leninizmin yox oluşu" ilə ittifaqda, dünya üzərində ölkələrin uzun müddətdir istifadə etdikləri geosiyasi referans da çərçivəsini dəyişmiş oldu[11].

1.1.2. Sovet İttifaqı dövründə Azərbaycan

Sovet İttifaqı dövründə, bu ölkənin bir alt qurumu səciyyəsini daşıyan Azərbaycanın iqtisadi təşkilat forması və idarə etmə mexanizması ittifaqın iqtisadi strategiyası əsasında formalaşmışdı. Sənaye strukturları bütövlükdə Sovet İttifaqının ehtiyacına görə qurulmuş, böyük müəssisələrdən meydana gəlmişdir. Sovet İttifaqında mərkəzi planlama istiqamətində ölkələr arasında ixtisaslaşma və iş bölümü aparılmışdır. Bu çərçivədə Azərbaycan iqtisadiyyatının təkan verici motor gücü xüsusiyyətindəki sənayesi keçmişdən bəri neft sənayesi olmuşdur. İxracın, əsasən, distillə edilmiş neft məhsulları, maşınqayırma və toxuculuq məhsullarıyla, şərabdan ibarət çox əhəmiyyətli bir hissəsi Rusiya və Ukrayna kimi digər respublikalarla reallaşdırılarkən, idxalın da böyük qismi yenə bu respublikalardan alınan qida məhsullarıyla, emal edilib yenidən ixrac edilmək üzrə idxal edilən xam neft məhsullarından formalaşırdı[12].

Hələ Sovet İttifaqı dağılmazdan əvvəl, mütəxəssislər siyasi müstəqilliyə iqtisadi baxımdan hazır olan iki respublikadan birinin Azərbaycan olduğunu qeyd edirdilər. Əlbəttə, bu dəyərləndirmə, ölkənin sadəcə təbii ehtiyatlarının zənginliyinə deyil, ölkə iqtisadiyyatının inkişaf perspektivinə də əsaslanırdı. Belə ki, Azərbaycanın büdcə gəlirləri, xərclərindən çox idi. Hasil edilən milli gəlir, istifadə olunan milli gəlirdən yüksək olurdu[13].

İqtisadi göstəricilər nəzərə alındıqda Sovet İttifaqı dövründə Azərbaycanın müəyyən bir inkişaf səviyyəsinə çatdığı nəzərə çarpır. Ancaq, bu dövrdə Azərbaycanın itirdikləri qazandıqlarından daha çox olmuşdur. Belə ki, bu dövrdə iqtisadiyyatın planlamasının mərkəzdən edilməsi, ölkənin iqtisadi şərtlərinin nəzərə alınmaması nəticəsini ortaya çıxardırdı. Bir çox məhsul ya xammaddə, ya da ara məhsul olaraq ayrı-ayrı ittifaq üzvü respublikalara ucuz qiymətə satılır, daha sonra da hazır məhsul olaraq yüksək qiymətdən Azərbaycana gəlirdi. Digər tərəfdən Azərbaycanın hər zaman ölkəyə gəlir gətirən neft və neft məhsulları, pambıq, tütün, şərab kimi məhsulların ixracatçısı olmasına baxmayaraq,

---

[10] Atila Artam, *Türk Cumhuriyetlerinin Sosyo İqtisadi Analizleri və Türkiye İlişkiləri*, Sabri Artam Vakfı Yayınları, İstanbul, 1993, s.4,13; Uludağ–Mehmedov, s.26.

[11] Jowitt, s.303-308; Plattner, s.59.

[12] Azerbaijan, IMF Economic Review, Washington DC, May, 1992, s.3

[13] Azər Əmiraslanov, "Dövlət Müstəqilliyi və Milli İqtisadiyyatın Formalaşması Problemləri", *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr 2001, ss.50-52.

bu məhsulların satışından əldə edilən gəlirlər ittifaq daxilində tək bir mərkəzdə toplandığı üçün, Azərbaycan öz sərvətlərində mülkiyyət haqqına sahib deyildi[14].

Azərbaycan iqtisadiyyatı Sovet İttifaqı tərkibində yüksək, ancaq, düzgün qiymətləndirilməyəcək bir inkişaf səviyyəsinə çatmışdı. Müstəqilliyi qazanmazdan əvvəl, son iyirmi illik dövrdə, Azərbaycan iqtisadiyyatının inkişafı stabil bir dövr keçməmişdir. Məsələn, ölkədə 1960-70-ci illərdə ortalama iqtisadi artım tempi nisbəti 5.2% ikən, 1970-80-ci illər arasında 7.4%-ə yüksəlmişdir. 1980-1990-cı illər arasında isə bu nisbət kəskin bir azalma trendi göstərmişdir. İqtisadiyyat 1981-85-ci illərdə ortalama 4.9%, 1986-1990-cı illərdə isə 5-6% nisbətində azalma göstərmişdir. Xüsusilə, təbii ehtiyatların, ucuz və bol əməyin daha sıx istifadəsinə əsaslanan enerji sektoru kimi sahələrə üstünlük verilməsi, iqti-sadi strukturda böhran üçün əlverişli şərait yaratmışdır.

Yuxarıdakı analiz nəzərə alındıqda Sovet İttifaqının dağılmasının, sadəcə siyasi deyil, iqtisadi şərtlərdən də qaynaqlandığını görürük. Ayrı-ayrı respublikalardan təşkil olunan bir ittifaqın idarəsi sosial-iqtisadi inkişafı reallaşdırmaq baxımından ciddi problemlər törədirdi. Dünya iqtisadiyyatından təcrid olan Sovet iqtisadiyyatının mövcud vəziyyəti, nəinki inkişaf etmiş ölkələrdən, hətta inkişaf etməkdə olan ölkələrdən belə geridə qalırdı[15].

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın müstəqilliyinə yenidən qovuşması ilə nəticələnən planlı iqtisadiyyatın Azərbaycan iqtisadiyyatına miras qoyduğu problemlər aşağıdakı şəkildə sıralana bilər[16]:

1.İqtisadi strukturun sağlam olmaması.

2.İstehsal gücünün regional və sektoral bölgüsünün bərabər olmaması.

3.İstehsal edilən malların həm keyfiyyətinin aşağı olması, həm də adam başına düşən miqdarın Sovet İttifaqından iki qat az olması. 1990-cı illərin əvvəllərində Azərbaycanda istehlakın sadəcə 50%-i daxili istehsaldan əldə edilmişdir.

4.İqtisadi strukturun sağlam olmaması nəticəsində Azərbaycanın xarici ticarətində 1980-ci illərin sonlarında ixrac idxaldan 30-40% artıq olmuşdur. İqtisadi cəhətdən müsbət qiymətləndirilməli olan bu vəziyyət, ölkənin ərazi və coğrafi quruluşunun uyğun olmaması baxımından arzu edilməz bir vəziyyət idi. Belə ki, xammal və ara malların ixracın 55-60%-ni təşkil etməsi, ümumilikdə isə idxal və ixracın 45-50%-nin Rusiya ilə həyata keçirilməsi, daha sonra iqtisadi inkişafın ləngiməsinə səbəb olmuşdur.

Azərbaycanın yenidən siyasi müstəqillik qazanmasının, Sovetlər İttifaqı dağılmazdan əvvəl Azərbaycan iqtisadiyyatında baş verən mənfi halların nəticəsi olan iqtisadi böhranın dərinləşdiyi bir dövrə rast gəldiyi nəzərə çarpır.

---

[14] Əmiraslanov, ss. 53-54.

[15] Əmiraslanov, s. 55.

[16] Rasim Həsənov, "Azərbaycanın İqtisadi İnkişaf Paradiqması və İqtisadi Təhlükəsizlik Konsepsiyasının Seçimi", *Məşvərət Bülleteni*, No:7(43), Bakı, Oktyabr-2001, ss. 6-8.

1.2. MÜSTƏQİLLİKDƏN SONRA BİRİNCİ DÖVR (1991-1994)

Müstəqillikdən sonrakı iqtisadi inkişaf dövrünün düzgün olaraq dəyərləndirilə bilməsi üçün xüsusilə müstəqilliyin qazanıldığı şərtlərin və müstəqilliyin əldə edildiyi ilk illərdə baş verən inkişafların diqqətə alınması lazımdır[17]. Bu səbəblə bu başlıq altında yuxarıda bəhs edilən və Sovet sisteminin Azərbaycana buraxdığı problemlərlə baş-başa keçən müstəqilliyin qazanıldığı ilk illər və bu ilk illərdə baş verən proseslər ələ alınacaqdır:

1989-1991-ci illər siyasi müstəqilliyin əldə edilməyə çalışıldığı dövrdür. Bu dövrdə müstəqilliyi qazanmağın qarşısındakı əngəllərlə mübarizə aparılmışdır.

Bu illərdən sonra 1991-94-cü illər birinci dövr olaraq dəyərləndirilə bilər. 18 oktyabr 1991-ci ildə "Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında" konstitutsiya maddəsinin qəbulundan bu günə qədər 25 ildən artıq bir müddət keçib. Müstəqilliyin əldə edilməsi uğrunda verilən çətin və ağır mübarizə diqqətə alındıqda, 18 oktyabr 1991-ci il tarixinin Azərbaycanın inkişaf prosesində nə qədər əhəmiyyətli bir yerə sahib olduğu daha yaxşı başa düşülür. Əlbəttə xalqın yerini doldurması mümkün olmayan bir milli sərvəti olan müstəqilliyin qorunması isə onun əldə edilməsindən qat-qat ağır və mürəkkəbdir. Bunu Azərbaycanın müstəqillikdən sonra yaşadığı proseslər bir daha ortaya qoyur.

SSRİ-nin dağılması ilə Azərbaycanda ixtisaslaşma və iş bölümünə əsaslanan iqtisadi struktur sona çatmış və ölkə ümumi bazarlarını itirmişdir. Xam maddə, yarı məhsul, təchizat-ekipman, bazar, maliyyə və müəssisə idarə edilməsi barədə köhnə mərkəzi planlamaya görə təşkilatlanma səbəbiylə bir çox müəsisədə istehsal ya dayanmış ya da boş vəziyyətdə qalmışdır. Köhnə SSRİ-dəki müəssisələrlə iqtisadi əlaqələrin ortadan qalxması və ölkənin digər respublikalardakı bazarını itirməsiylə yanaşı SSRİ dövründə mərkəzdən əldə edilən sübvensiyaların da kəsilməsiylə birlikdə istehsal səviyyəsində azalmalar baş vermişdir. Ermənistan müharibəsi və Çeçenistan problemi isə, ölkənin sənayesi üçün lazımi xammalın idxal yollarının bağlanmasına səbəb olmuşdur.

Sovetlər İttifaqının dağılması ilə müstəqilliyinə qovuşan Azərbaycanın müstəqilliyin əbədiləşdirməsi üçün, qarşısında həll etməli olduğu böyük problemlər var idi. Belə ki, XX əsrin 80-ci illərinin sonlarında Azərbaycan xalqı önəmli bir böhrana girmiş, idarə etmə zəifliyi, qanuni axsaqlıqlar, etnik mənada bölücü qrupların sayəsində xalqın əməyi ilə əldə edilən iqtisadi və intellektual potensial inkişaf yerinə geriləmə dövrü başlamışdır. Bütün bu problemləri həll edə bilmək üçün, məntiqli və çox yönlü daxili və xarici siyasətin hazırlanması və tətbiqi, ölkənin təbii, texniki, iqtisadi və intellektual potensialında, sosial və siyasi enerjisində faydalı şəkildə istifadə edilməsi lazım idi[18].

---

[17] Rasim Həsənov,a.k.m. ss. 4-5.

[18] Heydər Əliyev, "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında", *Azərbaycan Respublikası Prezdentinin 20 Mart 2001 Tarixli Fərmanı*, Bakı, 20 Mart 2001;

Lakin, problemlərin həlli üçün ciddi addımlar atılmayınca, 1990-cı illərin əvvəli Azərbaycanda iqtisadi durğunluq və böhranın artdığı illər oldu.

Bu dövrdə siyasi olaraq qeyri-stabillik və bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkədə böyük iqtisadi böhran ortaya çıxmışdır. İqtisadiyyatda yüksək nisbətdə işsizlik və hiperinflyasiya dövrünə girilmişdir. Yüksək inflyasiya və qeyri-stabil sosial-siyasi mühit, iqtisadi artıma, xüsusilə sənaye və kənd təsərrüfatı kimi əhəmiyyətli sahələrin inkişafına mane olmuşdur.

İstehsal həcminin azalması və inflyasiya sürətinin yüksək olması iqtisadi böhranın və cəmiyyətdə sosial-iqtisadi gərginliyin artmasına səbəb olmuşdur.

Ölkə SSRİ-nin son illərindən başlayaraq 1988-ci ildən etibarən Ermənistanın silahlı təcavüzünə məruz qaldı və atəşkəsin imzalandığı 12 May 1994 tarixinə qədər torpaqlarının 20%-ni itirdi.

İqtisadiyyatın ümumi balansı üçün lazımi islahatların həyata keçirilməməsi, dövlət büdcəsinin böyük bir hissəsinin müharibə üçün xərclənməsi, torpaqlarının 20%-i işğal edilərək 1 milyondan çox əhalinin qaçqın vəziyyətinə düşməsi, xarici sərmayənin ölkə iqtisadiyyatına çəkilə bilməməsi və özəlləşdirmənin sənaye sektorunda faktiki olaraq başladıla bilməməsi kimi çatışmazlıqlar Azərbaycan iqtisadiyyatını ciddi bir böhrana aparmışdır.

Sərbəst bazar iqtisadiyyatına keçidə dair strategiyanın müəyyənləşdirilməməsi səbəbiylə, bu illərdə həyata keçirilməyə çalışılan iqtisadi qərarlar da birbiri ilə uyğun gəlməyən xarakter almışdır.

Keçid dövrünün ilk illərində Ermənistan ilə olan müharibə, Rusiyanın Azərbaycana nəqliyyat embarqosu qoyması və Çeçenistan müharibəsi səbəbiylə əhəmiyyətli iki neft boru xəttinin istifadə oluna bilməməsi siyasi və hərbi problemlər iqtisadi vəziyyətə mənfi təsir göstərmişdir. Qısacası, 1991-1994-cü illər müstəqillikdən sonra bütün problemlərlə üz-üzə qalındığı, ölkədə sosial və siyasi problemlərin böhrana çevrildiyi, müharibənin olması, sərbəst bazar iqtisadiyyatına keçiddə ciddi sui-istifadələrin baş verdiyi bir dövr olmuşdur.

İqtisadiyyatdakı mənfi gedişatda ən kəskin hal isə, 1992-ci ildə ortaya çıxmışdır. 1992-94-cü illərdə ÜDM iki dəfədən çox azalaraq 1991-ci ilin 48%-i nisbətində olmuşdur[19]. 1990-94-cü illərdə ÜDM hər il ortalama 13-20% azalaraq 1994-cü ildə 1629.3 milyon dollar olmuşdur.

1990-cı il ilə müqayisə edildikdə 1994-cü ildə ÜDM 53%, sənaye 62%, kənd təsərrüfatı 44%, istehlak 75% və vergi hasilatı 45% azalma göstərmişdir. Nəticədə xalqın həyat standartı 3.6 dəfə, real ortalama əmək haqqı səviyyəsi isə, 80% azalmışdır. Eyni dövrdə tətbiq edilən səhv iqtisadi siyasətlər bank-maliyyə sistemində və xarici ticarətdə də ciddi problemlər yaratmışdır[20].

---

[19] Asəf Nadirov, "İqtisadiyyatın Yeni İnkişaf Mərhələsi", Azərbaycan Qəzeti, 15 Sentyabr 2001, s.2.
[20] Rasim Həsənov, s.9.

1992-94-cü illər arasında inflyasiya 4 xanalı rəqəmlərə yüksəlmişdir. Pul siyasətlərindəki problem və nöqsanlar iqtisadi böhrana səbəb olmuşdur. Kreditlər isə, daha çox bank idarəçilərinin şəxsi mənafeləri istiqamətində verilmişdir.

İqtisadi böhran, istehsalın sürətlə azalmasına, qiymətlərin artmasına, bundan əlavə dövlət büdcəsinin ciddi kəsir verməsinə səbəb olmuşdur. Vergi yığılması sistemindəki əksikliklər, vergi yığımlarının inflyasiya səbəbiylə əriməyə məruz qalması kimi səbəblərlə dövlət büdcəsindəki gəlir hissəsi kəskin sürətdə azalmışdır. Dövlət müəssisələrinə və kənd təsərrüfatı sektoruna verilən böyük miqdardakı kreditin faydasız və nəzarətsiz istifadəsi iqtisadi vəziyyəti daha da gərginləşdirmişdir. Bu dövrdə xarici ticarətə dair rəqəmlər də getdikcə mənfi tendensiya qazanmağa, tədiyyə balansındakı kəsirlər getikcə artmağa başlamışdır. İqtisadi böhranın ağrılı nəticələrindən bir digəri isə, milli valyutanın dəyər itkisi şəklində ortaya çıxmışdır.

1.2.1. İlk Dövrlərdə Aparılan İslahatlar

Özəl Mülkiyyət Qanunu 1991-ci ilin iyun ayında qəbul edilmişdir. 1992-ci ilin əvvəllərində qiymət liberalizasiyasına gedilmiş, eyni ilin yanvar ayında Əlavə Dəyər Vergisinin tətbiqinə keçilmişdir. Aprel ayında Xarici Sərmayə Qanunu, avqust ayında isə Milli Bank Qanunu qüvvəyə minərkən, pul vahidi olaraq manat bazarda fəaliyyətə başamışdır.

1993-94-cü illərdə də davam edən müharibənin təsiriylə islahat prosesində yavaşlamalar olmuşdur. 1993-cü ilin yanvar ayında kiçik həcmli müəssisələrin özəlləşdirilməsiylə bağlı bir qanun qüvvəyə minərkən, 1994-cü ilin yanvar ayında manatın yeganə valyuta vahidi olmasına qərar verilmişdir. May ayında Ermənistanla atəşkəsin imzalanması ilə iqtisadi keçid dövrü təkrar sürət qazanmış, iyun ayında İcra-İflas Qanunu qəbul edilmiş, bankların konsolidasiyası prossesinə başlanmışdır[21].

Qısacası, 1991-94-cü illər arasında iqtisadi keçid dövrü olduqca yavaş işləyərkən, ticarətin və bazarın liberallaşmasını ehtiva edəcək islahatlar həyata keçirilməyə çalışılmışdır. Bankçılıq, özəlləşdirmə, xarici ticarətin liberilizasiyası və digər bəzi strutur dəyişiklikləri isə 1995-2000-ci illər arasında həyata keçirilməyə çalışılmışdır.

1.3. MÜSTƏQİLLİKDƏN SONRA İKİNCİ DÖVR (1995-2003)

Seçkilər nəticəsində 1993-cü ilin yayında 30 ildən çox idarəçilik təcrübəsi olan Heydər Əliyev cənablarının Azərbaycan Respublikasının prezidenti seçilməsi ilə birlikdə Azərbaycan idarəçiliyində nəzərə çarpacaq dəyişikliklər

[21] Ayhan Karaca, "Azerbaycanda Ekonomik Dönüşüm Süreci ve Reformların 10 Yılı", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/ocakozel2002/ayhan.htm. (13.03.2003)

olmuşdur. Həmin tarixdən etibarən hüqüqi islahatların həyata keçirilməsi sürətlənmişdir .

Bu dövrdə iqtisadiyyatda mənfiyə doğru gedişi dayandırmaq üçün iqtisadi islahatlar proqramı hazırlanarkən, stratejik iqtisadi inkişaf yolunda da modellər hazırlanmağa çalışılmışdır. Dövrün tələbinə uyğun olaraq iqtisadiyyatda sərbəst bazarın təşəkkül etdirilməsi, özəlləşdirmə və özəl sahibkarlığın inkişaf etdirilməsi, yeni iqtisadi strukturun, gömrük, vergi və maliyyə sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, torpaq və kənd təsərrüfatı islahatlarının həyata keçirilməsi, xalqın sosial imkanlarının artırılması, təhsil və səhiyyə şərtlərinin inkişaf etdirilməsi üçün lazımi hüquqi infrastrukturun yaradılması məqsədi ilə mühüm qanunlar qəbul edilmişdir[22].

İqtisadiyyatda sərbəst bazar şərtlərinin yaradılmağa çalışılması, qiymətlərin, xarici ticarətin və valyuta məzənnələrinin liberallaşdırılması istiqamətində atılan addımlar ilə birlikdə inflyasiya səviyyəsi nəzərə çarpacaq dərəcədə azalmağa başlamış, büdcə kəsirləri minimuma endirilmişdir.

Görülən tədbirlər sayəsində kiçik müəssisələrin özəlləşdirilməsi başa çatmış, xidmət sektoru daha çox özəl sahibkarlığa verilmiş, orta və böyük həcmli müəssisələrin özəlləşdirilməsinə başlanmış, makroiqtisadi stabillik əldə edilmiş, iqtisadiyyatda durğunluq dövrü sona çataraq yeni inkişaf mərhələsinə qədəm qoyulmuş, torpaq islahatı həyata keçirilərək özəl mülkiyyətə verilmiş, kolxoz və sovxozların[23] əmlakı özəlləşdirilmiş, kənd təsərüfatı sektorundan torpaq vergisi istisna olmaqla digər vergilərin 5 il alınmaması qərarlaşdırılmış və vergi borcları silinmiş, bu müəsisələrə güzəştli yanacaq və enerji satışı təmin edilmişdir. Kənd təsərrüfatı sektoru üzrə özəlləşdirilməsi planlanan əmlakın 93.2 %-i özəlləşdirilmişdir. Nəticədə, 1997-ci ildən başlayaraq əkinçilik və heyvandarlıq məhsullarında ildə 7%-lik artış əldə edilmişdir[24].

Yerli imkanlarla iqtisadi inkişafa sürət qazandırılması mümkün olmayan Azərbaycanda beynəlxalq iqtisadi və maliyə sistemi yaradılaraq xarici sərmayənin ölkəyə axımı əldə edilmişdir. 1993-cü ilin ikinci yarısından etibarən həyata keçirilən islahatlar Azərbaycanın sosial, siyasi və iqtisadi həyatında stabilliyi əldə etməyə imkan vermişdir. Ölkədə bank sektorunun və maliyə sisteminin yenidən qurulmasına dair mühüm addımlar atılmışdır. Sərbəst bazar iqtisadiyyatı

---

[22] İmran Cəfərzadə, "Əsaslı İnkişaf İlləri", *İqtisadiyyat Qəzeti*, 18 Oktyabr-1 Noyabr 2001, s..3.

[23] *Kolxoz*: Dövlətə aid torpaqlarda istehsalla məşğul olan kollektiv kəndlərə verilen addır. Müəyyən edilmiş bir kvotaya görə məhsullarını dövlətə satmalıdırlar . Əldə etdikləri gəlirin böyük bir qismi üzvləri arasında paylanır.
Sovxoz: Birbaşa dövlət tərəfindən işlədilən kəndlərə verilən addır. Bütün gəlirləri dövlətə aiddir. İşçilər bu kəndlərdə müəyyən əmək haqqı müqabilində işləyirdilər. (Osman Nuri Aras, *Rusiya'da Tıxanan Sosyo-İqtisadi Dəyişim Dalğası*, Qafqaz Universiteti Yayımları, Bakı, 2000, s.43.)

[24] Ş.E.Yaqubov–A.M.Mahmudzadə, "Azərbaycan Respublikasında Aparılan Aqrar İslahatların Qiymətləndirilməsi, *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.60-63; Cəfərzadə, s.3.

istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini artırmışdır.

Yenə bu dövrdə ən böyük neft şirkətləri ilə "Əsrin Müqaviləsi" adlandırılan böyük əhəmiyyət kəsb edən neft müqavilələri imzalandı. 1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması və 12 noyabr 1995-ci ildə konstitusiyanın qəbul edilməsi ilə bazar iqtisadiyyatının hüquqi normativ strukturunun sürətlənməsi ilə birlikdə ölkəyə böyük həcmdə xarici sərmayə daxil olmağa başladı.

İqtisadi sistemin yenidən qurulması baxımından ən mühüm addım, ölkənin stratejik aspektdən sosial, siyasi və iqtisadi həyatında yeni dövrün başlanğıcı olaraq Azərbaycanın ilk konstitusiyasının qəbul edilməsi oldu. Yeni konstitusiya dövlət idarəçiliyinin formalaşdırılması, vətəndaşların və dövlətin hüquq və vəzifələrinin müəyyən edilməsi ilə yanaşı ilk dəfə demokratik dəyərlərə sahib liberal bazar qurulma labüdlüyünü qəbul etdi. Konstitusiya ilə özəl mülkiyyətin, özəl sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının hüquqi əsası müəyyən edildi. Bu baxımdan Azərbaycanda geniş mənada iqtisadi tənzimləmələrin başlanğıc ili 1995-ci il qəbul edilə bilər[25].

Xülasə, cəbhədə atəşkəsin, daxildə isə stabilliyin əldə edilməsindən sonra növbə artıq iqtisadi islahatlara gəlmişdi. 1994-cü ildən etibarən ölkədə sərt iqtisadi tədbirlər görülməyə başlandı, BVF ilə aparılan sıx əməkdaşlıq və BVF proqramlarının tətbiq edilməyə başlanmasıyla aparılan sərt pul siyasəti ilə qısa müddət ərzində iqtisadiyyatın ümumi balansında bir rahatlıq əldə edilərək inflasiyanın nəzarət altına alınmasına və ÜDM azalışının qarşısı alınmasına nail olundu. Nəticədə, 1996-cı ildən etibarən Azərbaycan iqisadiyyatındakı geriləmə dövrü yavaşlamağa başladı. Yaradılan inkişaf modeli real nəticələr verməyə başladı. Belə ki son beş il ərzində ÜDM 26,3% artdı, əhalinin rifah səviyyəsi 2 qat yaxşılaşdı, iqtisadiyyatda özəl sektorun payı 29%-dən 68%-ə yüksəldi.

1994-2000-ci illər arasında neft yataqlarının müştərək istehsalı məqsədilə bağlanan müqavilələrdə iştirak edən şirkətlər tərəfindən təqribən 3,4 milyard dollar investisiya qoyulmuşdur[26].

1994-2000-ci illər arasındakı xarici sərmayənin ümumi həcmi isə 15,9 milyard dollar təşkil etmişdir. Bu miqdarın 22.8%-i maliyyə kredit, 56.3%-i neft sənayesinə, 20.9%-i isə digər sektorlara qoyulan səmayə şəklində olmuşdur.[27].

Azərbaycan iqtisadiyyatı neft sektoruna xərclənən böyük miqdarlardakı xarici sərmayə nəticəsində köhnə SSRİ daxilində ən sürətli böyüyən iqtisadiyyatlardan biri olmuşdur. ÜDM-dakı artış nisbəti 1998-ci ildə 10%, 1999-cu ildə isə 7.2% təşkil etmişdir. Azərbaycan iqtisadiyyatındakı bu böyümə neft sektorun-

---

[25] Rasim Həsənov, s.12; Əmiraslanov, s.57.

[26] Akif Musayev, "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Strategiyası və Vergi Siyasəti", *İqtisadiyyat və Audit Jurnalı*, No:10, Oktyabr-2001, s.12.

[27] Musayev, s.12.

dan və neft sektoruna bağlı inşaat fəaliyyətlərindən, rabitə sahələrindən və az miqdarda kənd təsərrüfatı sektorundan qaynaqlanmışdır.

Başqa bir aspektdən baxıldıqda, 2000-ci ilin sonunda ÜDM 1990-cı ilə nəzərən 2 dəfə, bu çərçivədə sənaye sektorunda istehsal 3.3 dəfə, kənd təsərrüfatı sektorunda 2.4 dəfə aşağı olmuşdur[28]. 1996-cı ilə qədər sərmayə həcmi 2.3 dəfə azalmaqla birlikdə daha sonrakı dövrdə baş verən artış nəticəsində 2000-ci il sonunda investisiya həcmi 1989-cu illə müqayisədə 55 % artmışdır.

Digər tərəfdən bu dövrdə tətbiq edilən məzənnə və pul siyasətləri yüksək qiymət artışlarının qarşısını alarkən, yerli pul vahidi olan manatın digər pul vahidləri qarşısında stabil bir vəziyyət əldə etməsinə nail olunmuşdur. 1994-cü ildə 1763 %-ə qədər yüksələn inflyasiya 2000-ci ildə 1,8%-ə düşmüşdür.

Birbaşa xarici investisiyalar Azərbaycanın iqtisadi canlanmasında açar rolunu oynamışdır. Birbaşa xarici investisiyaların əsas hissəsi neft hasilatı və çıxarılması sahəsinə xərclənmişdir. 1995-98-ci illər arasında sərmayədə 59.1% nisbətində artış nəzərə çarpmışdır. Sabit sərmayənin ÜDM içindəki payı 1998-ci ildə 1995-ci ildəki payının iki mislini təşkil edərək 40.6% olmuşdur. Azərbaycanın ən əhəmiyyətli məşğulluq qaynağı olan ÜDM-də paya sahib olan ikinci əhəmiyətli sektor olan kənd təsərrüfatı sektoruna xərclənən xarici sərmayə miqdarı isə 0.5%-dən aşağı olmuşdur. Xarici investorlar emalat sənayesinə investisiya qoymaqdan çəkinmişdilər. Bunun nəticəsi olaraq da sektorun istehsal həcmi xeyli aşağı düşmüşdür.

2000-ci ildən etibarən 122 ölkə ilə iqtisadi münasibətlər qurulmuş, ticarət münasibətlərinin ümumi həcmi 2.9 milyard dollardan artıq olmuşdur. Bu miqdar 1993-cü ilə nəzərən 2.2 dəfə artıq olmuşdur[29].

Ölkənin iqtisadi inkişafında diqqətə alınması vacib olan mühüm bir nöqtə də həmin bu keçid və inkişafın; torpaqlarının 20%-nin Ermənistanın işğalı altında olduğu, bunun nəticəsi olaraq istehsal potensialının çox böyük bir qismindən (1/5) məhrum olduğu, 300 min iş yerini itirdiyi və bu torpaqlarda daha əvvəl yaşayan xalqın (əhalinin təqribən 12%-i) köçmək məcburiyətində qaldığı son dərəcə ağır şərtlərdə əldə edilməsidir:

Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi, regiondan 290 min ailəni, digər bir ifadəylə 1 milyondan çox insanı öz ata yurdlarını tərk etməyə məcbur etmişdir. Ermənistanın təcavüzü nəticəsində zərərə məruz qalan 27 şəhər və rayonun ümumi ərazisi 22,7 min km^2 idi. Dağlıq Qarabağla birlikdə, Naxçıvanın da sərhəd regionları təsir altında qalmışdır. 17.1 min km^2-lik (Azərbaycan ərazisinin 20%-i) ərazi isə, hələ də Ermənistanın işğalı altındadır. İşğal edilən yuxarı Qarabağ ərazisində 87 yaşayış yeri, 7 inzibati rayon, 11 şəhər,

[28] Məzəddin Eyyubov, "Bazar İqtisadiyyatına Keçid və Sənaye Kompleksi" *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr-2001, ss.66-67.

[29] Nadirov, s.2.

1.3 milyon hektar əkin sahəsi, 313 mini iri buynuzlu olmaqla 600 min böyük və kiçik buynuzlu heyvan, 7000 kənd təsərrüfatı müəssisəsi, 850 təhsil obyekti, 650 səhiyyə mərkəzi, 120 min yaşayış yeri tərk edilmək məcburiyyətində qalınmışdır.

Bundan əlavə regionda 160 körpü, 2300 km sulama kanalları, 15000 km elektrik xətti, 2500 transformator, 23000 km su kanalı, 2000 km təbii qaz boru xətti, 20 km kanalizasiya xətti, 160 km su tankı, 34 km qaz paylama sistemi, 35000 abunə üçün rabitə stansiyası, 4 hava limanı və Bakı-Ağdam, Bakı-Naxçıvan-Yerevan dəmir yolu xətti vardır.

Bununla yanaşı regionda 800 tibb mərkəzi, xəstəxana, poliklinika və s., 719 mədəniyyət evi, 825 kitabxana, 6 park, 47 musiqi, sənət və rəsm məktəbi, 3 teatr, 3 qalereya, 300-dən artıq tarixi abidə vardır.

Regionda maşınqayırma, qida sənayesi, elektrik və struktur materialları kimi sahələrdə 180-dən artıq sənaye müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrdə 18000-dən artıq işçi fəliyyət göstərirdi.

Kənd təsərrüfatına əlverişli iqlimi və torpaq quruluşunun əlverişli olması səbəbiylə regionda 320 kollektiv ferma, 90-dan artıq dövlət ferması və bəzi kənd təsərrüfatı birlik və təşkilatları fəaliyyət göstərirdi. Regiondan ölkənin buğda istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i və gündəlik heyvan məhsullarının 34%-i əldə edilirdi. Bundan əlavə regionda 649 min hektar əkinə yararlı yüksək məhsuldarlığa sahib ərazi, 199 min hektar əkin sahəsi və 62000 hektar uzun müddətli əkin sahəsi istifadə edilirdi.

İşğal altındakı dəmir, civə, xrom, mərmər, əhəng daşı, qızıl və mineral sular başda olmaqla təbii ehtiyatlar baxımından zənginliyə sahibdir. Bu səbəblə Azərbaycan eyni zamanda zəngin təbii ehtiyatlardan, xüsusilə 39.6 min ton ehtiyata sahib olan 3 qızıl mədəni yatağından, 4 civə və antimon yatağından məhrum olmuşdur[30].

İşğal edilmiş region bir çox nadir heyvan və bitki növlərinə də sahibdir.

1988-ci ildən başlayan erməni təcavüzü nəticəsində yaşlı, qadın və uşaqların da aralarında olduğu təqribən 20000 Azərbaycan vətəndaşı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, təqribən 5000 nəfər həbs edilmiş və itkin düşmüş, 1050 nəfər şikəst qalmışdır. 210000 tələbə təhsil imkanlarından məhrum qalmış, təhsil sahəsində işləyən 23000 nəfər işini itirmişdir. 100 km avtomobil yolu, elektrik xətti, su, təbii qaz xətti və digər infrastruktur vasitələri məhv edilmişdir.

Naxçıvan Muxtar Respublikası ilə rabitə kəsilərək mühasirəyə alınmış, 130 km uzunluğundakı dəmir yolu işğal edilmişdir. Bu səbəblə Naxçıvana sərnişin və yük daşınması imkanı ancaq İran ərazisindən mümkün olur. Digər tərəfdən

[30] *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 2002*, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Programı, 2002, s.59; Nadirov, s.2; Əmiraslanov, s.63.

nəqliyyat problemini həll etmək məqsədiylə Bakı-Naxçıvan hava yolu nəqliyyatına xərclənən transfer xərclərinin dövlət büdcəsinə gətirdiyi əlavə yük 10 milyon dollardır.

İşğaldan əvvəl İran və Azərbaycan ərazilərindən keçən və Avropadan İran, Orta Şərq və Asiya ölkələrinə dəmir yolu vasitəsilə böyük həcmdə yük daşınırdı. Ayda təqribən 3000 vaqon yük Azərbaycandan keçirdi. Bu tranzit keçidlərdən əldə edilən gəlir imkanından məhrum olmaqla da dövlət büdcəsi böyük itkiyə məruz qalır[31].

Ümumilikdə 150000 mülki yaşayış evi, 7000 sənaye, kənd təsərrüfatı və digər sahələrdəki müəssisələr, 4400 təhsil, mədəniyyət, xəstəxana və digər dövlət müəssisələri məhv edilmişdir.

Yuxarıdakı məlumatlar diqqətə alındıqda Ermənistan ilə müharibə nəticəsində, Azərbaycan yüz milyard dollardan çox zərərə məruz qalmışdır.

Ardıcıl olaraq metro, dəniz nəqliyyatı, qatar, dəmir və avtomobil yolu nəqliyyatında terror hadisələri törədən Ermənilər, nəticədə aralarında yaşlı qadın, kişi və uşaqların da olduğu 2000-dən çox insanı qətlə yetirmiş, 10000 nəfəri yaralamış vəya şikəst etmişdir. Sadəcə iki metroda törədilən terror hadisələrinin zərəri milyonlarla dollar olmuşdur.

Ermənilər tərəfindən işğal edilən ərazilərdə narkotik bitkilər yetişdirilir və gizli yollarla İran, Rusiya və digər ölkələrə daşınır. Füzuli ərazisindəki Horadiz qəsəbəsindən Ordubad ərazisinə qədər uzanan 128 km məsafəlik əraziyə ermənilərin nəzarət etməsi səbəbiylə narkotik maddələrin mübadiləsi, qaçaqçılıq və yer üstü sərvətlərin İrana daşınması daha da artmışdır. Kəlbəcər və Zəngilan ərazilərində yerləşən qızıl yataqları Ermənilər tərəfindən kobud şəkildə istifadə olunur. Bu yataqların xammalı Ermənistanın Vardenis rayonunda yerləşən Zod qızıl mədəninə daşınır. Bu xammal külçə halına gətirilərək Rusiya və digər dövlətlərə satılır. Ermənistanın qızıl mədənindən əldə etdiyi gəlirinin Ermənistan büdcəsinin təqribən 51%-ni təşkil etdiyi ifadə edilir[32].

İşğal altındakı region ekoloji cəhətdən də təhlükə altındadır. Regiona nüvə tullantıları daşınır.

Digər tərəfdən 25-26 %-i meşə olan işğal altındakı torpaqların yox edilməsi, regiondakı heyvan və bitki növlərinin zərər görməsi də digər bir təhlükədir. Aparılan hesablamalara görə meşəlik sahələrinin təqribən 8-10%-i məhv edilmişdir. Məhv edilən sahələrdəki iqtisadi itki isə təqribən 30 milyard dollardır[33].

Xəzərə axan çaylar vasitəsi ilə ildə 520-530 milyon m^3 çirkli su axıntısının, 500 milyon m^3-i Ermənistan və Gürcüstandan gəlir.

---

[31] 'Azerbaijan Economic Damages and Heavy Tolls Caused by Armenian Aggression', www.economy.gov.az/HTML/aggression.html (09.04.2005).

[32] Təbriz Vəfalı, "Qarabağın İqtisadıyyatımızda İzi", *Hərbi And Qəzeti*, 1-15 Aprel 2003, s.3.

[33] 'Azerbaijan Economic Damages and Heavy Tolls Caused By Armenian Aggression', www.economy.gov.az/HTML/aggression.html (09.04.2005).

Ermənistanla müharibə sadəcə Azərbaycanın iqtisadi keçid dövrünə təsir etməklə qalmamış, eyni zamanda həmin müharibənin təsiri ilə formalaşan beynəlxalq əlaqələr də iqtisadi keçid dövrünə öz təsirini göstərmişdir.

Erməni işğalı nəticəsində ana vətənindən uzaq düşən köçkünlərin qarşılaşdığı problemlərin ən əsasları təhsil, səhiyyə və məşğulluq olmuşdur. Bugün maddi sıxıntılar içində yaşayan məcburi köçkünlər müvəqqəti olaraq ölkənin 70 fərqli şəhərində və regionunda yaşayırlar. Köçkünlərin qarşılaşdığı problemlərlə sadəcə "Qaçqın və Məcburi Köçkünlərin İşi Üzrə Dövlət Komitəsi" deyil, eyni zamanda ölkədə fəaliyyət göstərən beynəlxalq və yerli, özəl təşkilatlar da maraqlanırlar. Buna baxmayaraq, köçkünlər hələ də problemlərlə qarşılaşırlar. Köçkünlərin qarşılaşdığı çətinliklər daha çox təhsillə bağlıdır. Bundan əlavə köçkünlər öz uşaqlarına lazımi səviyyədə yemək, geyim, məktəb üçün ləvazimat ala bilmədikləri üçün onları məktəbə göndərmirlər. Digər tərəfdən çadır şəhərlərinə, yataqxanalara və bir çox regiona yerləşdirilən köçkün məktəblərinin texniki imkanları da kifayət deyil. Bu məktəblər eyni zamanda başqa məktəblərə bağlı olaraq fəaliyyət göstərirlər. Bu səbəblə təhsil səviyyəsi həmin məktəblərdə aşağıdır. Köçkün məktəblərinin təhsil avadanlıqları kifayət qədər olmadığı üçün bir çox hallarda şagirdlərin məktəbdən uzaqlaşmasına səbəb olurdu. Köçkün məktəblərində təhsil səviyyəsinin aşağı düşməsi onların valideynlərinin iqtisadi imkansızlığına və onların qarşılaşdığı sosial problemlerlə bağlıdır. Son illərdə köçkünlər arasında ölüm hadisələri, xüsusilə, uşaq ölümləri xeyli artmışdır. Köçkünlər arasında bir çox xəstəliyin sürətlə yayılması, onların qarşılaşdığı sosial və həyat səviyyələrinin çətinlikləri ilə əlaqədardır. Çadır şəhərciklərində, yataqxanalarda və yol kənarlarında, yük vaqonlarında yaşayan insanlar arasında vərəm, malariya, ürək-damar, sarılıq və oxşar xəstəliklər geniş yayılmışdır. Burada yaşayan insanlar revmatizm və dəri xəstəlikləri ilə də qarşılaşırlar. Bu növ xəstəliklərlə mütəmadi olaraq mübarizələr aparılır. Bu mübarizə nəticəsində, 1995-97-ci illərdə çadır şəhərciklərində kütləvi hal alan malariya və qotur xəstəliklərinin qarşısı alınıb.

Çadır şəhərciklərində yaşayan insanların zəif bəslənməsi köçkünlər arasında bəzi xəstəliklərin artmasına səbəb olmuşdur. Son 25 ildə köçkünlər arasında şikəstlərin sayında da artış olmuşdur. Bu hal xüsusilə yeni doğulan uşaqlar arasında daha çox müşahidə edilir. Araşdırmalara görə, ev şəraitində doğulan uşaqların daha sonra bəzi problemlərlə qarşılaşdıqları müşahidə edilir. İşsizlik problemi isə, insanların səhiyyə problemləri ilə məşğul olmalarına imkan vermir[34]. Bu istiqamətdə Heydər Əlivev Fondu və Dövlət Neft Fondunun layihələri və büdcə vəsaiti hesabına son illərdə çadır şəhərciklərinin ləğvediləsinə və Qaçqın və Məcburi Köçkünlərin sosial rəfahının artırılmasına on milyard dollardan çox vəsait xərclənmişdir.

[34] *525-ci Qəzet*, 09.10.2004.

1.3.1. İkinci Dövrdəki İslahatlar

Umummili Liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsinin ardından ölkədə stabillik və iqtisadi inkişafın təməli qoyuldu. 1995-ci ilin yanvar ayında haqsız rəqabətlə əlaqədar bir qanun qəbul edilmişdir.1995-ci ilin aprelində isə, ilk BVF-nun stabilləşdirmə proqramı qəbul edilmişdir. 1995-ci ildə BVF və digər beynəyxalq təşkilatların köməyini alan maliyyə stabillik siyasətlərinin tətbiq edilməyə başlanmasıyla iqtisadi artım mərhələsinə yenidən qədəm qoyulmuşdur.

1995-ci ilin sentyabrında kiçik həcmli müəssisələrin özəlləşdirilməsinə dair qanun qəbul edilmişdir. Qanun qəbul edildikdən sonra, 1996-cı ildə kiçik həcmli müəssisələrin özəlləşdirilməsinə başlanmışdır. İyun ayında Milli Bankla bağlı qanunda dəyişiklik edilərkən, sentyabr ayında bank sektorunda yenidənqurma fəaliyyətlərinə sürət verilmiş, qiymətli kağızlar bazarı fəaliyyətə başlamışdır. Avqust ayında isə, "Torpaq İslahatı Qanunu" qəbul edilmişdir.

1997-ci ilin fevral ayında dövlət satınalımlarında rəqabətin qorunması ilə əlaqədar qanun qəbul edilərkən, iyun ayında Icra İflas Qanununda dəyişikliklə əlaqədar qanun qüvvəyə minmişdir. Bundan başqa iyun ayında, yeni Gömrük Qanunu qəbul edilərək sadələşdirilmiş yeni bir gömrük vergisi tətbiq edilməyə başlanmışdır. Telekommunikasiya haqqında qanun isə, iyul ayında qəbul edilmişdir.

1998-ci ildə isə enerji sektorunu yenidən bərpa etmək üçün elektro-energetika haqqında qanun qəbul edilmişdir. Avqust ayında Girov Qanunu, sentyabr ayında yeni bir Qiymətli Kağızlar Qanunu qəbul edilmişdir. 1999-cu ilin fevral ayında Məşğulluq Haqqında Qanun qəbul edilmişdir. 1999-cu ilin dekabr ayında neft gəlirlərinin vahid bir sistem altında toplanması, neft gəlirlərinin daha şəffaf qaydalara görə xəclənməsini təmin etmək məqsədiylə, mərhum Prezident Cənab Heydər Əliyev tərəfindən Neft Fondunun qurulması haqqında sərəncam verilmişdir. 1999-cu ilin sonlarında isə, Əmlak Komitəsi ləğv edilərək, yerinə 2000-ci ilin fevral ayında, dövlətə aid mülklərin özəlləşdirilməsindən məsuliyyət daşıyan Əmlak Nazirliyi təsis edilmişdir. Bundan başqa may ayında yeni bir Özəlləşdirmə Qanunu, iyun ayında isə yeni bir Vergi məcəlləsi qəbul edilmişdir[35].

İqtisadi keçid prosesinin bu dövründə üç əsas məqsəd istiqamətində nəticələr əldə edilməsi[36] nəzərdə tutulmuşdur:

1. Ölkənin təbii ehtiyatlarının istismarı və istifadəsinin əldə edilməsi
2. Liberal-demokratik bazar prinsiplərinə müvafiq iqtisadi strukturun yaradılmasına cəhd edilməsi

[35] Ayhan Karaca, "Azərbaycanda İqtisadi Keçid Dövü və İslahatları 10 İli", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/ocakozel2002/ayhan.htm. (12.03.2003).

[36] Rasim Həsənov,a.k.m. s.11.

3. Dünya iqtisadiyyatı ilə qlobal və regional iqtisadi inteqrasiyanın həyata keçirilməsinə cəhd edilməsi

Struktur dəyişikliyinə dair qəbul edilən qərarların da təsiriylə bu dövrdə meydana gələn irəliləyişlər əsas olaraq belə sıralana bilər:

1. Ölkə iqtisadiyyatında stabillik əldə edilmiş,
2. Ölkənin mühüm təbii ehtiyatlarını aktivləşdirmək strategiyası istiqamətində böyük nəaliyyətlər əldə edilmiş,
3. Torpağın özəl mülkiyyətə verilməsi ilə Azərbaycan kəndlərində yeni bir sosio-iqtisadi vəziyyət yaradılmış
4. İqtisadiyyatda liberallıq əldə edilməsi, xarici əlaqələrin inkişaf etdirilməsi və xarici investorların özəlləşdirməyə qoşulmasının əldə edilməsi ilə iqtisadi inkişaf yolunda təməl, mütəmadi və əhəmiyyətli bir qaynaq əldə edilmişdir.

İqtisadi inkişafın əldə edilməsi, yeni iş yerlərinin açılması, xalqın gəlir səviyyəsinin artırılması ilə həyat standartlarının yüksəldilməsi istiqamətində çox mühüm tədbirlərin həyata keçirilməsi məqsədiylə Heydər Əliyevin 2001-ci ilin mart ayında imzaladığı "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Üzrə Dövlət Proqramı"na əsasən 2003-2008-ci illəri əhatə edəcək şəkildə aparılan fəaliyyətlər də mühim əhəmiyyət kəsb etdi. 2001-ci ilin iyulun 2-də BVF-nin İdarə Heyəti "Azərbaycanda Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Üzrə Dövlət Proqramı"nı təsdiq etdi.

Azərbaycanda yoxsulluğun azaldılması proqramınının həyata keçirilməsini zəruri edən səbəblər var. Ancaq Dünya Bankınınn verdiyi məlumata görə o illərdə Azərbaycanda xalqın 40-50%-nin gündəlik gəliri 1 dollardan aşağı idi. Bundan əlavə aparılan başqa bir hesablamaya görə, minimum həyat səviyyəsi üçün ayda təqribən 86 dollar lazımdır. Bir işçinin orta aylıq əmək haqqısı isə 64.4 dollar idi. Bu da Azərbaycanda xalqın böyük bir hissəsinin (40-50%-nin) yoxsulluq səviyyəsində yaşadığını göstərirdi[37]. Azərbaycanda aparılan uğurlu iqtisadi programlar nəticəsində 2015-ci ildə bu nisbət əhalinin 4-5 % nə qədər azalmışdır.

2002-ci ilin aprel və may aylarında ümummmili lider Heydər Əliyevin yerli və xarici iş adamları ilə görüşmələrindən sonra, 2002-ci ilin avqust və sentyabr aylarında imzaladığı sahibkarlığı dəstəkləyən fərmanlar ilə xüsusilə vergi, gömrük, lisenziya və müəssisələrin təftişi ilə əlaqədar həyata keçirilən struktur nizamlamalarıyla sahibkarların qarşısındakı bəzi problemlərin həllinə çalışılmışdır. Aparılan bu tənzimləmələrlə sahibkarların iqtisadiyyatda yeni bir dövrün başladığı inancını artırmağa çalışılmışdır. Ölkədə yaradılan investisiya mühiti xarici sahibkarların diqqətini çəkməyə başlamışdır.

[37] Əkbər Eldaroğlu, "Azərbaycan Hökuməti Yoxsulluq Problemini Həll Etməyə Çalışır", *Azərbaycan Milli Demokratiya Fondu"Azərbaycan" Bülleteni,* No:32 (152), 09 Avqust 2001.

Sahibkarlarla aparılan görüşlər nəticəsində vergilərin sayı və onun dərəcələri azaldılmış və kiçik və orta həcmli müəssisələrin inkişafı üçün proqram qəbul edilmişdir.

Xülasə, 1995-2003-ci illər, sərbəst bazar iqtisadiyyatına keçidin təməllərinin atıldığı, iqtisadi böhranın dərinləşməsinin sona çatması, iqtisadiyyatda şəffaflıq əldə edilməyə cəhd edildiyi dövr olmuşdur.

1.4. MÜSTƏQİLLİKDƏN SONRA ÜÇÜNCÜ DÖVR (2003-Cİ İLDƏN SONRAKI DÖVR)

2003-ci ildən sonrakı dövr müstəqillikdən sonrakı üçüncü dövr olaraq dəyərləndirilə bilər. Ümummilli Lider Heydər Əliyev məktəbinin davamçısı İlham Əliyevin hakimiyyətə gəlməsi ilə siyasi və iqtisadi kurs daha da möhkəm təməllərlə Azərbaycanın inkişafına tövhə vermişdi.

Bu dövrdə;

1. İqtisadi böyümənin sürət qazanaraq davam etdirilməsi və iqtisadi siyasətlərin gücləndirilməsi,
2. İkinci dövlət özəlləşdirmə proqramının qəbul edilməsi ilə enerji sektorunun yenidən qurulması və həcminin artırılması,
3. Əldə edilən irəliləyişə görə, iqtisadi siyasətlərin sosial istiqamətinin gücləndirilməsi, sosial rifah səviyyəsinin artırılması, bunun tərkibində cari perspektivdə hökümətin iqtisadi siyasətində enerji sektorunun sürətlə inkişafı nəticəsində əldə edilən qaynaqların digər sektorlara istiqamətləndirilməsi, reallaşdırılması kimi mühüm məqsədlər qarşıda dururdu.

Azərbaycan hökümətinin beynəlxalq təşkilatlarla apardığı görüşlər nəticəsində məqsədlərdən biri də hazırladığı orta müddətli yeni fəaliyyət proqramı ilə rifah səviyəsinin artırılması idi. Bu səbəblə bu mərhələdə tətbiq ediləcək iqtisadi siyasətlərin məqsədi ilə daha çox qeyri-neft sektorunun inkişafı qarşıya məqsəd olaraq qoyulmuşdur.

Xammalda neft və neft məhsullarının üstün olduğu neft emalı, kimya, neftkimya sənayesi və elektrik enerjisi sahələri neftin iqtisadiyyatdakı rolunu daha da artırır. Lazımi əhəmiyyətin verilməsi halında Azərbaycanda dünya səviyyəsində neft məhsulları bazarı yaradıla bilər.

Stratejik əhəmiyyətə sahib olan bu sahələrə son dövrdə böyük miqdarda xarici investisiya cəlb olunmuşdur. Sənaye sektorundakı istehsal sahələrində müasirləşdirmə və yenidənqurma üçün lazımi işlər görülür.

Elektrik enerjisi sənayesi neft və qaz məhsullarının istifadəsinin faydalılığını artırır. Bu sahəyə xarici investisiya daha çox daxil olur.

İqtisadi inkişaf strategiyasının yaxın perspektivdə əsas məqsədi; iqtisadi nizamlamalar dərinləşdirilərək müasir bazar münasibətləri və dünya istehsal

sisteminin inkişaf tendensiyası əsasında ölkənin iqtisadi sisteminin yeni inkişaf səviyyəsinə çatması olacaqdır.

Azərbaycanın iqtisadi gücünü sürətlə yüksəldəcək bu strategiya; ölkədəki təbii iqtisadi ehtiyatların aktiv istehsal mərhələsinə keçməsini əldə etmək, bu istiqamətdə Xəzərin neft və təbii qaz ehtiyatlarının iqtisadiyyatın kompleks inkişafının əldə edilməsinə istiqamətləndirilməsi, ölkənin nəqliyyat potensialının inkişafı və məhsuldarlılığının yüksəldilməsi, bəşəri ehtiyatlarında məhsuldarlığın artırılması kimi problemlərin həllini diqqətə almalıdır.

1994-cü ildə başlayan iqtisadi inkişaf strategiyası 2015-cü ildə də davam etdi. Ölkədəki inkişaf sürəti, adam başına ÜDM həcminin doqquz min dolları keçməsi ilə nəticələndi. Prezident İlham Əliyev tərəfindən 11 fevral 2004-cü il tarixində, Azərbaycan regionlarının 2004-2008-ci illəri, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən sosial-iqtisadi inkişafı ilə əlaqədar "Dövlət Proqramları" təsdiqləndi. Həmin bu proqramlarla, Azərbaycanda regionların iqtisadi potensiallarının və təbii ehtiyatlarının məhsuldar bir şəkildə dəyərləndirilməsi ilə başda kənd təsərrüfatı sektoru olmaqla, qeyri-neft sektorlarını canlandırmaq və inkişaf etdirmək, beləliklə ölkədə məşğulluq səviyyəsini artıraraq xalqın gəlir səviyyəsinin və həyat standardının artırılma-sına nail olmaq üçün atılan ən əhəmiyyətli və geniş addımlardan biridir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı son bir neçə ildə olduqca əhəmiyyətli naliyətlər qazanılmışdır. Yoxsulluğun azaldılması ilə bağlı işlərə xüsusilə də regionların iqtisadi inkişafına daha çox diqqət verilir. Belə ki, Bakı xaricində qeyri-neft sektorunun inkişafı əhəmiyyətli dərəcədə artmışdır.

1.5. KEÇİD DÖVRÜNÜN ÜMUMİ QİYMƏTLƏNDİRİLMƏSİ

Hər nə qədər beynəlxalq təşkilatlar başda olmaqla xaricdən böyük təsir olsa da, sərbəst bazar iqtisadiyyatına keçid və ölkə iqtisadiyyatının, üstünlük qərbə olmaq üzrə dünya iqtisadiyyatına inteqrasiyası Azərbaycanın öz seçimi olmuşdur. Digər tərəfdən Azərbaycan öz varlığını və inkişafını özü maliyyələşdirmə mövzusunda da böyük yol qət etmişdir.

Keçid dövründə əldə edilən mövqe diqqətə alındıqda, iqtisadi müstəqilliyin ən əsas göstəriciləri Azərbaycanda təşəkkül etdiyi görünür: Artıq ölkə ərazisindəki bütün təbii ehtiyatlar, sərmayə və iqtisadi potensial böyük nisbətdə Azərbaycana aiddir. Ölkənin beynəlxalq səviyyədə tanınan milli pul vahidi (manat) vardır. Manat ən azı Cənubi Qafqazın ən güclü pul vahidi olma istiqamətindədir.

Makroiqtisadi baxımdan ölkədə qət edilən məsafə isə qısaca belə ifadə edilə bilər: Son 15 ildə ölkədə ÜDM 4 dəfə yəni 400%, sənaye istehsal həcmi 30%, kənd təsərrüfatı və heyvandarlıq sektorunda istehsal həcmi 61%, investisiya həcmi 18.8 dəfə, nağd pul gəliri 4.5 dəfə, orta aylıq əmək haqqı 7.6 dəfə, xarici

ticarət həcmi 5.5 dəfə, dövlət büdcə gəlirləri 8.6 dəfə artmışdır. Keçən dövr ərzində 17 orta və uzunmüddətli dövlət proqramı qəbul edilərək tətbiq edilmişdir. Bu da ölkədə davamlı inkişaf mərhələsini və mühiti yaratmışdır. Son qəbul edilən regional sosial-iqtisadi inkişaf proqramı isə regional və sektoral inkişaf aspektindən atılan ən əhəmiyyətli addım olmuşdur.

Ancaq, təbii ehtiyatları hüquqi nöqteyi nəzərdən Azərbaycana aid olmaqla birlikdə, bu mülkiyyətin iqtisadi baxımdan həyata keçirilməsində bəzi problemlər vardır. Bu problemlərin mövcud olması, müstəqilliyi inkişaf etdirmə və sərbəst bazar iqtisadiyyatına keçid dövrünün təbii bir göstəricisi olaraq dəyərləndirilməlidir. Əsas olan problemlərin həllinə qovuşması üçün lazımi tədbirlərin gecikmədən və doğru şəkildə alınmasıdır.

Keçid dövrünün başlanğıcından etibarən dövlətin funksiyalarında dəyişikliklərdən başqa iqtisadiyyatda köklü dəyişikliklərin həyata keçirilməsi nəticəsində qiymətlərin sərbəstləşdirilməsi mövzusuna üstünlük verilərək mühüm tədbirlər həyata keçirilmiş, dövlət satınalmalarını bazar mexanizminin xaricində tutan tədbirlərə son verilmişdir. Bundan əlavə xarici ticarətdə tətbiq olunan miqdar məhdudiyyətləri qaldırılaraq, qeyri-sabit valyuta rejimi qəbul edilmişdir.

Digər tərəfdən keçid dövründə keçən 25 ildən artıq bir müddət ərzində əldə edilən mövqedə makroiqtisadi göstəricilər etibarilə iqtisadiyyatda stabillik də əldə edilmişdir. Manatın dəyəri stabildir, inflyasiya çox aşağı nisbətdədir, büdcə kəsirləri çox aşağıdır, ÜDM real olaraq qənaətbəxş nisbətdə və stabil olaraq artır.

Dünya Bankı, Beynəyxalq Valyuta Fondu, BMT İnkişaf Proqramı və Asiya İnkişaf Bankı kimi təşkilatlar, hökümət tərəfindən ölkədəki makroiqtisadi stabilliyin mühafizəsinə istiqamətləndirilən siyasəti müsbət dəyərləndirirlər. Bu təşkilatlar, monopoliya, qanunsuzluq, iqtisadiyyatda tarazlı sektoral və regional inkişaf ilə əlaqədar problemlərin isə, hələ də davam etməkdə olduğunu ifadə edirlər.

Digər tərəfdən BMT tərəfindən nəşr olunan İnsan İnkişaf İndeksinə[38] dair hesablamalara görə, 1996-cı ildən başlayaraq ölkədə İnsan İnkişaf İndeksinin stabil artış trendi seyr etdiyi müşahidə olunur. 1990-cı ildən etibarən hər il

[38] BMT İnkişaf Proqramı 1990-cı ıllərdən başlayaraq illik qlobal və milli bəşəri inkişaf haqqında məlumatlar nəşr olunmaqdadır. Hər bir ölkənin bəşəri inkişafını müəyyən edən məlumatlardan ibarət Bəşəri İnkişaf İndeksi əsasən ölkələrin reytinqini təqdim etməkdədir. 177 dövlətin iştirak etdiyi Bəşəri İnkişaf İndeksi illik olaraq BMT tərəfindan hazırlanmaqdadır. Bu endeks adam başına gəlir, təhsil, tibbi xidmət və ömrün uzunluğu əsasında hesablanmaqdadır: BM İnkişaf Proqramı'nın (UNDP) hazırladığı 'İnsan İnkişaf Hesabatı' UNDP'nin salt iqtisadi böyüklüklərə dayanan Xalis Olmayan Milli Gəlir əvəzinə, millî gəlir rəqəmləri ilə yanaşı, səhiyyə, təmiz və etibarlı su və qida əldə edə bilmə, təhsil imkanlarından istifadə edə bilme imkanı kimi bir çox sosyo-mədəni kriteriyaları nəzərə alaraq hazırladığı üç ana indeksə əsaslanaraq hesablanan insani inkişaf səviyyəsi insanların yaşam tərzlərini sadəcə maddî/pul ölçülərilə deyil 'yaşamaq keyfiyyəti' baxımından dəyərləndirməyi məqsədini güdür. Azərbaycan Respublikasında BMT'nın İnkişaf Proqramının təşəbbüsü ilə insan inkişafı ilə əlaqədar məlumatlar 1994-cü ildən etibarən hesablanmaqdadır.

BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr edilən "İnsan İnkişafı Hesabatı"nda dünya ölkələrində əhalinin rifahını əks etdirən göstəricidir. Bu indeks əhalinin rifahını ÜDM-dən daha geniş şəkildə özündə ehtiva edir. İnsan İnkişaf İndeksi insan inkişafının üç ölçüsünü özündə birləşdirir:

- uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır);
- təhsil səviyyəsi (böyüklər arasında savadlılıq, həmçinin ibtidai, orta və ali məktəblərdə təhsil alanların say nisbəti əsasında hesablanır);
- layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti/AQP, gəlir əsasında hesablanır).

Lakin, bu indeks insan inkişafının müfəssəl, hərtərəfli ölçü vasitəsi deyil. Məsələn, buraya gender və ya gəlir bərabərsizliyi, insan hüquqları və siyasi azadlıqların təmin olunması kimi göstəricilər daxil edilmir. Buna baxmayaraq, məhz bu indeks insan inkişafının və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərin nəzərdən keçirilməsi üçün daha geniş prizmanı təmin edir.2009 Hesabatındakı reytinq sistemi istisna olmaqla əvvəlki illərdə reytinq 3 kateqoriyaya bölünmüşdür. Əvvəlki sistemdə 1-dən 63-dək yerləri insan inkişafının yüksək, 64-dən 146-dək yerləri orta, daha sonra isə aşağı olduğu ölkələr tuturdu. 2009-cu ildən etibarən ölkələr 4 kateqoriyaya bölünür. Yeni sistemdə əvvəlkinə əlavə olaraq "çox yüksək" kateqoriyası daxil edilmişdir.

2013-cü ilin məlumatları əsasında hazırlanmış 2014-cü il İnsan İnkişafı Hesabatına əsasən Azərbaycanda İnsan inkişafı indeksi 0,747-yə bərabərdir və o 187 ölkə arasında 76-cı yeri tutmaqla "yüksək" reytinqə malik olan ölkələr sırasındadır. 2012-ci ildəki Hesabata əsasən isə Azərbaycan İnsan İnkişaf İndeksinin göstəricisi 0,745-ə bərabər olmaqla, 75-ci yerdə qərarlaşmışdır.

2005-ci ildən etibarən BMT-nin İnkişaf Proqramı ilə birlikdə “Qara Qızılın İnsan Qızılına Çevrilməsi” layihəsinin başladılması planlanmışdır. Belə ki artıq, İlham Əliyev tərəfindən 27 sentyabr 2004-cü ildə təsdiq edilən “Qara Qızılın İnsan Qızılına Çevrilməsində Azərbaycanın Neft Gəlirlərindən Potensial Faydalanılması” layihəsi 2005-ci illn fevral ayında İqtisadi İnkişaf Nazirliyi ilə BMT İnkişaf Proqramı arasında imzalanmışdır. Layihə, Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Haqqında Dövlət Proqramı və Əsrin İnkişaf Hədəfləri çərçivəsində davamlı insan inkişafını təmin məqsədilə Dövlət İnvestisiya Proqramı vasitəsilə neft gəlirlərindən faydalı şəkildə istifadə olunmasına dair makroiqtisadi tövsiyələrin və təhsil sisteminə investisiyaların istiqamətləndirilməsi vasitəsilə qeyri-neft sektorunda fəaliyyətləri artırmaq məqsədilə lazımi şəraitin yaradılmasına dair məsləhətlərin hazırlanmasını əhatə edir.

Hər bir ölkədə makroiqtisadi stabilliyin əldə edilməsi və davam etməsi üçün əvvəl siyasi stabillik olmalıdır. Bu baxımadan ümummilli lider Heydər Əliyevin iqtidara gəlməsinin ardından əldə edilən siyasi stabillik adına narahatçılığa sövq edən spekulasiyalar İlham Əliyevin iqtidara gəlməsi ilə minimuma

endirilərək gözlənilənlər özünü doğrultmuşdur. Daha sonra da iqtisadi mühitin əlverişliliyini və cazibəsini Bakıyla yanaşı ölkənin bütün regionlarına da daşıyacaq dövlət təşviq siyasətlərinin və proqramlarının həyata keçirilməsi və Bakı-Ceyhanın fəaliyyətə keçməsindən sonra əldə ediləcək neft ixrac gəlirləri ilə ölkə, hər bir region və sektorunu əhatə edəcək mahiyyətdə kompleks bir inkişaf mərhələsinə qədəm qoymuşdur.

İqtisadiyyatının son 20 ilində makroiqtisadi stabillik, müvəffəqiyyətli neft strategiyası, itirilən iqtisadi potensialın yenidən əldə edilməsi, radikal iqtisadi islahatlar və yenidən qurulma şəklində ifadə edilə biləcək olan inkişaf mərhələsindən sonra 2010-ci ildən etibarən Prezident İlham Əliyevin ifadəsiylə Azərbaycanda keçid dövrü başa çatmış və ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur.

İKİNCİ FƏSİL
MAKROİQTİSADİ ANALİZ

Birinci hissədən də göründüyü kimi Azərbaycan iqtisadiyyatı müstəqillikdən sonrakı keçid dövründə digər ölkələr ilə müqayisədə nəzərə çarpacaq dərəcədə irəliləyişlər əldə etmişdir. Zəngin enerji ehtiyatlarının mövcud olması isə, bu sektora xarici investorları cəlb edərək iqtisadi yüksəlişə təşviqedici amillərin başında gəlir. Azərbaycanda iqtisadi inkişaf, makroiqtisadi stabilliyin hökm sürdüyü bir mühitdə davam edir. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına əsasən, 2015-cü ildə dünya iqtisadiyyatının artım tempi 2014-cü ildə olduğu kimi 3.4% təşkil etmişdir.

2014-cü ildə İnkişaf Etməkdə Olan Ölkələr (İEOÖ) üzrə artım tempi 4.6% təşkil etməklə 2013-cü il ilə müqayisədə 0.4 f.b. az olmuşdur. Artım tempinin aşağı düşməsi bir sıra amillərlə, xüsusən də, dünya bazarında əmtəə qiymətlərinin aşağı olması, Çin iqtisadiyyatının artım tempinin azalması və xarici tələbdən daxili tələbə keçiddən qaynaqlanan çətinliklər, eləcə də, Müstəqil Dövlətlər Birliyinin əhatə etdiyi region, Yaxın Şərq və Şimali Afrikada mövcud çətin geosiyasi vəziyyət ilə izah olunur. İnkişaf Etmiş Ölkələr (İEÖ) qrupu üzrə iqtisadiyyatın artım tempi 2014-cü ildə 1.8% olmuşdur. Bu ölkələr üzrə iqtisadiyyatın artım tempinin sürətlənməsi ABŞ-da tələbatın və investisiyaların artımı, avrozonada isə iqtisadiyyatın yenidən canlanması ilə əldə edilmişdir. Belə ki, 2013-cü ildə avrozonada 0.4% azalmadan sonra 2014-cü ildə 0.8% artım qeydə alınmışdır. BVF-in proqnozlarına əsasən, 2015-ci ildə dünya iqtisadiyyatının artım tempi qismən azalaraq 3.3%, 2016-cı ildə isə yenidən artaraq 3.8% olacaq. Dünya Bankının proqnozuna əsasən isə dünya üzrə iqtisadi artım müvafiq olaraq 2.0% və 2.4% olacaqdır. 2015-2016-cı illərdə dünya ölkələri, eləcə də əsas regional birliklər üzrə iqtisadi artım dinamikasında ciddi fərqlər proqnozlaşdırılır. BVF-in qiymətləndirmələrinə əsasən, İEOÖ üzrə artım tempi 2015-2016-cı illər üzrə 4.2% və 4.7%, İEÖ qrupu üzrə isə müvafiq olaraq 2.1% və 2.4% təşkil edəcəkdir. Ümummilli Lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi sayəsində Azərbaycanda dinamik inkişaf etmiş, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın və regionların inkişafı sürətləndirilmişdir. Bu sahədə nailiyyətlərin davamlılığının təmin edilməsi ilə bağlı ortamüddətli dövr üçün prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Ortamüddətli dövrdə ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sahələrinin və regionların inkişafının sürətləndirilməsi, özəl bölmə-

nin inkişafı üçün azad rəqabət və əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər davam etdiriləcək, ölkəmizin dünya iqtisadi sistemindəki mövqeyi daha da möhkəmləndiriləcəkdir.

Aşağıda keçid dövrünü yaşayan Azərbaycan iqtisadiyyatının makroiqtisadi cəhətləri analiz ediləcəkdir.

Cədvəl 1. 2016-2019-cu illər üzrə Azərbaycan Respublikasinin əsas makroiqtisadi proqnoz göstəriciləri

Göstəricilər	Ölçü vahidi	Hesabat		Proqnoz				
		2013	2014	2015	2016	2017	2018	2019
REAL SEKTOR								
ÜDM bazar qiymətləri ilə	**mln AZN**	**58182,0**	**58977,8**	**57151,7**	**57735,1**	**60190,4**	**63143,2**	**67511,7**
real artım tempi	%	5,8	2,8	3,3	1,8	2,6	3,6	5,0
deflyator	%	0,4	-1,4	-6,2	-0,8	1,6	1,2	1,8
Neft sektoru, ÜDM, bazar qiymətləri ilə	**mln AZN**	**24968,4**	**23009,2**	**17829,0**	**16285,3**	**15940,5**	**16103,2**	**17348,5**
real artım tempi	%	1,0	-2,9	-0,6	-1,7	-2,4	0,3	4,9
deflyator	%	-3,0	-5,1	-22,0	-7,1	0,3	0,7	2,7
payı (ÜDM-də)	%	42,9	39,0	31,2	28,2	26,5	25,5	25,7
Qeyri-neft sektoru, ÜDM, bazar qiymətləri ilə	**mln AZN**	**33213,6**	**35968,6**	**39322,7**	**41449,8**	**44249,9**	**47040,0**	**50163,2**
real artım tempi	%	10,0	7,0	5,9	3,4	4,6	4,8	5,0
deflyator	%	3,2	1,2	3,3	2,0	2,1	1,4	1,5
payı (ÜDM-də)	%	57,1	61,0	68,8	71,8	73,5	74,5	74,3

Mənbə: http://www.economy.gov.az/images/pdf/konsepsiya_2016.doc

2.1. ÜMUMİ DAXİLİ MƏHSUL

Ölkədə müstəqilliyin əldə edildiyi ilk illərdə müasir bir vergi sisteminin tətbiq edilməməsi, xarici ticarətdəki məhdudiyyətlər, milli gəlirin aşağı olması ilə yanaşı, müharibə və parçalanma nəticəsində ortaya çıxan problemlər səbəbiylə milli gəlirdə ciddi azalmalar ortaya çıxmışdır[39]. Belə ki, sosialist iqtisadiyyatdan liberal iqtisadiyyata keçid dövrünü yaşayan Azərbaycanda 1991-1995-ci illər arasında 60% nisbətində azalma baş vermişdir. 1991-1995-ci illər arasında ÜDM-da əhəmiyyətli sayılacaq dərəcədə geriləmələr olsa da, 1995-ci ildən etibarən BVF və Dünya Bankı ilə ortaqlıq çərçivəsində başladılan iqtisadiyyatda yenidən formalaşma və özəlləşdirmə proqramları çərçivəsində həyata keçirilməyə başlanan iqtisadi stabillik proqramı ilə 1996-cı ildən etibarən inkişaf dövrünə qədəm qoyulmuşdur. Keçid dövründə Azərbaycan iqtisadiyyatı köhnə SSRİ ölkələri arasında ən sürətli böyüyən ölkələrdən biri olmuşdur.

[39] Saleh Məmmədov, *İnflyasiya və Maliyyə Bazarı*, Bakı 1998, s.48.

Böyümənin təkan verici qüvvəsi isə, xarici investisiya qoyuluşunun və ixrac gəlirlərinin ən çox olduğu karbohidrogen sektorudur.

1995-ci ildə 11.8% olan ÜDM, 1996-cı ildən etibarən artmağa başlamışdır. 1998-ci ildə Rusiyadakı böhrandan təsirlənməyinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının 10% böyüməsində, dünyada artmağa başlayan neft qiymətlərinin və neft müqavilələrinin ölkəyə cəlb etdiyi xarici investisiyanın və ilin xüsusilə son rübündə inşaat sektorundakı irəliləyişlər və xarici ticarətdəki inkişafların böyük təsiri olmuşdur. Azərbaycan iqtisadiyyatında 1999-cu ilin əvvəllərində sabitlik hökm sürməsinə baxmayaraq yenə neft və təbii qaz sektorlarına qoyulan investisiyalarda artım davam etmişdir. Ancaq, digər sektorlarda inkişaf aşağı səviyyədə qalmışdır.

Cədvəl 2. Ümumi Daxili Məhsul

İllər	Milyon manat	Milyon ABŞ dollar	Adambaşına	
			manat	$
1995	2133.8	2415.2	282.1	319.3
1996	2732.6	3180.8	357.5	416.1
1997	3158.3	3960.7	409.2	513.2
1998	3440.6	4446.4	441.5	570.6
1999	3775.1	4583.7	480.1	582.9
2000	4718.1	5272.8	595.1	665.1
2001	5315.6	5707.7	665.2	714.3
2002	6062.5	6235.9	752.9	774.4
2003	7146.5	7276	880.8	896.8
2004	8530.2	8680.4	1042	1060.3
2005	12522.5	13238.7	1513.9	1600.4
2006	18746.2	20983	2241.1	2508.5
2007	28360.5	33050.3	3351.8	3906.1
2008	38005.7	46258.2	4439.9	5403.9
2009	34060.8	42575.7	3917.3	4874.1
2010	42465.0	52909.3	4753.0	5922.0
2011	52082.0	65951.6	5752.9	7285.0
2012	54743.7	69683.9	5966.1	7594.3
2013	58182.0	74164.4	6258.3	7977.4
2014	58977.8	75188.4	6264.1	7985.9
2015	54352,1	51471.7	5661.2	5361.2

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK) nəşrlərinə əsasən hesablanmışdır.

2000-ci ildə bu artım 1990-cı ildən bəri ən yüksək həddinə qalxaraq 11.1%-ə çatmışdır. 2000-ci ildə BMT dövlətləri arasında ən yüksək iqtisadi artım Azər-

baycanda müşahidə edilmişdir. ÜDM-nin real artımına təsir edən ünsürlərdə isə dəyişikliklər olmuşdur[40].

2001-2002-ci illərdə də yenə 10% həcmində bir böyümə əldə edilmişdir. 2003-cü ildə iqtisadiyyatın bütün sahələrindəki istehsalda artım baş verdi. Bu artım əsasən də inşaat və emalat sənayesində oldu. Həmin bu sahələrdə əlavə dəyər artımı inşaatda 61%, emalatda 17.7% oldu. 2003-cü ildə ölkədaxili istehsalatda istehsalat sahələrinin çəkisi əvvəlki il ilə müqayisədə 60.1%-dən 63.1%-ə yüksəldi. Xidmət sahələrinin çəkisi isə, 31.9%-dan 30%-ə gerilədi.

2008-ci ildə iqtisadiyyatın bütün sektorlarında istehsal artımı davam etmişdir. Nəticədə, 1997-ci ildə ÜDM-nin artma sürəti 5.8%-ə, 1998-2008-ci illərdə isə 24 %-ə çatmışdır.

Neft gəlirlərinin ölkəyə daxil olması və İnkişaf Proqramları çərçivəsində atılan addımlar nəticəsində 2014-cü ildə ÜDM 75 milyard dollara çatmışdır.

Adam başına düşən ÜDM, 1990-cı illərin birinci yarısında baş verən iqtisadi böhran səbəbiylə əhəmiyyətli dərəcədə azalmışdır. 1990-1993-cü illərdə 7 dəfə azalan həyat səviyyəsi 1995-ci ildən sonra tətbiq edilməyə başlanan tədbirlərlə[41] artmağa başlamışdır. 1995-ci ildən etibarən hər il artan ÜDM, nəhayət 2014-ci ildə bir əvvəlki ilə nəzərən 11.6% artaraq 7986 dollar olmuşdur. Gəlir səviyyəsindəki artım insanların mal satın alma güclərinin artmasına, bu da öz növbəsində real sektorun inkişafına zəmin yaradan amillərdən olmuşdur. Fəqət 2015-ci ildə Azərbaycanın neft qiymətlərinin kəskin azalmasından dolayı əldə etdiyi valyuta gəlirləri azalmış və bundan dolayı Mərkəzi bank iki dəfə devalvasiya etmək məcburiyyətində qalmışdır. 2015-ci ildə ÜDM kəskin azalmasının bir səbəbi də dolların məzənnəsindən dolayıdır.

2003-2005-ci illərdə Azərbaycanda yoxsulluğun azalması və İqtisadi İnkişaf Haqqında Dövlət Proqramı 20 fevral 2003-cü ildə ölkə başçısının fərmanı ilə təsdiq edildi. Yoxsulluğun ortadan qaldırılması ilə bağlı dövlət proqramı, makroiqtisadi stabilliyin güclənməsi, gəlir əldə etmə imkanlarının artırılması, təhsil və səhiyyə sahələrinə qoyulan investisiyaların artırılması və xidmətlərin yaxşılaşdırılması, infrastrukturun yaxşılaşdırılması, xalqın aşağı gəlirli hissəsinin sosial təhlükəsizliyinin artırılması, köçkünlərin həyat səviyyələrinin yaxşılaşıdırılması istiqamətlərində cəmləşmişdir. İqtisadi dirçəliş, sosial siyasət və insan faktorunun inkişafı, regional siyasət və struktur inkişafla yanaşı mövcud potensialın inkişafı olmaqla dörd fərqli yoldan məqsədlərə çatmağa çalışılır.

---

[40] "Azərbaycan Respublikasının Sosial-İqtisadi Vəziyyəti", *Mərkəzi Bank İllik Hesabatı-2014,* Azərbaycan Respublikası Milli Bankı.

[41] E. S. İmanov - E. M. Babaşov-R. H. Dayıyev, "İqtisadi İslahatlar Şəraitində Əhalinin Sosial Müdafiəsinin Təşkili Məsələləri", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.102.

Azərbaycan hökuməti 2003-2005-ci illəri əhatə edən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Haqqında Dövlət Proqramı" sonrası 2006-2015-ci illəri əhatə edəcək yeni bir proqram həyata keçirmişdir. İlk proqramın qəbul edildiyi 2003-cü ildə 44.7% olan yoxsulluq səviyyəsi 2010-cü ildə 11.5%-ə düşmüşdür. Bu nisbətin 2005-ci ildən etibarən hər il bir az daha aşağı düşdüyü müşahidə olunur. "Uzun müddətli Davamlı İnsan İnkişaf Strategiyası" olaraq adlandırılan yeni proqramın isə məqsədi 2015-ci ilə qədər Azərbaycanda yoxsulluq səviyyəsini 5-6%-ə salmaqdır[42].

Son 10 ildə minimum əməkhaqları, ehtiyac meyarı və yaşayış minimumunun məbləğinin artırılması nəzərə çarpır. Bu indeks üzrə orta hədd 2004-cü ildə 25, 2005-ci ildə 52, 2006-cı ildə 58, 2007-ci ildə 64, 2008-ci ildə 70 manat, 2009-cu ildə 84, 2010-cu ildə 87, 2011-ci ildə 102, 2012-ci ildə 108, 2013-cü ildə 116, 2015-ci ildə isə 136 manat təşkil edib. Minimum əmək haqqını artırmaqda məqsəd dövlət siyasətinə müvafiq olaraq xalqın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, yoxsulluğun azaldılmasını və xalqın aşağı gəlirli hissəsinin həyat səviyyəsinin yüksəltməkdir.

2001-2015-ci illər arasında mininun əmək haqqları 250% artmışdır. Xalqın maddi gəlirində özəl mülkiyyətə və özəl təşəbbüsə istinad edən fəaliyyətlərdən əldə edilən gəlirlər əhəmiyyətli yerə sahibdir. Özəl mülkiyyətin payı və sahibkarlığın inkişafı üçün yaradılan imkanlarla bu fəaliyyətlərdən əldə edilən gəlirlər hər il artır.

Qrafik 1. ÜDM-nin Sektoral Bölgüsü (%)



Mənbə: ARDSK Nəşrləri.

[42] 'Gov't Says New Program Will Halve Poverty Level', *Azernews*, No:10(400), March 8– March 15, 2005, s.3.

Maddi gəlirləri içində əmək haqqları ikinci yeri tutur. Rəsmi rəqəmlərə görə ortalama aylıq əmək haqqı 1995-ci ildə 14, 2000-ci ildə isə 50 dollar olmuşdur. Ortalama aylıq əmək haqqı 2003-cü ildə 383.1 min manat (78 dollar) oldu. Bu miqdar 2002-ci il ilə müqayisədə 21.4% daha çoxdur. Ortalama əmək haqqı miqdarına görə Ermənistan və Gürcüstanı keçməsinə baxmayaraq Azərbaycan, enerji daşıyıcıları olan Rusiya və Qazaxıstan kimi ölkələrdən hələ də geridədir. MDB ölkələri arasında yaşayış minimumunun göstəricilərinə diqqət yetirsək, 2011-ci ildə Azərbaycan (136$) Rusiyadan (217$) sonra ikinci yeri tutmuşdu. Beləliklə, 2015-cü ildə orta əmək haqqını cəmi 3,9 faiz, yəni 450,3 manata qədər artıracaqlar, 2016-cı ildə isə onun 562,7 manata çatdırılması proqnozlaşdırılır.

Sənaye, energetika, nəqliyyat, inşaat və maliyə sektorlarında işləyən və ticarətlə məşğul olanların əmək haqqları digər sektorlarda işləyənlərə görə nisbətən yüksəkdir.

Azərbaycanda iqtisadi islahatların BVF-nin məsləhətləri istiqamətində əsasən Monetarist tərzdə həyata keçirilməsi səbəbiylə[43] sərt pul siyasətinin və dövlət xərclərini azaldaraq büdcə siyasətinin tətbiqi, rifah səviyyəsi çox aşağı olan və hələ arzulanan səviyyəyə çatmamış hissəsinin üstünlük təşkil etdiyi əhaliyə mənfi təsir göstərir. Bu tətbiqatlara paralel olaraq qaz, yanacaq və çörəyə tətbiq olunan subsidiyaların qaldırılması, köçkünlər, əlillər və şəhid ailələri xaricində elektrik, su, ictimai nəqliyyat kimi sahələrdə əvvəlcədən bilinən üstünlüklərin və ya güzəştlərin qaldırılması və s. keçid dövründə çətinliklərin ortaya çıxmasına səbəb olur[44].

Regional həcmiylə adam başına düşən milli gəlir incələndikdə Bakıda ortalama gəlir səviyyəsinin yüksək olduğu, digər şəhərlərdə isə gəlir səviyyəsinin Bakıdakı gəlir səviyyəsinin təqribən yarısını təşkil edəcək bir səviyyədə, yəni xeyli aşağı olduğu müəyyən edilmişdir[45].

İslahatların tətbiq edilməsi nəticəsində ÜDM-nin sektorlar üzrə bölgüsündə və özəl sektorun iqtisadiyyatdakı çəkisində müəyyən dəyişikliklər olmuşdur.

ÜDM içində özəl sektorun çəkisi 1995-ci ildə 34% ikən, hər il artaraq 2015-cü ildə 79%-ə çatmışdır. ÜDM içində ən böyük çəkiyə isə, sənaye və təsərrüfat sektorları sahibdir. Qoyulan investisiyalar nəticəsində neft hasilatının ÜDM-dəki çəkisi əhəmiyyətli dərəcədə artmışdır. SSRİ dövründən qalan və faydalı sənaye istehsalını dəstəkləyəcək vəziyyətdə olmayan infrastrukturun yenidən inşa edilməsiylə inşaat və nəqliyyat sektorlarında da mühüm irəliləyişlər əldə edilmişdir.

---

[43] E. Ö. Hüseynov, "Reformatika və Onun Hiper dövrə Uyğunlaşdırmanın Zəruriliyi", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.92.

[44] Faruk Arslan, "Azərbaycan Ekonomisində Geçiş Dönemi", *Hazar Bilim Sanat ve Kültür Dergisi*, S.1, Bahar-2000, s.17.

[45] *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 2009*, ss.16, 22.

Qrafik 2. 2015-ci İl ÜDM-nin Sektoral Bölgüsü (%)



Mənbə: ARDSK Nəşrləri.

Tərəqqi və inkişaf dövrü yaşayan Azərbaycanda sənayeləşmənin tamamlanması, təsərrüfat sektorunun müasirləşməsi və tam iş gücünün əldə edilə bilməsi üçün yüksək bir inkişaf sürətinə ehtiyac vardır. İnkişaf etməkdə olan bir ölkə olaraq Azərbaycandakı real milli gəlirdəki artımın yüksək olması, inkişaf etmiş ölkələrlə arasındakı uçurumu aradan qaldırmaq baxımından da xüsusi bir əhəmiyyətə sahibdir. Gəlir səviyyəsinin aşağı olması yığımı azaltmaqda, yığımın az olması isə öz növbəsində investisiya qoyuluşlarının azalmasına səbəb olur. İnvestisiya azlığı isə istehsal həcmindəki artımın kifayət qədər olmamasına səbəb olur. Xülasə, "kasıblar kasıb olduqları üçün kasıbdırlar" şəklində ifadə olunan kasıblıq məhdud dairəsindən qurtulmaq üçün real milli gəlirdə artım əldə edilməlidir.

İqtisadi inkişaf sürətinin yüksək olması isə yenidən formalaşmağı vacib edən bir məqsəd olduğundan, problemin həlli uzun müddətli bir məqsəd olaraq diqqətə alınmalıdır.

Digər tərəfdən gəlir bölgüsünün nizamlanması, Azərbaycanda sürətli inkişafın ilk şərtidir. Belə ki, "varlını daha varlı, kasıbı daha kasıb edən" kapitalist rejimi ilə, gəlir və sərvət bölgüsündə ədalət diqqətə alınmadan, kapital yığımı əldə edərək dirçəlişi həyata keçirmək mümkün olacaqdır. Çünki, birinci olaraq telekommunikasiya əsri adlandırılan zəmanəmizdə məlumat alüdəliyi, kapital yığımına qarşı ictimai reaksiya yaradaraq ölkə daxili ümumi stabilliyin pozulmasına səbəb ola biləcək bir səviyyədədir. Digər tərəfdən ölkədə inkişafın əldə edilməsi, əvvəlcə ölkə daxili tələb artımını vacib edər. Bu səbəblə də gəlir bölgüsünü nizamlamaq, daxili bazarı genişlədib ümumi tələbi artıraraq sənayeni təşviq edəcəkdir.

2005-ci ilin sonundan etibarən əldə edilən neft gəlirləri ilə yanaşı, təşviq siyasətləri ilə xarici sərmayənin ölkəyə çəkilməsi və bu çərçivədə 2004-2018–ci illəri əhatə edən 3 regional sosial-iqtisadi inkişaf proqramının tətbiq edilməyə başlaması, gəlir bölgüsündə ədalət çərçivəsində real milli gəlirin yüksək səviyyədə saxlanılması üçün mövcud təhlükələri ortadan qaldırma baxımından ən vacib imkan və addımlardır.

2.2. İNFLYASİYA

Azərbaycan xalqı inflyasiya məfhumu ilə 1990-cı illərin əvvəllərində tanış olmuşdur. İttifaq ölkələri arasında iqtisadi müstəqilliyin mövcud olduğu SSRİ-nin dağılmasından sonra şirkətlərin fəaliyyətlərinin dayanması, ümumi təklifin əhəmiyyətli dərəcədə azalmasına və nəticədə inflyasiyanın yüksəlməsinə səbəb olmuşdur.

Xalqın əllərindəki malları bazara çıxartmaları ilə ümumi tələb müəyyən dərəcədə qarşılandı. Bunun nəticəsi olaraq isə, 1990-1991-ci illərdə daha sonrakı illərə nisbətən inflyasiya nisbəti aşağı səviyyədə seyr etmişdir. İqtisadiyyatda qiymət nəzarətinin qaldırılaraq qiymətlərin üzdə sərbəstləşdirilməsi və keçid dövrünün ilk dörd ilində yaşanan müharibə səbəbiylə dövlət xərclərindəki artım səbəbiylə ortaya çıxan büdcə kəsirlərinin açıq maliyyə üsulu ilə qarşılanması qiymət artımlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur.

1994-cü ilə qədər pul təklifində diqqətə alınacaq bir göstəricinin olmaması və büdcə kəsirlərini qarşılamaq üçün mütəmadi olaraq pul emissiyasına müraciət edilməsi, manatın mütəmadi olaraq dəyərini itirərək hiper-inflyasiya dövrünə girilməsinə səbəb olmuşdur. Bundan əlavə baş verən inflyasiya dövründə Rusiya-Çeçenistan müharibəsi səbəbiylə şimal dəmir yolu xəttinin bağlanması ilə idxaldakı azalış və xarici ticarət ilə əlaqədar bəzi maliyə təşkilatlarının tətbiq etdikləri üsullar da əsas rol oynamışdır[46].İnflyasiya dövründə Milli Bankın müdaxiləsinə baxmayaraq, Azərbaycan manatının ABŞ dollarına qarşı dəyər itirməsi və istehlak malları seçimlərinin idxala istiqamətlənməsi də böyük rol oynamışdır.

Qısacası SSRİ-nin dağılmasının ardından miras qalan və yaşanan iqtisadi problemlər və müharibə səbəbiylə inflyasiya dörd xanalı rəqəmlərə yüksəlmişdir. 1992-1994–cü illərdə dörd xanalı rəqəm olaraq ortaya çıxan inflyasiya 1763.5% ilə 1994-cü ildə ən yüksək həddə çatmışdır. 1994-cü ilin may ayında əldə edilən atəşkəs və alınan tədbirlərlə birlikdə 1995-ci ildən etibarən inflyasiyanın azalmağa başlamasına baxmayaraq inflyasiya nisbəti 511.8% olaraq müəyyənləşdirilmişdir. BVF ilə birlikdə hazırlanan inkişaf proqramlarının birincisi ilə başlayan sərt pul siyasətinin tətbiq edilməsi nəticəsində 1996-cı

[46] Nəsimi Kamalov, "1990-2000 ci İllər Arasında Azərbaycan'da İnflyasiya", *Journal of Qafqaz University*, Number 6, Fall-2000, ss.67-70.

ildən etibarən iqtisadiyyatı inflyasiyadan xilas edəcək şəkildə qiymətlərin ümumi səviyyəsində stabillik əldə edilmişdir. Nəticə etibariylə, hökümətin Ermənistanla imzalanan atəşkəsdən sonra tətbiq etməyə başladığı stabillik proqramı yüksək inflyasiyaya son vermişdir. Stabillik proqramının tətbiq edilməsinin nəticəsi olaraq 1997-ci ildə inflyasiya tək xanalı olmuşdur.

1998 və 1999-cu illərdə isə, qiymətlərdə əhəmiyyətli azalmalar müşahidə edilmişdir. Açıq bazar iqtisadiyyatına sahib olan Azərbaycan, milli valyutanın əsas ticarət ortaqlarının milli valyuta qarşısında dəyər qazanması nəticəsində idxal mallarındakı azalmadan istifadə etmişdir. 1999-cu ildə qiymətlərdə təqribən 8.5% azalma müşahidə edilmişdir.

1999-cu ilin ikinci yarısından etibarən tətbiq edilən sərt pul siyasətinin yumşaldılması nəticəsində 1998-1999-cu illərdə deflyasiyanın baş verdiyi ölkədə 2000-ci ildən etibarən qiymətlərin ümumi səviyyəsində yenidən artım müşahidə edilməyə başlamışdır. 2005-ci ildə isə 12.4% olan inflyasiya diqqətçəkən həddə çatmışdır.

2008-ci ildəki inflyasiyanın sadəcə 1/3-i milli valyuta həcminin artması kimi maddi amillərdən qaynaqlanmışdır. İnflyasiya daha çox neftin satış qiymətindəki artım və regionda avronun yüksəlməsi ilə izah olunur.

Qrafik 3. İnflyasiya Tempi



Mənbə: ARDSK Nəşrləri 2015

2008-ci ildə ortaya çıxan inflyasiyada tələb amilləri, bu çərçivədə xalqın maddi gəlirində 30% artış və investisiya həcmindəki artış əsas rol oynamışdır. Xərclərdəki artım da rol oynamışdır. 2008-ci il sənaye məhsulları istehsal qiy-

mətləri 10.9% artmışdır. Maya dəyəri inflyasiyası baxımından enerji məhsulları qiymətlərində meydana gələn artımda rol oynamışdır.

2007-ci ildə inflyasiyaya tələbin artımı kimi ənənəvi amillər, struktur çərçivəsində komunal sektorun islahatları tədbirləri və Azərbaycanın idxal etdiyi bəzi ərzaq məhsullarının (şəkər, buğda və s) dünya bazar qiymətlərinin yüksəlməsi səbəb olmuşdur. Cari ildə inflyasiya ötən ilə nəzərən 16,7% təşkil etmişdir. Ərzaq məhsulları 16,2%, qeyri-ərzaq məhsulları 10,5%, xidmətlər isə 25,3% bahalaşmışdır. 2008-ci ildə isə inflyasiya 15,4% olmuşdur ki bu da beynəlxalq təşkilatların verdiyi proqnozlardan (20-22%) aşağıdır.

2009-cu ildə orta illik inflyasiya səviyyəsi azalaraq 1,5% təşkil etmişdir. Bu da keçən ilki səviyyədən 10 dəfə aşağıdır. Orta illik inflyasiyanın aşağı səviyyədə saxlanılması bütün sosial göstəricilərin real artımına müsbət təsir göstərmişdir. 2010-cu ildə inflyasiya səviyyəsinə ərzaq məhsullarının təklifi çoxluğu və qiymət dinamikası təsir göstərmişdir. Cari ildə illik inflyasiya 7,9%, orta illik inflyasiya (dövlət tərəfindən tənzimlənən malların qiymətlərinin dəyişimindən və mövsümi amillərdən təmizlənmiş inflyasiya) 5,7% olmuşdur. Orta illik inflyasiyanın 3,9%-i ərzaq məhsullarının, 0,6% qeyri-ərzaq məhsulları və 1,2% xidmətlərin bahalaşması ilə əlaqəli olmuşdur. May-iyul ayında müşahidə olunan mövsümi aylıq defilyasiya avqust ayından etibarən qiymət artımı ilə əvəz olunmuşdur. Ərzaq məhsullarının qiymətinin artımına təsir edən əsas amillər mövsümi amillər və dənli bitkilərin dünya bazarında qiymətlərinin artımı olmuşdur. Qeyri-ərzaq mallarının bahalaşmasında əsas amillərdən biri Rusiyada baş verən meşə yanğınları ilə əlaqədar ölkəyə idxal olunan tikinti materiallarının qiymətlərinin bahalaşması olmuşdur. Orta illik inflyasiya 3,5%, ilin əvvəlinə nisbətən isə 6% olmuşdur.

2011-ci ildə də inflyasiya xarici amillərdən qaynaqlanmışdır. Cari ildə inflyasiya 7,9% olmuşdur. Ötən ildə olduğu kimi bu ildə də inflyasiyaya ərzaq məhsullarının qiymət artımı təsir etmişdir. Ümumilikdə isə son 3 ildə Azərbaycanda orta illik inflyasiya MDB və neft ixrac edən İEOÖ-dəki infilyasiya səviyyəsindən aşağı olmuşdur. 2012-ci ildə orta illik inflyasiya 1,1% olmuşdur ki bu da son 3 il ərzində ən aşağı inflyasiya səviyyəsidir. Ərzaq məhsullarının qiymətlərində isə 7,9% müşahidə olunmuşdur. 2013-cü ildə qiymət sabitliyi təmin olunmuş və orta illik inflyasiya 2,4% olmuşdur. Dünya iqtisadi forumuna görə Azərbaycan ən aşağı inflyasiya səviyyəli 7 ölkədən biridir. 2013-cü ildə xidmətlərin qiymətlərinin artımının orta illik inflyasiyanın formalaşmasında təsiri ötən illərlə müqayisədə yüksək olmuşdur. 2014-cü ildə həyata keçirilən siyasət nəticəsində qiymət sabitliyi qorunmuş və inflyasiya aşağı-təkrəqəmli səviyyədə təmin olunmuşdur. Ticarət tərəfdaşları ilə müqayisədə qiymətlərin artım tempinin aşağı olması iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə müsbət təsir etmişdir. Cari ildə orta illik inflyasiya ötən illə müqaisədə 1% bəndi azalaraq 1,4% təşkil etmişdir. Bu inflyasiya 0,4% bəndi ərzaq məhsullarının, 0,8%-i

qeyri-ərzaq məhsullarının və 0,2%-i xidmətlərin qiymətlərinin artması ilə əlaqəli olmuşdur.

Qiymətlərin ümumi səviyyəsinə təsir edən xarici təsirlər olaraq neftin qiymətinin dünya bazarındakı artımı nəticəsində, xarici ticarətin həyata keçirildiyi ölkələrdə istehsal xərclərindəki artım və avronun güclənməsi səbəbiylə avro zonadan idxal olunan malların qiymətlərində müəyyən nisbətdə artım müşahidə olunmuşdur. Bundan əlavə, Rusiya sərhədlərində keçidlərdə baş verən problemlər və taxıl idxalına ƏDV üzərinə tətbiq olunan güzəştlərin sona çatması da inflyasiyaya səbəb olan amillərdəndir.

İqtisadiyyatda keçid dövrü yaşayan Azərbaycanda inflyasiya struktur xarakter daşıyır. İqtisadiyyatda ümumi təklif ilə ümumi tələb arasındakı balansın inkişafın dinamik dövrü ərzində əldə edilməsi asan deyil. Təsərrüfat sektorunda müasirləşmənin hələ həyata keçməmiş olması, sənaye istehsalında miqdar və növ baxımından zəiflik, istehlakçı və istehsalçı arasında marketinq problemləri kimi səbəblər inflyasiyanın 2005-ci ildə iki xanalı olmasının əsas səbəbləridir.

Qiymətlərin ümumi səviyyəsində stabillik baxımından diqqət edilməsi lazım olan nöqtələrdən biri budur: Qiymət stabilliyi məqsədi ilə yüksək istehsal artımı və tam iş gücünə yaxınlaşma məqsədləri arasında ziddiyyət var. Çünki, qısa müddətdə qiymət artımları, digər şərtləri dəyişməmək şərtiylə istehsalçıların qazanc nisbətini artıracağından, istehsalçını daha çox istehsala təşviq edəcəkdir. Beləliklə, həm yüksək böyümə səbəbi, həm də məşğulluqda artım əldə ediləcəkdir. Bu baxımdan, nəzarət altında olmaq şərtiylə Azərbaycanda 10-15% ətrafında inflyasiya nisbəti normal qəbul olunur.

2.3. MƏŞĞULLUQ

Ölkə iqtisadiyyatında baş verən keçid və durğunluq səbəbiylə iş qabiliyyəti olan insanların böyük əksəriyyəti işsiz qalmışdır. Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi nəticəsində ərazidən 1 milyondan çox köçkünün olması da məşğulluq problemini artıran amillərdəndir. Məşğulluq potensialının beynəlxalq dövriyyəsi Azərbaycanda problem olmuşdur. Azərbaycanda məşğulluğun dövriyyə sürəti çox yüksəkdir. Bu vəziyyət ölkənin gələcək demoqrafik vəziyyətinə ciddi təsir göstərəcəkdir. Digər tərəfdən ölkədə təcrübəli məşğulluğa verilən dəyər də az olduğundan onlar da ölkəni tərk edirlər. İşsizlərin böyük əksəriyyəti Rusiya, Türkiyə, İran kimi qonşu ölkələrə istiqamətlənirlər. Ölkəni bu şəkildə tərk edənlər arasında gənc və orta yaşlı insanlar üstünlük təşkil edirlər. Bu cür "beyin köçü" dövrünün son 5-6 ildə daha da artdığı müşahidə edilir[47]. Azərbaycan hökuməti ölkə xaricinə köçənlərin ölkəyə qayıtmaları üçün 2005-ci ildən etibarən sosial islahatlara üstünlük verməyə başlamışdır.

[47] "Investment Possibilities of Azerbaijan", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001, s.20; Azər Mehdiyev, "Azərbaycan'ın Dünya İqtisadiyyatına İnteqrasiyasının Reallıqları", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001, s.26.

Ermənistan və erməni işğalındakı torpaqları tərk etmək məcburiyyətində qalanların 60%-i iqtisadi olaraq aktiv qəbul edilmələrinə baxmayaraq köçkünlərin böyük bir qismi işsiz olub, dövlətdən aldıqları yardımlarla həyatlarını davam etdirməyə çalışırlar.

Dövlət işsizlik problemini həll etmək məqsədiylə bəzi qərarlar almışdır. Bir tərəfdən yeni iş yerlərinin açılması, uyğun bazar sisteminin qurulması (əmək bazarı, ixtisas dəyişmə kursları və s.), digər tərəfdən işsizlərin sosial müdafiəsi üçün tədbirlər alır. Son illərdə özəl sektorun inkişafı da bu problemin həllinə yeni imkanlar verir.

Ümumi əhalinin məşğulluq səviyyəsinin müəyyən müddət ərzində çox az bir artış göstərdiyi müşahidə olunur. Ümumi əhalinin məşğulluq ilə təmin edilən hissəsi 1998-ci ildə 53.4%, 1999-cu ildə 56.7%, 2000-ci ildə 56.8% və 2001-ci ildə 56.9% olmuşdur. 2015-ci ildə isə bu göstərici 80% ətrafında olmuşdur.

Cədvəl 3. Məşğul olan əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (min nəfər)

	2005	2010	2011	2012	2013	2014
İqtisadiyyat üzrə – cəmi	4062.3	4329.1	4375.2	4445.3	4521.2	4602.9
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	1573.6	1655.0	1657.4	1673.8	1677.4	1691.7
Mədənçıxarma sənayesi	42.3	41.5	41.2	41.8	42.3	41.5
Emal sənayesi	198.4	208.9	210.3	215.6	224.1	227.1
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	27.9	30.6	30.8	31.2	32.3	29.8
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	23.9	25.2	24.6	24.7	25.7	25.8
Tikinti	211.9	287.5	308.9	321.8	325.5	334.1
Ticarət; nəqliyyat vasitələrinin təmiri	634.8	626.7	635.4	646.8	664.0	681.9
Nəqliyyat və anbar təsərrüfatı	174.6	179.1	181.8	182.7	183.8	185.1
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	25.1	46.9	48.1	48.9	49.2	55.7
İnformasiya və rabitə	32.3	55.8	58.0	58.7	58.1	59.2
Maliyyə və sığorta fəaliyyəti	18.1	24.4	26.3	26.9	30.6	32.8
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	82.1	69.6	71.2	74.8	79.4	85.6
Peşə, elmi və texniki fəaliyyət	43.4	45.6	46.7	54.6	56.3	58.5
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	38.7	46.5	47.4	49.2	52.4	53.7
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	256.6	279.1	281.0	281.7	282.3	285.2
Təhsil	345.1	349.8	349.9	349.0	366.2	367.3
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	188.8	170.3	165.2	165.4	171.8	176.5
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	52.4	59.6	60.3	61.1	61.8	67.8
Digər sahələrdə xidmətlərin göstərilməsi	92.3	127.0	130.7	136.6	138.0	143.6

Mənbə: ARDSK Nəşrləri

Məşğulluğun sektorlar üzrə bölünməsi də zamanla dəyişir. Sənaye və inşaat sektorlarında istifadə olunan məşğulluq nisbəti xeyli azalmış, xidmət sektorlarında istifadə edilən məşğulluq nisbəti isə artmışdır. Təsərrüfat sektorunda işləyənlərin nisbəti 1998-ci ilə qədər demək olar ki, sabit qalarkən, bu tarixdən etibarən əhəmiyyətli dərəcədə artım müşahidə edilmişdir. 1995-ci ildən 2005-ci ilə gəldikdə məşğulluğun daha çox nəqliyyat, rabitə, təsərrüfat, turizm, inşaat sahələrində artdığı görülür. İstifadə edilən məşğulluğun sektorlar üzrə paylanması isə, aşağıdakı cədvəldə verilmişdir.

İstifadə olunan məşğulluğun neft və qaz hasilatı ilə əlaqədar sahələrdə ən yüksək aylıq gəlirə sahib olduğu, ortalama ən aşağı aylıq gəlirin isə səhiyyə sektorundan əldə edildiyi müşahidə edilir.

Dövlət sektorunda (dövlət təşkilatları və inzibati orqanlarında) işləyənlərin nisbəti, 1990-cı ildən etibarən mütəmadi olaraq azalır. Sərbəst bazar mexanizmində keçid və özəlləşdirmənin nəticəsi olaraq 1990-cı ildə məşğulluqda 70% olan dövlət sektorunun payı 2014-cü ildə 25.6%-ə düşmüşdür.

Qrafik 4. Məşğulluqda Dövlət və Özəl Sektorun Payı (%)



Mənbə: ARDSK Nəşrləri.

2014-ci ilin əvvəllərində ölkənin iqtisadi cəhətdən fəal əhalisinin sayı 4 milyon 840.7 min olmuşdur. Rəsmi rəqəmlərə görə bunun 4 milyon 602.9 mini iş ilə təmin edilmişdir. İqtisadi cəhətdən fəal olan əhali ölkə əhalisinin 50.04%-ni təşkil edir. 2014-ci ilin əvvəlindən etibarən aktiv əhalinin 49.6%-i rəsmi olaraq işsiz qeyd edilmişdir. İşsizlərin böyük əksəriyyəti orta yaşlı insanlardır. Rəsmi rəqəmlərə görə, 25-35 yaş arasında olanların 15077, 35 yaşdan yuxarı olanların 30033 nəfəri işləmək arzusunda olmalarına baxmayaraq iş tapa bilmirlər.

İşsizlər arasında qadın-kişi nisbətinə gəldikdə isə, qadınların 1995-ci ildə 59.7%-nin işsiz olmasına qarşılıq, 2008-ci ildə bu göstərici azalaraq 42%-ə düşmüşdür. 2014-cü ildə isə bu göstərici 44,7% olmuşdur.

Əgər statistikada göstərilən rəqəmlərin gerçək işsizlik rəqəmləri olduğunu qəbul etsək, bu göstərici inkişaf etmiş ölkələrdəki göstəricidən də aşağıdır. Həqiqətdə isə, ölkədə işsizlik rəqəmləri statistik rəqəmlərlə müqayisə ediləcək qədər yüksəkdir. Yenə də rəsmi olaraq işsizlik rəqəmlərinin hər il artması da diqqət çəkir. Hər nə qədər dövlət təşkilatlarının verdiyi statistikaya görə, Azərbaycanda rəsmi işsizlik nisbəti 1.5% ətrafında cərəyan etsə də, beynəlxalq təşkilatların verdikləri məlumatlara, aparılan fərqli hesablamalara və mütəxəssislərin qənaətinə görə bu nisbət 16-25% arasındadır.

İşsizliyin səbəbləri isə, fərqlilik göstərir. İşləmək qabiliyyəti olan əhalinin iş tapa bilməməsinin əsasında; sosial-iqtisadi şərait, bir sosial-iqtisadi sistemdən digərinə keçid, ölkənin hələ də müharibə şəraitində olmasıdır. Səhv və ya kifayət dərəcədə doğru olmayan iqtisadi siyasət nəticəsində bağlanan müəssisələr və ortaya çıxan işsizlər ordusu xüsusilə qeyd edilməlidir. Digər tərəfdən texnologiyadakı sürətli inkişaf səbəbiylə də orta yaşlı insanlar işlərini itirərək işsiz qalırlar. Əslində bu cür meyllər bazar iqtisadiyyatı şəraitində yaşayan bütün ölkələrin qarşılaşdıqları problemlərdəndir.

İşsizlik Azərbaycanda həllini gözləyən ən aktual məsələlərdən biridir. 2015-ci ilin əvvəllərindən etibarən ölkə vətəndaşlarının 6-7%-nin həyat səviyyəsi yoxsulluq səviyyəsinin altındadır. Dünya Bankı tərəfindən aparılan hesablamalara görə bu insanların günlük qazancı təqribən 1.20 dollardır.

Qrafik 5. Rəsmi İşsizlik Nisbəti (%)



Mənbə: ARDSK Nəşrləri.

Azərbaycanda, inkişaf etmiş ölkələrdə ixrac və investisiya qoyuluşunun azlığı bir çox müvəqqəti səbəblərin yerinə, işsizliyin əsas səbəblərinin formal xarakter daşıması problemin həllinə uzun müddətli və mütəmadi siyasətlərlə nail oluna biləcəyi nəticəsini verir.

İşsizlik problemi hökümətin də qarşısında duran əhəmiyyətli problemlərdəndir. Regionlarda iqtisadiyyatın yenidən inkişaf etdirilməsi, 600 min yeni iş yerinin açılması istiqamətində görülən işlər də bunu göstərir.

2.4. ÖZƏLLƏŞDİRMƏ

Azərbaycan müstəqillikdən sonra sərbəst bazar iqtisadiyyatına keçmək qərarını almış və bu istiqamətdə tədqiqatlara başlamışdır. İlk olaraq, 1993-cü ildə Özəlləşdirmə Qanununu qəbul etmiş, ancaq, bu qanunun tətbiqinə 1995-ci ildən sonra başlamışdır.

Sərbəst bazar iqtisadiyyatına keçidin əsas mərhələlərindən hesab edilən və ölkə iqtisadiyyatında yenidən təşkilatlanmağın əhəmiyyətli faktorlarından biri olan və qərb sərmayəsinin də iştirak edə biləcəyi özəlləşdirmə fəaliyyətləri dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında 7 yanvar 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfdən qəbul edilən qanun ilə başlamışdır. Keçmiş dövrdən fərqli olaraq Azərbaycanın iqtisadi təməllərini dövlət mülkiyyəti, özəl mülkiyyət və bələdiyyə mülkiyyəti təşkil etməyə başlamışdır[48].

Həmin bu tarixdə qəbul olunan və 27 maddədən ibarət olan "Dövlət Mülkiyyətinin Özəlləşdirilməsi Qanunu" ilə Azərbaycanda sərbəst bazar iqtisadiyyatına keçid işlərinin hüquqi əsasının təşkili ilə ölkədə ilk özəlləşdirmə mərhələsi 1993-cü ildə başladılmışdır. Ancaq, bu proqram Milli Məclis tərəfindən təsdiq edilməmişdir. 1993 və 1994-cü illərdə "Özəlləşdirmənin Dövlət Proqramı" uzun müzakirələr və reviziyalardan sonra 1995-ci ildə Milli Məclis tərəfindən təsdiqlənərək birinci özəlləşdirmə proqramı tətbiq edilməyə başlamışdır. BVF və Dünya Bankının da məsləhətləri istiqamətində özəlləşdirmə Azərbaycan idarəsinin əsas hədəfləri arasında yer almağa başlamışdır. Sistemli özəlləşdirmə və bazarın liberallaşdırılması, planlı iqtisadiyyatdan sərbəst bazar iqtisadiyyatına keçidi sürətləndirən əsas tədbirlərdən olmuşdur. İstehsal səviyyəsindəki dövlət əmlakının üçdə ikisi birinci mərhələdə özəlləşdirilməyə çıxardılmışdır. Özəlləşdirmə proqramı çərçivəsində restoran, kafe, bərbərxana, dükan, dərzixana kimi ticarətxana olaraq adlandıra biləcəyimiz kiçik həcmli firmalar, özəlləşdirilməsi məcburi sayılan firmalar olublar. Neft, təbii qaz, telekommunikasiya ilə əlaqədar təşkilatlar, mədəniyyət ocaqları və mədənlər isə özəlləşdirilmirlər. Ancaq, bu təşkilatlar Respublika Prezidenti və ya Baş Nazirin qərarına əsasən özəlləşdirilə bilərlər.

---

[48] *Azərbaycan Respublikasının Konstitutyası*, Azərbaycan Nəşriyyatı, Bakı, 1996, s.7.

Özəlləşdirmə, 1992-ci ildə qurulan Dövlət Əmlak Komitəsi tərəfindən həyata keçirilməkdə idi. 2000-ci ildə isə, Əmlak Komitəsi ləğv edilərək özəlləşdirmədən məsuliyyət daşıyacaq şəkildə Əmlak Nazirliyi yaradıldı.

1993-1996-cı illər arasında ancaq mənzillər və taksilər özəlləşdirilmişdir.

Prezidentin 8 fevral 1997-ci il tarixli fərmanına əsasən hər biri 4 ədəd çekdən ibarət 8 milyon ədəd Dövlət Özəlləşdirmə Payından (Çek) 7.183.803 ədədi Azərbaycan vətəndaşlarına əvəzsiz paylanmışdır. Özəlləşdirmədə ölkə vətəndaşları bu çeklərlə, xarici ölkə vətəndaşları isə opsiyon adı verilən özəlləşdirmə çekləri ilə iştirak edə bilirdilər.

Azərbaycanda 1995-1998-ci illəri əhatə edən birinci özəlləşdirmə proqramı, ancaq, 2000-ci illərin əvvəllərində tamamlana bilmişdir. Birinci özəlləşdirmə proqramında özəlləşdirmə proqramına alınan kiçik və orta həcmli şirkətlərin əksəriyyəti bu proqram çərçivəsində özəlləşdirilmişdi. 1996-cı ildə özəlləşdirmə sürətlənərək, sayı 6200-ə çatan kiçik şirkətlər özəlləşdirilərkən, 1997-ci ilin sonunda bu rəqəm 15000-ə çatmışdı.

Birinci özəlləşdirmə proqramındakı gecikmə səbəbiylə ikinci özəlləşdirmə proqramı ancaq 10.08.2000 tarixində prezident tərəfindən imzalanmışdır. Beləliklə, ikinci özəlləşdirmə proqramı iki illik gecikmə ilə tətbiq edilməyə başlamışdır.

İkinci özəlləşdirmə proqramı ilə orta və böyük həcmli şirkətlərin özəlləşdirilməsi planlanmışdır. Bununla da dövlətin iqtisadiyyatdakı rolunun azaldılmasına çalışılmışdır.

2001-ci ilin əvvəllərində respublika prezidenti cənab Heydər Əliyev, özəlləşdirməni sürətləndirərək emalat, enerji və kimya sektorlarında fəaliyyət göstərən 100 böyük dövlət iqtisadi təşəbbüslərinin özəlləşdiriləcəyini elan etmişdir[49]. Fərqli sahələri əhatə edən təqribən 450 şirkət böyük özəlləşdirmə sahəsinə daxildir.

Özəlləşdirmə proqramına görə özəlləşdiriləcək təşkilat və müəssisələr kiçik, orta və böyük olaraq 3 qrupa ayrılmışdır. Kiçik müəssisələrin 15%-i işçilərinə qarşılıqsız verilir, 85%-i isə çek aksiyalarında satılırdı. Orta və böyük həcmli şirkətlər isə, əvvəl səhmdar cəmiyyət statusuna çevrilir, sonra özəlləşdirilirdi. Bu şirkətlər; səhmlərinin ən az 50%-i çek aksiyonları ilə, 15%-i müəssisə işçilərinə çek qarşılığında, 10%-i müəyyən məbləğ qarşılığında hərracla və qalan 25%-nin isə dövlət tərəfindən bağlı investisiya fonduna verilməsi ilə özəlləşdirilir[50].

İkinci özəlləşdirmə proqramı çərçivəsində isə, rabitə, nəqliyyat, kimya, enerji kompleksi və digər sektorlardakı müəssisələrin özəlləşdirilmə prosesi davam edir.

---

[49] Ayhan Karaca, "Azərbaycan'da İqtisadi Dönüşüm Süreci və Reformların 10 Yılı", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/ocakozel2002/ayhan.htm (13.03.2003).

[50] 'Process of Privatization', www.msp.gov.az/html/eng/xod.html, (18.04.2005).

Özəlləşdirmənin başladığı tarixdən 2005-ci ilin əvvəlinə qədər ümumi dəyəri 651.1 milyard manat olan 40.7 min kiçik həcmli şirkət özəlləşdirilmişdir. Bundan əlavə 2005-ci ilin əvvəlində 1537 dövlət şirkəti, bu çərçivədə 356 orta və böyük həcmli şirkət səhmdar cəmiyyətinə çevrilmişdir. Nəticədə 150 mindən çox Azərbaycan vətəndaşı özəl mülkiyyət sahibi olmuşdur[51]. Digər tərəfdən ərazi mülkiyyətində dəyişiklik nəticəsində özəl mülkiyyətə çevrilməsi nəticəsində Azərbaycanda ölkə ərazisinin 56.9%-i (4.913.639 hektar) dövlət, 23.5% (2.032.744) hektar bələdiyyə, %19.6 (1.695.123 hektar) özəl mülkiyyətə aiddir.

Birinci özəlləşdirmə proqramı çərçivəsində özəlləşən kiçik və orta həcmli şirkətlər iqtisadiyyatda yüksələn bir rola sahibdirlər. 2005-ci ilin əvvəlində təqribən 47 min kiçik və orta həcmli şirkət Azərbaycanda fəaliyyət göstərirdi. Kiçik və orta həcmli şirkətləri dəstəkləmək hökümətin əsas işləri arasında çox mühüm yer tutur. Bu çərçivədə kiçik və orta böyüklüklü şirkətlərə lazım olan maliyyə qaynağını əldə etmək üçün Sahibkarlığa Yardım Milli Fondu qurulmuşdur.

Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Mingəçevir, Sumqayıt şəhərlərində, Abşeron, Bərdə, Xanlar, Qazax, Xaçmaz, Şəki, Göyçay, Masallı, Qusar, Ucar, Qax və Balakən rayonlarında özəlləşdirmə daha sürətli olmuşdur.

Özəlləşdirmə başlanan tarixdən 2005-ci ilin əvvəlinə qədər 361.9 min bina, bir başqa ifadəylə özəlləşdirilməsi planlanan binaların 59.5%-i özəlləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004 tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan Respubliksı Regionlarının Sosial-İqtisadi İnkişafı Haqqında Dövlət Proqramı"nda müəyyənləşən hədəflərdən biri də dövlət müəssisə və təşkilatlarının özəlləşdirilməsinin sürətləndirilməsidir.

Bu çərçivədə, özəlləşdirmənin ikinci mərhələsi əsasən orta və böyük həcmli şirkətlərin özəlləşdirilməsini əhatə etməsinə baxmayaraq, kiçik şirkətlərin özəlləşdirilməsinin qurtarmasına daha çox diqqət ayrılmışdır.

Tətbiq edilən islahatlar nəticəsində kiçik firmaların demək olar ki hamısı özəlləşdirilmişdir. Təsərrüfat sektorunda da önəmli hesab edilə biləcək işlər görülmüşdür. Özəlləşdirilən kiçik şirkətlərin ümumi aktiv dəyəri ÜDM-nin 6.5%-i qədərdir. Ancaq, böyük həcmli şirkətlərin özəlləşdirilməsində eyni müvəffəqiyyət əldə edilə bilməmişdir. İslahatlar dövrünün başlanğıcından bəri 1.065 orta və böyük həcmli şirkətlər səhmdar cəmiyyətlərə çevrilərək hərrac üsulu ilə özəlləşdirilmişdir.

Kiçik və orta həcmli şirkətlərin əksəriyyəti özəlləşdirilməsinə baxmayaraq, böyük həcmli dövlət şirkətlərinin özəlləşdirilməsi prosesi çox yavaş davam etməkdədir.

---

[51] N. Ö. Hacıyev, "Sahibkarlıq Sektorunun İnkişafının Sürətləndirilməsi ilə Bağlı Problemlər", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.117.

Özəlləşdirmə prosesinə qoşulan xarici investorların qoyduqları investisiyalar isə, hər keçən gün artır.

Əldə edilən nailiyyətlərə baxmayaraq özəlləşdirmənin və formal islahatların yavaş irəlilədiyi də gözdən qaçmamalıdır.

Çox təəssüf ki, 1995-ci ildən etibarən həyata keçirilən islahatlar (özəlləşdirmə), təsərrüfat sektorunda gözlənilən nəticələri vermədi. Həyata keçirilən islahatlar bəzi sahələrdə iqtisadi daralmanın daha da dərinləşməsinə səbəb olmuşdur. Bundan əlavə özəlləşdirilən təşkilatlarda uzun illərdir işləyənlərin işsiz qalması da önəmli problemlərdəndir.

Digər tərəfdən çeklərlə həyata keçirilən özəlləşdirmə prosesi də gözlənilən nəticələri vermədi. Ölkədə səhmdar cəmiyyətləri qrupu təşəkkül etməməsi nəticəsində vətəndaşlar da özəlləşdirmə prosesində fəal olaraq iştirak edə bilmədilər. Belə bir hal ilk dövrlərdə yaransa da, dövlət nəzarətinin zəif olması və sosial nəzarət imkanlarının tətbiq olunması üçün lazımi huquqi bazanın mövcud olmaması səbəbiylə səhmdar cəmiyyətlər müəyyən problemlərlə üzləşdilər. Nəticədə insanlar öz özəlləşdirmə paylarını satmağa başladılar. Səhmdar cəmiyyətlərin sayı ilk dövrlərdə 100 min ətrafında olmasına baxmayaraq, bu gün bu rəqəm 50 minə düşmüşdür. Bu özəlləşdirmə eyni zamanda dövlət büdcəsində olan sərvətlərin miqdarına da mənfi təsir göstərməkdədir.

2.4.1. Dövlət-Özəl Sektor Müqayisəsi

Həm dövlət mülkiyyətinin özəlləşdirilməsi, həm də xalqın özəl təşəbbüs əsasında özəl müəssisələr qurması nəticəsində, özəl sektor iqtisadiyyatın əsasını təşkil edir. Bəzi sektorlarda, xüsusilə də təsərrüfat sektorunda üstünlük özəl sektorun payına düşür.

Həyata keçirilən yenidən formalaşdırma nəticəsində, iqtisadi rəqəmlərin müqayisəsindən də görüldüyü kimi ildən ilə iqtisadiyyatda özəl sektorun makro iqtisadi göstəricilərin təşəkkülündəki üstünlüyü mütəmadi olaraq artmaqdadır. İqtisadiyyatın özəl sektor hissəsində 1997-ci ildə ÜDM-nin 46%-i, 1998-ci ildə 55%-i, 1999-cu ildə 62%-i, 2000-ci ildə 68%-i, 2015-cü ildə isə 79%-i istehsal olunmuşdur. Bu da onu göstərir ki, ÜDM-nin içində dövlətin rolu get-gedə azalır.

Dövlət büdcəsinin təşəkkülündə də vergi daxil olmaları baxımından özəl sektorun rolunun artış göstərdiyi müşahidə olunur. Əlbəttə dövlət mülkiyyətinin özəlləşdirilməsi iqtisadiyyatda özəl sektorun rolunun artmasında birinci amildir[52].

2015-ci ilin sonunda sənaye məhsullarının 60%-i, kənd təsərrüfatı məhsullarının 99%-i, nəqliyyat xidmətlərinin 80%-i, rabitə xidmətlərinin isə 75%-i özəl sektorun payına düşür. Ancaq, əsas və stratejik sektorlarda dövlətin monopoliyası və üstünlüyü davam edir. SSRİ-dən miras qalan dövlət monopoliyası iq-

[52] Hacıyev, s.117.

tisadi yüksəlişə mane olur. Dövlətin hegemonluğundan xilas olmağın yolu isə, böyük həcmli şirkətlərin özəlləşdirilməsidir. Ancaq, bu prosesin Azərbaycanda nisbətən yavaş həyata keçdiyi müşahidə edilir.

Qrafik 6. ÜDM-də Özəl Sektorun Üstünlüyü (%)



Qrafik 6-nın davamı ...



Mənbə: ARDSK Nəşrləri

ÜDM-də özəl sektorun rolu son illərdə də davam etməkdədir və 2015-ci ildə bu göstərici 82.1% olmuşdur. Məlumatları əsas aldıqda iqtisadiyyatda özəl sektorun rolunun böyük olduğu görülür. Bunun səbəbi isə, dövlət mülkiyyətində olan şirkətlərin, xüsusilə də sənaye şirkətlərinin fəaliyyət göstərməmələridir. Bundan əlavə bəzi özəl sektora aid şirkətləri özəl sektor olaraq qəbul etmək çox da doğru deyil. Misal olaraq, anonim şirkətlərin (səhmdar cəmiyyətlərinin) bir çoxu daha çox dövlət şirkətləri kimi fəaliyyət göstərir. Digər tərəfdən enerji istehsalında özəl sektorun formal xarakter daşıdığı, enerji satışında ayrı-ayrı şirkətlərin özəl sektor tərəfindən işlədilməsi baxımından təkliflərin

olduğu, neft və təbii qazın istehsalında isə özəl sektor olaraq sadəcə xarici iş adamlarının mövcud olduğu diqqətə alındıqda sənayə sektorunun əsası sayılan enerji sektorunda əslində özəl mülkiyyətin olmadığını söyləmək mümkündür[53].

2.5. DÖVLƏT BÜDCƏSİ

Qarabağ müharibəsi nəticəsində müdafiə xərcləri artan Azərbaycanın 1993-cü ildən etibarən dövlət büdcəsində gəlir-xərc balansı pozulmağa başlamışdır[54]. Sərbəst bazar iqtisadiyyatına keçid dövründə həyata keçirilən islahatlar dövlət büdcəsində gəlirlərin ildən ilə artması və 1990-cı illərin əvvəlində yüksək olan büdcə kəsirinin 1995-ci ildən etibarən azalmağa başlamasına səbəb olmuşdur. 1994-cü ildə ÜDM-nin 9.4%-nə bərabər olan büdcə kəsiri 1999-cu ildə ÜDM-nin 2.4%-nə, 2000-ci ildə isə 1%-nə bərabər olmuşdur. 2001-ci ildən büdcə kəsiri azalmağa başlamış 2007-2008-ci illərdə isə büdcə profisit verməyə başlamışdır. Büdcə gəlirləri ilə yanaşı büdcə xərcləri də ildən ilə artmaqdadır. Azərbaycanda dövlət xərclərinin ÜDM-də üstünlüyünün davam etməsi müşahidə olunur. Büdcə xərclərində sosial müdafiə və təhlükəsizlik xərclərinin ildən ilə payının artdığı müşahidə olunur.

Son illərdə büdcə gəlirlərində meydana gələn artışda neft ünsürü böyük rol oynayır. Rəqəmlər ildən ilə büdcə gəlirləri içində neft gəlirlərinin artdığını göstərir. Neft ixrac gəlirlərinin büdcə gəlirlərindəki payı 2010-cı ildən etibarən daha da artmağa başlamışdır. 2012 ci ildə Neft Fondunun transferi ən yüksək həddə 54% olmuş və növbəti iki il də bu transfer həcmi büdcə gəlirlərinin təxminən yarısını təşkil etmişdir. Büdcənin neftdən əldə edilən gəlirlərin büdcə gəlirləri arasındakı yeri isə bu şəkildədir: Dövlət büdcəsi gəlirlərinə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) vasitəsiylə daxil olan neftin payı 2002-ci ildə 36.5% ikən, 2003-cü ildə bu nisbət 31% olmuşdur. Ancaq, Dövlət Neft Fondundan (ARDNF) transferlər də diqqətə alındıqda neft sektorunun dövlət büdcə gəlirləri içindəki payı 39.1% olmuşdur. 2009-cü ildə isə bu nisbət 47.9% (38.6% SOCAR-ın payı və 9.3% ARDNF-dən transferlər) səviyyəsində oldu.

Son illərdə büdcə gəlirlərində meydana gələn artışda neft ünsürü böyük rol oynayır. Rəqəmlər ildən ilə büdcə gəlirləri içində neft gəlirlərinin artdığını göstərir. Neft ixrac gəlirlərinin büdcə gəlirlərindəki payı 2006-cı ildən etibarən daha da artmışdır.

2015-cü il rəqəmləri ilə müqayisə etdikdə 2016-ci ildə dövlət büdcəsinin neft xarici kəsirinin ÜDM-nin 2.1%i həcmində olması planlanmışdır ki, bu da hökümətin neft gəlirlərinin xərcləməsinin artırılmasına dair orta müddətli strategiyasına və 2015-ci il makro iqtisadi məqsədlərinə müvafiq gəlir.

---

[53] Nazim İmanov, "İlk On İlin Yekunları: İqtisadiyyat", *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr-2001, ss.29-30.

[54] Ercan Sancak, *Azəbaycan İqtisadiyyatı*, Qafqaz Unviersiteti Nəşriyyatı, Bakı, 1999, s.32.

Cədvəl 4. Dövlət büdcəsinin gəlir və xərcləri (məbləğ milyon manatla)

	2010	2011	2012	2013	2014	2015	2016 *(proqnoz)*
Gəlirlər-cəmi	**11403,0**	**15700,7**	**17281,5**	**19496,3**	**18400,6**	**19438**	**14 566**
o cümlədən:							
Fiziki şəxslərin gəlir vergisi	590,2	715,7	813,0	859,7	980,3	982	957
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	1429,9	2134,0	2252,0	2374,8	2302,7	2211	1806
Hüquqi şəxslərin torpaq vergisi	35,3	35,3	30,6	33,1	35,4	48	50
Hüquqi şəxslərin əmlak vergisi	101,8	103,9	105,1	125,1	141,3	148	174 ,2
Əlavə dəyər vergisi	2082,5	2222,7	2366,9	2710,0	3119,6	3456	3336
Aksiz vergisi	514,9	480,2	531,5	593,3	797,3	684	637
Mədən vergisi	130,1	129,8	125,8	121,5	116,2	116	107
Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	291,8	433,1	592,5	675,2	684,7	684,7	1120
Digər vergilər	90,3	140,6	157,6	161,5	192,7	180	458
Sair daxilolmalar	6136,2	9305,4	10306,5	11842,1	10030,4	9559	6 000
Xərclər-cəmi	**11765,9**	**15397,5**	**17416,5**	**19143,5**	**18709,0**	**21100,05**	**16 264**
o cümlədən:							
İqtisadiyyata	4889,9	6803,2	6960,7	8207,5	7598,7	7598,7	3554.2
sosial-mədəni tədbirlərə	2901,4	3447,2	4072,9	4081,8	4484,4	4484,4	4564
onlardan:							
Təhsil	1180,8	1268,5	1453,2	1437,7	1553,9	1711	1713
Səhiyyə	429,2	493,4	609,4	618,9	665,3	777	744,8
Sosial müdafiə və sosial təminat	1123,0	1495,4	1769,5	1750,3	1971,2	2040	1896,5
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət	168,4	189,9	240,8	274,9	294,0	348	652,7
elmə	92,8	106,1	116,7	117,0	124,2	124,0	131,7
Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	668,5	710,3	929,2	1049,3	1103,6	1240,2	1138,7
qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanmasına	303,0	281,9	342,3	349,3	449,7	2047,6	542,3
Sair xərclər	2910,3	4048,8	4994,7	5338,6	4948,4	4498,7	4328,7

Cədvəl 5. Dövlət büdcəsinin gəlir və xərclərinin inkişaf dinamikasi(məbləğ milyon manatla)

Göstərici	1995	1996	1997	1998	1999	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014
İqtisadiyyata *(mln.manat)*	52.6	78.6	84.6	54.1	66.3	89.4	102.4	137.0	242.9	290.9	444.7	1246.9	2350.0	4958.6	4373.9	4889.9	6803.2	6960.7	8207.5	7598.7
Təhsilə *(mln.manat)*	75.2	101.8	112.8	116.3	159.0	181.8	186.2	191.2	234.8	294.1	372.5	479.1	723.0	979.7	1147.9	1180.8	1268.5	1453.2	1437.7	1553.9
Səhiyyəyə *(mln.manat)*	29.7	40.1	38.8	31.1	37.2	40.9	42.0	44.8	55.3	73.5	115.3	162.0	257.2	346.2	402.4	429.2	493.4	609.4	618.9	665.3
Elmə *(mln.manat)*	3.9	4.8	7.2	6.3	7.9	9.3	9.4	11.4	16.6	20.0	28.8	32.0	43.9	62.1	83.3	92.8	106.1	116.7	117.0	124.2
Qanunvericilik və icra hakimiyyəti, yerli idarəetmə orqanlarının saxlanılmasına *(mln.manat)*	17.6	21.7	27.8	27.9	35.6	37.0	48.3	54.5	68.8	89.3	123.9	142.8	198.8	252.4	289.7	303.0	281.9	342.3	349.3	449.7
Profisit,kəsir *(mln.manat)*	111.5	79.3	-75.7	62.9	91.9	49.4	22.7	21.6	13.6	7.4	85.5	78.7	79.6	11.5	178.0	362.9	303.2	135.0	352.8	308.4
Mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələrinə və idmana *(mln.manat)*	9.8	12.8	15.7	15.8	17.8	20.6	21.9	23.3	31.0	38.2	50.6	67.1	95.3	140.2	158.3	168.4	189.9	240.8	274.9	294.0
Sosial müdafiyəyə və təminata *(mln.manat)*	36.5	70.6	104.8	122.9	120.8	139.3	146.1	190.2	214.0	236.5	304.9	341.5	594.8	846.4	1054.4	1123.0	1495.4	1769.5	1750.3	1971.2
Hüquq-mühafizə,məhkəmə və prokurorluğun saxlanılmasına *(mln.manat)*	40.6	42.2	51.1	57.7	68.9	74.4	85.5	94.6	120.6	155.9	206.4	278.7	431.3	533.9	648.9	668.5	710.3	929.2	1049.3	1103.6
Dövlətin xarici borclarının ödənilməsinə *(mln.manat)*	61.1	8.8	45.9	1.1	14.3	18.0	15.3	10.1	12.7	13.7	15.9	25.1	52.9	97.0	133.9	84.9	223.6	185.9	617.3	359.3
Dövlətin daxili borclarının ödənilməsinə *(mln.manat)*	32.2	16.6	3.1	2.2	10.1	16.3	23.8	21.6	7.8	3.5	9.6	76.1	7.7	18.2	18.7	6.9	120.2	25.5	110.9	19.6
Sair xərclər *(mln.manat)*	59.2	83.9	96.9	92.8	113.5	136.8	126.4	152.9	230.0	286.6	468.1	938.8	1331.3	2539.5	2192.5	2818.5	4048.8	4782.2	4610.2	4569.5
Xərclər-cəmi *(mln.manat)*	428.4	481.9	588.7	528.3	651.4	764.0	807.5	931.8	1234.5	1502.1	2140.7	3790.1	6086.2	10774.2	10503.9	11765.9	15397.5	17416.5	19143.5	18709.0

Cədvəl 6. Dövlət büdcəsinin gəlirinin strukturu

Dövlət büdcəsinin gəlirləri (mln. manatla)								
		2015-ci il proqnoz	*2015-ci il gözlənilən icra*	*2016-cı il proqnoz*	*2016-cı ilin proqnozunun 2015-ci il proqnozu ilə müqayisəsi*		*2016-cı ilin proqnozunun 2015-ci il gözlənilən icrası ilə müqayisəsi*	
					fərq (+;-)	*faiz*	*fərq (+;-)*	*faiz*
	Gəlirlərin cəmi	**19 438,0**	**17 080,0**	**14 566,0**	**-4 872,0**	**-25,1**	**-2 514,0**	**-14,7**
1	Vergilər Nazirliyi	7 112,0	7 012,0	6 602,0	-510,0	-7,2	-410,0	-5,8
1.1	Fiziki şəxslərdən gəlir vergisi	982,0	982,0	957,0	-25,0	-2,5	-25,0	-2,5
1.2	Mənfəət vergisi	2 211,0	2 111,0	1 821,6	-389,4	-17,6	-289,4	-13,7
1.3	Torpaq vergisi	48,0	48,0	50,0	2,0	4,2	2,0	4,2
1.4	Əmlak vergisi	148,0	148,0	159,2	11,2	7,6	11,2	7,6
1.5	Əlavə dəyər vergisi	2 352,0	2 352,0	2 326,0	-26,0	-1,1	-26,0	-1,1
1.6	Aksiz	564,0	564,0	532,0	-32,0	-5,7	-32,0	-5,7
1.7	Mədən vergisi	116,0	116,0	107,2	-8,8	-7,6	-8,8	-7,6
1.8	Dövlət rüsumu	115,0	115,0	105,0	-10,0	-8,7	-10,0	-8,7
1.9	Sair daxilolma	381,0	381,0	304,0	-77,0	-20,2	-77,0	-20,2
1.10	Sadələşdirilmiş vergi	145,0	145,0	170,0	25,0	17,2	25,0	17,2
1.11	Yol vergisi	50,0	50,0	70,0	20,0	40,0	20,0	40,0
2	Dövlət Gömrük Komitəsi	1 590,0	1 590,0	1 590,0				
2.1	Əlavə dəyər vergisi	1 104,0	1 104,0	1 120,0	16,0	1,4	16,0	1,4
2.2	Aksiz	120,0	120,0	105,0	-15,0	-12,5	-15,0	-12,5
2.3	Gömrük rüsumları	348,4	348,4	348,0	-0,4	-0,1	-0,4	-0,1
2.4	Yol vergisi	17,6	17,6	17,0	-0,6	-3,4	-0,6	-3,4
3	Əmlak Məsələləri DK	7,0	7,0	7,0	-	-	-	-
4	Sair	41,0	41,0	62,0	21,0	51,2	21,0	51,2
5	ARDNF-dan transfertlər	10 388,0	8 130,0	6 000,0	-4 388,0	-42,2	-2 130,0	-26,2
6	Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar	300,0	300,0	305,0	5,0	1,7	5,0	1,7



2016-cı il üzrə qeyri-neft gəlirlərinin dövlət büdcəsində xüsusi çəkisi 46,5 faiz proqnozlaşdırılmışdır ki, bu da cari ilin proqnozundan 11,8 faiz-bəndi, 2014-cü ilin faktiki göstəricilərindən isə 12,5 faiz-bəndi çoxdur.

Xərclərdə sosial bir bazaya sahib olan 2015-ci il büdcəsində, əmək haqqlarına, təhsil və müdafiə xərclərinə daha çox yer verilmişdir. Bu çərçivədə ortalama əmək haqqları bir əvvəlki ilə görə 30% artırılmışdır. Bu artış ilə rüşvətxorluğun azaldılmasına cəhd edildiyi müşahidə olunur. Ümumi olaraq təxminən 20 mlrd.dollar olan 2012-ci il büdcəsi, 2013-cı ildə 24 milyard dollara yaxınlaşmışdır ki, onun da 14 mlr dollara yaxını neft fondundan transferidir. 2014-cü ildən dünya birjalarında neftin qiymətinin kəskin azalması neft fondunun gəlirlərini azaltmış və dolayısıyla 2016-cı ildən büdcəyə Neft Fondunun transferi 2010-cu ilin səviyyəsinə geriləmişdir. Azərbaycana 2006-cı ildən başlayaraq "Əsrin Müqaviləsi" çərçivəsində neft gəlirlərinin daxil olması hesabına həyata keçirilsə də Amerkada başlayaraq dünyanı cənginə alan qlobal maliyyə böhranı

nəticəsində neft qiymətinin dünya birjalarında kəskin ücuzlaşması Azərbaycan hökümətini bu addımı atmağa məcbur etdi. Dünya bazarlarında neft qiymətlərinin azalması büdcənin əvvəlki illərə nisbətən tədricən yavaş böyüməsində mühüm rol oynayır.

Xərclərdə sosial bir bazaya sahib olan 2009-ci il büdcəsində, əmək haqqlarına, təhsil və müdafiə xərclərinə daha çox yer verilmişdir. Bu çərçivədə ortalama əmək haqqları bir əvvəlki ilə görə 30% artırılmışdır. Bu artış ilə rüşvətxorluğun azaldılmasına cəhd edildiyi müşahidə olunur. Müdafiə xərcləri isə 70% artırılmışdır. Ümumi olaraq təxminən 12 mlrd.dollar olan 2008-ci il büdcəsi, 2010-cı ildə 12 milyard manata çatmışdı ki, onun da 5 mlrd. manata yaxını neft fondundan transferidir. Azərbaycana 2006-cı ildən başlayaraq "Əsrin Müqaviləsi" çərçivəsində neft gəlirlərinin daxil olması hesabına həyata keçirilsə də, Amerikada başlayaraq dünyanı cənginə alan qlobal maliyyə böhranı nəticəsində neft qiymətinin dünya birjalarında kəskin ücuzlaşması, Azərbaycan hökümətini bu addımı atmağa məcbur etdi. Dünya bazarlarında neft qiymətlərinin azalması büdcənin əvvəlki illərə nisbətən tədricən yavaş böyüməsində mühüm rol oynayır.

2016- cı ilin dövlət büdcəsində əvvəlki beş ildən fərqli olaraq Neft Fondunun transferi 4388 milyon yəni 42 faiz azaldılaraq 6 milyard manata düşmüşdür. Bunun səbəbi neft qiymətlərinin kəskin azalması fonunda Neft Fondunun gəlirlərinin azalmasıdır. Eyni zamanda 2016 cı ildə vergi gəlirləri də 510 milyon manat azaldılaraq 6602 milyon manat yəni əvvəlki ilə görə 7 % az proqnozlaşdırılsa da Gömrük gəlirləri 2015 ci il kimi proqnozlaşdırılmışdır.

2.6. VALYUTA SİYASƏTİ

Azərbaycan "Rubl Regionu"ndan çıxaraq milli valyutanın tədavülünə dair qəbul edilən qanunun ardından, 1992-ci il noyabr ayında müstəqil Azərbaycan Respublikasının milli valyutası olan "Manat"ı tədavülə çıxmışdır. Azərbaycanın milli valyutası, ilk mərhələdə Rusiyanın valyutası Rubl ilə birlikdə istifadə olunurdu. Hökümətin sərbəst bazar iqtisadiyyatına keçiləcəyini və özəlləşdirməni manat ilə aparacağını bildirməsi ilə yanaşı ümumi həcminin bazarda az olması səbəbiylə ilk dövrdə dəyərini qoruyan manat, idxalın böyük bir hissəsinin rubl ilə aparılma məcburiyyətinin olması və idxal edilən məhsulların ölkələrində, xüsusilə də Rusiyada qiymətlərin liberallaşmaya paralel olaraq yüksəlməsi nəticəsində, 1993-cü ilin ortalarından etibarən rubl qarşısında dəyər itirməyə başladı. Bununla yanaşı 1993-1994–cü illərdə bank sektorunda baş verən iflaslar və manatın dəyərini itirəcəyi qorxusu, başda dollar olmaqla xarici valyutaya istiqamətlənməyə, yəni valyuta əvəzetməsinə səbəb olmuşdur[55]. Hər iki

[55] C. Şərifov, "Azərbaycanda Valyuta Bazarının Müasir Vəziyyəti və Onun İnkişaf Perspektivləri", *Azərbaycan 21. Əsrin Astanasında*, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1998, ss.551-552; Sancak, ss.51-54.

valyutanın mübadilə üçün istifadə olunması, ödəmələr sistemində, xarici ticarət tədiyyə balansında bəzi problemlərə səbəb olarkən, ölkədə baş verən iqtisadi böhranın dərinləşməsində də rol oynamışdır.

Nəhayət, 1994-cü ildən etibarən manat ölkədə yeganə pul vahidi olaraq fəaliyyət göstərməyə başlayır. 1994-cü ildə "Valyuta Tənzimlənməsi Haqqında" qanunun qəbul edilməsi və 1995-ci ildə anti-inflyasyonist pul və kredit siyasətinin tətbiq edilməyə başlaması nəticəsində 1996-cı ilin may ayından manat dəyər və etibar qazanmağa başladı. Manat ilk illərdə inflyasiya, siyasi və iqtisadi stabilliyin olmaması kimi səbəblərlə ABŞ dolları qarşısında sürətlə dəyər itirsə də, 1995-ci ildən sonra ölkədə həyata keçirilən iqtisadi tədbirlər və sərt pul siyasəti nəticəsində milli valyutada çox böyük dalğalanmalar olmamışdır.

Qonşu ölkələr daha yüksək inflyasiya rəqəmlərinə sahib olduqlarından, manat bu ölkələrin valyutaları qarşısında dəyər qazanmışdır.

Milli Bankın siyasətləri və bunu dəstəkləyən neft müqavilələri nəticəsində 1997-1998-ci illərdə xarici investisiya daxil olmalarında artışlar səbəbiylə manat ABŞ dolları qarşısında dəyər qazanmışdır. Həddən artıq istifadə olunan milli valyutamız ilə yanaşı 1998-ci ildə baş verən Rusiya böhranının da təsiriylə ixrac gəlirlərində önəmli miqdarda azalmalar baş vermişdir. Ancaq, 1999-cu ildən etibarən effektiv valyuta bazarında manatın dəyəri aşağı salınmış və Azərbaycanın ticari rəqabət şansı artırılmağa çalışılmışdır. 1999-cu ilin ikinci yarısında, 1995-ci ildən etibarən tətbiq olunmağa başlanan valyuta siyasətlərində yumşalma ilə birlikdə yenidən milli valyuta yüksəlməyə başlamışdır[56]. 1999-cu ilin ortalarından etibarən milli valyutanın tənzimlənməsi məqsədli bazar mexanizmasına, yəni dalğalı məzənnə rejiminə keçilmiş, milli valyuta ABŞ dolları qarşısında 7% nisbətində devalüasiya edilərək ixrac məhsullarına rəqabət üstünlüyü qazandırılmağa cəhd edilmişdir.

Qısacası 1999-cu ildəki maliyyə stabilliyi, sərt pul siyasəti və devalvasiya ilə manat güc qazanmış və stabillik əldə etmişdir.

Manatın devalvasiya səbəbiylə ixrac məhsulları xaricdə ucuz, daxildə isə baha qiymətə istehlak olunmağa başlamışdır. Bundan əlavə idxal xam maddəni əsas alan ixrac məhsullarının xərcləri artmış, digər ifadəylə idxal baha olduğu üçün ixrac yolu ilə əldə edilən valyuta gəlirləri, pul vahidi manata qarşı dəyər qazanan ölkələrə geri getməyə başlamışdır.

2000-2003–cü illər arasında yumşaq bir devalvasiyaya məruz qalan manatın 2004-cü ildə bir az dəyər qazandığını müşahidə edirik. Manatın dəyər qazanmasının səbəbləri isə belə açıqlanır: 2004-cü ildə tədavüldəki pul kütləsi 31% artarkən ölkəyə böyük həcmdə valyuta daxil olmaları valyuta məzənnələrinə təsir edir. Neft və təbii qaz istehsalının artması və ÜDM-dəki artışla birlikdə

[56] Kamalov, s.72.

ölkəyə valyuta daxil olmaları daha da artacaqdır. Bunlar isə manatın dəyər qazanmasına səbəb olacaqdır.

Azərbaycanın milli valyutası olan manatın dəyəri günlük olaraq Bakı Banklararası Valyuta Birjasında müəyyənləşir.

Real və nominal valyuta məzənnələri arasında ciddi fərqlər var. Valyuta məntəqələri və banklar Milli Bankın müəyyənləşdirdiyi məzənnə üzərindən ən çox (+/-) 5 manat fərqlə alım və ya satım edə bilməkdədir.

Valyuta ehtiyatları 2004-cü il sonu etibariylə isə, bir əvvəlki ilə görə 15.82% artaraq 876.86 milyon dollar oldu. 2004-cü ildə BVF kreditlərinin əsas və faiz ödəmələri üçün Milli Bank ehtiyatlarından 62.6 milyon dollar xərclənmişdir. Beləcə nisbi artış 182 milyon dollardan çox olmuşdur. Valyuta ehtiyatlarındakı artış əsas etibariylə ölkə daxili valyuta bazarından alışlara istinad etməkdədir. 2004-cü ildə Milli Bankın valyuta bazarına müdaxiləsi, ölkəyə ölkə xaricindən valyuta axması səbəbiylə milli valyutada baş verə biləcək devalüasiyanın qarşısı alınmışdır.

Qrafik 7. Valyuta Məzənnəsi (il sonu)



Mənbə: ARDSK Nəşrləri.

Azərbaycanın valyuta ehtiyatları kifayət qədərdir. Fəqət Azərbaycanın neft gəlirlərinin azalması fonunda və 2015-ci ilin əvvəllərində təxminən 30 % lik devalvasiyaya rəgmən manatın dəyərini qorumaq məqsədi ilə 14 milyard dollar olan valyuta ehtiyatının təqribən yarısı azaldı. Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 2014-cü ilin dekabr ayında isə 13 milyard 758 milyon 300 min dollar olmuşdur. 2015-cü ildə isə təxminən yeddi milyard dollar həcmində valyuta ehtiyatı qalmışdır. Bu miqdar ölkənin təqribən 3 aylıq mal və xidmət idxalı qədəri olmuşdur. Bunu nəzərə alan Mərkəzi Bank 21 dekabr 2015

ci il tarixli növbəti 50% lik devalvasiyaya getmiş və 1 ABŞ dolları 1.55 azn olmuşdur. Umumiyyətlə Neft Fondu və diğər rezervlər daxil edilərsə ölkənin valyuta ehtiyatı qırx milyard dollara çatmaqdadır.

Eyni zamanda 2006-cı ilin yanvar ayının 1-dən etibarən Azərbaycanda denominasiya həyata keçirilmiş, pulun nominal dəyəri 5 000 dəfə azaldılaraq Yeni Azərbaycan Manatı tədavülə çıxarılmış və bu proses 2007-ci ilin yanvar ayının 1-ə qədər davam etdirilmişdir. Yeni Azərbaycan Manatının həm fiziki göstəriciləri olaraq, həm də dəyər olaraq Avroya yaxın olması müəyyən mənada ölkədə dollar hegomonluğuna zərbə vurmuşdur. Çünki ölkədəki pul əməliyyatlarının əhəmiyyətli bir hissəsi dollar ilə reallaşması, Azərbaycan manatının tədavül bazarını məhdudlaşdırırdı. Fəqət bu egemonluq dünya bazarında neft qiymətlərinin kəskin azalmasından dolayı 2015-ci ildə dəyişmişdir. Fevral ayında 1 dollar 0.79 azn dən 1.05 Azn yə dekabrın sonunda ikinci develuvasiyayla 1.55 Azn olaraq Azərbaycan tarixində Mərkəzi Bank bir ildə iki dəfə develuvasiyaya getmişdir. Mərkəzi Bank ilk develuvasiyayı iki valyutalı səbətə keçidlə əlaqədar ikinci devaluvasiyanı isə 21 dekabr 2015-ci il tarixində üzən məzənnə rejiminə keçilməsi barədə qərar qəbul etmişdir. Bu qərara əsasən manatın məzənnəsi başlıca olaraq valyuta bazarında tələb və təklifin nisbətini müəyyən edən fundamental amillərin təsirinə uyğun olaraq formalaşacaqdır. Mərkəzi Bankın valyuta bazarında iştirakı isə bu rejimə uyğun həyata keçiriləcəkdir.

Azərbaycanın valyuta ehtiyatlarının kifayət miqdarda olması əhəmiyyətlidir. Ancaq, milli sərvətlərlə sadəcə dövlətin deyil, onun vətəndaşlarının da mülkiyyəti daxildir. Müasir dünyamızda dövlətin varlığı xəzinədəki pulun məbləğindən daha çox, onun vətəndaşlarının rifah səviyyəsinin yüksək olması ilə ölçülür. Bu cəhətdən isə, Azərbaycanda bəzi problemlərin mövcudluğu gözə çarpır. Xalqın gəlir səviyyəsi aşağı, sosial təbəqələşmə kəskin, orta təbəqə yox deyiləcək qədər zəifdir. Bu məsələnin həllində, həm neft fondunda yığılan gəlirlərdən, həm də xarici kreditlərdən daha yaxşı istifadə edilməsi lazım gəlir[57].

2.7. XARİCİ TİCARƏT

Ölkənin Milli Bankı tərəfindən 1995-ci ildən bu günə qədər beynəlxalq standardlara cavab verəcək şəkildə tədiyyə balansının tənzimləndiyi Azərbaycanda, lazımi tənzimləmələrdə önəmli məsafələr əldə edilmədən ölkə iqtisadiyyatının inteqrasiyasına nail olmaq məqsədiylə xarici ticarətin tam olaraq liberallaşdırılması, ağır vəziyyətdə olan istehsal sahələrinin tənəzzülünü sürətləndirmiş, yerli istehsalı bir xeyli azaltmış və daxili bazarı tamamiylə idxala bağlı bir vəziyyətə gətirmişdir. Gec də olsa yerli istehsalın inkişafına nail olmaq üçün hökümətin tətbiq etmək istədiyi tədbirlər isə, beynəlxalq təşkilatlar, əsasən də BVF və Dünya Bankı tərəfindən etirazla qarşılanmışdır. 2001-ci il aprel ayın-

[57] Nazim İmanov, s.28.

dan etibarən Azərbaycanda yeni gömrük məcəlləsi qüvvəyə minmişdir. Hökumət yerli istehsalı artırmaq üçün ölkədə istehsalı mümkün olan bir çox məhsulun idxalından alınan gömrük rüsumlarını yüksəltməyə cəhd etmişdir. Lakin, beynəlxalq maliyyə təşkilatları ilə müqavilələr mümkün olmadığından rüsumlar istənilən səviyyəyə qaldırıla bilməmişdir. Bəzi məhsullar üçün vergi nisbətlərinin 15%-ə yüksəldilməsinə baxmayaraq bu addımın çatmaq istənilən məqsədlərə çatmaqda kifayət etməyəcəyi düşünülür[58].

Müstəqilliyini əldə etdiyi illərin ardından 1994-1999-cu illər arasında Azərbaycanın xarici ticarət balansında kəsirlər müşahidə olunmuşdur. Ancaq, neft məhsulları ixracının artması bu kəsirin azalmasına səbəb olmuşdur.

Ölkədə sosial və siyasi sabitliyin əldə edilməyə başlandığı 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə başlayan və daha sonra müvəffəqiyyətlə davam etdirilən iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində, 1993-cü illə müqayisədə xarici ticarət həcmi 1997-ci ildə 16.4%, 1998-ci ildə 24.3%, 1999-cu ildə 45.2% nisbətində və 2000-ci ildə 2.1 dəfə, 2001-ci ildə 2.7 dəfə, 2002-ci ildə 2.8 dəfə, 2004-cü ildə isə 5.2 dəfə artış əldə edilmişdir. Azərbaycanın xarici ticarət həcmi 2005-ci ildə 2004-cü ilə nisbətlə 37 % (idxal 34%, ixrac 40%) artmışdır.

1998-ci ildə manatın həddən artıq dəyər qazanması ilə ixrac gəlirləri azalarkən, idxalın artması və hidrokarbon sektorunda investisiya məqsədli yüksək miqdarda xarici investisiya daxil olmaları, xarici ticarət kəsirinin 1998-ci ildə 470.3 milyon dollara qalxmasına səbəb olmuşdur.

1999-cu ildə 106.2 milyon dollar kəsir göstərən xarici ticarət balansı, 2003-cü il xaric 2000-ci ildən etibarən ixrac rəqəmləri artmağa başlamışdır. Bunun da əsas səbəbi beynəlxalq neft müqavilələrinin yeni mərhələyə keçməsi; neft çıxartma və ixrac mərhələsinə keçməsi nəticəsində ölkədən neft ixracının böyük nisbətdə artışı ilə bağlıdır.

Neft ixracının artmağa başladığı 2000-ci ildən etibarən ixracın ÜDM-də əhəmiyyətli yerə sahib olmağa başladığını görürük.

İxrac içində neft məhsulları önəmli yer tutur. Neft və neft məhsullarının ixrac içindəki payı 1998-ci ildə 64.8%, 1999-cu ildə 75.9%, 2000-ci ildə 84%, 2001-ci ildə 91.23%, 2002-ci ildə 81.23% və 2008-ci ildə 95% olmuşdur. Bu əsasən xam neftin ixracından qaynaqlanır. Bir tərəfdən dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar olaraq ölkədən ixrac olunmuş xam neftin qiyməti artmış, digər tərəfdən isə ixrac olunan xam neftin həcmi artmışdır. Azərbaycan ixrac edilən məhsulların içində neft məhsullarının üstünlük təşkil etməsi Azərbaycan iqtisadiyyatını neft qiymətlərindən asılı hala gətirmişdir. Digər ixrac məhsulları arasında isə, qida və metallar mühüm yer tutur.

[58] Mehdiyev, s.23.

Cədvəl 7. Azərbaycan Xarici Ticarəti (Milyon manat)

İllər	İdxal	İdxal Artışı (%)	İxrac	İxrac Artışı (%)
1991	1881.2	-	2120.9	-
1992	939.8	-50.04	1483.9	-30.03
1993	628.8	-33.09	724.6	-51.17
1994	777.9	23.71	652.7	-9.92
1995	667.6	-14.17	637.1	-2.39
1996	960.6	43.88	631.2	-0.92
1997	794.3	-17.32	781.3	23.78
1998	1076.4	35.51	606.2	-22.41
1999	1035.8	-3.77	929.6	53.34
2000	1172.0	13.15	1745.2	87.73
2001	1431.1	22.10	2314.2	32.60
2002	1665.5	16.38	2167.4	-6.34
2003	2626.4	57.69	2591.7	19.57
2004	3504.6	33.43	3614.4	39.46
2005	4 211.2	120.1	4 347.2	20.2
2006	5 266.7	125.0	6 372.2	46.5
2007	5 713.5	8.4	6 058.2	-5.2
2008	7 169.5	25.5	47 756	788
2009	6 119.70	-108.5	14 698	-307
2010	6600.61	107	21360.2	145.3
2011	9755.96	147	26570.8	124.3
2012	9652.87	-98.9	23907.9	-89
2013	10712.50	110.9	23975.4	100
2014	9187.69	-85	21828.6	-91

Mənbə: ARDSK Nəşrləri 2015

Azərbaycan ixrac edilən məhsulların içində neft və neft məhsullarının üstünlük təşkil etməsi neft hasilatı və bunun nəticəsində də ixracının artmasıyla daha da artacaqdır. Bu isə bir sektordan asılılıq şəklində ölkə üçün böyük bir problem ola bilər. Məsələnin həlli üçün neft gəlirlərinin qeyri-neft sektorlarına istiqamətləndirilməsi lazımdır.

İxracın strukturu idxalın strukturuna görə fərqlidir. 1996-cı ildən bəri iqtisadi stabilliyə bağlı olaraq daxili tələbin yüksəlməsi ilə idxalda da sürətli bir yüksəlmə gözlənilir. Azərbaycanın 2004-cü il ticarət əlaqələrində özəl sektorun payı idxalda 72.93%, ixracda isə 49.15% olmuşdur. Eyni zamanda vurğulamaq lazımdır ki, idxalı əvəz edən yerli istehsalın artışı nəticəsində ümumi istehlak mallarının və bu çərçivədə kənd təsərrüfatı məhsulları idxalının həcmində azalma müşahidə edilir.

Ölkə, idxalda təchizat kimi investisiya malları alaraq istehsal həcmini və texnolojik səviyyəsini artırmaq istəyir.

Sənaye müəssisələrinin özəlləşdirilməsində baş verən durğunluğun ortadan qaldırılamaması kimi struktur problemlər səbəbiylə istehsalın olmaması, bu səbəblə də ixracın əlavə dəyəri aşağı olan xam maddə və yarı hazır mallar üzərində cəmləşməsi və digər tərəfdən milli valyuta olan manatın 1997-2000 ci illərdə ABŞ dollarına qarşı həddən artıq dəyər qazanması nəticəsində idxal daha cəzbedici hala gəlmişdir.

İnkişaf etməkdə olan digər ölkələrdə olduğu kimi idxal cəhətdən maddi düalizm içində olan Azərbaycan, mal və xidmət idxalı üçün xarici valyuta ehtiyatına sahib olmaq və mütəmadi olaraq bu ehtiyatını artırmaq məcburiyyətindədir. Ölkənin hələ struktur islahatı və sənayeləşmənin qurtarmamış olmağına və qeyri-neft sektorlarında ixracın zəif olmağına baxmayaraq tədiyyə balansı kəsirlərini neft gəlirləri ilə ortadan qaldıra bilir. Lakin, bu vəziyyət ölkə iqtisadiyyatı üçün yaxşı hal deyil, hətta iqtisadi bir xəstəlikdir. Həm xəstəlikdən xilas olmaq üçün, həm də neft ixracının 15-20 il sonra azalacağı diqqətə alınaraq, xarici tarazlığı davam etdirə bilmək üçün sürətli sənayeləşmə, idxalı əvəz etmək və ixracı artırmaq şəklində sıralana biləcək uzun müddətli struktur dəyişikliklərin daha sıx və diqqətlə davam etməsi lazımdır.

2.7.1. Xarici Ticarətdə Əsas Ölkələr

Azərbaycan dünyanın 150-dan çox ölkəsi ilə ticarət əlaqəsi qurmuşdur. İdxalın 70 %-ni Rusiya, İngiltərə, Qazaxıstan, Türkiyə, Almaniya, Ukrayna, Hollandiya, Çin, ABŞ və Yaponiya ilə həyata keçirilmişdir. İxracın isə 87 %-i isə İtaliya, İsrail, Rusiya, Gürcüstan, Türkiyə, İran, Türkmənistan, İndoneziya, Xorvatiya və Fransa ilə həyata keçirtmişdir. Son illərdə xarici ticarətin 25%-i İtaliya, 12%-i Rusiya, 6%-i Türkiyə, 6%-i İngiltərə, 3.6%-i Türkmənistan, 4.6%-i İsrail, 3.5%-i Qazaxıstan, 3.3%-i Almanya, 3%-i İran, 3%-i Gürcüstan, 2.6%-i Fransa, 2.5%-i Çin və 2.3%-i Hollandiya ilə həyata keçirilmişdir.

İtaliya, Trieste terminalından həyata keçirilən neft daşımaları səbəbiylə Azərbaycanın ixrac etdiyi ölkələr içərisində ilk sıradadır.

1998-ci ildə Rusiya Federasiyasında baş verən iqtisadi böhran nəticəsində edilən devalvasiya və Rus mallarının Azərbaycan valyutasına nisbətlə dəyər itirməsi səbəbiylə Rusiya, Azərbaycan bazarında qiymət üstünlüyü əldə etmiş və mallarına tələbin artmasıyla Rusiya Azərbaycanın xarici ticarətində bu tarixdən etibarən ilk sıralara yüksəlmişdir.

Xarici ticarət rəqəmlərinə baxdıqda xarici ticarətin dəyişikliyə məruz qaldığı, köhnə SSRİ ölkələri ilə aparılan ticarətdən uzaqlaşıb qərb bazarlarına istiqamətləndiyini görürük.

Şəkil 1. 2015-cı il etibarıyla Azərbaycanın əsas ixrac tərəfdaş ölkələri



Mənbə: ARDSK Nəşrləri.

Şəkil 2. 2015-cı il etibarıyla Azərbaycanın əsas idxal tərəfdaş ölkələri



Mənbə: ARDSK Nəşrləri

Qonşu ölkə olan İranın isə, ixrac etdiyi məhsullarının aşağı keyfiyyətli olması səbəbiylə Azərbaycanın xarici ticarətində geridə qaldığı müşahidə olunur. Buna baxmayaraq İran Azərbaycanın xarici ticarətində önəmli bir rol oynayır. İran 1994-cü ildə ümumi ixracdakı 38%-lik payı ilə Azərbaycanın ən önəmli ixrac bazarı idi. Ancaq, 2002-ci ildə İran Azərbaycanın idxalında 3.5%, ixracında isə 1.4%-lik paya sahib olmuşdur. 2008-ci ildə isə iki ölkə arasında ticarət həcmi təqribən 200 milyon dollar olmuşdur. 2008-ci ildə İran Azərbaycanın idxalında 4.25%-lik bir paya sahib olmuşdur.

Azərbaycanın xarici ticarət əlaqələrində ölkə portfelində də zaman içində dəyişikliklər olmuşdur. Bu dəyişiklik ilə Azərbaycanın daha çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə ticarət əlaqələri qurduğunu görürük.

2.7.2. MDB Ölkələri ilə Xarici Ticari Əlaqələr

Azərbaycan 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra xarici ticarətdə SSRİ ölkələri xaricindəki ölkələrə istiqamətlənmişdir. Ancaq, müstəqlliyin ilk illərində Azərbaycanın keçmiş iqtisadi zonaya bağlılığı davam etmişdir. Ölkə iqtisadiyyatının Rusiyaya tabeliyi, müstəqil iqtisadi siyasətin həyata keçirilməsinə və milli iqtisadiyyatın formalaşmasına süni maneələr yaradırdı[59].

MDB-nın ümumi ticarət içindəki payı 1998-ci ildə 27.7% olarkən, 1999-cu ildə bu rəqəmin 22.6% olaraq yüksəldiyini görürük. 2000-ci ildə isə, bu nisbət bir az daha genişləyərək 20.9% olmuşdur.

Bu səbəblə də, 1991-1993 cü illərdə xarici ticarətinin 80-85%-i kimi böyük bir hissəsini MDB ölkələri ilə aparan Azərbaycanın, xarici ticarət əlaqələri 1994-cü ildən etibarən köklü bir şəkildə dəyişmə göstərməsi nəticəsində MDB ölkələri ilə olan xarici ticarət həcmi mütəmadi olaraq azalmağa başlamışdır[60].

2002-ci ildə MDB ölkələri ilə xarici ticarət həcmi 894 milyon dollar olaraq müəyyənləşmişdir. Bu miqdarın 650.4 milyon dolları idxalın, 243.7 milyon dolları isə ixracın payına düşmüşdür. Bu səbəblə də, MDB ölkələri ilə ticarət əlaqələrində Azərbaycan 2002-ci ildə 406.7 milyon dollar kəsir vermişdir[61].

MDB ölkələrinin Azərbaycanın idxalı içindəki payı 1991-ci ildə 80% ikən, bu nisbət 1999-cu ildə 31.4%, 2000-ci ildə 32% və 2015-cü ildə isə 23.9% olmuşdur.

Azərbaycanın ixracında isə MDB ölkələrinin payı 1991-ci ildə 94% ikən, bu nisbət 1999-cu ildə 22.7%, 2000-ci ildə 13.5% və 2015-cü ildə isə 9.3% olaraq həyata keçirilmişdir.

---

[59] Əmiraslanov, s.59.

[60] A.V.Vəliyev, "Azərbaycanın İstehlak Bazarının Formalaşmasında MDB Ölkələri İlə İqtisadi Əlaqələrin Rolu", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilmesi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.185-186.

[61] "*Azərbaycan Zaman Qəzeti*, 13-14 Fevral 2003, s.6.

MDB ölkələri və Rusiya ilə aparılan xarici ticarətdə idxalda müşahidə edilən azalmanın ixraca görə daha yavaş olduğu görünür. Ukrayna kimi digər MDB ölkələrdən edilən idxal isə daha böyük həcmdə azalmışdır.

Yuxarıda da ifadə edildiyi kimi keçid dövrü ilə birlikdə xarici ticarətin formalaşmasında da müəyyən dəyişikliklər baş vermiş, Azərbaycanın MDB ölkələrinə qarşı ixrac tabeliliyi azalarkən, xüsusilə Avropa İttifaqına dair ixrac rəqəmlərində önəmli artışlar əldə edilmişdir.

2.8. XARİCİ BORCLAR

Azərbaycanın xarici borc miqdarı və xarici borclarının ÜDM içindəki payı illər etibariylə mütəmadi olaraq artmışdır. Keçid dövrünün əvvəllərində ortaya çıxan və get-gedə illik kəsirlərin birbaşa investisiya və maliyyə məqsədli sərmayə daxil olmaları ilə maliyyələşdirildiyi müşahidə edilir. Misal olaraq, büdcə kəsirlərinin maliyyələşdirilməsində xarici fondların istifadə edildiyi xarici borcların ÜDM-dəki payının artışından başa düşülə bilər.

Cədvəl 8. Azərbaycanın Xarici Dövlət Borcu

Azərbaycana xaricdən cəlb edilən kreditlər və oların strukturu barədə 1 yanvar 2015-ci il tarixi vəziyyətinə məlumat *(mln. ABŞ dolları ilə)*		
	İstifadə olunmuş və dövlət borcu hesab edilən kreditlər üzrə	
I. Cəmi kreditlərin məbləği	**6 380,7**	
ÜDM faiz nisbəti	**8,5%**	
Adam başına düşən xarici borc	**671,6**	**ABŞ dol.**
II. Kreditlərin strukturu		
1. İqtisadi islahatlar üçün cəlb edilən kreditlər	325,8	11,2%
Beynəlxalq Valyuta Fondu	*220,2*	*5,4%*
Dünya Bankı	*2 255,7*	*32,8%*
2. İnvestisiya layihələri üçün cəlb edilən kreditlər	3591,0	88,8%
Elektrik enerjisi sektoru	1135,4	38,9%
Kənd təsərrüfatı və meliorasiya	227,6	7,8%
Yol tikintisi və nəqliyyat	676,9	23,2%
Kimya sahəsi	18,5	0,6%
Neft və qaz sektoru	169,5	5,8%
İşğaldan azad olunmuş ərazilərin bərpası	56,1	1,9%
Sosial sahələr	221,3	7,6%
Digər sahələr	80,5	2,8%
faizlər	*14,6 mln. ABŞ dolları*	
o cümlədən		
büdcədən	*19,4 mln. ABŞ dolları*	
Beynəlxalq Valyuta Fondu üzrə əsas borcun qaytarılması	*8,7 mln. ABŞ dolları*	
Mənbə: www.finance.gov.az		

1999-cu ildə xarici investisiya daxil olmalarındakı azalmaya baxmayaraq, xarici borclardakı artış illik kəsirin xarici borc almaqla maliyyələşdirildiyini göstərir.

Oxşar formada xarici borcların qaytarılmasında ən önəmli sərvət olan ixrac gəlirlərindəki artma sürətinin xarici borcun artma sürətindən aşağı olması xarici borc/ixrac nisbətində artışa səbəb olur. Xarici borc/ixrac nisbəti 1993-cü ildə 7.3%-dən, 1999-cu ildə 77.1%-ə yüksəlmişdir. Bu nisbət 2000-ci ildə 66%, 2001-ci ildə 54% və 2002-ci ildə 63% olmuşdur. Bu halda ixracın artma sürətindəki azalmanın, ölkənin xarici borc çirkabına batmasına, yəni borcu borcla qaytaran bir məhdud manevraya səbəb ola biləcək bir xüsusiyyətə sahib olduğunu nəzərdən çıxartmamalıyıq.

Xarici borcların ÜDM-yə nisbətinə nəzər saldıqda 1993-cü ildə 4% olan bu nisbətin 2004-cü ildə 18.6%-ə yüksəlməsi davam etdirilə biləcək böyümənin qaynağına dair təhlükə siqnallarının çalması mənasını verir. Digər tərəfdən illik kəsirlərin məliyyələşdirilməsində xarici qaynaqlardan da istifadə edildiyindən xarici borcda böyük artmalar ortaya çıxmışdır. Borclardakı artışa baxmayaraq, artan investisiyalarla neft istehsal və ixracındakı artmaların borcların qaytarılmasında hər hansı bir problemin ortaya çıxmasına imkan verməyəcəyi düşünülür.

Şəkil 3. 1 yanvar 2016-ci tarixinə qədər imzalanmış kredit sazişlərinin donorlar üzrə strukturu, mln. ABŞ dollar



Azərbaycan xarici maliyyə mənbələrindən borclanma siyasətinin tənzimlənməsinə də əlavə olaraq əhəmiyyət verir. 01 oktyabr 2015-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6,730.9 milyon ABŞ dolları (7,054.0

milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 12.4 faiz təşkil etmişdir. Borc statistikasına hökümətin birbaşa öhdəlikləri və dövlət zəmanətilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilmişdir.

Borcların sahələr üzrə bölüşdürülməsində qeyri-bərabərlik var. Məsələn, 2008-ci il ən çox kredit energetika sektoruna (33%) ayrılıb. Nəqliyyat sektoruna 9, sosial sahələrə 8, kənd təsərrüfatı və meliorasiyaya 6% ayrılıb.

İnkişaf nəticəsində, dövlət büdcəsi ilə yanaşı, valyuta ehtiyatları da ildən-ilə artır. Hazırda Azərbaycanın valyuta ehtiyatları təqribən 40 milyard dollara çatmış, eyni zamanda, təkcə Dövlət Neft Fondundakı vəsaitlərin həcmi 30 milyard dollar təşkil edir. Bütün bunlar isə həyata keçirilən layihələrin daxili mənbələr balansına maliyyələşdirilməsinə imkan verir. Təkcə bir faktı vurğulayaq ki, Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilişi üçün Gürcüstan dövlətinə 200 milyon dollar həcmində kredit ayırmışdır və bu faktın özü respublikamızın regionda lider olduğuna şübhə yeri qoymur. Bütün bunları görməyən və ya görmək istəməyən müxalif qüvvələr diqqəti daha çox Azərbaycanın xarici borclarına yönəltməyə çalışması belə vəziyyəti onların xeyrinə dəyişmir. Borc vəsaitlərinin 8.0%-i 10 ilə qədər, 58.6%-i 10 ildən 20 ilə qədər, 33.4%-i isə 20 ildən artıq olan müddətə cəlb olunmuşdur.

Qrafik 7. Azərbaycanın xarici dövlət borcu və onun ÜDM-ə nisbətinin dinamikası



01 oktyabr 2015-ci il tarixi vəziyyətinə xarici borc üzrə alınan kreditlərin valyuta tərkibi aşağıdakı kimi olmuşdur: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) - 9.4%, valyutalar üzrə isə ABŞ dolları ilə – 66.0%,

avro – 20.3%, yapon yeni – 2.6%, İslam dinarı – 0.6%, BƏƏ dirhəmi – 0.5%, Səudiyyə rialı – 0.4%, Küveyt dinarı – 0.2%.

Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə istifadə edilmişdir.

Azərbaycan 18 Sentyabr 1992-cı ildən etibarən BVF-nun üzvüdür. O zaman təşkilata qəbul edilərkən ilk kvotası 168.000 $ olmuş, 1999-cu ilin yanvar ayının 28-dən etibarən isə ilk kvota yenidən gözdən keçirilmiş və 220.000$-a qədər artırılmışdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası BVF-na üzv qəbul edildikdən sonra ölkədə iqtisadi islahatların həyata keçirilməsi istiqamətində təşkilatın köməyi ilə 6 müxtəlif proqramın reallaşmasına 577,3 mln. $ ümumi məbləğdə kredit cəlb edib. Azərbaycan hökümətinin Beynəlxalq Valyuta Fondundan aldığı kredit üzrə borcların 552 mln. $ geri ödəniş, 2014-ci il yanvarın 1-nə bu quruma cəmi 15,3 mln. $ borcu qalmışdır.

Dünya Bankının 1992-ci ildən üzvü olan Azərbaycan 1995-ci ildən başlayaraq kredit almağa başlamış və 2015-ci ilin ilk rübünə qədər umumi həcmi 3 milyard Amerika dollarını keçən yetmiş beş layihəyə kredit ayrılmışdır. Bu layihələrdən qırxı artıq yekunlaşmış və diğərləri isə hazırda aktivdir. Bununla da, Azərbaycan Türkiyə və Qazaxıstandan sonra Avropa və Mərkəzi Asiya regionunda ən iri kredit portfelinə malik üçüncü ölkəyə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli əməkdaşlıq içində olduğu iqtisadi təşkilatlardan biri də Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Azərbaycan bu təşkilata 1992-ci il 25 sentyabrda üzv olmuşdur. Azərbaycan həm də AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr" təşəbbüsü proqramına daxil edilmişdir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətində beynəlxalq cəhdlərin əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliyyələşməsi və s. üzrə cəmləşdirmişdir.

Qeyd edmək lazımdır ki, Bankın Azərbaycandakı fəaliyyətinin 50%-i enerji sektoru, 25% maliyyə sektoru, 6%-i mikromaliyyə, 3%-i qeyri-bank təşkilatları və 5%-i koorperasiya sektoru üzrə həyata keçirilir. AYİB bir sıra bankların institusional inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə onlara maliyyə və texniki yardımlar göstərir. Yeri gəlmişkən, bank daha böyük, daha müxtəlifləşdirilmiş və daha davamlı bankların inkişaf etdirilməsi məqsədilə mövcud və yeni partnyor bankları kredit xətləri, sindikatlaşdırılmış və subordinasiyalı

kreditlərlə təmin edir. Bununla yanaşı, AYİB qeyri-bank mikro-maliyyə qurumlarını, habelə lizinq və sığorta şirkətlərini də dəstəkləməkdədir. Ümumilikdə AYİB-in Azərbaycanla əməkdaşlıq dövrü ərzində 110 layihə üzrə 1,6 mlrd. dollar məbləğində vəsait ayrılmışdır ki, bundan 70 layihə maliyyə sektorunda həyata keçirilməkdədir. Ümumiyyətlə, bu günə kimi Avropa Bankının maliyyə dəstəyi ilə həyata keçirilən layihələr üzrə vəsaitlərin 44%-i enerji sektoruna yönəldilmişdir.

Azərbaycan Respublikasının hərtərəfli əməkdaşlıq içində olduğu iqtisadi təşkilatlardan biri də İslam Inkişaf Bankıdır. Azərbaycan bu iqtisadi təşkilata 1992-ci ildə üzv olaraq qəbul olunmuşdur. Azərbaycanın müstəqiliyini yeni qazanmış müsəlman bir ölkə olması İİB-nın ölkəyə investisyalar ayrılmasını təşviq etmişdir. Bankın əsas məqsədi üzv ölkələrin və müsəlman əhalinin sosial, iqtisadi inkişaflarına yardım etmək və bu ölkədə sosial iqtisadi tərəqqiyə nalil olmaqdan ibarətdir. İİB Azərbaycanda həyata keçirilən bir çox iqtisadi layihələri maliyyələşdirmək məqsədi ilə ölkəyə 300 milyon dollar həcmində müxtəlif kredit, qrant və texniki yardımlar etmişdir. Bunlara misal olaraq "Mil-Muğan kollektor kanalının tikintisi", "Xanarxı kanalının tikintisi", "Ələt-Qazməmməd yolunun tikintisi", "Mingəçevir SES-nin bərpası" və s. kimi layihələri göstərmək mümkündür.

Azərbaycan əməkdaşlıq etdiyi maliyyə təşkilatlardan biri olan Asiya İnkişaf Bankına 1999-cu ildə qoşulduğu vaxtdan bir milyard ABŞ dollarından çox yardım və kredit almışdır. AİB-in Azərbaycandakı fəaliyyətinə həm ictimai, həm də özəl sektorlar daxildir və hökümətin öz inkişaf strategiyasına uyğun olaraq həyata keçirilir. Ölkənin zəif kapitallaşdırılmış bank sektorunun gücləndirilməsinə və özəl infrastrukturun inkişafına kömək etməklə AİB özəl sektordakı fəaliyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Banklar kiçik həcmli kreditlər, xüsusilə də, individual sahibkarlar, kiçik və orta ölçülü müəssisələr üçün əsas mənbə olduğuna görə onların iqtisadiyyatda rolu çox əhəmiyyətlidir. Ölkənin öz borclarını qaytarmaq qabiliyyətinin yüksək olmasını və AİB-in Hökümətlə və digər tərəfdaşlarla işgüzar münasibətlərinin təkmilləşdiyini nəzərə alaraq AİB kredit proqramının səviyyəsini artırmağı nəzərdən keçirə bilər. AİB-in ölkəyə ayrıla biləcək güzəştli kreditlərinin həcmi müəyyən formul əsasında müəyyənləşdirilsə də, Azərbaycanın maliyyə vəziyyətinin qiymətləndirilməsi göstərir ki, ölkə maksimum diqqət və ehtiyatla iqtisadi və rentabelli layihələrə təyinatlı güzəştsiz şərtlərlə də borclanma səviyyəsini artıra bilər.Çünki bankın ayırdığı güzəştsiz kreditlərin faizi ölkədəkə mövcud orta kredit faizindən xeyli aşağı faiz dərəcəsi ilə təklif edilir. Lakin yenə də daha az güzəştli vəsaitə doğru keçid zamanı AİB-in proqramının sektorlar üzrə bölüşdürülməsinə düzəliş etməyi zəruri edir. Ən zəruri və iqtisadi layihələrə üstünlük vermənin daha düzgün addım olacağı qeyd etmək lazımdır.

Bir məsələni də unutmaq olmaz ki, dünyada heç bir dövlət təkbaşına, dünyaya inteqrasiya etmədən inkişaf edə bilməz. Bu baxımdan bu gün dünyada elə bir dövlət yoxdur ki, onun xarici borcları olmasın. Dünya iqtisadi sisteminə sürətli inteqrasiya dövlətlərlə beynəlxalq maliyyə qurumları arasında qarşılıqlı öhdəliklərin, borcların formalaşmasına səbəb olur. Hətta dünyanın ən inkişaf etmiş dövlətləri də müəyyən qlobal layihələrin həyata keçirilməsi üçün beynəlxalq maliyyə qurumlarından uzunmüddətli kreditlər götürürlər. Əvvəldə qeyd olunduğu kimi, xarici borcların artımı yalnız ÜDM-in 30 faizini ötdükdə inkişaf üçün təhlükəli tendensiya sayılır. Dünyanın inkişaf etmiş ölkələrinin xarici borcları ÜDM-in 20-60 faizini təşkil etdiyi halda, Azərbaycan üzrə bu rəqəm cəmi 8.6 faizdir və onun ölkəmiz üçün heç bir təhlükəsi yoxdur.

Məlumat üçün qeyd edək ki, Rusiyanın xarici borcu 647,1 milyard dollar və ya ölkə ÜDM-nin 60 faizinə bərabərdir. Qonşu Gürcüstanın xarici borcu 1 mil-yard 686 milyon dollar təşkil edir ki, ÜDM həcmini nəzərə alsaq, bu çox böyük rəqəmdir. 2015-ci ilin əvvəlinə olan məlumata görə, Ukraynanın xarici borcu 265,382 milyard dollar təşkil etmişdir. Bu da o deməkdir ki, 60 milyonluq ukraynalıların hər birinə orta hesabla 4000 dollardan artıq borc düşür. Ümumiyyətlə, xarici borclar Almaniyada ÜDM-in 68%-ni, Fransada 66%-ni, ABŞ-da 53%-ni, Böyük Britaniyada 43%-ni, Norveçdə 36%-ni, Qazaxıstanda 10%-ni təşkil edir. Göründüyü kimi, bu ölkələrlə müqayisədə Azərbaycanın xarici borcu olduqca cüzidir.

Azərbaycana böyük həcmli neft pulları daxil olmaqdadır. Eyni zamanda hökümət xarici ölkələrdən və beynəlxalq təşkilatlardan yüksək faizlə kredit alır. Anlaşılmayan cəhət odur ki, həm neft pulları, həm də alınan böyük kreditlər investisiya layihələrinə yönəldilir. O sahəyə ki, bura Azərbaycanda daha çox korrupsiya üçün münbit şəraiti olan mühit kimi tanınır.

İqtisadi islahatların sürətlənməsi üçün kreditləri BVF və Dünya Bankı verib, ancaq investisiya layihələri üçün kreditləri müxtəlif beynəlxalq təşkilatlardan almışıq. Bura əsasən BVF, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankının kreditləri daxildir. İnvestisiya layihələri üçün ayrılan kreditlərin böyük hissəsi enerji sektoruna yönəldilib.

Kreditlərin növbəti hissəsi isə kənd təsərrüfatı və meliorasiyaya yönəldilir. Burada əsasən su təsərrüfatı və meliorasiya üçün vəsait xərclənir. Hökümət kənd təsərrüfatına pul ayırmağa o qədər də həvəsli görünmür.

Alınan kreditlərin alınma məqsədlərinə uyğun olaraq istifadə olunub olunmaması barəsində isə bəzi şübhələr var.

Azərbaycanın Türkiyəyə olan mübahisəli borcu mövzusunda isə tərəflər razılığa gəliblər. Azərbaycanın Türkmənistana olan borc məsələsində isə bəzi problemlər var. Azərbaycana isə, sadəcə Gürcüstan borcludur (16 milyon dollar).

Azərbaycanda xarici borcların qaytarılması üçün büdcənin 3%-i ayrılmışdır. Bu nisbət digər MDB ölkələrinə görə olduqca aşağıdır. 2015-cı ilin sonunda ÜDM-nin 12.4 %-ni təşkil edən xarici borclar Neft Fondunun sərvətləri diqqətə alındıqda Azərbaycanın valyuta ehtiyatlarına müvafiq gəlir ki, bu da ölkənin maliyyə baxımından etibarlı olduğu mənasını verir. Beynəlxalq standartlara görə isə, xarici borcların ÜDM-nin 40%-ni, illik ixracın 200-250%-ni keçməsi halında təhlükəli qəbul edilir. Digər tərəfdən Azərbaycanın xarici borclarının böyük bir hissəsi 10 ildən daha artıq bir müddətə sahib kreditlərdir.

Bundan əlavə xarici ölkələr Azərbaycana bəzi yardımlar göstərirlər. Qaçqın və məcburi köçkünlərin problemlərini azaltmaq məqsədiylə köməkliklər göstərən ölkələr başda Yaponiya, Almaniya, İsveçrə, Türkiyə, İtaliya və Finlandiyadır. Yaponiya ilə Azərbaycan arasında iqtisadi ortaqlıqlar yüksək səviyyədədir[62]. Yaponiya Azərbaycana xüsusilə də Ermənistanın təcavüzündən sonra məcburi köçkün vəziyyətində olanlara yardımlar göstərmişdir. Yaponiya 1993-cü ildən başlayaraq məcburi köçkünlərə beynəlxalq təşkilatlar vasitəsiylə 11 milyon 470 min ABŞ dolları həcmində yardım göstərmişdir. Yaponiya hökuməti Azərbaycandakı səfirliyi vasitəsiylə 10 ildən çoxdur ki, "Ot kökləri və insan təhlükəsizliyi" qrant proqramı çərçivəsində məcburi köçkünlərə ümumi məbləği 480 min ABŞ dolları olan səkkiz layihə həyata keçirtmişdir.

Müstəqillikdən sonra Azərbaycan Almaniya ilə də texniki ortaqlığa başlamışdır. Almaniya göstərilən yardımlara görə ABŞ və Yaponiyadan sonra üçüncü yerdə mövqe tutur. Almaniya ilə Azərbaycan arasındakı əlaqələr iqtisadi tənzimləmələrə bağlı olmaqla yanaşı ekologiya və tibb sahəsində də həyata keçirdilir[63].

2.9. ƏTRAF MÜHİT VƏ EKOLOGİYA

86.600 km^2-lik sahəsi olan Azərbaycanın torpaqlarının 50%-i kənd təsərrüfatı sahəsindən, 25%-i isə şəhər ərazilərindən ibarətdir. Azərbaycanın bitki örtüyü də çox zəngindir. Məlum olan bitki sayısı 1400-dən çoxdur.

Azərbaycan ərazisinin 12%-i meşələrlə örtülüdür. Ölkə ərazisinin 950 000 hektarı meşəlik olaraq qəbul edilir. Ümumiyyətlə ölkədə 127 milyon m^3 odun ehtiyatı var. Hökümət meşələrin sənaye və digər səbəblərə görə kəsilməsini qadağan etmişdir. Mühafizə, qayğı və ağac əkmə kimi fəaliyyətlərlə meşələrin inkişafına səy göstərilir. Ölkədəki meşələrin, çoxunu yarpaqlarını tökən ağaclarla, şam ağacları təşkil edir.

Ölkənin cənub regionunun yaşıl örtüyünü ciddi təhlükə gözləyir. Belə ki, regionda təbii qazın kifayət qədər olmaması ilə bağlı ortaya çıxan çətinliklər meşə gözətçiləri üçün də aktualdır.

---

[62] Geniş Məlumat Üçün Bxn: Çingiz Abbasov, *Azərbaycanın Dünya İqtisadiyyatına İnteqrasiya Yolları*, Elm Nəşriyyatı, Bakı, 2005, ss.59-92.

[63] Çingiz Abbasov, ss.159-164.

Ağacların qanunsuz şəkildə kəsilməsi iki formada cərəyan edir: İnsanların bir hissəsi ağacları istilik məqsədiylə kəsərkən, digər bir hissəsi də bundan ticarət məqsədləri üçün istifadə etmək üçün kəsirlər. Ən çox ağac kəsilən regionlar isə, Lerik, Quba, Balakən və Xanlardır.

2009-cu ildə yenidən qurma tədbirləri çərçivəsində 4600 hektarlıq ərazidə yeni ağaclar əkilmişdir. Bu ərazilər daha çox Qobustan, Giləzi və Qaradağ regionlarındadır. Bundan əlavə 500 hektarlıq ərazidə isə yenidən ağac əkmək məqsədiylə işlər görülür. Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbii yanacağın az olmasının meşələr üçün ciddi təhlükə yaratdığını hesab edir. Bu da təbii qazın ən qısa zamanda normal qrafik və normal təzyiqlə verilməməsi halında, regionlarda işsizlik, xəstəlik, uşaq ölümləri, xarici investisiyalar üçün infrastrukturun olmaması, qanuni və qanunsuz köç kimi problemlərə meşəsizlik də əlavə ediləcəkdir.

Neft və təbii qaz Azərbaycanın ən əsas təbii sərvətləridir. Azərbaycan dəmir, alüminium, sink, mis, arsen, molibden, mərmər və vulkan palçığı kimi zəngin mineral sərvətlərə də sahibdir.

Transqafqazın ən çox çirklilik problemi olan ölkəsi də Azərbaycandır. Son 100-150 illik sənaye fəaliyyətləri nəticəsində Azərbaycanda ekoloji vəziyyət gərginləşmişdir. Azərbaycanda ekoloji problemlər çox və fərqlilik təşkil edir. Həm hava, həm su, həm də torpaq çirkliliyi mövcuddur.

Kifayət qədər su ehtiyatına sahib olmasına baxmayaraq səth suyu çirklidir. İçməli suyun tərkibi isə getdikcə pisləşir. İçməli suyun tərkibinə ağır metalların nisbəti normaldan 10-15 dəfə artıqdır. Ölkədə ciddi su problemi olmağına baxmayaraq, suyun 29%-i nəql əsnasında itirilir.

Sənaye istehsalındakı azalışa baxmayaraq, hava çirkliliyi yüksək səviyyələrdə olmağa davam edir. Hava çirkliliyinin ən əsas səbəblərindən biri avtomobillərdir. Atmosferə daxil olan zərərli maddələrin ümumi həcminin təqribən 41%-i avtomobil nəqliyyatından qaynaqlanan tullantılardır. Avtomobillərin böyük bir hissəsi Rusiya tərəfindən istehsal olunan standart səviyyəsi aşağı olan avtomobillərdir. Digər xarici ölkələrdən gətirilən avtomobillərin böyük əksəriyyəti isə köhnədir.

Keçən illərdən qaynaqlanan toksin tullantıları isə, ölkənin ekolojik balansının pozulmasında böyük rolu olmuşdur. Ölkədə 2007-cü ilin sonunda Sumqayıt şəhər müəssisələrində 4 milyon ton, Bakı şəhər müəssisələrində 340 000 ton, digər şəhər və region ərazilərində isə 37 000 ton zəhərli tullantılar olmuşdur. Orqanizm üçün olduqca təhlükəli hesab edilən zəhərli tullantılar əsasən istehsal prosesində ortaya çıxır.

Zəif sulama şərtləri səbəbiylə torpağın faydalılığı azalmışdır.

Xəzər dənizində ortaya çıxan iqtisadi problemlər də əhəmiyyətlidir. Son illərdə dəniz suyunda yüksək çirklənmə halları daha çox müşahidə edilir. Xəzər

dənizini ilk olaraq axan çaylar çirkləndirir. Dənizin çirklənməsinin 70-75%-i Volqa çayının payına düşür. Səbəblər arasında inşa edilən evlərin mərkəzi kanalizasiya sisteminə daxil olmamalarını da qeyd edə bilərik. Bundan əlavə neft istehsalı və digər sənaye müəssisələrinin tullantıları da Xəzərdəki çirkliliyə səbəb olan ünsürlərdəndir.

Xəzər dənizinin səviyyəsinin qalxması da digər bir ekoloji problemdir. Əhəmiyyətli bir balıqçılıq zonası olan Xəzər dənizinin faydalılığı bu səbəblə təhlükəyə düşür. Xəzərin səviyyəsinin 1977-1995 ci illər arasında qalxması nəticəsində 50 000 hektar ərazi su altında qalmışdır. Dəniz səviyyəsindəki qalxmanın davam etməsi halında 2015-ci ilə qədər su altında qalan ərazi 100 000 hektara çatacağı proqnozlaşdırılır. Xəzərin səviyyəsinin qalxmasından ən böyük zərəri sahilyanı ölkələrdən sənaye potensialının 70-75%-i sahilə yaxın olan Azərbaycana dəyəcəkdir[64].

Ölkədə torpağın çirklənməsi ilə bağlı problemlər isə, 70-ci illərdən etibarən artmağa başlamışdır. Abşeron torpaqlarında ciddi çirklənmə baş verir. Sadəcə Abşeronun 30 000 hektardan çox torpaq sahəsi çirklənməyə məruz qalmışdır. Çirkli torpaqlar isə, təmizlənərək təsərrüfat, parkların salınması və digər faydalı məqsədlər üçün istifadə oluna bilər.

2.10. ƏHALİ

2016-ci ilin əvvəlinə Azərbaycan Respublikasının əhalisinin sayı 9 milyon 593 min nəfər olmuşdur. Əhalinin 5 milyon 098 min nəfəri və ya 53,1%-i şəhər, 4 milyon 495 min nəfəri və ya 46,9%-i kənd yerlərində yaşayır. Əhalinin 4 milyon 776 min nəfəri (49,8%-i) kişilərdən, 4 milyon 817 min nəfəri isə (50,2%-i) qadınlardan ibarətdir, hər 1000 nəfər kişiyə 1009 nəfər qadın düşür. 2015-cı ilə olan təxminlərinə əsasən Azərbaycan Respublikası əhalisinin sayına görə dünyada 240 ölkə arasında 92-ci yerdə dayanmaqdadır. Əhalinin 49.8%-i kişi, 50.2%-i isə qadındır. Əhalinin ümumi sayından 22,4%-i 0-14 yaşda, 71,6%-i 15-64 yaşda, 6,0%-i isə 65 və yuxarıyaşda olanlardır. 14-29 yaşda olan gənclər ümumi əhalinin 28%-ni təşkil edir və onların da yarıdan çoxu şəhər yerlərində yaşayırlar. Son 5 il ərzində ölkədə ildə orta hesabla 172 min körpə və ya hər gün təxminən 471 kiçik vətəndaş dünyaya gəlmişdir. 2014-cü ildə Daxili İşlər Nazirliyinin müvafiq orqanları və Dövlət Miqrasiya Xidməti tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1,9 min nəfər gələn və ölkədən 0,8 min nəfər daimi yaşamaq üçün gedən qeydə alınmışdır.

Təhsilli, mütəxəssis kadrlara sahib olan Azərbaycan əhalisinin 40%-ə yaxını paytaxtda yaşayır. Ümumi olaraq əhalinin 51.5%-i şəhərlərdə, 48.5%-i isə

[64] Rəşad Süleymanov, 'Xəzərin Səviyyəsinin Qalxmasından Ən Çox Ziyan Görən Azərbaycandır', *525-ci Qəzet*, No:56 (1913), 26 Mart 2005.

kəndlərdə məskunlaşıb. Ortalama həyat müddəti 72.4 ildir. Bu nisbət qadınlar üçün 75.2, kişilər üçün isə 69.6-dır[65].

1992-ci ildə başlayan "Azərbaycan-Ermənistan Dağlıq Qarabağ Müharibəsi" əsnasında, ölkə daxili siyasi çəkişmələrin də təsiriylə, 1993-cü ildə Dağlıq Qarabağ ilə birlikdə torpaqlarının 20%-i itirildi. Təqribən 1 milyon Azərbaycan vətəndaşı, əhalinin 12%-i işğal olunan torpaqları tərk etmək məcburiyyətində qaldılar. 2009-cu ildən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində qaçqınların əksəriyyətinin məskunlaşdığı çadır şəhərcikləri ləğv edilərək qaçqınlar müasir şəhərciklərdə və qəsəbələrdə məskunlaşdırılması reallaşdırıldı. Növbəti mərhələlərdə 2015-2016 ilərində bu proses təhsil müəssisələrində müvəqqəti məskunlaşan qaçqın və məcburi köçkünlərə şamil ediləcək.

[65] *Investors' Handbook*, International Conference Investing in Azerbaijan- Gateway to the Newly Insdependent States, Baku, May 7-9 2003, s.16.

ÜÇÜNCÜ FƏSİL
SEKTORLAR ÜZRƏ ANALİZ

Bu fəsildə sənaye, kənd təsərrüfatı və xidmətlər sektoru alt başlıqları altında, Azərbaycan iqtisadiyyatı sektorlar üzrə analiz ediləcəkdir.

3.1. SƏNAYE

Müstəqillikdən əvvəl Azərbaycan iqtisadiyyatında əsas üstünlüyü sənaye sektoru təşkil edirdi. 1988-ci ildə milli gəlirin 42.1%-i sənaye sektorunun payına düşürdü. Həmin ildə sənaye sektorunda fəaliyyət göstərən 1005 sənaye obyektindən 529-u ağır sənaye, 206-sı yüngül sənaye, 263-ü kənd təsərrüfatı sənaye kompleksinə bağlı ərzaq məhsulları istehsal edən sənaye obyekti idi[66].

Müstəqilliyin qazanıldığı ilk illər, sənaye müəssisələrinin sərbəst bazar iqtisadiyyatına uyğunlaşma illəri olaraq qiymətləndirilə bilər. 1995-ci ilin sonlarında sənaye məhsullarının fiziki həcmində, 1990-cı ilə nisbətən 70% geriləmə müşahidə olunur. Digər sektorlar da diqqətə alındıqda, 1990-cı ildən fəaliyyət göstərən 3800-dən çox müəssisənin fəaliyyəti 1995-ci ildə dayandırılmışdır. Bir qismi isə, qismən də olsa fəaliyyətlərini davam etdirmişdilər. Digər tərəfdən 1990-95-ci illərdə sənaye məhsullarının istehsalının bütün sahələrdə aşağı düşdüyü qeydə alınmışdır. Hətta sənaye müəssisələrinin sayının yeni qurulan xüsusi mülkiyyətli müəssisələrlə birlikdə 1005-dən 2984-ə çıxması istehsal həcminin ciddi şəkildə azalmasını əngəlləyə bilməmişdir[67].

Müstəqilliyin ilk illərində sənaye məhsulları istehsalı sahəsində dövlət nəzarətinin zəifləməsi, müvafiq stabillik proqramının olmaması və müəssisələrin yoxlamadan uzaq qalması isə, sənaye malları istehsalındakı sürətli azalmanın əsas səbəbləri olmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, ortaya çıxan bu mənfi iqtisadi gedişat sadəcə Azərbaycandakı vəziyyətlə əlaqədar deyil, həmçinin köhnə sosialist bloku ölkələrində ortaya çıxan siyasi və iqtisadi vəziyyətlə də bağlı olmuşdur[68].

Azərbaycanən sənaye potensialının 20%-lik hissəsini neftayırma avadanlıqları istehsalı sektoru və qapalı maşınqayırma-inşaat sektoru təşkil edir. Neftayırma avadanlıqları istehsalı Azərbaycanın ən qədim və başlıca sənaye sahəsidir. SSRİ dövründə bu sektor, SSRİ tələbatının 70%-ini təmin edirdi. Ancaq, köhnəlmiş texnologiya ilə istehsalın həyata keçirilməsi, xammal və

---

[66] E.Əhmədov-M.Hacıyev, *Azərbaycan İqtisadiyyatı*, Səda Nəşrləri, Bakı, 2004, s.31; Eyyubov, s.68.
[67] Eyyubov,s.69-71
[68] Eyyubov,s.72

ehtiyat hissələrin çatışmazlığı kimi səbəblər, olkə ehtiyaclarından artiq istehsal imkanlarına sahib olan fabriklərin ya imkanlarından az istehsal etməsinə ya da ki bağlanmasına səbəb olmuşdur.

Sənaye müəssisələrinin hamısı Sovet İttifaqı dövründəki başqa dövlətlərlə əlaqəli olduğundan, müstəqillik əldə olunduqdan sonra sənaye sektrounda ciddi problemlər yaranmışdır. Digər tərəfdən də təchizat keyfiyyətinin aşağı olması istehsalı mənasız hala gətirmişdir.

Hökümət neftdən asılı olan sənaye sahələrini stratejik sənaye sahələri olaraq qəbul etmiş və özəlləşdirmə planı tərkibinə daxil etmişdir. Digər tərəfdən, 1995-ci ildə birgə istehsala keçmək məqsədilə xarici sərmayədarların axtarılması üzrə bir proqram təşkil olundu. Ancaq, beynəlxalq sərmayələrə bəzi məhdudiyyətlər də gətirilmişdir.

Neft və neft məhsullarının üstünlük təşkil etdiyi bir sənaye strukturuna sahib olan Azərbaycanda 1990-cı ildən etibarən sürətlə aşağı düşən sənaye istehsalı həcmi, Azərbaycan və digər köhnə Sovet İttifaqı ölkələrində siyasi və iqtisadi stabilliyin yaranmağa başladığı 1995-ci ildən etibarən yenidən inkişaf trendinə girmişdir. 1994-cü ildə 20.8% olan nisbət, 1995-ci ildə 29.6%-ə yüksəlmişdir.

Sənaye mallarının ÜDM-dəki payı 1998-ci ildə 22.9%, 1999-cu ildə 28.2% olmuşdur. 2000-ci ildə ÜDM-dəki payı 36% olan sənaye məhsulları arasına; neft, təbii qaz, neft məhsulları, neft maşınqayırması, dəmir filizi, sement, kimya, neft-kimya və toxuculuq kimi məhsullar daxildir. 2000-ci ildə sənaye istehsalında 1999-cu ilə nisbətən ciddi artım qeydə alınmışdır.1996-2000-ci illər iqtisadi stabilliyin yarandığı bir dövr olmaqla birlikdə, ÜDM-də qeydə alınan artım daha çox neft hasilatı sənayesindəki artımdan və bundan asılı olan inşaat fəaliyyətləri nəticəsində ortaya çıxmışdır.

Sənaye məhsullarının ÜDM-dəki payı 2001-ci ildə 37.6% olarkən, 2002-ci ildə əvvəlki ilə nisbətən aşağı düşərək 34.9% olmuşdur. Ancaq, 2003 ildən etibarən yenidən yüksələrək, 2015-ci ilə qədər 35-45% həcmində olmuşdur.

Qısacası, 1996-cı ildən etibarən makroiqtisadi stabilliyin yaradılması ilə birlikdə iqtisadiyyatda ortaya çıxan inkişaf tərsinə çevrilərək, Azərbaycanda yeni sənaye müəssisələri açılmışdır. Ölkə əhalisinin təxminən 27%-i sənaye sektorunda işlə təmin olunur.

1990-cı ildən sonrakı dəyişikliklər diqqətə alındıqda, hər nə qədər də ölkədə siyasi stabillik əldə edilmiş olsa da sənaye sektorunda fəaliyyət göstərən müəssisələrin işsizlik problemini həll edə bilmədikləri görülür.

Ölkədə qurulan sənaye müəssisələrinin 90%-i özəl sektora aid kiçik və orta həcmli müəssisələrdir.

Daha əvvəl mövcud olan sənaye müəssisələri isə köhnəlmiş texnologiyaya malik və məhsuldarlığı aşağı olan müəssisələrdir. Buna görə də, Azərbaycan neft və mədən məhsullarının böyük bir hissəsi xammal və yarımməhsul halında satılır.

Qrafik 8. ÜDM-də Sənaye Sektorunun Yeri (%)



Mənbə: ARDSK Nəşrləri

Neft hasilatı texnologiyaları, emal sənaye sektoru və buna bağlı olan maşınqayırma-inşaat sektoru Azərbaycan sənayesinin 1/5 hissəsini təşkil edir. Enerji emalı sənayesi, elektronika və metal emalı, maşınqayırma və gəmiçilik, toxuculuq sənayeləri qabaqcıl sənaye sahələridir.

Emal sənayesi sahəsində qurulmuş çoxlu sayda müəssisələr vardır. Ancaq, digər sektorlarda olduğu kimi sənaye sektorunda da müəssisələrin çoxunun xaricdən (köhnə SSRİ ölkələrinə) asılı olması, zavodların böyük hissəsinin yararsız vəziyyətə düşməsinə səbəb olmuşdur.

Emalat sənayesində müstəqillikdən sonrakı dövrdə, emal sənayesində istehsal miqdarı baxımından 1999-cu ilə qədər geriləmə müşahidə olunmuşdur. Polad istehsalı ilə birlikdə kağız və meşə materialları, inşaat materialları, toxuculuq kimi digər emal sənayelərində də oxşar vəziyyətə rast gəlmək mümkündür. 2000-ci ildən etibarən isə emal sənayesində yenidən artım qeydə alınmışdır.

Ərzaq malları sənayesində şərab istehsalı ən mühüm istehsal sahəsidir.

Yüngül sənaye sahəsində, toxuculuq, xalçaçılıq, dəri məhsulları və mebel istehsalı əsas istehsal sahələridir.

Toxuculuq sənayesində orta, böyük və kiçik həcmli bir çöx müəssisə mövcuddur (yun əyirmə, ayaqqabı, geyim və dəri emalı fabrikləri kimi). Bunlardan başqa pambıq emalı ilə məşğul olan bir çox fabrik də mövcuddur.

Xüsusilə, toxuculuq sektorunda ciddi olçüdə geriləmə qeydə alınmışdır. Bu sahə Sovet İttifaqı dövründə Azərbaycan sənayesinin 10-15%-ni təşkil edirdi. Bu sahədə işlə təmin olunanların sayı 55-60 min arasında idi. 2007-ci ilə görə ölkə sənayesində toxuculuq sənayesinin payi 3-5%-dir. Bu sahədə işləyən-lərin sayı isə ciddi şəkildə azalmışdır.

Toxuculuq və digər istehlak malları istehsal edən sektorlar, idxal olunan mallar ilə rəqabət aparmaqda çətinlik çəkirlər. Ölkədə təcili olaraq pambıq məhsullarının toxuculuq sənayesində istifadəyə hazır şəkildə inkişaf ettirilməsi vacibdir. Çünki, istehsal olunan pambığın böyük bir hissəsi xammal şəklində xarici ölkələrə satılır, daha sonra isə toxuculuq fabrikləri istifadə etdikləri parçaları xaricdən idxal edirlər. Bu səbəblə də qeyri-neft sektorlarının inkişaf etdirliməsinə dair proqramlarda toxuculuq sənayesinin inkişaf etdirilməsi hökümətin əsas hədəflərindən biridir.

Ərzaq mallarının istehsalında isə son illərə qədər sürətli bir azalma qeydə alınmışdır.

Ağır sənayedə əsasən ara mal və yarımməhsul istehsal olunur. Ağır sənayenin əsasını neft sənayesi təşkil edir. Azərbaycanda ağır sənaye Sumqayıt şəhərində cəmləşmişdir. Ölkənin əsas sənaye müəssisələri buradadır. Azərbaycan hökuməti regiondakı müəssisələrin yenidən qurulması ilə əlaqədar 25 illik bir inkişaf planı hazırlamışdır. Bu planın həyata keçirilə bilməsi üçün 30 milyard dollar həcmində xarici sərmayəyə ehtiyac vardır.

Məlumdur ki, sənaye komplekslərinin istehsalında müşahidə olunan ciddi nisbətdəki azalma, köhnə Sovetlər İttifaqının dağılması ilə sosialist ölkələrinin müəssisələri arasındakı əlaqənin kəsilməsilə əlaqədardır. Bu təsirin xüsusilə ağır sənaye sahələrini əhatə etdiyi görünür. Ancaq bu təsiri yüngül sənaye baxımından ifadə etək mümkün deyil.

Sənaye sektorunda 2015-ci ildə 25.949.8 milyard manatlıq sənaye malları isatehsalı ilə bir əvvəlki ilə nisbətən azalması enerji, neft-kimya fabriklərinin və özəl sektora aid müəssisələrin inkişafına rəğmən neft qiymətlərinin azalmasının böyük təsiri olmuşdur. Neft məhsulları istehsalı nəzərə alınmadıqda isə 2000-2015-cə illərdə sənaye sektorundakı artım 136% dən çox olmuşdur.

Bir başqa tərəfdən ələ alındıqda, sənaye istehsalında 1997-ci ildən etibarən başlayan azalma trendi tərsinə çevrilərək artmağa başlamaqla birlikdə, Azərbaycanın 2008-ci il sonu etibarilə sənaye istehsalı hələ də 1990-cı il səviyyəsinə çatmadığı görülür. Amma daha sonra bu həcm artamağa başlamış və bu proses 2015 ci ilə qədər davam etmişdir.

Enerji istehsalı sənayesi, elektronika və metal emalı, maşınqayırma və gəmiçilik, toxuculuq sənayeləri qabaqcıl sənaye sahələridir. Müstəqillikdən sonra, neftə bağlı sənaye sahələrindən, metal emalı və kimya sektorlarında inkişaf başlamışdır. Xüsusilə də, son illərdə neft avadanlıqları istehsalı və metallurgiya sahələrində ciddi irəliləyişlər olmuşdur.

1 yanvar 1997-ci il tarixindən etibarən yeni Gömrük Vergisi və ƏDV tarifləri qüvvəyə minmiş; mühafizə tədbirləri artırılmışdır. Bununla birlikdə, istehsal üçün istifadə edilən hər növ xammal, yarım məhsul, maşın və avadanlıqların idxalı gömrük vərgisinə tabe tutulmuşdur.

Özəl sektorun sənaye sektoru içərisindəki payının ildən-ilə artmaqda olduğu görülür. Məsələn, sənaye malları istehsalının 1998-ci ildə 26.4%-i, 1999-cu ildə 37.3%-i, 2000-ci ildə 43.7%-i, 2002-ci ildə 53.7%-i, 2015-cü ildə isə 71 %-i özəl sektorun payına düşür. Ancaq, bu artım, özəl sektorun iqtisadiyyatdakı artmağı ilə birgə, dövlət sektoruna aid sənaye müəssisələrinin istehsal həcminin aşağı düşməsindən və bəzi məhsulların istehsalının tamamilə dayandırılmasından meydana gəlmişdir.

3.1.1. Mədən Sektoru

Azərbaycan çox zəngin yeraltı qaynaqlara malikdir. Başlıca qaynaqları; neft, təbii qaz, mis, alunit, sink, qurğuşun, sulfat, polimetal filizi, civə, molibden, dəmir filizi, barıt, kobalt, arsenik, mərmər, əhəng daşı, siyanit, mədən duzu və daş duzdur. Bir sözlə Azərbaycan həm metal filizi, həm də sənaye xammalı baxımından zəngin təbii sərvətlərə sahibdir.

Sovet dövründə təbii qaynaqların istifadəsi əsasən qısa və uzun muddətli ehtiyaclar diqqətə alınaraq planlanmışdı. Mədən yataqlarından, köhnə mərkəzi hökümət tərəfindən səmərəli şəkildə istifadə olunmayanlarının bəzilərində məhsudarlıq aşağı düşmüş, bəziləri isə bağlanmış və ya iqtisadiyyata yük olacaq vəziyyətə düşmüşdür.

Dəmir ehtiyatının təxminən 200-250 milyon ton olduğu ehtimal olunur. SSRİ dağıldıqdan sonra dəmir filizinin çıxarılması dayandırılmışdır. Bunun səbəbi isə, ən əsas müştəri olan Gürcüstanın aşağı keyfiyyəti irəli ataraq dəmir almaqdan imtina etməsi olmuşdur. Ancaq, Alman və İngilis firmaları dəmir yataqlarının bərpası ilə maraqlanırlar.

Filiz çaydakı polimetal filizi yataqlarında geniş potensial olduğu hesab edilir.

Yüksək tenör və rezervdə qızıl yataqlarının olmasına baxmayaraq, hələ də heç birisi istifadə edilmir. Azərbaycanda zəngin qızıl yataqlarının istifadə olunması üçün 1997-ci ildə ABŞ-ın "RV İnvəstment" şirkəti ilə razılaşma əldə olunmuşdur. 25 illik razılaşmaya görə ABŞ şirkəti layihə əsasında 6 ədəd qızıl yatağı üçün 500 milyon dolları əməliyyat, 120 milyon dolları isə inkişaf etdirmə məqsədiylə olmaqla, təxminən 620 milyon dollar sərmayə qoyacaqdır.

Qızıl yataqları Gədəbəy, Ordubad və Erməni işğalı altında olan Kəlbəcərdə yerləşir. "RV" şirkəti, qızılın dünya bazarındakı qiymətinə bağlı olaraq yataqlarda fəaliyyətə başlamağı planlaşdırmışdır[69]. 100 min ton sülfit turşusu ehtiyatları olmasına baxmayaraq, bazar imkanı tapılmamış və 1 milyon dollar dəyərində gümüş istehsalı, alıcı tapılmadığından dayandırılmışdır.

Mədən sektorunda təcili müasirləşməyə ehtiyac mövcudluğunu və əhəmiyyətini davam etdirir.

---

[69] "Azərbaycanın qızıl yataqlarının *i*şlənməsinə başlanacaq", *Üç Nöqtə Qəzeti*, No:41(521), 4 Mart 2003; 'US Company to Develop Azerbaijan's Gold Deposits in 2005', A*zernews,* http://www.azernews.net/view.php?d=5692 (19.03.2005).

Qısacası, Azərbaycan, mədən sektorunda bir çox problemlə qarşı-qarşıyadır. Çox məhdud olan mədən mallarının istehsalı müəssisələrində texnologiya geri qalmışdır.

3.1.2. Elektrik Enerjisi

Azərbaycanda imkanlarının 85%-ni istifadə edən səkkiz istilik və altı su elektrik stansiyaları mövcuddur. Sovet dövründə tikilən bu elektrik istehsalı mərkəzləri, müstəqillikdən sonra lazımi səviyyədə təsirli olmamışdır. Azərbaycanda elektrik enerjisinin 82%-i istilik, 18%-i isə su elektrik stansiyalarında istehsal olunur.

1995-ci ildən etibarən qiymət liberallaşması, enerji sektorunu da əhatə edəcək şəkildə genişləndirilərkən, ölkə daxilindəki enerji qiymətləri də dünya qiymətləri səviyyəsinə yüksəldilməyə başlanmışdır.

Azərbaycanda istehsal olunan elektrik enerjisi miqdarı lazımi ehtiyacları qarşılaya bilmir. Xüsusilə də, qış aylarında enerjiyə olan ehtiyac artdığından ciddi çətinlik yaşanır.

Ölkənin öz elektrik ehtiyacını qarşılaya bilməməsinin səbəbi, istehsal müəssisələrinin köhnəlməsi və təmirinin aparılmamasıdır. Texnologiya və avadanlıqlar aşınmış və köhnəlmişdir. Digər tərəfdən də enerjinin lazımi şəkildə paylanmaması səbəbiylə istehsal itkisi get-gedə artır. İstehsal itkisi bütün istehsalın təxminən 15-20%-ni təşkil edir.

Enerji ehtiyacını qarşılaya bilmək üçün Azərbaycan Rusiya, Türkiyə və İrandan enerji idxal edir. Azərbaycan, Gürcüstan və Türkiyə ilə birləşmiş enerji sistemi qurmaq üçün, AB proqramına qoşulmuşdur.

Digər tərəfdən də Azərbaycan, enerji sektorundakı itkiləri aradan qaldırmaq məqsədiylə özəlləşdirmə proqramını tətbiq etmişdir. 1996-cı ildə Dövlət başçısı Heydər Əliyev cənabları, dövlətin əlində olan Azərenerjinin yenidən təşkilatlanması, anonim şirkət olması və beş il müddətində özəlləşdirilməsi barəsində fərman imzalamışdır. 2000-ci ildə özəlləşdirməyə çıxarılan 16 şəbəkənin satılması istiqamətindəki uğursuzluqdan sonra (16 şəbəkədən yalnızca 4-ü üçün təklif gəlmişdi) Azərbaycan enerji baxımından beş regiona bölündü; Bakı, Naxçıvan, Şimal (Sumqayıt), Cənub (Şirvan) və Qərb (Gəncə). Daha sonra isə, bu beş region ilə əlaqədar anonim şirkətlərin qurulması qərara alınmışdır.

Azərbaycanda elektrik enerjisi istehsalı üçün yanacaq problemi mövcuddur. Ölkə, öz ehtiyacını qarşılamaq üçün neft və təbii qazın səmərəli olaraq istehsalını və elektrik enerjisinə çevrilməsi, texniki cəhətdən uyğun şəkildə çatdırılması və paylanması, bunun müqabilində enerji haqqlarının yığılması ilə bağlı problemlərin mövcud olması da diqqətə alınaraq başda Bakı olmaqla, Sumqayıt, Şirvan, Mingəçevir şəhərlərinin elektrik şəbəkələri, uzun müddətli idarə etmək üçün özəl sektora təslim edilmişdir. Bakı ilə bağlı təslim işləri, 2000-ci ilin dekabrında müəssisə haqqının təslim edilməsi ilə əlaqədar tenderin keçi-

rilməsi nəticəsində, elektrik paylanmasının təşkil olunması 7 noyabr 2001-ci ildə dövlət başçısı tərəfindən imzalanan fərmanla 1 yanvar 2002-ci ildən başlamaqla bir Türk şirkəti olan "Barmek Holdinq"ə verilmişdir. Daha sonra Bakı və şimal zonalarının elektrik şəbəkələri "Barmek Holdinq" tərəfindən idarə edilsə də, digər regionların idarəsini həyata keçirən "Bayva" şirkəti ilə olan müqavilə şirkətin müraciətinə əsasən ləğv edilmiş və bu regionların elektrik şəbəkələri yenidən dövlət şirkəti olan "Azərenerji" yə geri qaytarılmışdır. 2007 ci ildən isə Bakı şəhərinin elektrik sistemini "Bakı Elektrik Şəbəkə", Sumqayıt şəhərini isə "Sumqayıt Elektrik Şəbəkə" idarə etməkdədir.

Cədvəl 9. Elektrik enerjisinin istehsalı

İllər	Elektrik enerjisinin istehsalı, mlyn. kVt.saat	ondan:					
		İES-lərin istehsalı	SES-lərin istehsalı	qeyri-enerji müəssisələrinin	generatorlar vasitəsilə	külək enerjisi	günəş foto-elektrik enerjisi
1913	110,8	...	...	...	...	-	-
1920	122,0	...	...	...	...	-	-
1930	503,9	...	...	...	...	-	-
1940	1.827	1.802	24,3	...	...	-	-
1950	2.924	2894	29,5	...	...	-	-
1960	6.590	4.626	1.963	...	...	-	-
1970	12.027	10.893	1.022	111,7	...	-	-
1980	15.045	13.825	1.098	122,2	...	-	-
1990	23.152	21.399	1.658	95,6	...	-	-
1995	17.044	15401	1 556	86,6	...	-	-
2000	18 699	17.069	1 534	83,1	13,0	-	-
2001	18 969	17.521	1 301	131,2	15,9	-	-
2002	18 701	16.558	2 020	103,8	18,8	-	-
2003	21 286	18.681	2 470	104,9	30,4	-	-
2004	21 744	18.589	2 755	365,4	33,8	-	-
2005	22 872	19.344	3 009	430,5	88,0	-	-
2006	24 543	21.407	2.518	475,9	141,8	-	-
2007	21.847	19.051	2.364	432,0	-	-	-
2008	21.642	19.090	2.232	319,6	-	-	-
2009	18.869	16.289	2.308	269,2	-	2,1	-
2010	18.710	15.003	3.446	259,7	-	0,5	-
2011	20.294	17.317	2.676	301	-	-	-
2012	22.988	19.537	1.821	1630	-	-	-
2013	23.354	20.065	1.489	1798	-	0,8	0,8
2014	24.728	21.401	1.300	2.022	-	2,3	2,9

Mənbə: ARDSK Nəşrləri 2009

Bəzi layihələrdə Azərbaycanın enerji sektorunun yenidən qurulmasına dəstək verilmişdir. Xarici sərmayədarların bunda böyük rolu olsa da, onların bu sahəyə marağının neft sektorunda olduğu kimi güclü olmadığı görünür. 2002-ci ilin may ayında Yenikənd su elektrik stansiyasının inşaatı tamamlandı. Mingəçevirdə Kür çayı üzərində olan su elektrik stansiyasının 41 milyon dollar dəyərindəki yenidən qurulması layihəsi tamamlandıqdan sonra enerji potensialında ciddi artım meydana gəldi.

2000-ci ilin dekabrında Bakı yaxınlığında dəyəri 201 milyon dollar olan "Şimal" elektrik stansiyasının inşasına başlanıldı. Buranın fəaliyyət imkanını artıra bilmək üçün Yapon şirkətləri Mitsui və Mitsubishi, İsveç şirkəti ABB və Türkiyə şirkəti TML Borova bu layihədə sub-podratçılarıdırlar.

Alman KFW, 2000-ci ilin noyabr ayında də yarım stansiyaların qurulması və texniki vasitələrin əldə edilməsi üçün 15 milyon dollar dəyərində kredit ayırmışdır. Azərbaycanın enerji sektorunun yenidən qurulması üçün 2.5 milyard dollara ehtiyac olduğu hesab edilir.

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı da enerji sektorunda mühüm maliyyə mənbəyi olmuşdur. Təşkilat, sektorun inkişaf etməsi üçün 339 milyon dollar və Sumqayıtda neft-kimya mərkəzi üçün blokların inşasına 100 milyon dollar həcmində kredit vermişdir. Yapon Bankı eyni zamanda Qaradağdan regiondakı elektrik stansiyasına qaz kəmərinin çəkilməsinə də vəsait ayırmışdır.

Enerji sektorunu yaxşılaşdırmaq üçün prezident Əliyev, elektrik şəbəkəsinin uzun müddətdə idarə edilməsilə əlaqədar dörd müqavilə imzalamışdır. 2004-cü ilin sonlarında prezident tərəfindən "Alternativ Enerji Ehtiyatlarının İstifadəsi" ilə əlaqədar dövlət proqramı imzalandı. Bu istiqamətdə 2005-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasının Yanacaq-Energetika Kompleksinin İnkişafı" haqqında bir dövlət proqramı da prezident tərəfindən imzalanmışdır.

Əhali ev sənayesinin enerji tələbatını qarşılamaq üçün hökümət tərəfindən enerji istehsalını artırmaq məqsədilə köhnəlmiş Şirvan Elektrik Stansiyasının (1050 MVt) bərpası, ozəl sektor tərəfindən orta həcimdə (100 MVt) elektrik stansiyalarının inşası, kiçik həcmli su və külək enerjisi stansiyalarının inşası, yeni su elektrik stansiyalarının inşası nəzərdə tutulur[70].

Həmin bu dövlət proqramı çərçivəsində hədəflərə çata bilmək üçün təxminən 1 milyard dollara ehtiyac vardır. Proqrama görə ölkədə elektrik istehsalı 4.5% artacaqdır. Nəticədə isə, 2015-ci ildə elektrik enerjisi 2008-ci il ilə müqayisədə 1,7 dəfə artaraq 38 milyard kWt olacaqdır. Enerji sisteminin gücü isə 6,5 min MVt olacaqdır[71].

---

[70] *Brief Overwiev of Business Practices, New Investment Opportunities and Legal Environment*, Azerbaijan Investment Promotion and Advisory Foundation, Baku, 2005, s.56.

[71] "Enerji Sektorunun Vəziyyətini Yaxşılaşdırmaq Üçün 1 Milyard Dollar Lazımdır", *525-ci Qəzet*, No:53 (1910), 23 Mart 2005.

3.2. KƏND TƏSƏRRÜFATI VƏ HEYVANDARLIQ

Kənd təsərrüfatı və heyvandarlıq sektoru, qeyri-neft sektorları arasında Azərbaycanın sosyo-iqtisadi inkişafında təsirli ola biləcək ən mühüm sektordur. Azərbaycandakı zəngin kənd təsərrüfatı sahələri və müxtəlif iqlimə malik olan rgionlar, geniş növdə və keyfiyyətli məhsulun yetişdirilməsini mümkün hala gətirir. Dünyada mövcud olan 11 iqlim tipinin 9-u Azərbaycanda mövcuddur. Bu müxtəliflik suptropik iqlimdən tundra iqliminə qədər uzanır. Bir mövsümdə bir dəfədən çox məhsul əldə etmək mümkündür. Ölkə iqliminin müxtəlifliyi cürbəcür növdə məhsulların yetişdirilməsinə imkan verir. Qısacası, iqlimi kənd təsərrüfatı üçün əlvərişli olan Azərbaycanın başlıca kənd təsərrüfatı məhsulları buğda, tütün, çay, zeytun, meyvə və tərəvəzdir. Ölkənin özünü təmin edə biləcək qədər taxıl istehsal etmək potensialı vardır.

Ərazilərin özəl mülkiyyəti, 1920-ci ildə Sovet İttifaqının Azərbaycanı işğal etməsi ilə birlikdə kənd təsərrüfatı sektorunda da sona çatarkən, kənd təsərrüfatı sahələri kolxoz (kollektiv təsərrüfat) və sovxoz (dövlət təsərrüfatı) adı verilən dövlət mülkiyyəti olan kooperativlərlə idarə olunmağa başlanmışdı. Bu dövrdə, hansı məhsulun harada istehsal olunacağı və bu məhsulların haraya göndəriləcəyi mərkəzi idarə tərəfindən planlanırdı.

Cədvəl 10. Kənd Təsərrüfatı Sahələri

Sahələr	Torpaq Ehtiyatları (min hektar)	%-i
Ümumi Ərazi	8641	100
Kənd Təsərrüfatına Əlvərişli Sahə	4588	53.1
Sulanması Mümkün Olan Sahə	3200	37
Əkin Sahəsi	1622	18.8
Meşələr	1037	12
Eroziyaya Məruz Qalan Sahə	3610	41.8

Mənbə: ARDSK Nəşrləri

Ölkənin cənub sərhəddində, İrana yaxın ərazidə yerləşən və xüsusi olaraq kələm, pomidor və bibər əkinçiliyi üçün çox əlvərişli olan Lənkəran regionu, keçmişdə "Bütün İttifaqın Bağçası" adlandırılırdı. Bundan başqa, Quba, Xaçmaz və Masallı regionlarındakı kolxoz və sovxozlarda da tərəvəzçilik xüsusi yer tuturdu. Ümumi olaraq Azərbaycan, 500.000-600.000 ton tərəvəzi İttifaq Fonduna göndərirdi.

Azərbaycan üçün pambıq istehsalı da xüsusi yerə malikdir. 1970-1980-ci illərdə hər il təxminən 1 milyon tona yaxın pambıq istehsal olunurdu. Ancaq, keçid dövründə yaranan ümumi problemlərlə birlikdə, dünya bazarında pambığın qiymətinin düşməsiylə bağlı olaraq, pambıq istehsalı böyük miqdarda azalmışdır.

Sovet dövründə böyük bir artım göstərən taxıl istehsalı, 70 və 80-ci illərdə illik 1 milyon tona qədər çıxmışdır. Bundan başqa, hektar başına əldə edilən

məhsulun miqdarı da 1913-1970-ci illər arasında üç dəfədən artıq artmışdır. Sovet idarəsi Azərbaycandakı taxıl istehsalını daha da artırmaq əvəzinə, şərab istehsalı sənayesinə üstünlük vermişdir.

Azərbaycanda istehsalı azalan kənd təsərrüfatı məhsullarından biri də çəltikdir. Çəltik, Azərbaycanda uzun illər bəzi cənub regionlarında və şimaldakı Qafqaz dağlarının ətəklərində yetişdirilirdi. Sovet dövründə İttifaqın digər dövlətlərində çox miqdarda çəltik istehsal olunması səbəbi ortaya atılaraq, Azərbaycanda çəltik istehsalı dayandırıldı.

1970-ci illərdə Azərbaycan əkinçiliyinin xüsusilə şərablıq üzüm istehsalı istiqamətində inkişaf etdirilməsi üçün fəaliyyətlərə başlanıldı. Təxminən 70.000 - 80.000 hektar ərazi şərablıq üzüm üçün istifadə olunmuşdu. Bu məqsədlə hədəf, 1990-cı ildən etibarən illik 3 milyon ton üzüm istehsalını təmin etmək idi.

Sovet rejimi zamanında yuxarıda bəhs edilən siyasət işığında Azərbaycanda rejimin lazım bildiyi əkinçiliyin 3 qolu inkişaf etdirilmişdi: Pambıq, şərablıq üzüm və tərəvəz.

Bu məhsulların çox az bir qismi Azərbaycanda qalırdı. Məsələn, istehsal olunan pambıq Rusiyaya göndərilirdi.

Moskva Azərbaycanı hər zaman imperiyadan asılı halda saxlayaraq, öz hakimiyyəti altında saxlamağa meylli sənayə mühiti formalaşdırmışdı. Azərbaycan hər il İttifaq Fondundan təxminən 1.200.000 ton süd və süd məhsulları, 35.000-40.000 ton ət və ət məhsulları alırdı. Belə ki, Azərbaycanda heyvandarlığın inkişafı üçün lazım olan heyvan yemi istehsalına Sovet idarəsi tərəfindən icazə verilmirdi. Bunun nəticəsi olaraq Azərbaycanda digər Sovet Ölkələrinə nisbətən daha az ət və süd məhsulları istehlak olunurdu. Məsələn, Sovet İttifaqının adam başına düşən ortalama ət istehlakı 65 kq olarkən, Azərbaycanda bu rəqəm 37 kq-a yaxın olmuşdur[72].

SSRİ-nin dağılması ilə birlikdə, sovxozlar və kolxozlar dağılmağa başlamışdır. Makroiqtisadi və siyasi stabilliyin əldə edilməsi ilə, dövlət kənd təsərrüfatı sahəsində islahatları sürətləndirmişdir. 1995-ci ildə həyata keçirilən Kənd Təsərrüfatı İslahatı Qanunu və torpaq islahatına dair hüquqi tənzimləmələr (Torpaq Qanunu, Mülkiyyət Haqqında Qanun, Fermer Təsərrüfatlarının Qurulması Haqqında Qanun, Sahibkarlıq Haqqında Qanun v.s.) həyata keçirilməsi ilə birlikdə, sovxoz və kolxozların sayı azalarkən, fermerlərin sayı artmağa başlamışdı. Azərbaycanın müstəqillik qazanmasından sonra, özəlləşdirmənin başlanması ilə birlikdə kənd təsərrüfatı ərazilərinin də özəl mülkiyyətə verilməsini, Müstəqil Dövlətlər Birliyi içərisində həyata keçirən yeganə ölkə olmuşdur. Qazaxıstan, Özbəkistan və digər ölkələrdə isə ərazilər, müvəqqəti istifadə etmək üçün kirayəyə və ya lizinq yoluyla verilir.

[72] "Azərbaycan-Türkiyə Toxum İstehsalı və Tədqiqatı İşlətməsi Layihə ilə Əlaqədar Görüntülər", http;//www.tika.gov.tr/tur/projeler/tarim/main.htm.12.03.2003

Torpaqda dövlət mülkiyyətindən, özəl mülkiyyət və kollektiv mülkiyyətə keçid böyük həcmdə həyata keçirilmişdir. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin verdiyi məlumata görə, 1 milyondan çox insan əkin sahəsinə sahib olmuş və fermer təsərrüfatlarının sayı 40.000-ə çatmışdır.

SSRİ-nin dağılmasından sonra MDB bazarının böyük hissəsini itirən və ümumilikdə istehsal çətinliyi içərisinə düşən Azərbaycanın kənd təsərrüfatı üzrə istehsalı 1990-1995-ci illər arasında 48% azalmışdır. Ancaq, daha sonra bu azalma dayandırılmışdır. Azərbaycanda kənd təsərrüfatında öz daxili quruluşuna müvafiq olaraq yeni dövlət siyasəti ilə sektora canlanma gətirilməsi nəticəsində, Sovet rejimi və ondan sonrakı keçid dövründə istehsalı azalan kənd təsərrüfatı mallarının istehsalında yenidən artım müşahidə olunmağa başladı. 1996-cı ildə həyata keçirilən torpaq islahatı ilə həmin bu istehsalın artımına keçilmişdir.

Aparılan özəlləşdirmələr nəticəsində, ölkədə kənd təsərrüfatı məhsullarının 99.8%-i özəl sektor tərəfindən istehsal olunur.

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi, öz daxili fəaliyyətinə əkinçiliyə dair yeni bir dövlət siyasəti çərçivəsində bu sahənin canlandırılmasını planlaşdırır. Nazirlik daxilindəki bu yeni islahatlar, Dünya Bankı, İslam İnkişaf Bankı və EBRD kimi təşkilatlar və digər beynəlxalq maliyyə təşkilatlarından alınan tövsiyyələr əsasında həyata keçirilməyə başlanmışdır.

Ölkədə Sovet rejimi dövründə istehsalı azaldılan məhsullar yenidən istehsal imkanı qazanma ərəfəsindədir.

Qrafik 9. ÜDM-də Kənd Təsərrüfatı Sektorunun Yeri (%)



Mənbə: ARDSK Nəşrləri

Azərbaycan iqtisadiyyatı üçün olduqca təsirli proseslərin cərəyan etdiyi, ixracatının doxsan faizindən çoxunun neft məhsulları olduğundan və neftin dünyada qiymətinin əhəmiyyətli dərəcədə azalmasından dolayı diğər post sovet neft ixrac edən ölkələrdəki kimi Azərbaycanda da 2014-2015-ci illər ərzində kənd təsərrüfatının inkişafının təmin olunması və ölkə ixracatının diversifikasiyası əhəmiyyətini artırmışdır. Ölkə ərazisinin 55.1%-ni kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir. Bunun 30.1%-i otlaq və biçənəklər olaraq istifadə olunur. 2014-cü ildə kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi 1.6 milyon hektar olmuşdur. İqtisadi rayonlaşdırma konteksində baxıldığında becərilən sahələrin 0.2%-i Abşeron iqtisadi rayonunun, 12.07%-i Gəncə-Qazax iqtisadi rayonunun, 11.9%-i Şəki-Zaqatala iqtisadi rayonunun,7.2%-i Lənkəran iqtisadi rayonunun, 7.8%-i Quba-Xaçmaz iqtisadi rayonunun, 42.8%-i Aran iqtisadi rayonunun, 7.4%-i Yuxarı Qarabağ iqtisadi rayonunun, 0.2%-i Kəlbəcər-Laçın iqtisadi rayonunun, 6.5%-i Dağlıq Şirvan iqtisadi rayonunun və 3.93%-i Naxçıvan iqtisadi rayonunun payına düşür.

Azərbaycan iqtisadiyyatında neft-qat hasilatına əsaslanan dağ-mədən sənayesi əsas yer tutduğuna görə kənd təsərrüfatının ölkə ÜDM-də payı o qədər də yüksək deyil. 2014-cü il üçün kənd təsərrüfatının ümumi məhsulu 5.2 milyard AZN və ya ölkə ÜDM-nin 5.3% həcmində olmuşdur. Ümumi istehsalın 53.1%-ni heyvandarlıq məhsulları, 46.9%-ni isə bitkiçilik məhsulları təşkil edir. Təsərrüfat kateqoriyaları üzrə baxıldığında kənd təsərrüfatı ümumi məhsulun 92.3%-i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları, 7.7%-i isə kənd təsərrüfatı müəsisələri və sair təşkilatlar tərəfindən istehsal olunmuşdur. Kənd təsərrüfatının ölkə ÜDM-də payı az olmasına baxmayaraq bu sektor ölkədə məşğulluğun təmin olunmasında ən vacib rol oynayır. Rəsmi statsitikaya görə məşğul əhalinin 37.1%-i kənd təsərrüfatı sektorunda çalışır.

Azərbaycanın kənd təsərrüfatı sektorunun 1991-ci il müstəqillik sonrası göstəricilərinə bağıldıqda isə, 1990-cı ilin ümumi istehsal səviyyəsinin ancaq 2008-ci ildə əldə edildiyini, 2014-cü il istehsalının isə baza ilindən 22.7% çox olduğu görülür. Ümumiyyətlə, 2014-cü ildə kənd təsərrüfatı ümumi istehsalı əvvəlki illə müqayisədə 3.2% azalmışdır. 2015-ci ilin ilk yarımil göstəricilərinə görə isə ötən ilin yanvar-iyul ayları ilə müqayisədə bitkiçilik məhsulları istehsalı 15.8 %, heyvandarlıq məhsulları istehsalı 2.4%, kənd təsərrüfatının ümumi məhsulu 8.9% artmısdır.

Azərbaycan respublikasının xarici ticarətində kənd təsərrüfatı məhsulları böyük olmasa da, müəyyən paya sahibdir. Ölkə kənd təsərrüfatı məhsullarının istehsalı üçün münbit şəraitə malik olduğundan daxili tələbat demək olar ki yerli istehsalla təmin olunur. Bununla belə, bu sektorda təsərrüfat strukturu və istehsalın fərdi ailə təsərrüfatlarına dayalı olması kənd təsərrüfatı məhsullarının xarici ticarətinin inkişafı qarşısında ən böyük maneələrdən biridir. İstehsal əsaslı faktorlar xaricində məhsulların ixracı və satışı sahəsində əlaqələndirici və

ya birbaşa icraçı kimi rol alabilcək rəsmi qeydiyyatdan keçmiş, ixtisaslaşmış fiziki və hüquqi şəxslərin sayının azlığı da kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətinin qarşısında əsas əngəllərdəndir.

Ümumi olaraq baxıldığında, 2014-cü ildə ölkənin toplam ixracatı 21.83 milyard $, idxalatı 9.19 milyard $, 2015-ci ilin yanvar-iyun ayları ərzində isə müvafiq olaraq 6.23 milyard $ və 4.52 milyard $ olmuşdur. Aşağıdakı cədvəldə 2014-cü il üçün Azərbaycan respublikasını kənd təsərrüfatı məhsulları xarici ticarətinin statistikası verilmişdir. Əsas kənd təsərrüfatı mal qrupları üzrə ölkə ixracatında tərəvəzlər, meyvəköklülər və kök yumruları, yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri, heyvan və ya bitki mənşəli piylər və yağlar 481.4 milyon $-la (89.3%) əsas yer tutur. İdxalatda isə dənli bitkilər (52.7%), heyvan və ya bitki mənşəli piylər və yağlar (13.7%), diri heyvanlar (8.1%) və süd məhsulları, quş yumurtası, təbii bal və heyvan mənşəli digər ərzaq məhsulları (10.7%) mal qrupları üstünlük təşkil edir. Ümumilikdə isə, 2014-cü ildə ixracın cəmi 2.5%-i, idxalatınsa 7%-i kənd təsərrüfatı məhsulları ticarətinin payına düşür.

Cədvəl 11. Kənd təsərrüfatı məhsullarının 2014-cü il ərzində ticarəti

Mal qrupları üzrə	İxrac	idxal
Diri heyvanlar	124.3	52367.9
Ət və əlavə ət qida məhsulları	172.4	19460.5
Süd məhsulları, quş yumurtası, təbii bal və heyvan mənşəli digər ərzaq məhsulları	2215	69068.0
Heyvan mənşəli sair məhsullar	794.3	187.3
Canlı ağaclar və sair bitkilər, kəsilmiş çiçəklər	74.4	14163.5
Tərəvəzlər, meyvəköklülər və kök yumruları	98919.2	14565.6
Yeməli meyvələr və qoz-fındıq, sitrus bitkiləri	192165.3	10614.7
Qəhvə, çay, mate (paraqvay çayı) və ədviyyatlar	31263.4	20137.8
Dənli bitkilər	20.5	339287.4
Yağlı toxum və meyvələr, digər toxum, dərman bikiləri	5363.0	11966.7
Bitki qarışıqları və ekstraktlar	3069.1	353.2
Bitki mənşəli sair məhsullar	95.3	392.3
Heyvan və ya bitki mənşəli piylər və yağlar	190334.7	88110.0
Pambıq	14498.8	2861.0
Cəmi	**539109.7**	**643535.9**

Kənd təsərrüfatı məhsulları ticarətinin coğrafi quruluşuna görə başda Rusiya Federasiyası olmaqla Müstəqil Dövlətlər Birliyi (MDB) təşkilatı ölkələri, Iraq, İran İslam Respublikası, İndoneziya, Türkiyə, Avopa birliyi ölkələri əsas yer tutur. İxracda müvafiq olaraq Rusiya Federasiyası 249.73 milyon $ (46.32%), İraq 94.62 milyon $(17.5%), idxalda isə Rusiya Federasiyası 185 milyon $ (28.7%), Qazaxıstan 135.8 milyon $ (21.1%) hissə ilə Azərbaycanın

kənd təsərrüfatı məhsulları ticarətində ən böyük tərəfdaş ölkələrdir. Hesabat dövründə Azərbaycanın kənd təsərrüfatı məhsulları ticarətinə ciddi təsir edən ən önəmli faktor Rusiya Federasiyasında rublun dəyərdən düşməsi ilə başlayan iqtisadi problemlər oldu. Bu sahədə ən böyük tərəfdaş kimi, bunun 2015-ci il ixracatı üzərində mənfi təsirləri olacağı gözlənilir. Olkənin kənd təsərrüfatı məhsulları ticarətini tənzimləyən ayrıca bir qanun layihəsi yoxdur. Ümumilikdə ticarət Azərbaycan Respublikası Gömrük Məcəlləsi və Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu tərəfindən tənzimlənir. Bundan başqa aid olduğu kənd təsərrüfatı məhsullarının istehsal və satışını, həmçinin keyfiyyətinə nəzarəti tənzimləyən "tütün və tütün məmulatları", "üzümçülük və şərabçılıq", "ekoloji təmiz kənd təsərrüfatı", "damazlıq heyvandarlıq", "pampıqçılı", "çay-çılıq" və "taxıl" haqqında qanunlar qəbul olunmuşdur.

Azərbaycan respublikasında kənd təsərrüfatı sektoru dövlət tərəfindən rəsmi olaraq ciddi şəkildə dəstəklənməkdədir. Dövlət dəstəyi vergi güzəştləri xaricində həm maddi, həm də texniki dəstəyi əhatə edir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında Azərbaycan Respublikasının Qanununun 2001-ci ildən başlayaraq tətbiq olunmuşdur. Bu qanunun tətbiq olunması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən, fiziki şəxslər isə əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad olunmuşdur. Həmçinin Vergi Məcəlləsinin 102.1.11-ci maddəsinə əsasən fiziki şəxslərin bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirləri gəlir vergisindən azaddır. 22 noyabr 2013-cü ildə kənd təsərrüfatına vergi güzəştlərinin tətbiqi 5 il daha uzadılaraq 2014-cü il yanvarın 1-dən icrasına başlanılmışdır. Hesablamalara görə vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclərin 10%-dək azalmasına imkan yaranmışdır. Ümumilikdə isə kənd təsərrüfatı ilə məşgul olanlar 9 növ verginin yeddisindən azaddırlar. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilən hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar. Bundan başqa, fiziki şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad ediliblər. Vergi adminstrasiyasına görə əhaliyə verilən güzəşt və imtiyazlar hesabına yığılmayan verginin həcmi yığılan verginin həcminin təxminən 25-30 faizini təşkil edir. Kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf olunan yanacaq və motor yağlarının dəyərinin orta hesabla 50%-nin ödənməsi məqsədi

ilə istehsal etdiyi məhsulun növündən asılı olmayaraq genetik modifikasiya olunmamış bitkilərin hər hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsinə görə 40 manat məbləğində istehsalçılara maddi yardım edilir. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin orta hesabla 70% güzəştlə satılmasının təmin olunması məqsədiylə genetik modifikasiya olunmamış bitkilərin hər hektar əkin sahəsinə görə 80 manata qədər subsidiya verilməkdədir. Bundan başqa buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə 40 manat yardım edilir. Suvarma sistemləri və avadanlıqlarının alınması zamanı 40% həcmində güzəştin təqdim olunması, kənd təsərrüfatı istehsalçılarının istifadə etdiyi yanacaq və mühərrik yağlarının əldə olunması üçün dövlət büdcəsindən ayrılan yardımın 25% artırılmasına dair sərəncamı xatırlamaq kifayətdir. Həmçinin elmi tədqiqat institutlarında yetişdirilən məhsulun dəyərinin 30-40%-i dövlət tərəfindən ödənilir. Fermerlər yanacağı 50%-lik, gübrəni isə bu ildən 50-75%-lik güzəştlə alırlar.

Dövlət kənd təsərrüfatı məhsullarının becərilməsində toxum təminatı ilə bağlı da dəstək göstərir. Dənli və dənli-paxlalı bitkilər üzrə 1-ci reproduksiyalı toxumlar üçün satış qiymətinin 40%-i və 2-ci reproduksiyalı toxumlar üçün 30%-i dövlət tərəfindən ödənilir. Bundan başqa, Azəbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli qərarı ilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilir və ya lizinq yolu ilə satılır.

Ümumilikdə isə kənd təsərrüfatı məhsulları istehsalçılarına 2014-cü ildə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiya miqdarı yanacaq və motor yağlarına görə 51.83 milyon manat, buğda və çəltik səpininə görə 17,05 milyon manat, mineral gübrəyə görə 32,5 milyon manat, I və II reproduksiyalı toxumlara görə 5,05 milyon manat və elmi-tədqiqat təşkilatlarına orijinal, superelit və elit toxumlara çəkilən xərclərin ödənilməsinə görə 908,1 min manat olmaqla cəmi 107,3 milyon manat, 2007-2014-cü illər üzrə cəmi isə 793,6 milyon manat olmuşdur.

Məsələn, təzə tərəvəz və təzə meyvəyə MDB-də, xüsusilə Rusiyada tələbatın yüksək olduğunu nəzərə alsaq, Azərbaycanın qeyri-neft ixracı potensialının artırılması baxımından bu iki məhsul üzrə kompleks və ardıcıl stimullaşdırıcı, fəallaşdırıcı tədbirlərin görülməsi vacibdir.

Təzə tərəvəz və təzə meyvələrin ixrac potensialına kompleks baxılması ölkənin bütün regionlarının, ilk növbədə meyvəçiliklə məşgul olan rayonların sosial-iqtisadi inkişafını xeyli sürətləndirə bilər. Prezidentin təşəbbüsü ilə yaradılmasına başlanılan aqroparklar bu istiqamətlərdə ciddi uğura imkan yaradacaq. Yeni fəaliyyət sahəsi kimi şəkər çuğundurunun yetişdirilməsi və şəkərin istehsalı, habelə ixracı potensialı da artmaqda davam edir. Bunun üçün

yararlı torpaq sahələri və əmək resursları, maliyyə və texniki imkanlar kifayət qədərdir. Bitki yağlarının ixrac potensialının güclü olması isə son illər özünü əyani göstərir. Bundan əlavə, üzüm şərabının ixracı 2008-2015-ci illər ərzində 2,2 dəfə artsa da, bu məhsulun xammal bazasının potensialı və ixrac imkanları baxımından mövcud ixrac həcmi sahənin güclü potensialının bir hissəsini təşkil edir. Deməli, bu istiqamətdə mövcud potensialdan daha səmərəli istifadə edilməlidir.

Dünya Bankının "Azərbaycanın kənd təsərrüfatındakı müqayisəli üstünlüklərin gerçəkləşdirilməsi" adlı tədqiqatında bildirilir ki, ölkəmizin meyvə-tərəvəz və süd məhsulları kimi yüksək dəyərli kənd təsərrüfatı məhsulları üçün münasib təbii şəraitə malik olması böyük üstünlükdür. Bu baxımdan ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının planlaşdırılması, tədarükü, saxlanılması, satış şəbəkəsinin qurulması, həmin məhsulların ixrac bazarlarına çıxarılması, bazarlarda möhkəmlənməsinin aktuallığı məsələləri ön plana çıxır. Yaxın perspektivdə kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması üçün Kodeks Alimentarius və digər mütərəqqi beynəlxalq standartlar əsasında milli standartların hazırlanması, eyni zamanda mövcud standartların təkmilləşdirilməsi, əkinçilikdə yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, hər bir iqtisadi rayonun xüsusiyyəti, təbii və iqlim şəraiti nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşdırılması, kənd təsərrüfatı məhsullarının istehsalı, ixracı zamanı məhsulların təhlükəsizliyinə nəzarətin gücləndirilməsi tədbirləri isə bu sahənin məhsullarının rəqabət qabiliyyətinin yüksəlməsinə, fəal surətdə beynəlxalq bazarlara çıxmasına və müvafiq olaraq Azərbaycan ixracının ekspansiyasının koordinasiyası üçün institutlar da formalaşıb - Sahibkarlığa Kömək Milli Fondu, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), "Azərbaycan İnvestisiya Şirkəti" ASC. Məhz onlar tez xarab olan qida məhsullarının xaricə çıxarılmasını asanlaşdırmaq üçün logistika mərkəzləri və yükboşaltma mərkəzlərinin yaradılmasını dəstəkləyirlər. Məsələn, Qazaxıstanın Aktau limanında AZPROMO, həmçinin fərdi sahibkarların dəstəyi ilə aqrar-logistika kompleksinin açılışı baş tutdu. Abşeron yarımadasında 110 min ton kənd təsərrüfatı məhsullarının emalına hesablanmış üç yükboşaltma mərkəzləri tikilir. Bakının Qaradağ rayonunda "Meyvəli" iri ərzaq logistika mərkəzi açılıb. O, meyvə-tərəvəz məhsullarının topdansatış və ixracı üzrə tam şəkildə ixtisaslaşıb. Ötən ilin noyabr ayında respublikada ilk aqroparkın təməli qoyuldu - "Aqropark Şəmkir" istehsalçı - vasitəçi şirkət. Bundan başqa, bütün regionlarda meyvə və tərəvəz üçün rahat anbarlar qurulub. Onlar Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri hesabına tikilib.

Lakin yaxın və uzaq xaricin bazarlarını fəth etmək üçün, həmçinin yerli sahibkarların ixrac üçün dəyərli məhsulun istehsalını təşkil etmək istəyi də son dərəcə mühümdür və burada brendin hazırlanması, qablaşdırma dizaynının,

düzgün reklam şirkətlərinin keçirilməsinə səy göstərmək zəruridir. Kənd təsərrüfatı məhsullarının ixracının subsidiyalaşdırılması hələləik nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli Qərarına dəyişiklik edilməsi barədə 2003-cü il 22 dekabr tarixli 161 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»nə əsasən ilin müxtəlif vaxtlarında səpin üçün gətirilən toxumluq kənd təsərrüfatı məsullarına tarif güzəştləri tətbiq olunur. 2011-ci ilin yanvarında hökümət №17 qərarla 1 martdan 3 il müddətinə bir sıra malları idxal rüsumu və idxal ƏDV-dən azad etmişdi. İndi hökümət müddəti 3 il də uzadıb. Xatırladaq ki, idxal rüsumu və idxal ƏDV-dən cins iribuynuzlu mal-qara, cins keçi və davar, 185 q-dan ağır olmayan toyuq, soya və paxla toxumu azad edilmişdi. İdxal rüsumundan həmçinin günəbaxan, şəkər çuğunduru, bir sıra yem bitkilərinin toxumu, gübrələr, kənd təsərrüfatında istifadə edilən kimyəvi preparatlar azad olunmuşdur.

Bununla belə, bütün göstərilən bu dəstəyə baxmayaraq kənd təsərrüfatı məhsullarının marketinqinin təşkili və ixracı məsələsində ciddi uğur əldə edilməmişdir. Bunun əsas səbəbi kənd təsərrüfatında orta və iri ölçülü müəssisələrin az olması və əsas istehsalın məhsuldarlığın az olduğu ailə təsərrüfatları tərəfindən reallaşdırılmasınddadır. Ölkə hələ də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüklə bağlı danışıqları davam etdirir. İkitərəfli və çoxtərəfli danışıqlarda da əsas prioritet kənd təsərrüfatı istehsalçılarının qorunması, idxalatda tariflərin yüksək saxlanılması və/ya daha da artırılması və kənd təsərrüfatına dəstəklə bağlı maksimum güzəştlərin əldə olunmasıdır. Daha bir vacib nüans isə Ümumdünya Ticarət Təşkilatı ilə bağlıdır. Azərbaycan bu quruma üzv qəbul edilərsə, fermerlərin vergilərdən azad olunması müşkülə çevrilib. Ümumiyyətlə, Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmaqda maraqlı ölkədir. Amma Azərbaycanın 1997-ci ildə müraciət etməsinə baxmayaraq, hələ də ÜTT ilə bağlı aparılan danışıqlar ölkəmizin sözügedən quruma üzvlüyünün reallaşmasına imkan vermir. Bütün hallarda isə Azərbaycanla ÜTT arasında aparılan danışıqların məhz son illər intensivləşməsi müşahidə olunur. Buna rəğmən, Azərbaycan ikitərəfli və çoxtərəfli danışıqlarda tam olaraq məsələ ilə bağlı razılaşma əldə edə bilməyib. Azərbaycanla ÜTT arasında aparılan çoxsaylı danışıqlarda problemli cəhətlərdən biri onun ÜTT-yə inkişaf etməkdə olan bir ölkə kimi daxil olmaq niyyətidir. Nəzərə almaq lazımdır ki, inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələrin bütövlükdə ÜTT-yə qəbul şərtləri eynidir. Digər əsas məsələ isə, təbii ki, aqrar sektorda subsidiyaların həcmi ilə əlaqədardır. Azərbaycanda aqrar sektora subsidiyalarda məhdudiyyət 10%-dir. Ümumdünya Ticarət Təşkilatında isə bu məhdudiyyət 5% təşkil edir ki, bu da Azərbaycan üçün birmənalı şəkildə aqrar sektorun inkişaf etməsi baxımından əhəmiyyətli bir məqamdır. Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv

olduqdan sonra fermerlərin vergi ödəyicisinə çevrilməsini zəruri edəcək. Hələlik isə Azərbaycan kənd təsərrüfatı məhsulları istehsalçılarını vergidən azad edən ölkələr sırasındadır. Bu isə hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması üçün vacib addım sayılır.

Üzüm: Bir zamanlar Azərbaycanda əkinçiliyin ən çox inkişaf edən sahələrindən biri üzümçülük olmuşdur. Üzümçülük və şərabçılıq isə Sovet dövründə kənd təsərrüfatı sektorunda xüsusi yerə sahib olmuşdur. 1990-cı ilə qədər ölkədə 275 min hektar üzüm bağı mövcud idi. İldə təxminən 2 milyon ton üzüm əldə edilirdi. Qorbaçov dövründə alkoqolizmlə mübarizə aparılması, Azərbaycanda 150 min hektar üzüm bağının məhv edilməsinə səbəb olmuşdur[73].

Sovet rejiminin dağılmasından sonra Azərbaycan daha çox taxıl istehsalına yönəlmişdir. Sözügedən dövrdə üzüm bağları da qırılmağa başladı. Taxıl istehsalını artırmaq üçün şərablıq üzüm bağları buğda tarlalarına çevrildi.

SSRİ dövründə, mərkəzi planlama strategiyaları çərçivəsində, bir kənd təsərrüfatı ölkəsi olaraq varlığını davam etdirən Azərbaycan 1993-cü ildə Dağlıq Qarabağla birlikdə torpaqlarının 20%-ni itirən ölkənin tərəvəz, meyvə və üzüm yetişdirmək üçün əlverişli olan kənd təsərrüfatı sahələri də əldən çıxmış və bu məhsulların istehsalında böyük nisbətdə azalma meydana gəlmişdir. Satılan üzüm və şərab üçün lazımi gəlir əldə edilə bilmədiyinə görə üzümçülüyə maraq azaldı. Nəticədə, ölkədə sadəcə 7700 hektar üzüm bağı qaldı.

Kənd təsərrüfatı sahələrinin bir hissəsinin Ermənistanın işğalına məruz qalması səbəbiylə tərəvəz istehsalı yarıya enmiş, üzüm istehsalı və şərab ixracı ciddi şəkildə azalmışdır. 117 üzüm emalı fabrikindən böyük əksəriyyəti istehsalını dayandırmışdır. Ermənilər tərəfindən işğal edilən ərazilərin böyük hissəsi məhsuldar torpaqlardır. Məsələn, Fizuli regionundan ildə 100.000 ton üzüm istehsal olunurdu. Zəngilan şəhəri üç üzüm emalı fabrikinə və 3000 hektar üzüm bağına sahib idi. Ağdam pambığı, Qubadlı isə heyvandarlığı ilə məşhur regionlar idi. Erməni işğalı səbəbiylə bu regiondan köçmək məcburiyyətində qalındıqda 145.000-ə yaxın iri buynuzlu heyvan da ərazidə qaldı.

Üzümçülük və şərabçılıq bu gün də kənd təsərrüfatı sahəsində sərmayə qoyulan sahələrdən biri olmaq potensialına sahibdir. Son illərdə Cəlilabad, Tovuz, Şəmkir, Ağstafa, Qazax, Şamaxı, Samux və digər regionlarda yenidən üzüm bağlarının salınmasına başlanmışdır. Üzümçülüyün inkişaf etdirilməsinə regionların inkişafına dair dövlət proqramında da yer verilmişdir.

Fındıq: İnvestisya imkanı olan kənd təsərrüfatı məhsullarından biri də fındıqdır. Başda Zaqatala olmaqla Bakı, Quba, və Xaçmazda istehsal edilir. Qabıqlı fındığın 65%-i AB-yə ixrac olunur.

[73] E. Əhmədov - M. Hacıyev, a.k.ə. s.84-85.

Şəkər çuğunduru: İstehsalı yenidən gündəliyə qoyulan bir başqa məhsul da şəkər çuğundurudur. Azərbaycan, Sovet rejimi dövründən əvvəl ciddi miqdarda şəkər çuğunduru istehsal edirdi. Ancaq, Ukrayna da bu məhsulu istehsal etməyə və bütün SSRİ-nin ehtiyacını qarşılamağa başladıqda, Azərbaycanda çuğundur istehsalına ehtiyac qalmadı.

Müstəqillikdən sonra Naxçıvan, Beyləqan, Sabirabad, İmişli və Səlyan regionlarında yenidən istehsal edilməyə başlanmışdır. Ancaq ölkədə çuğunduru emal edəcək fabriklər yoxdur. Şəkər çuğunduru əkilməsinə baxmayaraq, şəkər fabrikinin olmaması səbəbiylə, şəkər çuğunduru emal edilmək üçün sərhəddə yerləşən Biləsuvardan İranın Ərdəbil şəhərinə göndərilir. İran çuğunduru emal edib yenidən Azərbaycana geri göndərir. Bu sistem Azərbaycanın əleyhinə olduğundan ölkədə şəkər istehsal etmək üçün bəzi yeniliklər mövcuddur.Şəkər ehtiyacı təxminən 360.000 ton olan Azərbaycanda həm şəkər çuğunduru istehsalına həm də şəkər fabriklərinə ehtiyac vardır. Bu ehtiyacdan irəli gələrək Azərsun Holdinq tabeliyində İmişlidə şəkər fabriki tikilmişdir. Regionların sosial-iqtisadi inkişaf proqramı çərçivəsində Naxçıvan, Şəki, Masallı və Biləsuvar rayonlarında şəkər fabriklərinin qurulması planlanmışdır.

Cədvəl 12. Kənd Təsərrüfatı Məhsulları İstehsalı (min ton)

İllər	Taxıl	Pambıq	Tütün	Üzüm	Çay
1990	1413.6	542.9	52.9	1196.4	30.7
1991	1346.4	539.7	57.3	1125.6	26.6
1992	1337.2	336.3	52.3	607.0	22.6
1993	1147.9	284.5	44.9	411.3	24.0
1994	1039.2	283.7	20.8	313.8	19.4
1995	921.4	274.1	11.7	308.7	9.4
1996	1018.3	274.4	11.2	275.0	3.0
1997	1127.1	124.6	15.1	145.3	1.6
1998	950.3	112.9	14.6	144.2	0.9
1999	1098.3	96.8	8.6	112.5	2.7
2000	1540.2	91.5	17.3	76.9	1.1
2001	2016.1	83.6	12.7	68.1	1.4
2002	2195.7	80.4	3.3	62.1	1.4
2003	2057.8	99.6	4.7	65.0	0.9
2004	2158.2	135.7	6.5	54.9	1.1
2005	2254.3	191.2	7.2	79.7	0.7
2006	2564.2	125.9	4.8	94.1	0.7
2007	2725.5	95.5	2.9	103.4	0.5
2008	2848.3	55.4	2.5	115.8	0.3
2009	2988.3	31.9	2.6	129.2	0.5
2010	2000.5	38.2	3.2	129.5	0.5
2011	2458.4	66.4	3.6	137.0	0.5
2012	2802.2	57.0	4.3	151.0	0.6
2013	2955.3	45.2	3.5	148.5	0.6
2014	2383.3	41.0	2.9	147.7	0.5

Mənbə: ARDSK Nəşrləri

Quba və Saatlı regionunda fabriklərdə kiçik paketlərdə müxtəlif növ mürəbbələr və marmaladlar istehsal olunur. Lənkərandakı bir başqa fabrikdə də tomat istehsal olunur. Bu 3 yeni fabrik məhsullarını Yaponiya, Rusiya, Belçika və İsvəçrə kimi ölkələrə ixrac edirlər.

Çay: Ölkədə çay istehsalının əsası 1930-cu illərdə, bu bitki yetişməsi üçün əlvərişli şəraitə malik olan Lənkəran-Astara regionunda qoyulmuşdur. Çay istehsalı 1960-cı illərin sonu və 1970-ci illərin əvvələrində ən yüksək səviyyəsinə çatmışdır[74]. Azərbaycanın çay istehsalı 1970-ci illərdə 34.000 tona yaxın ikən, bu miqdar ötən illər ərzində 1.900 tona qədər azalmışdır. Bu vəziyyət qismən ölkədə işlək vəziyyətdə çay emalı fabrikinin olmamasından qaynaqlanır.

Çay emalı fabriklərinin də özəlləşməsinə ehtiyac hiss olunur. Bakıdakı çay fabrikləri Türk şirkətləri tərəfindən satın alınmış və əkinçilər yenidən çay istehsalına başlamışdır. Bu fabriklərdə emal olunan Azərbaycan çayı Türk və Hindistan çayı ilə qarışdırılaraq satışa buraxılır[75].

Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar Dövlət Proqramı çərçivəsində Lənkəran və Astaranın da daxil olduğu ölkənin cənub regionunda çayçılığın inkişafı üçün bəzi tədbir və təşviqlər həyata keçirilir. Müstəqillikdən sonra yararsız vəziyyətə düşən çay istehsalı sahələrinin yenidən yararlı vəziyyətə gətirilməsi üçün tədbirlər həyata keçirilir. Təkcə Lənkəran rayonunda 1000 hektara yaxın çay plantasiyası istifadə üçün əlvərişli hala gətiriləcəkdir. Dövlət Proqramına müvafiq olaraq, 2007-ci ildə Lənkəran rayonunda çayçılığın inkişaf etdirilməsindən 19 milyard manat gəlir əldə edilməsi hədəflənmişdir.

Lənkəran və Astara çay fabriklərinin istehsala başlaması üçün kifayət qədər sərmayə qoyulmuşdur. Cənub regionunda çayçılığın inkişafında "Azərsun Holdinq"in fəaliyyətləri xüsusi yerə malikdir.

Pambıq: Pambıq istehsalında qədimdən bəri mühüm bir yerə sahib olan ölkədə istehsal, böyük bir qismi Rusiya və Özbəkistandan gələn nitrat gübrəsi və kombayn kimi istehsal vasitələrinin çatışmamazlığı və bunların ehtiyat hissələrinin qiymətlərindəki artım səbəbiylə xeyli aşağı düşmüşdür.

Ölkənin pambıq istehsalı potensialı ildə 830 min tondur. İstehsal olunan pambığın 70%-i xammal olaraq ixrac edilir. Ciddi miqdarda pambıq istehsalına baxmayaraq, pambıq təmizləmə fabrikləri az sayıdadır. Pambıq istehsalı ilə əlaqədar əl ilə yığım (35% əl ilə yığılır), həşəratlarla lazımınca mübarizə aparıla bilməməsi kimi problemlər yaşanır. Eyni problemlər tütün və çay istehsalında da özünü göstərir.

Tütün: Tütünçülük ölkənin daha çox Şəki-Zaqatala regionlarında inkişaf etdirilmişdir. Sovet dövrünün son illərində 62 min tona çatan tütün istehsalı

---

[74] E. Əhmədov-M. Hacıyev, s.86.

[75] "Azərbaycan-Türkiyə Toxum İstehsalı və Tədqiqatı İşlətməsi Layihə ilə Əlaqədar Görüntülər", http;//www.tika.gov.tr/tur/projeler/tarim/main.htm.12.06.2003

müstəqillikdən sonra ciddi şəkildə azalmışdır[76]. Azərbaycanın xarici ölkələrə tütün ixrac etmək imkanı yoxdur. Xaricə tütün ixrac edə bilmək üçün ölkə ərazisində 20-25 ton tütün istehsal olunmalıdır. Azərbaycanda isə ildə 4 min ton tütün yarpağı istehsal etmək mümkündür. Ölkənin siqaret istehsalçıları əsas xammalı xarici ölkələrdən gətirirlər. Ölkədə istehsal olunan tütün yarpağının keyfiyyətinin aşağı olması isə bəzi regionların daha yeni-yeni bu sahə ilə məşğul olmasından irəli gəlir.

Kartof: Ölkədə 2014-cü ildə, əkin sahələrinin artamasına paralel olaraq, əvvəlki ilə görə istehsal həcmi artan kartof isə başda Rusiya olmaqla qonşu ölkələrə ixrac edilməyə başlamışdır.

Zeytun: Ölkədə zeytun yığımı və ondan istifadə hələ lazımi səviyədə istifadə edilmir. Zeytunların yığılması və istifadəsi ilə məşğul olacaq müəssisələrin qurulması nəticəsində ölkənin zeytun yağı tələbini də qarşılamaq mümkün olacaq. Əlbəttə ki zeytun bağlarının məhv edilməsi və ağacların kəsilməsinə də əngəl olunmalıdır.

Ölkənin Qobustan, Şirvan, Muğan, Abşeron rayonlarının bəzi regionları zeytun istehsalı üçün münasibdir. Bu ərazilərdə zeytun bağlarının salınmasından 10-15 il sonra ölkə zeytun istehsalında ciddi potensiala sahib olacaqdır.

12-ci cədvəldə yer alan kənd təsərrüfatı məhsullarının, illərdə istehsal həcminin olduqca aşağı düşdüyü görülür. 13-cü cədvəldə isə, istehsal həcmi artan kənd təsərrüfatı məhsulları haqqında məlumat öz əksini tapır.

Ölkədə əkinçilər və istehsalçılar baxımından ən böyük problem, nəğd pul dövriyyəsinin olmaması və bunun yaradıla bilməməsidir. Kənd Təsərrüfatı Nazirliyi hər regionda kredit mərkəzləri yaratmaq fikrindədir. Yalnız bu yolla əkinçilk üçün lazımi istehsal vasitələrinin alınmasındakı əngəllər və çatışmamazlıqlar aradan qaldırıla bilər. Regionların İnkişaf Proqramı (2004-2008) çərçivəsində fermerlərə yönəlik kredit verilməsinin başlanması atılan addımlardan ən mühümüdür.

Azərbaycan kənd təsərrüfatı sektorunda mövcud olan problemləri aradan qaldırdıqdan sonra kənd təsərrüfatı baxımından gələcəyi parlaq görünür. Çünki, Azərbaycanın iqlim və torpaq şərtləri yüksək keyfiyyətdə məhsul istehsalına imkan yaradır. Keçid dövründən sonra, istehsal sahəsində məhsuldarlığı artırmaq da mümkün olacaqdır. Damazlıq toxum, süni gübrə, dərman, avadanlıq kimi istehsal vasitələrinin əldə olunmasında və bazara çıxmaqla bağlı yaşanan problemlərin aradan qaldırılmasından sonra, kənd təsərrüfatı sektorunda böyük bir inkişafın yaşanması mümkündür.

Əhalinin 40%-ə yaxınının işlə təmin olunduğu kənd təsərrüfatı sektorunun ÜDM-dəki yeri hər il azalır. Digər tərəfdən ölkədə işləyənlərin ortalama aylıq

[76] E. Əhmədov-M. Hacıyev, s.87.

gəliri 441 min manat və ya 90 dollar, istehsal sənayesində işləyənlərin gəliri 667 min manat, inşaat sektorunda 453 manat olduğu halda, kənd təsərrüfatı sektorunda işləyənlərin ortalama aylıq gəliri 67 min manatdır. Bu miqdar ölkədəki ortalama aylıq gəlir səviyyəsinin sadəcə 30%-ni təşkil edir. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı ilə məşğul olan bir şəxs əldə etdiyi gəlir ilə 50-60 adamın ehtiyacını təmin edə bildiyi halda, Azərbaycanda öz ailəsinin ehtiyacını güclə təmin edə bilir.

Kənd təsərrüfatı sektorunun iqtisadiyyatdakı üstünlüyü azalarkən, işçi qüvvəsinin önəmli bir hissəsini işlə təmin etməyə davam edən kənd təsərrüfatı sektorunda bəzi islahatların aparılmasına hələ də davam edilir. Bu məqsədlə lazımi infrastruktur yaxşılaşdırılır, təhsil, araşdırma fəaliyyətləri, özəl sektor sahibkarlığı dəstəklənir, fermerlərə texnika və avadanlıq köməkliyi göstərilir, Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkilatlandırılaraq ölkənin aqrar siyasətinin gücləndirilməsində təsir imkanlarının artırılması nəzərdə tutulur.

Cədvəl 13. Kənd Təsərrüfatı Məhsulları İstehsalı (min ton)

İllər	Şəkər Çuğunduru	Kartof	Tərəvəz	Meyvə
1990	-	185.2	856.2	367.4
1991	-	179.9	805.3	498.3
1992	19.8	156.0	555.1	400.9
1993	11.6	152.2	487.8	346.4
1994	17.8	150.3	482.9	323.5
1995	28.1	155.5	424.1	324.4
1996	40.1	214.6	570.0	321.2
1997	33.7	223.4	495.4	330.9
1998	41.4	312.5	502.3	390.6
1999	42.2	394.1	670.8	436.5
2000	46.7	469.0	780.8	477.0
2001	41.3	605.8	916.4	497.5
2002	115.8	694.9	974.6	516.8
2003	84.6	769.0	1046.3	572.1
2004	56.8	930.4	1076.2	424.6
2005	36.6	1083.1	1127.3	625.7
2006	167.2	999.3	1186.4	662.4
2007	141.9	1037.3	1227.3	677.8
2008	190.7	1077.1	1228.3	712.8
2009	188.7	983.0	1178.6	718.2
2010	251.9	953.7	1189.5	729.5
2011	252.9	938.5	1214.8	765.8
2012	173.8	968.5	1216.2	810.0
2013	187.9	992.8	1236.3	853.8
2014	177.3	819.3	1187.7	850.8

Mənbə: ARDSK Nəşrləri

1996-cı ildən etibarən sənayedə müşahidə olunan irəliləyiş, kənd təsərrüfatı sektorunda 1997-ci ildən etibarən başlamış və 2000-2001-2002-ci illərdə də davam etmişdir. Bu müsbət inkişafda beynəlxalq təşkilatlarla əməkdaşlığın da böyük köməyi olmuşdur.

İqtisadi müstəqillik və təminat baxımından əhəmiyyətli olan aqrar sektorunun inkişafı məqsədiylə, 2001-ci ildən etibarən sektor torpaq vərgisindən başqa bütün vərgilərdən azad olunmuşdur. Bu güzəştlər "2004-2008 regionların inkişafı dövlət proqramında da diqqətə alınmışdır.

Əkinçiliyin inkişaf edən sahələrində və heyvandarlıqda həm istehsal həm də xidmət sahələri üçün yeni iş yerləri açılır.

Kənd təsərrüfatı və heyvandarlıq sektorunda həyata keçirilən reformların nəticələri də ələ alınaraq hər il daha yaxşı nəticələr əldə olunmağa başlanmışdır. Ancaq Azərbaycan, hələ də taxıl ehtiyacının sadəcə 80-85%-ni qarşılaya bilir, qalan hissəsini isə idxal edir. Ancaq, Azərbaycanın 2002-ci ildə ilk dəfə buğda ixrac etmişdir (6.400 min ton).

Əvvəlki illərlə müqayisədə ölkədə həyata keçirilən islahatlarla son illərdə kənd təsərrüfatı məhsullarında artıma nail olunmuşdur. Kənd təsərrüfatı məhsulları bütün növlər üzrə 1995-ci il ilə müqayisə edildikdə, ciddi nisbətdə artmışdır. Ancaq, kənd təsərrüfatı məhsulları istehsalında əldə olunan nəticə 1990-cı ildəki səviyyəsinə bərabərdir. 2005 ildən etibarən beynəlxalq təşkilatların maddi köməyi ilə "Kənd Təsərrüfatı İnkişaf Agentliyi" xətti ilə kənd təsərrüfatı məhsulları istehsal etmək məqsədi ilə lazımi texnika və avadanlıqların alınması üçün güzəştli kreditlər verilməsi, eyni zamanda lizing təşkilatı vasitəsiylə texnikanın sektorun istifadəsinə vərilməsi bu sektorun gələcəkdə daha da inkişaf etməsinə kömək edəcəkdir.

3.2.1. Heyvandarlıq

Ölkədə 1996-cı ilə qədər dövlətə aid heyvanların demək olar ki hamısı (99.8% iri buynuzlu, 98% kiçik buynuzlu) özəl sektora paylanmışdır. Qalan heyvanlar isə dövlət tərəfindən damazlıq məqsədilə istifadə olunur. Müstəqillikdən sonra ölkədə gəlir gətirən sahələrdən biri də iri buynuzlu heyvan yetişdirilməsi olmuşdur. Heyvandarlıq ölkə ehtiyacını qarşılayacaq səviyyədə inkişaf etmişdir. Amma, 1998-ci ilə qədər heyvandarlıq sektorunda böyük azalmalar ortaya çıxmışdır.

Keçmişlə müqyisə edildikdə ölkədə ət və süd məhsulları istehsalında artım qeydə alınmışdır. Bu istehsalın demək olar ki hamısı fermerlərin payına düşür. Ölkədə həyata keçirilən özəlləşdirmə siyasətindən sonra 1998-ci ildən etibarən iri buynuzlu heyvan yetiştirilməsi artır. Bundan başqa ölkədə süd məhsullarının keyfiyyəti də yaxşılaşır. Azərbaycan şirkətləri 15 növdən artıq süd məhsulları (qatıq, pendir, süd, v.s) istehsal edirlər.

Cədvəl 14. Heyvandarlıq Məhsulları İstehsalı

İllər	Ət (min ton)	Süd (min ton)	Yumurta (milyon)
1990	175.5	970.4	985.3
1991	153.5	947.7	958.2
1992	112.7	850.4	812.2
1993	92.5	798.5	584.5
1994	84.4	783.7	494.0
1995	82.0	826.5	455.8
1996	85.7	843.3	477.3
1997	90.5	881.5	492.4
1998	99.9	946.5	509.0
1999	104.6	993.4	526.3
2000	108.7	1031.1	542.6
2001	114.1	1073.7	555.5
2002	124.6	1119.9	561.6
2003	134.4	1167.8	670.6
2004	196.8	1213.7	829.4
2005	198.0	1251.8	874.6
2006	204.7	1299.3	760.9
2007	218.7	1341.0	953.6
2008	228.0	1381.3	1101.2
2009	231.5	1432.8	1209.4
2010	244.9	1535.8	1178.6
2011	254.9	1597.5	1011.0
2012	276.0	1695.6	1226.7
2013	286.9	1796.7	1401.5
2014	291.2	1855.8	1562.7

Mənbə: ARDSK Nəşrləri

Heyvandarlıq məhsullarının istesalı ilə bağlı məlumatlar 14-cü cədvəldə əks olunmuşdur. Həm heyvandarlıq məhsulları istehsalı, həm də heyvanların sayı sürətlə artır.

Azərbaycan mal əti idxal etmir, amma, toyuq əti idxal edir. Ət məhsullarının 24%-i və yumurtanın 35%-i idxal edilir.

Məlumatlarda diqqət çəkən nöqtə, 1998-ci ilə qədər ət istehsalındakı geriləmənin ardından yenidən artmağa doğru irəliləməsidir. 2014-cü ildə isə 291.2 min ton ət istehsalı olmuş və bu indiyə kimi ən yüksək göstərici hesab olunur.

Süd istehsalında isə, 1997-ci ilə qədər azalmadan sonra yenidən artarkən, 1997-2005-illərdə istehsalın həm mütəmadi artım göstərdiyi, həm də 1990-cı ildəki istehsal səviyyəsinin üzərində qeydə alınmışdır. 2006-2014-cü illərdə isə süd isthehsalında daha böyük irəliləyiş baş vermiş və ümumi süd istehsalı 2014-cü ildə 1855.8 min ton olmuşdur. Yumurta istehsalının 1998-ci ilə qədər azalma göstərdiyi, bu tarixdən sonra isə yenidən artım göstərməyə başladığı, ancaq 2004-cü ildəki istehsalın 1990-ci ildəki səviyyəsinin altında olduğu

görülür. Lakin 2005-2014-cü illərdə yumurta istehsalı da artmış və ən pik həddə çatmışdır.

Sektordakı Əsas Problemlər:

Ölkənin iqlim şərtlərinin kənd təsərrüfatı məhsullarının il boyunca istehsalına imkan vərməsinə baxmayaraq, torpaq sahələrinin ancaq 53.1%-nin kənd təsərrüfatı üçün yararlı olması diqqət çəkir. Aparılan tədqiqatlar ölkədə adam başına düşən kənd təsərrüfatı sahəsinin ildən-ilə azaldığını göstərir. Ölkədə adam başına 0.20 hektar əkin sahəsi düşür. Bəzi regionlarda xüsusilə də Lənkəran, Astara, Abşeron, Naxçıvan Muxtar Respublikasında adam başına düşən əkin sahəsi 0.04-0.12 hektardır.

Əkinə yararlı torpaqların böyük bir qismi rütubətsiz zonaya aid olduğundan, inkişaf etmiş suvarma sistemi tətbiq etmədən rəqabət üçün əlvərişli məhsul istehsal etmək çətinlik torədir. Bir sözlə kənd təsərrüfatı sektorunu inkişaf etdirmək üçün suvarma və drenaj sistemləri vacib faktorlardır. Ancaq bir tərəfdən müasir suvarma texnologiyası istifadə olunmur, digər tərəfdən də ərazinin duzluluq səviyyəsi artır və erroziyaya məruz qalır. Xüsusilə də, Xəzər dənizinin səviyyəsindəki dəyişmə ərazini əkinə əlvərişsiz hala gətirir. Bununla bərabər Kür-Araz çayları arasında qalan torpaqlar da duzlulaşaraq vəya su altında qalaraq yararsız vəziyyətə düşür.

713 km uzunluğundakı Xəzər sahillərində və zəngin axarsularda balıqçılıq və ölkənin dəniz məhsullarının xüsusi yeri vardır. Ölkədə suvarılması mümkün olan 3200 min hektar sahənin, ancaq 1450 min hektarı suvarıla bilir. Xəzər səviyyəsinin artması səbəbiylə 1450 min hektar sulanan əkin sahəsinin 47%-indən çoxu müxtəlif şəkildə zərər görmüşdür. Su altında qalan 1450 min hektar sahənin 385 min hektardan çoxu islah səbəbindən yetərsiz vəziyyətdədir. Təkcə 2004-cü ildə Xəzərin səviyyəsinin 8 sm yüksəldiyi hesablanmışdır. Bu vəziyyət təxminən 150 min hektar ərazinin su səviyyəsinin yüksəlməsinə məruz qalması deməkdir. Hesab edilir ki, əgər vəziyyət bu şəkildə davam edərsə Xəzərdə su səviyyəsindəki yüksəlmə 70 sm-ə çatacaqdır[77]. Bundan başqa ölkədə 115 min hektara yaxın torpaq sahəsinin şoranlaşması, 167 min hektarda isə şoranlaşma ilə birlikdə su səviyyəsinin yüksəlmə prosesi gedir. İslah və suvarma sistemləri baxımından isə istifadə olunan 11-12 milyard m^3 suyun 67%-i əkinçiliyin payına düşür.

Kənd təsərrüfatı sektoruna mənfi təsirlər nəticəsində 150 min hektar tütün və pambıq, 170 min hektar üzüm sahəsi zərər görərək istehsal sahəsi xaricində qalmışdır.

[77] 'Rising Caspian Waters Pose Flood Threat', *Azernews* http://www.azernews.net/view.php?d=5705. (15.05.2005).

Kənd təsərrüfatının inkişafını, istehsal səviyyəsinin və məhsuldarlığın artmasını çətinləşdirən əsas səbəblərdən biri də son illərdə kənd təsərrüfatında maddi-texniki infrastrukturun zəifləməsidir. 1990-cı ilə ilə müqayisədə kənd təsərrüfatında istifadə olunan traktor, kombayn kimi texnikanın sayında ciddi azalma olmuşdur.

Texnikanın olduqca köhnəlməsi və nəzarətsiz qalması istifadə imkanı və məhsuldarlığı məhdudlaşdırır.

Son illərdə torpaqlardan istifadənin səmərəli şəkildə olmaması və istifadədə lazımi həssaslığın göstərilməməsi də kənd təsərrüfatı sektorunun ciddi problemlərindən biridir.

Heyvandarlıqla əlaqədar olaraq isə əsas problem, yem istehsalı səviyyəsinin aşağı, maliyyətinin isə yüksək olmasıdır.

Yuxarıda ifadə edildiyi kimi ölkə, xalqın ehtiyacını təmin etmək üçün lazım olan qida maddələrinin istehsalı istiqamətində çox əlvərişli təbii şəraitə malikdir. Ancaq, iqlim şərtləri və təbii şəraitin əlvərişli olmasına baxmayaraq; texnika çatışmazlığı və köhnəlməsi, keyfiyyətli toxum, gübrə və lazımi dərmanların istifadə olunmaması (məsələn, kənd təsərrüfatında etiyac olan gübrənin sadəcə 4-5%-i qarşılanır) kimi səbəbələrlə ölkə potensialı lazımınca istifadə oluna bilmir[78].

Problemdən çıxış yolu fermerlərə maliyyə imkanların yaradılması, onlara istehsalda, emalatda və satışda dövlət tərəfindən lazımi köməyin göstərilməsidir.

Əlbəttə ki kənd təsərrüfatı və heyvandarlıq sektoru ilə bağlı problemlərin həlli üçün, dünya təcrübəsindən yüksək səviyyədə istifadə edilməlidir[79].

Sektordakı reformlar və yeniliklər

Kənd təsərrüfatındakı reform fəaliyyətləri olaraq; torpaq reformunun həyata keçirilməsi ilə, kolxoz və sovxozların bağanaraq bu müəssisələrə aid əmlakın kəndlilərə pulsuz vərilməsi, məhsul qiymətlərinin sərbəstləşdirilməsi, kənd təsərrüfatı istehsal edən müəssisələrinin özəlləşdirilməsi və digər fəaliyyətlər kənd təsərrüfatı sektorunun inkişafına mühüm sürət qazandırmışdır.

Dövlət büdcəsindən kənd təsərrüfatı və heyvandarlıq sektoruna ayrılan pay ildən-ilə artır. Bu artım sektorun özünü doğrultmasında mühüm faktorlardan biridir[80].

---

[78] *Azerbaycanın İqtisadi İcmalı*, Rüblük Bülleten, TASİS Avropa Ekspertiza Xidmeti, Bakı, İyul-Dekabr 1999, s.41; Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türkiye İle Ekonomik İlişkileri", www.ceterisparibus.net/arsiv/s_ogan.pdf. (12.03.2003).

[79] Rovşən Quliyev, "Aqrar Bazarların Tənzimlənməsi Üzrə Dünya Təcrübəsi", *Məşvərət Bülleteni,* No:12(48), Mart-2002, s.39

[80] "Son beş ildə kənd təsərrüfatına 300 milyon dollar xarici sərmayə qoyulub", *525-ci Qəzet*, 20.03.2003.

Ölkədə mövcud olan təbii ehtiyatlardan səmərəli və daimi olaraq yararlanmaq, torpaq idarəsini və keyfiyyətini yaxşılaşdırmaq, istehsal və emal xərclərini azaltmaq və istehsalın məhsuldarlığını artırmaq məqsədiylə, ucqar regionlarda fermer ittifaqlarının yaradılması, fermerlərə yerli məsləhət xidmətlərinin verilməsi, mikro kredit sisteminin qurularaq işlək vəziyyətə gətirilməsi, infrastruktur-suvarma-drenaj sisteminin müasirləşməsi kimi addımlar hazırlanan müxtəlif proqram və layihələrlə həyata keçirilməyə çalışılır.

"Azərbaycanın altı rayonunda müəssisələrin özəlləşdirilməsi" layihəsi 1996-cı ildə təsdiq edildi və 2003-cü ildə tamamlandı. Layihənin dəyəri 28.82 milyon dollardır. Layihəni maliyyələşdirənlər isə Dünya Bankı və Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondudur. Kreditlər sözü gedən layihənin həyata keçirildiyi 113 kəndin hər birindəki şəxslərə verilmişdir.

Azərbaycanda Banklar Assosasiyasının qərarı ilə "2002-2006-cı illərdə Kənd Təsərrüfatı Sektorunun İnkişaf Proqramı" qəbul edilmişdir. Bu proqramın həyata keçirilməsi və müvəffəqiyətlə davam etdirilməsi, kənd təsərrüfatı və kənd təsərrüfatı sektorunda istehsalın gələcəkdə dinamik şəkildə inkişafının təmin ediləcəyini ifadə etməyə imkan verir[81].

2004-cü ilin avqustunda isə, Azərbaycan hökuməti və Dünya Bankı arasında "Aqrar sahə İnvestisiyaları" layihəsi imzalandı. Bu layihə regionlarda yaşayan nüfuzun sosyo-iqtisadi yaxşılaşdırmaq baxımından vacibdir. Layihə çərçivəsində aqrar müəssisələrin, mikro layihə investisiyalarının maliyyələşdirilməsinə köməyi nəzərdə tutmuşdur.

Son illərdə kənd təsərrüfatı regionlarında maliyyə xidmətlərinin verilməsiylə əlaqədar bəzi işlər də görülmüşdür. Bu regionlarda 78 yeni bank filialının fəaliyyətinə icazə verilmişdir. Eyni zamanda da digər müəssisələr tərəfindən lazımi köməkliklər göstərilmişdir. Əldə olunan müsbət artıma baxmayaraq kənd təsərrüfatı məhsulları istehsalının mövcud vəziyyəti potensial imkanların səviyyəsindən aşağıdır. Bunun əsas səbəbi istehsal üçün lazımi şərtlərin olmaması və istehsal imkanlarından səmərəsiz istifadə edilməsidir.

Heyvandarlığın inkişafı məqsədiylə süni mayalanma texnologiyasından faydalanmaq məqsədiylə heyvandarlıqla məşğul olan regionlara Hollandiyadan süni mayalanma apultları gətirilmişdir. Heyvanlara peyvəndlərin olunmasının yayılmağa başlaması və heyvan irqlərini islahat fəaliyyətləri nəticəsində canlı heyvan sayı və heyvan məhsullarının istehsalında son illərdə stabil olaraq artımlar müşahidə olunmuşdur. Bundan başqa hökümət, dövlət labaratoriyalarına nəzarəti yaxşılaşdıraraq, sərhəd keçid məntəqələrində qarantin yoxlamalarını gücləndirmiş, qida inamliyinin təmin olunması və insanların sağlam qida ilə təmin etmək üçün lazımi tədbirlər görməyə başlamışdır.

[81] Cavadov, ss.58-60.

2004-2008-ci illəri əhatə edən Dövlət Proqramı çərçivəsində kənd təsərrüfatı və heyvandarlıq sektoruyla əlaqədar hədəflər isə aşağıdakı kimi sıralana bilər[82]:

- Başda Bakı və Gəncə olmaqla ölkənin böyük şəhərlərində kənd təsərrüfatı məhsullarının topdan satış bazarlarının təşkilinə xarici sərmayənin istiqamətləndirilməsi.
- Azot gübrəsi istehsal edən fabrikin tikilməsi və mövcud super fosfat fabrikinin yenidən istehsala başlamasına xarici sərmayənin istiqamətləndirilməsi.
- Zəruri texnika və ehtiyat hissələrin istehsalına xarici sərmayənin istiqamətləndirilməsi.
- Torpaq suvarma və islahat sisteminin yenidən qurulması və bu çərçivədə 11 ən əhəmiyyətli müəsisələrin tikilməsinə xarici sərmayənin istiqamətləndirilməsi.
- Kənd təsərrüfatı və heyvandarlıq məhsulları istehsal edən müəssisələrin, xüsusilə də kəndlərdə kiçik müəssisələrin ət, süd, meyvə və tərəvəz istehsalı müəssisələrinin qurulması.
- Emal sənayesi üçün köməkçi material olan şüşə, palstik v.s. istehsal edən müəssisələrin qurulması.
- Xalqın və qida sənayesinin şəkər tələbinin qarşılanması məqsədiylə şəkər istehsalı fabriklərinin tikilməsinə xarici səraməyənin istiqamətləndirilməsi.
- Regional aqrar təhsil mərkəzlərinin, araşdırma institutlarının, dövlət keyfiyyətli toxumluq taxıl və damazlıq heyvan yetişdirilməsi müəssisələrinin və regionlarının texniki infrastrukturunun müasirləşdirilməsi və gücləndirilməsi, elmi araşdırmaların artırılması.
- Regionların sosyo-iqtisadi inkişafına, sosial infrastrukturun bərpasına və yenidən qurulmasına sərmayənin təşkil olunması.
- Yeni üzüm bağlarının salınması və şərab istehsal edən fabriklərin qurulması.
- Bitki mühafizə və qarantin tədbirlərinin kifayət dərəcədə həyata keçirilməsi üçün bu sahənin infrastrukturunun inkişafı və yenidən qurulması.
- Baytarlıq və heyvan sağlamlığı ilə bağlı tədbirlərin artırılması.
- 500-700 hektar torpaq sahəsinə xidmət edən kiçik kənd təsərrüfatı xidmət müəssisələinin qurulması.
- Kartof nişastası istehsalı müəssisələrinin qurulması.
- Başda quşçuluq olmaqla heyvandarlığın inkişafında rol oynayan yem fabriklərinin tikilməsi üçün xarici sərmayənin istiqamətləndirilməsi.

[82] İrşad Əliyev, "Agrar Sahəyə İnvestisiya İmkanları" *Dialoq Azərbaycan İş Dünyası Dərgisi, S*ayı:16, Ağustos-2004, s.12-13.

Ümumi olaraq yuxarıda ifadə edilən və proqramda kənd təsərrüfatı və heyvandarlıqla bağlı hədəflərə çatmaq üçün lazımi invəstisya mühiti yaradılmağa çalışılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədilə və bu sektorda inkişafı sürətləndirmək məqsədilə məhsulların istehsalçıları 2008-ci ilə qədər torpaq vərgisindən başqa, digər bütün vərgilərdən azad edilmişlər.

Digər tərəfdən fermerlərin kənd təsərrüfatı məhsullarının istehsalı avadanlıqlarına sahib olmaları məqsədilə müxtəlif layihələr həyata keçirilir. Kənd təsərrüfatında istehsal həcminin artırılması məqsədiylə istehsal və emal müəssisələrinin qurulması və texniki problemlərin həlli diqqətə alınmışdır. Bu çərçivədə 2004-2008-ci illəri əhatə edən Dövlət Proqramında sərmayəsi 100% dövlətə məxsus "Aqrolizinq" şirkətinin qurulmuşdur. Şirkət dövlət büdcəsindən ayrılan maliyyə qaynaqlarının lizinq yolu ilə hüquqi və fiziki şəxslərin yeni kənd təsərrüfatı avadanlıqları sahibi olmalarını hədəfləmişdir. Şirkət, 25 oktyabr 2004-cü il tarixli prezident fərmanı ilə qurulmuşdur. Kənd təsərrüfatı sektoruna maşınların və avadanlıqların alınması üçün "Aqrolizinq" şirkətinə 2009-ci il üçün 200 milyon manat, 2010-cı il üçün 250 milyon manat vəsait ayrılmışdır[83].

2005-ci ildən başlayaraq regionlarda kənd təsərrüfatı və emal sənayesinin inkişaf etməsi üçün Maliyyə və Kənd Təsərrüfatı Nazirliyi bilavasitə investisiyalarla birlikdə, beynəlxalq maliyyə təşkilatları ilə müttəfiqliyə əsaslanan böyük layihələrə daha çox üstünlük vərəcəklər.

Kənd təsərrüfatı vasitələri, gübrə və toxumda yaxşılaşdırma ilə kənd təsərrüfatında istehsal həcmini ən az iki dəfə artırmaq mümkündür.

3.2.2. Balıqçılıq

Xəzər dənizinin dünya bazarlarında əhəmiyyətini artıran sektorlardan birisi də balıqçılıqdır. Neft və qaz yataqları ilə birlikdə Xəzər dənizi, keyfiyyətli və zəngin balıq ehtiyatına malik qapalı su hövzəsidir. Xəzər, ən qiymətli balıq növü olan Nərə balığının əsas vətənidir. Nərə balığı eyni zamanda kürü alınan balıq növüdür. Xəzərdə Nərə balığı istehsalı və onun məhsulu olan qara kürü istehsalı qiymətli bir iqtisadi dəyər olaraq qarşımıza çıxacaqdır.

MDB ölkələrində Xəzər hövzəsi balıq ovunun 55-60%-ni, yeməli balıq məhsullarının 40-42%-ni, balıq konserv məhsullarının 50%-ni təşkil edir[84].

---

[83] "Aqrar Bölmədə Lizinqin Genişləndirilməsi Sahəsində Əlavə Tədbirlər Haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı", http://www.azerbaijanleasing.com/azerbaijanleasing/docs/Agro-leasing.doc, (25.05.2005)$ "Aqrolizinq Kənd Təsərrüfatı Texnikası Alıb Lizinqə verəcək", 525-ci Qəzet, No:43 (1900), 5 mart 2005.

[84] Nəbi Nəbiyev, İqtisadiyyat Cəmiyyət və Ekoloji Mühiti, Ağrıdağ Nəşriyyatı, Bakı,2000, ss221.

Qrafik 10. Azərbaycanda Balıq Məhsulları İstehsalı (min ton)



Mənbə: ARDSK Nəşrləri

1980-cı illərin əvvəllərinə qədər Xəzər balıq populasiyası ilə çox məşhur idi. Xüsusilə, Nərə balığından əldə edilən qara kürü bir vaxtlar Rusiyanın qərbə qara kürü istehsalının 90%-ni təşkil edirdi. Əvvəllər 65 min ton Nərə balığı çıxarılmasına baxmayaraq, bu rəqəm 1980-cı illərin əvvəllərində 25 min tona düşmüşdür. Bu miqdar 1994-cü ilin əvvəllərində 7 min tona enmişdir. Volqa deltasında 120.000 balıqçı həyatını sadəcə bu işdən əldə edərkən, müəyyən vaxt ərzində bu sayı 2.000 balıqçıya düşmüşdür[85]. Xəzərin Azərbaycan sektorunda Nərə balığı ovu 1992-ci ildə 550 ton olması müqabilində, son illərdə bu rəqəm 90 ton olmuşdur.

Son illərdə qanunsuz ovlanma ilə daha çox xırda balıqların ovlandığı Xəzərdə mühüm balıq növlərinin sayı azalmışdır. Bu miqdar hər il 10% azalır[86]. Rusiya Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə 2007-ci ildə Xəzərdən 700 milyon dollarlıq Nərə balığı tutulmasına baxmayaraq, rəsmi rəqəmlərin 60 milyon dollar olduğu görülür. Bu isə, sadəcə Rusiyada qeyri qanuni ovlanmanın 40 qatı olduğu mənasına gəlir. Bəzi beynəlxalq mənbələrə görə Xəzər sahili ölkələrdən qərb ölkələrinə 1milyard dollar qaçaq kürü satılır.

Dünya Bankının apardığı araşdırmalara görə hər il 1 milyon ton neft tullantıları Xəzərə atılır. Xəzərdəki dioksinlə zəhərlənmiş balıqların tutulması da diqqətə alındıqda Xəzərin çirklənməsinin əsas səbəbinin neft tullantıları olduğu görülür.

---

[85] *Ətraf Muhitin Mühafizəsi Üzrə Milli Fəaliyyət Planı*, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Bakı, 1998, ss.39-40; Altan Türker, "Tükenmiş Bir Çevresel Miras Orta Asya'da Sınır Ötesi Çevre Sorunları ve Doğal Kaynakların Tahribi", *Avrasya Etüdleri*, C.1, S.1, İlkbahar-1995, s.42.

[86] Azərbaycan İnsan İnkişafı Haqqında Hesabat 1997, BMT-nin İnkişaf Proqramı, Bakı, 1997, s.64.

1929-30-cu illərdən başlayaraq Xəzərə tökülən çaylar üzərinə tikilən hidrotexniki müəssisələr, Xəzərin sahillərində inşa edilən sənaye və inşaat sahələri ilə şəhərlərin və sənaye mərkəzlərinin genişlədilməsi, dənizin ekoloji və bioloji rejiminə mənfi təsir göstərmişdir. Yavaş-yavaş dənizin tullantılarla çirkləndirilməsi, balıq ehtiyatının keyfiyyətinə və istehsalına mənfi təsir göstərir. Volqa və Kür çayları üzərində qurulan sulama və enerji məqsədli anbarlar qiymətli balıqların kürüləmə su sahələrinin azalmasına yol açmışdır. Müharibədən sonrakı illərdə Volqa çayının qolları üzərində qurulan böyük hidro-texniki komplekslər, bəndlər, su elektrik stansiyaları, bir çox sənaye kompleksləri açıq dənizdə çıxarılan neft və təbii qaz və daimi fəaliyyətdə olan dəniz nəqliyyatı səbəbiylə son 60 ildə Xəzərdə balıq ovlanması əhəmiyyətli dərəcədə azalmışdır. Xüsusilə, qara kürü istehsalının 90%-nin bu hövzədən əldə edildiyi günlər geridə qalmışdır. Kürü istehsalında istifadə olunan balıq növlərinin azalması nəticəsində 1952-ci illərin əvvələrində Rusiya, Qazaxıstan, İran və Azərbaycan 20-yə yaxın fabrikində bu balıqları çoxaldarkən Xəzər dənizində suyun səviyyəsinin yüksəlməsi nəticəsində bu fabriklər su altında qalmış balıq istehsalında, nəticədə kürü istehsalında böyük azalmalar yaşanmışdır. Bu xüsus kürü istehsalında istifadə olunan balıq növlərinin yox olma təhlükəsiylə qarşı-qarşıya qalma təhlükəsinə səbəb olmuşdur[87].

1959-1985-ci illər arasında sadəcə Volqa çayının çirklənməsi və bəndlərə görə balıq itkisi 5 milyon tondan artıq olmuşdur. Bunun 750 min tonu kürüsüylə məşhur olan Nərə balığı növləridir.

Azərbaycanda balıqçılıq xüsusiylə Xəzərdə aparılır. Xəzərin Azərbaycan sektorunda təxminən 120 növ balıq vardır və bunlardan 7-si istehlak və dərman sənayesində istifadə olunan Nərə balığı növləridir. Bir digər əhəmiyyətli balıq növü də qızıl balıqdır[88].

Azərbaycanda Nərə balığının və kürü istehsalının idarə edilməsi, istehsalı, satışı və ixrac haqqı "Azərbalıq" adlı dövlət şirktinə aiddir. 2000-ci idə "Caspian Fish Co.-Azbaijan" adlı şirkətin açılması və 2001-ci ildə "Azərbalıq" adlı dövlət müəssəsinin bağlanmasından sonra Azərbaycanda balıq ovu və idxalı sürətlə azaldı. Ölkənin bütün balıqçılıq sektoru eyni tarixdən sonra həmin şirkətin əlində cəmləşmişdir. Ölkəyə gətirilən balıq, istehlakçılar tərəfindən "Caspian Fish Co.-Azerbaijan" adına rəsmiləşdirilir. İdxalçılar gətirdikləri balığın 20-30%-ni bu şirkətə satmaqdadır.

Ölkədə balıqçılığın inkişafı üçün yetərli şəraitin olmasının müqabilində əhalinin balıq və balıq məhsulları ilə təmini minimum səviyyəsindədir. Əhali

[87] Budaq Budaqov –Yaqub Qərbli, Azərbaycan Respublikasının Fiziki Coğrafiyası, Öyrətmən Nəşriyyatı, Bakı, 1996, s.81; Ətraf Mühitin Mühafizəsi Üzrə Milli Fəaliyyət Planı, s.6.

[88] Yusif Vəzir Çəmənzıminli,Tarihi Coğrafi və İqtisadi Azərbaycan,Bakı Universiteti Nəşriyyatı, Bakı, 1993, s.45;Budaqov-Qərbli,s.77.

artımı göz önünə alındıqda, balıq və balıq məhsullarına tələb 100 min tondur. Ancaq, ildə real olaraq əldə edilən balıq məhsulları bu rəqəmin 10-20%-nə bərabərdir.

Statistiki rəqəmlər illər etibarı ilə ovlanan qiymətli balıq növlərinin nisbətinin azaldığını göstərir. 1990-ci ildən 1997-ci ilə qədər Azərbaycanda balıq ovlanması və dəniz məhsulları istehsalı təxminən altı dəfə azalmışdır. 1997-2009-cü illər arası isə balıq ovlanmasında artım görülmüşdür. 2014-cü ilə balıq ovunun 50 min tona çatdığı görülür.

Son illərdə Dünya Bankı kimi maliyyə təşkilatlarının və xarici sahibkarların dəstəkləri ilə həyata keçirilən lahiyələrlə balıq istehsalı və işləmə potensialı artırılmağa çalışılır. Məsələn, sadəcə 2008-ci ildə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə aid Neftçala və Şirvan balıq istehsalı fabriklərindən Xəzərə 15,5 milyon ədəd bala Nərə balığı buraxılmışdır.

Ümumilikdə isə, 2008-ci ildə fərqli balıq istehsalı fabriklərində 456.3 milyon ədəd fərqli növdə balıq balası yetişdirilərək Xəzər dənizinə, Kür çayına və daxili su hövzələrinə buraxılmışdır. Balıq və kürü istehsalına lazimi pul ayrılmasının iqtisadiyyata mühüm faydası olacaqdır.

Balıq İstehsalını Azaldan Səbəblər

Kürü çıxarılan balıq nəslinin təhlükəyə girməsində status probleminin varlığı səbəb olmuşdur[89]. Sovet İttifaqı dağılmadan əvvəl istər İran, istərsə də SSRİ qaçaq balıq ovunun qarşısını almağa ciddi mənada nəzarət edirdi[90]. Sovet sonrası dövrdə isə balıq ovu məsələsində ölkələrin ciddi mənada bir boşluğa düşdüyü görülür. Bu vəziyyət heç şübhəsiz qaçaq balıq ovçuluğunu da özü ilə gətirmişdir. Hər nə qədər SSRİ-dən sonrakı dövrdə ölkələr balıq ovunun illik miqdarını təyin etməkdə razılaşmışsalar da, qaçaq balıq ovçuluğunun qarşısı alına bilmir.

Eyni şəkildə ölkələrin iqtisadi güclərilə düz nisbətli olaraq balıq istehsalı fabriklərinin həcmi və sayı azalmış, bu sürətlə ortaya çıxan qaçaq ovçuluq aradan qaldırılmağa çalışılmışdır. Bu da, region ölkələri arasındakı razılığa əsasən təyin olunan miqdarların qorunmasını çətinləşdirmişdir.

Hidro-karbonat ehtiyyatları ilə yanaşı bioloji ehtiyyatları ilə də Xəzər Azərbaycanda iqtisadi inkişaf baxımından böyük əhəmiyyət daşıyır. Mühüm neft və təbii qaz ehtiyyatları ilə yanaşı Xəzər dünyanın Nərə balığı və kürü istehsalının 90%-dən çoxunu təmin qaynağı olmuşdur. Ancaq, həm çirkrlənmə, həm də qa-

---

[89] Rusiya, Azərbaycan və Qazaxıstan arasında Xəzərin şimal hissəsinə dair bölgü aparılmışdır. Bu bölgü Azərbaycanın ortaya qoyduğu fikrin çox az dəyişdirilmiş mahiyyətində olmuşdur: Hətta Rusiya Xəzərin sektoral bölgüsünün əleyhinə idi. Nəticədə kiçik bir dəyişikliklı Rusiya da bu fikrə, yəni Azərbaycanın fikrinə gəlmişdir. ABŞ-ın "Mobil" neft şirkəti isə Türkmənistan-Azərbaycan arasındakı anlaşmazlıq səbəbiylə "Kəpəz" yatağında fəaliyyət göstərmekdən imtina etmişdir. İran ilə də hələ razılığa gəlinməmişdir.

[90] Ətraf Mühitin Mühafizəsi Üzrə Milli Faaliyyət Planı,s.40.

çaq balıq ovu Nərə balığı ehtiyyatlarının qısa müddətdə sürətli bir şəkildə azlması təhlükəsini yaratmışdır[91].

Ticari əhəmiyyəti olan balıq sayısının xüsusilə aparılan istehsal fəaliyyətləri nəticəsində böyük zərərə məruz qaldığı görülür. 1950-ci illərdən başlayaraq Xəzərə axan çayların üzərində su və elektrik stansiyalarının inşa edilməsi Nərə balığının çoxalma yerlərinə böyük ziyan vurarkən, Xəzərin səviyyəsinin artmasına görə Nərə balığının çoxalma yerlərinin su altında qalmasına səbəb olmuşdur. Nəticədə, Nərə balığı ovu əhəmiyyətli dərəcədə azalmışdır. Bundan əlavə başqa qiymətli balıq növü olan Xəzər qızıl balığının illik ovu azalmışdır. Ticari əhəmiyyəti olan Xəzərin İlan balığı, Şamayı və Ağgöz isə yox olmuşdur.

Xəzər dənizində əldə edilə biləcək bioloji sərvətlərin, xüsusilə balıq ehtiyatlarının artırılması ancaq sahil dövlətlərinin birlikdə fəaliyyət göstərmələri ilə mümkün olacaqdır[92].

Bundan əlavə regionlarda son dövrdə meydana çıxan ərzaq qıtlığı qarşısında xüsusilə ixracata dair olan dəniz məhsullarının belə bir potensiala sahib olması qarşısında region dövlətlərinin bu problemi birlikdə baxmaları qaçınılmaz hala gəlmişdir[93].

Çirklənməyə qarşı lazımi tədbirlərin alınmaması qarşısında Xəzər bir çox bioloji ehtiyyatlardan kasıb qalacaqdır. Nəticədə, ən çox çirklənməyə məruz qalan regionlar olaraq Azərbaycan və Türkmənistan sahillərində gələcək 15 il ərzində dənizin 50 metr dərinliyində balıq tutulması əhəmiyyətini itirəcəkdir və dənizin 30 min metr^2-lik sahəsi balıq tutulmasından yoxsul qalacaqdır[94].Balıq istehsalının artırılması üçün neft və təbii qaz çıxartma sənayesində, Xəzər hövzəsində və sahillərində yerləşən digər sənaye komplekslərində daha az tullantılı bir təmizləmə sistemi texnologiyasının istifadəsi lazımdır. Bundan əlavə, Xəzər sahili şəhərlərində və hövzəsində yaşayan 150 milyondan artıq əhalinin tullantılarının təmizlənməsi, dənizdə üzən tankerlərin, sərnişin gəmilərinin, neft və təbii qaz daşıyan gəmilərin dənizə buraxdığı tullantıların və neft tullantılarının təmizlənməsi lazımdır[95].

Son illərdə Dünya Bankı kimi beynəlxalq maliyyə təşkilatlarının və xarici sahibkarların dəstəyi ilə həyata keçirdilən layihələrlə balıq istehsalı və istifadə potensialı artırılmağa çalışılır. Məsələn, sadəcə 2008-ci ildə, Ekologiaya və Təbii Sərvətlər və Nazirliyinə aid Neftçala və Şirvan balıq istehsal müəssisələrindən Xəzərə 25.5 milyon ədəd Nərə balığı buraxılmışdır.

---

[91] Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1999, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1999, ss.36-37.

[92] Nəbiyev, ss.221-222.

[93] Nəbiyev, s.222

[94] P. Məmmədov,"Xəzərin Ekoloji Problemlərinin Həllində Ölkələrarası Əməkdaşlığın Əhəmiyyəti", Azərbaycan XXI Əsrin Astanasında, (Red. Ziyad Səmədzadə), Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1998, s.208.

[95] Nəbiyev, s.22

3.2.3. Arıçılıq

Ölkədə ən yayılmış arıçılıq məhsulu baldır. Halbuki, polen, arı südü, mum, çiçək tozu kimi məhsulların istehsalı da mümkündür. Arıların mühafizə metodları və arı çoxaltma texnologiyası ölkədə aşağı səviyyədədir.

Ölkənin bala olan tələbin yerli istehsalla qarşılanması üçün arıçılıq istehsalını indiki istehsalla müqayisədə 8 dəfə artırmaq lazımdır. Bu artıma, ölkənin təbii iqlim şərtləri, zəngin bitki örtüyü və arı növləri imkan verir. Üstəlik digər sektorlar ilə müqayisə edildikdə arıçılığın inkişafına lazım olan maliyyə vəsaitinin geri ödənməsi və iş imkanları daha uyğundur.

Regionların sosial iqtisadi inkişafı ilə bağlı dövlət proqramında arıçılq sahəsinin inkişafına xüsusi əhəmiyyət verilir. Buna görə arıçılıqla məşğul olan ailələrin sayının 5 dəfə artırılması hədəflənir.

3.3. XİDMƏT SEKTORU

Xidmət sektorunun ÜDM-də yeri 1998-ci ildə 52.4%, 1999-cu ildə 48.0%, 2004-ci ildə 41.7%, 2006-ci ildə 40.8%, 2008-də isə təxminən 36% olmuşdur. 2014-cü ildə isə xidmət sektorunun ÜDM-dəki payı 33% olmuşdur.

Aşağıdakı xidmətlər sektoru içində yer alan vacib alt sektorlara yer veriləcəkdir.

3.3.1. Təhsil

Həyat səviyyəsinin aşağı düşməsi və müharibə şəraiti ilə bağlı olaraq 1990-cı illərin əvvələrində təhsil səviyyəsində geriləmə başlanmışdır. Beləliklə, təhsil səviyyəsi yüksək olmaqla birlikdə keçid dövrünün iqtisadi şərtləri, təhsil səviyyəsinin inkişafına mənfi təsir göstərmişdir. Təhsildəki bu mənfi vəziyyət müstəqilliyin onuncu ilinin ikinci yarısına qədər davam etmişdir. Bu tarixdən sonra isə təhsil səviyyəsi yüksəlməyə başlamışdır.

Azərbaycanda 1680 məktəbəqədər təhsil müəssisəsi və 4575 orta məktəb fəaliyyət göstərməktədir. Dövlət təlim-təhsil sistemində 112 texnili peşə məktəbi və liseyi, 61 texnikum və 41 universitet fəaliyyət göstərir.

1990 və 1991-ci illərdə böyük miqdarda təhsil müəssisəsi istifadəyə verilmişdir. 1994-2002-ci illər arasında isə çox az sayda təhsil müəssisəsi xidmətə verilmişdir. 1990-2002-ci illərdə inşa edilən təhsil müəssisələrinin sayı isə 257-dir.

Təlim-tərbiyə müəssisələrində 1 milyon 322 min şagird ilk və orta, 158 min 212 tələbə isə ali məktəblərdə təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 183 min təhsil işçisi məşğul olur. Təhsil işçilərinin 160.6 mini ilk və orta təhsil müəssisələrində işləyirlər.

Azərbaycanda təhsil sisteminin, dünya təhsil sistemi ilə inteqrasiyasını qurmaq məqsədiylə, dünyanın inkişaf etmiş 70-a yaxın ölkəsində 5 mindən çox

Azərbaycan gənci təhsil alır. Digər tərəfdən, dünyanın 60-yə yaxın ölkəsindən təxminən 3 min nəfər Azərbaycanda təhsil alır[96].

Təhsil sektorunda özəl sektorun rolu getdikcə artır. Özəl təhsil müəssisələrində daha çox sərbəst bazar iqtisadiyyatında ehtiyac olan sahələrdə təhsil verilir. Misal üçün, özəl ali məktəblərdə təhsil alan tələbələrin 25%-i iqtisadiyyat, 18%-i isə beynəlxalq münasibər fakultəsində təhsil alırlar.

Təhsil sahəsində bəzi reformların edilməsinə baxmayaraq, çox mühüm bəzi problemlər varlığını hələ də davam etdirir. Dağlıq Qarabağdan məcburi köçkünlərin təhsil problemləri hələ də həllinə qovuşmamışdır. Qarabağdan qaçqın düşən ailələrin uşaqları 695 məktəbdə təhsil alırlar. Bu məktəblərin bir qismi çadır şəhərciklərində və evlərdə təhsil xidməti verir. Bu məktəblərdə 90 min şagird təhsil alır. İqtisadi problemlər, təhsilin keyfiyyətini aşağı salacaq şəkildə, təhsilə mütəmadi olaraq təsir edir. Təhsil ocaqlarının texniki təchizatının kifayət etməməsi də mühüm bir problem olaraq həllini gözləyir.

Təhsil əsrindəki şagird sayının ildən-ilə artması isə ölkədə yeni bir problem məktəb çatışmamazlığının meydana çıxmasına səbəb olmuşdur. Artıq bu problem ucqar rayonlarda deyil, paytaxtda da özünü göstərir. Şəhərdəki bir çox məktəb normadan çox şagird götürmək məcburiyyəytində qalır.

2010-cü ildən büdcəsində təhsilə ayrılan təxminən 1500 milyon manatdır. Bu nisbət Yaponiyadakı bir Universitetin büdcəsindən 2.1 dəfə azdır. Təhsilə, səhiyyəyə, müdafiəyə, və digər sahələrə ayrılan vəsait ayrıldığı sektorların minimum ehtiyacının 25-30%-nə kifayət edir.

Dövlət xərclərindən təhsilə ayrılan pay təxminən 3-4% olmuşdur. Bu nisbət də təhsilə ayrılan payın həm az olduğunu, həm də azalmağa meylli olduğunu göstərir. Təhsilə ÜDM-dən ayrılan payın kifayət etməməsi bu sahədə cidi problemlər yaradır.

2003-2016-ci illəri əhatə edən 13 il ərzində 2149 yeni təhsil müəssisəsinin tikilmiş və ya əsaslı təmir edilmişdir. Bundan əlavə, "Azərbaycanda Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Proqramı "çərçivəsində 28 yeni təhsil müəssəsinin inşası və 300 təhsil müəssəsisəsinin təmiri planlanmışdır. Bununla birlikdə Dövlət Neft Fondundan Qarabağdan qaçqın düşənlərə yardım çərçivəsində 200 yeni təhsil müəssəsinin tikilməsi də planlaşdırılmışdır. Beləliklə, gələcək beş illik zaman zərfində 500 yeni təhsil müəssəsinin tikilməsi, təmir və əlavə bina ilə birlikdə cəmi 1050 təhsil müəssəsində normal şərtlərdə bir təhsil imkanı verməsi planlaşdırılmışdır[97].

---

[96] Misir Mərdanov ,"Heydər Əliyev və Azərbaycan Təhsili", Azərbaycan Müəlimi Qəzeti, 7-13 Mart 2003, s.3

[97] "Azərbaycan Təhsil Nazirliyinin Bəyanatı", Azərbaycan Zaman Qəzeti, 15-17 Mart 2003, s.2; Azərbaycan Rəqəmlərdə, ARDSK

Digər tərəfdən ölkədə 1047 şagirdə sadəcə bir kompüter düşür[98]. 2008-ci ildə hər 33 nəfərə bir kompüter düşəcək şəkildə 2005-2007-ci illərdə Azərbaycanın bütün təhsil müəssisələrinin kompüterlə təchizatı haqqında proqram hazırlanmış və uğurla başa çatdırılmışdır.

Ölkədə güclü bir elmi potensial olmasına baxmayaraq, bu potensialdan faydalanılmır. Milli gəlirdən elmi araşdırmalara ayrılan payın dünya ortalamasından xeyli aşağıda olduğu görülür. Elmi araşdırmalara milli gəlirdən ayrılan payın dünya ortalaması 2.2% olmasına qarşılıq, bu nisbət Azərbaycanda 0.2%-dir. Bu nisbətin zamanla azalması da görülür. Bu nisbət 1990-cı ildə 0.5% olmuşdur. Elmi araşdırma edənlərin sayı (hər 100 min nəfərə 2791) dünya ortalamasından (hər 100 min nəfərə 959) yuxarıdır[99]. Bu vəziyyət elmi araşdırma edən alimlərin gəlir səviyyəsinin aşağı olmasına və texniki təchizatın kifayət etmədiyinə işarət edir. Nəticədə aparılan araşdırmaların səviyyəsi də aşağı olur. Halbuki təhsil və elmi araşdırmaların inkişafı bir ölkənin stratejik inkişaf yönlərindən biri olmalıdır.

2003-cü ildən başlayaraq 10 illik müddəti əhatə edən ikinci reform proqramı çərçivəsində Dünya Bankı, Azərbaycan təhsil sahəsinə 63 milyon dollar kredit vermişdir. Bu proqram üç mərhələdə həyata keçirilmişdir. İlk mərhələ 4 ili əhatə edir. Dünya Bankı bu dövrdə 18 milyon dollar kredit verilmişdir. Digər iki mərhələ 3 ili əhatə etmişdir. Dünya Bankı ikinci mərhələdə isə 25 milyon dollar kredit vermişdir[100].

Hökümət tərəfindən hazırlanan və 2004-2015-ci illəri əhatə edən təhsildə inkişaf proqramında Azərbaycanın təhsil sisteminin problemləri və həll yolları ümumi olaraq qiymətləndirilmişdir.

Proqramda başlıca problemlər arasında ilk və orta məktəblərdə təhsil səviyyəsinin aşağı olması, zəif maddi-texniki infrastruktur, kəndlərdə müəllim çatışmazlığı, siniflərin və dərs vəsaitlərinin azlığı, dərs proqramlarının bazar iqtisadiyyatı tələblərinə uyğun olmaması, təhsil sisteminin və əmək bazarının zəif inkişafı, gənclərin aşağı səviyyədə texniki və ixtisas təhsili alması kimi problemlər əks olunmuşdur.

Problemlərin həlli üçün proqramda konkret tədbirlər nəzərə alınmışdır. Hədəflərin həyata keçməsi üçün, 4 il içərisində 123 milyon dollara yaxın maliyyə vəsaiti təhsil sektoruna istiqamətləndirilmişdir. Bu vəsaitin yarısından çoxunun təhsilin maddi texniki infrastrukturunun gücləndirilməsinə xərclənməsi düşünülür.

Ölkə Prezidenti cənab İlham Əliyevin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının təsdiq edilməsi

---

98 Ölkə daxilində isə hər 1000 nəfərdən 15-18-i kompyuter istifadə edir.

99 Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 2002, ss. 72-74.

100 Dünya Bankı Təhsilin İnkişafına 63 Milyon Dollar Kredit Ayıracaq", 525-ci Qəzet, (18.03.2003).

barədə" imzaladığı Sərəncama əsasən 8 il ərzində 5 min azərbaycanlı gəncin xarici ölkədə təhsil alması nəzərdə tutulmuşdu və bu proqrama əsasən artıq minlərlə azərbaycanlı tələbə xaricdə təhsil alıb geri dönmüşdür. Bundan əlavə proqramda, təhsil sektorunda çalışanların sosial statusunun yüksəldilməsini və təqaüdlərin artırılmasını da nəzərdə tutulmuşdur.

2014-cü ildə Təhsil Nazirliyinin təşəbbüsü ilə təhsilin inkişafına xidmət edən bir sıra əhəmiyyətli addımlar atılmışdır. Ali təhsil sahəsində ilk dəfə olaraq SABAH (savadlı, bacarıqlı, hazırlıqlı) qrupları layihəsinin həyata keçirilməsinə başlanmışdır. 34 ali təhsil müəssisəsindən 33 ixtisas qrupu üzrə 769 nəfər üç mərhələli müsabiqə əsasında seçilərək SABAH qruplarına qəbul olunmuşdur. Həmin qruplar xüsusi proqram və müasir tədris texnologiyaları tətbiq edilməklə, xarici dil intensiv tədris olunmaqla, peşəkar müəllimlər cəlb edilməklə fəaliyyətə başlamışdır. Bu qruplarda Azərbaycanın inkişafına töhfə verəcək, savadlı, bacarıqlı, hazırlıqlı, rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsi nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq təhsilin informasiyalaşdırılması çərçivəsində Təhsil Nazirliyi tərəfindən elektron tədris resurslarının hazırlanmasına başlanmış, www.e-derslik.edu.az, www.e-sinif.edu.az, www.e-telim.edu.az, www.i-olimp.edu.az, www.e-test.edu.az, elektron portalları istifadəyə verilmişdir.

www.imtahan.edu.az elektron imtahan sisteminin hazırlanmasına başlanmışdır ki, bu sistem vasitəsilə təhsil sahəsində çalışan şəxsləri qiymətləndirmək və sertifikatlaşdırmaq mümkün olacaqdır.

Dövlət Proqramı çərçivəsində indiyədək 3185 gənc Dövlət Neft Fondu hesabına maliyyələşdirilməklə dünyanın 33 ölkəsinin 542 universitetinə təhsil almağa göndərilmişdir. Bu günədək Proqram çərçivəsində 794 nəfər gənc təhsilini müvəffəqiyyətlə bitirərək Azərbaycana geri qayıtmış və uğurla fəaliyyət göstərməkdədir. Son illərdə Azərbaycanda ümumilikdə 550 min şagird yerlik 2793 yeni məktəb binası tikilmiş və əsaslı təmir edilmişdir. Onlardan 400-dək məktəb Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa və ya əsaslı təmir olunmuşdur. İnfrastrukturun inkişafı sahəsində həyata keçirilən Dövlət Proqramları və layihələr nəticəsində 1 milyondan artıq şagirdin (bütün şagirdlərin 80 faizi) təlim şəraiti yaxşılaşdırılmışdır. 2015-ci ilin sonlarına olan məlumatlara görə ümumtəhsil məktəblərində hər 18 şagirdə bir kompüter nisbəti təmin olunmuşdur. İnternet şəbəkəsinə çıxışın təmin olunması istiqamətində işlər davam etdirilmişdir, hazırda Azərbaycan Təhsil Şəbəkəsinə (İntranet və İnternet) qoşulmuş ümumi təhsil müəssisələrinin sayı 1765-ə (40%) çatmışdır.[101]

[101] http://edu.gov.az/upload/file/HESABAT/2014/hesabat-xulase-2014.pdf

3.3.2 Səhiyyə

Sovet İttifaqı sisteminin nailiyyəti olaraq dəyərləndirə biləcək şəkildə Azərbaycana, o günün şərtlərində inkişaf etmiş bir səhiyyə sistemi miras qalmışdır. Ancaq, bir tərəfdən büdcədən lazımi payın ayrılmaması, digər tərəfdən də xalqın gəlir səviyyəsinin düşməsi səbəbiylə, səhiyyə xidmətləri bu gün razı qalınacaq şəkildə deyildir. Azərbaycanda fəaliyyət göstərən səhiyyə müəssisələri, müasir tələblərə cavab vərmir, bir çox bina və təchizat etibariylə köhnə və yarasızdır.

Səhiyyə xərclərinin milli gəlirdən aldığı pay 1% olmuşdur. Bu da səhiyyə xərcləri üçün ayrılan payın kifayət etmədiyini göstərir.

Cədvəl 15. Səhiyyə ilə bağlı məlumatlar

İllər	Xəstəxana	Poliklinika	Həkim	Səhiyyə İşçisi
1995	768	1779	29217	67000
1996	759	1694	28873	63200
1997	746	1630	28477	60700
1998	739	1611	28485	60600
1999	735	1614	29033	60000
2000	735	1618	29084	59900
2001	738	1603	29090	59100
2004	734	1591	29700	59500
2005	732	1594	30100	59700
2006	729	1595	30600	60800
2007	726	1589	30800	61600
2008	748	1692	32400	62200
2009	752	1695	32500	62500
2010	756	1692	32800	62900
2011	516	1688	33100	60100
2012	523	1690	31400	57800
2013	539	1725	32300	57500
2014	553	1744	32400	56900
2015	566	1746	32800	56100

Mənbə: ARDSK Nəşrləri.

Azərbaycanda ümumilikdə, hər 10 min nəfərə düşən həkim sayı 34.6, səhiyyə işçisi sayı 59.3, xəstəxana çarpayılarının sayı təxminən 49-dur. Bu rəqəm, təkcə Bakı üçün hesablandıqda, ümumi ortalamanın üzərində olduğu görülür. Bakıda hər 10 min nəfərə düşən təxminən 85, səhiyyə işçisi sayı 110, xəstəxana çarpayılarının sayı 115-dir. Bu vəziyyət səhiyyə xidmətlərinin Bakı xaricində daha az olduğunu göstərir.

Səhiyyə xidmətlərinin çatışmamazlığı, bəzi xəstəliklərin ildən-ilə sayının artmasına səbəb olur. Qeydə alınan xəstəliklər arasında ən çox görülənlər, yu-

xarı tənəffüs yolları olmaqla, tənəffüs yolları, sinir sistemi, qulaq-burun-boğaz xəstəliklərdir.[102]

Xəstəxanaların rəsmi və qeyri-rəsmi pullu xidmətə keçirilməsi, kifayət qədər dərman, texniki təchizatın və maliyyə vəsaitinin olmaması, xidmət və dərman qiymətlərinin yüksəkliyi kimi səbəblər əhalinin səhiyyə xidmətlərindən istifadəsini azaltmışdır.

Açılan özəl yeni səhiyyə mərkəzlərinin isə, səhiyyə xidmətlərinin keyfiyyətinin artmasında mühüm rolu olur.

Səhiyyə sektorunda bir çox problemlərin olmasına baxmayaraq, iqtisadi inkişaf və gəlir səviyyəsinin artması ilə birkikdə bu problemlərin də azalma dövrünə girdiyi görülür.

Regionların Sosial-İqtisadi İnkişafı Haqqında Dövlət Proqramında yeni səhiyyə müəssəsisələrinin açılması planlaşdırılır.

3.3.3 Turizm

Ölkədə turizm sektoru üçün lazımi iqlim, təbii gözəlliklər, tarixi və arxeolojik əsər potansialı qısaca təbii, tarixi və mədəni sərvətlər mövcuddur. Azərbaycanda təbii imkanlar arasında 11 iqlim qurşağından 9-nun mövcud olması, Xəzər dənizinin sahilləri, Xaçmaz-Lənkəran-Astara regionundakı meşəlik sahələr və müalicə məqsədiylə də faydalanıla biləcək potansialdakı qaynaq suları diqqət çəkir[103].

İqlim şərtlərinin əlverişli olması səbəbiylə ölkə, Sovet İttifaqı dövründə əhəmiyyətli miqdarda turist çəkirdi. Həmin dövrdəki otellər və plajlar bunu göstərir.

Azərbaycanda turizm sektorunu əmələ gətirən sahələr aşağıdaki alt başlıqlar altında cəmlənə bilər;

Tətil Turizmi: Xüsusilə yaz aylarında tətil etməyə ən uyğun regionlar Zaqatala, Şəki, Quba, Gəncə, Qazax və Lənkərandır.

Yayla və Dağ Turizmi: Azərbaycanda yayla və dağ turizmi üçün əlverişli bölgələr; Zaqatala meşəlikləri, Şəki Gələrsən Görərsən qalası, Başdaşagıl, Quba meşəlikləri, İsmayıllı, Lahıç, Qəbələ, Ağdaş meşələri, Gəncə, Hacıkənd, Göygöl olaraq sıralana bilər.

Vanna və Sağlamlıq Turizmi: Azərbaycan içməli və müalicə məqsədli mineral su qaynaqları ilə zəngindir. Ölkədə 200 milyon litr su verən təqribən 2000 mineral su qaynağı var[104].

---

[102] Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat 2009, ss. 53-56.

[103] Z. N. Eminov, *Azərbaycan Fiziki və İqtisadi Coğrafiyası*, Azərbaycan Coğrafiya İnstitutu Nəşriyyatı, Bakı, 2000, ss. 153-156.

[104] Əhmədov - Hacıyev, s.87.

Digər tərəfdən "Naftalan" deyilən və dünyada sadəcə Azərbaycanda var olan neft qatışıqlı palçıq suyu bir maddə başda sinir sistemi olmaqla dəri, cild, qadın xəstəlikləri və s. bir çox xəstəliyə yaxşı gəlir. Azərbaycanda müalicə tipli sanatoriyaların çoxu Abşeron Yarımadasında yerləşir.

Çimərlik Turizmi: Şərqdən Xəzər dənizi tərəfindən əhatə olunan Azərbaycan plyaj turizmi baxımından da əlverişlidir. Bilgəh və ətrafı kilometrlərcə uzanan plyajlara sahibdir.

Ov Turizmi: Azərbaycanda cəmi 97 növ məməli heyvan, 346 növ quş və 95 növ balıq var. Fərqli regionların ov turizminə əlverişli olduğu ölkədə ov tüfəngi istifadə etmək üçün icazə alınmalıdır. Eyni zamanda hər tüfəng sahibinin ovçular cəmiyyətinə üzvülüyü məcburidir.

Mədəniyyət Turizmi: Azərbaycan çox zəngin bir mədəniyyət və tarix xəzinəsinə sahibdir. Ölkədəki qədim abidə, məzar, türbə, bina və digər tarixi əsərləri qorumaq, bərpa etmək üçün müxtəlif təşkilatlar qurulmuşdur.

Təbii zənginlikləri səbəbiylə turizmin Quba-Xaçmaz, Astara-Lənkəran, Şəki-Zaqatala, Gəncə-Xanlar, Şəmkir-İsmayıllı, Siyəzən-Xızı regionlarında inkişaf etəsi daha uyğundur.

Gələn turist sayı diqqətə alındıqda inkişaf etmiş ölkələrdən çox az sayıda turistin gəldiyi, MDB ölkələrindən gələn tursitlərin üstünlük təşkil etdiyi görülür.

Qrafik 11. Ölkəyə Gələn Turist Sayı (min nəfər)



Mənbə: ARDSK Nəşrləri.

Əslində ölkəyə gələn turist sayı açıqlanan statistiki məlumatlarda əks olunan rəqəmdən çox yüksəkdir. Açıqlamalara görə qeydiyyat sistemindəki problem səbəbiylə məlumatlar həqiqəti yansıtmır. Görülən yeni tədbirlər və qərarlarla bu problem həll edilməyə çalışılır.

Azərbaycanda daxili turizm baxımından gəlir səviyyəsinin aşağı olması, xarici turizm baxımından isə, ölkənin ölkə xaricində tanıtımının kifayət səviyyədə olmaması, əksinə Qarabağ problemi səbəbiylə Ermənistanla arasındakı münaqişənin təhlükəli bir region kimi ələ alınması önemli mənfi amildi.

Uzun müddət turizm sektoruna aid tək bir dövlət siyasətinin və proqramının olmaması da turizm sektorunun inkişafına təsir etmişdir.

Azərbaycanın turizm baxımından ən əlverişli regionlarından biri olan Qarabağın işğal altında olması, turizm sektoru baxımından ən önəmli itkilərin başında gəlir. İşğal sonrası, Qarabağdakı turizmə mənfi təsir edəcək şəkildə Ermənilər tərəfindən regionun ekolojik balansına böyük zərərlər verilir[105].

Büdcədən sektorun inkişafı məqsədiylə ayrılan pay hər keçən il bir əvvəlki ilə görə çox olmasına baxmayaraq, sektorun arzu edilən inkişaf trendinə çata bilməsi üçün kifayət deyildir.

Azərbaycanda turizm sektorunun inkişafını əngəlləyən digər səbəblər belə sıralana bilər:

- İstirahət komplekslərində şərtlərin lazımi səviyyədə olmaması
- Turistik sahələrə gedən yolların əlverişsiz olması,
- Viza sisteminin çevik olmaması
- Turistlərin qala biləcəkləri otellərin əlverişli şərtlərə sahib olmaması,
- Qiymətlərin baha olması
- Ölkənin 25 ildən artıq müddətdir Ermənistanla olan müharibənin təsiri altında olması
- İngilis dilli bələdcilərin azlığı

Azərbaycan, 1994-cü ildən bəri turizm sahəsində müxtəlif ölkələrlə bir çox müttəfiqlik müqaviləsi imzalamışdır.Azərbaycan Gənclik, İdman və Turizm Nazirliyi tərəfindən, Beynəlxalq Turizm Təşkilatına üzv olduğu 27 sentyabr 2001 tarixindən sonra, turizm sektorunun inkişaf etdirilməsi məqsədiylə, beynəlxalq təşkilatların maliyyə dəstəyini və digər ölkələrdə fəaliyyət göstərən turizm şirkətlərinin Azərbaycana investisiya qoymalarını təşviq məqsədiylə xüsusi investisiya proqramı hazırlanmışdır. Hazırlanan sənədlərlə, ölkənin turizm sektorunun inkişafı baxımından həm tanıtılması, həm də sektora diri investisiyaların qoyulması təşviq edilməyə çalışılır. Turizm sektoru üçün lazımi kadrların yetişdirilməsi məqsədiylə də ali təhsil səviyyəsində bəzi fəaliyyətlər görülür. Turizm və Menecmet Universitetinin fəaliyyətə başlaması təqdirəlayiq addımlardandır. Bundan əlavə, sektorda işləyənlərin məsləki inkişaflarının təmini məqsədiylə, başda Türkiyə olmaqla bəzi ölkələrin turistik regionlarında məsləki təhsil kursları almaları təmin olunur.[106]

---

[105] R. Abbasov, s.2.

[106] R. Abbasov, "Azərbaycan Turizm Üçüm Əhəmmiyyətli Bölgədir", *Hərbi And Qəzeti*, 1-15 Aprel,

Yeni yaradılan Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara və Tovuz-Qazax turizm yollarını müasir standartlara çatdırmaq məqsədiylə, Azərbaycan Turizm Nazirliyi tərəfindən, beynəlxalq turizm şirkətlərinə dəyəri 100 min dollar - 50 milyon dollar arasında dəyişən layihələr təqdim edilmişdir[107].

Digər tərəfdən 27 avqust 2002-ci il tarixli və 1029 sayılı sərəncamla "2002-2005 İli Üçün Turizmin İnkişafına Dair Dövlət Proqramı" təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Ölkə başçısı mərhum Heydər Əliyevin imzaladığı fərmanla turizm fəaliyyətləri ilə məşğul olan şirkətlər üçün verilən lisenziya müddəti iki ildən beş ilə çıxarılmışdır. Dövlət rüsumu 8 milyon manatdan 2 milyon 750 min manata endirilmişdir. (Denominasiyadan əvvəlki manat) Nəticədə turizm sektorundakı şirkətlərin sayı artaraq 130-a çatmışdır.

Ölkədə 500-dən çox otel fəaliyyət göstərir. Otellərdə xidmət keyfiyyətinin yüksəldilməsi üçün işlər görülür[108]. Bundan əlavə Azərbaycanda təqribən yeni turistik otel inşa edilir, regionlarda turizm-informasiya mərkəzləri yaradılır.

Turizm sektorunun ildən ilə inkişaf etdiyi görülür. Məsələn, sadəcə 2003-cü ildə otel və motellərin fəaliyyətindən əldə edilən gəlir 208 milyard 214 milyon 400 min manat olmuşdur. 2003-cü ildə 74 şirkətə lisenziya verilmiş və bundan dövlət büdcəsinə 203 milyon 500 min manat gəlir əldə edilmişdir.

2008-ci ildə turizm sektorundakı artım 37%-dir. Ölkəyə gələn turist sayı hər il təqribən 20-30% artır. 2002-2009-cü illərdə 112 yeni turizm obyekti istifadəyə verilmişdir.

2004-2008-ci illəri əhatə edən regiona inkişaf proqramında inkişaf etdirilməsi lazım olan ilk hədəflər arasında olan turizm sektoru ilə əlaqədar olaraq, regionlarda eko-turizmin inkişafı məqsədiylə hazırlanan layihələr və iş planları, bu sahəyə maraq göstərən xarici investorlara təqdim edilmişdir.

Müxtəlif proqram və layihə və mədəniyyət tədbirlərilə Azərbaycan; turizmin bir inkişaf perspektivi ola biləcək, infrastrukturun tənzimlənməsiylə geniş bir turizm potensialına sahib olacaqdır. Hələ kifayət qədər tanınmayan və turizm investorlarını gözləyən Quba, Nabran, Şəki, İsmayıllı kimi şəhərlər və regionlardakı təbii gözəlliklərlə yanaşı, demək olar ki hər küçədə olan mədəniyyət və sənət mərkəzləriylə Bakı inkişaf etməkdə olan turizm sektorunda əvəz edilməz yerə sahib olacaqdır[109].

2003, s.2; Əbülfəz Qarayev, "Azərbaycan Bu Gün Beynəlxalq Olimpiyada Oyunlarına Müvəffəqiyyətli İmza Atan Dövlətlər Sırasındadır", *Dialoq Azərbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Mart-2003, s.16.

107 *525-ci Qəzet*, 18.04.2003.

108 Ə. Qarayev, s.16.

109 Nazif Şahin, 'Turizm ve Kültürel Değerlerimiz', *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Sayı:15, Bakü, Şubat-2004, s.30.

Azərbaycanda son illərdə turizm sektorunun inkişafında çox əhəmiyyətli hadisələr 2012 ci ildə Bakıda keçirilən "Eurovisya" yarışması və 2015-cı ildə ilk dəfə Bakıda start verən Avropa Oyunları Bakı 2015 tədbirləri olmuşdur. Bu beynəlxalq tədbirlər nəticəsində Azərbaycan dünyanın diqqət mərkəzi halına gəlmişdir. Son illərdə istifadəyə verilən Şahdağ Turizm kompleksi, Nabran, Naftalan və Qəbələdəki turizm obyektləri xarıcı turıstlərin diqqətini çəkməkdədir.

2023 cü ili hədəfləyən proqnozlarına əsasən Azərbaycana gələcək xarici turistlərin sayı 4 milyondan çox olması gözlənilir. Bundan əlavə yaxın illərdə 100 min yataq yerinin yaradılması nəzərdə tutulur. Bu program uğurla başa çatdırılarsa Azərbaycanda 2023-cü ilə qədər turizm şirkətlərinin sayı - 350, mehmanxanaların sayı -1500, yerləşdirmə obyektlərinin sayı -95 min, turizm sahəsində çəlışanların sayı -75 min, Azərbaycana gələn əcnəbilərin sayı- 5 milyon, turizimdən əldə olunan gəlirin 3 milyard dollardan çox olacağı proqnozlaşdırılır. Ümumilikdə Azərbaycanın rayonlarında turist bazaları yaratmaq üçün ideal imkanlar var. Turizmin inkişafı həm də regionların sosial-iqtisadi inkişafı baxımından çox vacibdir. Bu həmçinin on minlərlə iş yerinin açılması, kənd təsərrüfatı mallarının rahat satışı, bölgə əhalisinin sosial rifah halının yaxşılaşması deməkdir. Belə olduqda rayon sakinlərinin iş dalınca paytaxta və xarici ölkələrə axınının qarşısını əhəmiyyətli dərəcədə ala bilər.

3.3.4. Maliyyə

Aşağıda maliyyə sektoru bank, sığorta və daşınan qiymətlər birjası alt başlıqları altında incələnəcəkdir.

3.3.4.1. Bank

Yeni bir sistemə keçid fəaliyyətləri davam etdirilən ölkədə eyni zamanda başda bank olmaqla, yeni bir maliyyə sistemi quruluşu da davam etdirilir.

Ölkədə Milli Bank, səhmləri dövlətə aid olan banklar, özəl sərmayəli yerli banklar və xarici sərmayəli banklar fəaliyyət göstərir.

Sərmayəsinin bütün hissəsi dövlətə aid bir hüquqi şəxs olan Milli Bank, maliyyə bazarları üzərində çox sərt bir nəzarəti var. Azərbaycanda bank sisteminin inkişaf prosesi üç mərhələyə bölünə bilər. Birinci mərhələ olaraq 1990-92-ci illər arasında Milli Bank sistemi təşəkkül etdirilmişdir. 1992-94-cü illərdə hiper-inflyasiya şərtlərində qeyri-stabil bir mühitdə bank sistemi inkişaf etmişdir. 1994-cü il və ondan sonra isə, makroiqtisadi stabil mühitdə bank sisteminin yeniden formalaşdırılaraq inkişaf edilməyə çalışılmışdır[110].

[110] *Azərbaycan Respublikası Bank Sistemi Haqqında Məlumat Məcmusu*, Azərbaycan Banklar Assosiyası Nəşriyyatı, Bakı, 2000, s.5-6.

Azərbaycanda bank sisteminin hüquqi prinsipləri "Azərbaycan Respublikasının İqtisadi Müstəqilliyinin Əsasları" haqqında 25 may 1991-ci il tarixli Konstitusiya Qanununun "Bank sistemi və pul tədavülü" adlı 14-cü maddəsi ilə atılmışdır[111]. Bu maddə ilə Azərbaycanda müstəqil bank sisteminin və milli valyuta vahidinin hüquqi təmelləri, Milli Bankın status və səlahiyyətləri müəyyənləşmişdir. Milli Bank 11 fevral 1992-ci ildə qurulmuşdur.

Bank və Milli Bank barədə tənzimləmələrlə əlaqədar olaraq 7 avqust 1992-ci ildə "Milli Bank Haqqındakı Qanun"la "Banklar və Bankların Fəaliyyətləri Haqqındakı Qanun" ard-arda qüvvəyə minmişdir. 1992-ci ilin dekabrında Azərbaycan Respublikası Milli Bankının nizamnaməsi qəbul edildi. Ölkədə Milli Bank və digər banklardan ibarət bir bank sisteminin qurulması hədəflənmişdir: Pul və bank sektorunda siyasətləri müəyyənləşdirmə, nəzarət və nəzarət səlahiyyəti Milli Banka aiddir. Bank qanunu müasir mənadakı bütün bank fəaliyyətlərini əhatə edir, fəqət iqtisadiyyatın bütöv mənasıyla sərbəst bazar sisteminə keçməməsi və bank sisteminin də müasir mənasıyla yerləşməmiş olması səbəbiylə hədəflənənlər həyata keçirilə bilmir.

Sərbəst bazar iqtisadiyyatına keçidin ilk illərində Azərbaycanda, bank sisteminin yaradılaması səbəbiylə, bankalar üzərində güclü bir nəzarət olmuşdur. Hüquqi boşluqlardan da faydalanan ticari banklar sürətlə artdı. Qurulan banklar əsasən spekülatif fəaliyyətlərdə cəmləşdilər.

"Azərbaycan Respublikası Milli Bankı" haqqındakı qanun 10 iyun 1996-cı ildə, qəbul edilmişdir. Əlaqədar qanun ilə bağlı 1997, 1998, 2001, 2002 və nəhayət 2004-cü illərdə bəzi dəyişikliklər və əlavələr edilmişdir. Nəhayət "Azərbaycan Respublikası Milli Bankı" haqqındakı qanun son halıyla 10 dekabr 2004-cü ildə ölkə başçısı İlham Əliyev tərəfindən təsdiq olunmuşdur.

"Azərbaycan Respublikasında Banklar Hakkında Qanun" son şəkli ilə 16 yanvar 2004-cü ildə ölkə başçısı tərəfindən təsdiq olunmuşdur.

1991-ci ildən etibarən bütün banklarda əməliyyatlar beynəlxalq muhasibat standartlarına görə aparılmağa başlandı.

Azərbaycanda maliyyə bazarı vasitələri və bank xidmətləri inkişaf etməmişdir. Ancaq, xarici bank şöbələri ilə rəqabət edəbilmək məqsədiylə yerli sərmayəli banklar, xidmət müxtəlifliliyini və keyfiyyətini artırmağa çalışırlar.

2001-ci ilin əvvəlində 158 olan bank və bank xarici bütün kredit təşkilatlarının sayı 2002-ci ildə 116-ya düşmüştür. 2005-ci ilin əvvəli etibariylə isə 114 lisenziyalı kredit təşkilatı fəaliyyət göstərir. 2009-cü ildə xalqdan vəsait toplamaqla 42, xarici valyuta vahidi ilə aparılan bank fəaliyyətlərini yerinə yetirmək üçün 43, qiymətli mədənlərlə fəaliyyət etmələrinə icazə verilən təşkilat sayı 2,

[111] Azərbaycan Respublikasının Milli Bankı, http://www.nba.az. (08.04.2003).

təminatlar və zəmanət vermək üçün 41, plastik kartlarla fəaliyyət göstərmək üçün 30 kredit təşkilatı lisenziyaya sahibdir.

Azərbaycanda bank sayındakı artma trendi 1995-ci ilə qədər davam etmişdir. 1996 ildən etibarən isə bank sayında azalma başlamışdır.

Xüsusilə müstəqilliyin ilk illərində bankların quruluş sərmayəsinin aşağı tutulması səbəbiylə bankların sayında bir artma baş verdi. Daha sonra baş verən banker faciəsindən sonra Milli Bank quruluş sərmayəsi miqdarını mərhələli bir artış trendinə girərkən bankların sayında da pilləli bir azalma olmuşdur. 1 oktyabr 1997-ci ildə edilən yeni tənzimləmələrlə yeni açılan banklar üçün nizamnamə sərmayəsinin kafiliyi 1.250.000 dollara, fəaliyyət görən banklar üçün isə 800.000 dollara yüksəldildi. Bu tənzimləmədən sonra kiçik banklar fəaliyyətlərini dayandırmağa başladılar.

01.01.2000 tarixində bank sistemini sağlamlaşdırma siyasəti istiqamətində bankların ən az sərmayələri 2 milyon dollara və yeni qurulacaq banklar üçün isə 5 milyon dollara çıxardılmışdır. 2002-ci ilin iyulunda isə fəaliyyət göstərən banklar üçün quruluş sərmayəsi 2.5 milyon dollara yüksəldilmişdir[112]. Quruluş sərmayələrini 2.5 milyon dollara yüksəldə bilməmələri səbəbiylə bəzi ticari bankların birləşməsi, bəzi bankların isə fəaliyyətinə son verməsi nəticəsində daha əvvəl yüksək olan bank sayı azalmışdır. 2002-ci ildə nizamnamə sərmayəsini 2.5 milyon dollara yüksəldə bilməyən 8 bankın lisenziyası ləğv edilmişdir.

2003-cü ildə də bankların nizamnamə kapitalının artırmaları prosesi davam etmişdir. Milli Bank özəl bankların nizamnamə sərmayəsini 2003-cü il iyul ayında 2.5 milyon dollardan 3 milyon dollara yüksəltmişdir. Bu isə kifayət qədər nizamnamə sərmayəsinə sahib olamayan bankların fəaliyyətini dayandırması ilə nəticələnirdi. Milli Bank özəl bankların nizamnamə sərmayəsini, hər altı ayda bir 0.5 milyon dollar artıraraq tədricən 50 milyon dollara çıxarmağı planlamış və bu proses 2015-ci ildə yekunlaşmışdır. 2015-ci ilin yanvar ayından Azərbaycanda bankların minimum nizamnamə kapitalı 50 milyon manat olması qərarlaşdırılmışdır.

Bank sektorunda quruluş sərmayəsinin artırılması istiqamətində verilən qərar nəticəsində 2001-ci ildən etibarən ölkədə 50-yə yaxın bank fəaliyyətini dayandırmışdır. Nəticədə, 1990-cı illərin əvvəlində kredit təşkilatları içərisində 240 bank fəaliyyət göstərərkən bu sayı 2001-ci ilin əvvəlində 59-a, 2002-ci ilin əvvəllərində 53-ə və 2005-ci ilin əvvəllərində isə 43-ə düşmüşdür. Banklarının ikisi dövlət bankı, 40-ı isə özəl bankdır. Banklardan 15-i xarici sərmayəli vəya xarici sərmayə iştiraklıdır[113].

---

[112] http://www.nba.az/az/statistics/monetary_indicators/info2002.shtml, (10.04.2003).
[113] 'Two Local Banks Merge', *Azernews*, No:09(399), March 1 – March 7, 2005, s.3.

1995-ci ilin sonunda 4 dövlət bankı Aqrobank, Sənaye Bankı, Əmanət Bank və Beynəlxalq Bank, bank aktivlərinin 80%-inə, geri ödənməyən kreditlərin 85%-inə, depozitların 75%-inə, şöbələrin 65%-inə və bank sektorunda işləyənlərin 70%-inə sahib idilər.

2005-ci ilin əvvəlləri etibariylə ölkədə 2 dövlət (Azərbaycan Beynəlxalq Bankı və Kapital Bank) bankı vardır. Hələ Sovet dövründə, 1988-ci ildə, Azərbaycanda açılan ixtisas bankları Aqroprombank, Promstroibank və Sberbankın (Agrar Sənaye, Sənaye İnvestisiya və Əmanət Bank) 2000-ci ildə birləşdirilməsi ilə Birləşmiş Universal Bank anonim şirkət statusunda qurulmuşdur. 2004-cü ildə isə bankın adı Kapital Bank olaraq dəyişdirilmişdir. Azərbaycan Beynəlxalq Bankı isə Sovet dövründə qurulan Vnesheconombankın şöbəsinin 1992-ci ildə dövlət bankına çevrilməsi ilə qurulan digər bir dövlət bankıdır.

Əksəriyyəti dövlət nəzarətində olan bank sektoru, xüsusilə Azərbaycan Beynəlxalq Banknın təsiri altındadırlar. Azərbaycan Beynəlxalq Bankının aktivləri bank sektorunun ümumi aktivlərinin 54%-inə uyğun gəlir. Bu nisbətin bir əvvəlki ilə görə 7 bal artması da diqqət çəkir.

Fəaliyyət göstərən bankların şöbələrinin sayı 2002-ci ilin əvvəlində 191 ikən, bu sayı 2003-cü ilin əvvəlində 226-ya, 2005-ci ilin əvvəlində isə 350-yə yüksəlmişdir.Rezident olmayan banklarının şöbə sayı isə sadəcə 1 dənədir. Kredit təşkilatlarının xaricdə şöbə, təmsilçilik və s. fəaliyyətləri isə zəifdir[114]. Bu müəsisələrin xaricdə 1 şöbə, 1 təmsilçilik və 1 bağlı bank şəklində fəaliyyət göstərir.

Ölkədəki fəaliyyət göstərən banklar, şöbələrinin sayına görə incələndikdə özəl bankların şöbələrinin sayının, dövlət banklarının şöbə sayından daha çox olduğu görülür.

Azərbaycanda qurulan Türk banklarıyla yanaşı bəzi xarici bankların şöbələri də fəaliyyət göstərir. Azərbaycanda xarici sərmayəli bank həm 100% xarici sərmayə, həm də müştərək olaraq qurula bilər. Banklarda xarici sərmayənin payı 30% ilə məhduddur.

Xarici bankların sektordakı payı bir çox ölkə ilə müqayisə edildikdə bu nisbətin yüksək olduğu görülür. Yerli bankların öz sərmayələrinin zəif olması isə, xarici banklarla rəqabətdə zəif olmalarına səbəb olur.

Bundan əlavə yerli və xarici banklar qurmuş olduqları "muxbir" bank əlaqələri ilə dünyanın bir çox ölkəsinə dair maddi əməliyyatları yerinə yetirirlər.

2008-ci ilin sonu etibariylə bankların nizamnamə sərmayəsinin ümumi həcmi bir əvvəlki ilə görə 41.3% artaraq 3051.0 milyon manat olmuşdur. 2009-ci ilin yanvar ayı etibariylə ümumi nizamnamə sərmayəsinin 340 milyon manatı dövlət banklarının, 1411 milyon manatı isə özəl bankların payına düşür. Xarici

[114] http://www.nba.az/az/statistics/monetary_indicators/info2002.shtml, (10.04.2003).

sərmayənin iştiraki ilə qurulan bankların nizamnamə fondu 352.8 milyon manatdır ki, bu da ümumi nizamnamə fondunun 32.6%-inə bərabərdir.Əlbəttə tətbiq olunan sərt pul siyasətlərinin də bank sayının azalmasında böyük təsiri olduğu diqqətə alınmalıdır.

Kredit və Kredit Faiz Nisbətləri

Bank sektorunun iqtisadiyyatdakı üstünlüyü gedərək artmış və banklara olan inamın artması ilə ümumi depozit və kredit həcmi artmışdır.Verilən kreditlərdə hər keçən il özəl sektorun payının artmağa başladığı da görülməkdədir. 2002-ci ildə verilən ümumi kreditlərin 35%-i özəl banklar tərəfindən verilərkən bu nisbət 2014-cü ildə 76% olaraq reallaşmışdır. Dövlət banklarının üstünlüyünün isə, 2002-2015-cü illər arasında 45% olduğu görülür.

Cədvəl 16. Kreditlər (Milyon Manat)

İllər	Qısa müddətli	Qısa müddətli (%)	Uzun müddətli	Uzun müddətli (%)
1995	1264.8	87.3	184.2	12.7
1997	1901.1	93.1	140.9	6.9
1998	2087.7	97.8	45.9	2.2
1999	2160.5	97.5	55.0	2.5
2002	1672.0	72.0	649.8	28.0
2004	1769.9	72.8	661.4	27.2
2006	1871.2	71.9	1129.6	28.1
2007	1649.5	35.2	3032.3	64.8
2008	2295.9	31.9	4895.4	68.1
2009	2359.9	28.1	6047.5	71.9
2010	2567.1	28.0	6596.3	72.0
2011	3051.2	30.7	6899.1	69.3
2012	3885.1	30.5	8835.4	69.5
2013	4562.2	30.3	9625.3	69.7
2014	6589.3	29.2	1125.6	70.8
2015	7325.5	28.1	12256	71.9

Mənbə: ARDSK Nəşrləri.

Xarici bank kredit təşkilatlarının kreditlər içindəki payı 2002-ci ildə 15% ikən, 2008-ci ildə 8%-ə geriləmişdir. Verilən kreditlərdə xarici valyutanın davam edən bir üstünlüyü diqqət çəkir. 2002-2015-cü illərdə kreditlərin 47%-i manat, 53%-i xarici valyuta olaraq verilmişdir. Özəl sektora istiqamətləndirilən kredit miqdarlarında da mühüm artışlar olmuşdur. Bu kimi əhəmiyyətlli inkişaflar pul kredit siyasətinin daha da müvəffəqiyyətlə tətbiq edilməsinə imkan vermişdir.

Daha çox qısa müddətli olan ümumi kreditlərin 2002-ci ildə 70%-i özəl sektora istiqamətləndirilərkən, 2008-ci ildə 75.6%-i istiqamətləndirilmişdir.

Dövlət sektoruna istiqamətləndirilən kreditlərin həcmi isə 2002-ci ildə bütün kreditlərin 30%-i olarkən, 2008-ci ildə 24.4% olmuşdur. Bundan əlavə verilən kreditlərdə sektoral olaraq ticarət-xidmət və nəqliyyat-rabitə sektorlarının daha böyük pay aldığı görülür.

Faiz nisbətləri bazar tərəfindən müəyyənləşir, xəzinə təhvillərinin işləm gördüyü bir bazar fəaliyyətinə keçirilərək maliyyə sektorunun inkişafı əldə edilməyə çalışılmışdır.

Depozit və Depozit Faiz Nisbətləri

Depozitlərin isə böyük bir qisminin xarici valyuta olaraq qoyulduğu görülür. 2002-ci ildə 2001-ci ilə görə 5% artışla, depozitların 85% kimi böyük bir qismi, 2004-cü ildə isə 80%-i xarici valyuta olaraq reallaşmışdır. Manatla qoyulan depozitlərin nisbəti isə 2002-ci ildə 15%, 2004-cü ildə isə 20% olmuşdur. Bundan əlavə depozitlərin böyük bir qismi dövlət banklarında toplanır. Son illərdə xalq tərəfindən xüsusilə dövlət banklarına qoyulan depozitlərin həcmi artmışdır. Bu vəziyyət ilk olaraq dövlət banklarına olan inamın artdığı kimi düşünülə bilər.

2015-cü ildə banklara qoyulan depozitlərin həcmi 77.9% artaraq 9326.3 milyon manat olmuşdur. Depozitlərin təxminə 1 milyardı manatla, 8 milyard manatı isə xarici valyuta ilə reallaşmışdır. Fiziki şəxslər tərəfindən banklara 6015.6 milyon manat depozit qoyulmuşdur ki, bu miqdar bir əvvəlki ilə görə 60% daha çoxdur. Hüquqi şəxslər tərəfindən isə 3126.7 milyon manat depozit qoyulmuşdur ki bu miqdar bir əvvəlki ilə görə 73.5% daha çoxdur.Depozitlərin 47.6%-i özəl bankların payına düşmüşdür. Şəxsi qısa müddətli depozitlərin 53.5%, uzun müddətli depozitlərin isə 66.5% artması xalqın bank sisteminə inamının artmağa başlaması olaraq dəyərləndirilə bilər. Digər tərəfdən xarici valyutayla qoyulan depozitların həcmi 63.8% artarkən, manatla depozitlərin həcminin 86.6% artması isə yerli pul vahidinə inamın artmağa başlaması şəklində dəyərləndirilə bilər.

Qrafik 12. Kreditlerin həcmi (Milyon Manat)



Mənbə: ARDSK Nəşrləri.

Azərbaycanda 2016-cı ilin əvvəlinə olan statistikaya görə bütün valyuta növləri daxil olmaqla ümumi kredit portfelinin dəyəri 19 milyard 744 milyon manatdır. Xarici valyutada olan kreditlərin cəmi isə 7 milyard 477 milyon dollardır.

2009-cü ildə depozit faiz nisbətləri sabit qalmışdır. Manatla depozitların ortalama faiz nisbəti 2009-cü ilin sonunda bir əvvəlki ilə nisbətlə 6.5%-dən 6.73%-ə yüksələrkən, xarici valyutayla qoyulan depozitlər üçün orta faiz nisbəti 10.08%-dən 9.43%-ə düşmüşdür. Fəqət 2015-ci ildəki iki develvasiya bu tendensiyanı dəyişməsinə səbəb oldu. Belə ki 2016-cı ilin əvvəllərinə Azərbaycan vətəndaşlarının banklarda olan təxminə on milard dollar həcmində olan əmanətlərinin 80% çoxu xarici valyutayla, xususiylə də Amerika dollarıyladır. Buna manatın ucuzlaşması və bu prosesin nə qədər davam edəcəyinin bilinməməsidir.

Xarici Kredit Təşkilatları

Xarici kredit təşkilatlarının sayı isə 2001-ci ilin əvvəlində 99 ikən 2002-ci ilin əvvəlində 63-ə, 2009-cü ilin əvvəlində isə 45-yə düşmüşdür. Bank xarici kredit təşkilatı sayı 2009-ci ilin əvvəlində isə 70-ə yüksəlmişdir. Xarici bank kredit təşkilatlarının 25 şöbəsi fəaliyyət göstərir.

Xarici bank kredit təşkilatlarının inkişafı ilə əlaqədar bəzi problemlər mövcud olmuşdur. İlk olaraq təşkilati tənzimləmələrin kifayət etməməsidir. Bundan əlavə kiçik həcmli kredit verilməsi də hələ Azərbaycanda tam olaraq anlaşılmamışdır. Bu təşkilatların 100-1000 dollar arası verdikləri kreditlər, keçid prosesi ilə əlaqədar müvəqqəti bir hal kimi alqılanaraq, insani yardım kimi dəyərləndirilir. Əslində kiçik həcmli kreditlərin verilməsi, bank sektorunun bu sahədə təsirli olaraq olmaması və həyat səviyyəsinin aşağı olması səbəbi ilə, Azərbaycanda kiçik həcmli sahibkarlığın inkişafı baxımından əhəmiyyət kəsb edir. Bir başqa problem də bu təşkilatlar tərəfindən verilən qısa müddətli kreditlərin, iqtisadi inkişafda bir məna ifadə etmədiyi şəklində dəyərləndirmənin edilməsidir[115].

Azərbaycanda "ACDI/VOCA", "ADRA", "FINCA", "NNE", "NRC", "MC", "OXFAM", "IOM", "SCF" və "WVI" kimi müxtəlif beynəlxalq kredit təşkilatı fəaliyyət göstərir.

Ölkədə mikro kredit vermək məqsədiylə 15 bank xarici kredit təşkilatı ölkədə fəaliyyət göstərir. Azərbaycan Mikro-Maliyyə Birliyi (AMMA) 2001-ci ildə dekabr ayında 8 mikro-maliyyə təşkilatı tərəfindən qurulmuşdur[116]. 2004-cü ilin sonu etibariylə rəsmi olaraq qeydə alınan Azərbaycan Mikro-Maliyyə Birliyi tərkibində beynəlxalq təşkilatın yaratdığı kredit təşkilatları, Azərbaycan

[115] S. Eyyuboğlu, "Qeyri-Bank Kredit Təşkilatları Bazarda Hökümranlıq Edir", *525-ci Qəzet*, 04.01.2003.
[116] 'Entrepreneurs to Get Loans up to $1m', *Azernews*, No:10(400), March 8 – March 15, 2005, s.3.

Mikro-Maliyyə Bankı, Alman-Azərbaycan Fondu və bank xarici digər kredit təşkilatları mövcuddur.

Ölkədə fəaliyyət göstərən mikro-maliyyə təşkilatları 54 fərqli regionda, 47 min kiçik və orta həcmli sahibkara (40%-i qadın) bəzi layihələrin maliyyələşdirilməsi məqsədiylə kiçik həcmli mikro-kredit verdi. Verilən hər bir kredit miqdarı 100 dollar ilə 1 000 000 dollar arasında dəyişir. Bu təşkilatlar iş adamlarına 2004-cü ilin sonu etibariylə, 517 milyon 787 min dollardan çox kiçik həcmli kredit vermişdir[117]. 2015-ci ilin sonunda bu rəqəmin 600 milyon dolları aşacağı hesaplanmışdır.

Mikro-Maliyyə ölkədə yoxsulluğun azaldılması üçün ən uyğun yollardan biri olaraq görülür. Mikro kredit verilməsi üçün Azerbacanda geniş bir potensial və böyük fürsətlər var.

Mikro kredit verən təşkilatlardan biri də Azərbaycan Mikro-Maliyyə Bankıdır.

Azərbaycan Mikro-Maliyyə Bankı (Yeni adı ACCESBANK), 2002-ci ilin oktyabrında beynəlxalq anonim şirkətlər qrubu (AYİB, BMK, Qaradəniz Ticarət və İnkişaf Bankı, LSF Maliyyə Sistemləri) (AMMB Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidən Qurma və İnkişaf Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı, "Kredittanstalt fur Wiesderaufbau (KfW)" və "LFS Maliyyə Sistemləri") tərəfindən qurulmuşdur. AMMB, Aİ-nin texniki dəstək proqramı və Almaniya dövləti tərəfindən dəstəklənir.

AMMB, pərakəndə bazarda mikro və kiçik həcmli kreditlərin verilməsinə 2003-cü ilin sentyabr ayında başladı. Ümumi miqdarı 1 milyon ABŞ dollarından çox olan 170 kredit verildi. Bank 2003-cü il boyunca kredit portfelini artırmağa müvəffəq oldu. 2003-cü ildən bank 7.3 milyon ABŞ dolları miqdarında 3.500-dən çox kredit verdi.

Mikro-Maliyyə Bankı fəaliyyətə başladığı tarixdən 2015-ci ilin aprel ayına qədər 123 milyon dollar dəyərində təqribən 30 min mikro-kredit təhsis etmişdir. 100-125000 dollar arasında verilən kreditlərin illik faiz nisbətləri 18-36% arasında dəyişir[118].

Digər tərəfdən Sahibkarlığa Milli Yardım Fondunun kreditləri 19 təmsilçi bank və 5 digər kredit təşkilatı vasitəsiylə verilir. Aparılan son tənzimləmələrlə fond tərəfindən verilən hər bir kreditnin limiti 500.000 dollardan bir milyon dollara yüksəldilmişdir. Digər tərəfdən faiz nisbəti 7% olan kreditin müddəti isə 5 ildən 8 ilə yüksəldilmişdir. Banklar tərəfindən fondun qaynakları hesabına 63 milyon manat kredit verildi. 2004-cü ildə olduğu kimi 2005-ci ildə də fond vasitəsi ilə 200 milyon manat(40 milyon dollar) büdcə qaynağı sahibkarlara kredit verilməsi büdcədə diqqətə alınmışdır[119].

---

[117] Rəşad Süleymanov, "Azərbaycan Mikro Maliyyə Assosiasiyası Daşınmaz Əmlakın Təmirinə də Kredit Verir", *525-ci Qəzet*, No:43 (1900), 5 Mart 2005.

[118] "Mikromaliyyələşdirmə Bankı On Mininci Kreditini Verdi", *525-ci Qəzet,* No:57 (1914), 29 Mart 2005.

[119] 'Entrepreneurs to Get Loans up to $1m', *Azernews*, No:10(400), March 8 – March 15, 2005, s.3.

Bank Sektorundakı Problemlər

Azərbaycanda maliyyə sektoru struktur etibariylə hələlik çox güclü deyil. Azərbaycanda insanlar ticarətə daha meyllidirlər. Ancaq, bunun üçün lazımi maddi ehtiyatlara sahib deyildir. Ölkədə daha əvvəl baş verən "banker faciələri" səbəbiylə xalqın banklara olan inamı qalmamışdır. Bu səbəblə də maddi ehtiyatı olanlar bunu bank xarici yollarla dəyərləndirirlər. Bir qisim insanlar bankların kredit vermə vəzifəsini də öhdəsinə götürmüşdür.

Bank sektorunda ortaya çıxan problemlərin əvvəlində likviditlik probleminin olduğu görülür.

Sektorda həddindən çox ticari bank var və əsasən, tək şöbəli struktural xüsusiyyətə sahib bu banklar, məhdud həcmdə sərmayə ehtiyatlarına sahibdirlər.

Maliyyə sektoruna dair islahat işləri isə çox yavaş irəliləyir. Xüsusilə, iqtisadiyyatda böyük üstünlüyü olan yerli dövlət bankları özəlləşdirmə tərkibinə alınmış və özəlləşdirmə işləri davam edir. Azərbaycan öz bank sistemini yaratma barəsində irəliləyərkən, dövlət banklarında da yeniden formalaşdırılmaga dair işlər görülmüşdür. Sovet dövründən qalan başlıca dörd bankdan üçünün birləşdirilməsinə ancaq 2000-ci ilin iyun ayında başlana bilmişdir.

Bank Sektorunda İslahatlar

Dövlət banklarında aparılan islahatlar; idarə etmənin inkişafı, yeni xidmətlərin və bazarların inkişafı, bankların təşkili inkişafı məqsədiylə Dünya Bankı'nın SAC proqramına görə aparılır[120].

16 fevral 2001-ci ildə Milli Bank, banklar tərəfindən aparılan milli ödəmələrinin daha sürətli şəkildə və online sistemində aparıla bilməsini təmin etmək üçün AZIPS sistemini qurmuşdur[121]. Bu sistem beynəlxalq standartlara cavab verəcək şəkildə SWIFT əsasında qurulmuşdur.

Bank sektorundakı əksikliklərin aradan qaldırılması məqsədiylə, hökümət 1999-cu ildə Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun nəzarəti ilə islahat proqramları hazırlamışdır. Strategiyanın əsas məqsədləri hökümətə bağlı bankların yenidən təşkil edilməsi və özəlləşdirilməsi, özəl bankların birləşməsi, Azərbaycan Milli Bankının tənzimləyici, nəzarət edici xüsusiyyətinin artırılması və təftiş, muhasibat da daxil olmaqla sağlam, təsirli və rəqabətə əsaslanan texniki, inkişaf edən infrastruktur yaradıla bilməsidir.

2002-ci ildə Milli Bank, sisteminin gücləndirilməsi üçün kiçik və orta həcmli müəssisələrə maddi köməkliyin artırılmasına dair bank islahatlarına davam etmişdir. Dövlət banklarının özəl sektora təhvili üçün mühüm işlər görülmüşdür. Rəqabətin artması məqsədi ilə xarici sərmayənin bank sektoruna təşviq prosesi daha da asanlaşdırılmışdır. Bank sektorunun inkişafı üçün bu

[120] *İllik Hesabat*, Azərbaycan Respublikası Milli Bankı, 2000.
[121] "Banki i Biznes", *Zerkalo Qəzeti*, 28 Fevral 2001.

sahədə infrastruktur fəaliyyətlərinə sürət verilmişdir. Bank ilə əlaqədar yeni qanunlar hazırlanmağa başlanmışdır.

Azərbaycanda bank sisteminin inkişafına əlverişli şərtləri yaratmaq, bu sektora nümunəvi iş təcrübəsini və texnologiyanı çəkmək, beləcə qoyulan investisiyaları sürətləndirmək məqsədiylə Azərbaycan Beynəlxalq Bankının quruluş sərmayəsinin 20%-nin Avropa İnkişaf Bankına satılması planlaşdırılmışdır.

Azərbaycanın bank bazarında nəğdsiz ödəmələrə keçid prosesi getdikcə sürətlənir. Nəğdsiz ödəmələrə keçidin dünya təcrübəsi; xalqın maliyyə qaynaqlarının banklara çəkilməsi ölkədəki iqtisadi vəziyyəti keyfiyyət baxımından yaxşılaşdırdığını və bunun da, xalqın sosial həyat standartlarını yüksəltdiyini göstərir.

Bank sistemində 2005-ci ilin yanvar ayından etibarən Azərbaycanda "İnternet Bankçılığı" və "Mobil Bank"" ödəmə sistemləri tatbiq olunmağa başlandı. Bu fəaliyyətlər Dünya Bankının (DB) və Beynəlxalq Valyuta Fondunun (BVF) məsləhətlərinə əsasən həyata keçirilmişdir.

2015-ci ilin yanvar ayından Azərbaycanda Bankların Nizamnamə kapıtalının minimum həcmi on dəfə artırılaraq 50 milyon manat olmuş və buna görə bir neçə bank bağlansa da eyni zamanda bank sistemi daha da guclənmişdir. Eyni zamanda 2016 cı ilin yanvar ayından əmanətlərin sığortalanması sistemi daha da təkmilləşdirilməsi bu sektora inamı artırmışdır.

Bugün Azərbaycanın bank bazarında müştərilərə xidmət imkanları genişlədilir və onların tələblərinə maksimum dərəcədə uyumlu dünya standartlarında xidmətlər təqdim edilir.

Ölkədə bank sektorunun inkişafı və beləcə xalqın banklara olan inamını yenidən təmin etmək üçün depozit sığorta fondu yaradılmalı və depozitlərin sığortalanması haqqında qanun qəbul edilməlidir. Depozit sığorta fondunun yaradılması səbəbiylə ortaya çıxa biləcək problemlər üçün də Mərkəzi Bankın, bankları maliyyə hesablarını həqiqətə uyğun göstərmələri üçün siyasət təqib etməlidir.

Bank sektorunda infrastruktur işləri, ödəmə sistemi, muhasibat sistemi, bank nəzarəti və hüquqi infrastruktur kimi işlər də davam edəcəkdir. Bank sektorunun inkişafı isə özəl sektor baxımından, xüsusilə asan kredit tapmaq imkanları əldə etməsinə imkan verəcəkdir[122].

3.3.4.2. Sığorta

Sovet İttifaqı dağıldıqdan sonra ilk dövrlərdə görülən işlərdən biri də əvvəlki sistemdə mövcud olan Dövlət Sığorta Təşkilatının Azərbaycandakı təşkilatı olan Azərbaycan Dövlət Sığorta Şirkətinin yenidən təşkilatlanması olmuşdur.

[122] "Azərbaycan Respublikası Milli Bankının 2003-cü il Üçün Pul-Kredit Siyasətinin Başlıca İstiqamətleri Barədə Bəyanatı", http://www.nba.az/az/analitic/bayanat2003-10.shtml, (18.04.2003).

20 sentyabr 1991-ci il tarixində "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya (Ticarət) Şirkəti"nin qurulması haqqında fərman çıxarıldı. Bu fərmana əsasən, Dövlət Sığorta Kommersiya Şirkəti müstəqil, Maliyyə Nazirliyinin nəzarətindən sərbəst, öz şərtlərinə görə işləyə bilən, öz-özünü maliyyələşdirən bir şirkət olaraq 22 nopyabr 1991-ci ildə nizamnaməsi təsdiq olunaraq fəaliyyətə başladı. 24 yanvar 1994-cü il tarixində şirkətin nizamnaməsi Nazirlər Kabineti tərəfindən dəyişdirildi və qüvvəyə mindi. Xüsusilə, 2000-2008-ci illər ərzində, standart işlər üçün sığorta sektorunun hüquqi infrastrukturu yaradılmağa çalışılmışdır.

«Sığorta haqqında» AR Qanununa əsasən sığorta iкi əsas sahədən: həyat və qeyri-həyat sığortası sahələrindən ibarətdir. Sığortaçılar bu sahələrdən biri və ya hər ikisi üzrə fəaliyyət göstərə bilərlər.

Həyat sığortası–sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa yaxud əlilliyə görə tamamilə və ya qismən itirilməsi halları üçün aparılan sığortadır. Həyat sığortası üzrə müqavilə müddəti bitdiкdə və ya sığorta hadisəsi baş verdiкdə sığorta məbləği sığorta müqaviləsində müəyyən edilmiş qaydada və şərtlərlə sığortaçıya və ya onun varisinə ödənilir. Həyat sığortası müqavilələri uzun müddətə bağlanılır və bu müddətdə yaranmış inflyasiya sığortalıya təminatın verilməsinə maneçiliк yarada bilər. Bu baxımdan sığorta şirкəti öz fəaliyyətini elə qurmalıdır кi, sığorta müqavilələri üzrə qəbul etdiyi öhdəliкləri müqavilə ilə müəyyən olunmuş şərtlər çərçivəsində həyata кeçirə bilsin.

Qeyri-həyat sığortası - sığorta hadisəsi baş verdiyi zaman sığortaçıya vurulan zərər ödənilməкlə onun məsuliyyəti, əmlaкı və əmlaк mənafeləri ilə bağlı risкlərin sığortasıdır. Həyat və qeyri-həyat sığortasının aparılma qaydası və şərtləri qanunvericiliyə uyğun olaraq sığortaçı və sığortalı arasında bağlanan müqaviləyə əsasən müəyyən olunur.

Sığortanın növləri könüllü və icbari formada həyata keçirilir. ***Könüllü sığorta*** - sığortaçı ilə sığortalı arasında bağlanan müqavilə əsasında müəyyən olunur. Könüllü sığortanın aparılması qaydası "Sığorta haqqında" Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunur. Sığortanın şərtləri sığorta bağlanan zaman müəyyən olunur.

İcbari sığorta -vətəndaşların sosial maraqlarının və dövlət maraqlarının təmin edilməsi məqsədilə icbari sığorta qanunları əsasında həyata keçirilir. İcbari sığortanın növləri,həyata keçirilmə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunları əsasında müəyyən olunur. Respublikamızda hazırda icbari formada 8 sığorta həyata keçirilir. Dövlət qulluqçularında müəyyən kateqoriyaların, həyatın, sağlamlığın və əmlakın sığortalanması nəzərdə tutula bilər.

Sosial sığortanın formalarından biri də tibbi sığortadır. Tibbi sığorta müəyyən səbəblər üzündən sağlamlığın itirilməsi hallarında əhalinin maraqlarının sosial müdafiəsi formasıdır. Tibbi sığorta vətəndaşların tibbi xərclərinin kom-

pensasiya edilməsilə əlaqədardır ki, bu da tibbi yardımın alınması formasında həyata keçirilir. Tibbi sığortanın məcburi və könüllü formaları mövcuddur. Məcburi tibbi sığorta sahibkar tərəfindən ödənilir. Həmin fondun vəsaitlərindən bu və ya digər səbəbdən, o cümlədən xəstəlikdən öz sağlamlığını itirməsi ilə əlaqədar olaraq əmək qabiliyyəti olmayan sığortalanmış fəhlə və qulluqçuların müalicəsinə müəyyən həcmdə xərclərə yönəldilir. Könüllü tibbi sığorta zamanı vəsaitlər əməkçilərin vəsaitləri hesabına ödənilir və çox yüksək səviyyədə tibbi yardımın ödənilməsi təmin edilir. Sosial sığorta Azərbaycanda dövlətin sosial sahədəki siyasətinin ayrılmaz tərkib hissəsi sayılır. Ölkədə sosial sığorta bütünlüklə dövlətin əlində cəmləşib. Bu məqsədlə əhalinin sosial müdafiə fondu yaradılıb. Sözügedən fond əsasən büdcədən və müəssisə və təşkilatların əmək-haqqı fondundan ayırmalar hesabına fəaliyyət göstərir. İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda sosial sığortada müvafiq sığorta fondlarının yaradılması və istifadəsində həmkarlar ittifaqlarının, digər ictimai təşkilatların fəal rol oynaması vacib sayılmır.

Azərbaycan Respublikasında sosial sığortanın prinsiplərinə aşağıdakılar daxildir:

- sosial sığortanın dövlət təminatı;
- sosial sığortanın ümumiliyi;
- sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi;
- sosial sığorta subyektlərinin hüquq bərabərliyi;
- dövlət sosial sığortasının məcburiliyi;
- məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması. Sosial sığorta hadisəsinə aşağıdakılar aiddir:
- pensiya yaşı;
- əlillik;
- ailə başçısının itirilməsi;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsi;
- uşağın anadan olması və uşağa qulluq

2005-ci ildə ölkə sığorta bazarında təklif olunan və istifadə olunan məhsulların sayı 15-ə yaxın idisə, 2013-cü ildə bu göstərici 30-a yaxın, 2014-cü ildə isə aktiv satılan məhsulların sayı 35 olub. Hazırda sığorta şirkətlərinin xidmət paketinə 40-a yaxın sığorta növü daxildir. Bununla belə, Azərbaycanda təklif olunan sığorta xidmətləri inkişaf etmiş ölkələrlə müqayisədə azlıq təşkil edir. Çünki son illər dünyada sığorta elementlərinin tətbiqi mülkiyyətin bütün formalarını, ailə münasibətlərini əhatə edərək sığorta ilə maraqlananlar arasında xeyli genişlənib. İnkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda sığorta məhsullarının çeşidinin az olması sığorta istehlakçıları üçün bu məhsulların cəlbediciliyini azaldıb.

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası qanunu Azərbaycan prezidenti İlham Əliyev 2011-ci il 17 sentyabrda fərman imzalayıb. Qanun icbari sığortanın dörd növünü –daşınmaz əmlakı, avtonəqliyyat vasitələri sahiblərinin məsuliyyətini, sərnişinlərin sığortalanmasını, daşınmaz əmlakın istismarı zamanı vətəndaş məsuliyyətinin sığortalanmasını tənzimləyir. Azərbaycanda daha əvvəl əmlak sığortası könüllü olub. Daşınmaz əmlakın icbari sığortasının əhatə dairəsi kifayət qədər genişdir. Qanun bütövlükdə hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının icbari sığortasını tələb edir. Sənəddə vətəndaşların şəxsi mənzilləri, dövlət əmlakı yanğın, qaz partlayışı, elektrik naqillərindəki qısa qapanma, su, istilik, kanalizasiya qəzaları zamanı subasma, yerüstü nəqliyyat vasitələrinin vurduğu ziyan, üçüncü şəxslərin qəsddən etdiyi hərəkətlər nəticəsində baş verən hadisələrdən icbari sığorta nəzərdə tutulur.

Dövlət Sığorta Kommersiya Şirkəti təkrar sığorta sahəsində "LLOYD" (İngiltərə) sığorta şirkətləri qrupunun "SEDJWICK", "WILLS FABER & DUMAS" sığorta broker qrupları, "MUNHEN RE" (Almaniya) Təkrar Sığorta Şirkəti, "Asia" (İran) Şirkəti və "Lukoil" (Rusiya) sığorta A. Ş. ilə müttəfiqlik içindədir.

Ölkədə sığorta sektorunun inkişafı məqsədiylə atılmalı ikinci addım isə, sektorda monopoliyaya son qoymaqdır. Bu məqsəd istiqamətində qısa bir müddət sonra Dövlət Sığorta Şirkətinə rəqib xüsusiyyətdə təsirli işləyən şirkətlər sığorta şirkətləri sektorda özlərini göstərməyə başladı.

Sığorta şirkətləri 1992-ci ci ildən etibarən xarici müttəfiqlərlə birlikdə, 1995-ci ildən etibarən isə yerli sərmayəli olaraq qurulmağa başlandı.

2016-ci ilin əvvəli etibariylə ölkədə 28 sığorta şirkəti mövcud olmuşdur. Bunların 22-si milli və 7-si isə xarici sərmayəli (İngiltərə, Türkiyə, Rusiya, İran, ABŞ, İtaliya) müştərək sığorta şirkətidir[123]. Respublikada fəaliyyət göstərən 28 sığorta şirkəti tərəfindən 2015-ci ildə 429,0 mln. manat sığorta haqqı toplanmışdır. Sığorta haqlarının Ümumi Daxili Məhsulda payı ildən-ilə artaraq 0,7%, adam başına düşən sığorta haqları 43 manat 36 qəpik olmuşdur .

Sığorta şirkətlərinin quruluş sərmayələrinin cəmi üçündə xarici sərmayənin payı 10.5%-dir. Xarici sığorta şirkətləri Azərbaycanda sığorta sektoruna hər keçən gün daha çox maraq göstərirlər. Ancaq, xarici investorların sığorta sektorunda monopoliyasının qarşısını almaq üçün bəzi məhdudiyyətlər qoyulmuşdur. Məsələn, xarici sərmayədarlar ancaq sığorta sektorunun maksimum 49%-nə sahib ola bilərlər. Bu səbəblə xarici investorlar ölkədə fəaliyyət göstərən sığorta şirkətini satın almaqdansa, onların hissələrinə sahib olmağı üstün tuturlar.

[123] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi-2002, www.azstat.org. (8.4.2003).

2009-ci ilin əvvəli etibariylə ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin nizamnamə sərmayəsinin ümumi həcmi bir əvvəlki ilə görə 46.7% artmışdır. Bu çərçivədə 22 yerli sığorta şirkətinin ümumi nizamnamə sərmayəsi 39.7% artarkən, 7 xarici sərmayəli müştərək sığorta şirkətinin ümumi nizamnamə sərmayəsi 26% artmışdır. Nizamnamə sərmayəsinin 82%-i yerli, 18%-i isə xarici sərmayəli müştərək sığorta şirkətlərinin payına düşür. Sığorta sektorundakı şirkətlərin ümumi sərmayələrinin böyük bir hissəsi 5 fevral 2002-ci ildə qurulan və 1 aprel 2002-ci ildə lisenziya alan Beynəlxalq Sığorta Şirkətinə aiddir.

5 yanvar 1993-cü ildə 436 sayılı "Azərbaycan Respublikası Sığorta Haqqında Qanun" çıxardıldı. Daha sonra bu qanunu dövrün tələblərinə uyğunlaşdırmaq məqsədiylə yeni "Sığorta Qanunu" 25 iyun 1999-cu ildə məclis tərəfindən qəbul edildi və 19 Avqust 1999-cu ildə prezident tərəfindən imzalanaraq qüvvəyə minmişdir. Sığorta ildə sektora dair bu qanunlar xaricində bəzi qanunlar da çıxardılmışdır.

1994-cü ildən başlanan neft müqavilələrinin imzalanması Azərbaycana böyük miqdarda sərmayə girişinə səbəb olmuşdur. Bunun nəticəsi olaraq, sığorta şirkətlərinin böyük bir hissəsi neft sektoruna istiqamətləndirilmişdir.

Azərbaycanda yaşayan xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər, ölkə vətəndaşları və şirkətləri ilə bərabər sığorta haqqına sahibdirlər.

Sığorta sektorunda aparılan islahatlar çərçivəsində, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin quruluş sərmayələri mərhələli olaraq artırılmışdır. 4 may 2000-ci ildə Azərbaycan prezdentinin sığorta haqqında imzaladığı sərəncam səpgisində Nazirlər Kabinetində alınan qərarla sığorta təşkilatları üçün mərhələli olaraq qərarlaşdırılan quruluş sərmayəsi belədir[124]: 01.01.2002-ci il tarixinə qədər 500 milyon manat, 01.07.2002 tarixinə qədər 750 milyon manat, 01.01.2003 tarixinə qədər 1 milyard manat, 01.07.2003 tarixinə qədər 1.5 milyard manat, 01.01.2004 tarixinə qədər 2 milyon manat(404.000$). 2005-ci ilin yanvar ayından etibarən isə hər bir sığorta şirkətinin nizamnamə sərmayəsinin minimum 2.5 milyon manat (510.000$) olmalı olduğuna qərar verilmişdir.

Sərmayələri diqqətə alındıqda sığorta şirkətlərinin çoxunun kiçik və orta həcmli şirkətlər olduğu görülür. Ölkədə sığorta fəaliyyətlerinin 90%-lik həcmini 10 sığorta Şirkəti yerinə gətirirkən, geriyə qalan 10%-lik hissə isə digər sığorta şirkətlərinin payına düşmüşdür.

Sığorta sektorunda xarici sığorta şirkətləri daha çox təsirə sahibdirlər. Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər əsasən öz ölkələrindəki sığorta şirkətlərində sığorta olurlar. Bundan əlavə yerli sığorta şirkətləri də ödəmə qabiliyyətləri zəif olduğu üçün böyük həcmli sığorta müqavilələrini ölkə xaricində təkrar sığorta (reasurans) etdirirlər.

---

[124] "Sığortaların Nizamnamə Kapitalı Artırılır", *Ekspert İqtisad Jurnalı*, No:5-6 (17-18), 2001, s.4.

Sığorta Xidmətləri

Sığorta şirkətləri yerli və xarici şirkətlərə və iş adamlarına müxtəlif sığorta xidmətləri təklif edərək bir çox riski təminat altına alırlar. Sığorta sektorunda 35 fərqli sığorta növü vardır. Bu sığorta növlərindən 9-u icbari, 26-sı isə könüllü sığortadır. Ən geniş yayılan sığorta növləri, qəza, yanğın, səhiyyə, fərdi qəza, yük, avtomobil, maliyyə riski, həyat, mühəndislik, kənd təsərrüfatı və heyvandarlıq sığortasıdır.

Sığorta şirkətlərinin daha çox kiçik həcmli müəssisələrdə cəmləşdikləri görülür. Ancaq, sərbəst bazar sisteminə keçildikdən sonra sığorta sektorunun da inkişaf ilə sığorta xidmətlərinin sayı da hər keçən il artacaqdır. Könüllü sığorta növlərinin, icbari sığorta növlərindən daha çox olması da Azərbaycanda sığorta bazarının inkişafının bir göstəricisidir.

Torpaq sürüşməsi, sel və su daşması kimi fəlakətlər son dövrlərdə Azərbaycanda da baş verir. Azərbaycanda fəaliyyət göstərən müəssisələr və xalq əmlaklarını sığortalamaqla, hər hansı bir təbii fəlakət ya da fərdi müdaxilələr nəticəsində ortaya çıxacaq böyük həcmdəki zərəri qarşılaya bilmək imkanına sahibdirlər[125].

Sığorta Haqqları

Sığorta şirkətlərinin topladıqları sığorta haqqları ildən ilə artır. 2004-cü ildəki ümumi haqqları miqdarı 2003-cü ilə görə 14.5% artaraq 287.3 milyon manat olmuşdur. Yığılan sığorta haqqlarının 92.5%-i könüllü sığorta növlərinə aiddir. Alınan sığorta haqqlarının 91.9%-i yerli sığorta şirkətlərinin payına düşür. Sığorta edilən hadisələr üçün ödənən 70.7 milyon manat isə ümumi sığorta haqqlarının 21.6%-nə müvafiq gəlir.

Azərbaycanda sığorta sektoru hələ inkişaf mərhələsindədir və iqtisadiyyata faydası, digər maliyyə təşkilatlarıyla müqayisədə, çox deyildir. Ölkənin sığorta bazarında mövcud sığorta dövriyyəsi Ümumi Daxili Məhsulun (ÜDM) 1%-dən də azdır[126].

Sığorta Sektorundakı Təməl Problemlər

Sığorta sektorunun inkişafının yavaş seyr etməsində, yerli xalq və müəssisələrin sığorta xidmətlərindən olduqca az faydalanmasının səbəbləri arasında gəlir səviyyəsinin aşağı olması və xalqın sığortanın faydalarını kifayət qədər bilməməsi əhəmiyyət kəsb edir.

Azərbaycanda insanların sığorta sektoruna maraqlarının və inamlarının az olmasının əsas səbəblərindən bir digəri də şirkətlərin məlumatlandırılma və tanıtım fəaliyyətlərinin kifayət etməməsidir.

---

[125] Ələvsət Qocayev, "Azərbaycan İqtisadiyyatında Sığortanın Rolu", *Dialoq Azərbaycan İş Dünyası Dergisi*, Sayı:15, TÜSİAB Cemiyeti, Bakü, Şubat-2004, ss.40-41.

[126] A.Azizova, "Minfin Podvodit İtogi 'Strahovogo' Goda", *Zerkalo Qəzeti,* No. 15(108), Bakı, 2002, ss.16-18.

Ölkənin dinamik inkişafının təməl ünsürlərindən olan sığorta sektorunun inkişafı və sektorun inam verməsi, xarici investisiyaların ölkəyə axınını da artıracaq amillərdən biri olacaqdır.

3.3.4.3. Qiymətli Kağızlar Birjası

Birjanın formalaşması ilə əlaqədar qanuni tənzimləmələr "Qiymətli Kağızlar və Birjalar Haqqında" qanunun qəbul edilməsi ilə başlamışdır. Birjanın inkişafı Azərbaycanda özəlləşdirmə mərhələsinin başlaması ilə daha da vüsət almışdır. 30 dekabr 1998-ci ildə Azərbaycan prezidenti tərəfindən "Azərbaycan Respublikasının Prezidənti Yanında Qiymətli Kağızlar Üzrə Dövlət Komissiyasının Yaradılması" ilə əlaqədar fərman imzalamışdır. Qiymətli Kağızlar Birjası haqqında ən mühim məlumatlar, "Maliyyə Bazarı Haqqında" Milli Depozit Sistemi haqqında Azərbaycan Respublikası Qanununun 2-ci fəslinin 3-cü maddəsində öz əksini tapmışdır. Qanunun əlaqədar maddəsində Qiymətli Kağızlar Birjası ilə əlaqədar dövlət tənzimləməsi haqqında məlumat verilərək, iştirakların nə şəkildə və kimlər tərəfindən həyata keçiriləcəyi açıqlanır. 1998-ci ildən etibarən Qiymətli Kağızlar bazarının qurulmasına xüsusi diqqət göstərilir. Qiymətli Kağızlar bazarının fəaliyyət prinsipləri isə "dövlət qısa müddətli istiqrazlarının emisiyası haqqında" qanuna əsasən müəyyənləşmişdir.

18 şirkət tərəfindən qurulan Bakı Qiymətli Kağızlar Birjası faktiki olaraq 15 fevral 2000-ci il tarixində qurulmuş və rəsmi açılışı 2004-cü ildə reallaşmışdı. 30 işçidən ibarət ticari salona sahib olan birja, texniki təhcizat baxımından, hər cür qiymətli kağızın ticari fəaliyyət görməsi üçün əlverişlidir. Birja, Avropa Qiymətli Kağızlar Birjası, İstanbul Qiymətli Kağızlar Birjası, Fessaloniki Qiymətli Kağızlar Birjası, INISIT, İnterfaks, Azərbaycan Milli Bankı, Azərbaycan Beynəlxalq Bankı və Azərbaycan İnvestisiyaların Təşviqi və Məsləhət Fondu ilə əməkdaşlıq edir[127].

Birjada ilk illərdə dövlət tərəfindən ixrac edilən daşınan qiymətlərin fəaliyyət görməsinə baxmayaraq, daha sonrakı illərdə kooperativ və anonim şirkətlərə aid Qiymətli Kağızlar da fəaliyyət görməyə başlamışdır.

Ölkədə Qiymətli Kağızlar bazarının bütün mənası ilə formalaşdığını və müəyyən bir fəaliyyət həcminə nail olduğunu demək hələlik tezdir. Xüsusiylə, maliyyə hərəkətlərinin məhdud olması, iqtisadiyyatda yaşanan problemlər və maliyyə bazarlara inamsızlıq, informasiya qıtlığı, birjanın inkişafını əhəmiyyətli dərəcədə əngəlləyir. Gələcəkdə neft sektoruna investisiya yatıran xarici şirkətlərin öz daşınan qiymətlərini bazara çıxarmaları proqnozlaşdırılır ki, bunlarla əlaqədar vacib olan hüquqi tənzimləmələr də həyata keçirilmişdir.

Qiymətli Kağızlar bazarının inkişafı üçün, həcmləri az da olsa, repo və tərs-repo fəaliyyətlərinin görülməsi isə mühüm bir addımdır.

---

[127] Geniş məlumat üçün bax: www.bse.az.

Korporativ sənədlər bazarları da hələlik formalaşmamışdır. Yerli firmaların olduğu kimi Azərbaycan hökümətinin də Beynəlxalq təhvil bazarlarında hər hansı bir fəaliyyətinə hələlik şahid olunmamışdır. Özəlləşdirmə mərhələsinin sürətlənməsiylə istiqraz bazarının da inkişaf edəcəyi proqnozlaşdırılır.

Azərbaycan qiymətli kağızlar bazarının başqa problemi isə bazarın xarici şirkətlər üçün diqqət çəkici olmamasıdır. Bunun əsas səbəblərindən biri bazarda istifadə olunan daşınan dəyərlərin miqdarının çox az olmasıdır. Xarici investorlar belə bir qiymətli kağızlar bazarına investisiya qoymaq istəmir. Çünki xarici investorlar inkişaf etməkdə olan ölkələrin Maliyyə Bazarına milli pul vahidi ilə 4-5% nisbətində faiz gəliri əldə etmək üçün girməyi sərfəli görmürlər.

Qiymətli Kağızlar Birjasının Nizamnamə Kapitalının artırma məqsədi ilə yeni investorlarla əlaqələrin qurulmasına çalışılır. Təşkilat fəaliyyətlərinin başladığı gündən 2005-ci ilə qədər, ölkədə qiymətli kağızlar bazarının strukturu formalaşmağa çalışılmışdır. Bu struktur Qiymətli Kağızlar Birjasını, kreditt təşkilatlarını və broker şirkətlərini əhatə edir.

Son illərdə ölkədə daşınan qiymətlərin tədavül həcminin artması və yeni daşınan dəyərlərin inkişafı müşahidə edilir. 2003-cü ildə tədavüldə olan əsas daşınan qiymətlər, dövlət istiqrazları və hissə sənədləri olmuşdur. Daşınan qiymətlərin ən mütəşəkkil sektorlarından birini şirkət bonoları təşkil edir.

2004-cü ilin əvvəllərində Azərbaycanda ilk bank istiqrazları da tədavülə çıxarılmışdır.

Yeni maliyyə sənədlərdən biri də Milli Bankın qısa müddətli notlarıdır. Bəhs edilən qiymətli kağızın maliyyə bazarına 2004-cü ilin sentyabrında daxil olmuşdur. "Not" olaraq adlandırılan bu daşınan qiymət hər cür pul tələbini qarşılayacaqdır. Notların tədavülü, ölkədə pula olan tələbin artması ilə izah edilir. Milli Bank, əlavə pul kütləsinin tədavülə çıxarılmasının inflyasiyaya səbəb olacağını nəzərdə tutaraq, bu daşınan qiymət növünə üstünlük verir. İstehlakçıların pula olan tələbi artdıqca, onlar notlardan istifadəyə üstünlük verəcəklərdir.

Bu cür təcrübə dünyanın bir çox ölkələrində vardır. Məqsəd tədavülə yeni maliyyə kağızını çıxarmaqla həm pula olan ehtiyacı qarşılamaq, həm də inflyasiya prosesinin qarşısını almaqdır. Yeni notlar ölkədə fəaliyət göstərən lisenziyası olan 40 kommersiya banklarının istifadəsinə verilmişdir.

Azərbaycanda Qiymətli Kağızlar bazarının inkişafının birinci mərhələsi qiymətli kağızlar bazarının formalaşdırılmasıdır. Bu prosesdə əsas olaraq Azərbaycandakı invəstorların kapital portfelinə diqqət edilməlidir. Bunun üçün də əvvəlcə iri müəsisələrin özəlləşdirilməsi zəruridir. Çünki, böyük investorlar xırda həcmli müəsisələrə ciddi əhəmiyyət vərməməkdədirlər. İkinci olaraq isə bazarda şəffaflığa nail olunması zəruridir.

2011-ci ildə Qiymətli Kağızlar Bazarının İnkişafı üzrə Dövlət Proqramı qəbul edildikdən sonra son bir neçə il ərzində dövlət və QKDK kapital bazarının bütün əsas aspektlərində islahatların aparılması üzrə ardıcıl tədbirlər

həyata keçirilir və nəticə olaraq, 2014-cü ildən artıq kifayət qədər ciddi keyfiyyət dəyişikliklər olmuşdur.

2015- ci ildə Mal-xammal derivativlər və xarici valyutada derivativlər üzrə əməliyyatların həcmi 6 milyard manata çatıb ki, bu da qiymətli kağızlar bazarında əqdlərin ümumi həcminin üçdə birini təşkil edir. 2015-ci ildə təkrar bazarda likvidliyin təminatı və birja ticarətində rəqabətli qiymət müəyyənləşdirmə mexanizmlərini işə salınmışdır. Azərbaycanda kapital bazarı institutlarının mövcud olduğu 15 il ərzində struktur dəyişiklikləri bazar institutları və kapital bazarları həmin isntitutların maliyyə dayanıqlığını təmin edən dəyərləri yenidən hasil edir. 2014-cü ilədək Bakı Fond Birjası kimi institutların və depozitar, klirinq hesablama institutlarının əsas gəlirləri dövlət qiymətli kağızlarla əməliyyatlar, o cümlədən klassik təsnifatda kapital deyil, pul bazarının alətləri olan Azərbaycan Mərkəzi Bankının notları ilə repo və əks repo əməliyyatlar hesabına yığılmışdır. BFB, depozitar mərkəz və digər əsas maliyyə vasitəçilərinin gəlirlərinin üçdə ikisinə qədəri əsasən dövlət alətləri hesabına formalaşmışdır. 2014-cü ildən başlayaraq özəl korporativ sektorun əməliyyatları dominantlıq etməyə başlamış və qiymətli kağızlar bazarında əməliyyatların üçdə ikisinə çatmışdır. Kapital bazarları özəl sahibkarlığın və bazar iqtisadiyyatının elementi kimi bu institutların maliyyə dayanıqlığını və sabit fəaliyyət göstərməsini təmin edən dəyərləri yenidən hasil etməyə başlanmışdır.

3.3.5. Nəqliyyat və rabitə

Nəqliyyat və rabitə sektoru ÜDM-də 7 % həcmində bir paya sahibdir.

2015 cü ildə nəqliyyat xidmətlərinin həcmi bir öncəki ilə nisbətdə 1.6 % azalsa da, rabitə xidmətləri 4,4% artım göstərmişdir. Türkmənistan və Qazaxıstandan daşınan neftin bir hissəsinin İran və Rusiya ərazisindən nəql edilməsi, Azərbaycan ərazisindən tranzit yük daşıma həcminə mənfi təsir göstərir.

Qrafik 13. ÜDM-də Nəqliyyat və Rabitə Sektorunun Yeri (%)



Mənbə: ARDSK Nəşrləri.

2008-ci ildə daşınan yükün 56.5% kimi mühüm bir hissəsi avtomobil yolları ilə daşınmışdır. Yüklərin 15.4%-i boru kəməri, 17.8%-i dəmir yolu, və 11.2%-i dəniz yolu ilə daşınmışdır. Daşınan yüklərin 57.8%-i, sərnişinlərin isə 84.7%-i özəl sektora aid nəqliyyat vasitələri vasitəsi ilə həyata keçirilir. 2015-ci ildə daşınan yükün 57.9% kimi mühüm bir hissəsi avtomobil yolları ilə daşınmışdır. Yüklərin 27.7%-i boru kəməri, 9.8%-i dəmir yolu və 4,5%-i dəniz yolu ilə daşınmışdır. Rabitə xidmətlərinin həcmində də özəl sektorun payı hər ötən il artmışdır. Nəhayət özəl sektorun payı 2009-cu ildə 71.3% olmuşdur. Rabitə xidmətlərinin 74.2%-i isə bilavasitə özəl sektor vasitəsi ilə həyata keçirilmişdir. Növbəti illərdə də rabitə xidmətlərinin həcmində özəl sektorun payı artmaqda davam etmişdir.

Azərbaycanın açıq dənizlərə çıxışının olmaması və avtomobil yollarının dünya standartlarına cavab vərməməsi ən əsas problemlərdəndir.

Rabitə sektorü isə dünya ilə inteqrasiya prosesində sürətlə inkişaf edir.

Aşağıda dəniz, hava, avtomobil yolu, dəmir yolu, boru kəməri xətti nəqliyyatı və rabitə ayrı ayrı tədqiq ediləcəkdir.

3.3.5.1. Dəniz Nəqliyyatı

Azərbaycan, dəniz nəqliyyatı baxımından regionda keçid ölkəsi olmaq kimi əhəmiyyətli bir potensiala sahibdir. Xəzər dənizində yüz kilometrlərlə bir sahil zolağı olmasına baxmayaraq, ölkədə sadəcə biri böyük olmaqla cəmi 15 liman mövcuddur. Ölkənin ən böyük limanı Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır.

Azərbaycanda dəmir yolları olmadığı vaxtlarda dəniz vasitəsiylə nəqliyyat böyük rol oynamışdır. Azərbaycan və Xəzaryanı dövlətlər arasında birbaşa və mütəmadi olaraq dəniz səfərləri həyata keçirilmişdi. Xəzər dənizi vasitəsiylə İran, Türkmənistan, Dağıstan, Qazaxıstan və Rusiya ilə əlaqələr qurulmuşdur[128].

Bakıdakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın lojistik infrastrukturunun stratejik bir hissəsi olaraq görünməklə yanaşı, Orta Asiyadan qərb bazarlarına mineral xammallar və başqa məhsulların daşınmasında bir lojistik koridor olaraq geostrateji bir nöqtədədir. Bakı limanı həm dərindir, həm də heç bir zaman donmur**.** Liman, sərnişin nəqliyyatı üçün isə çox əlvərişli deyildir.

İnfrastrukturu dünya inteqrasiyasına əlvərişli xüsusiyyətdə olmayan Azərbaycanda dəniz nəqliyyatı da köhnə və əlverişsiz vəziyyətdədir. Ümumiyyətlə, nəqliyyat sektorundakı tənəzzülün əsas səbəbi, sektorun köhnə Sovet İttifaqı respublikaları ilə olan bağlılıqlardan ortaya çıxmışdır.

Nəqliyyat sektorundan istifadə etməkdə cəmi sərnişin sayının dəniz nəqliyyat payının illər etibariylə tənəzzül olduğu görülür. 1990-cı ildə 500.000 sərnişinin dəniz nəqliyyatından istifadə etməsinə baxmayaraq, bu miqdar 1991-ci

[128] Vəlili, ss.184-185.

ildə 400.000, 1992 və 1993-cü illərdə 100.000, 1994-cü ildə 60.000, 1996-cı ildə 39.000 və 1997-ci ildə bu rəqəm 43.000 olmuşdur[129]. 2002-ci ilə qədər hər il azalan dəniz yolu ilə sərnişin nəqliyyatı, 17-ci cədvəldən də görüldüyü kimi, 2002-ci ildə bir əvvəlki ilə görə 27.3% artmışdır. 2003-cü ildə yenidən azalan dəniz yolu ilə sərnişin nəqliyyatında 2004-cü ildə 46.3% kimi əhəmiyyətli dərəcədə artım yaşanmışdır. 2015-ci ildə isə dəniz yolu ilə sərnişin nəqliyyatında 2014-cü ilə nisbətdə 25% irəliləyiş qeydə alınmışdır.

Cədvəl 17. Dəniz Nəqliyyatı

İllər	Yük Daşıması (min ton)	Yük Daşıması Artım Nisbəti(%)	Sərnişin Daşıması (min nəfər)	Sərnişin Daşıması Artım Nisbəti(%)
1995	5713	-13	60	-7.7
1998	8178	9.0	20	-53.5
1999	7382	-9.7	14	-30.5
2000	8779	18.9	12	-15.1
2001	10247	16.7	11	-8.3
2002	11381	11.1	14	27.3
2003	13272	16.6	13	-7.1
2004	13208	-0.48	19	46.3
2005	13726	3.9	21	10.5
2006	13890	1.1	23	9.5
2007	14586	5.0	25	8.6
2008	15654	7.3	27	8.0
2009	13190	-6.1	10.4	-19
2010	11714	-22.1	12	40
2011	12499	13.9	17.3	29
2012	12371	-7.7	17.1	-42
2013	11509	-6	13.7	-16
2014	9934	-6.7	14.7	25

Mənbə: ARDSK Nəşrləri.

Dəniz yolu ilə yük nəqliyyatının inkişafı isə belədir: 1960-cı ildə 9.163, 1970-ci ildə 13.138, 1980-ci ildə 11.354, 1990-cı ildə 3.870 və 1997-ci ildə 5.008 milyon ton dəniz yolu ilə yük daşınması həyata keçirilmişdir[130]. Statistikaya diqqət edildikdə 1970-ci illərdən 2005-ci ilə gəlindikdə illər etibariylə dəniz yolu ilə yük nəqliyyatının həcminin də 90-cı illərin ortalarına qədər diqqət çəkəcək dərəcədə azaldığı görülür. 1999-cu il istisna olmaqla, 1998-ci ildən eti-

[129] *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1996*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1996, s.41; Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1998, ss.84-85.

[130] *Narodnoye Hozyaistvo Azerbaicanskoi SSR V 1983 Godı* Stat. Ejegodnik, Bakı, 1983, s.91; *Statisticköhnəye Pokazateli Azerbaicana V 1997 Godı Stat*. Ejegodnik, Bakı, 1998, s.308.

barən isə dəniz yolu ilə yük daşınmasının həcmində ümumiyyətlə artma meylləri hiss olunmur. 2014-cü ilin göstəricilərinə əsasən dəniz yolu ilə yük daşınmasında 2013-cü il ilə müqayisədə 6.7% eniş yaşanmışdır. 2015-ci ildin sonlarında Türkiyə-Rusiya böhranı səbəbi ilə Türkiyə yük maşınlarının Orta Asiya istiqamətindəki yükləri Azərbaycandan keçməklə Xəzər dənizi ilə alternativ istiqamət olması dəniz yükdaşımacılığına artışa imkan verəcəkdir. Bu artışın digər səbəbi Ələt qəsəbəsində istifadəyə verilən beynəlxalq dəniz limanının fəaliyyətə başlamasıdı. Prezident İlham Əliyevin 2007-ci il 18 oktyabr tarixli Sərəncamına əsasən, tikintisi Ələt qəsəbəsində həyata keçirilən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin layihəsi beynəlxalq tenderin qalibi olan Hollandiyanın "Royal Haskoning" şirkəti tərəfindən hazırlanıb. Limanın dəniz hissəsində giriş kanalı və dönmə akvatoriyasında dibdərinləşdirmə və quru hissəsində infrastrukturun layihələndirilməsi işləri başa çatdırılıb. Liman kompleksinin yük aşırma imkanı: I mərhələdə 10 milyon tona qədər yük, 40 min TEU-ya qədər konteyner, II mərhələdə 17 milyon tona qədər yük, 150 min TEU-ya qədər konteyner, III mərhələdə 25 milyon tona qədər yük, 1 milyon TEU-ya qədər konteyner nəzərdə tutulur.

Layihənin I mərhələsinin inşa müddəti – 3 il 6 aydır. Bu mərhələdə sahə 104 ha nəzərdə tutulub. Körpülərin sayı 9-dur (o cümlədən bərə-2, quru yüklər-4, Ro-Ro-1, xidməti donanma-1). Liman kompleksi üçün ayrılmış 400 ha ərazinin 100 ha sahəsində (I mərhələdə 50 ha olmaqla) beynəlxalq nəqliyyat logistikası mərkəzinin tikintisi nəzərdə tutulmuşdur. TRASEKA çərçivəsində "Beynəlxalq nəqliyyat logistika mərkəzlərinin yaradılması" layihəsini həyata keçirən Avropa Komissarlığının nəqliyyat üzrə ekspertləri tərəfindən liman kompleksi ərazisinin Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşməsi beynəlxalq nəqliyyat logistika mərkəzi üçün əlverişli hesab edilmişdi.

Liman inkişafının 2-ci Mərhələsində əlavə olaraq 1 bərə pirsi və quru yüklər üçün daha 4 körpünün inşası nəzərdə tutulur. Bu öz növbəsində limanın yükaşırma tutumuna 7 000 000 ton əlavə edəcək və beləliklə nəticədə limanın ümumi yük tutumu 17 000 000 tona konteynerlərdə yüklərin həcmi isə 150 000 TEU qədər yüksələcəkdir.

3-cu Mərhələdə isə yeni bərə terminalının inşası ilə yanaşı 650m uzunluğunda Konteyener Terminalının istismara buraxılması planlaşdırılır. Bu perspektivdə limanın yük aşırma qabiliyyətini ildə 25 milyon tona qədər yüksəlməsinə və 1 milyon TEU konteynerin yüklənib-boşalmasına imkan verəcəkdir.

2015-ci ildə dəniz yolu ilə nəql edilən yüklərin həcmi on milyon tondan artıq olmuşdur. Dəniz yolu ilə daşınan yüklərin böyük bir hissəsinin neft və neft məhsulları olduğu diqqət çəkir. Bu həcm 2014-ci ildə 72.7% olmuşdur. Dəniz nəqliyyatının fəaliyyət göstərdiyi müxtəlif coğrafi ərazilər arasında Xəzər hövzəsi qabaqcıl yeri tutur.

1990-cı illərin ortalarından 2015-ci ilə qədər nəqliyyat sektorundakı inkişafda isə, Qazaxıstan neftinin Xəzər dənizindən keçərək Qara dənizə nəql edilməsi mühüm rol oynamışdır[131].

Dəniz yolu nəqliyyatı filosuna daxil olmaqla 2004-cü ildə fəaliyyətə keçən "Heydər Əliyev" adlı gəmi, Nijni-Novqorodda yerləşən "Krasnoe Sormova" gəmiqayırma zavodunda hazırlanmışdır. Gəminin dəyəri 13.5 milyon dollardır. Gəmi ən müasir texnologiya ilə təchiz edilmişdir. TRACECA xətti ilə üzəcək olan gəmi, Qazaxıstan neftini Bakı limanı vasitəsiylə dünya bazarına çıxaracaqdır.

Bakı limanı, Orta Şərq, Avropa və Cənubi Şərqi Asiya ölkələri üçün əlverişli "tranzit" rolunu oynaya bilər. Hər cür liman texnologiyası və müasir terminalların tikintisi üçün 2 milyard dollar lazımdır. Layihənin texniki və iqtisadi əsasları hazırlanır. Layihənin qısa bir müddətdə reallaşması mümkündür.

Bakı limanı xaricində, Azərbaycanın Lənkəran şəhərində də liman tikintisi, Muğan ovasının şərqində istehsal və ticarətin inkişafı baxımından faydalı olacaqdır[132].

Xüsusi bir əhəmiyyət kəsb edən dəniz nəqliyyatı mövzusunda maddi və texniki infrastrukturun sağlamlaşdırılması və inkişaf etdirilməsi lazımdır. Azərbaycanda mühüm olan bu nəqliyyat sektoru üçün, ağır yüklərinin daşınmasında istifadə edilən gəmilərə, neft və kimyəvi maye yüklərinin daşınmasında istifadə edilən tankerlərə, friqorifik gəmilərə, dəmir yolu vaqonlarında yükləri nəql etmək üçün istifadə edilən feribotlara, maye yükləri, qatı və döküm yüklərin daşınmasında istifadə edilən kommine edilmiş gəmi kimi əlavə yeni tip yük daşıyan gəmilərinə ehtiyac vardır.

3.3.5.2. Avtomobil yolu nəqliyyatı

Azərbaycanın avtomobil yollarının uzunluğu 25.000 km-dir. Bu yolların əksər hissəsini asvalt və torpaq yolları təşkil edir. Avtomobil yolu nəqliyyatında sərnişin daşınması daha çox avtobus və minibuslarla həyata keçirilir[133]. Avtomobil yolları ilə sərnişin daşınmalarının 80-85%-i avtobuslar vasitəsi ilə reallaşır.Nəqliyyatdakı avtomobil sayı isə, hər il artır. Azərbaycanın açıq dənizlərə çatan 3 avtomobil yolu vardır. Bunlar Gürcüstan ərazisindən Qaradənizə, Rusiya ərazisindən Qara dənizə və İran ərazisindən Bəsrə Körfəzinə çıxan yollardır.

Azərbaycanın tarixi ipək yolunun qovşağında yerləşməsi onun əlvərişili geostrateji mövqeyi burada bir sıra yol layihələrinin həyata keçirilməsini zəruri edir. Bu layihələrdən olan TRACECA layihəsinin bir hissəsi olaraq Azərbaycan-Gürcüstan arasında dünya standartlarına cavab verən avtomobil yolu inşa edil-

---

[131] *Azərbaycanın İqtisadi İcmalı*, İyul-Dekabr 2015, s.41.
[132] Vəlili, s.131.
[133] *Investors' Handbook*, s.59.

mişdir. Yalnız 2009-cu ilədək Azərbaycanda həyata keçirilən yol layihələrinə 200 milyon dollara qədər vəsait xərclənmişdir. Bu yolların tikinti və təmiri məqsədi ilə AYİB və Dünya Bankı, Asya İnkişaf Bankı və İslam İnkişaf Bankı maliyyə yardımı etmişdir. Azərbaycanın bütün avtomobil yollarının təmiri və yenidən qurulması üçün 1500 milyon dollardan çox maliyyə vəsaiti lazımdır. "Regionların Sosial və İqtisadi İnkişafı Haqqında" dövlət proqramına müvafiq olaraq yolların tikintisi və təmiri ilə əlaqədar kompleks tədbirlər planı hazırlanmışdır. Ölkə daxili yolların əsaslı təmiri və yenidən qurulması məqsədi ilə bəzi beynəlxalq maliyyə müəssisələrinə, bu layihələrin maliyyələşdirilməsi məqsədi ilə kreditlərin ayrılması ilə əlaqədar hökümət tərəfindən müraciətlər olmuşdur.

Cədvəl 18. Avtomobil Yolu Nəqliyyat Vasitələri

İllər	1990	1995	1999	2000	2001	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014
Ümumi Avtomobil Sayı (min ədəd)	398.7	392.1	409.3	440.6	451.6	612	690	773	926	982	1037	1136	1232	1291
Hər 1000 nəfərə düşən avtomobil sayı	55	51	52	55	56	59	69	77	92	98	100	113	123	129
Sərnişin minik avtomobilləri, (min ədəd)	260.2	278.3	306.9	332.1	343.0	479.5	549	616	759	815	871	958	1048	1100
Hər 1000 nəfərə düşən minik avtomobil	36	36	39	41	42	45	52	58	75	81	87	95	104	110
Hər 100 ailəyə düşən şəxsi kiçik avtomobil	16	19	19	19	19	26	29	32	38	40	42	46	50	52

Mənbə: ARDSK Nəşrləri.

Ölkədə beynəlxalq nəqliyyat yolları başda olmaqla avtomobil yolları 2015-ci ilə qədər yenidən tikilmişdir. 2004-2015-ci illər ərzində 1225 kilometr uzunluğunda şəhərlərarası yolda, 1807 kilometr uzunluğunda isə şəhərdaxili avtomobil yollarında təmir və yenidən qurma fəaliyətləri həyata keçirilmişdir**.** Bu çərçivədə önəmli layihələr üzərində fəaliyətlər uğurla nəticələnmişdir:

1. Bakı-Ələt-Qazax-Gürcüstan sərhəddi boyunca uzunluğu 508 km olan yolun Bakı-Ələt (47 km) hissəsində yenidən qurma fəaliyyətlərinə başlanılmış və 2005-ci ilin sonuna qədər yekunlaşdırılmışdır;
2. Uzunluğu 85 km, layihə həcmi 41 milyon dollar olan və Avropa Yenidən Qurma və İnkişaf Bankının maliyyələşdirdiyi Qazməmməd-Kürdəmir yolunun tikintisi isə 2006-cı ilin sonunda yekunlaşdırılmışdır;
3. Kürdəmir-Ucar-Yevlax-Gəncə boyunca uzunluğu 188 km olan, 102 milyon dollar dəyərindəki yol 2008-ci ilin sonuna qədər yekunlaşdırılmışdır;

4. Gəncə-Qazax-Gürcüstan sərhəddinə qədər uzunluğu 132 km, layihə dəyəri 60 milyon dollar olan yolun yenidən qurma işləri də 2009-ci ildə yekunlaşdırılmışdır;
5. Bakı-Quba-Rusiya sərhəddinə qədər uzunluğu 208 km, layihə dəyəri 280 milyon dollar olan birinci dərəcəli yolun tikintisi 2009-ci ildə yekunlaşdırılmışdır;
6. Uzunluğu 21 km, layihə dəyəri 30 milyon dollar olan Bakı dairəvi yolu 2010-ci ilin sonlarında tamamlanışdır.
7. Bundan əlavə, Ələt-Astara istiqamətində uzunluğu 243 km, layihə dəyəri təxminən 300 milyon dollar olan yolun yenidən tikintisi ilə əlaqədar texniki və iqtisadi layihələndirmə fəaliyyətləri tamamlanmış vəziyyətdədir. Yolun tikintisinin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə müəssisələri ilə müzakirələr nəticəsində bu yolun yenidən tikintisi üçün fəaliyyətlərə də başlanmışdır. Ələt-Astara yolunda tikinti fəaliyyətləri 2010-cu ildə tamamlanmışdır.
8. İnşasına başlanan Biləsuvar-İran sərhəddi boyunca uzunluğu 19,5 km, layihə dəyəri 35 milyon manat olan yol da 2009-ci ildə tamamlanmışdır.
9. Bakı-Şamaxı-İsmayıllı boyunca uzunluğu 162 km, layihə dəyəri 270 milyon manat olan yol isə 2006-2010-cı illərdə yenidən qurulmuşdur.
10. Uzunluğu 71 kilometr olan Şəmkir-Qazax avtomobil yolunun yenidən tikintisinə Dünya Bankı 40 milyon dollar kredit ayırmışdır.

Cədvəl 19. Əlaqə yollarının uzunluğu

2000-2007	**2000**	**2002**	**2003**	**2004**	**2005**	**2006**	**2007**
Ümumi istifadədə olan dəmir yolları, km	2116	2122	2122	2122	2122	2122	2099
Tramvay yolları (qoşa xətt hesabı ilə), km	35.9	27	22	-	-	-	-
Trolleybus yolları (qoşa xətt hesabı ilə), km	165.3	119.4	53.7	48.2	48.2	-	-
Metropoliten yolları (qoşa xətt hesabı ilə), km	28.5	28.5	29.9	29.9	29.9	29.9	29.9
Magistral boru kəmərləri, min km	4.4	4.2	4.2	4.5	4.1	4.6	5.3
Magistral neft kəmərləri	1.4	1.4	1.4	1.4	1.4	1.9	1.9
Magistral qaz kəmərləri	3.0	2.8	2.9	3.1	2.7	2.7	3.4
davamı ...							
2008-2014	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**
Ümumi istifadədə olan dəmir yolları, km	2099	2079	2079	2079	2068	2068	2068
Tramvay yolları (qoşa xətt hesabı ilə), km	-	-	-	-	-	-	-
Trolleybus yolları (qoşa xətt hesabı ilə), km	-	-	-	-	-	-	-
Metropoliten yolları (qoşa xətt hesabı ilə), km	31.5	31.5	31.5	29.9	34.6	34.6	34.6
Magistral boru kəmərləri, min km	5.8	6.3	6.4	6.5	6.1	5.7	5.4
Magistral neft kəmərləri	1.7	1.7	1.7	1.7	1.6	1.5	1.5
Magistral qaz kəmərləri	4.1	4.7	3.8	4.8	4.6	4.1	3.8

Cədvəl 20. Nəqliyyat sektorunda yük daşınması (min ton)

2000-2007	2000	2002	2003	2004	2005	2006	2007
Cəmi	**80180**	**98445**	**110001**	**117314**	**128328**	**145596**	**167264**
o cümlədən:							
dəmir yolu	15876	17464	20345	20671	26522	30205	28007
dəniz	8779	11381	13272	13209	13680	13506	10174
aviasiya	37	31	52	75	74	75	52
boru kəməri	15054	15831	17262	18145	18534	27426	47408
neft kəməri	11774	9977	11283	11589	11692	19947	39999
qaz kəməri	3280	5854	5979	6556	6842	7479	7409
avtomobil	40434	53738	59070	65214	69518	74384	81623
davamı ...							
2008-2014	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**
Cəmi	**183093**	**190372**	**196452**	**203586**	**210862**	**217926**	**221991**
o cümlədən:							
dəmir yolu	27432	20799	22349	22203	23116	23127	21795
dəniz	11898	13190	11714	12499	12371	11510	9934
aviasiya	43	32	40	51	82	126	125
boru kəməri	55731	62115	62458	59053	57170	57941	61534
neft kəməri	44383	50480	49982	45602	43316	43549	45784
qaz kəməri	11348	11635	12476	13451	13854	14392	15750
avtomobil	87989	94236	99891	109780	118123	125222	128603

Mənbə: ARDSK Nəşrləri.

Layihələr çərçivəsində Bakıdan Gürcüstan sərhəddinə qədər uzanan yolun Ələt-Qazıməmməd hissəsi və Gəncə-Qazax avtomobil yolunun 23 kilometrlik Gəncə-Şəmkir hissəsi artıq dünya standartlarına cavab verəcək şəkildə asvalt örtüyü ilə təmin edilmişdir.

Azərbaycanın iqtisadi inkişafı nəqliyyat vasitələrinin sürətli artımı ilə müşahidə edilir. Avtomobil sayı hər il artır. Sadəcə 2005-ci ildə respublikaya 40 000-ə yaxın avtomobil idxal edilmişdir. Bu rəqəm 2013-cü ildə 104 min 385, 2014-cü ildə isə 63 min 368 olmuşdur. Son illər Bakı şəhərində tıxac problemi aktuallaşır. Bu problemi aradan qaldırmaq üçün 2008-2012-ci illərdə Bakı şəhərinin sitifadə olunan yollarında üst keçidlər, körpülər və çox mərtəbəli yollar tikilmişdir.

3.3.5.3. Dəmir Yolu Nəqliyyatı

Dəmir yolu nəqliyyatı ölkə daxili və beynəlxalq yük daşımalarında mühüm yerə sahibdir. Azərbaycanda iqtisadi və infrastruktur potensialının mühüm bir hissəsini dəmir yolu nəqliyyatı təşkil edir**.** Azərbaycanda yüklərin təxminən 70%-i, sərnişinlərin təxminən 30%-i dəmir yolu nəqliyyatı ilə həyata keçirilir. Ümumi istifadədə olan dəmir yollarının uzunluğu 2068 km.-dir. Dəmir yolu ilə daha çox

neft, neft məhsulları, metal, maşınqayırma avadanlıqları, ərzaq və odun məhsulları daşınır. Bakıda şəhər daxili nəqliyyatda metronun mühüm bir yeri vardır. 1967-ci ildə fəaliyyətə başlayan metro xəttlərinin hal-hazırkı uzunluğu 34.6 kilometrdir[134]. Bakı metrosu təmizliyinə və xidmət şərtlərinə görə Beynəlxalq Nəqliyyat Təşkilatı tərəfindən dünyada "ən təmiz metro" olaraq seçilmişdir. Bakıda bütün metro keçidlərində təmizlik yüksək səviyyədədir. Metro əsasən sərnişin nəqliyyatında istifadə edilərkən, digər dəmir yolları daha çox yük daşımasında istifadə edilir.

Cədvəl 21. Nəqliyyat sektorunda yük dövriyyəsi (milyon ton/km)

2000-2007	**2000**	**2002**	**2003**	**2004**	**2005**	**2006**	**2007**
Cəmi	**15948**	**20277**	**22291**	**23283**	**26534**	**43294**	**77943**
o cümlədən:							
dəmir yolu	5770	6980	7719	7536	9628	11059	10287
dəniz	5192	6077	6555	6771	7521	8043	6013
aviasiya	102	84	204	315	310	291	203
boru kəməri	1371	1602	1572	1696	1539	15679	52305
neft kəməri	646	648	649	655	624	14690	50892
qaz kəməri	725	954	923	1041	914	989	1413
avtomobil	3513	5534	6241	6965	7536	8222	9135
davamı ...							
2008-2014	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**
Cəmi	**88607**	**97704**	**97504**	**91461**	**90110**	**90887**	**93531**
o cümlədən:							
dəmir yolu	10021	7592	8250	7845	8212	7958	7371
dəniz	6076	6173	4859	5186	5062	4632	4124
aviasiya	129	110	139	224	357	443	481
boru kəməri	62434	73195	72931	65850	63172	63734	67039
neft kəməri	58759	68575	68804	61960	59171	59274	62030
qaz kəməri	3675	4620	4127	3890	4001	4460	5009
avtomobil	9947	10634	11325	12356	13307	14120	14516

Mənbə: ARDSK Nəşrləri.

Qazaxıstan neftinin Azərbaycan ərazisindən tranzit olaraq nəql edilməsi məqsədi ilə bağlı müqavilələr çərçivəsində 2004-cü ildə neft daşımalarının həcmi 20% artırılmışdır. 2003-cü ildə tranzit neft daşınması 2,8 milyon ton olmuşdur. Azərbaycan dövlət dəmir yolları ilə neft daşınmasının 8 milyon tona çıxarılması nəzərdə tutulur. Azərbaycanda dəmir yolu ilə yük nəqliyyatında əsas yeri, 74.5%-lik bir hissə ilə neft və neft məhsulları alır.

[134] *Investors' Handbook*, s.59; Eminov, ss.134-136.

Lakin ölkədə dəmir yollarının böyük hissəsinin yenidən tikintisi vacibdir. 800 vaqondan, 350-nin əsaslı təmirə ehtiyacı vardır, ancaq, Azərbaycanda bunu reallaşdıra biləcək maliyyə vəsaiti olmaması səbəbi ilə 20 milyon dollarlıq xarici yardıma ehtiyac var.

Cədvəl 22. Nəqliyyat sektorunda sərnişin daşınması (min sərnişin)

2000-2007	**2000**	**2002**	**2003**	**2004**	**2005**	**2006**	**2007**
Cəmi	**871484**	**893225**	**920988**	**954079**	**1000278**	**1063347**	**1148403**
o cümlədən:							
dəmir yolu	4250	4442	4736	5241	5492	5824	6661
dəniz	12	14	13	20	17	17	14
aviasiya	701	732	867	1094	1211	1332	1537
tramvay	2427	1135	453	-	-	-	-
trolleybus	3431	3104	2301	1102	696	105	-
metropoliten	117364	115639	127052	136898	146952	161096	175689
avtomobil	743301	768159	785566	809725	845910	894973	964502
avtobus	720881	746633	763608	786515	821122	867926	933889
taksi	22420	21526	21958	23210	24788	27047	30613
davamı ...							
2008-2014	**2008**	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**
Cəmi	**1242161**	**1328073**	**1387308**	**1491905**	**1617339**	**1746106**	**1828324**
o cümlədən:							
dəmir yolu	6598	6394	6389	4803	3451	2668	2517
dəniz	14	10	12	17	17	14	15
aviasiya	1396	941	1017	1394	1599	1664	1788
tramvay	-	-	-	-	-	-	-
trolleybus	-	-	-	-	-	-	-
metropoliten	200412	206140	181146	182602	195642	206673	215472
avtomobil	964501	103945	114593	1200330	1304441	1535247	1608532
avtobus	1000194	1076509	1158324	1257940	1366123	1478828	154833
taksi	33751	38084	42006	46501	51290	56419	60199

Mənbə: ARDSK Nəşrləri.

Gürcüstanda meydana gələn siyasi hadisələr və hakimiyyət dəyişikləri nəticəsində Batumi limanının istifadə edilə bilməməsi və Azərbaycan-Gürcüstan sərhəddində nəzarətin artırılması kimi səbəblər, ölkədən tranzit dəmir yolu yük daşınmalarının həcminə mənfi təsir göstərmişdir.

3.3.5.4. Hava Yolu Nəqliyyatı

1924-cü ildə Bakı-Tbilisi hava yolu səfərlərinin başlaması ilə Azərbaycanda hava yolu nəqliyyatına başlanılmışdır[135].

[135] Eminov, s.142.

Azərbaycanda 27 aeroport mövcuddur lakin, bunlardan yalnız 5-i normal sərnişin təyyarələri qəbuluna əlvərişlidir. Bakı, Naxçıvan, Lənkaran, və Gəncə hava limanı beynəlxalq standartlara cavab vərəcək şəkildə yenidən qurulmuş və Azərbaycanda Qafqaz regionunda beynəlxalq statusda dörd aeroporta sahib yeganə dövlət olmuşdur.

Ölkənin sahib olduğu təyyarə parkı olduqca köhnəlmiş bir vəziyyətdədir. Son illərdə təyyarə parkına 12 yeni təyyarə daxil edilmişdir. 2005-2006-cı illərdə da alınmış olan yeni təyyarələrlə "Azal" dövlət konserninin təyyarələrinin həm sayı, həm də keyfiyyəti artmışdır.

Cədvəl 23. Hava Yolu Nəqliyyatı Sərnişin və Yük Daşıma

2002-2008	**2002**	**2003**	**2004**	**2005**	**2006**	**2007**	**2008**
Sərnişin Daşıma (min nəfər)	732	867	1094	1211	1332	1537	1624
Yük Daşıma (min ton)	31	52	75	74	75	52	64
davamı ...							
2009-2014	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	
Sərnişin Daşıma (min nəfər)	941	1017	1394	1599	1664	1788	
Yük Daşıma (min ton)	32	40	51	82	126	125	

Mənbə: ARDSK Nəşrləri.

Azərbaycandan 60-dan çox ölkəyə müntəzəm olaraq təyyarə səfərləri mövcuddur. Hava yolu nəqliyyatı, ölkənin müstəqilliyinin əldə etməsindən sonra beynəlxalq siyasi və iqtisadi əməkdaşlığının artması ilə paralel olaraq inkişaf edir.

2002-ci ildən etibarən hava yolu ilə sərnişin daşımasında artım olarkən, yük daşmalarında dalğalanma yaşanmışdır. Ancaq, 2004-cü ildə yük daşımalarında 42.9% civarında önəmli bir artım olmuşdur. 2015-cü ildə hava yolu ilə 1 milyon 788 min sərnişin daşınmışdır ki, bu da bu sahədə rekord göstəricidir. Yük daşınmasında 2014-cü illə müqayisədə azalma müşahidə edilsə də, son illərdə ümumi artış nəzərə çarpmaqdadır. Belə ki, 2009-cu ildə hava yolu ilə 32 min ton yük daşınmışdırsa, bu 2015-cü ildə artıq 126 min tona çatmışdır.

1999-cu ildə Bakıda yeni hava limanının tikintisi və yeni təyyarələrin alınması ilə bərabər daha çox gediş-gəliş səfərinin həyata keçirilməsi və sərnişinlərə daha yaxşı xidmət göstərilməsi mümkün olmuşdur.

Xarici xətt səfərlərindən sonra Bakının daxili uçuşlarının həyata keçirildiyi hissədə də lazımi yenidənqurma və təmir işləri aparılmış, Naxçıvan Beynəlxalq Aeroportu da yenidən təmir edilərək, 2004-cü ildən fəaliyyətə başlamışdır. Təmir və yenilənməyə ehtiyac olan Gəncə aeroportunda da beynəlxalq standartlara uyğun olaraq təmir işləri 2006-cı ildə tamamlanmışdır. Lənkəran hava limanının tikintisi isə 2004-2008-ci illəri əhatə edən regional sosial-iqtisadi inkişafla əlaqədar Dövlət Proqramına bağlı olaraq həyata keçirilmişdir. Qəbələ

şəhərində yerləşən Qəbələ Beynəlxaq Hava Limanı isə 2011-ci ildə istifadəyə verilmiş və ilk beynəlxalq uçuş 2012-ci ilin noyabr ayında həyata keçirilmişdir.

Yevlax, Naftalan, Şəki, Zaqatala və başqa şəhərlərdəki hava limanlarında isə əsaslı təmir işləri aparılmışdır. Beləliklə, Azərbaycanın hər bir regionunda hava yolu ilə nəqliyyat imkanı mümkün olacaqdır[136].

3.3.5.5. Boru xətti nəqliyyatı

ABŞ-dan sonra ilk dəfə boru xəttinin tikildiyi Azərbaycanda nəqliyyat sektorunda boru xəttləri ilə daşınmanın xüsusi əhəmiyyəti vardır. Neft və təbii qazın nəqlində daha çox boru xəttlərindən istifadə edilir.

Nəqliyyat sektorunda yük daşınmasında boru xətlərinin payı 1990-cı ildə 9.5% ikən, 1995-ci ildə 31.5%-ə yüksəlmişdir. Ancaq, daha sonrakı illərdə bu payda azalmalar görülür.

Nəqliyyat sektorundakı rolu, neft hasilatının artmağa başlaması ilə əhəmiyyət kəsb edən boru xəttləri, əsas ixrac boru xətti olaraq Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin işə düşməsi ilə yanaşı təbii qaz ixracı ilə əlaqədər Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin tikilməsi ilə daha da əhəmiyyət qazanmışdır. Boru xəttləri ilə əlaqədar məlumatları isə, Xəzər enerji qaynaqlarının iqtisadi əhəmiyyəti adlı fəsildə daha ətraflı məlumat veriləcəkdir**.**

3.3.5.6. Rabitə

Rabitə sektoru Azərbaycanın inkişaf etmiş sektorlarından biridir. Ölkənin demək olar ki böyük bir hissəsi avtomat telefon qovşağı ilə təmin edilmişdir. Azərbaycan 1996-cı ilin dekabr ayından GSM operator sisteminə qoşulmuşdur.

Simsiz rabitə Azərbaycandakı telekommunikasiya sənayesinin ən aktiv sektorudur. Simsiz rabitə sahəsinə 1994-cü ildən etibarən, ilk simsiz şəbəkə qurulduqdan sonra böyük həcmli xarici investisiya cəlb olunmuşdur.

2004-cü ildə mobil telefon xidmətlərin həcmi 2003-cü ilə nisbətlə 47.9% artmışdır. 1994-cü ildə ölkədə cəmi 2 min mobil telefon istifadə edildiyi halda, 2005-ci ilin əvvəllərinə olan statistikaya görə bu rəqəm 1.5 milyonu keçmişdir. 2015-ci ildə isə ölkədə istifadə edilən mobil telefonların sayı 9.7 milyona çatmışdır. Əhalinin hər 1000 nəfərinə düşən mobil telefon sayı isə 2015-ci ildə 1046 olmuşdur.

Azərbaycanda mobil telefon istifadə nisbəti regiondan-regiona dəyişir. Bakıda bu nisbət 50% civarında olub yüksək dərəcəyə sahib olduğu halda, bəzi kiçik şəhərlərdə bu dərəcə 10-15%-i keçmir. Bir çox hallarda mobil telefon xidməti, köhnəlmiş və təsirsiz kabel telefon bağlantılarına alternativ olur.

---

[136] 'Azerbaijan Aviation to Lead in the Caspian Region', *Azernews,* http://www.azernews.net/view.php?d=5665 (18.03.2005).

Azərbaycan bazarında "Azərcell" və "Bakcell" və "Nar Mobile" adlı üç mobil operator fəaliyyət göstərir. Mobil rabitə bazarında "Azərcell"-in payı 55%, "Bakcell"-in payı isə 36%-dir. Digər 9% isə "Nar Mobile" mobil operatorunundur. Azərbaycan arazisinin 93%-i mobil rabitənin əhatə dairəsindədir. Azərbaycanın yalnız işğal altında qalan torpaqları mobil rabitənin əhatə dairəsində deyil.

2006-cı ilin ilk aylarından etibarən "Bakcell"-in abunəçi sayı və əhatə dairəsi artır. Bunun məntiqi nəticəsi olara 2015-ci ildə "Bakcell" artıq ölkənin bütün ərazisində fəaliyyət göstərməkdədir.

Bundan əlavə "Azərcell"-dəki dövlət payı satılaraq dövlət büdcəsinə ciddi bir vəsait gətirmişdir.

Eyni zamanda poçt sisteminə 15 milyon dollar həcmində investisiya qoyulmuş və 2006-cı ilin sonunda bütün poçt şöbələri ortaq informasiya şəbəkəsinə qoşulmuşdur.

Ölkə əhalisinin yarısına yaxınının, yaşanan köçlər səbəbiylə də Bakıda məskunlaşdığı düşünüldükdə iqtisadi potensialın, telekommunikasiya infrastrukturunun da təsiri ilə internetin daha çox paytaxtda inkişaf etdiyi və mövcud internet abunəçilərinin 90%-lik hissəsinin Bakının payına düşməsi narahat edici məsələlərdəndir.

Azərbaycanda yüksək iqtisadi inkişaf və sürətlə formalaşan internet bazarı səbəbi ilə ölkədəki bütün telekommunikasiya xidmətlərinə bilavasitə nəzarət edən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi istər texnologiya, istərsə də ixtisaslı kadrlar baxımından bir çox problem yaşayır**.**

Eyni zamanda digər bir qeyd ediləcək mövzu isə, ölkədə mövcud olan dil problemidir. Azərbaycanda yazılı media və internet servislərinin çoxu rusca olmaqla yanaşı mərhum ümummili lider Heydər Əliyevin sərancamı ilə ölkədə 2001-ci ilin avqust ayının 1-dən etibarən latın əlifbasının istifadə edilməsi həyata keçirilmişdir. Bu vəziyyət internet mühitində dünya ilə inteqrasiyanı sürətləndirəcək, məlumatların ötürülməsini asanlaşdırarcaq ən vacib addımlardan biri hesab oluna bilər.[137].

Azərbaycanda böyük bir internet və informasiya bazarı formalaşır. Bu bazar istər ölkə miqyasında, istərsə də beynəlxalq səviyyədə bir sıra investisiyalar üçün mənfəətli sahə hesab olunur. Ancaq, bu investisyaların qoyulması və müəssisələrin qurulması, ölkənin iqtisadi potensialı, qanunvericilik bazası diqqətə alınaraq, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin himayə və nəzarətində, müasir texnologiya və ixtisaslı kadrların iştirakı ilə effektli olacaqdır.

[137] "Orta Asya Türk Cumhuriyetleri Telekominikasyon ve İnternet Infrastrukturu İle İlgili Olarak Hazırlanan Teknik Rapor", http://www.foreigntrade.gov.tr/turkcumhuriyetleri/teknik_rapor.htm. (19.04.2003).

Azərbaycanda telekommunikasiya sahəsində infrastrukturun qənaətbəxş olması ilə yanaşı, iqtisadi vəziyyətlə əlaqədar maddi çətinliklər səbəbi ilə hələlik internet əlaqəsi üçün lazimi investisiyaların qoyulmadığı müşahidə edilir. Bundan əlavə, internet vasitəsilə məlumat transferində böyük üstünlük əldə etmək üçün fiber-optik infrastruktur mövcuddur. Bu infrastruktur şəhərlərarası kommunikasiya və bunun nəticəsində internetin daha geniş yayılması üçün istifadə edilə bilər.

Bütün peyklər birbaşa Rusiya ilə birləşdirilir, başqa ölkələrlə internet nəqli Rusiya ərazisindən həyata keçirilir. Bu isə həm mövcud vəziyyətdə Rusiya və rus dili dominantlığının davamı, həm də gələcəkdə elektron ticarəti kimi iqtisadi fəaliyyətlərin Moskva mərkəzli olaraq idarə edilməsi məcburiyyətini ortaya çıxarır.

Rusiya ərazisindən istiqamətləndirilən internet əlaqələrinin Türkiyə ərazisindən daha geniş miqyaslı və etibarlı bir şəkildə reallaşdırılması nəticəsində Türkiyə, Azərbaycanda və başqa Türk respublikalarında əhəmiyyətli bir rol oynaya biləcək.

1969-cu ildə ABŞ-da hərbi məqsədi ilə kəşf edilən internetdən Azərbaycanda 1994-cü ildən etibarən istifadə edilməyə başlanılmışdır. Türkiyə Orta Şərq Texniki Universiteti, Türkiyə Elmi Tədqiqatlar Mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının müştərək bir layihəni həyata keçirmələri ilə birlikdə Orta Şərq Texniki Universiteti üzərindən 1994-cü ildə ilk dəfə Azərbaycan Elmlər Akademiyası da internetdən istifadə etməyə başlamışdır. Bu layihə TİKA tərəfindən maliyyələşdirilmişdir.

2009-cü ilin sonu etibariylə ölkədə 900 mindən çox internet istifadəçisi, 20-dən çox internet təchizatçısı mövcud idisə, 2016-cü ildə internet istifadəçiləri ölkə əhalisinin 78%-ni təşkil edir. İnternetə üzv olanların böyük bir hissəsini təşkilatlar və təhsil müəssisələri təşkil edir. Azərbaycanda internetdən istifadə edənlərin sayı dünya ortalamasından xeyli aşağıdadır.

İnternet xidməti Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən lisenziya alındqdan sonra göstərilə bilər. İnternet xidməti göstərən müəssisələr bir növ Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin ortağı kimi fəaliyyət göstərir.

Azərbaycanın ilk peyki olan "Azerspace-1" telekommunikasiya peyki 7 fevral 2013-cü il tarixində Fransız Qvianasında (Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan ada) yerləşən Kuru kosmodromundan, Qviana Kosmik Mərkəzindən yerli vaxtla saat 18:36-da (Bakı vaxtı ilə 8 fevral 2013-cü il saat 01:36) orbitə buraxılmışdır. ABŞ-ın "Orbital Sciences" korporasiyası tərəfindən istehsal olunan və Fransanın "Arianespace" şirkəti tərəfindən öz yüksək etibarlılığı ilə seçilən "Ariane-5″ raketdaşıyıcısı ilə orbitə buraxılan "Azerspace-1" peyki raket kosmodromdan qalxdıqdan təqribən 35 dəqiqə sonra raketin göv-

dəsindən ayrılmışdır. “Azerspace-1” peyki “Orbital Sciences” korporasiyası tərəfindən işlənib hazırlanan və hazırda 22 fəal peykin üzərində uğurla fəaliyyət göstərdiyi “STAR-2” peyk platforması əsasında yığılmışdır. “Azərkosmos” ASC tərəfindən “Azerspace-1” peyki üzərindən yayıma cəlb edilmək məqsədilə davamlı olaraq dünyanın bir çox ölkələrinin televiziya kanalları ilə danışıqlar aparılır. 2015-ci ilin iyul ayının 1-nə olan məlumata görə, peyk üzərindən 100-ə yaxın televiziya və 20-dək radio kanalı yayımlanmaqdadır. Milli kosmik sənayenin inkişafı məqsədilə qarşıdakı illərdə ölkənin daha bir neçə süni peykinin hazırlanaraq orbitə buraxılması nəzərdə tutulmuşdur ki, bu istiqamətdə də “Azərkosmos” ASC tərəfindən əməli fəaliyyət həyata keçirilməkdədir. Belə ki, cəmiyyət tərəfindən ölkədə kosmik müşahidə geoinformasiya xidmətləri sahəsinin yaradılması və inkişafı məqsədilə ilk aşağıorbitli Yerin kosmosdan müşahidəsi peykinin ərsəyə gətirilməsi məqsədilə dünyanın bu sahədə ixtisaslaşmış şirkətləri ilə intensiv danışıqlar aparılır. Bundan əlavə, Azərbaycanın ikinci telekommunikasiya peyki olan “Azerspace-2” layihəsi üzərində də iş gedir. Proqnozlara əsasən, hər iki peykin müvafiq olaraq 2016 və 2017-ci illərdə orbitə buraxılacağı gözlənilir. Azərbaycanın “Azerspace-1” kosmik peykini orbitə çıxarmaqla peyk operatoru kimi uğurunu təsbit etmiş “Azərkosmos” ASC aşağıorbitli peykin orbitə buraxılması ilə kosmik müşahidə xidmətləri bazarına daxil olmağı planlaşdırır. Faydalı yük üzrə 36 aktiv transponderlə təchiz olunan və təqribən 3,2 ton çəkisi olan “Azerspace-1” peyki 46 dərəcə Şərq uzunluq dairəsində, geostasionar orbitdə yerləşəcək və Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edəcəkdir. Orbitdə istismar müddəti ən az 15 il təşkil edəcək “Azerspace-1” peyki teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, eləcə də korporativ və hökümət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformaların təmin edilməsi üçün nəzərdə tutulub (http://www.mincom.gov.az/).

Son illərdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) inkişaf edir. İKT-nin inkişafı üçün zəmin formalaşdırılır və lazımi dövlət proqramları hazırlanır. İKT-nin daha da inkişafı üçün böyük həcmdə investisiyalara ehtiyac duyulur. Bu maliyyəni isə sadəcə özəl sektor vasitəsi ilə ölkəyə cəlb etmək mümkündür. Yaxın zamanlarda telekommunikasiya idarələrinin özəlləşdirilməsi və əlverişli bazar şərtlərinin formalaşdırılması planlanır. Böyük layihələr arasında e-dövlət, e-poçt sistemlərinin hazırlanması və regionlarda televiziya və radio yayınlarının reallaşdırılması öz əksini tapır.

3.3.5.7. Yeni İpək Yolu Layihəsi

İpək sənayesi, qədim zamanlardan bəri bir çox xalqın həyatında mühüm yer tutmuş; Uzaq Şərqdən gələn ipək və ədviyyat, qərb dünyası üçün, beynəlxalq münasibətlərdə mühüm bir rol oynamışdır. Bundan əlavə ipək, şərq mədəniyyətinin qərb tərəfindən tanınmasında da rol oynamışdır. Şərqin ipəyi ilə ədviy-

yatının karvanlarla qərbə daşınması, Çindən Avropaya uzanan ticarət yollarını formalaşdırmışdır. Orta əsrlərdə, ticarət karvanları, indiki Çinin Xian şəhərindən başlayaraq Özbəkistanın Kaşqar vilayətinə gəlirdilər; burada ikiyə ayrılan yollardan birincisi ilə Əfqanıstan obalarından Xəzər dənizinə; digər yol ilə də Qaraqum Dağlarını aşaraq İran ərazisindən Anadoluya gedirdilər. Anadoludan dəniz yolu ilə və ya Trakya ərazisindən torpaq yolu ilə Avropaya çatırdılar. Şərqdən qərbə doğru olan bu ticarət hərəkətləri, daha əvvəlki əsrlərdən bəri istifadə edilən bir yol şəbəkəsindən istifadə edilmişdir**.** Sıx bir şəkildə ipək, çini qablar, kağız, ədviyyat və qiymətli əşyaların daşınmasıyla yanaşı qitələr arasındakı mədəniyyət mübadiləsinə də imkan vərən bu minlərlə kilometr uzunluğundakı karvan yolları, zaman içində "'İpək Yolu'" olaraq adlandırılmışdır.

İpək Yolu, Orta əsrlərin axırlarında yeni qitələrin və ticarət yollarının kəşf edilməsindən sonra əhəmiyyətini itirmişdir. Sonrakı dövrlərdə Orta Asiyanın Sovet İttifaqı hakimiyyəti altında həm Şərqə (İran, Əfqanıstan və Pakistan), həm də Qafqaz ərazisindən qərbə açılan qapıları bağlı tutuldu. 90-cı illərdə bu region xalqlarının taleyi gözlənilmədən dəyişdi. XXI əsrin ən vacib regionlarından biri olacaq olan Orta Asiyadakı Türk dövlətləri müstəqillik əldə etdilər. Beləliklə, regionun bütün dünya üçün vacib yeraltı qaynaqlarının Sovet İttifaqı monopolyasından azad olmaq şansı ortaya çıxdı. Fəqət, Rusiyanın Sovet İttifaqı daxilində bu regionu xarici dünyaya sadəcə öz ərazisindən bağlaması səbəbi ilə istehsal edilən məhsulların, çıxarılan neft və təbii qazın və sahib olunan xammalının başqa ticarət yolları ilə dünya bazarlarına daşınması əhəmiyyətli idi[138].

Regionun xarici dünya ilə olan əlaqəsi, coğrafi bir müşahidə aparıldıqda, Rusiya xaricindən üç yolla mümkündür. Bu yollar;

- Birincisi Çin ərazisindən Uzaq Şərq ölkələrinə və okeana (bu yol mümkün layihələrin məsafələrin uzaq olması səbəbi ilə hal-hazırda maliyyələşdirilməsi mümkün olmadığı üçün geri planda qalmışdır),

- İkincisi Pakistan və İran ərazisindən (*tranzit keçid yolu olaraq da Əfqanıstan*) Hind Okeanına,

- Üçüncüsü isə Xəzər dənizindən Qafqaz və Türkiyə ərazisindən Ağ dənizə və Avropaya doğru uzanır.

İki min il boyunca Şərqin zənginliklərini Qərbə daşıyan karvanların keçdiyi, beş Türk respublikasıyla yanaşı, Tacikistan, Gürcüstan və Ermənistanı da əhatə edən, Qara dənizdən Çinə qədər tarixi İpək yolunun XXI əsrə bir kommunikasiya, nəqliyyat və enerji koridoru olaraq daşınmasını nəzərdə tutan TRACECA (Transport Corridor Europe-Caucasus-Asia/Avropa-Qafqaz-Asiya Nəqliyyat Koridoru) Layihəsi, 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində Gülüstan Sarayında keçirilən zirvə görüşündə imzalanan əsrin ən geniş

[138] Mehmet Binay, "İpək Yolu Yeniden Canlanıyor", http://www.turkiye.net/mbinay/news/analiz1.htm, (07.04.2015).

kommunikasiya və nəqliyat müqaviləsi ilə, qlobal iqtisadi münasibətlər zincirinə yeni bir halqa olaraq əlavə edilmişdir. İki qitəni və üç dəniz hövzəsini birbirinə bağlayacaq olan İpək Yolunun Restavrasiyası layihəsinin əsasları 1993-cü ildə beş Orta Asiya və üç Qafqaz ölkəsinin Nəqliyyat və Ticarət Nazirliyinin iştirakı ilə Brüsseldə keçirilən bir konfransda ortaya atılmış və Aİ-nın bu təşəbbüsə verdiyi iqtisadi və siyasi kömək sayəsində aydın bir çərçivə qazanmışdır[139].

Bu layihə, nəzərdə tutulan nəqliyyat koridorları ilə dənizə çıxışı olmayan Qafqaz və Orta Asiya respublikalarının beynəlxalq bazarlarla inteqrasiyasını həyata keçirəcək mühüm bir mərhələni təşkil etməsi ilə və bu çərçivədə regiondakı iqtisadi böyüməyə nəzərə çarpacaq dərəcədə bir komək olmasıyla yanaşı, bu dövlətlərin siyasi və iqtisadi müstəqilliklərini daha da gücləndirəcək ciddi bir katalizator olması baxımından da böyük əhəmiyyət kəsb edir[140].

İpək Yolu, Asiyanı Avropaya bağlayan bir ticarət yolu olmasıyla yanaşı, 2000-ci ildən bəri regiondakı mədəniyyətlərin, dinlərin, irqlərin də izlərini nəql edir və mükəmməl bir tarixi və mədəni sərvət qazandırır . Orta Asiya Türk respublikalarının müstəqilliklərini əldə etdikdən sonra, İpək Yolunun həm ticarət yolu, həm də tarix və mədəniyyət sərvəti olaraq yenidən canlandırılması gündəmə gəlmiş, bu yol boyunca tikilmiş və artıq istifadəyə yararsız olan tikililərin restavrasiya edilərək qorunmaları və yaşadılmaları üçün çalışmalar başladılmışdır.

Qədim zamanlarda karvanların Şərqin zənginliklərini qərbə daşıması kimi, indi isə Avrasiya koridoru, sülh və əminamanlığı Orta Asiyaya və Qafqaza gətirəcək və mədəniyətlər arası dialoqun inkişafına nail olunacaqdır.

Qloballaşma istiqamətində böyük inkişafın olduğu bu günlərdə dünyanın iqtisadi, siyasi və texniki şərtləri qarşısında, TRACECA layihəsinin regional sülh və stabilliyə nail olunmasında oynayacağı rol inkar edilə bilməz**.**

Bu mənada, əsrlər boyunca tarixi ipək yolunun üzərində mühüm bir yer tutan, ancaq bundan daha vacibi, soyuq müharibə sonrası hadisələr işığında, istər iqtisadi, istər sosial, istərsə də siyasi baxımdan XXI əsrin ən dinamik coğrafiyasını təşkil etməyə namizəd Avrasiyanın mərkəzində bir cazibə qüvvəsi olaraq duran Türkiyənin də belə mühüm bir layihənin xaricində qalmasını düşünmək mümkün deyildir. Türkiyənin bu məsələdə TRACECA idealına mühüm bir dəstək göstərməsi vacib və əhəmiyyətlidir**.**

İpək Yolunun yenidən tikintisi, Azərbaycanda müstəqillikdən sonra atılan ən vacib və müsbət addımlardan biridir.

---

[139] Qəni Könüllü, "İpək Yolu Strategiyası", http://www.geocities.com/ganigonullu/kafkasyaortaasya.html, (07.04.2003); Rovşən İbrahimov, "Böyük İpək Yolu Proqramı ve Gözlənilən Nəticələri", *İpək Yolu II. Respublika Elmi-Praktiki Konfransının Materialları*, Bakı 2001, ss.22-24; "İpək Yolu və Türkiyə" http://www.byegm.gov.tr/yayinlarimiz/ANADOLUNUNSESI/147/AND11.htm, (07.04.2003).

[140] "İpək Yolu və Türkiyə", http://www.byegm.gov.tr/yayinlarimiz/ANADOLUNUNSESI/147/AND11.htm, (07.04.2003).

Mərkəzi Asiyadan Avropaya gedən ən əlverişli yol Xəzər dənizindən və Azərbaycandan keçən yoldur. Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dənizdən keçərək Avropaya uzanan yeni bir avtomobil yolu açılmışdır. Fəaliyyətdə olan bu yol, köhnə İpək Yolunu yenidən canlandırmaq mənasına da gəlir. Bu yolla Mərkəzi Asiyadan Avropanın ən ucqarında yerləşən ölkələrə və Avropadan Mərkəzi Asiyaya ən əlverişli və etibarlı şəkildə daşınma həyata keçiriləcəkdir. Həm Orta Asiyadan Avropaya, həm də Avropadan Orta Asiyaya yük daşınır. Bu yükləri Xəzər dənizi üzərində Azərbaycana aid olan xırda gəmilər nəql edir[141].

1996-cı ildən başlayaraq bu yolun tikintisi üçün atılan addımlar, regionun nəqliyyat dəhlizləri ilə rəqabət edə bilən və ölkə iqtisadiyyatının inkişafına, yerüstü nəqliyyat kompleksinin formalaşmasına təsir edən vacib amillərdən biridir[142]. 1998-ci ilə nisbətlə 2001-ci ildə İpək Yolu ilə yük daşınması 1.5 dəfə, tranzit yük daşınması 1.9 dəfə, əldə edilən gəlir isə 1.6 dəfə artmışdır.

Bundan əlavə, Chevron-Tengiz neft şirkətinin Qazaxıstanın Tengiz neft yatağında hasil etdiyi neftin dünya bazarlarına çıxarılması üçün Xəzər dənizinin də əks olunduğu bir rota istifadə edilir. Qazaxıstan neftinin TRACECA Avro-Asiya nəqliyyat istiqaməti vasitəsi ilə Azərbaycan ərazisindən Gürcüstanın Qara dəniz limanına nəqli 1996-cı ildən etibarən devam edir. Xam neft Aktualdan tankerlərlə Bakıya, buradan da dəmir yolu ilə Batum limanına daşınır[143].

Yeni İpək Yolu üzərində yer alan Türkiyə-Gürcüstan-Azərbaycan xəttini mükkəmməl şəkildə bir-birinə bağlayacaq "dəmir yolu layihəsi", regional ticarət və investisiya imkanlarını bir neçə dəfə artıracaqdır; ölkələr arasındakı sosial və mədəni yaxınlaşmanı daha da artıracaqdır. Bu dəmir yolu layihəsinin fəaliyyətə başlaması üçün lazimi çalışmalar 2005-ci ildə başlamışdır. Bəhs edilən layihənin hayata keçirilməsi Azərbaycan nəqliyyat sektorunun daha dinamik inkişafına təkan verəcəkdir.

Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu, Azərbaycanı Avropaya birbaşa birləşdirən xəttdir. Layihənin maya dəyəri təxminən 700 milyon dollardır. Layihə 2016-cü ildə tamamlanması nəzərdə tutulur. Layihənin tamamlanaraq xəttin fəaliyyətə başlamasından sonra əvvəlcə yük daşıma həcmi 2-3 milyon ton arasında olacaqdır. Daha sonra isə bu rəqəm 5-8 milyon tona çatacaqdır.

BTC boru kəmərinə Azərbaycandan ilk neftin vurulması ilə əlaqədar olaraq 25 may 2005-ci ildə tənzimlənən təntənəli mərasimdə Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsi ilə əlaqədar olaraq ölkələrarası bir saziş də i mzalanmışdır.

---

[141] Haydar Aliyev, *Dünya Siyasetində Azerbaycan Petrolü*, (Dər. İlham Aliyev – Akif Muradverdiyev, Çev. Abdullah Çiftçi - Ergun Kocabıyık), Sabah Kitapları No.77, İstanbul, 1988, ss.101-102, 170.

[142] H. Məmmədov – R. Axundov, "Qədim İpək Yolunun Nəqliyyat Marşurutları", *İpək Yolu II.Respublika Elmi-Praktiki Konfransının Materialları*, Bakı, 2001, ss.11-14.

[143] *525-ci Qəzet*, 02.04.2003.

2016-cı ilin sonlarında tamamlanacaq Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun fəaliyyətə başlaması və bu xəttin Avropa və MDB ölkələrindən gələn yükləri İran ərazisindən Hindistana daşıyan "Şimal-Şərq" nəqliyyat koridoru ilə birləşdirilməsi halında, dəmir yolu ilə yük daşma həcmi 15-20 milyon tona çatacaqdır. Nəticədə İpək yolu, ən az neft boru xətti qədər strateji əhəmiyyətə də sahib olacaqdır.

3.3.5.8. Şimal-Cənub nəqliyyat koridoru

İran, Rusiya və Azərbaycan arasında 2005-ci ilin əvvəllərində Bakıda "Şimal-Cənub" nəqliyyat koridoru layihəsi imzalanmışdır.

"Şimal-Cənub" nəqliyyat koridoru layihəsi çərçivəsində Rusiya, Azərbaycan və İran arasında Qəzvin-Rəşt dəmir yolu xəttinin layihələndirilməsi, tikintisi və istifadəsi, eyni zamanda Astara (Azərbaycan)-Astara (İran) dəmir yolunun layihələşdirilməsi ilə əlaqədar müştərək şirkətin qurulması haqqında memorandum imzalanmışdır. Protokol dəmir yolu layihəsinin tikintisi məqsədi ilə bir anonim şirkətin (joint stock company) qurulmasını və layihəyə investorları cəlb etməyi qarşısına məqsəd qoymuşdur.

Şimal-Cənub nəqliyyat koridorunda Azərbaycan hissəsinin uzunluğu 505 km-dir. Layihə Xəzər dənizi limanları, Rusiyanın su kanalları və dəmir yolları vasitəsi ilə İran Körfəzi və Şərqi Asiyadan Avropaya yük daşınmasını qarşıya hədəf olaraq qoymuşdur[144].

Layihənin reallaşması ilə Azərbaycan şimaldan Şərqə daşınacaq yüklərin tranzit mərkəzinə çevriləcəkdir. Beynəlxalq nəqliyyat koridoru tam olaraq fəaliyyətə başladığı zaman Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqazın, İran körfəzi və Hindistana çıxışına, Xəzərin sahilyanı ölkələrinin Qara dəniz limanları ilə ticarət əlaqələrinin artmasına imkan verəcəkdir.

Eyni koridor Azərbaycanın tranzit yük daşımalarından əldə etdiyi gəlirlərin artmasına da imkan verəcəkdir.

3.3.6. İnşaat

1990-2015-ci illərdə Azərbaycanın iqtisadi və sosial inkişafı ilə tikinti sektorundakı inkişaf arasında sıx bir münasibət var. Bu illərdə ölkədə bir çox yeni böyük bina və komplekslər tikilmişdir.

Bundan əlavə, fəaliyyətdə olan bəzi binalar isə genişləndirilmiş və restovrasiya edilmişdir.

İnşaat sektorunun ÜDM-dəki payı 1991-ci ildə 8.1% ikən, 1999-cu ildə 10.9% olmuşdur. Bu pay 2000-2001-ci illərdə çox dəyişməsə də, 2002-ci ildə yenidən artaraq 2004-cü ildə 13%-ə çatmışdır. 2010-cu ildə inşaat sektorunun

[144] 'North-South Layihəsi Talks Due in Baku', *Azernews,* http://www.azernews.net/view.php?d=5811. (19.03.2005).

ÜDM-dəki payı yenidən 8.1%-ə geriləsə də, 2015-cü ildə yüksələrək 12.5% olmuşdur.

BVF tərəfindən aparılan qiymətləndirməyə görə sektorun iqtisadiyyata təsiri rəsmi statistikada görüldüyündən daha artıqdır. İnşaat fəaliyyətlərinin çox mühüm bir hissəsi qeydiyyatdan kənardır. Neft sektoruna xarici investisiya axımının başlandığı 1995-ci ildən etibarən tikinti fəaliyyətləri əhəmiyyətli dərəcədə artım göstərmişdir.

İnvestisyaların tikinti sektoruna istiqamətləndirilən hissəsi isə 1990-2004-cü illər arasında dalğalanma göstərmiş, 1990-cı il istisna olmaqla, ümumi investisiyalardan tikinti sektoruna düşən pay 1%-dən az olmuşdur. İnvestisyaların hər il daha böyük bir hissəsi istehsal məqsədli sahələrə istiqamətləndirilir.

2002-ci ildə tikinti sektoruna yönləndirilən investisyaların həcmi əvvəlki ilə görə 82.2% artım göstərərək 10.3 trilyon manat olmuşdur. Bu miqdarın 7.8 trilyon manatı (1.6 milyard dollar) yəni investisiya miqdarının 75.5%-i xarici investisyaların payına düşür[145].

2004-cü ildə isə tikinti sektoruna istiqamətləndirilən investisyaların həcmi 2003-cü illə muqayisədə 39.8% inkişaf edərək 24.2 trilyon manat olmuşdur. İnşaat sektoruna istiqamətləndirilən investisyaların 73.7%-i xarici sərmayənin payına düşür. Bu faiz, Azərbaycanda tikinti sektorunun inkişafında xarici iş adamlarının təsirini daha da artırır.

İnşaat sektorundakı inkişaf sürəti, ilk mərhələdə yeni istehsal sahələrinin də qurulmasına səbəb olmuşdur. 2004-cü ildə minlərlə iş yerinin açılmasında yeni tikilən müəssisələr əsas rol oynamışdır.

Azərsənayetikinti, Azərsutikinti, Azərenerjitikinti kimi ixtisaslaşmış firmalar və SOCAR (The State Oil Company of the Azerbaijan Republic), Xəzər Dənizçilik İdarəsi, Azərbaycan Dövlət Dəmir yolu kimi idarələrin tikinti firmaları ən böyük tikinti şirkətlərindəndir.

Türkiyə şirkətlərinin sektorda böyük nisbətdə hakim olduqları görülür. Azərbaycanda fəaliyyət göstərən Türk firmaları daxilində, təqribən 20.1% ilə tikinti firmaları çox mühüm bir paya sahibdir. Azərbaycan gündəmini məşğul edən neft boru kəmərləri, mənzil təmiri və mənzil tikintisi, müharibədən zərər görən və Azərbaycanın bir sıra sərhəd zonalarının yenidən tikintisi, infrastrukturun yenilənməsi, sənaye müəssisələrinin restavrasiyası və tikintisi, istirahət-əyləncə məkanlarının və otellərin tikintisi kimi layihələr Türk firmalarının bazara daxil olmalarına imkan vermişdir.

Yaşayış mənzilləri və iş mərkəzi tikintisi ilə məşğul olan Türk firmaları, Azərbaycan bazarında olduqca aktiv fəaliyyət göstərir.

---

[145] "2002-ci İlin Yekunları Üzrə Pul-Kredit Siyasətinin Yerinə Yetirilməsi Vəziyyəti Haqqında", http://www.nba.az/az/analitic/2002yekunu.shtml, (01.04.2003).

Bununla birlikdə tikinti sektorunda Türk tikinti firmaları ABŞ və Avropanın güclü inşaat firmaları ilə rəqabət edirlər.

Hər keçən gün köhnə binalar dağıdılaraq, yerinə yeni binaların inşa edilməsi ilə Bakı müasirləşməkdədir. Ancaq, müasir tikinti konstruksiyaları və tikinti materialları, eyni zamanda geoloji və geodeziya tədqiqatların nəticəsində Bakıda 15 mərtəbədən yüksək bina tikintisinə icazə verilmir. Eyni zamanda yeni tikilən çox mərtəbəli binaların plansız və Bakının anfiteatr görüntüsünə zidd tikilməsi həyəcan siqnalı çalır. Həmçinin bu tikililərin bir qisminin dayanacaq və həyətyanı sahələri baxımından bir sıra problemləri mövcuddur. Boru xəttlərinin tikintisi, müasir sənaye obyektlərinin qurulması, yenidən qurma və restavrasiya layihələri və xüsusilə, turizm-əyləncə sektoru üçün otel, restoran və müxtəlif bənzəri obyektlərin tikintisi, Azərbaycan tikinti sektorunda əhəmiyyətli investisiya fürsətləridir**.**

Yeni tikinti layihələri, keyfiyyətli tikinti mallarına tələbi də artırır. Daxili istehsal isə həm keyfiyyət həm miqdar baxımından ehtiyacı qarşılayacaq həcmdə deyildir. İnşaat sənayesinə aid materialların və xammalların bol və ucuz olması və təklifin ehtiyacları və tələbləri qarşılaya bilməməsi səbəbi ilə tikinti sektoru bu cəhətdən də xarici sərmayədarlar üçün diqqət cəlb edən bir sektor olaraq öz mövqeyini möhkəmləndirir.

Azərbaycanda neft sektoruyla yanaşı və neft sektoruna pararel olaraq tikinti sektoru da sürətlə inkişaf edir. Gəlir səviyyəsinin artmasına paralel olaraq yeni yaşayış sahələri və ticarət mərkəzlərinin tikintisinə meyllərin artacağı nəzərə alındıqda, tikinti sektoru inkişaf üçün əlverişli sektorlardan biridir. İnşaat sektorundakı inkişaf əhali artımının sürətindən bir neçə dəfə daha sürətlidir. Bununla eyni zamanda tikinti mallarının qiyməti də sürətlə artır. Mənzil şəraitinin olmaması boşanmaların artmasına təsir göstərən faktorlar arasındadır. Bununla yanaşı insanların gec evlənmələrinə də səbəb olur. Bu baxımından, neft gəlirlərinin mənzil tikintisinə istiqamətləndirilməsi düzgün bir yol ola bilər. 2005-ci ildən etibarən əhalinin mənzil tələbatını nəzərə alaraq hökümət "ipoteka fondu" formalaşdırmış və uzun müddətli ipoteka kreditlərinin verilməsinə 2006-cı ildən etibarən başlanılmışdır. Azərbaycan Mərkəzi Bankı (Milli Bank) nəzdində Azərbaycan İpoteka Fondu (AİF) "Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 sentyabr tarixli 299 nömrəli fərmanına uyğun olaraq yaradılmışdır. AİF-in əsas məqsədi Azərbaycan Respublikasında əhalinin yaşayış sahəsi ilə uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə təmin edilməsi mexanizmlərini yaratmaq, ipoteka kreditləşməsinə yerli və xarici maliyyə resurslarının cəlb olunmasına köməklik göstərməkdən ibarətdir.

Azərbaycan İpoteka Fondunun əsas funksiyaları aşağıdakılardır:

1. Müvəkkil kredit təşkilatları tərəfindən verilmiş ipoteka kreditlərini yenidən maliyyələşdirir;
2. Yenidən maliyyələşdirilən ipoteka kreditlərinə dair tələbləri müəyyən edir;
3. Maliyyə vəsaitlərinin cəlb olunması məqsədilə ipoteka ilə təmin olunmuş qiymətli kağızlar emissiya edir;
4. Öz fəaliyyətinin sabitliyini və likvidliyini təmin etmək üçün maliyyə risklərini idarə edir;
5. İpoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması və Fonda ucuz maliyyə resurslarının cəlb olunması məqsədilə öz səlahiyyətləri daxilində tədbirlər görür.

2016-cı il etibarı ilə kredtitlərin maksimim həddi normal kreditlərdə 8% və güzəştli kateqoriyalarda 4% həcmində nəzərdə tutulur.

Bu prosesin də tikinti sektorunun inkişafına müsbət təsir göstərəcəyini bir mənalı olaraq söyləmək mümkündür. Fəqət, hələ ki bu prosesin uğurla həyata keçiriləcəyini indidən söyləmək tez ola bilər. Çünki, həm əhalinin gəlir səviyyəsinin aşağı olması, həm də kreditt şərtlərinin mürəkkəbliyi bu fondun imkanlarından geniş kütlələrin istifadəsinə hələlik imkan vermir. Yaxın zamanlarda bu fondun sosial təbəqələrin istifadəsinə verilməsi üçün bir sıra layihələr həyata keçirilməsi nəzərdə tutulur.

DÖRDÜNCÜ FƏSİL
REGİONAL ANALİZ

Azərbaycan iqtisadi baxımdan on regiona ayrılaraq analiz edilə bilər. Bu bölgü, Prezident İlham Əliyev tərəfindən 11 Fevral 2004-cü ildə təsdiqlənən və Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı əhatə edən 2004-2008-ci illər, 2009-2013-cü illər və 2014-2018-ci illərdə sosyo-iqtisadi inkişafı ilə əlaqədar hazırlanan növbəti Dövlət Proqramlarında inkişaf etdirilmişdir. Ölkədə növbəti illərdə iqtisadiyyatın diversifikasiyasının, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədi ilə dövlət proqramlarının icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların inkişafı üçün gələcək illərdə də möhkəm zəmin yaratmışdır

İqtisadi region təsnifatında; iqtisadi və coğrafi mövqe və struktur, təbii zənginlik və təbii ehtiyatlar, fəal əhalinin sıxlığı, regionların sahə və torpaq strukturu, regionun tarixi kimi bəzi xüsusiyyətlər diqqətə alınmışdır. Ölkədəki iqtisadi regionlar daşıdıqları xüsusiyyətlərinə görə aşağıdakı kimidir:

Regionlarla əlaqədar səciyyələndirmə etməzdən əvvəl,

a- Ölkənin iqlim şəraitinin uyğun olması səbəbiylə iri və xırda buynuzlu heyvandarlıqla, quşçuluq istehsalının demək olar ki hər regionda mümkün olduğunu,

b- Azərbaycanda demək olar ki hər regionda kənd təsərrüfatı üçün əlverişli və əkinə yararlı sahələrin genişliyi və iqlim müxtəlifliliyi səbəbiylə kənd təsərrüfatına qoyulan investisiyaların daha da müxtəlifləşdirilməsinin mümkün olduğunu,

c- Bundan əlavə ölkənin bir çox regionu turizm baxımından kəşf edilməmiş zəngin gözəlliklərə sahib olduğundan, turizm sektorunun daha geniş bir potensiyalının var olduğunu,

d- Qida sənayesinin inkişaf etməsinin də regionların sosyo-iqtisadi dirçəlməsində mühüm rol oynayacağını ifadə etmək lazımdır.

4.1. İQTİSADİ REGİONLAR

Ölkə iqtisadi baxımdan Abşeron, Gəncə-Qazax, Naxçıvan, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın və Dağlıq Şirvan olmaqla on regiondan ibarətdir.

4.1.1. Abşeron İqtisadi Regionu

Region hal-hazırda ölkə iqtisadiyyatının təmsilçisi rolunu oynayır. Ölkədə istehsalın ən böyük payı bu regiona düşür. Ölkənin digər regionları ilə müqayisə etdikdə, inkişaf etmiş bir infrastruktura sahib olduğunu söyləyə bilərik. Ən əhəmiyyətli magistral, hava, su və qatar yolları Abşerondan keçir. Xəzər Dənizi ilə əhatə olunması isə, regionun xarici ölkələrə çıxışını asanlaşdırır.

Abşeron iqtisadi regionu, ölkənin ən əhəmiyyətli mədəniyyət mərkəzlərindən də biridir. Regionda Elmi Tədqiqat İnstitutları, ali məktəblər, böyük idman kompleksləri, səhiyyə ocaqları və digər sosial müdafiə fondları fəaliyyət göstərir.

Bakı

Ölkə rəhbərliyi tərəfindən hazırlanan iqtisadi inkişaf proqramı, yüksək inkişaf səviyyəsinə sahib olduğu üçün Bakını əhatə etmir. Bu səbəblə aşağıdakı Abşeron iqtisadi regionuyla bağlı verilən məlumatlarda Bakının adı çəkilmir. Bu mövzuda Bakı haqqında qısa olaraq ayrıca dəyərləndirilmə aparılacaqdır.

Ölkənin paytaxtı da olan Bakı, iqtisadi inkişaf səviyyəsi ilə ölkənin digər şəhərlərindən açıq bir şəkildə fərqlənir.

Bakı, 3 milyonluq əhali sıxlığıyla yanaşı, xarici investisiyaların da keçən 25 illik müddət ərzində cəmləşdiyi şəhər olmuşdur. 2003-cü ildən etibarən isə, yüksələn çox mərtəbəli binalarla Bakı, şəhərləşmə yolunda fürsət və təhlükələri özüdə cəmləşdirən bir meqapolisdir.

Regional iqtisadi inkişaf proqramının xaricində qalan Bakıda ehtimal olunan investisiya sahələri bu şəkildə sıralana bilər: neft və qaz sektorlarına aid yan sənaye, elektrik, elektronika, neft məhsullarının dəyərləndirilməsi, dəmir və dəmir olmayan metallar sahəsində müxtəlif investisiyalar, avtomatik və avtomatik yan sənaye kompleksləri, inşaat materialları, istehsal müəssisələri, tekstil sektoruna aid inteqrasiya kompleksləri, dəniz nəqliyyatı və gəmiçilik sektoru müəssisələri, quru, hava, dəniz, metro və dəmir yolu vasitəsi ilə bağlı yeraltı və yerüstü işlər görən müəssisələr, spirt və spirtli içki istehsal edən müəssisələr, səhiyyə, təhsil, turizm kompleksləri, ətraf mühiti mühafizə müəssisələri, topraq islahı və sulaması ilə əlaqədar müəssisələr.

a. Əhatə Etdiyi Regionlar

Abşeron və Xızı inzibati rayonları daxil olmaqla ölkənin ən əsas şəhərlərindən olan Sumqayıtdan ibarətdir. Xususilə, Sumqayıt şəhəri, çox uyğun iqtisadi-coğrafi mövqeyə sahibdir.

b. Sahəsi

Abşeron iqtisadi regionu (Bakı xaric) 3.34 min km^2-dir. Ölkə ərazisinin 3.9%-ni əhatə edir.

c. Əhali və Əhali Sıxlığı

Ölkə əhalisinin 4.8%-ini əhatə edən regionun ümumi əhalisi 551.800 nəfərdir. Regionda hər kvadrat kilometrə 148 nəfər düşür. Fəal əhali isə, 163 min nəfərdir.

İqtisadi regionun uyğun iqtisadi-coğrafi mövqeyi, əhalinin yerləşməsində mühüm rol oynayır. Əhalinin çoxu şəhərdə yaşayır.

d. İqlimi

İqtisadi regionun iqlimi, quru subtropikal xarakterə sahibdir.

e. Təbii Sərvətləri

Təbii ehtiyatlar etibarilə zəngin olan iqtisadi regionlardan biri də Abşerondur. Regionun təbii ehtiyatları arasında mişar daşı, sement xammalı, kvars və inşaat qumu var.

Abşeron yarımadasında zəngin vanna müalicəsi qaynaqları, isti sular vardır. Yay aylarında vanna müalicəsi imkanları, Xəzər sahili boyunca çimərlik turizminə imkan verir. Lakin, buna baxmayaraq öz ərazisində içməli suyu olmayan yeganə regiondur. Region içməli su ehtiyacını su boru xətləri vasitəsiylə digər regionlardan, Samur və Kür çaylarından qarşılayır.

f. Sənaye Sahələri

Bu regionda sənaye sektoru neft, təbii qaz, elektrik, üzvi və qeyri-üzvi kimyəvi məhsullar, dərman, metallurgiya, enerji, dəmir-polad, digər metal müəssisələri, neft yan sənayesi, tekstil, yüngül və qida sənayesində cəmləşmişdir.

Nəqliyyat və xidmətlər sektoru, regionun sənayesi üçün mühüm xidmətlər verir.

İqtisadi region güclü yanacaq enerji qaynağına sahibdir. Ölkədə istehsal olunan neft, təbii qaz və elektrikin böyük bir hissəsi bu regionun payına düşür. Sənayenin mərkəzində kimya və neft-kimya sənayesi qərarlaşıb. Eyni zamanda dəmir və dəmir olmayan metallar da sənayedə əhəmiyyətli yerə sahibdir. Polimer materialları, şüşə və s. kimi məhsullar da regionda istehsal olunan sənaye məhsullarıdır.

g. Kənd Təsərrüfatı və Heyvandarlıq Sahələri

Kənd təsərrüfatı və heyvandarlıq sahəsində quru subtropik meyvələrin yetişdirilməsi, tərəvəzçilik, gülçülük, üzümçülük, südçülük, toyuqçuluq və iri və xırda buynuzlu heyvandarlıq diqqət çəkir.

Kənd təsərrüfatına əlverişli iqlim şəraiti regionda zeytun, zəfəran, fıstıq kimi məhsulları da istehsal etməyə imkan verir.

h. İnkişaf Edən Sahələr

İnşaat, rabitə və başqa xidmət sahələri regionda inkişaf edən sahələrin başında gəlir.

4.1.2. Gəncə-Qazax İqtisadi Regionu

Azərbaycanı Gürcüstan və Qara dəniz ilə birləşdirən və ölkənin qərb hissəsində yerləşən Gəncə-Qazax iqtisadi regionuna aid xüsusiyyətlərin ümumi çərçivəsi isə aşağıdakı kimidir:

Regionun sosial infrastrukturu, ölkənin şimal-qərb hissəsinin sosyo-iqtisadi inkişafında və bu regionun sosyo-mədəni ehtiyaclarının qarşılanmasında əhəmiyyətli bir rola sahibdir. Regionda Elmi Araşdırma Mərkəzləri, kənd təsərrüfatı sahəsində mütəxəssis yetişdirən yüksək təhsil müəssisələri, xalq kitabxanaları, muzeylər, teatrlar, xəstəxanalar və digər sosial infrastruktur müəssisələri mövcuddur.

a. Əhatə Etdiyi Regionlar

Mühüm iqtisadi-coğrafi mövqeyə sahib olan bu region Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar, Qazax, Samux, Şəmkir, Tovuz inzibati rayonlarıyla yanaşı Gəncə və Naftalan şəhərlərini də əhatə edir.

b. Sahəsi

Sahəsi 1249 min km^2 olan region, ölkə ərazisinin 14.4%-ni təşkil edir.

c .Əhali və Əhali Sıxlığı

1.240.800 nəfərdən ibarət olan regionda ölkə əhalisinin 13.6%-i yaşayır. Hər kvadrat kilometrə 101 nəfər düşür. Əhalinin daha çox mərkəz regionlarında cəmləşdiyi müşahidə olunur. Əhalinin 47%-i şə-hərlərdə, 53%-i şəhər kənarlarında yaşayır. Fəal əhali isə, 633 min nəfərdir.

d. İqlimi

Region topoqrafik xarakteri etibariylə 4 yerə ayrılır. Bu bölgüyə paralel olaraq regionda iqlim şərtləri də fərqlilik göstərir.

e. Təbii Sərvətləri

Gəncə-Qazax iqtisadi regionu zəngin təbii ehtiyatlara sahib olan regionlardan biridir. Dəmir filizi, aluminium, mis, mişar daşı, mərmər, seolit, gips və sement xammalı nəzərə çarpan təbii mədənlər arasındadır. Region ərazisindən keçən Kür isə, hidro-enerji ehtiyatları ilə zəngindir.

Regionda təbii istirahət zonaları da mövcuddur. Əlverişli təbii şərtlər, təmiz hava və iqlim, meşə və dağ mənzərəsi və əhəmiyyətli tibbi mineral sular beynəlxalq səviyyədə istirahət zonaları və sanatoriyaların yaradılmasına imkan verir. Dəniz səviyyəsindən 1566 metr yüksəklikdə yerləşən Göygöl və Hacıkənd istirahət zonaları da regionun tərkibindədir. Naftalan istirahət və müalicəvi sanatoriyası isə, artıq beynəlxalq nüfuza sahibdir.

f. Sənaye Sahələri

İqtisadi potensialı ilə Gəncə-Qazax, ölkədə ikinci əhəmiyyətli yeri tutan regiondur. Azərbaycanın ümumi sənaye istehsalına təxminən 12-13%-lik bir nisbətdə verdiyi faydayla, ölkənin ikinci sənaye regionu hesab edilir. Gəncə-Qazax iqtisadi regionunda əsas sənaye sahələri; elektrikli alətlər, rabitə aparatları istehsalı, kənd təsərrüfatı maşınları, metallurgiya, avtomobil, pambıq, iplik, tekstil, xalça, sement, seramik, şüşə, müxtəlif təchizat, ağır sənaye və qida sənayesidir.

İnşaat sənayesində əsas müəssisələr, ev-inşaat tikmə şirkətləri, metal-beton, kərpic -seramika və mərmər fabriklərdir.

g. Kənd Təsərrüfatı və Heyvandarlıq Sahələri

Şəkər, kartof, buğda, üzüm, şərab, karamel, konserva, ət və süd məhsulları, iri və xırda buynuz heyvandarlıq regiondakı əhəmiyyətli kənd təsərrüfatı və heyvandarlıq sahələridir.

Ölkənin kənd təsərrüfatı məhsullarının 13-14%-ini istehsal edən regionda, əsas kənd təsərrüfatı məhsulları kartof, üzüm və buğdadır. Ölkənin kartof istehsalının təqribən 80%-i, üzümün 28%-i bu regionun payına düşür. Pambıq isə, sadəcə Goranboy inzibati rayonunda istehsal edilir. Tərəvəzçilik və meyvəçilik də regionda inkişaf etmişdir. Ölkədəki heyvandarlıq məhsullarının 15%-i də bu regiondan əldə edilir.

h. İnkişaf edən sektorlar

Regionda inkişaf edən sektorların başında turizm sektoru gəlir.

Ölkə daxilindəki dəmir yolunun 6.2%-i, avtomobil yollarının 6.1%-i bu iqtisadi regionun payına düşür. İqtisadi regionun ərazisindən keçən başda avtomobil yolu olmaqla, dəmir yolu, boru xətti və hava yolu ölkədaxili və beynəlxalq iqtisadi əlaqələrin inkişafına mühüm təsir göstərir. Gəncə, Qazax və Ağstafa əsas nəqliyyat şəbəkələridir.

Avropa-Qafqaz-Asiya koridorunun bu regiondan keçməsi regionun ərazisindən keçən yolların müasir və beynəlxalq standartlara görə inşasını tələb edir. Regionların sosyo-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində region daxilində və digər regionlarla əlaqəli müxtəlif yolların və körpülərin inşa və bərpası fəaliyyətləri davam edir.

Tarixi "İpək Yolu"nun bu ərazidən keçməsi regionda dəmir yoluna olan tələbi də artırmışdır. Eyni zamanda Dövlət Proqramında Kür çayı üzərində ikinci dəmir yolu körpüsünün inşası da nəzərdə tutulmuşdur.

Regiondan keçən Bakı-Tiflis-Ceyhan boru xətti Gəncə, Xanlar, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonlarının sosyo-iqtisadi inkişafında mühüm dəyişikliklərə səbəb olmuşdur. İqtisadi regionun ərazisində dövlət tərəfindən xüsusi olaraq mühafizə edilən ərazilər Korçay, Qarayazı-Ağstafa Dövlət Qoruğu və Qarayazı Dövlət Qoruğudur.

İqtisadi region daxilində əsasən ölkə daxili və Müstəqil Dövlətlər Birliyi ilə hava əlaqələrini Gəncə hava limanı təmsil edir. Eyni zamanda Ağstafa və Naftalan hava limanları da fəaliyyət göstərir.

Xülasə, Gəncə-Qazax iqtisadi regionunun sosyo-iqtisadi inkişafında nəqliyyat sektoru əhəmiyyət kəsb edən sektorlardan biridir.

4.1.3. Şəki-Zaqatala İqtisadi Regionu

Ölkənin şimal-qərbində yerləşən Şəki-Zaqatala, Azərbaycanın ən zəngin iqtisadi regionlarından biridir.

İnkişaf etmiş nəqlliyyat şəbəkəsinə sahib olan regiondakı mühüm yollar Yevlax-Balakən avtomobil və dəmir yoludur.

İqtisadi regiondakı sosial infrastruktur ümumi təhsil müəssisələri, mədəniyyət və səhiyyə mərkəzləri, muzey və teatrlardan ibarətdir.

a. Əhatə Etdiyi Regionlar

İqtisadi region, Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala və Şəki inzibati rayonlarını əhatə edir.

b. Sahəsi

Ümumi sahəsi 8.96 min km^2 olan region ölkə ərazisinin 10.3%-ni təşkil edir. Regionun dağlarla və dağlıq ərazilərlə əhatə olunması səbəbiylə torpaq ehtiyatları məhduddur. Bu hal regionda təbii fərqliliklərə səbəb olur.

c. Əhali və Əhali sıxlığı

Regionun 599.900 əhalisi var. Bu da ölkə əhalisinin 6.5%-ni təşkil edir. Region əhalisinin 632 min nəfəri fəal əhalidir. Regionun 1 kvadrat kilometrinə 68 nəfər düşür. 27%-i şəhərlərdə, 73%-i şəhər kənarında yaşayan əhalinin böyük bir qismi dağlıq ərazilərdə yaşayır.

d. İqlimi

Region iqlimi fərqlilik göstərməklə yanaşı daha çox mülayim iqlim tipinə sahibdir.

e. Təbii Sərvətləri

İqtisadi region təbii ehtiyatlar baxımdan zəngindir. Regiondakı təbii ehtiyatlar arasında mis, kükürd, qurğuşun, sink, qum və digər inşaat məhsulları, içməli suyu misal göstərə bilərik. Ölkədə istehsal olunan kükürd mədənlərinin 90%-i, qurğuşunun 97%-i, sinkin 99%-i, bu regionda hasil edilir. Mis isə, tamamiylə bu regiondan hasil edilir. Çınqıl, qum və digər inşaat materialları dağlarda və dağlıq ərazilərdə yerləşmişdir.

Bundan əlavə regionda geniş meşəliklər var. Mühüm bir qismi Balakən və Zaqatala ərazisində olmaqla, regionun 27%-i meşələrlə örtülüdür.

Təbii gözəlliklərinə görə region ölkənin əhəmiyyətli turistik istirahət zonalarından biridir. Şəki-Zaqatala iqtisadi regionunun Qəbələ, Balakən, Qax, Şəki və Zaqatala rayonlarında istirahət və turizm müəssisələri olsa da kifayət etmir.

Region ərazisindən Gürcüstana qədər uzanan beynəyxalq yol keçir.

Region eyni zamanda mühüm su ehtiyatlarına da sahibdir.

f. Sənaye Sahələri

Sənaye sektorunun tək tərəfli və çox zəif olduğu regionda daha çox yüngül və qida sənayesinin inkişaf etdiyini müşahidə edirik. Bu sahələr regiondakı sənaye istehsalının 95%-ini təşkil edir. Ölkədə sənaye istehsalının sadəcə 3%-dən bir az artıq bir hissəsi regionun payına düşür. Region ərazisinin 27%-ini təşkil edən və əhalisinin 30%-nin yaşadığı Şəki isə regiondakı sənaye istehsalının yarısına sahibdir.

Yüngül sənaye isə, ipək istehsalından təşkil olunmuşdur. Region mərkəzlərində müxtəlif sayda tekstil sənayesi müəssisələri fəaliyyət göstərir.

g. Kənd Təsərüfatı və Heyvandarlıq

Regionun iqtisadiyyatını kənd təsərüfatı və heyvandarlıq təşkil edir. Kənd təsərüfatı və heyvandarlıqda tütünçülük, ipəkçilik, meyvəçilik, taxıl məhsulları, üzümçülük, ət və süd, pambıq və iri və xırda buynuzlu heyvandarlıq qabaqcıl sahələrdir. Bu çərçivədə iqtisadi region kənd təsərrüfatına əsaslanan sənayenin inkişaf etdirilməsi, ipək qurdu, fındıq əzmə, tütün, şərab, su doldurma müəssisələri və ağac və meşə materialları üçün əlverişlidir.

Ölkədə istehsal edilən tütünün 75%-i, buğdanın 17%-i, tutun 35%-i, yaşıl çayın 2%-dən çoxu bu regionun payına düşür. Ferma heyvandarlıq məhsulların istehsalında isə, ölkə istehsalının 10%-dən çoxu Şəki-Zaqatala iqtisadi regionunda istehsal olunur.

h. İnkişaf Edən Sektorlar

Şəki-Zaqatala regionunda inkişaf edən sahələr olaraq ipəkçilik və turizm sektoru diqqəti çəkir.

İqtisadi regionun tərkibində olan Qax inzibati rayonu Azərbaycanın şimal-qərbində yerləşir. Coğrafi baxımdan çox əlverişli şəraitə malikdir. Azərbaycanın turizm regionlarından biridir. Ancaq, Qax iqtisadi baxımdan digər rayonlardan nisbətən daha zəif inkişaf etmişdir. İnkişaf proqramının tətbiq edilməyə başlanması ilə regiondan Bakıya köç dayanmış və mövcud olan zavod və fabriklər yenidən fəaliyyətə başlamışdır.

4.1.4. Dağlıq Şirvan İqtisadi Regionu

Azərbaycanın mərkəzində yerləşən və qədim məskunlaşma yerlərindən olan Dağlıq Şirvan iqtisadi regionu, bütün istehsal növlərinin istifadə edildiyi geniş bir nəqliyyat qovşağına sahibdir.

Regionda sosyo-iqtisadi infrastruktur olaraq yüksək və orta təhsil ocaqları, mədəniyyət və səhiyyə mərkəzləri, teatr və muzeylər var.

Dağlıq Şirvan iqtisadi regionu haqqında aşağıdakı ümumi məlumatlar verilə bilər.

a.Əhatə Etdiyi Regionlar

Dağlıq Şirvan iqtisadi regionu Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonlarını əhatə edir.

b. Sahəsi

Ümumi sahəsi 6.06 min km^2 olan region ölkə ərazisinin 7%-ni tutur.

c.Əhali və Əhali Sıxlığı

304.000 nəfərdən ibarət olan regionda ölkə əhalisinin 3.2%-i yaşayır. Əhalinin 141 min nəfəri fəaldır. Digər regionlara görə daha az əhali sıxlığına sahibdir. 1 kvadrat kilometrə 50 nəfər düşür.

d. İqlimi

Dağlıq və ovalıq olmaqla topoqrafiq baxımından ikiyə ayrılan regionda bu səbəblə iqlimin də müxtəliflilik təşkil etdiyi görülür. Topoqrafiq xüsusiyyətinə görə nəmli, ilıq-soyuq ya da isti və quru iqlim şərtləri regionda hakimdir.

e. Təbii Sərvətləri

Təbii ehtiyatlar baxımından region zəngin deyildir Regionda daş, qum, əhəng, çınqıl və digər inşaat materialları ehtiyatları var. Dağlıq ərazilər müalicəvi mineral sularla zəngindir. Kükürd və hidrokarbonat ilə zəngin olan bulaqlar içməli su və müalicə məqsədi ilə istifadə edilir.

f. Sənaye Sahələri

Regionda sənaye sektorunun zəif olması diqqət çəkir. Əsas sənaye sahələri regional kənd təsərrüfatı məhsullarının istehsal olunduğu qida və yüngül sənayedir. Yüngül sənaye sahələri meyvə suyu, tekstil və xalçaçılıqdır. Qida sənayesində isə, region üzümlərinin şərab olaraq istehsalı əsas sahədir. Bundan əlavə regionda meşə və ağac emalı müəssisələri, inşaat materialları, kənd təsərrüfatı texnikaları təmiri zavodları da var.

Şirvan regionu tarixi əl işləri və tekstil mərkəzidir. Lahıc mis istehsalı ilə, Şamaxı ipək şalı istehsalı ilə məşhurdur.

g. Əkinçilik və Heyvandarlıq

Əsas əkinçilik və heyvandarlıq sahələri taxılçılıq, üzümçülük, şərabçılıq, iri və xırda buynuzlu heyvandarlıqdır. Taxıl istehsalında buğda əsas üstünlüyə sahibdir. Digər taxıl məhsulları regional istehlakı ancaq qarşılayır.

h. Qabaqcıl Sektorlar

Regionda inkişaf edən sektorlar arasında ipəkçilik və turizm sektoru qabaqda gedən sahələrdəndir.

4.1.5. Aran İqtisadi Regionu

Ölkənin mərkəzində yerləşən region, mühüm nəqliyyat yolları üzərində yerləşir. Həmin bu nəqliyyat yolları Bakını ölkənin əsas iqtisadi regionlarına bağla-

yır. Eyni zamanda bu yollarla Gürcüstan, İran və Türkiyəyə nəqliyyat imkanı yaranır. Beynəlxalq nəqliyyatdakı artış ilə birlikdə bu yolların əhəmiyyəti də artmışdır. Digər tərəfdən Yevlax-Bakı arasında hava yolu nəqliyyatı mümkündür.

Azərbaycanda istehsal edilən enerji ehtiyatlarının 70%-nin əldə edildiyi Aran iqtisadi regionu ilə əlaqədar ümumi məlumatlar aşağıdakı kimidir:

a. Əhatə Etdiyi Regionlar

Aran İqtisadi regionu Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıgabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonları ilə yanaşı, Şirvan, Mingeçevir və Yevlax şəhərlərini əhatə edir.

b. Sahəsi

21.43 min km^2-lik sahəyə sahib olan region ölkə ərazisinin 24.7%-ni əhatə edir. Region ərazisinin mühüm bir hissəsi (yarısından çoxu) dəniz səviyyəsinin aşağısındakı düzənlik sahələrdən ibarətdir.

c. Əhali və Əhali Sıxlığı

Əlverişli iqlim şəraiti və iqtisadi-coğrafi mövqeyi əhalinin məskunlaşmasında əsas rola sahibdir. 1.936.000 nəfər olan region əhalisi, ölkə əhalisinin 20.5%-nə bərabərdir. Fəal əhali 918 min nəfərdir. Regionda əhalinin sıxlığı 82 nəfər/km^2-dir.

d. İqlimi

Aran iqtisadi regionu quru subtropik iqlimə sahibdir.

e. Təbii Sərvətləri

Təbii ehtiyatlar arasında yeraltı və yerüstü enerji ehtiyatları və mineral su mədənləri var. Bu ehtiyatlar əsasən regionun cənub-şərq və mərkəzində yerləşir.

Zəngin günəş enerjisi, Kür və Araz çaylarının su ehtiyatları, əkinçilik üçün əlverişli torpaqlar regionun digər təbii sərvətləridir.

f. Sənaye Sahələri

Aran iqtisadi regionunda sənaye inkişaf etmişdir. Əsas sənaye sahələri neft, təbii qaz, yod, brom, kimyəvi maddələr, toxuculuq, gön-dəri emalı, inşaat materialları, yüngül və qida sənayesidir. Ərazidə sənaye sahələri cənub-qərbdə Şirvan, Salyan və Neftçala, şimal-qərbdə Mingeçevir və Yevlax şəhərlərində cəmləşmişdir.

g. Əkinçilik və Heyvandarlıq Sahələri

Meyvə-tərəvəz, balıqçılıq, ət, süd, iri-xırda buynuzlu heyvandarlıq, pambıq, şəkər çuğunduru, buğda, kartof və üzüm regiondakı əsas əkinçilik sahələridir.

Ölkənin pambıq istehsalının 90%-i bu regionun payına düşür.

4.1.6. Naxçıvan İqtisadi Regionu

İşğalçı siyasətin nəticəsi olaraq Ermənistan tərəfindən blokadaya alınmış olan bu iqtisadi region Türkiyə, İran və Ermənistan ilə əhatə olunmuşdur. Bu səbəblə iqtisadi-coğrafi mövqeyi etibarı ilə əlverişsiz vəziyyətdə olan region ilə Azərbaycanın digər regionları arasındakı əlaqə yalnız hava yolu ilə təşkil olunur. Dəmir yolu nəqliyyatı tamamı ilə əlverişsiz haldadır. Avtomobil nəqliyyatı isə yalnız İran ərazisindən mümkündür.

Qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan iqtisadi regionu geniş sosial-mədəni infrastruktura sahibdir. Ali, texniki və orta təhsil müəsisələri, mədəniyyət və səhiyyə mərkəzləri, muzeylər və tarixi abidələr regiondakı sosial bazanı əmələ gətirir.

a. Əhatə Etdiyi Regionlar

Naxçıvan İqtisadi regionunu Naxçıvan Muxtar Respublikası əmələ gətirir. Region, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur inzibati rayonlarını və Naxçıvan şəhərini əhatə edir.

Sədərək, Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyətinə və əhalisinin sayına görə ən kiçik rayonu olmaqla birlikdə coğrafi baxımdan xüsusi əhəmiyyətə sahibdir. Türkiyə respublikasının Azərbaycanla 11 kilometrlik sərhəddi bu ərazidə Araz çayı boyunca yerləşir.

1990-cı illərdə Sədərək müharibə cəbhəsini xatırladırdı. Erməni hücumlarının ardı-arası kəsilmirdi. Heydər Əliyevin təşəbbüsü ilə "Ümid Körpüsü" olaraq adlandırılan Sədərək-Dilucu körpüsünün inşası, Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası ilə Türkiyə respublikasının yaxın regionları arasında münasibətlər qurulmuş və güclənmiş olması Sədərəyə də sabitlik gətirmişdir.

b. Ərazisi

Ərazisi 5.5 min km^2 olan Naxçıvan Muxtar Respublikası ölkə ərazisinin 6.3%-ini əhatə edir.

c. Əhali və Əhali Sıxlığı

439.800 nəfərdən ibarət olan regionda ölkə əhalisinin 4.5%-i yaşayır. Regionda əhalinin 198 min nəfəri fəaldır. 1 kvadrat kilometrə 80 nəfər düşür.

d İqlimi

Naxçıvanda müxtəlif iqlim tipləri mövcuddur.

e. Təbii Sərvətləri

Təbii ehtiyatlar baxımından zəngin olan regionda təbii sərvətlər arasında molibden, polimetal filiz, daş duz, dolomit, mərmər, inşaat materialları, dəmirbeton, qum, çınqıl, mineral sular var. Regionda iki yüzdən çox mineral su ehtiyatı vardır.

Ölkədə istehsal edilən molibden və dolomit ehtiyatlarının hamısı, mineral su ehtiyatlarının 60%-i Naxçıvan iqtisadi regionundan əldə edilir. Regionun yalnız 0.5%-i meşələrlə əhatə olunmuşdur.

f. Sənaye Sahələri

Enerji, elektronik məhsullar, sement, şəkər, qida, alüminium boşqablar, mebel istehsalı, ipəkçilik, xalçaçılıq və toxuma-trikotaj regiondakı əsas sənaye sahələridir.

Ölkədə sənaye istehsalının təxminən 2.6%-i bu regionun payına düşür. Sənaye istehsalının yarısı, sənaye istehsal əməyinin 35%-i Naxçıvan şəhərinin payına düşür.

Sənayedə qabaqcıl sahələr enerji, alüminium fabrikləri, mebel, avtomobil təmiri müəssisələridir. İnşaat materialları sənayesində isə dəmir-beton, divar üzlük materialları, qum və çınqıl müəsisələri hesab edilir.

Regionda yüngül və qida sənayesi isə xüsusi əhəmiyyət kəsb edir. Yüngül sənaye olaraq toxuculuq, ipək emalı, xalçaçılıq, toxuculuq müəssisələri, qida sənayesi olaraq isə, konservləşdirmə, tütün emalı, mineral su doldurulması, ət emalı və balıq məhsulları istehsal edən müəsisələr diqqət çəkir.

g. Əkinçilik və Heyvandarlıq Sahələri

Tütün, üzüm, meyvə, tərəvəz, buğda, xına, şəkər çuğunduru, ət-süd və yun istehsalı ilə əlaqədar qida məhsulları, arıçılıq və balıqçılıq isə regiondakı əkinçilik və heyvandarlıq sahələridir. Əkinçilik məhsulları istehsalı ölkə göstəricilərinin 3.6%-ini təşkil edir.

İqlim şərtlərinin əlverişli olması, əkinçilik sektorunda fərqli sahələrdə ixtisaslaşmaya imkan yaratmışdır. Naxçıvan, ölkədəki ikinci əsas tütün istehsal edən iqtisadi regiondur.

1992-ci ildə Naxçıvanda başlayan əkinçilik islahatları 1996-cı ildən etibarən daha da sürətləndi.

Əkinçilik məhsullarının istehsal həcmini artırmaq üçün fermerlərə lazımi köməkliklər göstərilmişdir. Əsas problemlerden olan suvarma problemləri yenidən inşa və təmirlərlə aradan qaldırılmağa çalışılmışdır. Nəticədə hər keçən il kənd təsərrüfatı məhsulları istehsalında artış müşahidə edilir.

Regionda heyvandarlıq da eyni illərdə artış göstərmişdir.

4.1.7. Lənkəran İqtisadi Regionu

Azərbaycanın cənub-şərqində yerləşən regionda nəqliyyat sistemi iqtisadi inkişaf və Azərbaycanla İran arasında iqtisadi münasibətlərin inkişafında xüsusi rol oynayır. Bakı-Lənkəran arasında hava yolu nəqliyyatı imkanı da mövcuddur.

Sosial infrastruktur olaraq regionda ali və orta təhsil müəsisələri, xəstəxanalar, teatrlar, regional muzey və digər sosial infrastruktur müəssisələri fəaliyyət göstərir.

Ölkədə istehsal olunan çayın demək olar ki, hamısının istehsal olunduğu Lənkəran iktisadi regionuna dair məlumatlar aşağıdakı kimidir:

a. Əhatə Etdiyi Regionlar

Region Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarını əhatə edir. Bu region şərqdə Xəzər dənizi ilə, qərbdə və cənubda isə İranla sərhəddir.

b. Ərazisi

Ümumi sahəsi 6,08 min km^2 olan region ölkə ərazisinin 7%-ni təşkil edir. Lənkəran ovalığı və Talış dağları tərəfindən ikiyə bölünmüş bir topoqrafik xarakter göstərir.

c. Əhali və Əhali Sıxlığı

893.000 nəfər olan region əhalisi, ölkə əhalisinin 9.3%-ni təşkil edir. Əlverişli iqtisadi-coğrafi mövqeyi əhalinin sıxlığında xüsusi rola sahibdir. Regionun fəal əhali sayı isə 366 min nəfərdir. İqtisadi regionun hər kvadrat kilometrinə 147 nəfər düşür. Lənkəran ovalığında isə, əhali sıxlığı 170 nəfərdir.

d. İqlimi

Təbii şərtlər baxımından region ölkənin digər iqtisadi regionlarından fərqlənir. Lənkəran iqtisadi regionunda dünyadakı 11 fərqli iqlim tipindən 7-si mövcuddur. Əsasən rütubətli subtropik iqlim tipinə sahibdir.

e. Təbii Sərvətləri

İqtisadi regionda çox az təbii ehtiyat mövcuddur. Gips, çay daşı və inşaat qumu regiondakı əsas təbii sərvətlər sayıla bilər.

Region termal su baxımından isə zəngindir. Gözəl təbii ərazilər, isti və soyuq mineral sular, əlverişli iqlim şərtləri və inkişaf etmiş nəqliyyat qovşağı regionda istirahət sanatoriya turizminin inkişafına lazımi şərait yaradır. Lənkəranda turizm mərkəzi, İstisuda isə müalicə mərkəzi fəaliyət göstərir.

Ərazinin 26%-i meşələrdən ibarətdir.

f. Sənaye Sahələri

Region iqtisadiyatı əkinçilik sənaye komplekslərinə əsaslanır. Sənaye sektorunun isə qida sənayesi və balıqçılıq məhsullarına görə qurulduğunu demək olar. Digər sənaye sahələri arasında meşə məhsulları sənayesini misal göstərə bilərik.

Sənaye istehsalının 90%-i qida sənayesinin payına düşür. Qida sənayisində balıq, çay, meyvə-tərəvəz konservaları, şərab istehsalı, tütün mühüm yer tutur.

g. Kənd Təsərrüfatı və Heyvandarlıq Sahələri

Meyvə-tərəvəz, çay, üzüm, taxıl məhsulları və kartof regiondakı əsas kənd təsərrüfatı sahələridir. Rütubətli subtropikal iqlim, faydalı torpaqlar, su və faydalı iş gücü qaynaqları kənd təsərrüfatının regionda inkişaf etməsində mühüm

rol oynayır. Region, ölkənin sitrus meyvələri istehsalında ən əsas iqtisadi regiondur.

Sahilyanı ərazilərdə isə, balıqçılıq fəaliyyət göstərir. Quşçuluq da regionda inkişaf etmişdir.

Ölkədə istehsal olunan çayın 99%-i, tərəvəzin 27%-i, buğdanın 15%-i, kartofun 24%-i, üzümün 13%-i və meyvənin 10%-i bu regionun payına düşür.

h. İnkişaf Etmiş Sektorlar

İnkişaf edən sektorlar arasında çayçılıq diqqəti cəlb edir.SSRİ-də Azərbaycan çay istehsalına görə Gürcüstandan sonra ikinci yerdə gəlirdi.

Ölkədə inkişaf proqramları istiqamətində çay plantasiyaları və müəssisələri özəlləşdirilmişdir.

Lənkəran-Astara regionu başda olmaqla ölkədə çayçılığın inkişaf etməsi məqsədiylə əkinçilərə kredit və texniki imkan verilmişdir. Çayçılığın inkişaf etdirilməsində qarşıya qoyulan məqsəd, ölkəni çay ixrac edən ölkəyə çevirmişdir.

4.1.8. Quba-Xaçmaz İqtisadi Regionu

Sərhəd şəhərlərdən təşkil olunması səbəbiylə, Quba-Xaçmaz iqtisadi regionu strateji əhəmiyyət kəsb edən regionlardan biridir. Ölkənin şimal-şərqində yerləşir. Region, Xəzər Dənizi ilə uzun sahil xəttinə sahibdir.

Region əlverişli nəqliyyat-coğrafi mövqeyinə sahibdir. Regiondan keçən avtomobil yolu, dəmir yolu, neft, təbii qaz və su boru xətləri, telekommunikasiya xətləri region iqtisadiyatının inkişaf etməsində mühüm rol oynayır. Kommunikasiya xətləri Azərbaycan və Rusiyanı bir birinə bağlayır.

Sosial infrastruktur, regiondakı sosyo-iqtisadi inkişaf və sosyo-iqtisadi tələblərin qarşılanması baxımından əhəmiyyət kəsb edir. Regionda xalq kitabxanaları, teatr, xəstəxana və digər sosial infrastruktur müəssisələri fəaliyyət göstərir.

Quba-Xaçmaz İqtisadi Regionuna aid ümumi məlumatlar aşağıdakı kimidir:

a. Əhatə Etdiyi Regionlar

Quba-Xaçmaz İqtisadi Regionu Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən inzibati rayonlarından təşkil olunmuşdur.

b. Sahəsi

Ümumi sahəsi 7.66 min km^2 olan Quba-Xaçmaz İqtisadi Regionu ölkə ərazisinin 8.8%-ini əhatə edir.

c. Əhali və Əhali Sıxlığı

525.700 nəfərdən ibarət regionda ölkə əhalisinin 5.6 %-i yaşayır. Əhalinin 257 min nəfəri fəaldır. Hər kvadrat kilometrə isə 76 nəfər düşür. Topoqrafik qu-

ruluşu səbəbiylə region əhalisi daha çox Xəzər Dənizinin sahilindəki düz sahələrdə yaşayır. Əhalinin 32%-i şəhərdə, 68% -i isə kənd ərazilərində yaşayır.

d. İqlimi

Region dörd fərqli zonaya bölünən spesifik bir topoqrafik xarakterə sahibdir. Buna görə də isti, soyuq-nəmli və soyuq olmaqla müxtəlif iqlim tiplərinə sahibdir.

e. Təbii Sərvətləri

Regionun təbii ehtiyatları arasında neft, təbii qaz, yanar şist, qum, çınqıl və içməli su yer tutur.

Meşələr regionun 10-11%-ini əhatə edir. İqtisadi region təbii istirahət ehtiyatları baxımından zəngindir. Ölkədəki ən əhəmiyyətli sanatoriya bu regiondadır. Siyəzəndə Qalaaltı mineral suyunda yerləşən ölkənin əhəmiyyətli sanatoriyası fəaliyyət göstərir.

f. Sənaye Sahələri

Region sənayesi neft və təbii qazdan asılıdır. Regionun neft və təbii ehtiyatları Siyəzən rayonunda (Keşçay, Siyəzən-Nardaran, Əmircan, Zoğlu-Zeyvə, Təngi, Saadan, Vəyimdağ-Toğçay v.s.) cəmləşmişdir.

Region iqtisadiyatının sektoral strukturunda kənd təsərrüfatı sektorunun hegomonluğu, yüngül və qida sənayesinin inkişafına imkan yaradır. Kənd təsərrüfatı sənayesi sahəsində meyvə-tərəvəz konservaçılığı, xalçaçılıq və balıq məhsulları mühüm yerə sahibdir.

g. Kənd Təsərrüfatı və Heyvandarlıq Sahələri

İqtisadi regionda üstünlüyə sahib olan sektor kənd təsərrüfatı və heyvandarlıqdır.

Kənd təsərrüfatı xüsusiylə, meyvə və tərəvəz istehsalında cəmləşmişdir. Bunlarla birlikdə üzüm, kartof və buğda da itsehsal olunur. Süd və ət istehsalı məqsədiylə iri və xırda buynuzlu heyvandarlıq regionun düzənlik ərazilərində inkişaf etmişdir. Regionun Siyəzən və Dəvəçi rayonlarında isə quşçuluq yayılmışdır.

h. İnkişaf Etmiş Sektorlar

Regionun inkişaf etmiş sektorları arasında isə turizm qabaqda gəlir.

Regionda turizm baxımından əhəmiyyət daşıyan yerlər Yalama-Xudat dəniz kənarı, böyrək xəstəlikləri üçün Qalaaltı müalicə mərkəzi, Qusar, Quba, ovçuluq və balıqçılıq baxımından Xaçmaz və Dəvəçidir.

Turizmlə yanaşı regionda konservaçılıq, spirtli və spirtsiz içkilər, un, ət və süd məhsulları istehsalı, qablama, inşaat materialları və xalçaçılıq investisiya qoyulması baxımından daha əlverişli sahələr hesab edilə bilər.

Regionda yerləşən Siyəzən rayonunda neft sənayesiylə yanaşı digər rayonlarda olduğu kimi konservaçılıq, toyuqçuluq, spirtsiz içkilər, un, ət və süd məhsulları istehsalı da qabaqcıl investisiya qoyulan sahələr arasındadır.

4.1.9. Yuxarı Qarabağ İqtisadi Regionu

Regionun böyük bir hissəsi Ermənilər tərəfindən işğal edilmişdir. İşğal edilən region torpaqları yenidən müstəqilliyini əldə etdikdən sonra region ilə əlaqədar dövlət tərəfindən xüsusi proqramın hazırlanmasına qərar verilmişdir.

Təbii ehtiyatlar və turistik yerlərlə zəngin olan region haqqındakı ümumi məlumatlar aşağıda verilmişdir:

a. Əhatə Etdiyi Regionlar

Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli inzibati rayonları və Xankəndi şəhərindən ibarət olan Yuxarı Qarabağ İqtisadi Regionunun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl inzibati rayonları və Xankəndi şəhərinin hamısı ilə Ağdam və Füzuli rayonlarının bir hissəsi Ermənilər tərəfindən işğal edilmişdir.

b. Sahəsi

Ağdam, Füzuli rayonlarının işğal olunmayan hissələri ilə Tərtər rayonunun ümumi sahəsi 1482 km^2-dir.

c. Əhali və Əhali Sıxlığı

Yenə işğal altında olmayan region torpaqlarında yaşayan əhalinin sayı 211.800 nəfərdir. Hər kvadrat kilometrə isə 143 nəfər düşür.

d. Sənaye Sahələri

Regionda sənaye, kənd təsərrüfatı məhsullarının istifadəsindən asılıdır.

e. Kənd Təsərrüfatı və Heyvadarılıq Sahələri

Regionun əsas kənd təsərrüfatı və heyvandarlıq sahələri üzüm, buğda, meyvə, tütün və heyvandarlıqdır. Region üzüm istehsalı ilə diqqəti cəlb edir. Yüksək dağlıq regionlarda ət, süd və yun istehsal etmək üçün iri buynuzlu heyvandarlıqla məşğul olurlar. Eyni zamanda iqtisadi regionda arıçılıq və tut istehsalı da inkişaf etmişdir.

4.1.10. Kəlbəcər-Laçın İqtisadi Regionu

Regionun tamamı Ermənilər tərəfindən işğal edilmişdir. İşğal edilən region yenidən müstəqilliyinə qovuşduqdan sonra regionla bağlı dövlət tərəfindən xüsusi proqramın hazırlanmasına qərar verilmişdir.

a. Əhatə Etdiyi Regionlar

İqtisadi region, Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı regionlarını əhatə edir.

b. Sahəsi

Sahəsi 6.500 km^2 olan bu region, ölkə ərazisinin7.5%-ini təşkil edir.

c. Təbii Sərvətləri

Regionun təbii sərvətləri arasında qızıl, civə, mərmər, qopald, perlit, qablama inşaat daşları yer tutur.

d. Sənaye Sahələri

Sənayenin əsas hissəsi qida və kiçik nisbətdə isə yüngül sənayedən ibarətdir.

e. Kənd Təsərrüfatı və Heyvandarlıq Sahələri

Region iqtisadiyatının əsas sahələri kənd təsərrüfatı və heyvandarlıqdır. Xüsusilə, regionun iri buynuzlu heyvandarlıq və arıçılıq üçün əlverişli olduğunu qeyd etmək mümkündür.

4.2. REGİONAL İNKİŞAF PROQRAMLARININ ZƏRURİLİYİ

XX əsrin sonlarında müstəqilliyini əldə edən Azərbaycan bir çox çətinliklərlə üz-üzə qalmışdır. Sosyo-iqtisadi məsələlərin həlli, mütəmadi olaraq dövlətin diqqət mərkəzində olsa da, Azərbaycan iqtisadi sahədə yüksək müvəffəqiyyətlərə nail ola bilməmişdir. 1996-cı ildə həyata keçirilən iqtisadi reformlar nəticəsində ölkənin sosyo-iqtisadi həyatında geriləmə dayanmış və nəticədə adam başına düşən ÜDM-nin həcmi artmış, valyuta bazarında stabillik, büdcə kəsirinin minimum səviyyəyə salınması kimi mühüm və müsbət addımlar atılmışdır.

Xülasə, son 20 ildə həyata keçirilən iqtisadi tənzimləmələrlə, ölkədə makroiqtisadi stabillik əldə edilmiş, iqtisadiyyatın dinamik inkişafına təkan verilmiş və xalqın həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Ancaq, keçən bu dövrdə iqtisadi dəyişiklik və dirçəliş baxımından hələ yolun başında olan Azərbaycan, dirçəliş cəhdlərində region bölgüsünə gedəcək və regiona inkişaf siyasətini tətbiq edəcək vəziyyətdə deyildi. Şərtlər, daha çox neft və təbii qaz hasil və ixracına istiqamətlənmiş performans göstərməyi və region və sektor bölgüsü etmədən əvvəl xarici sərmayəni ölkəyə çəkməyi tələb edirdi.

2004-cü ildən etibarən isə, sosyo-iqtisadi dirçəliş baxımından yeni mərhələyə addım atan Azərbaycanda həlli zəruri olan məsələlərdən biri də regionlarda özəl sahibkarlığın inkişafını artıraraq iş gücü, təbii və iqtisadi potensialdan səmərəli şəkildə istifadə edərək iqtisadiyyatın əbədi inkişafını, iş gücünün istifadəsinin artırılmasını və bu yolla ölkədə yoxsulluq səviyyəsinin azaldılmasını əldə etmək olmuşdur. Bu istiqamətdə alınan tədbirlərin həyata keçirilməsi, regionların iqtisadi dirçəlişində mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional balansın əldə edilməsini təmin edəcəkdir.

Dünya təcrübəsi göstərir ki, regionlararası bərabər inkişafla daha yüksək iqtisadi nəticələr əldə etmək mümkün ola bilər. Bu baxımdan Azərbaycanın tam mənasıyla dirçəlməsi, hər bir regionun iqtisadi səviyyəsinin yüksəldilməsindən asılıdır. Ölkənin ayrı-ayrı regionlarında iqtisadiyyatın sərbəst bazar prinsipi əsasında dirçəlməsinin vacibliliyi ən mühüm problemlərdən biridir.

Bakı və Sumqayıt şəhərlərində iqtisadiyyat sürətlə inkişaf edir. Ancaq, ölkənin sosyo-iqtisadi səviyyəsini sadəcə bir-iki şəhərin iqtisadi gücü ilə müəyyənləşdirmək mümkün deyil. Azərbaycanda mütləq mənada iqtisadi inkişafın təmin olunması üçün digər regionlarda da iqtisadi inkişafa xüsusi əhəmiyyət verilməsi və müəyyən tədbirlərin görülməsi lazımdır. Qonşu ölkələr Ermənistan və Gürcüstanla müqayisədə Azərbaycanın əlverişli iqtisadi-coğrafi şərtləri iqtisadiyyatın regional strukturunun səmərəli şəkildə formalaşdırılmasına imkan verir. Regional iqtisadi dirçəlişin də əsas göstəricilərindən biri olan xarici sərmayənin ayrı-ayrılıqda hər bir regiona cəlb edilməsi, əldə edilmək istənilən məqsədə uyğundur.

Dövlət büdcəsinin mövcud vəziyyəti daxili ehtiyatlar sayəsində regionların sosyo-iqtisadi vəziyyətinin inkişafına imkan verir. Bunun üçün də regionlarda xarici investisiyanın üstün olduğu özəl sahibkarlıq mühitinin yaradılması zəruridir.

Regionlarda mövcud olan enerji ehtiyatları, insan qaynaqları, təbii sərvətlər, hökümətlərin eyni ehtiyatlardan maksimum dərəcədə faydalanması üçün lazımi şərtləri yaratdığı halda regional iqtisadi dirçəlişə imkan verəcək potensialdadır. Ölkə öz pambıq, üzüm, tütün, meyvə-tərəvəz və yeraltı suları ilə zəngindir. Regionlarda olan xammal miqdarı regionlarda sənaye sektoru, xüsusilə, emal sənayesinin dirçəlişinə imkan verir.

Əkinçilərə müəyyən köməklik və güzəştlər edilməklə yanaşı, onlar bir çox problemlərlə qarşı qarşıyadır. Maddi baxımdan kifayət qədər imkanı olmayan kəndlilər, kredit imkanlarından kifayət qədər faydalana bilmirlər. Hətta bəzi regionlarda ən kiçik problemlərin həlli belə mümkün olmur. Təbii qazın, elektrikin olmaması və kənd təsərrüfatı təchizatlarına və texniki məlumata olan ehtiyac da digər problemlərdəndir. Belə bir mühitdə dövlətin kənd təsərrüfatı sektorundakı sahibkarlara marağının vacibliyi qaçınılmazdır.

Turizmə faydalı olan regionlar biganəlikdən istifadə edilməz vəziyyətə, xarabalığa çevrilmişdir. Zaman ərzində Sovetlər İttifaqından, hətta digər sosialist ölkələrdən turist cəlb edən turistik şəhər olan Naftalan maraqlanılmayaraq öz başına tərk edilmişdir. Halbuki kənd təsərrüfatı və turizmi dirçəldəcək investorları regionlara çəkmək və sosyo-iqtisadi şərtləri artırmaq mümkündür. Dünyanın ABŞ, Almanya, Fransa, Yaponiya və digər inkişaf etmiş ölkələri sosial dirçəliş sahəsində qazandıqları yüksək nəticələri bir çox cəhətdən ölkənin iqtisadi dirçəlişinə kompleks yaxınlaşma ilə, regionların dirçəlişinə diqqəti artırmaqla əldə etmişlər.

Ölkəyə qoyulan investisiyaların 80%-i paytaxtın payına düşür. Ölkənin digər regionlarında sənaye sektoru yox deyiləcək qədər zəifdir, mövcud müəssisələr isə tam gücü ilə işləmir. Ölkədə sənaye potensialının əsas hissəsinin Bakı və ona yaxın ərazilərdə yerləşməsi xalqın həmin bu regionlara axınını artırmışdır. Məhz bu, müstəqillik əldə etdikdən sonra digər şəhərlərdə yaşayan

əhalinin kütləvi olaraq paytaxta axımına səbəb olmuşdur. Regionlarda iş tapa bilməyənlər Bakıya gəlirlər ki, bu da nəticədə paytaxtda əhali sıxlığının artmasına və bir çox problemin meydana çıxmasına səbəb olmuşdur. Həm Bakı, həm də ölkənin digər regionlarında xroniki işsizliyin olması səbəbiylə minlərcə insan ölkəni tərk etmişdir.

Region insanlarının Rusiyanın müxtəlif şəhərlərinə iş tapa bilmək məqsədiylə axını da çox ciddi problemlərə səbəb olmuşdur.

Ölkədə Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 67 şəhərin, mərkəzi xərclərdən asılı olduqlarını, yəni, onların iqtisadi cəhətdən paytaxtdan asılı olduqlarını göstərir. Ölkə miqyasında regionların mərkəzdən asılılığı 60%-ə yaxındır. Sənayenin nisbətən inkişaf etdiyi Sumqayıt şəhərində bu nisbət 46.4%, Gəncədə 51.8%, Mingəçevirdə 66.8% təşkil edərkən, sənayenin çox zəif və ya yox deyiləcək səviyyədə olduğu Qəbələnin paytaxdan asılılığı 90.7%, Daşkəsənin 90.2%, Yardımlının 93.5% və Xaçmazın 80.6% təşkil edir. Bu asılılıq nisbətləri ancaq regionların dirçəlişinə kompleks nəzəriyyə nəticəsində azalacaqdır.

4.3. REGİONLARIN İNKİŞAF PROGRAMI (2004-2008)

"Əsrin müqaviləsi" imzalandıqdan sonra müstəqil Azərbaycanın iqtisadiyyatında inkişaf prosesi başlamışdır. Ancaq, qoyulan investisiyalar və infrastrukturda yaxşılaşdırma və yenidenqurma işləri daha çox Bakıda həyata keçirilə bilmişdir. Bunun müqabilində, ölkənin digər regionları diqqət mərkəzindən xaricdə qalmışdır. Bu da, paytaxtla digər şəhərlər arasında sosyo-iqtisadi səviyyədə mühüm fərq yaratmışdır. Bu isə, ölkə üçün təhlükəli bir vəziyyət demək idi. Büdcədə digər regionların payı təxminən 10-12% idi. Ölkədə qoyulan investisiyaların maksimum 15-17%-i digər regionlara qoyulurdu. Regionlarda ortaya çıxan işsizlik, yuxarıda da ifadə edildiyi kimi, Bakıya iş gücü axımını artırdı. İnfrastruktur, elektrik, su, təbii qaz xidmətlərində istifadədə ciddi axsamalar olurdu.

Regionların sərvətlərindən səmərəli istifadə edərək; kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sektorunun; emalat sənayesinin, xidmət və digər infrastruktur təhçizatının, turizmin inkişafını təmin etmək, məşğulluq səviyyəsini artırmaq və xalqın həyat səviyyəsini daha da yaxşılaşdırmaq məqsədiylə regionun inkişafına dair bir proqram lazım idi.

Bu çərçivədə Azərbaycanın sosyo-iqtisadi inkişafının sürətlənməsi haqqında 24 Noyabr 2003-cü ildə imzalanan fərman ilə ölkənin sosyo-iqtisadi inkişafının əsas istiqamətləri müəyyən edilərkən, eyni zamanda regionların inkişafı haqqında xüsusi bir dövlət proqramının hazırlanması haqqında da əmr verilmişdir.

11 Fevral 2004-cü ildə isə, ölkə prezidenti İlham Əliyev "Azərbaycan regionlarının 2004-2008-ci illərdə sosyo-iqtisadi inkişafı ilə əlaqədar dövlət proq-

ramının həyata keçməsi haqqında" fərman imzaladı. Təsdiq edilen proqram, Azərbaycan iqtisadiyatının tarazlı və ardıcıl inkişafını müəyyən edən çox əhəmiyyətli bir sənəddir. Dövlət Proqramında ölkənin iqtisadi regionlarının kənd təsərrüfatı, sənaye və sosial sahələrinin ikişafının sürətləndirilməsi, infrastrukturun qurulması ilə bağlı mövzular öz əksini tapmışdır.

Azərbaycanda 15-dən çox Dövlət Proqramı icraya qoyulmuşdur. Bu proqramların hər biri milli iqtisadiyatın sərbəst bazar iqtisadiyatına görə yenidən formalaşmasını həyata keçirdərək, Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyasının sürətləndirilməsini, xalqın rifah səviyyəsinin yaxşılaşdırılmasını, yoxsulluğun və işsizliyin azaldılmasını qarşıya məqsəd qoymuşdur. 11 Fevral 2004-cü il tarixli Dövlət Proqramı da regionlarda sosial problemlərin həll edilməsi, işsizliyin azaldılması, qısaca xalqın rifah səviyyəsinin yaxşılaşdırılması üçün vaxtında atılan bir addım olmuşdur. Ancaq, regionların inkişafı haqqında Proqram digərlərindən daha böyük əhəmiyyətə malikdir:

Həmin bu dövlət proqramının dövlət başçısı tərəfindən təsdiqlənməsi dövlətin regionlara göstərdiyi qayğı və regional problemlərin həlli üçün atılan ən əhəmiyyətli addım olaraq dəyərləndirilə bilər. Bu səbəblə də Dövlət Proqramı, Azərbaycanda regionların iqtisadi potensialının və təbii sərvətlərinin səmərəli şəkildə istifadəsi ilə başda kənd təsərrüfatı sektoru olmaqla qeyri-neft sektorunu canlandırmaq və inkişaf etdirmək, beləliklə ölkədə məşğulluq səviyyəsini artıraraq xalqın gəlir və yaşayış səviyyəsinin artırılmasını təmin etmək üçün atılan ən əsas addımlardan biridir.

Əlbəttə ki, hər bir ölkədə mövcud təbii və bəşəri potensialın səmərəli şəkildə istifadə edilə bilməsi üçün, infrastrukturun müasir tələblərə cavab verən bir səviyyədə olması lazımdır. Bu baxımdan da proqram böyük əhəmiyyət daşıyır.

Görüləcək fəaliyyətlərin konkret olaraq müəyyənləşməsi isə, proqramın səmərəliliyini daha da artırır.

Dövlət Proqramında regionlarda iqtisadiyatın inkişafını sürətləndirən tədbirlər, bununla əlaqədar dövlət siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Dövlət Proqramı üç hissədən ibarətdir. Birinci hissədə, Azərbaycanın iqtisadi rayonlarının ümumi strukturu, ikinci hissədə, 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafının əsas hədəfləri, üçüncü hissədə isə, regionlarda proqram çərçivəsində tətbiq edilməsi diqqətə alınan tədbirlər və bu tədbirlərin tətbiq edənləri və tətbiq etmə müddəti haqqında məlumatlar yer alır.

Hər regiondakı problemlər və problemlərin həlli üçün təqvim müəyyən edilərək hansı təşkilatlar tərəfindən problemlərin həll ediləcəyinin ifadə edilmiş olması da proqramı əvvəlki proqramlardan fərqləndirən xarakterlərdən biridir.

Dövlət Proqramı çərçivəsində tətbiq olunacaq tədbirlərin; dövlət büdcəsi, Özəl Sahibkarlığa Milli Yardım Fondu, büdcədən kənar dövlət fondları, ticarət bankları və bank olmayan kredit təşkilatlarının kreditləri, beynəlxalq təşkilat-

ların və xarici dövlətlərin maliyyə ehtiyatları, yerli və xarici iş adamlarının maliyyə ehtiyatları, qanunla qadağan edilməyən digər ehtiyatlardan əldə edilən ehtiyatlar ilə maliyyələşdirilməsi diqqətə alınmışdır. Bu vaxtda Dövlət Neft Fondunun ehtiyatlarından da faydalanılacaqdır. Proqramın həyata keçirilməsi üçün yerli maliyyə ehtiyatları təxminən 5-6 milyon manat həcmində müəyyənləşdirilmişdir.

4.3.1. Proqramın Ümumi Hədəfləri

Regional sosyo-iqtisadi inkişafa dair hazırlanan bu Dövlət Proqramında;

- makroiqtisadi stabilliyin davam etməsi,
- kiçik nisbətdə inflyasiyanın davam etməsi,
- optimal dövlət tərtibatı, investisiyaların stratejik əhəmiyyətli sahələrə istiqamətləndirilməsi,
- kənd təsərrüfatı sektorunda aparılan reformların ikincisinin həyata keçirilməsi,
- özəl sahibkarlığın regionlarda inkişaf etməsi məqsədiylə özəlləşdirmənin sürətləndirilməsi,
- ixrac potensialının artırılması, qeyri-neft sektorlarının inkişaf etməsi məqsədiylə investisiya texnologiyalarının tətbiqinə istiqamətlənən struktur siyasətlərinin tətbiq edilməsi,
- özəl sahibkarlıq üçün investisiya mühitinin yaxşılaşdırılması
- sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi əsas istiqamətlər olaraq müəyyən edilmişdir.

Proqramın məqsədi; mövcud potensialdan səmərəli istifadə edərək regionların iqtisadiyatının ayrı-ayrı sahələrinin inkişafı, istehsalla məşğul olan şirkətlərin fəaliyyətinin yenidən başlamasını və daha da genişlədirilməsini, ixrac oluna bilən məhsul istehsalını təşviq etmək, yerli sahibkarlığın inkişaf etməsi ilə xalqın gəlir səviyyəsinin yaxşılaşdırılması, məşğulluq səviyyəsini, xüsusilə də gənclərin faydalı sahələrdə məşğulluğu və ölkə iqtisadiyatının dinamik inkişafını təmin etmək olaraq müəyyən edilmişdir.

Regionların ənənəvi istehsal sahələrinin yenidən inşası və qurulması, yeni istehsal sahələrinin inşası, yerli qaynaqlardan istifadədə məhsuldarlılığın artırılması, regionların inkişafı üçün lazımi infrastrukturun qurulması, yeni iş yerlərinin açılmasının təşviq edilməsi, regionlara investisiyaları istiqamətləndirmək üçün lazım olan investisiya mühitinin əmələ gətirilməsi əsas məqsədlər olaraq müəyyənləşdirilmişdir.

Regionların sosyo-iqtisadi inkişafı ilə əlaqədar Dövlət Proqramında ölkənin 10 iqtisadi coğrafi rayonunda 30 əsas lahiyənin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bunlar yeni komplekslərin inşa edilməsi və turizm infrastrukturunun qurulması ilə də əlaqədardır. Proqramda təhsil, səhiyyə, kənd təsərrüfatı kimi

sosyo-iqtisadi həyatın bütün sahələrində islahatların aparılması nəzərdə tutulmuşdur.

Dövlət Proqramı, 2009-cu ildəki Ümumi Daxili Məhsulu 2003-cü il ilə müqayisədə 2.3 dəfə artaraq 76.3 trilyon manat çatdırmağı planlamışdır. Özəl sektorun isə, ÜDM-dəki payının 85% olması planlaşdırılmışdır. ÜDM içində kənd təsərrüfatı sektorunun artım nisbəti isə, 10-15% səviyyəsində olmuşdur. Proqrama əsasən İnvestisiya həcmi 16.8 milyard dollara çatdırılmalı və bunun 60%-i regionlara yönləndirilməli idi. Proqramın tətbiq edildiyi 5 il ərzində 600.000 iş yeri açılmış və orta aylıq əmək haqqları 3,1 dəfə artmışdır.

Dövlət Proqramı 2008-ci ilə qədər davam etmiş və daha sonra 2008-2012 regionların inkişafı proqramı ilə davam etdirilmişdir. Bu müddətdə; tarazlı inkişaf sürətinə çatmaq üçün zəruri infrastrukturun qurulması, işləməyən müəssisələrin istehsal fəaliyyətinin yenidən başladılması və regionlara investisiya axınının gücləndirilməsi məqsədilə əhəmiyyətli addımların atılması gözlənilir. Bununla yanaşı proqramın kənd təsərrüfatının inkişafına, emalat müəssisələrinin qurulmasına, regionlarda sosial xidmətlərin yaxşılaşdırılmasına imkan yaradacağı ehtimal olunur.

4.3.2. Proqramın Regional Hədəfləri

Dövlət Proqramında işğal altında olan regionlar xaricindəki regionlarla əlaqədar regional hədəflər də müəyyən edilmişdir.

Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə-Qazax və Lənkəran regionlarında su problemləri digər regionlara nisbətən azdır. Qarabağ, Mil, Muğan və Abşeron regionlarında isə, su problemləri demək olar ki ilin bütün dövrlərində davam edir. Su problemlərinin həlli məqsədilə regional iqtisadi proqramda hədəflər müəyyən edilərək və müəyyən edilən hədəflər çərçivəsində əhəmiyyətli addımlar atılmağa başlanılmışdır.

Lənkəran, Astara, Masallı, Cəlilabad, Biləsuvar, Lerik və Yardımlı rayonlarının təşkil etdiyi ölkənin cənub regionunda kənd təsərrüfatının və turizmin inkişaf etməsi üçün böyük potensial var. Eyni zamanda regionda çayçılığın, taxılçılığın, heyvandarlığın və emalat sənayesinin inkişafı üçün də böyük imkanlar vardır.

Abşeron zonasında kənd təsərrüfatının və emalat müəssisələrinin fəaliyyətinin gücləndirilməsi, bu zonada turizmin inkişafı da layihədə nəzərə alınmışdır.

Lənkəran, Dağlıq Şirvan, Quba-Xaçmaz iqtisadi rayonları da əsasən kənd təsərrüfatı və emalat müəssisələrinin inkişafına dair layihələrlə diqqət cəlb edir.

Gəncə-Qazax Regionu**:** Proqramda diqqəti çəlb edən digər bir nöqtə isə, ölkədə iqtisadi baxımdan əhəmiyyətli görülən Gəncə-Qazax iqtisadi rayonunda istehsalçı və emal edici sənaye müəssisələrinin inkişafının nəzərdə tutulmasıdır.

Gəncə şəhəri üzrə 64 layihəyə 3,5 milyon manat kredit ayrılması nəzərdə tutulmuşdur.

Şəmkir şəhəri üzrə 22 layihəyə 1,2 milyon manat kredit ayrılmışdır. Kredit veriləcək layihələrdən 24-ü orta və böyük həcmlidir. Bu layihələrin kreditləndirilməsi üçün 565 milyon manatdan çox qaynaq ayrılacaqdır. Bu, layihələrin həyata keçirilməsi üçün kreditlərin təxminən 200-ü mikro və kiçik həcmlidir. Ümumi həcmi 4,4 milyon manat olan bu kreditlərin səmərəli istifadəsi 550-dən çox yeni iş yerinin açılmasına imkan vermişdir. Ayrılan kreditlər istifadəsi nəticəsində 950 nəfər iş imkanı əldə etmişdir.

Şəki-Zaqatala Regionu: Kənd təsərrüfatı sektorundakı xüsusi yeri ilə diqqəti çəkən Şəki-Zaqatala iqtisadi rayonunda isə, daha çox kənd təsərrüfatı və emalat sənayesinin inkişafına üstünlük veriləcəkdir.

Zaqatala Regionu üzrə 5 layihəyə 2,312 milyon manat kredit ayrılacaq. Həyata keçiriləcək tədbirlər nəticəsində 300-ə yaxın yeni iş yerlərinin açılması nəzərdə tutulmuşdur.

Şəki Regionu üzrə ümumi miqdarı 1,063 milyon manat olan 4 layihəyə kredit ayrılmasına qərar verilmişdir.

Qəbələ Regionu üzrə ümumi miqdarı 490 min manat olan 1 layihəyə kredit ayrılmasına qərar verilmişdir.

Balakən Regionunda də bir layihə üçün ümumi miqdarı 490 min Manat olan kredit ayrılmışdır.

Lənkəran, Dağlıq Şirvan, Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonları başda olmaqla regionların eko-turizm baxımından inkişafı da birincilər arasındadır.

Abşeron iqtisadi regionunda 2010-ci ilə qədər yeni istirahət zonaları inşa edilmişdir. Regionun Qızılqazma kəndində turizm kompleksinin açılması ilə Xızı rayonuna turist axımının artacağı düşünülür.

Gəncə-Qazax iqtisadi regionundakı Goranboy inzibati rayonunun "Gülüstan" ərazisində müalicə məqsədiylə turistik müəssisələr inşa edilməsi qarşıya hədəf olaraq qoyulmuşdur.

Quba-Xaçmaz iqtisadi regionundakı Quba, Dəvəçi və Xaçmaz rayonları istirahət zonaları olaraq məşhurdur. Nabran qəsəbəsi beynəlxalq turizm mərkəzi olmağa başlamışdır. Bu prosesi inkişaf etdirmək məqsədilə Nabranda turizm mərkəzinin, olimpiya idman liseyinin, idman və səhiyyə infrastrukturunun modernləşməsi planlaşdırılmışdır.

İran-Azərbaycan arasında avtomobil və dəmir yolu layihələrinin həyata keçirilməsi Lənkəran iqtisadi regionunda turizm sektorunun inkişaf etməsinə əhəmiyyətli təkan verəcəkdir. Region qurulacaq və müasirləşdiriləcək yeni komplekslərlə turizm infrastrukturu baxımından daha geniş imkanlara qovuşacaqdır.

Dağlıq Şirvan iqtisadi regionunda turizm sektorunun, xüsusilə İsmayıllı şəhəri və Şamaxı rayonunda görüləcək infrastruktur fəaliyyətləri ilə inkişaf etdirilməsi hədəflənmişdir.

Naxçıvan iqtisadi regionunda turizm üçün yararlı tarixi məkanların əlverişli hala gətirilməsi və Şahbuz rayonunun Batabat və Qanlıgöl ərazilərində lazımi infrastrukturun əldə edilməsi ilə bu regionda da turizm sektorunun inkişaf etdirilməsi hədəflənmişdir.

4.3.3. Proqramdan Sonrakı İnkişaf

"Regionlarının Sosyo-iqtisadi İnkişafı İlə Əlaqədar Dövlət Proqramı"nın həyata keçirilməsilə bağlı olaraq ayrı-ayrı təşkilatlar müəyyən addımlar atmağa başlamışdır.

Regional inkişaf proqramı çərçivəsində, regionlara sərmayə qoymaq istəyən həm xarici, həm də yerli iş adamlarına hər növ köməklik göstərilir. Regionlarda yerli qaynaqlardan səmərəli olaraq faydalanmaq məqsədilə istehsal, emalat, turizm, ticarət, xidmət və digər sahələrdə şirkətlər qurulmuş və fəaliyyəti dayandırılan bir çox müəssisələrdə yenidən istehsala başlanılmışdır.

Ölkənin imkanları çərçivəsində, uğurlu fəaliyyət göstərə bilmələri üçün əkinçilərə də kredit verilir.

Proqramın mərhələlərinin ayrı-ayrı həyata keçirilməsinə başlanılmışdır. Məsələn, Nazirlər Kabineti tərəfindən qəbul edilən qərara müvafiq olaraq taxıl sahələrinin sığortası üçün nəzərdə tutulan ehtiyatların 25%-i dövlət büdcəsi tərəfindən maliyyələşdiriləcəkdir. Bu addım, əkin sahələrinin sığortasının ənənəvi hala gətirilmə tələbi istiqamətində atılmışdır. Beynəlxalq təcrübə diqqətə alınaraq Nazirlər Kabineti üçün regionlarda kənd təsərrüfatı sektoruna dair xidmətlərin başlaması haqqında təkliflər hazırlanmışdır.

Beynəlxalq təşkilatların regionlara istiqamətləndirilməsi də ilkin mövzulardan biridir. Bu istiqamətdə Azərbaycanın səkkiz iqtisadi regionunda iqtisadi formlar təşkil olundu. Bu formlarda bir çox layihəyə imkan tanınmışdır.

Regionlarda insanların satın alma gücünün artdığı, gözlənilənlərin müsbət hala gəlməsi görülür.

Regionlarda bir çox təhsil və səhiyyə müəssisələri təmir və inşa edilmişdir. Bu fəaliyyətlərin həyata keçirilməsində özəl sahibkarlığın xüsusi dəstəyi olmuşdur .

1 Oktiyabr 2003–1 Yanvar 2005-ci il tarixləri arasında Azərbaycanda 177 mindən çox yeni iş yeri açılmışdır. Açılan yeni iş yerlərinin 53.1%-i daimi iş yerləri təşkil edir. Sadəcə 2004-cü ildə 83.7 mini daimi olmaqla 167 min iş yeri açılmışdır. Açılan iş yerlərinin 87%-i özəl sektora, 13%-i isə dövlət sektoruna aiddir. Yeni iş yerlerinin sektoral bölgüsü isə belədir: 13.6% inşaat, topdan, pərakəndə satış və avto xidmətləri 10.8%, emal sənayesi 14.2%, kənd təsərrüfatı 8.1%, daşınmaz əmlak 3.9%, dövlət idarə etməsi və icbari sosial sığorta 3.2%-dir.

2004-cü ildə yeni iş yerlərinin 84%-i regionlarda, 12%-i isə Bakıda fəaliyyətə başlamışdır. Açılan iş yerlərinin 90%-i isə aşkar üstünlüyü qeyri-neft sek-

toru olmaqla, özəl sektora aiddir. Bu məlumatlar regionlarda dövlət tərəfindən özəl sektora investisiya qoyuluşları üçün verilən imkanların bir göstəricisidir.

Açılan iş yerlərinin iqtisadi regionlara görə bölgüsü isə, belədir: Aran Regionu 61000, Abşeron Regionu 11360, Gəncə-Qazax Regionu 17350, Quba-Xaçmaz Regionu 11300, Şəki-Zaqatala Regionu 10600, Lənkəran Regionu 10000, Naxçıvan Regionu 7300, Yuxarı Qarabağ Regionu 3700, Dağlıq Şirvan Regionu 900.

Açılan iş yerlərinin əksinə, böyük həcmli şirkətlərin (anonim şirkətlərin) 59.3%-i Bakıda fəaliyyətə başlayarkən, 6.5%-i Abşeron, 6.3%-i Gəncə-Qazax, 5.4%-i Naxçıvan və 4.1%-i Lənkəran iqtisadi regionunda fəaliyyətə başlamışdır.

Bu çərçivədə, 2004-cü ildə Gəncədə "Oka" markalı ovtomobil istehsalı, Abşeronda "Azbentonit" fabriki, Naxçıvan Beynəlxalq Hava Limanı, Lənkəranda pivə və tomat fabrikləri, Xaçmazda makaron fabriki, Şəki, Sədərək və Ordubad rayonlarında dəyirmanlar, Naxçıvanda və Bərdə şəhərlərində üzgüçülük hovuzları, Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Ağstafa, Tovuz, Qəbələ, Daşkəsən, Xaçmaz, Masallı, Abşeron, Qobustan və Quba rayonlarında avtomatik telefon stansiyanları, Culfa və İmişli rayonlarında elektrik istehsal müəssisələri, digər istehsal və qeyri-istehsal müəssisələr (xəstəxana, məktəb, kitabxana, uşaq baxçası, ev) xidmət göstəir.

Yalnız 2004-cü ildə Quba-Xaçmaz iqtisadi regionunda 4000-ə yaxın iş yeri açılmışdır. Bunun 2000-ə qədəri birbaşa iş yeri, 100-dən çoxu yenidən inşa edilmiş iş yeri, qalanları isə müvəqqəti fəsillilik iş yeridir. İqtisadi regiona daxil olan Xaçmazda daha çox kənd təsərrüfatı sektoru inkişaf etmişdir. Burada un və yem dəyirmanlarının, iri buynuzlu heyvan fermalarının, istixana və bəzi ticari müəssisələrin xidmətə başlaması ilə 100-dən çox adam işlə təmin olunmuşdur. Əvvəlki dövrdə "Xaçmaz-Xalça" ASC-nin yenidən fəaliyyətə başlaması və Xaçmaz Kondisioner fabrikinin xalqa fərqli xidmətlər təqdim etməsi də əməyin istismar olunmasında mühüm rol oynamışdır.

Qusar regionunda da Dövlət Proqramının icrası ilə əlaqədar mühüm irəliləyişlər yaşanmağa başlamışdır. Regionda xalça istehsalına başlanmışdır. Yeni məktəb binaları, istirahət və ticarət müəssisələri inşa edilmişdir. Görülən tədbirlər nəticəsində 100-dən çox iş yeri açılmışdır. Bundan əlavə Qubada xalça müəssisəsi və Qida Məhsulları Kombinatında marmalat və mürəbbə istehsalına yenidən başlanmışdır.

Digər tərəfdən dağlıq regionlarda kiçik və orta həcmli sahibkarlığın inkişafı məqsədi ilə Quba, Gədəbəy, Qəbələ, Lerik və Şahbuz rayonlarını əhatə edən "Dağ və Yüksək Dağlıq Ərazilərin İnkişafı Proqramı"na müvafiq olaraq keçən bir neçə il ərzində 350 milyon dollarlıq qaynaq, kredit şəklində sahibkarlara verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində adı keçən rayonlarda iki mindən çox yeni iş yeri açılmışdır. Bununla yanaşı bu rayonlara gələcəkdə 2 milyon 650 min dollar həcmində kreditin verilməsi də diqqətə alınmışdır.

2004-cü ildə Lerikdə fəaliyyətə başlayan "İFAD" (Kənd Təsərrüfatının Dirçəlişi Haqqında Beynəlxalq Fond) qeyri-hökümət təşkilatı "Dağ və yüksək dağlıq ərazilərin inkişafı" proqramı çərçivəsində rayonda kənd təsərrüfatı sektorunun inkişafı, yoxsulluğun azaldılması və infrastrukturun yaxşılaşdırılması üçün fəaliyyətlərini artırmışdır. Əkinçilərin iş mühitinin yaxşılaşdırılaması, kənd təsərrüfatı məhsullarının istehsalı, satışı və ticarəti məqsədi ilə hazırlanmış proqram çərçivəsində rayonda 30 qrup yaradılmışdır. İFAD 2004-cü ildə ərazidə infrastrukturun yaxşılaşdırılmasına, sosial komplekslərin inşasına və təmirinə 300 milyon manat xərclənmişdir.

Naxçıvan Muxtar Respublikasında 2008-ci ildə sosyo-iqtisadi cəhətdən mühüm irəliləyişlər əldə edilmişdir. Sosial və iqtisadi infrastrukturda və iqtisadi göstəricilərdə irəliləyiş görülür.

"Sədərək rayonunun sosyo-iqtisadi inkişafı haqqında" Naxçıvan Muxtar Respublikasının 15 Mart 2000 tarixli sərəncamı fəaliyyət proqramına çevrilmişdir. Bu proqram nəticəsində, sərhəd regionu olan Sədərək rayonunda təhsil, səhiyyə və mədəniyyət sahələrində inkişafa, iqtisadiyyatda stabilliyin güclənməsinə nail olunmuşdur.

Rayon mərkəzində və kəndlərdə fərqli sahələrdə təmir və yeniden inşa fəaliyyətləri, yol və körpülər inşa edilmişdir.

Türkiyə ilə Azərbaycan arasında yeganə giriş qapısı olan Sədərəyin 24 saat xidmət təqdim edə bilməsi üçün yeni inşaat və texniki infrastrukturun qurulmasına çalışılır.

2004-2008 ci illərdə "Azərbaycan Respublikası Regionlarının Sosyo-İqtisadi İnkişafı Haqqında Dövlət Proqramı"nın Naxçıvanda tətbiq edilməsi üzrə görülən məqsədyönlü tədbirlər Sədərək rayonunu da əhatə edir. Rayonda məşğulluq həcmində də yeni müəssisələrin qurulması ilə artım olmuşdur.

Özəl Sahibkarlığa Milli Yardım Fondunun fəaliyyətlərinin canlandırılması məqsədi ilə 2009-cü ildə fondun ehtiyatları artırılmışdır. Qaynaqların sahibkarlara verilməsi üçün müvəkkil banklar seçildi və sayları artırıldı.

Su və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması məqsədiylə təşkilati addımlar atılmışdır.

2004-cü ildə müxtəlif qanuni tənzimləmələr də aparılmışdır. Ölkədə xüsusi iqtisadi regionların qurulması, investisiya qoyuluşları fəaliyyətlərinin genişləndirilməsi, monopol və digər iqtisadi əlaqələri tənzimləyən, regionların inkişafını təşviq edən qanun müddəaları hazırlanmışdır. Orta və böyük həcmli müəssisələrin anonim şirkətə çevrilməsi işləri davam etmişdir. Kiçik və kiraya verilmiş müəssisələrin özəlləşdirilməsi sürətlənmişdir. Dövlət tərəfindən qoyulan investisiyalara əsasən istehsal müəssisələrinin yenidən inşasına, regionların infrastruktur və dövlət xidmətlərinin yaxşılaşdırılmasına, sosial komplekslərin inşasına istiqamətləndirilməsi məqsədi ilə 2005-2006 cı illər üçün lazımi maliy-

yə qaynaqları ilə əlaqədar fəaliyyətlər həyata keçirilmişdir. Vergi faizlərinin optimum səviyyəyə çəkilməsi ilə əlaqədar fəaliyyətlərə başlanılmışdır.

Qısacası, beş ili əhatə edən "Azərbaycanda Regionların Sosyo-İqtisadi İnkişafı Haqqında Dövlət Proqramının (2004–2008)" qəbulundan bugünə qədər keçən zaman zərfində, ölkənin bütün regionlarında böyük canlanma müşahidə edilməyə başlamışdır.

4.3.5. Proqramdan Gözlənilənlər

Neft sənayesinin inkişafı ölkənin ən başda gələn məsələsidir. Bununla birlikdə qeyri-neft sektorlarının da inkişaf etdirilməsi lazımdır. Bunun üçün isə, milli iqtisadiyyatın rəqabət gücünün olması və artırılması, istehsalın müasirləşdirilməsi, bir çox qoruyucu texnologiyaların tətbiqi, regionlarda sənaye istehsalının artması inkişaf siyasətinin başlıca məqsədləri arasındadır.

"Azərbaycan Respublikasının Regionlarının Sosyo-İqtisadi İnkişafı Haqqında Dövlət Proqramı"nı yaxşı icra edilərsə, ölkədə neft sektoru qeyri-neft sektoru ilə birlikdə inkişaf edəcək, regionların iqtisadi potensialından səmərəli şəkildə istifadə edilməsi ilə yoxsulluq nisbəti azaldılacaq, yeni iş yerləri qurulacaq, xalqın həyat səviyyəsi yüksələcəkdir. Bundan əlavə proqram sayəsində regionlarda özəl sahibkarlığın sürətlə artması, yerli istehsal və emalat müəssisələrinin genişləməsi, iqtisadi, sosial-mədəniyyət infrastruktur müəssisələrinin yenidən inşası və inkişafı mümkün olacaqdır.

Dövlət Proqramına müvafiq olaraq 2018-ci ilə qədər ölkənin kənd əhalisinin məşğulluğu, İxracın Təşviqi Fondu və həm də dövlət sərmayəsinin sövqü ilə emalatxanaların qurulması, mikro-kredit təşkilatlarının kredit vermə fəaliyyətləri dəstəklənməsi lazımdır. Ancaq, belə tədbirlər kənd təsərrüfatı istehsalının 62.5% artmasına imkan verə biləcək.

Digər tərəfdən 600 min yeni iş yerinin açılması ancaq iş və investisiya sahəsinin yaxşılaşdırılması ilə mümkün ola biləcəkdir. Bir iş yerinin açılması üçün 10 minlərlə dollar lazımdır. Əgər bir iş yeri üçün müasir texnologiya və infrastruktur lazımdırsa, onda belə bir vəziyyətdə milyonlarla dollara ehtiyac var. Bu baxımdan Azərbaycanın kağız üzərində iş yerindən çox ixrac edilən mallarla rəqabət edə biləcək gücə sahib olan iş yerlərinin açılmasına ehtiyac var. Ancaq, Azərbaycanda maddi istehsal sahələrinin, sənayenin və kənd təsərrüfatı istehsalının artma sürəti ÜDM-nin artma sürətindən geri qalır. Xarici ticarətin artma sürəti isə, daha aşağıdır. Bu da Azərbaycanın iqtisadi strukturunda tarazlığın qurulması üçün mühüm addımların atılmasının nə dərəcə əhəmiyyətli olduğunu göstərir.

Regionlarda bürokratik əngəllərin ortadan qaldırılması, yerindən idarə etmə və hüquq-mühafizə orqanları ilə əlaqələrin yaxşılaşdırılması ilə özəl sahibkarlıq üçün həm hüquqi, həm iqtisadi, həm də texniki baxımdan əlverişli iş və investisiya mühiti ortaya çıxmış olacaq.

Özəl sahibkarlığın regionlara investisiya qoyması, yeni iş yerləri açması və mövcud iş yerlərində yenidən istehsala başlanması ilə regional inkişaf həyata keçirilə bilər. Bu səbəblə, regionların inkişafına nail olmaq, daha çox, özəl sahibkarlığa veriləcək imkan və təşviqlərin artaraq davam etdirilməsindən asılıdır.

Sağlam təməllərə sahib regional inkişaf siyasətində nailiyyətin davamı bu siyasətlərin təsirlərinin izlənməsi vacibdir. Bu səbəblə də, ilk regional inkişaf proqramından sonra aparılacaq dəyərləndirmədə başda adam başına ÜDM olmaqla bəzi təməl iqtisadi göstəricilər işığında ölkənin ayrı-ayrı regional inkişaf coğrafiyası çıxardılmalıdır. Fərqli kriteriyaların birlikdə dəyərləndirilməsi təşviq və dəstək sistemini daha zəngin hala gətirəcək. Müəyyənləşdiriləcək kriteriyalara görə müəyyən edilən regional coğrafiya təməlində, struktur və regional problemlərə regional dəstək sistemi qurulmalı və təşviqlər də əhəmiyyətinə görə sıralanmalıdır.

Regional inkişaf siyasətində, hər regionun özünə xas struktur problemlərinin də ola biləcəyi diqqətə alınmalıdır.

İnkişafda region, hətta şəhər səviyyəsində əhəmiyyətinə görə sıralama aparılmalıdır. Beləcə Azərbaycanda Bakı xaricindəki regionlarda inkişaf fərqləri və inkişafın hələ başında olunması vəziyyəti diqqətə alınaraq təşviqlər mərhələli olaraq həyata keçirdiləcəkdir. Adam başına ÜDM baxımından ölkə ortalamasının aşağısında olan şəhərlər müəyyənləşdirilərək, təşviqlər mərhələli olaraq artırıla bilər.

4.4. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009-2013-CÜ İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI PROGRAMI

Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələ-rin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də ölkə paytaxtında kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Odur ki, "Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", eləcə də "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır[146].

Dövlət Proqramının Tədbirlər Planı aşağıdakı bölmələr üzrə tərtib edilmişdir:

[146] http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=196:regional-development-program-2009-2013&catid=28:regions-of-the-socio-economic-development-of-the-state-program&lang=az

1. Ölkə əhəmiyyətli tədbirlər.
2. Bakı şəhərinin rayon və qəsəbələri üzrə tədbirlər.
3. Ölkənin iqtisadi rayonları üzrə tədbirlər:
   3.1. Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri);
   3.2. Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri);
   3.3. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları);
   3.4. Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri);
   3.5. Quba-Xaçmaz iqtisadi rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları);
   3.6. Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları);
   3.7. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları);
   3.8. Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları);
   3.9. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları);
   3.10. Yuxarı Qarabağ iqtisadi rayonu (1) (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri).

4.4.1. Dövlət Proqramının məqsədi, vəzifələri və regional inkişafın prioritet istiqamətləri

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

- sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;
- iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;
- ixracyönümlü məhsul istehsalının stimullaşdırılması;
- müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;
- əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;
- əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- yoxsulluğun səviyyəsinin azaldılması.

Dövlət Proqramında müəyyən edilmiş məqsədlərə nail olunması, eləcə də qeyd edilən vəzifələrin yerinə yetirilməsi üçün ölkədə makroiqtisadi sabitliyin davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Uğurla həyata keçirilən neft strategiyası Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasına, neft və qaz gəlirlərinin səmərəli istifadəsi nəticəsində makroiqtisadi sabitliyin qorunub saxlanmasına səbəb olmuş və bu sahədə tədbirlərin davamlı olaraq həyata keçirilməsinə əlverişli şərait yaratmışdır.

Makroiqtisadi sabitliyi nəzərə alaraq qarşıdakı illərdə bütövlükdə iqtisadiyyatın, o cümlədən regionlarda ayrı-ayrı sahələrin inkişafının başlıca şərtlərindən biri olan orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması, vergi dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən güzəştlərin müddətinin artırılması, yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması, gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması, xarici borcların səmərəli idarə olunması siyasəti davam etdiriləcəkdir. Valyuta gəlirlərinin artırılması, inflyasiya risklərinin azaldılması, monetar və büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi, dövlət xərclərinin artımının nəzarətdə saxlanılması və digər tədbirlər hesabına makroiqtisadi vəziyyətə, habelə qeyri-neft sektorunun inkişafına mənfi təsirlərin qarşısının alınması növbəti illərdə də iqtisadi siyasətin başlıca məsələləri hesab olunur.

Ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə gələcəkdə Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla, iqtisadi birliklərlə əməkdaşlığının genişləndirilməsi üçün qanunvericiliyin, standartların beynəlxalq tələblərə, o cümlədən Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılması prosesi sürətləndiriləcəkdir. Xarici iqtisadi siyasət istehsal olunmuş məhsulların ixracı üçün əlverişli şərait yaradılmasına, eyni zamanda, daxili bazarın haqsız rəqabətdən qorunmasına yönələcəkdir.

Büdcə-vergi siyasətində əsas məqsədlərdən biri qeyri-neft sektorunun dayanıqlı inkişafına, ölkənin makroiqtisadi vəziyyətinin sabit saxlanılmasına, iqtisadiyyatın səmərəli tənzimlənməsi və onun dinamik inkişafının stimullaşdı-

rılmasına nail olmaqdan ibarətdir. Bu baxımdan qarşıdakı illərdə ölkədə istehsalın genişləndirilməsinə, rəqabət qabiliyyətli iqtisadiyyatın, infrastrukturun, əlverişli investisiya mühitinin yaradılmasına və iqtisadiyyata cəlb olunacaq sərmayələrdə ölkənin daxili resurslarının payının artırılmasına nail olunması zəruridir. Eyni zamanda, kənd təsərrüfatına dövlət qayğısının və bu sahəyə birbaşa subsidiyaların artırılması, emal müəssisələrinin yaradılmasına investisiyaların cəlb edilməsi, qeyri-neft, qeyri-xammal sənaye sahələrinin, turizmin inkişafının təmin edilməsi 2009-2013-cü illərdə qarşıda duran prioritet isti-qamətlər hesab olunur.

Vergi sisteminin təkmilləşdirilməsi məqsədilə qarşıdakı illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- vergi dərəcələrinin optimallaşdırılması;
- sahibkarlığın təşviqinə yönəlmiş vergi-gömrük siyasətinin həyata keçirilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən vergi güzəştlərinin müddətinin uzadılması;
- sahibkarlara göstərilən vergi xidmətinin yaxşılaşdırılması və əhatə dairəsinin genişləndirilməsi üçün kompyuter terminallarının və özəl vergi məsləhəti xidmətinin yaradılması.

Qarşıdakı illərdə pul-kredit siyasətində manatın rəqabət qabiliyyətliliyinin əlverişli səviyyədə saxlanmasını təmin edən məzənnə siyasətinin həyata keçirilməsinə və pul təklifi kanallarının optimallaşdırılmasına xüsusi diqqət yetiriləcəkdir. Pul-kredit siyasəti makroiqtisadi sabitliyin möhkəmləndirilməsinə, o cümlədən qeyri-neft sektorunda, regionlarda məşğulluğun və istehsalın stimullaşdırılmasına, bu əsasda onun sürətli və intensiv inkişafına, real sektorda investisiya fəallığının yüksəlməsinə, iqtisadiyyatın diversifikasiyasına, yoxsulluğun səviyyəsinin azaldılmasına və əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə yönələcəkdir.

Azərbaycan Respublikasında pul-kredit sahəsində, o cümlədən regionlarda maliyyə xidmətlərinin inkişaf etdirilməsi üçün həyata keçirilən vahid dövlət siyasətinin başlıca məqsədləri aşağıdakılardan ibarət olacaqdır:

- ölkənin valyuta ehtiyatlarının artırılması;
- monetar siyasət və monetar tənzimləmə alət və mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi;
- manatın sabitliyinin və tam daxili dönərliliyinin təmin edilməsi;
- bank sistemində maliyyə sabitliyinin qorunması, bankların regional filial şəbəkəsinin genişləndirilməsi;
- nağdsız ödəniş vasitələrinin (POS-terminallar, bankomatlar, info-köşklər) quraşdırılmasının sürətləndirilməsi üçün stimullaşdırıcı tədbirlərin görülməsi;

- sığorta və lizinq xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi;
- kənd təsərrüfatında sığortanın stimullaşdırılması və inkişafı məqsədilə beynəlxalq təcrübəyə əsaslanan yeni iqtisadi metodların tətbiqi.

Ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafını təmin etmək üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu sahədə əsas vəzifə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi və daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühitinin yaradılmasından və sahədə mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarət olacaqdır.

Qarşıdakı illərdə özəlləşdirməyə açılmış müəssisələrdə şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi davam etdiriləcəkdir. Qeyri-neft sektorunda müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi istiqamətində məqsədyönlü işlər həyata keçiriləcək, müasir istehsal avadanlıqlarının idxalı təşviq ediləcəkdir.

Dövlət investisiya siyasəti regionlarda yeni iş yerlərinin yaradılmasına, infrastruktur obyektlərinin etibarlı istismarının təmin edilməsinə, insan kapitalının inkişafı və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi prioritetlərin həyata keçirilməsinə yönəldiləcəkdir.

Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin yaradılmasıdır. Bu baxımdan sahibkarlığın, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qarşıdakı illərdə məşğulluq siyasətində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təmin edilməsindən ibarət olacaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı üçün daha münbit şəraitin yaradılması;
- məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığının dəstəklənməsi;
- işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, qeyri -formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirləri həyata keçirilməsi;
- əmək bazarında tələb və təklif arasında dinamikuyğunluğun gücləndirilməsinə yönəldilmiş infrastrukturun təkmilləşdirməsi;
- kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkələrinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması.

Ölkə iqtisadiyyatı inkişaf etdikcə, daxili əmək bazarında iştirak edən əcnəbilərin sayı artmaqdadır. Azərbaycan Respublikasının əlverişli geosiyasi mövqeyi, ölkədə aparılan iqtisadi islahatlar, sahibkarlığın inkişafı, beynəlxalq kommunikasiya layihələrinin həyata keçirilməsi və s. əmək miqrasiyası axınlarının artmasına səbəb olmuşdur. Qarşıdakı illərdə miqrasiya siyasətinin əsas istiqamətləri aşağıdakılar olacaqdır:

- miqrasiya proseslərindən ölkənin inkişafı üçün səmərəli istifadə olunması;
- miqrasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsində dövlətin və cəmiyyətin mənafelərinin nəzərə alınması;
- miqrantların mövcud sosial-iqtisadi vəziyyətə adaptasiyasını sürətləndirən şəraitin yaradılması;
- miqrantların hüquqlarının müdafiəsi;
- qeyri-qanuni miqrasiyanın qarşısının alınması.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edəcəkdir. Bu siyasət iqtisadiyyatın bütün sahələrində, xüsusilə prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldiləcəkdir. Davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından sahibkarlıq sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- kiçik və orta sahibkarlığın (KOS) dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində KOS-un rolunun gücləndirilməsi;
- sahibkarlıq fəaliyyətinin sahə, regional və texnoloji baxımdan strukturunun optimallaşdırılması;
- kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi;
- sahibkarlığın dəstəklənməsinin müasir təşkilati modellərinin yaradılması, o cümlədən sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və sair strukturların yaradılmasının davam etdirilməsi;
- ticarət yarmarkalarının yaradılması;
- yerli iqtisadiyyatın yönümünü nəzərə almaqla rayonlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması;
- sahibkarlıq fəaliyyətinə müdaxilələrin qarşısının alınması.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin tətbiqi əsasında mümkün olacaqdır. Öl-

kənin ixrac potensialının inkişaf etdirilməsi, Azərbaycan malları və xidmətlərinin xarici bazarlara çıxarılması, bunun üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək üçün tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə prioritet istiqamətlərdən olacaqdır.

Ölkənin ixrac potensialının səmərəli reallaşması, daxili bazarda sağlam rəqabət mühitinin formalaşması, istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi, standartlaşdırma və metrologiya sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- özəl sektorda ixracın stimullaşdırılması və ixrac mallarının çeşidinin artırılması;
- milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətlərində müvafiq tədbirlərin həyata keçirilməsi;
- ticarət, iaşə və məişət sahələrində xidmət səviyyəsinin daha da yüksəldilməsi və ÜTT prinsipləri çərçivəsində daxili bazarın qorunması tədbirlərinin həyata keçirilməsi;
- haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsinə sahibkarların və istehlakçıların cəlb olunması;
- istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi.

Sənaye sahəsində əsas məqsədlərdən biri regionlardakı mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidənqurulmasından, yeni müəssisələrin yaradılmasından ibarət olacaqdır. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpasına və ixrac potensilaının artırılmasına xüsusi diqqət yetiriləcəkdir. Sənaye sektorunda əsas məqsədə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- sənayenin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
- rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi;
- dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması və özəlləşdirilməsi;
- özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi;
- istehsalın texnoloji cəhətdən yenidən qurulması;
- ixtisaslı kadrların hazırlanması.

Ötən dövr ərzində institusional baxımdan torpaq və aqrar islahatlarının uğurla başa çatması - kənd təsərrüfatı istehsalçıları üçün yeni imkanların yaranması qarşıdakı illərdə də sərbəst bazar münasibətlərinə əsaslanan və özünüinkişaf qabiliyyətinə malik olan bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması prosesi ilə səciyyəvi olacaqdır. Kənd təsərrüfatı məhsullarının istehsalının müxtəlif təsərrüfat formaları üzrə, o cümlədən kollektiv təsərrüfat forması üzrə inkişafı regionlarda birgə əmək kooperasiyasının genişlənməsinə və daha məhsuldar olan ictimai qüvvənin əmələ gəlməsinə səbəb olacaqdır. Növbəti illərdə Azərbaycanın kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, pambıqçılığın, tütünçülüyün, çayçılığın, ipəkçiliyin və digər sahələrin inkişafı prioritet vəzifə olaraq qalacaqdır. Aqrar sektorda islahatlar davam etdiriləcək, dağ rayonlarının inkişafına xüsusi diqqət yetiriləcəkdir. Aqrar bölmənin inkişafı istiqamətləri aşağıdakılardan ibarətdir:

- aqrar bölmənin normativ hüquqi bazasının, elmi-metodik təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması;
- aqrar bölməyə maliyyə dəstəyinin artırılması;
- aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- aqrar sektora xidmət edəcək və bazar prinsipləri əsasında fəaliyyət göstərəcək yeni strukturlara dəstək verilməsi;
- kənd təsərrüfatında suvarma və meliorasiya təminatının yaxşılaşdırılması;
- torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi.

Azərbaycan Respublikasında turizmin inkişafı, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi qarşıdakı illərdə prioritet istiqamətlərdəndir. Turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabətqabiliyyətli müasir turizm kompleksləri yaratmaq və bu sahədə yeni iş yerlərinin açılmasını təmin etmək qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıda duran mühüm vəzifələrdəndir. Turizm sahəsinin inkişaf istiqamətləri aşağıdakılardan ibarətdir:

- rəqabətqabiliyyətli turizm infrastrukturunun və turizm sənayesinin yaradılması;
- mövcud turizm obyektlərinin beynəlxalq standartlara uyğunlaşdırılması;
- turizm xidməti üzrə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiqi;
- ölkə turizm-rekreasiya zonalarının hüquqi statusunun müəyyən edilməsi, ölkə ərazisində turizm zonalarının və turist marşrutlarının müəyyən olunması;

- turizm sahəsində zəngin təcrübəsi olan ölkələrlə kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunmasında karbohidrogen ehtiyatlarından səmərəli istifadə müstəsna əhəmiyyət kəsb edir. "Əsrin müqaviləsi"nin imzalanması ilə beynəlxalq neft şirkətlərinin enerji sektoruna uzunmüddətli investisiya qoyuluşunun təmin olunması Azərbaycanı dünyanın enerji sahəsində aparıcı dövlətə çevirmişdir. Ölkənin yanacaq-enerji kompleksinin qarşısında duran əsas vəzifə iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. 2009-2013-cü illərdə bu sahədə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olacaqdır:

- neft-qaz hasilatı, nəqli və emalı infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi;
- yeni yataqların və perspektiv strukturların geoloji kəşfiyyat işlərinin sürətləndirilməsi və onların istismara hazırlanması;
- ölkənin qazla təmin edilməyən məntəqələrinin qazla təchiz edilməsi;
- regionların inkişafı və bununla əlaqədar elektrik enerjisinə tələbatın artım sürətini nəzərə alaraq yeni güclərin yaradılması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi nəticəsində ölkənin enerji təhlükəsizliyinin təminatının yüksəldilməsi;
- energetika sektorunda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi;
- müasir tipli elektrik stansiyalarının inşasının, yenidənqurulmasının və inkişafı layihələrinin həyata keçirilməsinin davam etdirilməsi;
- elektrik ötürücü xətlərin və yarımstansiyaların yeniləşməsi və tamamilə yeniləri ilə əvəz olunması.

Son illər ölkə iqtisadiyyatına investisiya qoyuluşu üçün yaranmış əlverişli mühit nəticəsində yeni tikilən yaşayış və məişət obyektlərinin sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu da, şəhərsalma qanunvericiliyinə əsasən, müvafiq kommunal infrastrukturun yenidən qurulmasını və bazar iqtisadiyyatının tələblərinə uyğun xidmətlərin təşkilini zəruri edir. Bu sahədə həyata keçirilməsi planlaşdırılan məqsədyönlü islahatlar nəticəsində ölkədə mənzil-kommunal təsərrüfatı sahələrində istehlakçılara göstərilən xidmətlərin səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması nəzərdə tutulmuşdur:

- qəza vəziyyətində olan bina və tikililərin bərpa-gücləndirilmə işlərinin aparılması;
- kommunal xidmətlər sahəsində restrukturizasiya tədbirlərinin sürətləndirilməsi;
- mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidənqurulması;

- məişət tullantılarının toplanması, daşınması, zərərsizləşdirilməsi və emalı üzrə yeni müəssisələrin yaradılması, bu sahəyə özəl sektorun cəlb olunması;
- su sektorunda restrukturizasiya tədbirlərinin davam etdirilməsi və dünya standartlarına uyğun etibarlı su təchizatının təmin olunması;
- ölkənin şəhərlərində, rayon mərkəzlərində, xüsusilə kənd yerlərində su və kanalizasiya sistemlərinin bərpası və yeni xətlərin, qurğuların tikilməsinə özəl sektorun və bələdiyyələrin cəlb olunması.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası və xarici ticarətin genişləndirilməsi nəqliyyat infrastrukturunun yenidənqurulmasını, tranzit ölkə kimi mövcud imkanlardan səmərəli istifadə edilməsini, ölkə yükdaşıyıcılarının rəqabətqabiliyyətliliyinin artırılmasını və nəqliyyat xidmətləri ixracının inkişafını tələb edir. Qarşıdakı illərdə ölkədə nəqliyyat sisteminin səmərəli inkişafının təşkil edilməsi, yeni müasir yolların və yol qurğularının, körpülərin, yeraltı və yerüstü keçid və dayanacaqların tikilməsi, ictimai nəqliyyatın fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin işlənib hazırlanması nəzərdə tutulmuşdur. 2009-2013-cü illərdə bu sahənin kompleks inkişafına nail olunması və nəqliyyat xidmətlərinin inkişafının daha da yaxşılaşdırılması üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ölkənin yol-kommunikasiya kompleksinə daxil olan müxtəlif nəqliyyat növlərinin ahəngdar inkişafı;
- ölkə ərazisində beynəlxalq və tranzit dəhliz və yolların, eləcə də ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat i nfrastrukturunun tarazlı inkişafı;
- ölkə ərazisindən keçən nəqliyyat-kommunikasiya trafikinin və əsas nəqliyyat vasitələrinin dünya standartlarına uyğun modernləşdirilməsi əsasında milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası;
- yolların, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşasının, yenidənqurulmasının və inkişafı layihələrinin həyata keçirilməsinin davam etdirilməsi;
- təsərrüfatlararası mal mübadiləsini gerçəkləşdirən yükdaşıma nəqliyyatının və əhalinin əsas sosial tələbatlarından birini təmin edən sərnişin nəqliyyatının tarazlı inkişafı.

Azərbaycan Respublikasında son illər rabitə və informasiya texnologiyaları sahəsi yüksək sürətlə inkişaf edir. XXI əsrdə ölkədə informasiya cəmiyyətinə keçid, elektron hökümətin formalaşdırılması və intellektual potensialın inkişafı sosial-iqtisadi inkişafın yüksəldilməsi üçün zəruri məsələlərdən birinə çevrilmişdir. Eyni zamanda, ölkə üzrə rabitə və informasiya texnologiyalarını inkişaf

etdirməklə ölkənin hərtərəfli tərəqqisinə nail olmaq, xüsusilə informasiya və kommunikasiya texnologiyalarının (İKT-nin) inkişafı üzrə Milli Strategiyanı həyata keçirmək, müəyyən edilmiş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun olaraq layihələri planlaşdıraraq icrasını təmin etmək qarşıdakı illərdə prioritet inkişaf istiqamətləridir. Mövcud potensialdan səmərəli istifadə etməklə onun inkişaf etdirilməsi, rabitə və informasiya texnologiyaları sahəsinin təşkilati, hüquqi, texniki, kadr baxımından modernləşdirilməsi, İKT sənayesinin formalaşdırılması, bu sahəyə yeni investisiyaların cəlb edilməsi və sahibkarlığın genişləndirilməsi nəticəsində ölkədə informasiya cəmiyyətinə keçidin təmin edilməsinə yönəlmiş müxtəlif tədbirlər nəzərdə tutulur.

Bu sahədə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə müvafiq tədbirlər həyata keçiriləcəkdir:

- inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması;
- səmərəli, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünü idarəetmənin reallaşması üçün elektron hökümətin yaradılması;
- təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə olunmasının sürətlənməsi;
- regionlarda universal rabitə (telekommunikasiya, İT və poçt) xidmətinin təmin edilməsi;
- bütün bölgələrdə internet şəbəkəsindən istifadə imkanlarının genişlənməsi.

Ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bir sıra vacib tədbirlər görülməli, o cümlədən Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənməli, çirklənmiş torpaqlar rekultivasiya edilməli, geniş sahələrdə meşələr və yaşıllıqlar salınmalı, abadlaşdırma işləri aparılmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir. Ölkə iqtisadiyyatının sürətli inkişafı ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə problemlərinin həlli sahəsində qarşıdakı illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir:

- Kür, Araz və digər çaylarda hidroloji monitorinq sisteminin təkmilləşdirilməsi;
- yaşıllaşdırma işlərinin genişləndirilməsi, şəhər və qəsəbələrin küçə və prospektlərinin abadlaşdırılması;
- regionlarda meşəbərpa və meşəsalma tədbirlərinin davam etdirilməsi;
- rekreasiya əhəmiyyətli meşələrin müəyyən edilməsi və ekoturizmin inkişafı üçün xidmət infrastrukturunun təşkili;

- su ehtiyatlarının tullantı suları ilə çirkləndirilməsinin, o cümlədən transsərhəd çirklənməsinin qarşısının alınması üzrə tədbirlərin davam etdirilməsi;
- sənaye müəssisələri və nəqliyyat vasitələri tərəfindən atmosfer havasının çirklənməsinin qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi;
- torpaqların eroziyasına və şoranlaşmasına qarşı tədbirlərin görülməsi;
- ekoloji təbliğat və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, tədris müəssisələrində ekoloji təhsilə daha geniş yer ayrılması.

Əvvəlki illərdə olduğu kimi, növbəti beş ildə də ölkədə sosial siyasətin başlıca məqsədi əhalinin, o cümlədən regionlarda yaşayan vətəndaşların həyat şəraitinin daha da yaxşılaşdırılmasını təmin etməkdən ibarət olacaqdır. Əhalinin sosial müdafiəsi sahəsində aparılan tədbirlərin əsas istiqamətlərindən biri aztəminatlı əhali qrupları üzrə sosial müavinətlərin artırılması, sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial vəziyyətinin, həyat şəraitinin yaxşılaşdırılması və ümumilikdə ölkədə yoxsulluq səviyyəsinin azaldılmasından ibarət olacaqdır. Vətəndaşların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin olunması məqsədilə pensiya təminatı sistemini təkmilləşdirmək və onun səmərəliliyini artırmaq sahəsində tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Sosial təminat sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri sosial müavinətlərin ünvanlılığının təmin edilməsindən, əlillərə, müharibə veteranlarına, gənc ailələrə, əhalinin ən az təminatlı hissəsinə xüsusi diqqətin yetirilməsindən ibarət olacaqdır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- aztəminatlı ailələrə ünvanlı sosial yardımın göstərilməsi üçün müvafiq tədbirlərin davam etdirilməsi;
- əhalinin, xüsusilə gənc ailələrin mənzilə olan ehtiyaclarının daha dolğun ödənilməsi məqsədilə ipoteka kreditləşmə mexanizminin təkmilləşdirilməsi;
- Qarabağ əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması;
- ana və uşaqların sosial müdafiəsinin və mühafizəsinin gücləndirilməsi;
- uşaq və ailə mərkəzlərinin, o cümlədən xüsusi istirahət müəssisələrinin və uşaqlar üçün ixtisaslaşmış xidmət müəssisələrinin yaradılması;
- əhalinin sağlamlığının yaxşılaşdırılması (qida məhsullarının keyfiyyətinin yüksəldilməsi, yoluxucu və cinsi yolla keçən xəstəliklərin qarşısının alınması və sair);
- əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılması və ailə planlaşdırılması xidmətinin inkişafı.

Qarşıdakı illərdə təhsil sahəsində həyata keçiriləcək işlər onun strukturunun və məzmununun yeniləşməsinə istiqamətlənəcəkdir. Ölkədə bütün əhali təbəqələri üçün müasir tələblər səviyyəsində qurulmuş təhsil xidmətlərinin göstə-

rilməsini təmin edə biləcək maddi-texniki və tədris-metodiki şəraitin yaradılması və bu zəmində təhsil sisteminin yüksək sosial-iqtisadi səmərəliliyinə nail olunması dövlətin sosial siyasətində əsas yer tutur. Eyni zamanda, ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından müasir tələblərə cavab verən kadrlara ehtiyacın ödənilməsi, gənclərin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etmək prioritet olacaqdır. Bu məqsədlərə nail olmaq üçün qarşıdakı illərdə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

- təhsilin məzmununun müasirləşdirilməsi, onun keyfiyyətinin artırılması;
- yeni məktəblərin inşası, məktəblərin texniki və kadr təminatının yaxşılaşdırılması;
- təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması;
- şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi;
- əhalinin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi;
- xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin yaxşılaşdırılması;
- məktəbəqədər təhsil sahəsində islahatların sürətləndirilməsi, belə təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi və ehtiyac duyulan şəhər, kənd və qəsəbələrdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin yaradılması;
- peşə və ali təhsil sistemində islahatların gücləndirilməsi, o cümlədən kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması.

Elm sahəsində ən mühüm vəzifələrdən biri aparılan tədqiqatların praktiki əhəmiyyətinin artırılması, elmi tədqiqat və layihə institutları ilə təsərrüfat subyektləri arasında əlaqələrin daha sıx qurulmasının təmin edilməsindən ibarətdir. Qarşıdakı illərdə elm sahəsində aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi;
- ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi;
- dövlətin informasiya ehtiyatlarının artırılması və innovasiya proseslərinin sürətləndirilməsi;

- elmi müəssisələrdə və ali məktəblərdə aparılan elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi üzrə işin daha da gücləndirilməsi;
- əhalinin sağlamlığının qorunmasında və ekoloji təhlükəsizliyin təmin edilməsində elmi potensialdan səmərəli istifadə edilməsi;
- xarici ölkələrdə təhsil almaq və təcrübə keçmək yolu ilə yüksək ixtisaslı kadrların hazırlanması.

2009-2013-cü illərdə səhiyyə sahəsində həyata keçiriləcək tədbirlər əhalinin sağlamlığının qorunmasına, tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, Azərbaycan Respublikasında müasir standartlara cavab verən səhiyyənin qurulmasına təminat verməlidir. Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- dövlətin maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin artırılması;
- əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi;
- analar və uşaqlar arasında qidalanmanın və mikro-nutrientlərlə təminatın yaxşılaşdırılması;
- tibbi-profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi;
- səhiyyə sektorunun tələblərinə uyğun olaraq tibbi kadr hazırlığının planlaşdırılması və ailə həkimlərinin hazırlanması;
- səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının və fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi;
- rayonlarda yeni səhiyyə müəssisələrinin inşası;
- bütün ölkə üzrə səhiyyə sahəsində coğrafi məlumat sisteminin yaradılması.

Azərbaycan Respublikasında əhalinin sağlam həyat tərzinin təmin olunması məqsədilə hər bir vətəndaşın bədən tərbiyəsi və idmanla məşğul olması üçün aparılan işlər davam etdiriləcəkdir. Əhalinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi məqsədilə bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti əhalinin sağlamlığının yaxşılaşdırılması, insanlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə olunması, vətənin müdafiəsinə hazırlığın təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsindən ibarət olacaqdır. Bu məqsədlə gələcək illərdə aşağıdakı işlər diqqət mərkəzində olacaqdır:

- ölkənin şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının inkişaf etdirilməsi, möhkəmləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılmasının davam etdirilməsi;
- bədən tərbiyəsi və idmanın inkişafının elmi əsaslar üzərində qurulması;
- bədən tərbiyəsi və idmanla məşğul olanlara tibbi nəzarətin və xidmətin təmin edilməsi.

Mədəniyyət sahəsində dövlət siyasətinin strateji məqsədləri ölkənin mədəni potensialının, sərvətlərinin və ənənələrinin qorunub saxlanmasından və inkişaf etdirilməsindən, yaradıcılıq və təhsil sisteminin təkmilləşdirilməsindən ibarətdir. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- regionlararası mədəni əlaqələrin möhkəmləndirilməsi, milli mədəniyyətin ümumdünya mədəni proseslərinə inteqrasiyası;
- Azərbaycan Respublikasının mədəni irsinin qorunmasının təmin edilməsi, o cümlədən daşınar mədəniyyət sərvətlərinin, muzey fondlarının sayının artırılması;
- ölkənin tarixi-mədəni irsinin və mədəni potensialının qorunması və bu məqsədlə muzey işi sahəsində sistemli islahatların aparılması;
- kitabxana fondlarında müasir komplektləşdirmə mexanizminin yaradılması, kitabxanaların informasiya təminatı və ölkə üzrə kitabxana-informasiya kompyuter şəbəkəsinin yaradılması və inkişafı;
- mədəniyyət obyektləri və digər sahə təşkilatları arasında əməkdaşlıq və kooperasiya sisteminin yaradılması.

Son illər həyata keçirilən infrastruktur layihələrinin reallaşdırılmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsində bələdiyyələrin fəal iştirakı müşahidə olunmuş, yerli təbii və əmək resurslarından səmərəli istifadə olunmasında onların iştirakını zəruri etmişdir. Qarşıdakı illərdə də əhalinin sosial problemlərinin həllində və bölgələrin inkişafında mühüm işlərin həyata keçirilməsində, o cümlədən yeni iqtisadi münasibətlərin formalaşması, sahibkarlığın inkişafı, təsərrüfatlararası keyfiyyətli və qarşılıqlı münasibətlərin yaranmasında yerli özünüidarəetmə orqanları fəal iştirak edəcəkdir.

Dövlət Proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla ölkənin iqtisadi inkişafında və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, eləcə də ölkə əhalisinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

4.4.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

- Azərbaycan Respublikasının dövlət büdcəsi;
- büdcədənkənar dövlət fondları;
- mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların vəsaitləri;
- Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin vəsaitləri;
- yerli və xarici sahibkarların vəsaitləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

4.5. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2014-2018-CI İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI PROGRAMI

Ölkə bölgələrinin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır.[147] "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosialiqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaqdır. Dövlət Proqramının Tədbirlər Planı aşağıdakı bölmələrdən ibarətdir:

- Ölkə əhəmiyyətli tədbirlər,
- Ölkənin iqtisadi rayonları üzrə tədbirlər:

[147] http://senaye.gov.az/content/html/2280/attachments/Az%C9%99rbaycan%20Respublikas%C4%B1%20regionlar%C4%B1n%C4%B1n%202014-2018-ci%20ill%C9%99rd%C9%99%20sosial-iqtisadi%20inki%C5%9Faf%C4%B1%20D%C3%B6vl%C9%99t%20Proqram%C4%B1.pdf

- Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları);
- Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri);
- Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri);
- Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları);
- Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri);
- Quba-Xaçmaz iqtisadi rayonu (Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları);
- Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları);
- Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları);
- Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları);
- Yuxarı Qarabağ iqtisadi rayonu 1 (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri).

Dövlət Proqramının icraçıları müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarıdır. Onun icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilir. Dövlət Proqramında illər üzrə nəzərdə tutulan tədbirlərin icrası hər il üçün Dövlət İnvestisiya Proqramı tərtib edilərkən təmin ediləcəkdir.

Bu baxımdan Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur.

Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbay-

can Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Ümumilikdə, ötən 10 il ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9 % təşkil etmişdir. Son 10 ildə strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır.

2004-2013-cü illərdə daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış, regionlara bütün mənbələr hesabına 50,7 milyard manat vəsait yönəldilmişdir. Ötən 10 il ərzində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 80 faizə yaxını regionların payına düşmüşdür.

2004-2013-cü illərdə daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış, regionlara bütün mənbələr hesabına 50,7 milyard manat vəsait yönəldilmişdir. Ötən 10 il ərzində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 80 faizə yaxını regionların payına düşmüşdür.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması ölkə iqtisadiyyatının inkişafında səmərəli olmaqla əhalinin sosial rifahının və ölkəmizin sosial-iqtisadi inkişafının daha da yaxşılaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bununla yanaşı, ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində tədbirlər, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Son 15 ildə təhsil infrastrukturunun inkişafı sahəsində 2850 məktəb tikilmiş və ya əsaslı təmir olunmuş, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin daha

da yaxşılaşdırılması istiqamətində 500-dən çox səhiyyə müəssisəsi istifadəyə verilmişdir. Ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaq, aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2007-ci ildən başlayaraq hər il yaşa görə əmək pensiyasının baza hissəsi və sosial müavinətlərin məbləği artırılmış, 2016 cı ilin əvvəlinə pensiyaların minimum məbləği 20 manatdan 110 manata çatdırılmışdır. Son 10 ildə bütün çadır düşərgələri ləğv olunmuş, qaçqın və məcburi köçkünlər üçün 77 müasir qəsəbə salınmış, 37 min ailə - 166 min məcburi köçkün mənzillə təmin edilmişdir. Eyni zamanda əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi işləri davam etdirilmiş, 2788, o cümlədən regionlarda 2041 mənzilli yaşayış binaları və 450-dən çox fərdi ev tikilmişdir.

Dövlət Proqramının məqsədi, vəzifələri və regional inkişafın prioritet istiqamətləri "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusi ilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olacaqdır. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusi ilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur. Dövlət Proqramında müəyyən edilmiş məqsədlərə nail olunması, eləcə də qeyd edilən vəzifələrin yerinə yetirilməsi üçün ölkədə makroiqtisadi sabitliyin qorunması mühüm əhəmiyyət kəsb edir. Makroiqtisadi sabitliyi nəzərə alaraq dövlətin büdcə siyasətində iqtisadiyyatın prioritet sahələrinin modernləşməsi və onun effektivliyinin, uzunmüddətli dayanıqlılığının təmin edilməsi üçün şəraitin yaradılması, investisiya mühitinin daha da yaxşılaşdırılması prioritet olacaqdır. İqtisadi artımın, məşğulluğun, büdcə və valyuta gəlirlərinin əsas mənbəyi kimi qeyri neft sektoru tarazlı və dayanıqlı iqtisadi artıma nail olunmasında və yüksək gəlirli iqtisadiyyatın formalaşmasında strateji amil rolunu davam etdirəcəkdir. Bu istiqamətdə 2014-2018-ci illərdə bütövlükdə iqtisadiyyatın, o cümlədən regionlarda ayrı-ayrı sahələrin inkişafının başlıca şərtləri kimi:

- orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması;
- vergi və gömrük dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi;
- taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi; • istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması;

- yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması;
- Ümumi Daxili Məhsulda qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisinin yüksəldilməsi;
- ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə aqrar sektorun inkişafı davam etdiriləcəkdir.

Dövlətin məşğulluq siyasəti əhalinin məşğulluğunun inkişafına təsir edən investisiya mühitinin yaradılmasına, vergi, gömrük, təhsil və digər müvafiq sahələrlə bağlı siyasətin daha da təkmilləşdirilməsinə, yeni iş yerlərinin açılmasını stimullaşdıran institusional mühitin formalaşmasına yönəldilən tədbirlərin həyata keçirilməsindən ibarət olacaqdır. Qarşıdakı illərdə məşğulluq sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- regional iqtisadi əlaqələrin genişləndirilməsi;
- ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı, əmək qanunvericiliyinə riayət olunmasına nəzarətin təmin edilməsi;
- neft ixracından əldə olunan gəlirlərin bir hissəsinin insan kapitalının inkişafına istiqamətləndirilməsi və elmi tutumlu sahələrin inkişafı ilə bağlı qabaqcıl texnologiya və innovasiyaların tətbiq edilməsi;
- təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması;
- kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin miqrasiya səviyyəsinin azaldılması;
- qadınların və gənclərin məşğulluğunun səviyyəsinin artırılması. Qarşıdakı illərdə Azərbaycan Respublikasının vergi siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olacaqdır:
- vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi;
- müasir informasiya kommunikasiyalardan istifadə etməklə elektron xidmətlərin genişləndirilməsi və təkmilləşdirilməsi;
- regionların iqtisadiyyatına investisiya qoyuluşunun və innovasiya fəaliyyətinin stimullaşdırılması;
- regionlarda sahibkarlıq fəaliyyəti üçün daha əlverişli vergi mühitinin yaradılması.

Azərbaycan iqtisadiyyatının dünya iqtisadi məkanına inteqrasiya olunmasında, ölkənin iqtisadi təhlükəsizliyinin və daxili bazarının qorunmasında gömrük siyasətinin rolu əhəmiyyətli dərəcədə artır və ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasında əsas vasitələrdən biri kimi gömrük idarəçiliyinin daha da təkmilləşdirilməsi və şəffaflığa əsaslanan sistemin inkişaf etdirilməsi, sahibkarların və fiziki şəxslərin hüquqlarının müdafiəsinin möhkəmləndirilməsi, gömrük infrastrukturunun modernləşdirilməsi və maddi-texniki bazasının

möhkəmləndirilməsi işinin davam etdirilməsi 2014-2018-ci illərdə gömrük siyasətinin əsas prioritetləri olacaqdır. İqtisadiyyatda maliyyə vasitəçisi rolunun dəstəklənməsi məqsədilə bank sisteminin likvidliyinin adekvat səviyyədə saxlanması siyasəti davam etdiriləcək və qeyri-neft sektorunun davamlı inkişafı hesabına iqtisadiyyatın diversifikasiyasının təmin edilməsində, regional inkişafın sürətləndirilməsində, sahibkarlıq təşəbbüsünün genişləndirilməsində və bu əsasda yoxsulluğun səviyyəsinin azaldılmasında bank sisteminin rolu əhəmiyyətli dərəcədə artırılacaqdır. Qarşıdakı illərdə bank sistemində daha sağlam rəqabət mühiti formalaşdırılacaq, regionlar keyfiyyətli və geniş çeşidli bank xidmətləri ilə tam təmin ediləcək, bankların kredit və investisiya imkanları artırılacaq, bank xidmətləri bazarında bərabər hüquqlu rəqabət mühitinin təşkilinə nail olunacaqdır. Bazar iqtisadiyyatının səmərəli və stabil fəaliyyətini təmin edən, sahibkarlıq fəaliyyətini potensial risklərdən qoruyan, iqtisadiyyatın inkişafı üçün uzunmüddətli investisiya mənbələrini yaradan səmərəli milli sığorta sisteminin formalaşdırılması ilə bağlı zəruri tədbirlər davam etdiriləcəkdir. Ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafının təmin edilməsi baxımından iqtisadiyyata investisiyaların cəlb edilməsi xüsusi rol oynayacaq ki, investisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə əlverişli investisiya mühitinin yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Bu məqsədlə 2014- 2018-ci illər üçün dövlətin investisiya siyasətinin əsas istiqamətlərini aşağıdakı prioritetlər təşkil edəcəkdir:

- investisiyaların qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;
- regional investisiya siyasətinin müasir inkişaf tendensiyalarına uyğun¬ olaraq prioritetləşdirilməsi;
- ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin daha da gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin təmin edilməsi;
- nanotexnologiyalar və azkarbonlu istehsal sahəsinə dövlət investisiyalarının qoyuluşunun prioritetləşdirilməsi;
- iqtisadiyyatın prioritet sahələrinə, o cümlədən ixracyönümlü və əlavə dəyərin xüsusi çəkisi yüksək olan sahələrə yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə stimullaşdırıcı tədbirlərin sürətləndirilməsi;
- yaradılmaqda olan sənaye parklarına yerli və xarici investisiyaların cəlb edilməsi. Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması nəticəsində yüksək keyfiyyətli, ixracyönümlü və rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi dövlətin iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir.

Bu sahədə həyata keçirilən dövlət siyasəti sahibkarlığa yaradılmış fəaliyyət mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə və dövlət-sahibkar münasibətlərinin yaxşılaşdırılmasının təmin edilməsinə

yönəldiləcəkdir. Qarşıdakı illərdə sahibkarlığın inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçiriləcəkdir:

- sahibkarlıq fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın daha da təkmilləşdirilməsi işinin davam etdirilməsi;
- dövlət-sahibkar münasibətlərinin digər institusional mexanizmlərinin daha da təkmilləşdirilməsi;
- regionlarda sahibkarların maliyyə təminatının daha da yaxşılaşdırılması;
- sahibkarlığın istehsal, bazar və sosial infrastruktur təminatının yaxşılaşdırılması, o cümlədən, müasir bazar infrastrukturu mexanizmlərinin (maliyyə, bank və sığorta sisteminin, fond bazarının, audit, ipoteka, lizinq, françayzinq kimi xidmətlərin) inkişafının sürətləndirilməsi;
- regioinlarda kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi və gücləndirilməsi üzrə səylərin dəstəklənməsi.

Sənayeləşmə siyasətinə uyğun olaraq, regionlarda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin, sənaye məhəllələrinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək, innovasiya yönümlü texnologiyaların tətbiqi stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlər davam etdiriləcək. Sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının inkişafına, modernləşməsinə, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının və ölkənin ixrac qabiliyyətinin daha da genişlənməsinə, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir. Sənayeləşmə siyasəti çərçivəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli və ixracyönümlü sənaye məhsulları istehsalı sahələrinin yaradılmasının təşviqi;
- qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi;
- istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya təcrübəsində müvəffəqiyyətlə tətbiq edilən təşkilati modellərin, o cümlədən sənaye parkları və biznes-inkubatorların yaradılması işlərinin davam etdirilməsi;
- özəlləşdirməyə açılmış sənaye müəssisələrində daha da şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi, özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi;
- mövcud sənaye müəssisələrində istehsalın texnoloji cəhətdən yenidən qurulması və ixtisaslı kadrlarla təminat mexanizminin hazırlanması.

Ölkənin qeyri-neft sektorunun inkişafında əsas prioritet sahə olan kənd təsərrüfatının inkişafına yönələn ardıcıl islahatlar və yeni texnologiyaların cəlb edilməsi davam etdiriləcəkdir. Kənd təsərrüfatında fermerlərin birləşməsi və kooperativlərin yaradılması aqrar sektorda gəlirlərin və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin daha da artırılmasına və beynəlxalq standartlara uyğunlaşmasına təkan verəcəkdir. Aqrar sektorun inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi Dövlət Proqramında əsas istiqamətlərdən biri kimi nəzərdə tutulur. Aqrar bölmənin inkişafı istiqamətləri aşağıdakılardan ibarətdir:

- aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafı, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasının stimullaşdırılması, əsas ərzaq məhsulları ilə özünü təminetmə ilə bağlı tədbirlərin davam etdirilməsi;
- aqrar bölməyə maliyyə dəstəyinin artırılması və ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi;
- bitkiçilikdə və heyvandarlıqda ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi və bu sahədə təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması;
- iri taxılçılıq və ya toxumçuluq, tingçilik, üzümçülük, intensiv bağçılıq təsərrüfatlarının yaradılması;
- regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və satışı məqsədi ilə istixana, soyuducu və taxıl anbarı komplekslərinin (logistika mərkəzlərinin) yaradılmasının davam etdirilməsi;
- hər bir rayonun xüsusiyyəti, təbii və iqlim şəraiti nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi;
- ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları bazarının formalaşması;
- aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi və bazar prinsipləri əsasında fəaliyyət göstərəcək yeni strukturların yaradılması;
- kənd təsərrüfatında suvarma və meliorasiya təminatının yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, torpaq və su ehtiyatlarından səmərəli istifadə olunması;
- torpaqların elektron texniki uçotunun aparılması və fermerlərin elektron qeydiyyat sisteminin yaradılması istiqamətində müvafiq işlərin görülməsi. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək üçün dövlətin xarici ticarət siyasətində qeyri-neft məhsullarının ixracının genişləndirilməsi priroritet istiqamətlərdəndir. Bununla əlaqədar 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi mühüm vəzifələrdən olacaqdır:

- regionların inkişafında böyük rolu olan kənd təsərrüfatı və emalı məhsullarının hədəf bazarlara çıxış imkanlarının araşdırılması və artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- regionlarda fəaliyyət göstərən sahibkarların ixrac imkanlarının genişləndirilməsi üçün mütəmadi tədbirlərin davam etdirilməsi;
- milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- Azərbaycan mənşəli məhsulların dünya bazarlarına çıxış imkanlarının artırılması məqsədilə ixracatçı müəssisələrin beynəlxalq sərgi və yarmarkalarda iştirakının stimullaşdırılması;
- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- ixrac edilən və ixrac potensialı olan məhsulların keyfiyyət standartlarının yüksəldilməsi və bu istiqamətdə beynəlxalq standartlara uyğun məhsul istehsal edən müəssisələrin stimullaşdırılması və milli brendlərin yaradılmasının dəstəklənməsi.

2014-2018-ci illərdə informasiya və kommunika-siya texnologiyaları (İKT) infrastrukturu inkişaf etdiriləcək, regionlarda əhaliyə müasir elektron xidmətlərin göstərilməsi imkanları daha da genişləndiriləcək, kənd yaşayış məntəqələri də daxil olmaqla ölkə ərazisində genişzolaqlı, ucuz və keyfiyyətli internetə çıxış təmin ediləcəkdir. Bu sahədə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə müvafiq tədbirlər həyata keçiriləcəkdir:

- regionlarda inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, informasiya və kommunikasiya xidmətlərinin daha da genişləndirilməsi;
- regionlarda əhalinin İKT sahəsində bilik və kadr hazırlığı səviyyəsinin yüksəldilməsi;
- regionlarda televiziya yayımı keyfiyyətinin daha da yüksəldilməsi.

Qeyri-neft sektorunun inkişafı istiqamətində regionlarda turizmin inkişafı qarşıdakı illərdə prioritet olaraq qalacaq, turizm ehtiyatlarının genişləndirilməsi, turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan turizm xidmətləri və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, turizm obyektlərinin tikintisi ilə bağlı layihələrin icrası davam etdiriləcəkdir. Turizm sahəsinin inkişaf istiqamətləri aşağıdakılardan ibarətdir:

- regionlarda turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü layihələrin həyata keçirilməsi;
- ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması və bu sahəyə investisiyaların cəlb edilməsi məqsədilə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə təşviq işinin genişləndirilməsi;
- regionlarda turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması;
- turizm sektorunda çalışan personalın peşə hazırlığı səviyyəsinin artırılması vasitəsilə regionlarda turizm xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- regionlarda müxtəlif kateqoriyalı yeni mehmanxanaların və digər yerləşdirmə vasitələrinin, turizm xidməti obyektlərinin yaradılmasının dəstəklənməsi.

Qarşıdakı illərdə də ölkənin yanacaq-enerji kompleksi sahəsində görüləcək işlər iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən, energetika sənayesinin inkişafı, o cümlədən onun səmərəliliyini artırmaqdan ibarət olacaqdır. 2014-2018-cü illərdə bu sahədə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarət olacaqdır:

- ölkənin enerji sistemində yeni güclərin yaradılması işlərinin davam etdirilməsi, yeni stansiyaların və ötürücü şəbəkələrin tikintisi və yenidən qurulması;
- alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi;
- regionlarda yeni istilik və su elektrik stansiyalarının tikintisi, mövcud enerji bloklarının modernizasiyası işlərinin davam etdirilməsi;
- regionlarda qaz təchizatının daha da yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi;
- regionlarda müasir istilik sistemlərinin qurulması, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidənqurulması işlərinin davam etdirilməsi. Ölkədə insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin təmin edilməsi sahəsində görülən işlərin davam etdirilməsi və genişləndirilməsi əsas prioritet kimi müəyyən olunmuş, bu məqsədlə ölkə əhalisinin, xüsusən, sosial cəhətdən həssas əhali təbəqələrinin mənzil şəraitlərinin yaxşılaşdırılması və bu sahənin inkişafı əsas məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Mənzilkommunal təsərrüfatının inkişafı, mənzil fondunun istismarı və saxlanması səviyyəsinin yüksəldilməsi məqsədilə 2014-2018-ci illərdə mənzil siyasətinin əsas prioritetlərini:

- regionlarda mənzil-komunal sektorunda islahatların davam etdirilməsi, daşınmaz əmlak bazarının inkişafının dəstəklənməsi;
- regionlarda yaşayış sahəsinə ehtiyacı olan aztəminatlı vətəndaşların, o cümlədən gənc ailələrin yaşayış sahəsi ilə təmin edilməsi məqsədilə müvafiq tədbirlərin davam etdirilməsi;
- regionlarda su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- regionlarda abadlıq-quruculuq və yaşıllaşdırma işlərinin davam etdirilməsi;
- regionlarda məişət tullantılarının idarəedilməsi sahəsində müvafiq tədbirlərin görülməsi təşkil edəcəkdir.

Ölkənin strateji coğrafi mövqeyindən sə-mərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, yerli və beynəlxalq daşımaların idarə olunması mexanizminin təkmilləşdirilməsi, əhaliyə göstərilən nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması 2014-2018-ci illərdə qarşıda duran əsas vəzifələrdən olacaqdır. Bununla əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- regionlarda nəqliyyat sisteminin davamlı inkişaf etdirilməsi, nəqliyyat sektorunun, o cümlədən nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin daha da təkmilləşdirilməsi;
- ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat infrastrukturunun daha da inkişafı;
- regionlarda magistral yolların tikintisi və yenidənqurulması, xüsusi ilə kənd yollarının tikintisi, əsaslı təmiri ilə bağlı tədbirlərin davam etdirilməsi.

2014-2018-ci illərdə qarşıda duran əsas məqsədlərdən biri ekoloji tarazlığın təmin olunmasına nail olmaqdır. Biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, dənizin və onun akvatoriyasının çirklənməsinin aradan qaldırılması və qorunması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlər qarşıdakı illərdə də davam etdiriləcəkdir. Ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarət olacaqdır. Bu sahədə həyata keçiriləcək əsas tədbirlər aşağıdakılardan ibarət olacaqdır:

- regionlarda sənaye müəssisələrinin "yaşıl iqtisadiyyat" prinsipi əsasında fəaliyyət göstərməsi üzrə müvafiq tədbirlərin görülməsi;
- iqtisadi inkişafı xammal bazası ilə təchiz etmək üçün yeni xammal yataqlarının aşkar edilməsi:

- regionlarda meşəsalma və meşəbərpa tədbirlərinin davam etdirilməsi, yaşıllıq sahələrinin artırılması;
- regionlarda xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı və bio-müxtəlifliyin davamlılığının təmin edilməsi;
- regionlarda yaranan bərk məişət və sənaye tullantılarının idarə olunması;
- alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi. 2014-2018-ci illərdə əhalinin sosial müdafiəsi sahəsində dövlət siyasətinin əsas prioritet istiqamətləri:
- səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə regionlarda yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması sahəsində işlərin davam etdirilməsi;
- regionlarda sosial xidmət göstərən dövlət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, onların növləri və şəbəkəsinin genişləndirilməsi;
- Qarabağ əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı işlərin davam etdirilməsi;
- regionlarda əlil şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə müvafiq tədbirlərin davam etdirilməsi olacaqdır.

Qarşıdakı illərdə təhsil sahəsində həyata keçiriləcək işlər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq dünya ölkələri sırasında keyfiyyət nəticələri və əhatəliliyinə görə aparıcı mövqe tutan, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün genişmiqyaslı tədbirləri nəzərdə tutur. İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun təhsil sistemi ölkədə kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın davamlı inkişafını təmin edəcəkdir. Bu məqsədlərə nail olmaq üçün qarşıdakı illərdə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

- regionlarda təhsil müəssisələrinin tikintisi və əsaslı təmir işlərinin davam etdirilməsi:
- təhsil şəbəkəsində rasionallaşdırma tədbirləri həyata keçirməklə, regionlar arasında təhsilin keyfiyyətini bərabərləşdirmək üçün müvafiq tədbirlərin görülməsi;
- regionlarda əmək bazarının mütəmadi öyrənilməsi sisteminin yaradılması;
- distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin yaradılması.

2014-2018-ci illərdə səhiyyə sahəsində qarşıya qoyulan əsas məqsədlər regionlarda ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi, əhaliyə göstərilən tibbi

xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi olacaqdır. Regionlarda səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi işləri davam etdiriləcəkdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

- regionlarda əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması, mütəxəssislərin bilik və bacarıqlarının daim artırılması sahəsində müvafiq tədbirlərin davam etdirilməsi;
- regionlarda əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi, tibbi-profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin yüksəldilməsi;
- səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının dəstəklənməsi;
- rayonlarda yeni səhiyyə müəssisələrinin tikintisi və əsaslı təmiri işlərinin davam etdirilməsi;
- regionlarda sanatoriya-kurort müəssisələrinin yaradılması, yenidən qurulması və onların infrastruktur təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi. Gənclərin, həmçinin bədən tərbiyəsi və idmanın inkişafının dəstəklənməsi məqsədi ilə aparılan işlər 2014-2018-ci illərdə də davam etdiriləcəkdir. Ucqar rayon və kənd yerlərində yaşayan gənclər üçün məlumat məsləhət xidmətləri şəbəkəsi genişləndiriləcək, gənclərin sağlamlığının möhkəmləndirilməsi, asudə vaxtın səmərəli təşkili sahəsində bədən tərbiyəsinin və idmanın rolunun artırılması üçün müvafiq şəraitin yaradılması istiqamətində tədbirlər davam etdiriləcəkdir:
- regionlarda gənclərin inkişafı üçün şəraitin daha da yaxşılaşdırılması;
- gənclərin məşğulluğunun daha da artırılması və gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi;
- gənc mütəxəssislərin regionlarda işləməsinin təşviq edilməsi;
- regionlarda uşaq, yeniyetmə və gənclər arasında bədən tərbiyəsi və idmanın geniş təbliği;
- regionlarda idman müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və inkişaf etdirilməsi işlərinin davam etdirilməsi.

Qarşıdakı illərdə regionlarda mədəni irsin qorunması, qloballaşma şəraitində mədəni çeşidliliyin daha da inkişaf etdirilməsi, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı, regionlarda mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi üzrə müvafiq tədbirlər davam etdiriləcəkdir. Dövlət Proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata

keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla ölkə regionlarının davamlı inkişafında və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında, eləcə də ölkə əhalisinin rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

4.5.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirmə mənbələri

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

- Azərbaycan Respublikasının dövlət büdcəsi;
- büdcədənkənar dövlət fondları;
- mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların vəsaitləri;
- Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin vəsaitləri;
- yerli və xarici sahibkarların vəsaitləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

BEŞİNCİ FƏSİL

XƏZƏRİN ENERJİ EHTİYATLARI VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ

Neft Azərbaycanın ən qiymətli sərvətidir. Hasilatına başlanıldığı tarixdən bu günə qədər keçən 150 il ərzində iqtisadiyyatımızda mühüm rol oynayan neft hal-hazırda da ölkənin əsas gəlir mənbəyi və ixrac mallarının əsas qaynağı sayılır.

Ölkə inkişafının orta və uzun müddətli perspektivləri birbaşa neft sektorunun güclənməsindən asılıdır. Neft satışından əldə edilən gəlirlər bəzi sosial və iqtisadi problemlərin həllində açar rolunu oynayır.

Azərbaycan enerji ehtiyatlarının kəşf və inkişafı baxımından imzaladığı müqavilələrlə, tarixi bir fürsəti həm siyasi, həm də iqtisadi müstəqillik cəhətdən əla imkana sahib olmuşdur. İmzalanan neft müqavilələri ölkəyə xarici kapital girişini sürətləndirərkən, buna paralel olaraq da xarici yardımlar və beynəlxalq maliyyə təşkilatlarının verdiyi kreditləri artırmışdır.

5.1. NEFT VƏ TƏBİİ QAZ POTENSİALI

Xəzər regionu (Azərbaycan, Türkmənistan, Qazaxıstan, Rusiya və İran) 10 milyard barel təsdiqlənmiş neft ehtiyatına sahibdir. Təxmini neft ehtiyatlarının həcmi 233 milyard bareldir. Xəzər regionunun təsdiqlənən təbii qaz ehtiyatları isə, təxmini olaraq 170 Tcf (trilyon cobic feet) dir. Özbəkistan da daxil olmaqla regionun təxmini təbii qaz ehtiyatları 293 Tcf-dir[148].

Onu da qeyd etmək lazımdır ki; Xəzər regionunun hidrokarbon ehtiyatları ilə, bunun nəticəsi olaraq Azərbaycanın neft və təbii qaz potensialı ilə əlaqədar olaraq da çox fərqli qiymətləndirmələr edilir[149].

Azərbaycan Enerji Nazirliyinin məlumatına əsasən, Azərbaycanın imzaladığı müqavilələri əhatə edən regionlarında 6-8 milyard barel (1 milyard ton) neft ehtiyatı vardır. Sadəcə Azəri-Çıraq-Günəşli yataqlarının neft ehtiyatı 730 milyon tondur. Yuxarıda verilən məlumat əsasında Azərbaycanın dünya neft ehtiyatlarının 0.7%-nə sahib olduğunu deyə bilərik[150].

---

[148] Bax: İ.T.Əkbərov, "The Role and Economic İmportance of Caspian Sea Region", *Materials of the International Conference on a Theme Caucasus and Central Asia During Globalization*", Baku, 2003, ss.66-67. *Not*: 1 ton = 7,33 barel; 1 trilyon kub metr = 35,33 trilyon kub feet.

[149] Bax: Qubad İbadoğlu, "Azərbaycanın İnkişaf Strategiyasında Neftin Rolu: Protestan Nəzər Nöqtəsiylə", *2023 Dərgisi*, S.18, 15 Ekim-2002, s.73.

[150] *BP Statistical Review of World Energy 2004*, http://www.bp.com/centres/energy (07.04.2005);

Azərbaycanın fəaliyyətdə olan yataqlarında 200 milyard m^3 təbii qaz ehtiyatı vardır. Dünyanın mühüm kondensat yatağı olan Şahdəniz yatağının kəşfi ilə birlikdə, aparılan 2 fərqli hesablamaya görə yatağın təbii qaz ehtiyatının 1 trilyon m^3 olduğu təsbit edilmişdir[151]. Azərbaycanın təsdiqlənən ümumi təbii qaz ehtiyatları isə 2,47 trilyon m^3-dir. Təsdiqlənən təbii qaz ehtiyatlarına görə Azərbaycan dünyanın 0,8%-nə bərabər olan təbii qaz ehtiyatına sahibdir[152]. Aparılan hesablamalara görə, risk amili də diqqətə alınaraq, Azərbaycanda geoloji qaz ehtiyatlarının ümumi həcmi 8-10,7 trilyon m^3-dir[153]. Bu ehtiyatlarla Azərbaycan gələcək 10-15 il ərzində neftlə bərabər qaz da ixrac edən ölkələr arasına girəcək.

"Azəri-Çıraq-Günəşli (AÇG)" və "Şahdəniz"yataqlarının tam olaraq istifadəsindən sonra Azərbaycan gələcək 5 ildə neft və təbii qaz hasilatında güclü inkişafa nail olacaq."AÇG" üzrə 3-cü mərhələnin başlaması ilə 2010-ci ildə bu yataqdan günlük hasilat həcmi 140 min bareldən 1 milyon barelə yüksəlmişdir. Bu hasilatla Azərbaycan təbii qaz ixrac edən ölkələrdən biri olacaq və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti vasitəsiylə Türkiyə bazarı "mavi enerji" təbii qaz ilə təmin ediləcək.

Aparılan bəzi hesablamalara görə, Azərbaycanın neft ehtiyatları, 60-67 il ərzində tükənəcək. Rus mütəxəsislərinə görə isə, bu müddət 25-35 ildir[154].

5.2.NEFT VƏ TƏBİİ QAZ MÜQAVİLƏLƏRİ

Orta Asiya və Qafqazda xam neftin mövcud olduğunun bilinməsi XIII əsrə qədər uzanır. Dünyada mexaniki üsullarla (sənaye üsullarla) ilk müasir neft quyusu Bakı yaxınlığında Bibiheybətdə 1848-ci ildə qazılmışdır. Bu hadisə ABŞ-ın Pensilvaniya ştatında qazılmış neft quyusundan 11 il əvvəl olmuşdur. 1870-ci ilin əvvəllərində isə neft quyularının sənaye üsullarla qazılması bütün Azərbaycanda yayılmışdır. Bu illərdə mühəndislik və texnologiya olduqca inkişaf etmiş və qanunvericilik tərəfindən müəyyən qanunlarla dəstəklənmişdir. 1871-ci ilə qədər hər iki metodla davam edən istehsal, 1872-ci ildən sonra yeni metodlar və Amerikadakı istehsal sistemlərinə uyğun olaraq yeni neft quyuları açılmış və müasir obyektlər qurulmağa başlanmışdır.

Sevil Yıldırım, *Dünyada və Türkiyədə Neft*, T.C. Baş nazirlik Xarici Ticaret Müstəşarlığı İqtisadi Araşdırmalar və Dəyərləndirmə Baş Müdürlüyü, Ankara, Avqust-2003, ss.4-5.

151 Ancaq daha sonrakı araşdırmalara görə təbii qaz ehtiyatlarının 500 milyar m^3 olduğuna dair açıqlamalarında yer aldığı diqqət çekir. Bax: 'Drilling of New Well on Shahdaniz to Allow Higher Sales', *Azernews,* http://www.azernews.net/view.php?d=5655 (15.03.2005)

152 *BP Statistical Review of World Energy 2004*, http://www.bp.com/centres/energy (07.04.2005).

153 Fikrət Sucayev, "Azərbaycanda Qaz Hasilatı və Ona Olan Tələbatın Qarşılanmasının Başlıca İstiqamətləri", *Azərbaycan Müsteqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.36-37.

154 *525-ci Qəzet*, 18.09.2004.

Azərbaycanda o illərdə neft yataqlarının satışı xaricində 24 il müddət ilə kirayəyə verilmə yolu da tətbiq olunmuşdur. Neft yataqlarını daha çox Rus və Erməni investorlar kirayəyə götürmüşdür. Digər tərəfdən 1870'li ildən sonra Bakıya Rusiya və Avropadan əhəmiyyətli maliyyə axın reallaşmışdır.

Neft sektorunda Azərbaycan burjuaziyasının ən əhəmiyyətli nümayəndəsi olaraq isə Hacı Zeynalabdin Tağıyev görülməkdədir. 1873-ci ildə Tağıyevin aid qurulan müəssisə, 25 il kimi qısa bir müddətdə qazma, istehsal və neftin nəqli, qısaca neft sənayesinin bütün budaqlarını bir araya gətirən böyük bir sənaye kompleksi halına gəldi. 19. əsrdə ölkədə neft sektorunun inkişafında rol alan Azərbaycanın öndə gələn təşəbbüskarlar ("neft milyonçuları" deyə adlandırılanlar) arasında Hacı Zeynalabdin Tağıyev xaricində Murtuz Muxtarov, Musa Nağıyev, Şəmsi Əsədullayev, Seyid Mirbabayev də qeyd edilə bilər. 1873-ci ildən etibarən sıx bir şəkildə neft istehsalı məqsədiylə qazma fəaliyyətlərinin başladığı il olmuşdur. Oxşar il Bakının neft sənaye mərkəzi olan Qaraşəhirin qurulmasına başlandı.

1875'de Nobel Qardaşlar, Azərbaycan neft sektorunda fəaliyyətə başladılar. Başda Sabunçu, Zabrat və Ramana olmaq üzrə Abşeron'daki neft yataqları inkişaf etdirilməyə başladı.1877-ci ildə Nobel Qardaşlar tərəfindən ilk neft daşıma gəmisi inşa edildi. Qaraşəhər və Sabunçu neft yatağı arasındakı neft boru xətti inşası tamamlandı.

Bibiheybət ilk neft quyusuna 1878-ci ildə işə düşdü. Həmin il Balaxanı neft sahələrini Qara şəhərdəki neft rafinerilərilə bağlayan 12 km. uzunluğundakı neft boru xətti inşa edildi.

1879-cu ildə "Nobel Qardaşlar Birliyi" nin təməli atıldı. Nobel Qardaşların ofisi də Qara şəhirdəydi.

1883-ci ildə 1067 km uzunluğundakı Bakı-Tbilisi-Batum dəmir yolu tikintisi tamamlandı. 16 May 1883 də Rothschild Qardaşlar Xəzər və Qara dəniz Neft Sənaye və Ticarət Birliyini qurdular. İyun-1886-cı ildə dünya tarixində ilk dəfə neft tankeri ilə Bakı xam nefti Batumdan Londona hərəkət etdi.

1887-ci ildə Musa Nağıyevə, 1893 də Şəmsi Əsedullayevə aid neft sənaye və ticarət şirkəti quruldu. 1897-1907 illəri arasında uzunluğu 833 km. olan Bakı-Batum boru xətti inşa edildi.

Bakıya 1880-ci illərdə Fransız sərmayəsi, 1890-cı illərdə isə ingilis sərmayəsi girdi. Azərbaycan və Şimali Qafqaz neft sənayesi ilə maraqlanmağa başlan Rothschild Qardaşlar və Parisli bankir, neftin tankerlərlə Qara dənizə daşındığı Bakı-Tiflis-Batum dəmir yolunun açılmasının dərhal ardından, Batum Neft Sənaye və Ticarət Şirkətinin hissələrinə sahib olmuşdular. 1891-ci ildə isə İngilis neft daşıma şirkəti Shell gizli bir razılaşma ilə Bakı neftinin nəqliyyat və satışını öz öhtəsinə götürmüşdür.

1893-ci ildə Shell və Rotschild Qardaşlar tankerlərindən Süveyş kanalından keçirmə icazəsi alaraq Bakı neftini yaxın, orta və uzaq şərqə nəqletməyə başladılar. 1899-1901-ci illərdə Bakı neft sənayesi ildə 11.5 milyon ton istehsal ilə dünyada neft istehsalında birinci sırada yer aldı. Avqust-1902-ci ildə Nobel Qardaşlar Bakıdan Əfqanıstana ilk neft daşımasını etdilər.

1910-ci ildə neft sahələrinin təxminən 60% -i üç böyük şirkət tərəfindən nəzarət edilmişdir. Bu şirkətlər, "Royal Dutch Shell", "Nobel Qardaşlar Neft İstehsal Şirkəti" və "Rusiya Neft Birliyi" dur. 1873-ci ildə 12 şirkət fəaliyyət göstərərkən, Azərbaycanda 1874 və 1899 illəri arasında bir qismi xarici sərmayəli olmaq üzrə 29 ortaq neft şirkəti quruldu. 1916-cı ildə isə bu sayı 100-dən çox idi. Şirkətlərin səhmlər London, Paris və Berlin birjalarında məşhur idi.

19. əsrin sonu və 20-ci əsrin əvvəlində Azərbaycan dünyanın ən çox neft istehsal edən ölkəsi olmuşdur. 20. əsrin başlanğıcında Rusiyada çıxarılan neftin 95%-ini və dünyada çıxarılan neftin 50%-ini meydana gətirəcək şəkildə Azərbaycanda (Abşeron yarımadasında) illik olaraq 10 milyon tondan çox neft çıxarılırdı.

İqtisadi, siyasi, hərbi və diplomatik bəzi faktorların yer aldığı Birinci Dünya Müharibəünün təməl səbəbləri arasında neft mübarizəsi də yatmaqdaydı. Müharibəə hazırlanan tərəflərin strateji planları Mosul, İran və Azərbaycanın zəngin neft yataqlarına sahib olmağa bağlı hədəfləri də əhatə edirdi. Bakının zəngin neft yataqları dünyanın inkişaf etmiş dövlətlərinin diqqətini çəkməkdə idi. Neft sənayesinə qoyulan böyük investisiyalar və onun texnoloji inkişafı Bakını beynəlxalq əhəmiyyəti olan bir mərkəz halına gətirdi. 1910-1914-ci illərdə Azərbaycanda 38 milyon ton neft çıxarıldı. Müharibədə iştirak edən İngiltərə, Fransa, Almaniya, Rusiya və ABŞ-ın hərbi və strateji mərkəzləri dünya neft ehtiyatlarını tapmaq üçün təcili axtarışa girişdilər. Araşdırmalar, Azərbaycanın neft ehtiyatlarının Meksika və İran ehtiyatlarından daha çox olduğunu və ABŞ-ın neft ehtiyatlarından az olmadığını ortaya qoydu.

Azərbaycan isə 28 May 1918-ci ildə müstəqilliyini elan edərək, Rusiya, Almaniya və Antanta dövlətləri arasında neft uğrunda mübarizənin daha dinamik mərhələyə keçməsinin səbəbi olan Osmanlı İmperatorluğu ilə siyasi, hərbi, diplomatik və iqtisadi əməkdaşlıq başlatdı. Mart-1918-ci ildə Bakıda həyata keçirilən qanlı qiyamlardan sonra Erməni şəbəkələri ilə əməkdaşlıq içərisindəki Bolşeviklər, 25 Aprel 1918-ci ildə şəhəri nəzarət altına keçirdilər. Dörd aylıq müddət içərisində hər hansı bir qarşılıq alınmadan Sovet Rusiyasına 1.3 milyon ton neft ixrac olundu. Bu vaxt Sovet Rusiya zəngin neft yataqlarını əlində tutmaq üçün Bakı Sovetini hərbi, siyasi və diplomatik vasitələrlə dəstəklədi.

Bakı Sovet hökuməti, Azərbaycan Respublikasını ortadan qaldırmaq məqsədiylə Gəncəyə doğru hərəkətə keçdi. Ancaq Osmanlı Dövləti və Azərbaycan müttəfiq ordusuna məğlub oldu. 15 Sentyabrda Bakı geri alındı. Lakin neft uğrunda mübarizə sona çatmadı.

Mondros razılaşmasına görə Türk ordusu Bakını tərk etməsi və müttəfiq ordularının Bakıya girməsi lazım idi. 17 Noyabr 1918-ci ildə General Tompson əmrində Bakıya girən müttəfiq orduları "Britaniya Neft Rəhbərliyi" adlı təşkilat qurdular və Batum yollarıyla Azərbaycandan o dövrün qiymətləriylə 114 milyon rubl dəyərində neft ixrac etdilər.

Müharibə sonrasında neftin, iqtisadi və strateji əhəmiyyəti daha dəqiq aydın oldu. Ölkələr, milli güclərini artırma və iqtisadi inkişafı reallaşdırma üçün daha böyük miqdarda neftə ehtiyac duymağa başladı.

1919'un yazında müttəfiq orduları Bakını tərk etdikdən sonra Azərbaycan rəhbərliyi böyük zərər görmüş olan neft sənayesini yenidən inşa etməyə çalışdı. 1917-ci ildə yenidən istehsal artımı müşahidə neftin 1918-ci ildə 3.376 və 1919-ci ildə 3.690 milyon ton çıxarılmasına qarşı, bu miqdar 1916-ci ilin neft istehsalının yalnız yarısı qədər idi.

1919-ci ildə daha çox Azərbaycandakı siyasi vəziyyətin tarazlıqda olması və neft sənayesinin yenidən köhnə sahiblərinə qaytarılması səbəbiylə neft istehsalında müəyyən bir artım oldu. Sonrakı iki ildə, neft sənayesi, neft çıxarılmasında siyasi tarazlıq və neft sənayesinin yenidən dövlətləşdirilməsi üzündən daha böyük eniş göstərdi. Belə ki 1921-ci ildə neft istehsalı 1919-ci ilin səviyyəsinin% 70-i qədər oldu.

Digər tərəfdən 1922-ci ildə Cenova və Haaqa konfransları edildi. Konfransların dünyaya ilən edilən səbəbi siyasi olmasına qarşı, əslində məqsəd yalnız petroldü, həm də Bakı nefti idi. Konfranslarda Azərbaycanın müstəqilliyini tanıma deyil, böyük neft tröstlerini arxalarında gizləyən dövlətlərin neft yataqlarını taksim edilirdi. Konfranslarda danışılan tək şey neft oldu. Nəticədə, təşkil edilən Cenova və Haaqa konfransları ilə Azərbaycanın taleyi təyin olundu; Azərbaycan insanı neft uğrunda çiçəyi burnunda istiqlalını itirdi və bir Türk dövləti neft uğrunda təmizlik edildi.

Bu dövrdə Azərbaycanda neft çıxarılmasında müşahidə kəskin azalışın təməl səbəbi Rusiyadakı və Azərbaycandakı siyasi dəyişikliklərdir.

Sovetlər Birliyi zamanında Azərbaycanın, faydasından məhrum qalacaq şəkildə, birliyin neft ehtiyaclarının əhəmiyyətli bir hissəsini qarşıladığı görülməkdədir. Neft istehsalını və ixracatını artırmaq üzrə neft sənayesinə edilən sərmayələrdə balanssız artıma qarşı, digər sənaye sahələrinə edilən investisiyalar getdikcə azalmışdır.

Sovetlər Birliyi hakimiyyəti illərindəki 1920-45 arası, neft sənayesinin ikinci dövrü olaraq qəbul edilir. Bu dövrdə neft və təbii qaz sənayesində yüksək səviyyədə inkişaf olarkən, maddi və texniki infrastruktur əhəmiyyətli məsafə aldı. 1945-90-ci illər arası isə Azərbaycan neft istehsalının üçüncü mərhələsi olaraq qəbul edilir.

1918-ci ildə, Moskvadakı bolşevik hökümətinin aldığı qərara uyğun olaraq 165 müstəqil neft işlətməsi Azərbaycanda devletleştirildi. Eyni ildə, Müstəqil Azərbaycan Demokratik Respublikasının elanından sonra (1918-1920), Azərbaycan hökuməti, neft sənayesinin dövlətləşdirilməsinə ləğv edən və müəssisələri sahiblərinə geri verən bir qərar qəbul etdi. Təəssüf ki neft böhranını aradan qaldırmağa imkan verilməyərək 28 Aprel 1920 tarixində Azərbaycan Demokratik Respublikası, Rus ordusu tərəfində işğal edildi. 1920-ci ildə Rusiyanın Qırmızı Ordusu Azərbaycanı istilasının sonra Azərbaycan neft sənayesi yenidən devletleştirildi. 30 Aprel 1920-ci ildən etibarən Bakı nefti Rusiyaya daşınmağa başlandı.

İşğaldan sonra da neft istehsalı azalmağa davam etdi. Belə ki 1921-ci ildə yalnız 2,411 milyon ton neft istehsal edildi.

Neft sənayesinin dövlətləşdirilməsi və siyasi dəyişikliklər bu dövrdə çox əhəmiyyətli rol oynadı. Getdikcə artan neft istehsalı 1928-ci ildə 11.6 milyon tona yüksəldi.

Bu dövrdə Amerikanın Standart Oil və İngiltərənin Shell firmaları arasında böyük bir rəqabət yaşandı. Bu rəqabətdən faydalanan Azərbaycan, Türkiyə vasitəsilə xarici ölkələrə neft satır və qarşılığında Sovetlər Birliyinə mal alırdı. Leninin xarici ticarətdə Azərbaycana bir az sərbəstlik tanıması bəzi dairələrin narazılığına səbəb olmasına qarşı, Lenin görülən işlər haqqında məlumat verilmək şərti ilə xarici ticarətə davam edilməsini müdafiə etdi. Yavaş-yavaş artan Bakı neft ixracatı, 1925-ci ildə 1 milyon 650 min tona çatarkən, bu rəqəm 1921-ci ildəki ixracatın əlli dəfədən çoxu həcmində olmuşdur.

Azərbaycanda Birinci Dünya müharibəsindən sonra neft istehsalı və emalı sənayesini inkişafı üçün böyük səyin xərclənməsinə baxmayaraq, Petro-kimya, neft sənayesi və maşın mühəndisliyi mövzularında uğurlar əldə edilərkən neft istehsalında çox böyük enişlər yaşanmışdır. Buna baxmayaraq 1930-cu ildə SSRİ-nin neft istehsalının 57 % i Azərbaycan tərəfindən təmin görülməkdədir. Bu nisbət 1940-ci ildə71% -ə yüksəlmişdir.

İkinci Dünya müharibəsində Azərbaycan Nefti.-Neft mövzusunda çox oxuyan, danışan və dünyanın başlıca neft yataqlarının tarixini bilən Hitler, İkinci Dünya Müharibəündə, başda Bakı olmaqla Qafqazın neft yataqlarını, "Edelweiss" deyə adlandırılan planıyla ələ keçirməyə çalışdı. Çünki Qafqaz neftini, Alman İmperiyasının öz-özünə kafi olması və beləcə yenilməz olması nöqtəsində təməl ünsür olaraq görürdü.

Bakı neft yataqları İngiltərə, Fransa və ABŞ-ın da diqqət mərkəzindəydi. Almaniyanın Bakı neft yataqlarını əldə etməsini önləmək və Sovetlər Birliyini zəiflətmək məqsədiylə, bəhs edilən dövlətlərin Bakını bombalama planları vardı. Ancaq Hitlerin Hollandiya, Fransa və Belçikanı 22 İyun 1940-cı ildə işğal etməsiylə Bakı neft yataqları hədəf mərkəzindən çıxmış oldu. Hitler Bakı

neftini ələ keçirmək üçün böyük mübarizə vermiş olmasına qarşı, müvəffəqiyyətli olamayarak məqsədinə çata bilmədi. Sovetlər Birliyi isə Azərbaycan neftləri sayəsində Almaniyaya qalib gələrək İkinci Dünya Müharibəsinin qazandı.

Sovetlər Birliyinin inkişafında əhəmiyyətli bir rol oynayan Azərbaycan nefti, İkinci Dünya Müharibəsində hər il cəbhəyə 20 milyon ton göndərilmişdir. Bu baxımdan müharibənin qazanılmasında Azərbaycan neftinin təsiri böyük olmuşdur. İkinci Dünya Müharibəsi ərzində Azərbaycanda neft istehsalı isə bu şəkildə reallaşmışdır: 1941-ci ildə 25.4, 1942-ci ildə 15.8, 1943də 12.6, 1944 də 11.8 və 1945-ci ildə 10.4 milyon ton. 1923-ci ildən etibarən sabit bir şəkildə yüksələn neft istehsalı 1941-ci ildə isə rekord səviyyəyə çıxmışdır.

Bu dövrdə Bakı və ətrafından çıxarılan neft, Sovetlər Birliyində istehsal neftin 75 %ini təşkil edirdi. Savaş illərində SSRİ-nin neft ehtiyacının hamısına yaxın bir hissəsinin Azərbaycan tərəfindən qarşılandığı göz önünə alındığında Azərbaycanın geo-strateji əhəmiyyəti daha çox anlaşılmaktadır.

İkinci Dünya Müharibəsi müddəti isə Azərbaycan neftinin inkişaf prosesinə böyük zərər verdi. Çünki neftin daşınmasında neft quyuları böyük zərər gördü.

Xəzər dənizində 7 noyabr 1949-cu ildə "Neft Daşları" nda kəşf quyusundan ilk dəfə neft istehsalına başlanmış oldu.

Digər tərəfdən Bakı neft və sənayesinin, Tatarıstan, Başqırdıstan və Qazaxıstandakı neft yataqlarının kəşf edilməsi və istehsal edilməsində də əhəmiyyətli qatqısı olmuşdur. Bu səbəblə Sovetlər Birliyində kəşf edilən yeni neft yataqları "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" olaraq adlandırılmışdır. Sibir yataqları başda olmaq üzrə, Sovetlər Birliyində Volga boyunda, Tataristanda, Başkurdistanda, Qərb Sibirdə, Qazaxıstanda, Türkmənistanda neft istehsalına başlanması, Bakı neft istehsalının 1950-ci illərdən sonra əhəmiyyətli səviyyədə azalmasına səbəb olmuşdur.

Sovet neft istehsalında Azərbaycanın payı 1950-ci ildə 39.1%'dən 1960-ci ildə 12.9 %-ə və 1970-ci ildə 6%, 1975 'də 3%, 1980'da 2.40-%ə və 1990-cı ildə 1.7 % ə qədər azalmışdır.

Bu müddət içində ortaya çıxan azalmanı aşağıdakı faktorlarla izah edilə bilinər:

Əvvəlcə, davamlı istismar sahil üzərindəki neft sahələrində ehtiyatlar tükənərkən yeni kəşf edilən sahələrin heç biri də bu sahələrin azalmasının təmin olunmasına faydalı olmaga imkan vermirdi. Eyni zamanda, müəyyən olan sahələrdən neft çıxarılması olduqca bahalı olurdu.

İkinci olaraq, yuxarıda da ifadə edildiyi kimi, Qərb Sibir, Qərb Qazaxıstan və digər yerlərdə çox böyük neft yataqları kəşf edilmişdir.

1985-ci ildə dənizdə çıxarılan neftin payı Azərbaycandakı ümumi istehsalın 66 %-ni təşkil edirdi.

1970-ci illərdə və 80-ci illərin başında, Xəzər dənizinin Azərbaycan sektorundakı 60 metrdən çox dərinlikdə neft və təbii qaz yataqlarının araşdırılması üçün "Kaspmorneftegaz" təşkilatının texniki imkanları qeyri-kafi qaldı. Gipromorneftegazın köməyiylə 1978-ci ildə böyük ehtiyatlara sahib olan Günəşli kəşf edildi və bu da daha sonra digər yataqların araşdırılmasına yol açdı.

Birlik içərisində iştirak edən digər respublikalar kimi, Azərbaycan da Sovet dövrü ərzində mərkəzi planlaşdırma ilə idarə və istiqamətləndirildiyi üçün, mərkəzə tam asılı olacaq şəkildə, yeraltı və yerüstü qaynaqlarını, öz ehtiyacları istiqamətində kullanamamıştır. Neft üçün Azərbaycana ödənilən pul mədən suyunun qiymətindən 3-4 qat aşağı idi. İlk əvvəllər 35 daha sonra 65 rubl və 1991-ci ildə 120 rubl ödənilir neftin tonunun xərci təxminən 131 rubluydi. Ayrıca, Sovet dövrünün son illərində mərkəzdən edilən investisiyaların 85 %-i Qərb Sibir, Ural və Volqa boyu neftlərinə ayrılmışdır.

XIX əsrin sonlarına doğru, regiondakı güclər, dünya gücləri və neft şirkətləri arasında böyük bir rəqabət başladı. Neft bazarındakı nüfuzunu itirməkdən qorxan Rusiya, 1895-ci ildə Amerikan Standart Oil, The Rotchilds və Nobels şirkətləri arasında bir müqaviləni baykot etdi. Regiondakı rəqabət, etnik münaqişələri, bürokratiya və nisbətən az inkişaf etmiş hüquqi və ticari icralar da artan nisbətdə alovlanırdı[155].

XIX əsrdə texnologiyanın inkişafı neft ehtiyatlarının yüksək səviyyədə istifadəsini mümkün qıldı və regionun nəzarəti üçün verilən mübarizələr də artdı. Rəqabət əsas olaraq, Qafqaz və Xəzər dənizi ətrafında mərkəzləşdi[156]. Regiondan çıxan xam neft XX əsrdə hər iki dünya müharibəsində də mühüm rol oynadı. Qafqazın neft sahələrinin mühafizəsi müttəfiqlərin ən əsas işi oldu.

İkinci dünya müharibəsi ərəfəsində, Qafqaz nefti Hitlerin kəşfiyyatçılarının ən əsas hədəfi idi. 1939-cu il Alman Rus paktından sonra, Qafqazdan çıxardılan Sovet nefti Alman neft idxalının 1/3-ni təşkil edirdi. 1942-ci ildə Almaniya regionun təbii sərvətləri üzərindəki hakimiyyəti ələ keçirtmək üçün mütəmadi olaraq hücumlar təşkil etdi.

Sovet dövründə Azərbaycanın öz təbii resurslarından çox istifadə edə bilmədiyi, ittifaqın neft ehtiyaclarının böyük bir hissəsini qarşladığı müşahidə edilir. Neft hasilatını və ixracını artırmaq məqsədilə neft sənayesinə qoyulan sərmayələrdə qeyri-mütənasib artışın müqabilində, digər sənaye sahələrinə qoyulan sərmayələr getdikcə azalmışdır.

SSRİ-nin dağılmasından sonra demək olar ki, bütün dünyanın diqqəti müstəqilliyini qazanan Türk dövlətlərinə çevrildi. Zəngin neft və təbii qaz ehtiyat-

---

[155] Ersan Bocutoğlu, *Orta Asiya və Qafqazdakı Vəziyyət və Avropa Təhlükəsizliyi*, Qaradeniz Texniki Universiteti Mətbəəsi, Trabzon, 1998, s.47.

[156] Bocutoğlu, s.48.

larına sahib olan bu dövlətlər təəssüf ki, tək başlarına neft və təbii qaz ehtiyatlarını istifadə edə biləcək maddi və texniki gücə sahib deyildilər.

Azərbaycanın Xəzər dənizindəki neft hasilatı və inkişafı Günəşli, Çıraq, Azəri və Kəpəz olmaqla 4 sahədə cəmləşmişdi. Ancaq, sadə texnologiyanın istifadəsi səbəbiylə həm hasilatda, həm də hasil edilə biləcək ehtiyatlarda azalma problemləri ilə qarşı qarşıya qalınmışdı. 1980-ci ildə neft hasilatı 14.7 milyon ton idisə, bu rəqəm getdikcə azalaraq 1990 cı-ildə 12.5 milyon ton, 1995 ci-ildə 9.2 milyon tona və 1996-cı ildə isə 9.1 milyon tona düşmüşdür. Neft hasilatındakı bu azalma, köhnə texnologiyaların istifadəsi və neftçıxartma avadanlıqlarının təmirindəki nöqsanlar səbəbiylə məhsuldarlığın azalmasından qaynaqlanmışdır. Azərbaycanın sahib olduğu zəngin neft yataqlarının istifadəsi üçün 1992-ci ilin sentyabrında Azərineft və Azneftkimya birləşdirilərək Azərbaycan Dövlət Neft Şirkəti (The State Oil Company if the Azerbaijan Republic-SOCAR) yaradıldı. Neft hasilatının artırılması və mövcud ehtiyatlarının yaxşılaşdırılması ancaq müasir texnologiyanın istifadəsi və yeni layihələr həyata keçirtməklə mümkün ola biləcəkdi. Azərbaycanın sahib olduğu iqtisadi gücü və texnologiyası mövcud ehtiyatların istifadəsi və inkişafı üçün kifayət etmirdi. Bu problemlər Azərbaycanı böyük neft şirkətləri ilə müttəfiqliyini zəruri edir[157].

Ölkədə həm quruda, həm də dənizdə neft çıxarılır. Quruda çıxarılan neft daha çox Abşeron yarımadasında çıxarılır. Azərbaycanın neft müqavilələri əsasən dəniz yataqları üzərində cəmləşmişdir. Azərbaycan böyük neft şirkətləri ilə imzaladığı müqavilələrlə neft ehtiyyatlarını ölkə iqtisadiyyatına cəlb etməyi hədəf olaraq seçmişdir. Bu hədəf istiqamətində, qurudakı yataqlar da daxil olmaqla 20 sentyabr 1994-cü ildən etibarən Azərbaycanda dünyanın 19 ölkəsindən 33 şirkətin iştirakı ilə 23 beynəlxalq neft müqaviləsi imzalanmışdır[158]. Hasilatın Bölgüsü Müqavilələri 25-30 illik dövrü əhatə edir. Qərarlaşdırılan sərmayənin ümumi həcmi 60 milyard dollardan çoxdur.

Neft layihələrinin həyata keçirilməsində 72-si yerli olmaqla 400 şirkət iştirak edir. Şirkətlərin fəaliyyətləri inşaatdan ekoloji xidmətlərə qədər uzanır. Yerli və xarici şirkətlər arasında müttəfiqlik, müasir texnologiyaların, materialların, idarə etmə texnikalarının istifadəsinə imkan yaradır və beləliklə mərkəzi idarə etmə tipindən bazar iqtisadiyyatına keçiddə böyük rol oynayır[159].

---

[157] Natiq Əliyev, "The Azerbaijan Oil and Gas Industry in the 1949-1999 Period", http://www.caspenergy.com/no3rus21.html 04.04.2005; Çelik Kenan-Kalaycı Cemalettin, "Azəri Neftinin Dünəni və Bugünü", *Journal of Qafqaz University*, V.II, No.II, 1999, s.63.

[158] Əsrin Müqaviləsindən əvvəl isə Anşad Neft və Qərbi Abşeron Yataqları olmaqla iki müqavilə imzalanmışdır. Bu müqavilələrə də aşağıda əsas xətləriylə yer veriləcək. Digər tərəfdən, 10 noyabr 1995-ci ildə "Qarabağ" Yatağı müqaviləsi və 14 dekabr 1996-cı ildə "Əşrəfi" və "Dan Ulduzu" Yataqları müqaviləsi imzalanmış, ancaq aparılan kəşfiyyat işləri nəticəsində müqavilələrdəki yataqların kifayət qədər neft və təbii qaz ehtiyatına sahib olmamalarının təsbit edilməsiylə birinci müqavilə 1999-cu ildə, ikinci müqavilə isə 2000-ci ildə ləğv edilmişdir.

[159] Fikrət Əliyev, "Kontrakt Veka: 5 Let Spustya", *Consulting & Business*, S.9, 1999, s.40-41; Heydər Əliyev, ss.162-163.

Azərbaycanda neft sektorunda 75 min nəfər işçi var. Neft sektorunda işləyənlər digər sektorlardakılara nisbətən daha çox əmək haqqı alırlar[160].

Ümumiyyətlə, xarici neft şirkətləri ilə müttəfiqliyin Azərbaycana iqtisadi cəhətdən verdiyi faydaları belə sıralaya bilərik:

- Azərbaycana müasir araştırma, neft çıxartma, istifadə və nəqliyyat texnologiyalarının ölkəyə girişi ilə neft sənayesinin aktivlərini yeniləmə və neft qaz sənayesinin inkişafına kömək edə biləcək müəssisələr qurma fürsəti vermişdir.
- İmzalanan müqavilələr nəticəsində artan neft hasilatı, büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur.
- Azərbaycan qlobal iş gücü və xammal bazarlarına daxil ola bilmə və izlənəcək siyasətlərlə ölkənin inkişafı üçün gəlir qaynağı olaraq xammal sahəsindəki üstünlüyündən müvəffəqiyyətlə faydalana bilmə imkanını əldə etmişdir.
- Artan neft və təbii qaz hasilatının məşğulluğu təşviq etməsi nəticəsində, yeni infrastruktur layihələrini həyata keçirmiş olacaqdır. İmzalanan neft və təbii qaz müqavilələri yerli iş gücünün getdikcə artmasına imkan verəcək şəkildə imzalanmışdır. Bu hal, yerli əhali üçün yeni iş yerlərinin açılmasıyla işsizliyi azaltmağa kömək etmişdir.
- Azərbaycan başda "Əsrin Müqaviləsi" olmaqla imzaladığı müqavilələrlə bütün dünyaya investorların birlikdə bərabər səviyyədə fəaliyyət göstərə biləcəyini və müttəfiqlik edə biləcəyini isbat etmişdir.

Yuxarıda sadalanılanlarla yanaşı neft müqavilələrinin Azərbaycanın milli mənfəətlərinə uyğun olmayan bəzi şərtlər də daşıdığı barədə tez-tez narahatlıqlar dilə gətirilir. Sadəcə neft hasilatı deyil, yerli istehsalçıların mal və xidmətlərinə böyük həcmli sifarişlərin təmin edilməsi və çox sayda iş yerlərinin açılmasını da əhatə etməsinin müqabilində, fəaliyyətdə olan müqavilələri üçün zəruri təchizat və xidmətlər əsas etibarilə xaricdən gətirilir, sifarişlərdə yerli istehsalçıların mal və xidmətlərin həcmi xarici sifarişlərə görə çox geridə qalır.

Aşağıda, enerji ehtiyatlarının istehsalıyla əlaqədar imzalanan müqavilələrdən, ölkənin neft ehtiyyatları baxımından əhəmiyyətli olan "Əsrin müqaviləsi: Azəri-Çıraq-Günəşli Yataqları Müqaviləsi"nə və təbii qaz ehtiyatları baxımından xüsusi yer tutan "Şahdəniz" yatağı müqaviləsinə yer veriləcəkdir. Daha sonra digər müqavilələrlə əhəmiyyət kəsb edən dərəcədə toxunulacaq.

[160] Natiq Əliyev, "Neft Azərbaycanın Milli Sərvəti (Eyvaz Həsənovun Müsahibəsi)", *Diyaloq Avrasya Dergisi*, Fevral-2001, s.82.

5.2.1. Əsrin Müqaviləsi "Azəri-Çıraq-Günəşli" Yataqları Müqaviləsi

İmzalanan müqavilələrinin ən əhəmiyyətlisi və Sovet dövründə mütəmadi olaraq geriləmə göstərən sektora yeni nəfəs verən "Əsrin Müqaviləsi" Azərbaycan baxımından böyük iqtisadi əhəmiyyətə sahibdir[161].

AÇG yataqlarını əhatə edən müqavilə Azərbaycanın müstəqilliyindən və mövqeyini dəyişdirmək üçün etdiyi cəhdlərdən qaynaqlanan ən əhəmiyyətli tarixi hadisədir. Çox çətin vəziyyətlərdə aparılan danışıqlar Azərbaycan və qərb şirkətləri arasında hələ keçmiş Sovet İttifaqı dövründə başladı.

Sovet iqtisadiyyatını zəiflədən liberilizasiya dövrü daha çox qərb şirkətlərini Azəri-Çıraq-Günəşli off-shore sahələrindəki zəngin mineral ehtiyatların kəşfi və Azərbaycanın yaxşı inkişaf etmiş neft sənayesi ilə cəlb etdi.

Ehtiyatların inkişaf etdirilib araşdırılması və istismarı üçün zəruri olan texnikanın nöqsanlı səbəbindən Azərbaycan hökuməti layihələrin həyata keçirilməsi üçün qərb sərmayəsini ölkəyə çəkməyi qərara aldı. 1991-ci ilin yanvar ayında ölkə layihələri tenderə açdı. BP, Statoil, Amoco, Unocal və digər şirkətlər bu tenderdə iştirak etdilər.

1991-ci ildə arasında Amoco, BP, McDermott, Pennzoil, Ramco, Unocal, Türkiyə Petrolları Anonim Ortaqlığı (TPAO) və Statoil kimi şirkətlərin olduğu bir qrup xarici şirkətlər Azərbaycanla, Azərbaycanın Xəzər dənizindəki sektorunda yerləşən Çıraq və Günəşli sahələrində tədqiqat işlərini yaxşılaşdırılması istiqamətində 3 il müddətində davam edəcək işlərə başladılar.

1992-ci ildə Xəzərin neft yataqlarında fəaliyyət göstərmək istəyən şirkətlər konsersiyumda birləşərək müqavilələr imzaladılar. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR)in layihənin 30%-ini alması şərtiylə Əbülfəz Elçibəyin başçılığı ilə Azərbaycan Beynəlxalq Neft Konsersiyumu (Azerbaijan İnternational Oil Consortium-AİOC) arasında neft sektorunun inkişafı məqsədilə bir müqavilə imzalandı[162].

Müqaviləyə əsasən, 1993-cü ilin iyun ayında Londonda müzakirələr davam etməli idi. Ancaq, Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi səbəbiylə müzakirələr nəticəsiz qaldı. Əbülfəz Elçibəy müzakirələri nəticəyə bağlaya bilməzdən Sürət Hüseynov tərəfindən ordu gücü ilə hakimiyyətdən uzaqlaşdırıldı. Elə həmin il Azərbaycanın yeni prezidenti olan Heydər Əliyev bu müqaviləni ləğv etdi. Bu arada Elçibəyin ani hakimiyyətdən getməsi şirkətləri yeni prezident olan Heydər Əliyevlə yenidən müzakirələr masasına gətirdi. Fevral ayının 4-də müzakirələr yenidən başladı. 1994-cü ilin aprel ayında SOCAR, Rus şirkəti Lukoilin Azərbaycanın öz hissəsindən 10% pay alacağını konsersiyum

---

[161] *Azerbaijan International Magazine*, Summer-1995, ss.40-44.

[162] S. Bölükbaşı, "Ankara's Baku-Netred Transcaucassa Policy", *The Middle East Journal*, Winter-1999, s.87.

ortaqlarına rəsmi olaraq bəyan etdi. Konsersiyumda olan firmalar, Rusyanın gələcəkdə edə biləcəyi təsirləri nəzərə aldılar. Çünki, Volqa çayı üzərindəki nəzarəti səbəbi ilə Ruslar Xəzər dənizinin daxili sularından gələcəkdə ağır yük gəmilərinin keçidinə maneələr törədə bilərdi. Bakı, İstanbul və Hyustonda davam etdirilən bu müzakirələr nəticəsində konsersiyuma Rusiya da daxil edilərək müqavilə yenidən nəzərdən keçirildi və SOCAR-ın 10%-lik səhmi Rusiyaya verildi. Təxmninən 3 il davam edən müzakirələr nəticəsində, 20 sentyabr 1994-cü ildə Bakının Gülüstan sarayında SOCAR ilə konsersiyum arasında əsrin müqaviləsi adlandırılan "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq və Günəşli yataqlarında Neftin Müştərək İstifadəsi və Pay Bölgüsü Haqqında Müqavilə" imzalanaraq həmin regionlarda neft axtarma və çıxartma haqqı AİOC-a verildi[163].

Nəticədə, bir çox təsirlərə baxmayaraq müqavilə imzalanaraq Azərbaycan lehinə həyatı bir addım atılmış oldu.

Müqavilə şərtlərinə görə, Azərbaycan bu üç neft yatağı üzərində mülkiyyət hüququnu qoruyur.

Bu müqavilə 2 dekabr 1994-cü ildə Azərbaycan Milli Məclisi tərəfindən müzakirə edildikdən sonra 12 dekabr 1994-cü ildə qüvvəyə mindi[164].

Meqa layihə olaraq da adlandırılan və ümumi sərmayə həcmi 11 milyard dollara yaxın bu layihə həcmində ümumi hasil edilə bilən neft ehtiyatları 5.4 milyard barel (730 milyon ton), təbii qaz ehtiyatlarının isə 96 milyard m^3 olduğu təxmin edilir. Bundan əlavə yataqlar 6 milyon ton kondensat ehtiyatına da sahibdir. Yuxarıdakı təxmini məlumatlarda tez-tez dəyişikliklər baş verir. Müqavilə 30 illik bir dövrü əhatə edir.

Müqavilə tərkibində olan Günəşli yatağı 82 km, Çıraq yatağı 94 km və Azəri yatağı isə 113 km sahildən uzaqda yerləşir.

1994-cü ilin dekabrında konsersiyum, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini (AİOC)u qurdu. Vəzifəsi işi günlük olaraq izləmək olan AİOC-un proqramında, Azərbaycan neft sənayesinin infrastrukturunun qərb standartlarına görə və bu ölçülər diqqətə alınaraq qurulması əsas yer tutur[165].

Müqavilənin müzakirəsi əsnasında qarşıya çıxan problemler informasiya olmaqla şirkətlərin müqaviləni ləğv edə biləcəkləri mövzularını əhatə edirdi. Bu şərtlər bunlardır: Dağlıq Qarabağdakı müharibənin başlaması, Rusya ilə Azərbaycan arasında həm iqtisadi, həm də siyasi münasibətlərin həddsiz dərəcədə

---

[163] Nasser Sagheb- Masoud Cavadi, "Azerbijan's 'Contract of the Century' Finnally Signed With Western Oil Consortium", *Azerbaijan International Magazine*, Winter-1994, s.27.

[164] *Azerbaijan International Magazine*, Summer-1998, s.77.

[165] N. Əliyev, E. Şahbazov, *Heydər Əliyev və Azərbaycan Neft Sənayesinin İnkişafı,* Azərbaycan İnternational Mətbəəsi, Bakı, 1998, ss.9-10.

pozulması, Azərbaycan daxilindəki qeyri-stabillik, Azərbaycan hökümətinin stabil bir ixrac xəttinə sahib olmaması və Xəzər dənizinin statusunu müəyyən edən rejim üzərində meydana gələn hər hansı bir anlaşılmazlıq[166].

İlk illərdə konsersiyumda olmayan Yaponiya da daha sonra konsersiyuma daxil olunmuşdur. Yaponiyanın "Itochu" şirkəti əvvəlcə müqavilədə iştirak etmədiyi halda daha sonra bütün paylarını satan "McDermott International"dan 2.45% pay alaraq "AÇG" konsersiyumuna qoşulmuşdur. Yapon şirkəti daha sonra AMOCO-nun satdığı 5%-lik paydan 1.5%-ini alaraq ümumi payını 3.9%-ə çıxartmışdır[167].

AMOCO-nun satdığı paylardan 3%-i EXXON, 0.5%-i isə UNOCAL tərəfindən satın alındı. Daha əvvəl SOCAR-ın payı 30% olaraq qərarlaşdırılarkən müqavilə imzalanmadan öncə 10%-ini rus Lukoil, müqavilə imzalandıqdan sonra 1995-ci ilin aprel ayında 5%-ini EXON şirkətinə, 5%-ini eyni tarixdə TPAO-ya təslim etdi. İrana 5%-lik pay verilmək istənilsə də qərbin təzyiqi səbəbiylə bu istək həyata keçmədi[168].

Konsersiyum üzvləri arasında imzalanan "Əməliyyatların Birlikdə Aparılması Haqqında Razılaşma Üzrə Müqavilə" ilə əlaqədar olaraq daha sonra Azerbaijan International Operating Company yaradıldı. SOCAR-la yanaşı dünyanın digər ölkələrindən 11 şirkətinin iştirakı ilə yaradılan bu təşkilat müqavilədəki yataqların istifadəsinə xidmət edir.

Əsrin müqaviləsində mövcud bölgülərin son şəkli aşağıdakı kimidir[169]:

BP (operator)	*34.13%*
Unocal	*10.3%*
SOCAR	*10%*
İNPEX	*10%*
Statoil	*8.56%*
ExxonMobil	*8%*
TPAO	*6.75%*
Devon	*5.62%*
İtochu	*3.72%*
AmeradaHess	*2.72%*

166 N.E.Fərruxov, "Əsrin Neft Müqaviləsi-XX Əsrin Ən Əhəmiyyətli Hadisəsi", *Azərbaycan XXI Əsrin Astanasında*, (Ed. Ziyad Səmədzadə), Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1998, s.196; Bocutoğlu, ss.58-59.

167 "Yaponskie Kompanii v Azerbaydjane - Tam Gde Net Riska, Net i Bolşoy Pribıli", *Capital Magazine*, Aprel-May 1997, ss.48-49.

168 Elşən Məmmədov, "Əsrin Müqaviləsi Azərbaycan Neft Sənayesinin İnkişafında Mühüm Mərhələdir", *Azərbaycan Neftinin Dünəni Bugünü və Sabahı*, (Red. M Mərdanov v.d.), Bakı, 1997, ss.48-50.

169 "Central Azeri Crude Oil Export Starts", *Azernews*, No:10(400), March 8-March 15, 2005, s.3.

"Production Sharing Agreement (Hazır məhsulun bölünməsi)" tipli bir müqavilə olan "Əsrin müqavilsi"ndə səhmlərin paylanılmasına baxdığımızda ən böyük payın ABŞ-a aid olduğunu görürük. Amerikan şirkətlərin ümumi payı təxminən 40%-dir. ABŞ bir ildə təxminən 340 milyon ton neft hasil edir, 600 milyon ton isə idxal edir. Beləliklə, ABŞ idxal edə biləcəyi yeni enerji ehtiyatları lazımdır. Bu baxımdan Xəzər ABŞ-ın iqtisadi marağı olan regionlar içindədir. İngilis şirkətlərinin ümumi payı isə, 19%-dir. Amerikan və İngilis şirkətlərindən sonra konsersiyumdakı ən böyük pay Rus və Azərbaycan şirkətlərinindir.

"Əsrin Müqaviləsi"nin Azərbaycan Respublikası üçün rolu, sahələrin istifadəsi üçün lazımi investisiyaların 90%-nin Konsersiyum tərəfindən yerinə yetiriləcək olmasıdır. Azərbaycan neft və təbii qaz sahələrinin istifadəsi üzərində idarə və nəzarət hüququnu özündə saxlayır. Heç şübhəsiz ki, dənizin neft ehtiyatlarına tez və faydalı olacaq şəkildə böyük miqdarda sərmayə qoyulamalıdır və yeni texnologiyalar alınmalı, xarici ölkələrdən ən təcrübəli neft şirktlərini bu ərazilərə cəlb edərək onlarla müttəfiq olunmalıdır. Çünki, bu sahələrin istifadəsi məqsədi ilə qazma və emalat platformalarının, boru xəttlərinin quruda təchizat sistemlərinin qurulması üçün böyük miqdarlarda sərmayə qoyulmalıdır.

Milli iqtisadiyyatın inkişafında vacib bir ünsür olmaqla yanaşı xarici bazarda da mühüm bir açar olan enerji ehtiyatlarına dair imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycan, dünya iqtisadiyyatına aktiv bir şəkildə inteqrasiya olunmaq yolunda ilk addım atmış oldu.

İlk neft layihəsi olan Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün fəaliyyətlər yerinə yetirilmiş, burada neft istehsalına dair son texnologiyalarla tətbiq olunmuş, neft sənayesinin bünövrəsi olduqca müasirləşmişdir. "Çıraq-1" dəniz platformasının inşası qurtarmış və ilk neft quyusu qazılmış, platformadan Səngəçaldakı sahil terminalına qədər və neft daşlarındakı kompressor stansiyasına qədər sualtı boru kəmərləri çəkilmişdir. Səngəçalda sahil terminalı inşa edilmiş, Bakı-Novorossiski neft boru xəttində təmir fəaliyyətləri aparılmış və 1997-ci il 12 noyabr tarixində bu neft boru xətti fəaliyyətə başlamışdır.

Çıraq-1-də istehsal sonrasında Əsrin müqaviləsində adları göstərilən yataqlarda neft istehsalı ilə bağlı fəaliyyətlər üç mərhələdən ibarətdir. Birinci mərhələ, 2001-ci ilin avqust ayında Mərkəzi Azəri yatağında istehsal üçün lazımi işlər başlamışdır. İkinci mərhələ isə, 2002-ci ilin iyul ayında Qərb və Şərq Azəri yataqlarındakı fəaliyyətlərlə başlamışdır. Üçüncü mərhələnin başlamasına dair müqavilə isə, 2004-cü ilin 20 oktyabrında imzalanmışdır. Müqavilədə Günəşli yatağında istehsala başlama nəzərdə tutlmuşdur. Üçüncü mərhələ ilə bağlı neftin ilk olaraq 2011-ci ildə istehsalına başlanmışdır. 2011-ci ildə neft istehsalı gündə 400.000 barel olmuşdur. Bir neçə ildən sonra isə, "Əsrin müqaviləsi" çərçivəsində neft istehsalı günlük 1 milyon barelə yüksəlmiş olacaqdır.

5.2.2. "Şahdəniz" Yatağı Müqaviləsi

Şahdəniz Yatağı ilə əlaqədar müqavilə 1996-cı il iyul ayının 4-də imzalanmış və 1997-ci il oktyabr ayının 4-də təsdiqlənmiş, 1997-cı il oktyabr ayının 17-də qüvvəyə minmişdir. "Production Sharing Agreement" şəklində imzalanan müqavilənin 30 illik müddəti vardır. Bu müqaviləyə əsasən məsuliyyət Şah Dəniz konsersiyumuna verilmişdir. BP exploration Ltd.-yə, ərazinin işlədilməsi tapşırılmışdır. Xəzərin Azərbaycan sektorunun cənub-şərqində yerləşən Şahdəniz yatağı, Bakıdan 70 km uzaqlıqdadır. Yataq 800 km^2 ərazini əhatə edir.

BP Exploration 1996-cı ilin oktyabr ayının sonlarına yaxın fəaliyyətə başlamışdır. Layihənin sərmayəsi 4.1 milyard dollardır[170].

Şahdəniz yatağında təxmini bir trilyon m^3 qaz ehtiyatı var. Təbii qazın 400 milyard m^3-i təsdiqlənmişdir. İldə 60 milyard m^3 qaz çıxarılacağı təxmin edilir[171]. Beləliklə, Şahdəniz yatağı Azərbaycanın tabii qaz potensialını təxminən 1 trilyon m^3 artırmışdır.

Yuxarıda əsas göstəriciləri haqqında məlumat verilən layihənin konsersiyumuna qoşulma tələbləri müqaviləni siyasi müharibə sahəsinə çevirdi. Qarabağ yatağı ilə bağlı müqavilənin ardından "Liberation" qəzeti altı ay ərzində yeni bir neft müqaviləsinin imzalancağı haqqında informasiya verdi və Fransız neft şirkəti "Elf Acquitanie"nin müqaviləyə qoşulacağını bildirdi[172]. Yeni neft müqaviləsinə Fransanın qoşulmasında Əliyevin 1993-cü ilin dekabrında Fransaya rəsmi-işgüzar səfərinin təsiri oldu[173].

Digər tərəfdən Lukoilin və digər Rus şirkəti Yukos ilə ortaq olaraq konsersiyuma qoşulacağı dəqiqləşdi. Ancaq, İranın iştirakı barədə problemlər ortaya çıxdı. İqtisadi müttəfiqlik təşkilatının 1996-cı ilin may ayında Aşqabaddakı iclasında Azərbaycanın Şahdənizdəki 20%-lik payının 10%-ini İrana verəcəyi haqqında Əliyev və Rövşəncani arasında müqavilə imzalandı. Beləliklə, Xəzər nefti məsələsində İranın bəzi neqativ təsirlərinin yox edilməsi həll olundu. Ancaq, daha əvvəldən konsersiyumda ABŞ şirkətlərinin də qoşulacağına icazə verilməsinə qarşı, İranın iştirakı halında Vaşinqton ABŞ şirkətlərinin müqavilədə iştiraklarına icazə vermədi[174]. Nəticə etibarı ilə İran şirkəti OİEC konsersiyumda iştirak edərkən heç bir ABŞ şirkəti konsersiyumda iştirak etmədi.

---

[170] "Caspian Staging a Comeback", *Offshore Engineer*, June-2000, s.38; D*oing Business in Azerbaijan*, Baker&McKenzie, May-2000, s.57.

[171] "Caspian Staging a Comeback", s.38; *Consulting & Business*, S.9, 1999, s.30.

[172] Nəsirov, s.148.

[173] N. İbrahimov - İ. Şükürov, *Geydar Aliev Otkrıvaet Miru Azerbaydjan*, Bakı, 1994, s.32.

[174] Yasin Aslan, X*əzər Nefti, Qafqaz Kördüğümü ve Türkiye*, Ankara, 1997, s.75-76; *Azerbaycan Zaman Qezeti*, 20 Mart 1996.

Şahdənizdə şirkətlər arasındakı pay bölgüsü belədir:

İngiltərə BP	*25.5%*
Norveç Statoil Allience	*25.5%*
Azərbaycan SOCAR	*10%*
Rus Lukoil	*10%*
Fransa TotalFinaElf	*10%*
İran OİEC	*10%*
Türkiyə TPAO	*9%*

Şahdəniz yatağı, Azərbaycanın dünya təbii qaz istehsalçısı və ixracatçısı ölkələri arasında yer almasına imkan verdi. Bu səbəblə Bakı-Tbilisi-Ceyhan xətti qərarlaşdırılmadan təbii qaz ixracı ilə bağlı boru xətti də müzakirəyə başlanmışdı.

Şahdənizdən çıxarılacaq qazın satışı ilə bağlı olaraq 2004-cü ildə 4 müqavilə imzalandı. İldə 6.3 milyard m^3 qazın satılması üçün ilk müqavilə "Botaş" ilə müqavilə imzalandı. Bir müqavilə Azərbaycan dövləti ilə iki müqavilə isə Gürcüstanla imzalandı. Müqavilələrə görə, Azərbaycana ildə 1.5 milyard m^3, Gürcüstana isə 800 milyon m^3 təbii qaz satılmışdır.

İlham Əliyevin 2004-cü ilin dekabr ayında İngiltərəyə səfəri əsnasında Avropa Yenidən Qurma və İnkişaf Bankı (AYİB) ilə Şahdəniz layihəsində Azərbaycan tərəfindən maliyələşdirilməsi lazım olan 10%-lik hissə ilə əlaqədar olaraq kredit müqaviləsi imzalandı. Azərbayacanın Şahdəniz layihəsindəki payını maliyələşdirəcək olan AYİB, kredit müqaviləsinə görə SOCAR-a yüz yetmiş milyon dollar kredit vermişdir.

Beləcə "Şahdəniz" qazının dünya bazarına çıxarılması üçün lazımi maliyyə probleminin xarici maliyyə təşkilatları tərəfindən qarşılanmasının başlanğıcı və layihənin həyata keçməsi üçün əhəmiyyətli addım olmuşdur.

Şahdəniz layihəsi çərçivəsində hər ay təxminən 100 milyon dollar xərclənir. Şahdəniz dünyanın ən böyük 10 neft-qaz layihəsindən biridir. Yataqdan 2006-cı ilin sonlarında təbii qaz ixrac edilməyə başlanmışdır.

5.2.3. Digər Müqavilələr

5.2.3.1. Dənizdəki yataqlar üzrə imzalanan müqavilələr

1. "Lənkəran-Dəniz "–"Talış-Dəniz" Yataqları Müqavilələri

Müqavilənin Tarixi: 13 Yanvar 1997
Təsdiqlənmə Tarixi: 13 İyun 1997
İştirak Edən Şirkətlər: TotalFinalElf (35%, operator)
Wintershall (30%)
SOCAR (25%)
OİEC (İran) (10%)

Təxmini Ehtiyatlar: 700 milyon barel neft
İnvestisiya həcmi: 2 milyard dollar
Statusu: 2001-ci ildə ilk quyu yoxlanıldı.

2. **Yalama-D222 Yataqları Müqaviləsi**

Müqavilənin Tarixi: 4 İyul 1997
Təsdiqlənmə Tarixi: 4 Noyabr 1997
İştirak Edən Şirkətlər: Lukoil (80%, operator)
SOCAR(20%)
Təxmini Ehtiyatlar: 750 milyon barel neft
İnvestisiya həcmi: *4 milyard dollar*
Statusu: 2-D və 3-D seysmik işlər aparıldı.

3. **Abşeron Yatağı Müqaviləsi**

Müqavilənin Tarixi: 1 Avqust 1997
Təsdiqlənmə Tarixi: 11 Noyabr 1997
İştirak Edən Şirkətlər: SOCAR (50%)
Chevron (30%, operator)
TotalFinalElf(20%)
Təxmini Ehtiyatlar: 13 milyard barel neft, 100 tcf təbii qaz
İnvestisiya həcmi: 3.5 milyard dollar
Statusu: 2001-ci ildə ilk quyunun qazılması müsbət nəticə vermədi. İkinci quyu 2004-cü ildə qazıldı. Günlük 70 barel neft hasilatı təxmin edilir.

4. **Oğuz Yatağı Müqaviləsi**

Müqavilənin Tarixi: 1 Avqust 1997
Təsdiqlənmə Tarixi: 5 Noyabr 1997
İştirak Edən Şirkətlər: ExonnMobil (50%, operator)
SOCAR (50%)
Təxmini Ehtiyatlar: 290 milyon barel neft və 685 tcf (milyard kub feet) təbii qaz
İnvestisiya həcmi: 2 milyard dollar
Statusu: 2001-ci ilin aprel ayında quyu qazıldı. ExxonMobil 2002-ci ilin aprel ayında layihəni tərk etdi.

5. **Naxçıvan Yatağı Müqaviləsi**

Müqavilənin Tarixi: 1 Avqust 1997
Təsdiqlənmə Tarixi: 14 Noyabr 1997
İştirak Edən Şirkətlər: ExxonMobil (50%, operator),
SOCAR (50%)

Təxmini Ehtiyatlar: 750milyon barel neft
İnvestisiya həcmi: 2 milyard dollar
Statusu: ExxonMobil uğurlu bir quyu qazdı. Fəaliyyətlər davam edəcək.

6. Kürdaşı–Arazdaşı–Kirgan Dəniz Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 2 İyun 1998
Təsdiqlənmə Tarixi: 7 İyul 1998
İştirak Edən Şirkətlər: SOCAR (50%)
Agip(25%, operator)
Mitsui(15%)
TPAO (5%)
Repsol (5%)
Təxmini Ehtiyatlar: 730 milyon barel neft
İnvestisiya həcmi: 2.5 milyard dollar
Statusu: İki quyu qazıldı. Heç biri uğurlu olmadı.

7. İnam Yatağı Müqaviləsi

Müqavilənin Tarixi: 21 İyul 1998
Təsdiqlənmə Tarixi: 1 Dekabr 1998
İştirak Edən Şirkətlər: SOCAR (50%)
BP (25%, operator)
RoyalDutch/Shell (25%)
Təxmini Ehtiyatlar: 2.2 milyard barel neft
İnvestisiya həcmi: 2 Milyard dollar
Statusu: 2001-ci ildə BP ilk dəyərləndirməsində qazma işləri yarıda qaldı. 2005-ci ilə qədər yeni qazma işləri planlanmışdır.

8. Araz-Alov-Şark Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 21 İyul 1998
Təsdiqlənmə Tarixi: 18 Dekabr 1998
İştirak Edən Şirkətlər: SOCAR (40%)
BP (15%, operator)
Statoil (15%)
ExxonMobil (15%)
TPAO (10%)
Alberta Energy(5%)
Təxmini Ehtiyatlar: 4 milyard barel neft
İnvestisiya həcmi: 10 milyard dollar
Statusu: 2001-ci ilin dekabr ayında İran və Azərbaycanın Xəzər Dənizi sərhədlərində uyğunluğu olmadığına görə müqavilə dayandırılmışdı.

9. Yanan Tava – Atəşgah – Muğan Dəniz Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 25 Dekabr 1998
Təsdiqlənmə Tarixi: 11 İyun 1999
İştirak Edən Şirkətlər: SOCAR (50%)
JAOC konsorsiyum (50%)
JAOC daxilindəki şirkətlərin hissələri isə belədir: Japex (22.5% operator), İnpex (12.5%), Telikoku (7.5%), İtochu (7.5%)
Təxmini Ehtiyatlar: 600 milyon barel neft
İnvestisiya həcmi: 2.3 milyard dollar
Statusu: Seysmik işlər aparılır

10. Lerik-Cənab-Savalan-Dalğa Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 27 Aprel 1999
İştirak Edən Şirkətlər: SOCAR (50%)
ExonnMobil (30% operator)
Təhsis edilməyən (20%)
Təxmini Ehtiyatlar: 1 milyard barel neft
İnvestisiya həcmi: 3 milyard dollar
Statusu: D-43, D-44 və D-73 adlı bloklarda axtarışlar aparılır.

11. Zəfər–Məşəl Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 27 Aprel 1999
Təsdiqlənmə Tarixi: 21 Aprel 2000
İştirak Edən Şirkətlər: SOCAR (50%)
ExonnMobil(30%, operator)
Conoco (20%)
Təxmini Ehtiyatlar: 1-2 milyard barel neft, 1.8 tcf təbii qaz
İnvestisiya həcmi: 3 miyard dollar
Statusu: D-9, D-38 adlı bloklarda axtarışlar aparıldı. Son qazma əməliyyatı 2004-cü ilin sentyabr ayında aparıldı

5.2.3.2. Sahildəki Yataqlarla bağlı Müqavilələr

1. Kəmaləddin–Mişovdağ Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 1992-ci ildə Joint Venture olaraq imzalandı,2000-ci ildə PSA-ya çevrildi
İştirak Edən Şirkətlər: National Energy (85%)
SOCAR (15%)
Təxmini Ehtiyatlar: 200 milyon barel neft

İnvestisiya həcmi: 50 milyon dollar

Statusu: 2004-cü ildə istehsal həcmi 2700 bpd.-dan 3200 bpd.-ya yüksəldilməsi planlanır.

2. Anşad Neft Müqaviləsi

Müqavilənin Tarixi: 1993-ci ildə Joint Venture olaraq imzalandı,2000-ci ildə PSA-ya çevrildi

İştirak Edən Şirkətlər: SOCAR (51%)
Atilla Doğan (31.5%)
Land and General Berhard(17.5%)

Təxmini Ehtiyatlar: 219 milyon barel neft (Neftçala, Killi, Babazanan Yataqları)

Statusu: 1998-1999–cu illərdə 4 quyu qazıldı. 2004-cü ildə ortalma neft istehsal həcmi 77000 bpd-idi. 2004-cü ildə ortalama təbii qaz istehsal həcmi 1.1 mcf/gün idi.

3. AzGeroil Müqaviləsi

Müqavilənin Tarixi: 1993-ci ildə Joint Venture olaraq imzalandı, 2000-ci ildə PSA-ya çevrildi

İştirak Edən Şirkətlər: SOCAR(51%)
Grunewald(49%)

Təxmini Ehtiyatlar: 140 milyon barel neft (Rəhmani, Balaxanı, Sabunçu Yataqları)

Statusu: 1999-cu ildən ortalama istehsal həcmi 1000 bbl/d-dır

4. Cənub-Qərbi Qobustan Yatağı Müqaviləsi

Müqavilənin Tarixi: 2 İyun 1998

Təsdiqlənmə Tarixi: Noyabr 1998

İştirak Edən Şirkətlər: SOCAR (20%)
CNPC of China (62.83%)
Arawak Energy of Canada (37.17%)

Təxmini Ehtiyatlar: 180-200 milyon barel neft

İnvestisiya həcmi: 900 milyon dollar

Statusu: 2-D Seysmik axtarışlar davam edir.

5. Zığ-Hövsan Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 5 İyun 2000

Təsdiqlənmə Tarixi: İyun 2001

İştirak Edən Şirkətlər: SOCAR (20%)
Lukoil(50%)

Təxmini Ehtiyatlar: 66-150 milyon barel neft
İnvestisiya həcmi: 250 milyon dollar
Statusu: Yataqlar rehabilitə edilmişdir. Ekoloji səbəblərə görə müqavilənin başlama tarixi təxirə salınmışdır.

6. Kürsəngi–Qarabağlı Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 15 Dekabr 1998
Təsdiqlənmə Tarixi: 16 Aprel 1999
İştirak Edən Şirkətlər: SOCAR (50%)
CNPC(30%)
Amerada Delta-Hess (20%)
Təxmini Ehtiyatlar: 730 milyon barel neft
İnvestisiya həcmi: 1 milyard dollar
Statusu: İstehsalı artırmaq üçün 2003-cü ildə 10 yeni quyu qazıldı. 2004-cü ilin iyun ayından neft istehsalı 6600 bbl/d-dir.

7. Muradxanlı-Cəfərli-Zərdab Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 21 İyul 1998
Təsdiqlənmə Tarixi: 20 Noyabr 1998
İştirak Edən Şirkətlər: SOCAR (50%)
Ramco(50%, operator)
Təxmini Ehtiyatlar: 730 milyon barel neft
İnvestisiya həcmi: 1 milyard dollar
Statusu: Muradxanlıda ilk quyu 2001-ci ilin aprel ayında qazıldı.

8. Padar-Harami Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 27 Aprel 1998
Təsdiqlənmə Tarixi: 9 iyun 2000
İştirak Edən Şirkətlər: Nations Energy(85%, operator)
SOCAR (15%)
Təxmini Ehtiyatlar: 580-750 milyon barel neft
İnvestisiya həcmi: 140 milyon dollar
Statusu: Seysmik araşdırmalar davam edir.

9. Şirvan–Kurovdağ Yatağı Müqaviləsi

Müqavilənin Tarixi: 1997-ci ildə JV olaraq imzalandı. 2000-ci ildə PSA-ya çevrildi
İştirak Edən Şirkətlər: SOCAR (49%)
Caspian Energy Group (UK) (51%)
Təxmini Ehtiyatlar: 650 milyon barel neft (Kurovdağ Yatağı)

Statusu: 1997-ci ildən etibarən quyuların rehabilitasiyası davam edir. 2004-cü ildə ortalama neft istehsal həcmi 57000 bpd, təbii qaz istehsal həcmi 1.5mcf/d oldu.

10. Qərbi Abşeron (Qaradağ-Kəpəz-Umbakı) Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 10 Avqust 1994
İştirak Edən Şirkətlər: BMB (100%)
Təxmini Ehtiyatlar: 200 milyon barel
İnvestisiya həcmi: 700 milyon dollar
Statusu: BMB-nin fəaliyyətini saxladılması tələbi ilə dekabr 1999-da SOCAR yataqların imtiyaz haqqını təslim almışdır.

11. Pirsaat Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 5 İyun 2003
İştirak Edən Şirkətlər: SOCAR (25%)
Sheng Lee Oil (50%)
Middle East (25%)
Təxmini Ehtiyatlar: 7 milyon ton
İnvestisiya həcmi: 147 milyon dollar
Statusu: Yataqda 7 yeni neft quyusunun qazılması, 27-sinin isə yenidən inşası ilə yenidən istehsal planlanmışdır.

12. Qaraçuxur Yatağı Müqaviləsi

Müqavilənin Tarixi: 18 İyun 2004
İştirak Edən Şirkətlər: SOCAR(25%)
İnvestisiya həcmi: 2.3 milyard dollar
Statusu: Seysmik işlər aparılır

13. Lerik-Cənab-Savalan-Dalğa Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 27 Aprel 1999
İştirak Edən Şirkətlər: SOCAR (50%)
ExonnMobil (30% operator)
Təhsis edilməyən (20%)
Təxmini Ehtiyatlar: 1 milyard barel neft
İnvestisiya həcmi: 3 milyard dollar
Statusu: D-43, D-44 və D-73 adlı bloklarda axtarışlar aparılır.

14. Zəfər–Məşəl Yataqları Müqaviləsi

Müqavilənin Tarixi: 27 Aprel 1999
Təsdiqlənmə Tarixi: 21 Aprel 2000

İştirak Edən Şirkətlər: SOCAR (50%)
ExonnMobil(30%, operator)
Conoco (20%)

Təxmini Ehtiyatlar: 1-2 milyard barel neft, 1.8 tcf təbii qaz

İnvestisiya həcmi: 3 miyard dollar

Statusu: D-9, D-38 adlı bloklarda axtarışlar aparıldı. Son qazma əməliyyatı 2004-cü ilin sentyabr ayında aparıldı.

5.3. NEFT VƏ TƏBİİ QAZ İSTEHSALI

Xəzər dənizində ən çox təcrübəyə sahib olan Azərbaycanda son 100 ildə 1.4 milyard ton neftin, 445 milyard m^3 təbii qazın çıxarıldığı hesablanmışdır. İstehsala başlandığı tarixdən 2005-ci ilə qədər Azərbaycanda ən yüksək neft istehsalı isə 1941-ci ildə 23.4 milyon tonla həyata keçirilmişdir.

Keçid dövrünə start verilməsi ilə birlikdə neft istehsalı azalan Azərbaycanda, imzalanan müqavilələr nəticəsində neft istehsalında dönüş oldu, fəaliyyətlərdən sonra neft istehsalı yenidən artmağa başlandı. 1997-ci ilin noyabr ayında Çıraq yatağının ilk quyusundan neft çıxarılmasının başlanması ilə 1997-ci ilə qədər azalma göstərən neft istehsalı, 1998-ci ildən etibarən artmağa başladı. Təbii qaz istehsalı isə, 1999-cu il istisna azalma göstərir[175].

Ümumi neft istehsalının Xəzər dənizindən əldə edilən hissəsi 1995-ci ildə 82.3% olduğu halda, bu nisbət 1999-cu ildə 89%-ə, 2000-2004-cü illər arasında isə 89%-ə yüksəlmişdir[176]. Beləliklə, neft istehsalının Xəzər dənizindən əldə edilən hissəsi illər etibarilə artır. 2005-ci ildən isə, bu nisbətin 90%-dən yuxarıdır.

2002-ci ilin neft istehsalını 1990-cı illə müqayisə etdikdə 2.5 milyon ton daha çox olduğunu müşahidə edilir. Bu istehsal miqdarı Azərbaycanda 1979-cu ildə istehsal edilən neft miqdarı səviyyəsinə bərabərdir. Beləcə 1960-cı illərin sonlarından etibarən ildən-ilə davam edən neft istehsalındakı qeyri-stabillik sona çataraq, yenidən yüksəlişə keçmişdir. Neft istehsalı 2003 ilində 15.3%, 2004-cü ildə isə əvvəlki ilə görə 1.3% artımla 15.5 milyon ton olaraq həyata keçirilmişdir. 2010-ci ildə isə 50 milyon 838 min ton neft istehsalı olmuşdur. 2014-cü ilə gəlindiyində neft hasilatında 2010-cu il ilə müqayisədə azalma müşahidə olunmuşdur. Belə ki, neft hasilatı 42 milyon tona düşmüşdür.

Aşağıdakı qrafikdən də göründüyü kimi ən çox neft hasilatı 2009 və 2010-cu illərdə müvafiq olaraq 50.4 və 50.8 milyon ton ilə qeydə alınmışdır.

---

[175] *Müstəqil Azərbaycan*, Azərbaycan Respublikası Dövlət Statsitika Komitəsi, Bakı, 2001, s.386.

[176] *Müstəqil Azərbaycan*, s.402; *Azərbaycanın İqtisadi İcmali*, İyul-Dekabr 1999, s.64, *Azərbaycan Statistik Göstəriciləri 2002*, ARDSK Nəşriyyatı, Bakı, 2002, s.470.

Qrafik 14. Neft Hasilatı (milyon ton)



Mənbə: ARDSK Nəşrləri.

Azərbaycanda təbii qaz hasilatına isə, 1902-ci ildə başlanmışdır. Hasilata başlandığı tarixdən etibarən ölkədə ən çox təbii qaz hasilatı 1981-ci ildə 17 milyard m^3 miqdarında həyata keçirilmişdir. 1980-ci illərdə təbii qaz hasilatı illik olaraq 14 milyard m^3-ə çıxmışdır. Ancaq, 1990-ci ildən etibarən hasilatın əhəmiyyətli dərəcədə azalması nəticəsində hasilat keçən əsrin 60-ci illərindəki istehsal həcminə düşmüşdür.

Digər tərəfdən, Azərbaycanda iki böyük boru xətti daha vardır. Bunlar Bakı və Novo-Bakı xəttləridir. Bakı boru xəttinin günlük həcmi 230 min barel, Novo-Bakı xəttinin isə 200 min bareldir. Çox aşağı istehsal və köhnə texnologiya ilə işləyən hər iki xəttin də yenidən bərpa və təmiri üçün təxminən 700 milyon dollar lazımdır. ABŞ Ticarət İnkişaf Agentliyi Bakı xətti və Sumqayıt Neft-Kimya zavodlarının müasirləşdirilməsinin fizibilitə etüdləri üçün növbə ilə 500 min dollar və 400 min dollar maliyyə dəstəyi vermişdir.

Təbii qaz hasilatının təxminən 96%-i Xəzər dənizindən əldə edilir.

1995-2001-ci illərdə təbii qaz istehsal həcmi 16.3% azalmışdır. 2002-ci ildə isə təbii qaz istehsalı 7.4% nisbətində azalma göstərərək 5.150 milyard m^3 olmuşdur[177]. 2003-2004-cü illərdə də azalmağa davam edən təbii qaz hasilatının əvvəlki ilə görə 3.1% azalma ilə 2004-cü ildə təqribən 5 milyard m^3 olmuşdur.

Hasil edilən təbii qaz ölkənin daxili tələbinin sadəcə 40%-ni ödəyirdi. Bu da təbii qaz istehsalının ölkənin daxili tələbini ödəyə bilməməsi demək idi[178]. Bu səbəblə təbii qaz idxalı vacib hala gəldi. 2006-ci ildən etibarən Azərbaycanda təbii qaz istehsalı ildən ilə artaraq 20 milyard m^3 həcminə çatması ilə daxili bazarın tələbi ödənilməklə yanaşı Azərbaycan Türkiyəyə, Gürcüstana və Rusiyaya təbii qaz ixrac etməyə başladı.

[177] "5,1 Milyard Kubmetr Qaz Çıxarılıb", http://www.express.com.az/second.asp?id=2909. (09.04.2003).
[178] *Azərbaycanın İqtisadi İcmali*, İyul-Dekabr 1999, s.64; *Müstəqil Azərbaycan*, s.403.

Qrafik 15. Təbii Qaz Hasilatı (milyard kub metr)



Mənbə: ARDSK Nəşrləri.

Yuxarıdakı qrafikdən də göründüyü kimi, son illərdə təbii qaz hasilatı əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2005-ci ildə cəmi 5 milyard m^3 təbii qaz istehsal edilirdisə, artıq bu 2014-cü ildə 29.5 milyard m^3-ə çatmışdır. Təbii qaz istehsalının artmasının başlıca səbəbləri arasında, texniki təchizatın yenilənməsi ilə yanaşı yeni qaz quyularında istehsala başlanmasıdır.

Təbii qazın 5-6 milyard m^3-ə qədər azalması nəticəsində, Azərbaycan əvvəllər Ermənistan və Gürcüstana qaz ixrac etdiyi halda, 1990-cı ildən etibarən özü Turkmənistan və İrandan qaz idxal etməyə başladı. Ancaq, təbii qaz idxalı 1995-ci ildə dayandırılmışdır. 2000-ci ildə isə Rusiyadan qaz idxal etmək üçün müqavilə imzalanmış və 2000-ci ilin noyabrında sınaq üçün təbii qazın verilməsi başlanmışdır[179].

Azərbaycanla Rusiya arasında ticarət həcmində təbii qaz satışı mühüm rol oynamır. Azərbaycan 2005-cü ildə Rusiyadan 5.5 milyard m^3 qaz idxal etmişdir. İdxal edilən qaz səbəbi ilə 256 milyon 412 min dollar ödənmişdir. 2005-ci ildə də Rusiyadan alınması planlanan eyni miqdarda qaz üçün ödənilmiş qiymət 330 milyon dollardır. 2006-ci ildən Azərbaycan xaricdən qaz idxalını dayandırmış və özü qaz ixracatçısına çevrilmişdir. Xüsusiylə Türkiyə, Gürcüstan və Rusiya Azərbaycan qazının müştəriləri olmuşdur.

Azərbaycanda 2010-2020-ci illər arasında ölkədəki təbii qaz istehsalının illik həcminin 60 milyard m^3-ə çatdırılması proqnozlaşdırılır ki, onun da 15-20 milyard m^3 ölkə daxili tələbətı qarşılayacaqdır. Yerdə qalan təbii qazın ixracı üçün başda Nabucco layihəsi olmaqla bir sıra alternativ layihə mövcuddur.

[179] Osman Nuri Aras, *Azerbaycan'ın Hazar Ekonomisi ve Stratejisi*, Der Yayınları, İstanbul, 2001, ss.39-40.

5.4. NEFT VƏ TƏBİİ QAZ SEKTORUNA QOYULAN XARİCİ SƏRMAYƏLƏR

Azərbaycanda enerji ehtiyatları və buna bağlı olaraq ölkəyə girən xarici sərmayə, 1990-cı illərin ortalarından etibarən Azərbaycan iqtisadiyyatının yaxşılaşmasında əhəmiyyətli bir rola sahibdir.

1994-2000-ci illər arasında neft sənayesinə 3.34 milyard dollar sərmayə qoyulmuşdur. 2001-ci ildən etibarən isə neft sektoruna qoyulan xarici sərmayədə mühüm artış olmuşdur. Nəticə olaraq 2015-cü ilin sonunda neft sektoruna qoyulan sərmayənin səksən milyard dollara çatdığı müşahidə edilir.

Qrafik 16. Neft Sektoruna Qoyulan Xarici İnvestisiya (milyon $)



Mənbə: ARDSK Nəşrləri.

Enerji ehtiyatlarının istehsalı ilə bağlı imzalanan 23 müqavilə ilə qərarlaşdırılan sərmayənin ümumi həcmi isə təqribən 80 milyard dollardır.

5.5. NEFT İXRAC MİQDARI VƏ GƏLİRLƏRİ

Azərbaycanın ixracatı içərisində əsas yeri 85-90% nisbəti ilə neft və neft məhsulları tutur. 2005-ci ilin sonlarına yaxın BTC-nin fəaliyyətə başlaması ilə ixrac içərisində neftin miqdarı daha da artmışdır.

2004-cü ilə qədər Bakı-Novorossiysk və Bakı-Supsa boru xəttləri ilə neft ixrac edən Azərbaycanın ixrac həcmi BTC xəttinin 2005-ci ilin oktyabr ayında fəaliyyətə başlamasından sonra ilk əvvəl 25 milyon ton olmuşdur. 2014-cü ildə isə Azərbaycanın neft ixracı 35 milyon ton olmuşdur. Bu isə 2009-cu il ilə müqayisədə azdır. Belə ki, 2009-cu ildə Azərbaycanın ümumi neft ixracı 44 milyon ton olmuşdur.

Azərbaycanın xam neft ixracı 2010-cu ildə 1 milyard barel/gün olmuşdur və 20 il içində isə 2 milyard barel/günə çatacağı proqnozlaşdırılır.

Təbii qazı idxal edən Azərbaycan 1995-ci ildə 579, 2000-ci ildə 274, 2001-ci ildə 3337, 2002-ci ildə 3935.3 milyon m^3 (216 milyon dollar), 2004-cü ildə isə 5.5 milyard m^3 təbii qaz idxal etmişdir. Şahdəniz yatağının 2006-ci ildə istehsala başlaması ilə birlikdə təbii qaz ixracına da başlanılmışdır.

İxrac məhsullarının əsasən neft və neft məhsulları olduğu üçün Azərbaycan iqtisadiyyatı neft qiymətlərindən asılı hala gəlmişdir. 1997-ci ildə neft ilə bağlı vasitəli vergilər ümumi vergilərin 57%-ini təşkil etmişdir. Neft ilə bağlı vergilər büdcə gəlirlərinin əsas artan hissəsini təşkil edərək, 1996-1997-ci illərdə təxminən ümumi gəlirin 50%-ini təşkil etmişdir. 1997-1998-ci illərdə neft qiymətlərinin aşağı düşməsi isə, dövlət gəlilərinə və ümumi iqtisadi gücə mənfi təsir göstərmişdir[180].

1997-ci ildə gəlirlərin dörddə üçünü neft və neft məhsullarından əldə edən Azərbaycan, neft qiymətlərinin düşməsi səbəbiylə 1998-ci ildə böyük miqdarlarda gəlir itgisinə səbəb olmuşdur. İxrac və vergi gəlirlərində mühüm yer tutan neft üzərindən alınan vergilərin azalması büdcə kəsirini artırmışdır. 1999-cu ildə isə, ilin ortalarında neft qiymətlərinin artması və yeni yataqların istehsala başlaması nəticəsində gəlirlərdə yenidən artım olmuşdur. 1999-cu ilin ikinci yarısında neft qiymətlərindəki artım səbəbi ilə neft istehsalında da artım olmuşdur. Bu artım neft gəlirlərinə və dövlət büdcəsinə müsbət təsir göstərmişdir[181].

2000-ci ildə bir tərəfdən dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar ölkədən ixrac edilən xam neftin hər tonunun qiyməti 1999-cu ilə nəzərən 90 dollar artmış, digər tərəfdən isə ixrac edilən xam neftin həcmi də 850 min ton artıq olmuşdur. 2000-ci ildə 1097.4 milyon dollarlıq xam neft ixrac olunmuşdur ki, bu da 1999-cu ilə nəzərən 6061.1 milyon dollar daha çoxdur. Nəticə etibarı ilə 2000-ci ildə neft qiymətlərindəki artım büdcə gəlilərinə müsbət təsir etmişdir. Çünki neft ilə bağlı gəlirlər büdcə gəlirlərinin yarıdan çoxunu təşkil edir[182].

2002-ci ildə Azərbaycanın neft və neft məhsulları ixracı 1.927.4 milyon dollar olmuşdur. Xam neft ixracı 8.793.6 milyon ton (1.159.5 milyon dollar) olmuşdur. Bunun müqabilində mineral yanacaq, neft və neft məhsulları idxalı 292,6 milyon dollar (ümumi idxalın %17,5-i) olmuşdur.

2002-ci ildə ABŞ-ın İraqı işğalı ehtimalı getdikçə yüksəlmiş və neftin bir barelinin qiyməti 32 dollara yüksəlmişdir. Bu isə, Azərbaycanın neft gəlilərində artıma səbəb oldu. 2002-ci ilin büdcəsində neftin bir barelinin qiyməti 19 dollar olaraq hesablanmışdır. Barel qiymətində bir dollar artma nəticəsində Azərbaycana ildə 18-20 milyon dollar gəlir gətirdiyini nəzərə alsaq, sadəcə neft qiymətlərindəki artım nəticəsində Azərbaycan 100 milyon dollardan çox gəlir əldə

[180] *Azərbaycanın İqtisadi İcmali*, İyul-Dekabr 1999, s.43.
[181] *Azərbaycanın İqtisadi İcmali*, İyul-Dekabr 1999, ss.42, 45.
[182] Əliyev Natiq, s.82.

etmişdir[183]. 2003-cü ilin dövlət büdcəsində isə neftin 1 barelinin qiyməti 19.5 dollar olaraq müəyyənləşdirilmişdir.

2008-ci ildə dünya bazarında neftin satış qiyməti 1994-cü ildən sonra ən yüksək səviyyəsinə qalxmış fəqət daha sonra ABŞ-da başlayaraq bütün dünyaya yayılan böhran nəticəsində 2009 cu ilin ilk rübündə bir barrel neft 35-45 ABŞ dolları həcmində dünya birjalarında satılması Azərbaycan Hökümətinin nəzərdə tutduğu iri həcmli layihələrdən vaz keçməsinə vadar etdi.

O illərdə qiymətlərdəki artım səbəbləri: Bir çox mütəxəssislər qiymətin sürətlə artmasının səbəbini neftə olan tələbin artması ilə açıqlayır. O illərdə Meksika kimi ölkələrdə, Şimal dənizində neftin həcmi azalmışdır. Eyni zamanda bir çox ölkədə neftin ixracı dayandırılmışdır. Çox az olan hasilat ancaq daxili tələbatı qarşılaya bilir. Əvvəlki illərdə neft ixracatçısı kimi bilinən İngiltərə artıq neft idxal etməkdədir. ABŞ və Çinin iqtisadi inkişafının artması ilə neftə olan ehtiyacları da artmışdır. Dünya bazarı, Çin və Hindistan kimi böyük dövlətlərin də neft ehtiyaçlarını yerinə yetirməlidir. Bütün bunlarla yanaşı, ABŞ-ın neft və təbii qaz ehtiyatlarının azalması da neftə olan tələbi artırır. Nəticədə bütün bu səbəblər dünya bazarında neftin qimətinin qalxmasına səbəb olmuşdur.

Orta Şərqdə baş verən hadisələrdə neftin dünya qiymətinin yüksəlməsinə təsir etmişdir. İraqda baş verən müharibə dövrü və münaqişələr, orada olan neft istehsal edən firmaların zəifliyi və hər an baş verə biləcək terror hadisəsi neft qıtlığını ortaya çıxarır ki, bu da bazar iqtisadiyyatı qanunlarına uyğun olaraq qiymətlərin yüksəlməsinə səbəb olur.

Dünya bazarında qitymətlərin yüksəlməsinə OPEC-in neft sektorunda monopoliya yaratması da öz təsirini göstərir.

Qiymət artımının büdcəyə təsiri: Beynəlxalq bazarda qiymətlərin artımına paralel olaraq Azərbaycan neftinin də qiymətinin artması ölkənin ixracına müsbət təsir göstərir.

Azərbaycanın büdcə mədaxilləri sadəcə gömrük və vergilərdən ibarət deyil. Büdcə gəlirlərinin artmasına dünya bazarlarında satılan Azərbaycan neftinin gəlirindəki artış da təsir edir. Hazırlanan 2003-2004-cü illərin büdcələrində neftin dünya bazarına satışı hər barelə 20 dollar olaraq hesablanmasına baxmayaraq, beyəlxalq bazarlarda neftin qiyməti bu rəqəmdən xeyli çox olmuşdur. Azərbaycanın ixrac etdiyi neftin bir barelinin qiyməti 38 dolları keçmişdir. Belə olduğu halda neft gəlilərinin büdcəyə ayrılan hissəsinin az olması diqqət çəkir. Neft gəlirlərinin dövlət büdcəsinin təşəkkülündə əsas qaynaqlardan biri olması səbəbiylə, hökümətin büdcə hesablamalarını yenidən diqqətə alaraq neftin büdcə hesablamalarındakı barel qiymətini dəyişdirməsi lazım gələ bilər. 2008-

[183] N. Səfərəliyev, "Neft Bahalaşır. İqtisadiyyatımız Bundan Yararlanacaq", *İki Sahil Qəzeti*, 5 Mart 2003.

ci il büdcəsi hazırlandıqda dünya bazarında neftin qiyməti kifayət qədər yüksək idi və bu yüksəlişin davam edəcəyi gözlənilirdi. Ancaq, yenə də neftin qiyməti 2009 büdcə layihəsində 60-70 dollar olaraq diqqətə alınmışdır. Dünya təcrübəsinə istinad edilərək, beynəlxalq şirkətlərin etdikləri təxminlər əsasında büdcə hazırlanarkən nisbətən real neft qiymətinin diqqətə alınması daha doğru olacaqdır. Neftin 1 barelinin qiymətindəki bir dollarlıq artımdan Azərbaycan 1 milyon 400 min dollar əlavə gəlir əldə edir. Qiymətin dəyişməsi nəticəsində əldə edilən əlavə gəlir neft fonduna daxil olsa da, onun xərclənməsinə nəzarət edilməlidir.

Fəqət bu artım prosesindən təxminən 120 milyard dollardan artıq gəlir əldə edən Azərbaycan bu gəlirlərin 70-75 milyard dollarını neft fondu və ya büdcəyə transfer şəklində xərcləmişdir. 2014- ci ildən dünya birjalarında neft qiymətinin ciddi şəkildə azalması fonunda Azərbaycan iqtisadiyyatı 20-25 milyard dollarlıq bir itkiylə iqtisadiyyatı üçün ciddi bir vəziyyətlə üzləşmişdir. Son iki ildə Mərkəzi Bankın rezervləri iki dəfə azalaraq 7 milyard dollara qədər azalmış və 2015-ci ilin əvvəlindəki manatın 30 faiz ucuzlaşması şəklindəki develuvasiya belə bu prosesə mane olabilməmişdir. Bu vəziyyəti nəzərə alan Azərbaycan hökuməti son beş ildə ilk dəfə olaraq Neft Fondundan transferi on milyard dolların üzərindəki həddən altı milyard dollara qədər azaltmışdır.

Neft gəlirərinin idarə edilməsi: Neftdən əldə edilən sərvətin necə istifadə edilməsi əhəmiyyətlidir. Bu barədə Azərbaycan təcrübəsindəki ən əsas problem "Qohum-Əqrəba Kapitalizmi"nin (Crony Capitalism) ortaya çıxması qədər, dövlətdə rüşvət və sui-istifadənin də yüksək olmasıdır. Ölkəyə dair neft-pul axımı bu barədə islahatları həyata keçirtməyi çətinləşdirir. Neft gəlirinin asanlıqla əldə edilməsi dövlət xərcləmə siyasətinin zəifləməsinə də səbəb olur, neft qiymətlərindəki ani dəyişiklik dövlət büdcəsinə təsir edərək uzun müddətli xarici borc və faiz ödəmələrinin artmasına səbəb ola bilir[184].

Beləliklə ölkə iqtisadiyyatını istiqamətləndirən hökümətin neft gəlirlərini, davam etdirilə biləcək bir böyümə dövrünü əldə edə biləcək bir qaynaq bölgüsü mexanizmasıyla və böyümə şəklini formalaşdıracaq şəkildə (neft və qeyri-neft ticarət sektorları ilə xarici ticarətə daxili olmayan sektorlar arasında) bölgüyə diqqət etməsi qaçılmaz bir zəruriyyətdir. Maliyyə təşkilat və bazarların tam olaraq formalaşmadığı bir iqtisadiyyatda neftdən əldə edilən gəlir və mənfəətlərin məhsuldar sahələrə yönləndirilməsi əsas problemlərdəndir. Bu problemin həlli isə, dövlətin iqtisadiyyatdakı planlayıcı roluna ehtiyac olduğunu ortaya qoyur.

Neft ixracatından Azərbaycanın əldə edəcəyi valyuta gəliri ölkə iqtisadiyyatının digər sahələrinə, xüsusi ilə də idxalı əvəz edən sahələrə və ixrac sahələrinin inkişafına istiqamətəndirilməlidir. Hal-hazırda Azərbaycan dünya baza-

[184] "Country Assistance Strategy For The Azerbaijan Republic", *The World Bank Report*, No: 19892-AZ, November 29,1999, s.11; Alkan Soyak–Zenfira Nesirova, "Kürəsəlləşmə Sürəcində IMF Politikalarının Sonuçları: Azərbaycan Dənəyimi", Q*loballaşma Prosesinde Qafqaz və Orta Asiya Mövzusunda Beynəlxalq Konfransın Materialları*, Bakı, 2003, s.29.

rına təkcə enerji və xam maddənin ixracatçısı kimi çıxmağa məcburdursa, gələcəkdə yalnız bununla kifayətlənmək olmaz. Bundan əlavə, neft ixracatçısı olan ölkələrin "acı" təcrübəsini dərindən öyrənərək ondan nəticə çıxarmaq lazımdır. Neftdən əldə edilən gəlir ilə daha çox investisiya qoyulmalıdır. Sərmayə istiqamətli siyasət daha əhəmiyyətlidir. Ancaq, hökümət bununla birlikdə sosial məsələləri də həyata keçirməlidir.

Azərbaycanın neft və təbii qaz gəlirinin idarə olunmasının uzun müddətli strategiyası 2008-ci ildə müəyyən edilmişdir. Bu strategiya region enerji sektorunun və ölkə infrastrukturunun inkişafı üçün, yüksək miqdarda neft və təbii qaz gəlirinin əldə edilməyə başlandığı vaxtda, iqtisadiyyatının itkisiz transformasiyasının təmin edilməsi haqqındakı hökümət planlarını əks etdirir. Ölkə başçısı tərəfindən təsdiqlənən strateji proqram əldə ediləcək neft və təbii qaz gəlirlərinin 2005-2020-ci illərdə idarəsini əhatə edir. Əldə ediləcək gəlirlərin 25%-i isə, xərclənməyərək mühafizə ediləcəkdir.

30 il ərzində Azərbaycanın neft və təbii qazdan 240-265 mlrd dollar gəlir əldə edəcəyi hesablanmışdır. Azəri, Çıraq və Günəşli yataqlarından əldə olunacaq gəlir 2008-2015-ci illərdə ən yüksək səviyyəsinə çatacaqdır. Bu müddət ərzində ölkəyə ildə təxminən 5-6 milyard dollar, nəticədə isə, 35-42 milyard dollar daxil olacaq. Şahdəniz yatağının istifadəsindən sonra əldə edilə biləcək gəlir isə, 2029-cu ilə qədər 7 milyard dollardan çox olacaqdır[185].

Dövlət Neft Fondu tərəfindən aparılan hesablamalara görə, 2009-2014-ci illərdə neft və təbii qaz gəliri ən yüksək səviyyəsinə çatmışdır. Növbəti 20 il ərzində ölkənin neft və təbii qaz gəlirləri 15-35 mlrd dollar arasında dəyişəcəkdir.

Azərbaycan Dövlət Neft şirkəti tərəfindən aparılan araşdırmalara görə isə, neftin barel qiymətinin 35 dollar olması halında 2024-cü ilə qədər ölkənin neft gəlirləri 104 milyard dollar olacaqdır[186].

5.6. BORU XƏTTLƏRİ

Boru xəttləri də iqtisadi cəhətdən əhəmiyyət kəsb edir. Enerji qaynaqlarının faydalı istifadəsində ən əsas problemlərdən biri, qaynaqların dünya bazarına çıxarılması üçün lazımi nəqliyyat xəttlərinin yaradılmasıdır. Rusiya xaricində nəqliyyat xəttlərinə sahib olunması iqtisadi cəhətdən atılmış ən əsas addım olacaqdır.

Azərbaycan nefti Dağıstan, Gürcüstan, İran kimi xarici ölkələrə 1880-ci ilə qədər qatarla yük formasında, Xəzər dənizində isə gəmilərlə nəql olunurdu. Daha sonra isə Bakı nefti Rusiya, Gürcüstan və digər ölkələrə, o cümlədən,

[185] Bu hesablamalar bir barel neftin 25 $ olduğu diqqətə alınaraq aparılmışdır.
[186] '25% of Oil, Gas Revenues to Accrue', *Azernews,* http://www.azernews.net/view.php?d=5685. (18.03.2005).

Qroznudan 720 km uzunluğunda olan boru xəttləri ilə nəql edilməyə başlandı[187]. Bu xəttlər Bakı-Novorossiysk və Bakı–Supsa xəttləri idi. Xəzər neftinin kəşf edilməsi və Azərbaycanın yenidən müstəqilliyindən sonra Bakı–Tbilisi–Ceyhan aktuallaşdı.

Azərbaycan neftinin dünyanın müzakirə obyektinə çevrildiyi günlərdə, neftin nəqli üçün 7-8 kəmərin gündəmə gəlməsinə baxmayaraq, Azərbaycan neftini çıxartmaq məqsədiylə qurulan Azərbaycan Beynəlxalq Neft Konsersiyumu (AIOC)'nun hazırladığı hesabatda kəmər sayısı Bakı-Novorossiysk, Bakı-Supsa ve Bakı-Tiflis-Ceyhan olaraq 3-ə endirildi.

5.6.1. Bakı- Novorossiysk Neft Boru Xətti

İstehsal olunan ilkin neftin hansı kəmərlə daşınacağının müzakirə edildiyi vaxtlarda Rusiya Bakı-Novorossiysk limanı arasında artıq bir boru xəttinin olduğunu və bu boru xəttinin həm ucuz, həm də sürətli həyata keçirilə biləcək tək yol oduğunu irəli sürdü. Rusiya bununla da kifayətlənməyib, boru xəttinin Çeçenistan torpaqlarından da keçəcəyinə görə, Çeçenistanla razılığa gəldi. Daha sonra Azərbaycan Rusiya və Çeçenistan arasında Bakı-Qroznu-Tixorotesk-Novorossiysk boru xəttiylə əlaqədar olaraq müqavilə imzalandı[188].

AİOC və Rusiyanın Transneft şirkəti arasında 1996-cı il 16 yanvarda imzalanan müqavilə ilə Bakı-Qroznu-Novorossiysk xətti ilə neftin ilkin ixracına qərar verildi.

1997-ci ilin noyabr ayından etibarən neft bu xəttdən ixrac edilir. Boru xətti ilə Bakıdan Rusiyanın Novorossiysk limanına ötürülən nefti, buradan tankerlərlə dünya bazarlarına daşıyan tankerlərin ilki 1997-ci il 12 dekabr tarixində İstanbul boğazından keçmişdir.

Bakı-Novorossiysk neft boru xətti ilə ildə 2.5 milyon ton Azərbaycan nefti ixrac edilir. SOCAR ixrac edilən neftin hər tonu üçün Rusiyaya 15.67 dollar ödəyir. Bu miqdar Bakı-Supsa boru xətti ilə ixrac edilən neftin hər tonu üçün ödənilən miqdardan yüksəkdir.

5.6.2. Bakı-Supsa Neft Boru xətti

Bakı-Novorossiysk xətti ilə bərabər 1995-ci il oktybar ayının 9-da Bakıda istehsal edilən neftin beynəlxalq bazaralarda satılması üçün qərarlaşdırılan digər terminal isə, Bakıdan Gürcüstanın Supsa limanına qədər uzanan Qərb boru xəttidir. Əliyev və Şevernadzenin iştirakı ilə 1996-cı il 8 mart tarixində Tbilisidə ilkin neftin Azərbaycandan Gürcüstana nəqlini qərarlaşdıran müqavilə AİOC, Gürcüstan hökuməti və SOCAR arasında imzalandı. Müqavilədə ilk ola-

---

[187] F. Ş. Əliyev, *Azərbaycan Respulikasının Yeraltı Suları və Ehtiyatlarından İstifadə və Geokoloji Problemləri*, Çaşıoğlu Nəşriyyatı, Bakı, 2000, s.291.

[188] Heydər Əliyev, ss.140-141.

raq Azəri, Çıraq və Günəşli yataqalarından çıxarılan neftin beynəlxalq bazarlara nəqli planlanmışdır.

Çeçenistan problemi Bakı-Novorossiysk kəmərini təhlükəyə saldığından Bakı-Supsa boru xətti inşa edildi. Bu xətt planlaşdırıldığı kimi 1999-cu ildə inşa edilərək fəaliyyətə başlamışdır[189].

Fəaliyyətə başladığı tarixdən etibarən neftin ixrac edilməyə başlandığı xəttdən 2004-cü ildən 10 milyon ton neft ixrac edilmişdir.

5.6.3. Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti

Neft istehsalının artması halında fəaliyyətdə olan Bakı-Novorossiysk və Bakı-Supsa xəttləri kifayət etməyəcəyindən, Qərb bazarlarına ixrac üçün əsas boru xətti mövzusunda fərqli alternativlər üzə çıxmışdır. Bu alternativlər arasında isə, Bakı-Tbilisi-Ceyhan seçilmişdir.

1768 km-lik Bakı-Tbilisi-Ceyhan xətti, Bakı yaxınlarındakı Səngəçal limanından quru yol keçidiylə, Gürcüstanın paytaxtı Tbilisi üzərindən keçib, Türkiyə sərhəddinin 42 dərəcə 49 dəqiqə şimal və 43 dərəcə 18 dəqiqə şərq koordinatları arasından Anadoluya daxil olur. Xəttin 443 km-i Azərbaycan, 249 km Gürcüstan, 1076 km-i isə Türkiyə torpaqlarından keçir. Xətt Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyə və Adana şəhəri sərhəd xəttini izləyərək Ceyhanda inşa edilmiş terminala bağlanır[190].

Uzun müddətdə Şərq-Qərb Dəhlizi ilə Azərbaycanla yanaşı Qazaxıstan nefti və Turkmənistan təbii qazının da eyni xəttlə nəqli düşünülür. Buna görə Xəzər dənizin altına döşənməsi düşünülən Transqafqaz xətti ilə Qazax nefti və Türkmən təbii qazı Bakıya, buradan da Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyəyə ötürüləcək.

2002-ci ilin 18 sentyabrında Azərbaycan,Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşasının bünövrəsini atılması mərəsimi keçirilmişdir.

ABŞ-ın ixrac və idxal bankı "Exim Bank" 30 dekabr 2003-cü ildə Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin inşası məqsədi ilə Amrerikan avadanlıqlarını ixracı və xidmətləri üçün 160 milyon dollar uzun müddətli kredit ayırmaq haqqında qərar vermişdir. Layihə haqqında məlumatlar konqresə təqdim edildikdən sonra bank bu qərarı qəbul etmişdir. Nəhayət, 3 fevral 2004-cü ildə Bakı-Tbilisi-Ceyhanın reallaşması yolunda mühüm bir addım atılmışdır. Bu tarixdə bütün dünyada tanınan ən əhəmiyyətli maliyyə təşkilatları ilə layihənin maliyyələşdirilməsi paketin hazırlanması tamamlanmışdır.

---

189 'Oil and Gas Investment Projects: Azerbaijan and Georgia', *World Bank Bisnis Home Page*, http://www.worldbank.org/ogmc/ifcoginvestmentsprojectsazerbaijan.htm . (12.04.2005).

190 "Baku-Tblisi-Ceyhan Pipeline", *Energy Ecology Economy Popular – Science Journal*, 13/2003, ss.2-15.

Yeni prezident İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının milli lideri Həydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" 10 mart 2004-cü il tarixli fərmanı ilə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi qəraralaşdırılmışdır.

Borularla neftin doldurulması xərcləri ilə birlikdə BTC-yə 3.6 milyard dollar pul xərclənmişdir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Azərbaycan iqtisadiyyatına müsbət mənada faydası fəaliyyətə başladığı 2006-cı ildən etibarən özünü göstərməyə başlamışdır.

BTC boru kəməri fəaliyyətə başlayınca birinci il 25 milyon ton, 2007-ci ildən etibarən isə Ceyhan limanına ildə 45-50 milyon ton neft nəql edilir.

Ceyhan xam neft ixrac terminalı 120 milyon ton/il həcmli olub, təxminən 71 milyon ton həcmi olan İraq-Türkiyə xam neft boru kəməri də diqqətə alındıqda 49 milyon ton/illik qismi, BTC boru kəmərinin nəql ediləcək olan həcmi qarşılamağa kifayət edir.

BTC boru kəmərinin həyata keçirilməsi nəticəsində, Azərbaycanda istehsal olunacaq neftlə birlikdə Qazaxıstan neftinin də bu boru kəmərindən dünya bazarlarına çatdırılması haqqında, neftin iqtisadi inkişafa və müstəqilliyə təsiri daha açıq olaraq müşahidə ediləcək. Qazaxıstan neftinin də bu kəmərdən nəqli haqqında müzakirələr mütəmadi olaraq gündəmdədir. Qazaxıstan tərəfi ilə neftin nəqli üçün bütün sənədlər hazırlanmışdır. Belə ki, "Chevron Texaco" şirkəti ildə 12 milyon ton Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlini düşünür. "Total" (Fransa), "ENİ" (İtalya), "İnpex" (Yaponiya) və "ConocoPHİLİPS" (ABŞ) şirkərləri də Xəzərin Qazaxıstan hissəsində "Kaşağan" yatağından çıxardılan nefti dünya bazarlarına BTC ilə ixrac etməyi (ildə 12 milyon ton) istəyirlər[191].

5.6.4. Bakı-Tbilisi-Ərzurum Təbii Qaz boru kəməri

Xəzər Dənizinin Azərbaycan regionunda yerləşən və sahildən 100 km. uzaqlıqda yerləşən Şahdənizdə zəngin qaz yataqlarının kəşfindən sonra, təbii qazın necə ixrac ediləcəyi müzakirə edilməyə başlandı. Əliyev və Türkmənbaşı arasındakı telefon danışıqlarında Azərbaycanın Trans-Xəzər xəttindən ildə 5 milyard m^3 təbii qaz barədə razılaşılmasının müqabilində, Türkmənistanın Trans-Xəzər layihəsində iştirak edəcək şirkətin müqavilə müddətini uzatmaması, xəttin həyata keçməsini təhlükəyə saldı. Bundan əlavə Türkmənistanın Rusiyaya ildə 50 milyard m^3 təbii qaz satacaq olması bir tərəfdən Türkmənistanın Trans-Xəzər boru xəttindən soyuması demək idi. Bunlar da Azərbaycanın öz təbii qazını satmaq üçün yeni yollar axtarmasına səbəb oldu.

2001-ci ilin mart ayında Əliyevin Türkiyəni ziyarəti zamanı Ankarada Türkiyə-Azərbaycan arasında təbii qazın ixracına dair müqavilə imzalandı.

[191] "Bakı-Ceyhanın Şansı Artıb", *Azadlıq Qəzeti*, No:2(2665), 5 Yanvar 2005.

Müqaviləyə görə, Türkiyəyə "Şahdəniz" yatağından çıxarılacaq 2 milyard m^3 həcmində, 2005-ci ildə 3 milyard m^3, 2006-cı ildə 5 milyard m^3 və 2007-2008–ci illərdə 6.6 milyard m^3 olmaqla 5 il ərzində 23.2 milyar m^3 təbii qaz ixracı planlaşdırılsa da sonrakı illərdə bəzi qiymət anlaşılmazlığı və texniki problemlərdən qaynaqlanan müəyyən axsamalar olmuşdur. Hər nə qədər imzalanan müqavilədə ixraca 2004-cü ildə başlanacağı qərarlaşdırılsa da, hadisələrin gedişatına görə daha sonra Şahdəniz təbii qazının Türkiyəyə nəql edilməsi məqsədi ilə Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin inşasına 2004-cü ildə başlanılmışdır[192]. Həmin bu kəmər, BTC neft kəmərinə paralel düşünülmüşdür. İki boru xətti arasında məsafənin 12 metr olaraq hesablanması isə, layihənin həyata keçməsində vaxtın və maliyyə xərclərinin azaldılmasına imkan verəcəkdir.

2004-cü ildə BP şirkəti "Şahdəniz" yatağının təbii qaz nəqli ilə əlaqədar Cənubi Qafqaz təbii qaz boru kəmərinin inşasına başlamışdır. İnşaatın 2005-ci ilin 4-cü rübündə tamamlanması, 2006-cı ilin qışında isə təbii qazın istehsal edilərək ixracatına başlanılmışdır.

İmzalanan bir müqavilə ilə birinci il 1 milyard m^3 olmaq üzrə təbii qaz Yunanıstan və Avropaya ixrac ediləcəkdir. İxrac miqdarı daha sonra 14.3 milyard m^3-ə çıxacaqdır. Bu çərçivədə Yunanıstan ilə Türkiyə arasında kəmərinin inşası da planlanmışdır. Yunanıstanın bu kəmərdən təbii qaz alması ilə layihəyə qoşulması, Yunanıstanın "Şahdəniz" layihəsinin stratejik müttəfiqi olan Türkiyə ilə dərinləşməsinə kömək edəcək. Yunanıstanın layihədə iştirakı Azərbaycana və Ermənistana qarşı siyasətində də tarazlıq yaradacaq.

Trans–Xəzər təbii qaz boru kəmərinin də aktiv hala gətirilməsi halında enerji qaynaqlarının iqtisadi inkişafına təsiri daha aydın görüləcək.

İran və İraqdan fərqli olaraq, Azərbaycan nefti və təbii qaz yataqları məhduddur. Ancaq, bu qaynaqlar Azərbaycanın Avropaya inteqrasiyasına və Avropa İttifaqının yaxın qonşuluq strategiyasının reallaşmasına xidmət edəcəkdir. Əlbəttə, neft və təbii qaz layihələrinin həyata keçirilməsi, regiondakı digər ölkələrin iqtisadi inkişafına əhəmiyyətli təkan qazandıracaq.

5.6.5. TANAP Layihəsi Və Onun Perspektivi

Neft strategiyasının uğurla həyata keçirilməsinin ardından Azərbaycan, qaz ixrac siyasəti ilə əlaqədar strateji məqsədlər müəyyənləşdirməyə başlamışdır. Azərbaycan, hal-hazırda beynəlxalq bazarlara (Türkiyə, Rusiya, Gürcüstan) qaz ixrac edən, bölgədə yeganə ölkədir. Bu səbəblə də AB tərəfindən, Cənub Qaz dəhlizinin "təchizatçısı və iştirakçisi" olaraq görülməkdədir. Bu strateji istiqamətdə, Azərbaycan, uzun müddət vəd edən AB üçün əhəmiyyətli və strateji bir

[192] Sevil Yıldırım, *Dünyada və Türkiyədə Petrol*, T.C. Başbakanlık Dış Ticaret Müsteşarlığı Ekonomik Araştırmalar ve Değerlendirme Genel Müdürlüğü, Ankara, Ağustos- 2003, s.41.

təbii qaz ixracatçısı ölkəsi olmağı hədəfləyir. Şah Dəniz sahəsindən Avropalı son istifadəçilərə, dəyər zəncirinin hər halqasında yer əldə etməyi amaçlıyor.

Qaz strateji bir məhsuldur və bu məhsul səmərəli istifadə edildiyi zaman SOCAR ilə Azərbaycan əhəmiyyətli bir geostrateji və maliyyə mövqeyinə çata bilər. Gələcəkdəki olabiləcək əlaqələri idarə gün keçdikcə daha da əhəmiyyətli hal almaqdadır. Cənubi Qafqaz Boru Kəməri layihəsinin böyüməsiylə, Azərbaycan potensial qaz həcmini mənbəyindən son istifadəçiyə qədər nəzarət edərək maraqlarını qorumuş olacaq. Ancaq bu tənzimləmə qaz ixracını məşhurlaştırma hədəfində olan bir ölkəni təmin etməyəcək. Azərbaycan, qaz qaynaqları olan bi ARDNŞ-nin belə bir addım atmasının iki səbəbi vardır. İlki, genişlənən infrastrukturun 2017 də sonra Sahdəniz qazını daşıya və 2025-ci ildən sonra yeni kəşflərlə istehsal eiləcək qazla birlikdə Azərbaycan qaz istehsalının hər il 50 milyard kub metrə çıxması hedefidir. Bu layihələr reallaşması halında, olduqca yüksək həcmdə qaz nəqli ARDNŞ-nin Türk torpaqlarında, dəyərlər zəncirinin alt sıralarındaki maraqlarını irəlidə mühafizə edə bilməsi üçün yuxarıda göstərilən strategiyanın inkişaf etdirilməsi ciddi bir zərurət halını almışdır. Trans Anadolu Boru Kəməri (TANAP) ilk olaraq Oktyabr 2011-ci ildə Türkiyə Azərbaycan transit müzakirələri əsnasında "birdən gündəmə gəlmiş" və 25 oktyabr 2011 tarixində IGA'dakı (Hökümətlərarası Razılaşmanın) "əlavə bir maddə" ilə zəmanət altına alınmışdır. Sonrasında 24 dekabr 2011-ci ildə TANAP üçün Anlaşma Memorandumu (MOU) və 26 iyun 2012-ci ildə xüsusi IGA imzalanmışdı Hər iki tərəfin də qəbul etdiyi üzrə, TANAP vasitəsilə Türk bazarına 6 milyard kubmetr qaz ixrac edilməsi şərtinin mətnə əlavə edilməsi SOCAR baxımından əhəmiyyətli idi. 6 milyard kubmetr qaz olmadan TANAP'ın həyata keçirilməsi mümkün deyil. Çünki 56 düym və 31 milyard kubmetr tutumlu boru xətti, yalnız 10 milyard kub metrlik bir başlanğıc həcmi ilə iqtisadi baxımdan səmərəli olmaqdadır. Bu səbəblə Türk Məclisi tərəfindən təsdiq edilmiş olan 25 Oktyabr 2011-ci il tarixli IGA'nın "tranzit" başlıqlı qisimi və eyni tarixdə imzalanan BOTAŞ-SOCAR Transit Qaz Sazişi (GTA) qeyri rəsmi mənada TANAP layihəsi üçün "tətbiq olunma" hökmündədir. Azərbaycan və Türk hökümətlərin TANAP ciddi mənada dəstəklənir. Ayrıca TANAP İngiltərə, ABŞ, AB və hətta Trans Adriatik Boru Kəməri (TAP) ilə Nabucco konsorsiyumlar tərəfindən də dəstəklənir. BP isə fərqli yanaşmalardan ötəri həm TANAP həm də BOTAŞ şəbəkəsini dəstəkləyir. TANAP'a qərar verilməsi və inşasına başlanmasına bağlı müddətdə diqqət çəkən dörd mərhələ var. Aşağıda bu dörd mərhələ ayrı-ayrı ələ alınacaq

Xəzər dənizinin Azərbaycan sektorunda iştirak edən Şahdəniz yatağından ikinci mərhələ olaraq əldə ediləcək olan təbii qazın həm Türkiyə tərəfindən satın alınması həm də Avropa bazarlarına Türkiyə üzərindən tranzit olaraq nəqlini nəzərdə tutan hökümətlərarası Saziş, Azərbaycan və Türkiyə arasında 25 Oktyabr 2011 tarixində İzmirdə imzalanıb.

İzmir-Aliağa'da Azərbaycan Dövlət Neft Şirkəti SOCAR ilə TURCAS Enerji AŞ tərəfindən ediləcək olan Star Rafinerisi'nin təməl atma mərasiminin ardından Türkiyə Respublikasının Baş naziri Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti Əliyevin də iştirakı ilə həyata keçirilən yığıncağın ardından imzalanan bu müqavilədə, Azərbaycan təbii qazının Avropaya tranzit daşınmasında iki fərqli alternativ nəzərə alınmışdır. Sözü gedənalternativ biri Türkiyənin milli təbii qaz ötürülməsi sistemi, digər alternativ isə müstəsna bir boru xəttinin inşa edilməsi olmuşdur. Hökümətlərarası müqavilə TANAP'a gedən yolun təməllərini atmışdır.

Trans Anadolu Təbii qaz Boru Xətti bir layihə olaraq ilk dəfə 17 Noyabr 2011 tarixində İstanbulda təşkil edilən Üçüncü Qaradəniz Enerji və İqtisadiyyat Forumunda Azərbaycan Dövlət Neft Şirkəti SOCAR (State Oil Company of Azerbaijan Republic) tərəfindən ictimaiyyətə açıqlanmışdır. SOCAR prezidenti tərəfindən edilən açıqlamada, Azərbaycanın zəngin təbii qaz potensialının uzun perspektiv vəd edən Türkiyə və Avropa bazarlarına ərz edilmək üzrə, Türkiyənin şərq sərhədindən başlayıb qərb sərhədinə qədər uzanan Trans Anadolu Boru Kəməri Proyektinə bağlı işlərin başladığını ifadə etmişdir.

Edilən ön razılaşmadan təxminən iki ay sonra Türkiyə Respublikası Enerji və Təbii Qaynaqlar Nazirliyi ilə Azərbaycan Sənaye və Energetika Nazirliyi arasında, "Trans Anadolu Təbii qaz Boru Xətti" istehsalına bağlı razılaşma memerondumu, 26 dekabr 2011 tarixində Ankarada imzalandı.

İmzalanan razılaşma zəbti ilə Trans Anadolu adı verilən qeyd edilən müstəsna boru xəttinə istiqamətli işlərin təcili başladılması və iki ölkə tərəfindən təyin edilən şirkətlərin ortaq bir konsorsium təsis etmələri mövzusunda razılaşma təmin edildi.

Boru xəttinin inşasına bağlı təşkil ediləcək olan konsorsium içərisində Azərbaycan Dövlət Neft Şirkəti SOCAR və Türkiyədən Boru Xəttləri ilə Neft Daşıma Anonim Şirkəti BOTAŞ ilə Türkiyə Petrolleri Anonim Ortaqlığı TPAO'nun ilk tərəfdaşlar olaraq iştirak etməsi qərarlaşdırılmışdır. Razılaşma zaptında müddət içərisində digər beynəlxalq neft və təbii qaz şirkətlərinin də konsorsiyuma daxil ola biləcəkləri nəzərə alınmışdır.

Beləcə imzalanan razılaşma zəbti ilə 26 Oktyabr 2011-ci il tarixli müqavilə daha konkret hala gətirilmiş oldu.

Azərbaycanın Şahdəniz-2 qazının Türkiyə və Avru-pa'ya ixracına müstəsna yeni bir xəttin Trans Anadolu adı altında inşası məqsədilə Türkiyə və Azərbaycan arasında tarixi əməkdaşlığa istiqamətli olaraq 27 İyun 2012 tarixində İstanbulda edilən üç razılaşma ilə addım atılmışdır. Sözü gedən müqavilələr layihəyə dair hökümətlərarası saziş, ev sahibi ölkə razılaşması və boru xəttinə dair razılaşma zaptında ibarətdir.

TANAP Hökümətlərarası Razılaşmanın: Sahib olduğu ehtiyat miqdarı baxımından dünyanın əhəmiyyətli təbii qaz yataqlarından olan Şahdəniz-2-dən əldə

ediləcək təbii qazı Türkiyə üzərindən Avropaya çatdıracaq olan TANAP-a bağlı hökümətlərarası son razılaşma isə 27 İyun 2012 tarixində İstanbulda imzalanıb.

TANAP boru xətti, Azərbaycan təbii qazının Gürcüstandan keçərək Türkiyə üzərindən satılmasını və nəqlini nəzərdə tutur. Giriş nöqtəsi Türkiyə sərhədi Türkgözü girişi olan xəttin Türkiyə içi çıxış nöqtələri Eskişehir və Trakya bölgəsi olacaq. Xəttin Türkiyədən Avropaya çıxış nöqtələri isə Yunanıstan və ya Bolqarıstan sərhədləri olacaq. Yəni xəttin Avropaya çıxışına bağlı yolu hələ tam olaraq qərarlaşdırılmamış olmaqla birlikdə bir qolunun Yunanıstana ,digər qolunun isə Bolqarıstana çatması düşünülməkdədir.

Trans Anadolu Təbii qaz Boru Xətti Proyektinin investisiya maliyyə-kifayətlənin təxminən 7 milyard dollar olacağı təxmin edilir. İllik tutumunun 31 milyard kub metrə qədər çıxması planlaşdırılan layihənin ilk mərhələsinin altı il içində tamamlanması nəzərdə.

TANAP üçün yaradılan konsorsiumda Azərbaycandan Azərbaycan dövlət neft şirkəti SOCAR ilə Türkiyədən BOTAŞ və TPAO ilk tərəfdaşlar olaraq iştirak etməkdədir. TANAP Konsorsiyumunda Türkiyə adına BOTAŞ və TPAO 20% paya, Azərbaycan adına SOCAR isə% 80 paya sahibkən 2015-ci ildə Azərbaycan payından yüzdə 12 sini BP yə sataraq projeni daha da çoxmillətli olmasını təmin etdi və dünya enerji nəhənginə də bu proyektə qatdı. Hazırda bu proyektdə Azərbaycanın payı 68%, TPAO 20% və BP payı 12%-dir.

Layihənin dörd mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

1. Xəttin Fəaliyyətə keçid Mərhələsi

Layihə üçün nəzərdə tutulan dörd mərhələnin ilki 2018-ci ildə ilk təbii qaz axınıyla reallaşacaq. İlk mərhələdə Şahdəniz qazının Gurcüstandan keçərək Türkiyəyə satılması nəzərdə tutulur. Yəni boru xəttinin fəaliyyətə keçəcəyi ilk mərhələ olan 2018-ci ildə Türkiyə ildə 6 milyard kubmetr təbii qaz satın alacaq.

2. Xəttin tutumuna Birinci Artım Mərhələsi

İkinci mərhələ olaraq 2020də xəttin tutumunun illik 16 milyard kub metrə çatması nəzərdə tutulur. Bu mərhələdə Şahdəniz-2 konsorsiumunun çıxaracağı 16 milyard kub metrlik təbii qazın, 6 milyard kub metrlik qisimi Türkiyəyə satılacaq, 10 milyard kub metrlik qisimi isə Avropaya ixrac ediləcəkdir.

3. Xəttin tutumuna İkinci Artım Mərhələsi

Üçüncü mərhələdə isə 2023-ci ildə xəttin tutumunun illik 23 milyard kubmetr ilə çatması nəzərdə tutulur.

4. Yekun Mərhələ

Nəhayət dördüncü mərhələdə 2026-ci ildə xəttin tutumunun illik 31 milyard kub metrə qədər çatması nəzərdə tutulur.

Sonrakı mərhələlərdə təbii qaz qaynaq və ehtiyac dəyişməsinə bağlı olaraq, TANAP layihəsi çərçivəsində təbii qazın illik ixracı-nın 50 milyard kub metrə qədər çatması nəzərdə.

TANAP'ın İqtisadi nəticələri

Şahdəniz-2 qazının Avropa bazarlarına nəqlinə dair dörd fərqli alternativ layihə gündəmə gətirilmişdi. Bu layihələr "Böyük Nabucco", "Trans-Adriatik", İTGİ (Türkiyə-Yunanıstan-İtaliya) və SEEP (Cənub Şərqi Avropa) projeleriydi. Avropa Birliyi və ABŞ tərəfindən dəstək verilən layihə isə Böyük Nabucco Projesiydi. Bu layihənin maliyyəsinə bağlı yaşanan problemlərin, qeyri müəyyənliklərin yanı sıra strateji baxımdan edəcəyi təsirlərdən dolayı bəzi ölkələrin qarşı çıxması, bəzi ölkələrində tərəf olub-olmama nöqtəsində rəy bəyan etməmə vəziyyəti layihənən reallaşmasına mane oldu. Hətta qaynaq təchizatçısı ölkələrin başında yer alan Azərbaycanın da mövqeyi iqtisadi və strateji səbəblərlə qeyri-müəyyənlik daşımaqda idi. TANAP-la bağlı Türkiyə və Azərbaycan arasında son razılaşmanın ardından Nabucco konsorsiumu Böyük Nabucconu Nabucco Qərb Layihəsi olaraq revize etmək məcburiyyətində qaldı. Axtarışa bu tarixdən etibarən nəticəsində 3440 kilometr olaraq nəzərdə tutulan Böyük Nabucconun Türkiyə hissəsinin TANAP'a çevrilməsiylə, Nabucco Qərb Layihəsi qısalmış oldu. Nabucco Qərb Təbii qaz Boru Hattı'nın nəzərdə tutulan uzunluğu isə 1300 kilometrdir. Nabucco konsorsiumunun TANAP'a müsbət baxışı və Avropa bazarlarına Şahdəniz-2 qazının ixracı üçün TANAP'a əlavə olaraq təklif etdiyi Nabucco Qərb Layihəsi də Azərbaycan tərəfindən qəbul edilmiş oldu.

Azərbaycan baxımından isə ölkənin sahib olduğu təbii qaz qaynaqlarının yeni bazarlara ixracında böyük iqtisadi qazanımları özü gətirmkdədir. TANAP'daki hissənin 68%-inin Azərbaycana aid olduğu son vəziyyətə görə Azərbaycan təbii qazını Türkiyə ərazisindən özü daşımış kimi olacaq. Çünki Azərbaycan təbii qazın Avropa bazarlarına nəqlinə əldə ediləcək gəliri də özü əldə etmək istəyirdi. Beləcə Azərbaycanın uzun illər Böyük Nabuccoya müsbət bakmamasının önündəki iqtisadi maneələrdən biri də aradan qalxmış oldu. Yəni Azərbaycan Şahdəniz-2 qazının Avropa bazarlarına həm satışından həm də nəqlindən gəlir əldə edəcək.

Bu layihənin həyata keçirilməsinə dair işlər Türkiyədə yeni məşğulluq imkanlarının meydana gəlməsi baxımdan əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyə əməkdaşlıq ilə Petkim'də də böyük bir refineri layihəsinin təməli qoyulmuşdur. İki böyük layihə nəzərə alındığında SOCAR olaraq Türkiyəyə Azərbaycanın qoyacağı investisiya miqdarı 17 milyard dollara çatacaq. Beləcə Türkiyə sənayesinə investisiya edən ən böyük ölkə Azərbaycan, ən böyük şirkət də SOCAR olacaq. Bakı-Tiflis-Ceyhan və Bakı-Tiflis-Ərzurum boru Xəttlərinin ardından, TANAP və Petkimdə rafineri layihəsinə bağlı Türkiyə ilə etdiyi

razılaşmalarla Azərbaycan, Türkiyənin bölgədə həm enerji dəhlizi olma həm də əsas enerji təchizatçısı olmasına əhəmiyyətli iqtisadi və stratejik ortaqlıq etmiş olmaqdadır.

İqtisadi olaraq müxtəlif yönlərdən əhəmiyyət daşıyan bu layihənin reallaşması durumunda, bu xəttdən gedəcək təbii qazın bir qismi (6-10 milyard kubmetr) Türkiyə bazarında qalacaq, əhəmiyyətli bir qisimi (10-25 milyard kubmetr) isə Avropa ölkələrinə satılacaqdır. Türkiyə içi çıxış nöqtələri nəzərə alaraq, Trans Anadolu Xətti Türkiyə Milli Transmissiya Xəttinin qərb hissəsini bəsləyərək, qərb bölgəsi enerji təhcizatı təhlükəsizliyini qüvvətləndirəcək bir xətt olacağı da görülməkdədir.

Böyük Nabucco layihəsinin, TANAP və Nabucco Qərb olaraq iki hissəyə ayrılmasının iqtisadi səbəblərinin xaricindən strateji bəzi nəticələri da söz mövzusudur. TANAP başda Türkiyə və Azərbaycan olmaq üzrə bölgə ölkələri və Avropa ölkələri baxımından çox böyük strateji əhəmiyyətə malikdir.

Şahdəniz yatağındakı təbii qaz potensialı 1,2 trilyon kubmetr olan Azərbaycanın sahib olduğu digər mənbələrdəki təbii qaz potensialı isə təxminən 2,6 trilyon kubmetrdən çoxdur. Şahdəniz yatağının yanı sıramevcut və olabiləcək digər təbii qaz yataqlarının potensialı də nəzərə alındığında Azərbaycanın 2020-2025 illəri arasında təbii qaz istehsalının 50 milyard kubmetrə çatacağı təxmin edilməkdədir. Bu təxminlər Nabucco Qərb vasitəsiylə Avropa bazarlarına daha çox miqdarda təbii qazın ixracı üçün Azərbaycanı əhəmiyyətli bir təbii qaz tədarükçüsü mövqesinə gətirir.

Layihənin yalnız Türkiyə və Azərbaycanın maliyyə və texniki imkanları icra olması, layihəni Türkiyə-Azərbaycan özelinde reallaşdırılacaq bir layihə mövqesinə gətirmişdir. TANAP, Türkiyə və Azərbaycanın enerji nəqli mövzusunda Avropa bazarına birlikdə çıxması mənasını da gəlir.

TANAP əvvəlki Bakı-Tbilisi-Ceyhan və Bakı-Tiflis-Ərzurum boru xəttlərinə əlavə olaraq Xəzər hövzəsi enerji qaynaqlarının Qərb bazarına çatdırılmasında Türkiyənin əhəmiyyətli bir alternativ enerji dəhlizi olduğuna bağlı mövqeyini gücləndirmişdir.

ALTINCI FƏSİL

İQTİSADİYYATDA "HOLLAND SİNDROMU" VƏ ONA QARŞI TƏDBİRLƏR

Azərbaycanda investisiyaların daha çox neft sektoruna qoyulması və bu istiqamətdə ÜDM-in əsas bir hissəsini neft gəlirlərinin əmələ gətirməsi təhlükəlidir. Bütün diqqətlərin sadəcə enerji qaynaqlarına istiqamətləndirilməsi iqtisadiyyat üçün risk deməkdir. Bu isə, iqtisadiyyatın bəzi maliyyə dalğalanmalarına məruz qala biləcəyi ehtimalını meydana gətirir. Neft sektorunun tək tərəfli inkişafı səbəbi ilə dünya bazarlarındakı qiymət dəyişiklikləri, ÜDM, büdcə və xarici ticarət üzərində də dalğalanmalara səbəb olur.

6.1. HOLLANDİYA XƏSTƏLİYİ

Ümumi mənada "Hollandiya Xəstəliyi"; bir ölkə iqtisadiyyatında bir sektorun sürətli inkişafı qarşısında digər sektorların geri qalması və ya çökməsi olaraq ifadə edilə bilər.

Dar mənada isə; sadəcə təbii ehtiyatlara bağlı neft sənayesi üstünlüklü böyümə mərhələsi və bu sektorun çox istifadəsinin yaratdığı iqtisadi strukturun, digər sənayelərin sağlam inkişafını əngəlləməsidir. Elmi ədəbiyyatlarda Holland Sindromu ya da xəstəliyi[193] olaraq məlum olan bu vəziyyət mövcud olduğu ölkənin qeyri-mütənasib iqtisadi böyüməsinə işarə edir.

Hollandiya xəstəliyi üç fərqli tərəfdən makroiqtisadi stabilliyin dağılmasına istiqamətlənmiş təsir göstərir[194]: Birincisi "oil boom" ilə birlikdə milli valyutaya olan tələb artması zamanı milli bank inflyasiyanı nəzarət altında tutmaq

---

[193] *Hollandiya Xəstəliyi* (Dutch Disease) bir təbii qaynağın kəşfi ya da həddən artıq istifadəsi nəticəsində bir iqtisadiyyatın sənayesizləşdirilməsi mənasına gəlir. 1960-cı illərdə Şimal dənizində təbii qaz yataqlarının tapılmasından sonra Hollandiyada ortaya çıxdığı üçün bu şəkildə adlandırılmışdır. Hollandiya Sindromunu İngiltərə, Norveç, Meksika, Nigeriya kimi ölkələr neft hasilatı, Kolombiya qəhvə istehsalı, Fil Dişi Sahilləri qəhvə, kakao və meşə materialları istehsalı, Zambiya və Zair isə dəmir filizi istehsalı ilə əlaqədar olaraq yaşamışdır. Bxn: Y. Həsənli, "Neft Gəlirlərinin Azərbaycanın İqtisadiyyatına Təsirinin Səmərəlilik Problemləri – Valyuta Böhranı: 'Dağıdıcı Artım', 'Holland Xəstəliyi' və Asiya Maliyyə Virusu", Q*loballaşma Prosesində Qafqaz və Orta Asiya Beynelxalq Konfransın Materialları*, Bakı, 2003, s.217; V. A. Hüseynov, v.d., *Manatın Bahalaşması və İqtisadi İnkişaf: "Hollandiya Xəstəlyi"nin Məzmunu və Əlamətlərinin Tədqiqi*, Səda Nəşriyyatı, Bakı, 2005, ss.7-8.

[194] C. B. Rosenberg and T. O. Saavalainen, "Dealing with Azerbaijan's Oil Boom*", Finance and Development,* Vol.35, No.3, September-1998, ss.35-36; Osman Nuri Aras, "Geçiş Sürecinde Azerbaycan'da Yaşanan "Hollanda Sendromu" ve Çözüm Önerileri", *Nəsrəddin Tusinin 800 İllik Yubileyinə Həsr Edilmiş Respublika Elmi Konferans Materialları*, Bakı, 2-3 Aprel 2001, ss.130-133.

arzusu ilə sterilizasiya siyasətlərində könülsüz hərəkət edərək real valyuta məzənnəsinin (xarici valyuta qarşısında milli valyutanın dəyəri) həddindən artıq yüksəlməsinə göz yuma bilər. İkincisi, neft gəlirlərinin miqdarı və yığılmasına dair qeyri-müəyyənliklər ödəmələr-tədiyyə balansı stabilliyinin davamlı olmasının risqə atılmasına və xüsusi əhəmiyyəti olmayan xarici borc müqavilələrinin imzalanmasına və xarici borc yükünün artmasına səbəb ola bilər. Üçüncü olaraq, nəzərdə tutulmayan gəlir axımları; hökümət xərcləri üzərində "ratchet təsiri" yarada bilməkdə və ölkənin maliyyə siyasətinin inkişafına dair bir vəziyyət almasına səbəb ola bilər. Neft gəlirlərinin asanlıqla əldə edilməsi dövlətin xərcləmə siyasətinin zəifləməsinə də səbəb ola bilər. Məsələn, əlavə neft gəlirinə paralel olaraq dövlət xərclərinin səviyyəsinin artırılması, neft qiymətlərinin aşağı düşməsi nəticəsində dövlət büdcəsinə mənfi təsir göstərəcək və uzun müddətli büdcə kəsirləri xarici borcların və faiz ödəmələrinin artmasına səbəb olacaqdır.

Klassik Hollandiya Xəstəliyi arqumenti neft sektoru və qeyri-neft sektorlarıyla xarici ticarətə aid olmayan sektorlar arasındakı qeyri-mütənasib böyümə üzərində cəmləşir. Hollandiya Xəstəliyinə görə, təbii ehtiyatların sıx olaraq istifadə edilməsinin iqtisadiyyatın xarici ticarətə aid olan digər sahələrinə mənfi təsiri iki şəkildə özünü göstərir. Birincisi, xərclərin artması təsiridir: Əgər enerji ehtiyatlarından əldə edilən gəlir xaricdə tutulmaz və maliyyə yolları ilə birbaşa və ya dolaylı olaraq xarici ticarətə aid olmayan mallara xərclənərsə, bu malların qiymətləri xarici ticarətə aid olan malların qiymətləri ilə müqayisə edildikdə artacaq və real təsir valyuta məzənnəsinin yüksəlməsi olaraq özünü göstərəcəkdir. Bu da ənənəvi xarici ticarətə aid olan sahələrə zərər verəcəkdir. Nəticə olaraq xarici tədiyyə balansı pozulacaqdır. Belə ki, enerji ehtiyatlarının ixracının daha sonrakı mərhələsində qiymətin yüksəlməsinə baxmayaraq gələcəkdə enerji ehtiyatı gəlirlərinin artacağının gözlənilməsi daxili istehlak və idxalı maksimum səviyyəyə çıxardacaq, qeyri-neft sektorlarının ixrac həcmini azaldacaqdır.

Azərbaycan nümunəsinə baxdıqda xarici ticarətə aid olmayan sektorların (pərakəndə ticarət, restoran və otel kimi) UDM içindəki payının neft hasilatçısı olmayan keçid ölkələrindəkindən daha sürətli inkişafını görmək olar[195].

İkinci təsiri isə, istehsalda ən vacib faktorlardan biri olan əməyin sektorlararası paylanması yolu ilə olacaqdır. İnkişaf etməkdə olan sektorda əmək haqqlarının qalxması səbəbi ilə, adı çəkilən sektor iqtisadiyyatın digər sektorlarındakı təcrübəli kadrları özünə çəlb edəcəkdir. Nəticədə digər sektorlarda təcrübəli kadrların azalması istehsalın da aşağı düşməsinə səbəb olacaqdır.

Enerji sektoruna bacarıqlı iş gücü və təchizatların axımı digər sektorların inkişaf potensialına mənfi təsir göstərəcəkdir. Neft sektoru ilə qeyri-neft sektorları arasında meydana gələn parçalanmanın artması, adı çəkilən sektorlarda sərbəst bazar mexanizminin işləməsinə əngəl törədir.

[195] C. B. Rosenberg and T. O. Saavalainen, ss.36-38.

İqtisadiyyatın sadəcə enerji sektorundan asılı olması sosial-iqtisadi sahədə bəzi mənfi nəticələr meydana gətirə bilər.

Neft gəlirlərinin idxal mallarının alınmasında xərclənməsi, xüsusilə investisiya malları əvəzinə istehlak mallarının idxal edilməsi halında ölkənin ticarət balansında da kəsirlər yaranacaq.

İqtisadiyyatın Hollandiya sindromuna düşməsinin qarşısını almaq məqsədilə qeyri-neft sektorunda istehsal artırılmalı və yeni iş yerlərinin açılması üçün lazımi investisiya mühiti yaradılmalıdır.

Neft qiymətlərinin qeyri-sabit olması səbəbiylə hökümət daha təmkinli siyasət yeridərək ehtiyatlardan istifadəni qiymətlər qalxdığı zaman qaldırmalı, qiymətlər aşağı düşdükdə isə tələbə görə müəyyənləşdirməlidir. Ehtiyat fondunun yaradılması isə amortizasiya rolunu yerinə yetirəcək.

Qısacası, "Holland Sindromu" enerji ehtiyatlarının artımının uyğun olmayan bir siyasətlə yeridilməsinin mənfi təsirlərini ifadə edir. Neft sektoru xaricində inkişafa dair digər sektorlara lazımi əhəmiyyətin verilməməsi nəticəsində qeyri-mütənasib bir artım meydana gələcəkdir. Real valyuta kurslarının yüksəlməsi digər xarici ticarəti mümkün olan sektorların rəqabət etmə qabiliyyətinə təsir edəcəkdir. Neft sektorunun artımı ilə bağlı olaraq əmək haqqı və qiymət çəkişməsi qeyri-neft sektoru ilə müqayisədə arta bilər və nəticədə əmək bazarı ilə qiymətlər arasındakı balans pozula bilər. Məsələn, Azərbaycanda 1994-cü ildən etibarən real valyuta kursundakı artım, digər Müstəqil Dövlətlər Birliyi ölkələrindəki artımdan daha yüksək olmuşdur.

6.2. AZƏRBAYCANDA HOLLANDİYA SİNDROMU VƏ FƏSADLARI

Aparılan bir araşdırmada[196] da görüldüyü kimi Hollandiya Xəstəliyinin yeddi əsas göstəricilərindən bəziləri Azərbaycanda müşahidə olunur. Bunların arasında milli valyutanın bəzi illərdə xarici valyuta qarşısında həddən artıq dəyər qazanması, ixrac mallarının rəqabət gücünün azalması, istehsal faktorlarının marjinal faydalılığının maksimum olduğu vaxtlarda belə dağılımdan uzaq olması, ümumilikdə iqtisadiyyatın, xüsusi olaraq da neft sənayesinin tək tərəfli inkişafı, tələbin idxaldan asılı olması, büdcənin neft gəlirlərindən asılı olması kmi xususlar göstərilə bilər.

İxracatda digər sektorlarda artımın müşahidə olunmasına baxmayaraq, ölkənin keçid dövründə iqtisadiyyatında bir tənəzzül yaşandığı və hələ yenicə tərəqqi prosesində olduğu nəzərə alınarsa, ixrac məhsullarında həqiqi mənada rəqabət üstünlüyünə sahib olub-olmaması nöqtəsində səhv nəticəyə gəlmək olar.

---

[196] Bxn: V. A. Hüseynov, v.d., *Manatın Bahalaşması və İqtisadi İnkişaf: "Hollandiya Xəstəlyi"nin Məzmunu və Əlamətlərinin Tədqiqi*, Səda Nəşriyyatı, Bakı, 2005.

Azərbaycanın böyük miqdarda sərmayə qoyuluşuna ehtiyacı olan qeyri–neft sektorlarında sərmayə qoyuluşlarından kifayət qədər faydalana bilmədiyini ifadə etmək olar.

İqtisadi siyasətdə şəffalıq, uzaqgörənlik və ehtiyatların səmərəli paylanmasına qərar verərkən ilkin olaraq diqqətə alınmalıdır ki, neft sektorunun sürətli inkişafından sərbəst bazar mexaznizminə keçid zamanı maksimum səviyyədə istifadə edilə bilsin. Azərbaycan iqtisadiyyatına xarici sərmayə axımının artırılması və onların mühafizəsi üçün bütün şərtlərin yerinə yetirilməsi ölkənin iqtisadi siyasətində prioritet təşkil etməlidir. Bu önəmli bir nöqtə olaraq hər zaman ölkənin diqqət mərkəzində olmalıdır.

Qısa olaraq, Azərbaycanın dünya iqtisadiyatına inteqrasiyasında və ölkəyə xarici sərmayənin çəkilməsində yalnız neft sektoruna istinad etmək səhvdir. Ölkənin illik ixracının 90%-ə qədərini neft və neft məhsulları təşkil edir; əgər neft müqavilələri çərçivəsində ölkəyə gətirilən istehsal texnologiyasının üstünlük təşkil etdiyi məhsullar diqqətə alınmazsa, idxalın yarısına qədərini kənd təsərrüfatı məhsulları təşkil edir. Əslində, Azərbaycanın təbii-iqlim və torpaq vəziyyəti ölkədə kənd təssərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbin ödənməsi ilə yanaşı ixrac etmək üçün də istehsal etməyə imkan verir. Buna görə də qeyri-neft sektorlarına xarici sərmayənin çəkilməsi üçün lazımi şərtlərin yerinə yetirilməsi vacibdir[197].

Ölkə iqtisadiyyatında Holland Sindromu, sindromun ilk göstəriciləri və görülməli olan tədbirlər, xüsusilə neftin ixracına başlandığı 2005-ci ilin sonlarından etibarən daha da əhəmiyyət qazanmışdır.

Hollandiya Xəstəliyi təhlükəsi ilə yanaşı qoyulan investisiyaların demək olar ki, hamısının Abşeron regionunda, hətta Bakıda cəmləşməsi nəticəsində digər regionlarda xarici investisiyanın yox deyiləcək qədər az olması da Azərbaycan iqtisadiyyatı üçün ciddi bir təhlükədir. Halbuki ölkədə bir çox region xarici investisiyaların fəaliyyəti üçün; güclü istehsal və elmi-texniki potensialın yaradılması, mütəxəsis kadrların olması və təşkili, zəngin bioloji və mineral ehtiyatların mövcud olması, istehsal və istehlaka dair təçhizat məhsullarının geniş bir bazara sahib olması, əlverişli geo-siyasi vəziyyət, nəqliyyat və coğrafi mövqedəki üstünlüklər və İpək Yolunun yenidən bərpası kimi bir çox əlverişli şərtlərə sahibdir[198].

Yığılan vergilərin təqribən 90%-i Bakının payına düşür. Naxçıvan, Gəncə, Mingəçevir və Sumqayıt kimi şəhərlər də daxil olmaqla yığılan vergilərin geri-

---

[197] Ariel Cohen, "Caspian Basin Confronts Boom and Bust Energy Cecle", http://www.sibnet.tm/article.php?sid=7334&mode=thread&order=0&thold=0 (04.04.2005); Mehdiyev, s.24.

[198] Zərifə Musayeva, "Böyük İpək Yolu və Azərbaycan Nefti", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.34-46; Şaulov, s.91.

yə qalan təqribən 10%-i isə, Azərbaycanın Bakı xaricindəki digər şəhərlərinin payına düşür. Əslində bu göstəricilər başqa cür dəyərləndirildikdə, Bakı xaricindəki regionların ağır iqtisadi vəziyyətdə olduğunu göstərir[199].

Əslində Azərbaycan iqtisadiyyatı daxili bazar baxımından kifayət qədər potensiala sahibdir. Bu da istehsalın müxtəlif sektorlarda artmasına zəmin hazırlayır. Bundan əlavə Azərbaycanın zəngin sərvətlərinin dünyada, xüsusilə Avropa ölkələrində iqtisadi inkişafın zəruri tələblərinə uyğun olaraq bütövlüklə qəbul olunması, beynəlxalq səviyyədə uzun müddət məqbul sayılacaqdır. Bundan əlavə bəzi ölkələrdə baş verən iqtisadi durğunluq nəticəsində sərmayədən istifadənin məhdud hala gəlməsi bəhs olunan sərmayənin Azərbaycan iqtisadiyyatına istiqamətlənməsinə də imkan verəcəkdir[200]

6.3. HOLLANDİYA XƏSTƏLİYİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Ölkədə Hollandiya Xəstəliyinə qarşı siyasi, nəzəri, makroiqtisadi, sektorlar və regional səviyyədə müxtəlif tədbirlər görülür və görülməyə çalışılır. Regional sosyo-iqtisadi inkişaf proqramı ilə qeyri-neft sektorlarının və Bakı xaricindəki digər regionların inkişafına dair fəaliyyətlərə regional analiz fəslində toxunulmuşdur. Aşağıda isə, digər tədbirlərdən olan Dövlət Neft Fondundan və hələ layihə şəklində olan Sərbəst Bölgələrdən bəhs ediləcəkdir.

6.3.1. Dövlət Neft Fondu

Ölkədə neft gəlirlərinin artmasının müqabilində xalqın həyat səviyyəsində arzu edilən səviyyədə müsbət dəyişikliklər müşahidə olunmur. Bu səbəblə Azərbaycan hökuməti ilə Beynəlxalq Valyuta Fondu (BVF) arasında neft gəlirlərindən daha səmərəli istifadə edilməsi haqqında müxtəlif dövrlərdə fikir mübadilələri aparılmışdır.

Neft gəlirlərinin ölkənin sosyo-iqtisadi inkişafına və xalqın həyat səviyyəsinə təsiri diqqətə alınarsa, neft sənayesi üzrə mütəxəssisləşmiş ölkələrin vəziyyəti çox da ürək açan deyil. Neft gəlirlərindən səmərəli istifadə edilməyən ölkələrdə həyat səviyyəsi sürətlə aşağı düşmüşdür. 1971-89-cu illərdə dünyanın 97 ölkəsində iqtisadi inkişaf və təbii ehtiyatlar arasında aparılan müqayisəli analizin nəticələri ziddiyyət təşkil etmişdir. Belə ki, nisbətən yuxarı səviyyədə olan 18 inkişaf etməkdə olan ölkə arasında təbii ehtiyatlarla zəngin olan ölkə sayı sadəcə 2-dir. Bu ölkələr Malaziya və Mavritaniyadır. Dünya Bankı statistikasına görə, 1965-ci ildən 1998-ci ilə qədər keçən dövrdə adam başına düşən ÜDM-dəki illik azalma sürəti İran və Venesuelada 1%, Küveyt və İraqda 3% olmuşdur. Qətərdə isə, 1970-1995-ci illərdə bu nisbət 6% olmuşdur. OPEC üzvü olan ölkələrdə əsasən adam başına düşən ÜDM-nin həcmi son 30 ildə artma-

[199] Nazim İmanov, s.36.
[200] Nadirov, s.2.

mış, əksinə ildə təqribən 1.3% azalmışdır. Bu vəziyyət sadəcə OPEC ölkələrində müşahidə olunmur. Son 20 ildə zəngin təbii ehtiyatlara sahib ölkələr kateqoriyasında olan 65 ölkədən 4-ü əsas sərmayə istiqamətləndirilən investisiyaların həcmini ÜDM-nin 25%-i səviyyəsinə çıxarda bilmişdir. Bu ölkələrin illik adam başına düşən ÜDM artım sürəti 4%-dən az olmamaq şərti ilə həyata keçməkdədir. Bunlar İndoneziya, Malayziya və Taylanddır. Bu ölkələr arasında yalnız İndoneziyanın nisbətən zəngin neft ehtiyatı var. Cənub-Şərqi Asiyada təbii ehtiyatları məhdud olan Honq Konq, Sinqapur, Cənubi Koreya və Tayvan kimi ölkələr isə daha yüksək artış göstərmişdir.Təbii ehtiyatlarının həcmi ilə ölkədə müşahidə olunan tərs mütanasiblik fərqli səbəblərlə izah edilir. Bu münasibətin əsas səbəblərindən biri "Holland Sindiromu"dur.

Hollandiya Xəstəliyinə aid bəzi xüsusiyyətlər Azərbaycanda da müşahidə edilsə də, ölkədə yaşanan keçid dövrü, ölkənin sərbəst bazar iqtisadiyyatına keçid ölkəsi olması səbəbiylə fərqlilik göstərdiyi də diqqət çəkir. Azərbaycanda da bir sektorun inkişafı digər sektorların maliyyə mənbələrini özünə çəkir. Statistik rəqəmlərə əsasən Azərbaycan ixracının 90%-ini yalnız neft və neft məhsulları təşkil edir. 2014-ci ildən neft qiymətlərinin tədricən 140-150 dollardan 30-40 dollara düşərək ölkənin neft gəlirlərinin ciddi azalması fonunda ortaya çıxan iqtisadi problemlər bunu bir daha sğbut etdi. Neft gəlirlərinin azalması başda maliyyə-bank sektoru olmaqla, tikinti, turizm, xidmət və diğər sektora ciddi mənfi təsir göstərdi.

Zəngin təbii ehtiyatları ilə ölkədə iqtisadi inkişaf arasında müşahidə olunan tərs münasibətin başqa bir mexanizmi istehsal sektoru meyarlarının əhalinin təhsil səviyyəsinə və bəşəri sərmayəyə mənfi təsiridir. Bu ehtiyatların mənimsənilməsindən əldə olunan gəlirin böyük bir qismi məşğulluq gəliri ilə əlaqəli deyil və istehsal sahələri məhsuldar qəbul edilmir. Burada yüksək səviyyədə mütəxəssisləşmiş iş gücünə tələb də az olur. Bu sahə üzrə mütəxəssisləşən insanların həm təhsili istənilən səviyyədə deyil, həm də onların əməyindən qeyri-neft sektorlarında istifadə etmək mümkün olmur. Ancaq bu zəngin təbii ehtiyatların iqtisadi stabillik və inkişaf qarşısında duran maneə olduğu mənasına gəlmir. Sadəcə təbii ehtiyatların olması böyük risk deməkdir və bu halda hökümətlərin iqtisadi siyasətlərini daha diqqətli müəyyən etmələri vacibdir. Bəzi ölkələr bu məsələni stabillik fondlarının təşkil olunması yolu ilə həll etməyə çalışırlar. Bu cür fondlar müəyyən dövrlərdə yüksək miqdarda əlavə gəlir əldə etməyə imkan verən fondlar olaraq formalaşdırılır. Bu fondlar arasında Norveç Dövlət Fondunun, Venesuela Makroiqtisadi İstiqrar Fondunun təcrübəsi Azərbaycan üçün əhəmiyyət kəsb edir. Norveç Neft Fondunun təcrübəsi uzun müddətdə həm stabillik, həm də yığım Venesuella Makroiqtisadi İstiqrar Fondu isə, ölkə iqtisadiyyatını və büdcəsini neftin qiymət dəyişikliyinə qarşı sığortalama funksiyasına görə diqqətə layiqdir. Bu fondların üzərində məclis nəzarətinin olması da əhəmiyyətlidir.

Azərbaycanda xarici şirkətlərlə imzalanan müqavilələr çərçivəsində hasil edilən neftdən əldə edilən gəlirlər Dövlət Neft Fondunda (DNF) yığılır.

Fond, 29 dekabr 1999-cu ildə mərhum prezident Heydər Əliyevin verdiyi sərəncamla qurulmuşdur. Fondun idarə edilmə qaydaları BVF mütəxəssisləri ilə birgə hazırlanmışdır.

DNF, neft və təbii qazın axtarılması, çıxarılması və hasilatının bölüşdürülməsi mövzusunda ARDNŞ ilə xarici neft şirkətləri arasında imzalanan müqavilələrin yerinə yetirilməsindən və Azərbaycanda, xüsusilə Xəzərin Azərbaycan sektorunda neft və təbii qaz ehtiyatlarının axtarılması mövzusunda imzalanan müqavilələrin yerinə yetirilməsindən Azərbaycanın əldə edəcəyi gəlirin toplanması məqsədi ilə qurulmuş olan bir fonddur. Bu səbəblə, Dövlət Neft Fondunda yığılan pulların Azərbaycanın sənaye, kənd təsərrüfatı və sosial investisiya sahələrində istifadə olunması planlaşdırılmışdır[201].

Fəaliyyətə başladığı 2001-ci ilin yanvar ayından etibarən Dövlət Neft Fondu hər üç aydan bir gəlir və xərclər haqqında məlumat verir. 2004-cü ildə Neft Fondunun gəlirləri 1614.3 milyard manat, xərcləri isə 871.2 milyard manat olmuşdur (Denominasiyadan əvvəl). Bununla da 2016-ci ilin əvvələrində Azərbaycan Dövlət Neft Fondunda 120 milyard manatdan artıq vəsait yığılmışdır. Quruluşundan etibarən Fonddan 85 milyard manata yaxın vəsait xərclənmişdir ki, ondan 80 milyard manatı dövlət büdcəsinə transferlər olmuşdur. Dövlət Neft Fondu gəlirləri içərisində "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadəsi ilə əlaqədar müqavilələrə görə neft satışından əldə edilən gəlir ən böyük paya sahibdir.

Dövlət büdcəsinə transfertlər. 2014-cü ildə Neft Fondunun büdcə xərclərinin mühüm hissəsini (92%) dövlət büdcəsinə transfert təşkil etmişdir. 2014-cü ildə Neft Fondundan dövlət büdcəsinə 9337,0 milyon manat məbləğində vəsait köçürülmüşdür. 2003-2016-cü illər ərzində Neft Fondundan dövlət büdcəsinə edilən transfertlərin ümumi məbləği səksən milyard manatdan artıq olmuşdur. Umumiyyətlə bu transferin həcmi 2016 ci ilə qədər büdcənin yarıdan çoxu olmuşdur. 2016-cı il büdcəsində neft qiymətlərinin azalmasından dolayı bu transferin həcmi əvvəlki illərdən 40% azalaraq altı milyard manat olmuşdur.

Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyəti nin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi. Qaçqın və məcburi köçkünlərin sosial məişət şəraiti nin yaxşılaşdırılması məqsədi ilə Neft Fondu tərəfi ndən vəsaitlərin ayrılması 2001-ci ildən etibarən başlamış və 2017- ci ildə də davam etdirilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması məqsədi ilə salınmış qəsəbələrdə fərdi evlərin, hündürmərtəbəli binaların, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisi məqsədi ilə 2001-2015-cü illər ərzində 1 757,8 milyon manat vəsait ayrılmışdır. Bu dövrdə 25 403 məcburi köçkün ailəsi 62 qəsəbədə tikilmiş fərdi evlərdə yerləşdirilmişdir. 2015-cü ildə bu məqsədlə ayrılmış vəsaitin məbləği 300 milyon manat təşkil etmişdir.

[201] Natiq Əliyev, s.84.

Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi. Əsas məqsədi Bakı və Sumqayıt şəhərlərinin su təchizatı sistemləri üçün sabit su sərfi nə malik etibarlı su mənbəyi yaratmaq, suyun əqlində mövcud enerji sərfi ni aradan qaldırmaq və bunun müqabilində 25 MVT gücündə enerji istehsal etmək olan "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliy yələşdirilməsi 2006-cı ildən başlamış və 2014-cü ildə də davam etdirilmişdir. Layihəyə 2006-2014-cü illər ərzində 1 149,6 milyon manat vəsait ayrılmışdır. Layihənin sifarişçisi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə (AMST ASC) NeftFondu tərəfindən 2013-cü ildə "yanaşma yollarının tikintisinə 0,5 milyon manat, "Taxtakörpü su anbarının Su Elektrik Stansiyası ilə birgə tikintisinə 21,48 milyon manat, "Taxtakörpü-Ceyranbatan kanalının tikintisinə 3,27 milyon manat, "Vəlvələçay-Taxtakörpü kanalının tikintisinə 2,59 milyon manat, "Şimal çaylarında sugötürən qurğuların və nəqledici kanalların tikintisinə 2,7 milyon manat, layihənin İşçi Qrupunun saxlanılmasına 0,68 milyon manat vəsait ayrılmışdır. 2014-cü ildə ayrılmış vəsaitin ümumi həcmi 80,2 milyon manat olmuşdur. 2014-cü tarixli aktı ilə Taxtakörpü su anbarı su elektrik stansiyası ilə birgə tikintisi obyekti, Taxtakörpü su anbarına yanaşma avtomobil yollarının tikintisi, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanalları istismara qəbul edilmişdir.

Türkiyə Respublikasında "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi. 2013-cü ildə Neft Fondu əvvəlki illərdə olan layihələrin maliyyələşdirilməsi ilə yanaşı yeni layihələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə vəsaitlər ayırmışdır. "STAR" neft emalı kompleksinin tikintisi layihəsi də 2013-cü ildə başlamış yeni layihələr içərisindədir. Nizamnamə kapitalı 1,9 milyard ABŞ dolları təşkil edən bu layihənin səhmlərinin 40%-i (760 milyon ABŞ dolları) Neft Fondu tərəfindən maliyyələşdirilir. 2014-cü ildə Neft Fondu tərəfindən 223,5 milyon manat və yaxud 284,71 milyon ABŞ dolları məbləğində vəsait "SOCAR Türkiyə Ege" Neft Emalı Zavodu layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə yönəldilmişdir.

İnsan kapitalının inkişaf etdirilməsi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünya reytinqlərində aparıcı yerləri tutan universitetlərdə təhsili maliyyələşdirilir. Bu proqram çərçivəsində xaricdə təhsil alan gənclərin təhsil haqqı, yaşayış, qida, yol, sığorta və digər xərcləri maliyəiyləşdirilir. 2008-2015-ci illər ərzində Neft Fondunun vəsaiti hesabına 2867 tələbə xarici ölkə universitetlərində təhsil almaq məqsədi ilə göndərilmişdir.

Dövlət Neft Fonduna daxil olan ehtiyatların mühim bir hissəsi "Bakı-Tbilisi-Ceyhan" boru kəmərinin inşasında ARDNŞ-ın hissəsinin maliyyələşdirilməsinə (298 milyon manat) və məcburi köçkünlərin sosial yaşayış şəraitinin yaxşılaşdırılmasına 647 milyon manat xərclənmişdir. Neft Fondundan ayrılan ilk xərclər ölkədə ən çətin və ağır vəziyyətdə yaşayan məcburi köçkünlərin sosial problemlərinin həllinə istiqamətləndirilmişdir. Məcburi köçkünlərin problemləri Azərbaycan üçün ən vacib problemlərin başında gəlir. Ermənistanın təcavüzündən sonra doğulub böyüdükləri torpaqlardan uzaq düşən insanlar daim dövlət idarəçilərinin diqqət mərkəzindədir. Qaçqın və məcburi köçkünlər üçün yeni yaşayış yerləri, xəstəxanalar, məktəblər və digər müəssisələr Neft Fondu ehtiyatları ilə maliyyələşdirilir.

Neft gəlirlərinin məhsuladar istifadəsi istiqamətində qəbul edilən yeni modeldə Dövlət Neft Fondunun ehtiyatlarının effektiv istifadəsi üçün müəyyən hissəsinin valyuta ehtiyatları şəklində bank depoziti olaraq mühafizəsi ilə birlikdə ehtiyatların bir hissəsinin də ölkədə kənd təsərrüfatı və emalat sektoruna aşağı faizlə kredit şəklində verilməsi düşünülə bilər. Burada Neft Fondunun ehtiyat və istehlak fondu olmaqla ikiyə bölünməsi nəzərdə tutulur.

Əlbəttə ideal şərtlərdə neft fondundakı ehtiyatlar cari xərclərə deyil, investisiyaya istiqamətləndirilməlidir ki, investisiyadan əldə edilən gəlir neft qiymətləri azaldıqda zərəri tənzimedici olsun. Xarici təsirlər də neft sektorunun sürətli inkişafının ehtiyatla idarə edilməsini vacib qılır. Dövlət büdcəsinə təsiri diqqətə alınarsa, neft fondunun bir hissəsi neft hasilatının sürətli artışı nəticəsində qarşıya çıxa biləcək gözlənilməz xərclərə istiqamətləndirilə biləcəkdir[202].

Fonddakı ehtiyatların investisiyaların genişlənməsinə istiqamətləndirilməsinin daha sıx olduğuna, ilk növbədə qərar verilməlidir. Neft Fondunun özəl sektorun vasitəsiylə daha yaxşı işlədiyi deyilsə də ölkənin bütün ərazisi əsas alındıqda daha çox faydanın əldə edilə bilməsi üçün dövlət investisiyalarına üstünlük verilə bilər.

Edilən düzəlişlər nəticəsində fondda yığılan gəlirlər investisiya məqsədi ilə daha çox yüksək reytinqli kredit təşkilatlarında depozit olaraq tutulur. Azərbaycanda neftdən əldə edilən gəlirin xarici maliyyə təşkilatlarında saxlanılmasıyla yanaşı maliyyə kanalları vasitəsiylə birbaşa və vasitəli olaraq xarici ticarətə aid olmayan mallara xərclənmir. Beləcə xarici ticarətə aid olan digər sahələr üçün bu baxımdan ortaya çıxa biləcək birinci mənfi təsirin ortaya çıxmasının qarşısının alınmasına çalışılır[203].

Dövlət Neft fondundakı gəlirlərin kənd təsərrüfatı sektorunun inkişafı üçün istifadəsinin vacibliyi ilə yanaşı, sadəcə bu sahəyə Fonddan subsidiya verilməsi

---

[202] *Azərbaycanın İqtisadi İcmali*, Aprel-İyun 2000, s.71-72.

[203] İlkin Sabiroğlu, "Neft Böhranları və Holland Sindromu", *Azərbaycan Milli Demokratiya Fondu Azərbaycan Bülleteni, No: 19 (139),* 10 May 2001.

ölkənin qarşılaşdığı "Holland Sindromu"ndan xilas olması üçün kifayət etməyəcəkdir. Bu problemlərdən xilas olmaq ixrac potansialına sahib sənaye sahələrinin inkişafına meylli layihələr həyata keçirməklə mümkün ola biləcəkdir. Həyata keçiriləcək siyasətdə seçici hərəkət edilərək zəruri sahələrə investisiyaların təşviq edilməsi vacibdir[204].

2005-ci ilin sonlarından başlayaraq ölkənin neftdən əldə etdiyi gəlirlər əsaslı miqdarda artmaqdadır. Artan bu gəlirlərlə hökümət qeyri-neft sektorlarının sürətli inkişafını planlaşdırmışdır. Xarici və yerli mütəxəssislərlə yanaşı Dövlət Neft Fondunun hesablamalarına görə, 2025-ci ildən sonra Azərbaycanın neftdən əldə edəcəyi gəlirlər əsaslı şəkildə azalacaqdır. Mütəxəssislərin bu hesablamaları Azərbaycanı ciddi tədbirlərə əl atmağa sövq edir. Bu istiqamətdə regionların sosial-iqtisadi inkişafının əldə edilməsi çox vacibdir. Azərbaycan hökuməti iqtisadiyyatı neftdən asılı olmaqdan azadedici məqsədə əsaslanan strategiyaya 2005-ci ildən etibarən üstünlük verməyə başlamışdır. Neftdən əldə edilən gəlirin bölüşdürülməsindən uzun müddətli faydalanmaq üçün qəbul edilən strategiyada regionların iqtisadi inkişafına xüsusi əhəmiyyət verilmişdir. Bu strategiya çərçivəsində DNF ehtiyatlarının 20-25%-i kiçik və orta həcmli sahibkarlığın inkişafı üçün xərclənəcəkdir. İstehsalat və emalat sənayesinin inkişafı hökümətin üstünlük verdiyi sahələr arasındadır. Digər tərəfdən bəşəri sərmayənin artırılması məqsədi ilə elm və tədqiqat xərclərinin artırılması da planlaşdırılmışdır.

6.3.1.2. Dövlət Neft Şirkətinin Özəlləşdirilməsi ya da müstəqilliyi

Azərbaycan Dövlət Neft Şirkətinin özəlləşdirilməsi istiqamətində addımların atılmasına dair fikirlər tez-tez dilə gətirilir. Şirkətin özəlləşdirilməsi ilə onun fəaliyyətinin şəffaflığı və müstəqil ticarət faaliyət göstərməsi üçün mühüm bir addım olacağı düşünülür. ARDNŞ-ın müstəqil ticari faaliyyət göstərməsi, neft gəlirindən istifadədə mühüm mərhələ olmasından əlavə, dövlətin neft siyasəti üzərindəki nəzarətini də şəffaf hala gətirə bilər. Əlbəttə ki, özəlləşdirmə qədər özəlləşdirmənin necə olacağı da çox əhəmiyyətlidir.

Ancaq, qeyri-neft sektorlarında və Bakıdan kənar regionlarda iqtisadi inkişafın hələ başlanğıcında olan ölkədə dövlətin iqtisadiyyatda üstünlüyünün olmasına ehtiyac olduğu və böyük həcmli müəssisələrin özəlləşdirilməsinin tamamlanmadığı bir mühitdə ölkə iqtisadiyyatı baxımından stratejik əhəmiyyət kəsb edən ARDNŞ-in özəlləşdirilməsinin gündəmə alınması mümkün deyildir. Özəlləşdirmə yerinə müstəqilliyinin mübahisə mövzusu olması və Fondda yığılan vəsaitlərin daha effektli istifadəsi mövzusunda təkliflərin irəli sürülməsi daha maraqlı olacaqdır.

---

[204] Əkbər Eldaroğlu, "Neft Fondunun Vəsaitləri Hansı İstiqamətə Yönəldilməlidir?", *Azərbaycan Milli Demokratiya Fondu, "Azərbaycan" Bülleteni - 25 (145)*, 21 İyun 2001.

6.3.2. Azad İqtisadi Zonaların Qurulması Fəaliyyətləri

Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında 18 may 1973-cü il tarixli Kioto Konvensiyasının sənədlərinə əsasən azad zona ölkənin ərazisinin elə hissəsini bildirir ki, burada mallar gömrük sərhədlərindən kənarda hesab edilir və buna görə də normal gömrük nəzarəti, rüsum və vergilərinə cəlb edilmir. Beləliklə, azad iqtisadi zonaları malların dövlətin gömrük ərazisindən kənarda hesab edildiyi özünəməxsus keyfiyyətli xarici ticarət anklavı kimi səciyyələndirən Kioto Konvensiyasının imzalanmasından sonra azad iqtisadi zonalar bir çox dövlətlərdə geniş vüsət almağa başlamışdır.

Bir qayda olaraq, azad iqtisadi zona - bu və ya digər dərəcədə xüsusiləşmiş coğrafi ərazidir. Beynəlxalq təşkilatların hesabatlarında və nəşrlərində "azad iqtisadi zona" anlayışından istifadə edilir. Lakin, bu termin, göstərilən zonaların mahiyyətini tam ifadə etmir. Belə ki, bu zonaların əksəriyyətində tətbiq edilən iqtisadi qaydalar, alətlər, xüsusi inzibati qanunlar müəyyən hüquqi və təsərrüfat rejimindən heç də azad etmir, sadəcə olaraq, bu rejimi yüngülləşdirir və sahibkarlığın inkişafını stimullaşdırmağa yönəlmiş güzəştlər verir. Faktiki olaraq, dövlət bu zonalarda özünün iqtisadi proseslərə müdaxiləsini məhdudlaşdırır.

Aşağıda azad iqtisadi zonaların bəzi geni yayılmış növlərinin xarakteristikaları verilir[205]:

Azad ticarət zonaları (Free trade zones) azad iqtisadi zonaların demək olar ki, dünyada ən geniş yayılmış növüdür. Tarixi baxımdan ən qədim azad ticarət zonaları XIX əsrdə Almaniyanın azad Hamburq və Bremen şəhərlərində yaradılmış zonalar hesab olunur. Azad ticarət zonaları ölkənin onun milli gömrük məkanından kənarda hesab edilən məhdud ərazilərdir. Bu zonaların azadlığı o deməkdir ki, orada mallar gömrük rüsumlarından, idxal vergilərindən və maliyyə nəzarətinin digər formalarından azaddır. Azad ticarət zonalarına gətirilən mallar bəyan edilmir, lakin, gömrük orqanları qaçaqmalçılığa və qadağan olunmuş malların gətirilməsinə yol verməmək məqsədilə zona daxilində nəzarət tədbirləri həyata keçirə bilərlər. Daxildə istehsal edilmiş mallar azad ticarət zonasına gətirilərkən ölkə ərazisindən ixrac olunan hesab edilir və ixrac gömrük rejiminə tabedir və bütün ixrac rüsumları ödənilir, lakin, azad ticarət zonasının ərazisinə daxil olduqdan sonra bu mallara münasibətdə də zonanın bütün güzəşt və üstünlükləri (vergi çıxılmaları, əvvəl edilmiş bəzi ödənişlərin qaytarılması və s.) tətbiq edilir.

Xarici istehsal malları azad ticarət zonasına onun ərazisində istifadə və ya istehlak olunmaq məqsədilə gətirildiyi halda idxal olunan mallar hesab edilir və gömrük rüsumları və idxal vergiləri ödənilir. Zona ərazisindən həmin zonanın yerləşdiyi dövlətin digər ərazilərinə çıxarılan mallar da idxal malları hesab edi-

[205] http://www.taxes.gov.az/modul.php?name=beynelxalq&news=28

lir və həmçinin, azad ticaət zonasına gətirilən oxşar malların cəlb edildiyi kimi eyni qaydada idxal rüsumları və vergilərinə cəlb edilir. Azad ticarət zonalarında adətən anbar əraziləri olur ki, bu anbarlarda da malların saxlanılması, sortirovkası, qablaşdırılması, markalanması və keyfiyyətim seçimli yoxlanması həyata keçirilir. Zonada yerləşdirilmiş mallar orada qeyri-müəyyən müddətə qala bilər. Malların saxlanılmasına görə haqlar, saxlanılma dövrü və anbarın növündən asılı olaraq, sığorta xərcləri də daxil olmaqla, müxtəlif ola bilər.

Azad ticarət zonalarını fəaliyyət növü və funksional spesifikliyinə görə aşağıdakı növlərə bölünür:

- Tranzit azad limanlar;
- Azad gömrük zonaları;
- Ticarət-istehsal zonaları.

Azad ticarət zonaları ixracın və xarici investisiyaların genişləndirilməsi, həmçinin ölkənin və regionların iqtisadi inkişafının stimllaşdırlması məqsədilə yaradılır[206].

Azad (rüsumsuz) gömrük zonaları (Free customs zone). Bu zonalar azad iqtisadi zonaların ən sadə formalarından biridir. Bu növ zonalar XVII-XVIII əsrlərdən mövcuddur və xarici iqtisadi fəaliyyətin stimullaşdırılmasına xidmət edir. Azad gömrük zonaları ixrac üçün nəzərdə tutulmuş malların saxlanılması, qablaşdırılması və cüzi emalı üçün istifadə olunan tranzit və ya konsiqnasiya anbarlarıdır. Bu zonaları çox vaxt bond anbarları və ya azad gömrük əraziləri adlandırırlar. Adətən, həmin zonaların yerləşdiyi dövlətdə qeyri-rezident olan idxalçı müəssisələr bu zonalarda öz filiallarını yaradırlar. Azad gömrük zonalarında mallar rüsumsuz idxal və ixrac olunurlar. Bu növ zonalar bir çox dövlətlərdə mövcuddur, lakin sənaye cəhətdən inkişaf etmiş dövlətlərdə daha geniş vüsət almışlar.

Azad gömrük zonaları bir qayda olaraq ixrac olunan sənaye mallarının istehsalının son mərhələsinin həyata keçirilməsi, idxal mallarının boşaldılması, yüklənməsi, hələ gömrük nəzarətindən keçməmiş malların saxlanması üçün limanlarda, hava limanlarında və nəqliyyat magistrallarında, həmçinin, bəzi hallarda sənaye rayonlarında yaradılır.

Artıq deyildiyi kimi, azad gömrük zonalarında preferensial rejim gömrük rüsumlarının və zonaya gətirilən və oradan yenidən ixrac olunan mallar üzərində gömrük nəzarətinin aradan qaldırılması və ya əhəmiyyətli dərəcədə yüngülləşdirilməsindən ibarətdir. Lakin bu halda da zona hüdudlarından malların həmin zonanın yerləşdiyi dövlətin ərazisinə çıxarıldığı zaman idxal rüsumları ödənilir.

---

[206] http://www.taxes.gov.az/modul.php?name=beynelxalq&news=28

Məntiq etibarilə azad gömrük zonaları milli ərazinin tərkib hissəsi olaraq qalmaqla yanaşı, maliyyə rejimi nöqteyi-nəzərindən dövlətin gömrük sərhədlərindən kənarda hesab edilir. Onlar həm yerləşdikləri dövlətin ticarət dövriyyəsinə, həm də beynəlxalq tranzit əməliyyatlarına xidmət edir.

Son dövrlərdə beynəlxalq əmtəə dövriyyəsinin strukturunda kooperasiya əlaqələrinin genişlənməsi, firmadaxili mal çatdırılmaları, texnologiya ticarətinin əhəmiyyətli artımı nəzərə çarpır. Ticarətin material tutumu azalır, həmçinin bu proses malların nəql edilməsi formalarında dəyişikliklərlə müşaiyət olunur. Malların konteyner daşınması və paketləşdirilməsi daha əlverişli olmağa başlamışdır və beynəlxalq mal çatdırılması əməliyyatlarının bir çoxu artıq getdikcə mal daşımaları marşrutlarında daha çox aralıq dayanacaq rolu oynamağa başlamış azad gömrük zonalarına ehtiyac duymur. Bunun nəticəsi olaraq, bir çox azad gömrük zonaları özlərinin xarici ticarət sahəsində ənənəvi ixtisaslaşmasını saxlamaqla, ixrac istehsalının genişləndirilməsi istiqamətində inkişafa meyl edirlər. Bu isə son dövrlərdə bir çox iqtisadi ədəbiyyatlarda, həmçinin bəzi dövlətlərin qanunvericilik aktlarında iki növ azad gömrük zonalarının bir-birindən fərqləndirilməsinə gətirib çıxarmışdır. Bunlar a) istehsal tipli azad gömrük zonaları və b) ticarət tipli azad gömrük zonalarıdır. İstehsal tipli azad gömrük zonaları emal sənayesinin elmtutumlu, idxal əvəzedici, ixraca yönəlik və konversion mallarının istehsalı üçün zəruri olan inkişaf etmiş istehsal və nəqliyyat infrastrukturuna və digər əlverişli şəraitə malik olan məhdud ərazilərdir. Bu ərazilərdə mallarla, onların azad gömrük zonasının yerləşdiyi ərazidən sonrakı ixracı üçün zəruri olan şəkildəyişməsinə gətirib çıxaran istehsal əməliyyatlarının aparılmasına icazə verilir.

Ticarət tipli azad gömrük zonaları artıq qeyd edildiyi kimi, dövlətin ərazisinin məhdud sahəsidir və adətən idxal və ixrac mallarının müntəzəm daşınması həyata keçirilən dəniz və çay limanlarında, hava limanlarında, dəmir yolu düyünlərində, sərhəd məntəqələrində və digər yerlərdə yaradılır.

Məsələn, ABŞ qanunvericiliyinə əsasən azad gömrük zonaları, ümumi təyinatlı və ixtisaslaşmış zonalara bölünür. Ümumi təyinatlı zonalar bir neçə kvadrat kilometrlik ərazini tutan kiçik zonalardır və milli gömrük ərazisindən kənarda hesab edilir. Bu ərazilərdə malların idxal edilmiş malların anbarlaşdırılması və emalı üzrə əməliyyatlar (qablaşdırma, sortirovka, markalanma, son emal mərhələsi və s.) həyata keçirilir.

İxrac-istehsal zonaları (Export-production zones). Bu zonalar ikinci nəsil azad iqtisadi zonalara aid edilən Sənaye-istehsal zonalarının ən geniş yayılmış növü olmaqla, Ticarət zonalarına yalnız malların yox, həm də kapitalın gətirilməsinə başlanması ilə əlaqədar olaraq bu zonaların təkamülü nəticəsində meydana çıxmışlar.

Bu nüv zonalar həmçinin, "ixrac emalı zonaları" və ya "ixracın stimullaşdırılması üzrə xüsusi zonalar" da adlandırılır. Bu zonalar adətən beynəlxalq limanların yaxınlığında milli gömrük rejimi çərçivəsində anklavlar formasında yaradılır. Bu növ azad zonaların yaradılması Qərb ölkələrində müşahidə olunan idxal əvəzedici iqtisadiyyatdan ixraca yönəlik iqtisadiyyata keçid tendensiyasının nəticəsidir. Bu strategiyada ixrac istehsalına xarici kapitalın cəlb edilməsi amili ilk yerlərdən birini tutur. Bu səbəbdən bir çox dövlətlərin hökümətləri xarici investorları böyük güzəştlərlə, o cümlədən icarəyə götürülən torpağa və infrastruktura görə aşağı tariflər, gömrük rüsumlarının azaldılması və ya ümumiyyətlə ləğvi, gəlir vergisindən bir neçə illik azadolma, güzəştli dövlət kreditlərinin verilməsi, mənfəətin maneəsiz köçürülməsi, xarici valyutanın cari məzənnə ilə azad alqı-satqısı hüququ və s. yolu ilə cəlb etməyə çalışırdılar. İxrac-istehsal zonalarında, burada fəaliyyət göstərən sahibkarlar üçün yerli xammaldan istifadəyə və malların müəyyən hissəsinin yerli bazarlara çıxarılması müqabilində mükafatlandırılması sistemi tətbiq edilir, onlara avadanlığın sürətli amortizasiya edilməsinə icazə verilir.

Rəqabət üstünlüklərinin saxlanılması məqsədilə ixrac-istehsal zonalarında əmək münasibətlərinin tənzimlənməsinin də xüsusi rejimi tətbiq edilir. Bu, xüsusilə sahibkarların sosial sığorta fondlarına ayırmalardan azad edilməsindən ibarətdir. Göstərilən üstünlük və güzəşt sisteminin səmərəliliyi ondan ibarətdir ki, bir çox dövlətlərin hökümətləri bu növ zonaların yaradılması yolu ilə iqtisadiyyatın prioritet sahələrinin inkişafının təmin edilməsinə, eyni zamanda depressiv regionlarda təsərrüfat həyatını fəallaşdırmağa və bununla da milli iqtisadiyyatın inkişafına ciddi pozitiv təsir göstərməyə nail olmuşlar.

Əvvəlki abzasda göstərilənlərə misal olaraq 2-ci Dünya müharibəsindən sonra Avropada ilk ixrac-istehsal zonasının yaradılmasına nail olmuş İrlandiyanı göstərmək olar. Bu ölkəni "Avropa pələngi" adlandırılar, burada Ümumi daxili məhsulun (ÜDM) illik artımı 6,5-7,2% təşkil edir. Bu, ÜDM-in illik artımı üzrə Avropada ən yüksək göstəricidir. Hazırda İrlandiyada əsasən Britaniya, Alman və Amerikan firmaları olmaqla 1700-dən çox xarici firma fəaliyyət göstərir.

İrlandiyada yaradılmış ilk ixrac-istehsal zonası Şennon zonasıdır və bu zona 1959-cu ildə yaradılmışdır. Şennon İrlandiyanın cənub-qərb hissəsində dəniz sahilində yerləşir və uzun illər boyu Transatlantik uçuşları həyata keçirən avialaynerlər üçün aralıq yanacaqdoldurma məntəqəsi kimi fəaliyyət göstərirdi.

XX əsrin 50-ci illərinin sonlarında böyük məsafələri yanacaq doldurmadan qət edə bilən reaktiv aviasiyanın yaranması nəticəsində bu fəaliyyət artıq bir növ lazımsız olmağa başladı. Bu isə Şennon aeroportunun fəaliyyətinin məhdudlaşdırılmasına gətirib çıxara bilərdi. Bunun qarşısının alınması üçün hökumət iki strategiya işləyib hazırladı.

Birinci strategiya - İrlandiyaya Avropada istirahət edən mümkün qədər çox sayda Şimali Amerikalı turist, xüsusilə irland köklərinə malik olan turist cəlb edilməsi. Bu isə mehmanxana və ictimai iaşə obyektlərinin fəaliyyətinin yaxşılaşdırılması, infrastrukturun inkişafı, tarixi abidələrin restavrasiyası, mehmanxanada yaşayış qiymətlərinin, həmçinin aviabiletlərə qiymətlərin aşağı salınması zərurətini yaratdı.

İkinci strategiya xarici firmaları komponent və yarımfabrikatların idxalı, həmçinin hazır məhsulun ixracı üçün hava limanının xidmətlərindən istifadə edə biləcək müəssisələr yaratmağa cəlb etmək məqsədilə hava limanı yaxınlığında sənaye parkının yaradılmasından ibarət idi.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən "duty free shop" mağazaları ilk dəfə məhz Şennon hava limanında yaradılmışdır ki, bu təcrübədən də hazırda dünyanın demək olar ki, bütün hava limanlarında istifadə edilir.

Şennon zonası idxal xammalına və hazır ixrac mallarının istehsalına əsaslanan sənayenin inkişafı üçün ideal alət olmaqla, ixraca yönəlik sənayenin inkişafı üzrə klassik misaldır.

Şennon zonasının təcrübəsi əsasında iqtisadi siyasəti ölkədə ixrac sektorunun yaradılmasına yönəlmiş bir çox dövlətlərdə analoji zonalar yaradılmağa başlanmışdır.

İxrac istehsal zonaları dünya təsərrüfat sistemi miqyasında bəzi milli və regional xüsusiyyətlərə malikdir ki, bu xüsusiyyətlər həmçinin zonaların adlarında da öz əksini tapır. Məsələn, bu cür zonalar Böyük Britaniyada sahibkarlıq zonaları, Çində, xüsusi iqtisadi zonalar, ABŞ-da azad sahibkarlıq zonaları və s. adlanır. Lakin ixrac-istehsal zonalarının təbiəti, strukturu və ixraca yönəlikliyi olduğu kimi qalır.

XX əsrin 70-ci illərinin sonlarında, 80-ci illərin əvvəllərində ixrac-istehsal zonaları Tayland, Banqladeş, Şri-Lanka, Pakistanda yaradılmağa başlamışdır. 1990-cı ildə inkişaf etməkdə olan dövlətlərdə 260-dan çox ixrac-istehsal zonası fəaliyyət göstərirdi. İxraca yönəliklik siyasətini ən uğurla həyata keçirən dövlətlər yeni sənaye dövlətləri olmuşdur ki, bu da beynəlxalq əmək bölgüsündə dəyişiklikləri şərtləndirmişdir. Yeni sənaye dövlətləri daha texnologiya tutumlu istehsala keçir, əmək tutumlu istehsal isə bu dövlətlərdən əmək resurslarının daha ucuz olduğu dövlətlərə keçir.

Texniki-tətbiqi zonalar adətən iri elm mərkəzləri ətrafında yaradılır. Bu zonalar azad iqtisadi zonaların ən yeni tipidir. Onların inkişafı XX əsrdə baş vermiş elmi-texniki inqilabla bağlıdır. Sənaye cəhətdən inkişaf etmiş dövlətlərdə bu cür zonalar elmi "nou-hau"nun universitetlərdən və araşdırma laboratoriyalarından innovasiya istehsalına keçirməyin ən perspektiv mexanizmi hesab edilir.

Bu zonalarda vergi və maliyyə güzəştlərinin vahid sistemin tətbiq edilən milli və xarici araşdırma, layihə, elmi-istehsal firmaları cəmləşir. Bu cür zonalar tez-tez Azad elmi-texniki zonalar (Free scientific-technical zones) da adlandırılır.

Ən çox sayda Elmi-texniki zonalar ABŞ, Yaponiya və Çində mövcuddur. Azad elmi-texniki zonalar Yaponiya texnopolislər, ABŞ-da və Çində texnoparklar adlandırılır. Texnoloji park dedikdə sahibkarlıq subyektlərinə müasir dünya bazarının tələblərinə cavab verən rəqabət qabiliyyətli malların istehsalı və ən yeni texnologiyaların tətbiqinə imkan verən şərait yaradan sənaye qurğuları və obyektlərinin kompleksi başa düşülür.

Əgər ixrac-istehsal zonalarında əsasən iri seriyalı, əmək tutumlu istehsal qurulursa, texnoloji parklarda prinsipial yeni texnologiyaların, malların və materialların işlənməsi və eksperimental kiçik həcmli istehsal həyata keçirilir. Deyildiyi kimi, bu zonalar adətən elmi mərkəzlərin, universitetlərin, təcrübə bazalarının, zavodların laboratoriyalarının və elm müəssisələrinin ətraflarında yaradılır[207].

Dünyada ilk elmi-texniki park 1950-ci ildə ABŞ-da Stenford Universitetində yaradılmışdır. 90-cı illərin axırında ABŞ-da ümumi sahəsi təqribən 60 hektardan 2600 hektara qədər olan 170-dən artıq bu cür park mövcud idi. Avropada bu cür parklar 70-ci illərin sonlarında əvvəl Böyük Britaniyada, sonra isə Belçika və Fransada yaradılmağa başlamışdır. Almaniyada belə strukturlar 1983-cü ildən başlayaraq yaradılmağa başlamışdır və çox sürətli inkişaf yolu keçmişdir.

Avropa İttifaqı texnoparkların yaradılmasına böyük əhəmiyyət verir. Avropa İttifaqında bu qurumlara İttifaq üzvü olan dövlətlərin struktur disbalansının aradan qaldırılması, zəruri innovasiya mühitinin yaradılması, elmin istehsala təsiri vasitəsi kimi baxılır.

Yaponiyada, artıq deyildiyi kimi, bu növ zonalar texnopolislər adlandırılır. Müasir məişət və gündəlik həyatda geniş istifadə olunan optik xətlər, mobil əlaqə sistemləri, peyk yayımı qəbulediciləri, video əlaqə vasitələri və s. məhz Yaponiyada yaradılmış texnopolislərin fəaliyyəti nəticəsində işıq üzü görmüşdür.

Texnoparklar sənaye cəhətdən inkişaf etmiş dövlətlərdən inkişaf etməkdə olan dövlətlərə də (Braziliya, Hindistan və s.) keçmişdir. Artıq 1998-ci ildə dünyada 7 mindən çox texnopark mövcud idi.

Texnoparklar xüsusi təşkil edilmiş ərazilərdə yaradıla bilərlər. Məsələn, Asiyanın ən iri texnoparklarından olan Sindju şəhəri (Tayvan) 380 hektarlıq icarəyə götürülmüş ərazidə yerləşir. Bu texnoparkın ixtisaslaşması - rabitə sistemlərinin, kompüterlərin və tibbi avadanlığın yaradılmasıdır. Texnoparkda yaşayış fondu kompleksi, uşaq bağçası, məktəb vardır. Burada həmçinin geniş

[207] http://www.taxes.gov.az/modul.php?name=beynelxalq&news=28

istirahət infrastrukturu yaradılmışdır. Texnoparkın yaradıcıları bütün bunların yaradıcılıq azadlığı atmosferinin mövcudluğuna xidmət etdiyini deyirlər.

Digər bir məşhur texnopark, ABŞ-ın ən iri texnoparkı olan "Silikon vadisi"dir (Silicon Walley). Bu texnopark ümumdünya kompüter hesablama texnikası vasitələri istehsalının 20%-ni verir. Burada 20 mindən çox işçi çalışır.

Fəaliyyət növünə və nəticələrinə görə texnoparklar elmi (fəaliyyətin məhsulu - fundamental araşdırmaların nəticələridir), elmi-araşdırma (məhsul - eksperimental nümunələr, prototiplər, kiçik məhsul seriyalarıdır), elmi-texniki və texnoloji (yüksək texnologiyaların tətbiqi ilə elmtutumlu məhsulların araşdırılması və işlənməsi, seriyalı istehsalı) ola bilər.

Texnoparklara verilən üstünlüklərin, məsələn ixrac-istehsal zonalarındakı üstünlüklərdən onunla fərqlənir ki, burada vurğu kiçik vençur biznesin inkişafına edilir. Tətbiq edilən vergi, gömrük və kredit güzəştləri ilk növbədə müəssisənin fəaliyyətinin ən ilkin, riskli mərhələsində asanlaşdırılması məqsədinə xidmət edir. Şirkətlərin qeydiyyatının xüsusi, sadələşdirilmiş prosedurları tətbiq edilir, kiçik firmaların problemlərinin həlli ilə məşğul olan xüsusi inzibati strukturlar yaradılır. Xaricdən iri kapital axını, texnoparklarda xüsusi investisiya fondlarının yaradılması texnoloji işləmələrin son nəticədə kütləvi formada istehsal sahələri tərəfindən mənimsənilməsinə xidmət edir. Güzəştli əsaslarla firmalara aparıcı alimlərin məsləhətləri, avadanlıq, universitetlərin kitabxana fondlarından istifadə hüququ verilir. Birgə kommersiya layihələrində iştirak etməklə universitetlər öz növbəsində əlavə əhəmiyyətli gəlir mənbəyi və məzunların işlə təmin edilməsi vasitəsi əldə edirlər.

Texnoparklar hüquqi şəxs kimi qeydiyyatdan keçirlər. Onlar həm kommersiya, həm də qeyri-kommersiya təşkilatları ola bilərlər və qanunvericiliklə qadağan edilməyən istənilən təşkilati formada yaradıla bilərlər. Təsisçi qismində bu və ya digər dövlətin qanunvericiliyi nəzərə alınmaqla həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər.

Texnoparklar müxtəlif təşkilati formalarda yaradılır. Yaradılan texnoparkın konkret forması regionların məqsədləri, fəaliyyəti və tələbatlarına tabedir. Aşağıda texnoparkların ən əsas təşkilati formaları sadalanır:

1. Elmi park (Science park)

Elmi park bir qayda olaraq universitetlərin, elmi-araşdırma mərkəzlərinin yaxınlığında yaradılır. Bu quruluşun əsas məqsədi araşdırma obyektlərinin inkişafı və tətbiqidir. Bu növ texnoparklar istehsal fəaliyyəti ilə məşğul olmurlar.

2. İnnovasiya mərkəzi (İnnovation centre)

Bu növ mərkəzlərin əsas məqsədi ərazi baxımından innovasiya mərkəzindən kənarda fəaliyyət göstərən, lakin bazarda nisbətən böyük risklə bağlı olan yeni texnologiyaların reallaşdırılması ilə məşğul olan sahibkarlara dəstəkdir

(araşdırma, texnologiya, maliyyə və kommersiya fəaliyyəti məsələləri üzrə konsultasiyalar).

3. Kommersiya parkı (Commercial park)

Kommersiya parkı istehsalla, müxtəlif növ kommersiya fəaliyyəti ilə, həmçinin inzibati işlərlə, müxtəlif sərgilərin təşkili, hazır məhsulun qablaşdırılması və satışı ilə məşğul olur. Bu cür strukturlar üçün elm mərkəzlərinə yaxın yerləşmək vacib deyildir.

4. Texnoloji polyus (Technology polus)

İnnovasiya proseslərinin strateji cəhətdən əsas amilləri yığımının - yüksək ixtisaslı işçi qüvvəsi, fundamental və tətbiqi araşdırma fəaliyyəti, inkubator xidmətləri üzrə bir neçə obyekt və innovasiya fəaliyyətini maliyyələşdirən banklar və ya digər maliyyə qurumlarının m

Azərbaycanda iqtisadi inkişafa təkan verəcək və Holland sindromuna imkan verməyəcək amillərdən biri də ticari baxımdan azad iqtisadi zonaların yaradılması olacaqdır. Xüsusilə qeyri-neft sektorunun inkişafında azad iqtisadi zonaların mühüm rolu olacaqdır.

Bu gün dünyada çox sayda olan azad iqtisadi zonalar ölkələrin xarici ticarət həcmini artırmaq, ixrac və idxalı asanlaşdırmaq, valyuta gəlirlərini və məşğulluq səviyyəsini artırmaq, sənayenin inkişafına təkan vermək, ölkəyə müasir texnologiyanın gəlməsini həyata keçirmək məqsədi ilə yaradılır. Azad iqtisadi zo-nalar bir çox ölkədə sənayenin inkişaf etməsində mühim rol oynamışdır.

Məsələn, Türkiyədə 20-dən çox azad iqtisadi zona vardır. Azad iqtisadi zonalar Türkiyədə iqtisadi baxımdan regionlar arasında balansın saxlanmasında əhəmiyyətli rola malikdir.

Regional iqtisadi inkişafın ən məhsuldar qaynaqlarından biri azad iqtisadi zonaların yaradılmasıdır. Ölkədə yerli investorların maliyyə imkanlarının məhdud olması da Azərbaycanın bəzi regionlarında azad iqtisadi zonaların yaradılmasını zəruri edir. Bu problem son bir neçə ildə bir neçə dəfə hökümət səviyyəsində fərqli fikir və mübahisələrə səbəb olmaqla birlikdə, Bakı, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran-Astara, Naxçıvan kimi iqtisadi regionlarda azad iqtisadi zonaların qurulması üçün kifayət qədər əlverişli şərtlərin olduğu vurğulansa da, bu istiqamətdə atılan addımlar və görülən işlər xeyli zəifdir.

Sumqayıt, Lənkəran və Naxçıvanda azad iqtisadi zonaların yaradılması mümkündür. Bu şəhərlərdə dəmiryolu xətlərinin olması, Sumqayıt və Lənkəranın dənizə çıxışlarının olması, Lənkəran və Naxçıvan hava limanlarının olması və eyni zamanda Naxçıvanın bir neçə ölkə ilə sərhəddinin olması azad iqtisadi zonaların qurulması baxımından bu şəhərləri əlverişli edən amillərdir[208].

---

[208] Əkbər Eldaroğlu, "Qeyri-Neft Sektorunun İnkişafında Azad İqtisadi Zonalar Mühüm Rol Oynaya Bilərdi", *Azərbaycan Milli Demokratiya Fondu,"Azərbaycan" Bülleteni – 30 (150),* 26 İyul 2001.

Azad iqtisadi zonaların əsas mahiyyəti əlverişli beynəlxalq əhəmiyyətli yollar üzərində yerləşən ərazidə özünə məxsus ticarət, xidmət və ixrac-istehsal sahəsinin qurulmasıdır ki, bu zaman həmin zona gömrük rüsumlarından azad edilir, vergilərdə müəyyən endirimlər həyata keçirilir və aşağı faizlə kreditlər verilir. Bu isə iqtisadi cəhətdən zəif regionlarda iqtisadiyyatın canlanmasında, regi-onlar arasında iqtisadi inkişaf baxımından fərqlərin aradan qalxmasında böyük rol oynayacaqdır. Ancaq, Azərbaycanda regionların enerji ehtiyatları və digər ehtiyatlarla təmin olunmaması azad iqtisadi zonaların qurulmasını çətinləşdirir.

Azərbaycanda bu istiqamətdə ugurlu addım Sumqayıt Texnalogiya Parkı kimi nəhəng, çoxşahəli və respublikanın sənayesini inkişaf etdirən müəssisə yaranması sayıla bilər . STP Azərbaycan Respublikasının iqtisadiyyatının stabil inkişafına öz tövhəsini verən ən iri vergi odəyicilərindən biridir. Sumqayıt Texnologiyalar Parkı (STP) regionda texnoparkların yaradılmasında pioner olmaqla, müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Regionda nadir layihə olan STP Azərbaycanın həm daxili, həm də xarici bazarının tələbatını tam ödəmək qabiliyyətinə qadirdir.

Texnoparkın məhz Sumqayıtda yaradılması Azərbaycanın iqtisadi cəhətdən inkişafına əhəmiyyətli dərəcədə təkan verməklə yanaşı, vaxtılə Qafqazda sənaye mərkəzi kimi yaradılan Sumqayıtın tarixi ənənələrinin bərpası deməkdir. Bu gün STP-nin tikinti-montaj və istehsalat sahələrində 4500 işçi işləyir. Tikilməkdə olan zavodlar təhvil verildikdən sonra işçi heyətinin sayı 1000 nəfər də artacaq ki, bu da öz növbsində sosial yaşayış standartlarının yaxşılaşdırılmasına zəmin yaradacaq. STP 2009-cu il dekabr ayının 22-də dövlət başçısı Ilham Əliyev tərəfindən istismara verilmişdir.

STP-nin bütün zavodları Avropada istehsal olunmuş ən yeni texnoloji avadanlıqla təchiz olunub. İstehsal prosesində istifadə olunan xammallar da Avropanın qabaqcıl ölkələrindən idxal olunur.Ümumi sahəsi 250 hektar olan sənaye tikililəri sahəsində yeni zavodların dizaynı və tikintisi davam edir.

Vergi məcəlləsinə görə Azərbaycanda texnoparklar 7 illiyinə vergidən azaddırlar.

YEDDİNCİ FƏSİL
AZƏRBAYCANIN İQTİSADİ SİYASƏTİ

Hər bir ölkədə iqtisadi böhranların və sosial dəyişikliyin fərqli dövrlərində iqtisadi gedişatla bağlı dövlətin iqtisadiyyata müdaxiləsi məcburi olmuşdur.

Keçid dövrünü yaşayan ölkələrdə iqtisadiyyat liberallaşdıqca dövlətin iqtisadiyyatdakı rolu, istehsal əsnasında təsirli olma yerinə, iqtisadi vəziyyətin əlverişli hala gəlməsi üçün lazımi tənzimlənmə, planlama və nəzarət etmə halına çevrilir. Özəl müəssisələrin sayının artmasına paralel olaraq dövlətin tənzimləyici və nəzarət edici rolu da artır.

Azərbaycanda makroiqtisadi stabilliyin qorunması, islahatların davam etməsi, müvəffəqiyyətli iqtisadi siyasətlərin davam etdirilməsi, "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Haqqında Dövlət Proqramı" və "Regionların Sosial-İqtisadi İnkişafına Dair Dövlət Proqramı" iqtisadiyyatda rəqabət şəraitinin artmasını təmin edəcəkdir. Eyni zamanda Mərkəzi Bank və diğər iqtisadiyyatı tənzimləyən dövlət qurumlarının həyata keçirdiyi siyasət ölkədə iqtisadi sistemin formalaşmasına təkan verməkdədir.

7.1. PUL SİYASƏTİ

Bütün post-sovet ölkələrində keçid dövrünün ilk illərində yüksək inflyasiya müşahidə edilmişdir. Qiymətlərdə, xarici ticarət fəaliyyətlərində və maliyyə sektorunda liberallaşmağa dair addımların atılması, təbii olaraq qiymətlərin ümumi səviyyəsində də mühüm artışları özüylə bərabər gətirmişdir. Belə bir vəziyyətdə yeganə çıxış yolu isə pul-kredit siyasəti vasitəsilə dövriyyədə olan pul miqdarının səviyyəsini balanslaşdırmaq və bu yolla qiymətlərin ümumi səviyyəsində görülən artışı dayandırmaqdır. Ancaq, burada əsas olan pul miqdarının qiymətlərin ümumi səviyyəsinin xaricində iqtisadi məqsədlər olaraq, balanslaşdırılmış və stabil böyümə və ya inkişaf etməkdə olan ölkələr baxımından yüksək inkişaf səviyyəsinin təmin edilməsi və işsizliyi aradan qaldırmaq məqsədinə paralel şəkildə düzgün istifadə edilə bilməsidir.

1995-ci ildən etibarən ölkədəki mövcud hiper-inflyasiyanın qarşısını almaq üçün Milli Bank sərt pul-kredit siyasətini tətbiq etməyə başlamışdır. Ölkədə Milli Bankın pul siyasətləri üzərindəki hakimiyyəti tamdır. Milli Bank sərt pul siyasəti tətbiq edir. 1994-cü ildə manatın emissiya həcmi 500% səviyyəsindən 1995-ci ildə 175%-ə düşmüş, 1997-ci ildə isə 28% nisbətində artmışdır.

1998-ci ilin əvvəllərində dövriyyədə olan pul miqdarı, tətbiq olunan sərt pul-kredit siyasətləri nəticəsində azalmışdır. Ancaq, 1999-cu ilin ikinci yarısın-

dan etibarən tədavüldəki pul miqdarı artmağa başlamışdır. 2000-ci ildə dövriyyədə olan nəğd pul (M_0) 19.9%, pul kütləsi (M_2) isə 18.3% nisbətində artmışdır. Pul miqdarındakı artışın əsas səbəbi xarici valyuta və depozitlərin artması səbəbiylə məcburi ehtiyatlara tələbin artması olmuşdur. 2000-ci ildə isə, dövriyyədə olan nəğd pul (M_0) 11.5% və pul kütləsi (M_2) 15.7% nisbətində artmışdır.

Qrafik 17. Emissiya Həcmi (milyon Manat)



Mənbə: Azərbaycan Milli Bankının Nəşrləri.2015

Xüsusən 1990-cı illərin ortalarından başlayaraq əsas makroiqtisadi göstəricilərdən olan ÜDM-nin real artış nisbəti ilə pul təklifindəki artış nisbəti arasındakı fərqin pul miqdarının əleyhinə olduğu aydın görünür.

Ölkədə 1996-2000-ci illərdə, başqa bir ifadəylə cəmi altı il ərzində, ÜDM-nin artışı 36% olduğu halda, M_2 pul təklifi 1996-ci ildəkindən bir az çox olmuşdur. 2004-cü ildə isə, pul təklifinin artım nisbətinin əvvəlki illərə nisbətən yüksək olduğu diqqət çəkir.

Cədvəl 24. Pul aqreqatları (Milyon Manat)

İl	M0	M1	M2	M3
2006	1311,4	1839,6	2135,5	3435,0
2007	2713,5	3621,71	4401,6	5897,3
2008	4145,9	5105,19	6081,24	8494,5
2009	4175,0	5231,46	6169,41	8469,4
2010	5455,9	6838,46	8297,57	10527,6
2011	7158,4	8796,28	10997,43	13903,5
2012	9256,8	11122,31	13806,58	16775,5
2013	10458,7	12736,9	16434,8	19289,4
2014	10152,5	12830,4	17435,8	21566,4
2015	5176,9	6980,3	9050,0	17444,5

Mənbə: Azərbaycan Mərkəzi Bankının Nəşrləri.

Bu cədvəldən də bariz görüldüyü kimi 2015-ci ildəki iki devalvasiya Mərkəzi Bankın pul aqreqatlarının həcmini ciddi şəkildə dəyişdirmişdir.

ÜDM artış nisbəti və pul təklifinin artış nisbəti arasındakı fərq iki şəkildə aradan qaldırılır. Birincisi, başqa bir pul vahidindən fəal bir şəkildə iqtisadiyyatda istifadəyə başlanılması, yəni pul əvəz olunmasıdır. İkincisi isə, iqtisadiyyatda böyük problemlər yaradan ödəmələr problemidir. Bu vəziyyət də diqqətə alındıqda milli pulun iqtisadiyyatda rolunun zəif olduğu səbəbiylə aparılan islahatların təsirini azaltdığı ifadə edilə bilər[209].

1990-cı illərin ortalarından tətbiq olunmağa başlanılan və inflyasiyanın qarşısının alınması üçün uğurlu nəticə verən sərt pul-kredit siyasəti, təəssüf ki, daha sonrakı dövrlərdə ölkədə investisiya həcminin və iqtisadiyyatda təklif cəbhəsi (istehsal) üçün lazımi tələbin əmələ gəlməsi baxımından satın alma gücü olaraq ifadə edilən dövriyyədəki pul miqdarının azalmasına səbəb olmuşdur. Tətbiq olunan sərt pul siyasətinin 1995-96-cı illərdə hiper-inflyasiyanı nəzarət altına alarkən, 1997-ci ildən sonra isə, iqtisadiyyatda mənfi təsirlər yaratmışdır. Sərt pul siyasətinin tətbiqi nəticəsində deflyasiyanın əmələ gəlməsi real sektora mənfi təsir etmişdir. ABŞ dollarının sabitliyindən faydalanan idxalçılar, heç bir məhdudiyyətlə qarşılaşmadan, ölkə bazarlarını idxal malları ilə doldura bilmişdilər. Beləliklə, Azərbaycanda istehlak malları bazarı demək olar ki, idxal mallarından ibarətdir. Bu isə, istehlak sektorunda qiymətlərin ABŞ dollarına bağlı olduğunu göstərir. Nəticədə, dolların kursundakı dəyişiklik tək başına heç bir məna kəsb etməməklə, avtomatik olaraq bütün istehlak malları dollarla hesablandığına görə, bu malların qiymətləri kursdakı dəyişiklik nisbətində dəyişir[210].

Digər tərəfdən sərt pul-kredit siyasəti ilə tələbə istiqamətlənən kreditlərin qarşısının alınması paralellik göstərir. Ancaq, sərt pul-kredit siyasəti istehsalın artmasına dair orta müddətli kreditlərin verilməsinə maneəçilik törətməməlidir. Lazımi qaynağın olmaması səbəbiylə, Milli Bankın belə kreditlərin verilməsinə razı olmaması və tələb olunan təminatın dövlət tərəfindən verilməməsi isə, xarici bankların bu cür kredit vermələrinin qarşısını alır[211].

1998-99-cu illərdə mövcud olan deflyasiya şəraitinin təsiri altında reeskont faiz səviyyəsi artmış və 1999-cu ilin mart ayında bu nisbət 28%-ə qədər yüksəlmişdir. 2000-ci ilin mart ayında isə, bu nisbət 8%-ə düşmüşdür. Ticari bankların qısa müddətli kredit faiz dərəcələri 1999-cu ilin əvvəllərində 20% səviyyəsində sabit qalarkən, 2000-ci ildə bu nisbət 22.2% olmuşdur. Bu da Azərbaycan manatının dəyər itirəcəyi və inflyasiya nisbətində hərəkətliliyin olacağı təxminlərinə səbəb olmuşdur. Manat və dollar arasında qısa və uzun müddətli kreditlərdəki fərq manatın ucuzlaşmağa başlaması ilə azalmağa başlamış, amma, böyük ölçüdə fərq aradan qaldırılmamışdır. Bank depozitləri arasında əsas seçilən

---

[209] İ. Əhmədov, ss.41-42.

[210] İnqilab Əhmədov, "İqtisadi İslahatlarda Pul-Kredit Siyasətinin Rolu", *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr 2001, ss.43-44.

[211] Eyyubov, s.82.

pul vahidi dollar olmuşdur[212]. 2006-2008-ci illər arasında da dollara meyllilik müəyyən dərəcədə azalmaqla bərabər ümumi depozitlər içində valyuta hesablarının nisbəti yüksək səviyyədə davam etmişdir.

23 ildən artıq bir vaxtda baş verən dəyişiklik dövrün sonunda hələ milli pul vahidi olaraq manatın, pulun əsas funksiyalarını tam olaraq yerinə yetirmədiyi görülür. Manat olaraq qiymət mövcud olsa da, malların qiymətləri dollar olaraq diqqətə alınır. Bu isə manatın funksiyasını texniki bir xüsusiyyət olaraq məhdudlaşdırmışdır.

Pul miqdarının çatışmamazlığının xarici valyuta ilə əvəz edilməsi, əlbəttə ki, iqtisadiyyat qarşısında çox böyük təhlükədir. Belə ki, əvəz edici valyuta nə Milli Bank, nə də digər hökümət təşkilatları tərəfindən nəzarət altında saxlanıla bilir. Nəzarət altına alına bilməyən pul əvəzləməsi, pul siyasətinin təsirini azaldır[213]. Milli Bank dolların dövriyyədəki hərəkətini məhdudlaşdırmaq məqsədiylə, yeganə mübarizə metodu olaraq dövriyyəyə buraxılan pulun miqdarını məhdudlaşdırılmasını seçmişdir. Bu isə problemi bir az daha böyütmüş, nəticədə Milli Bank səbəb yerinə nəticə ilə mübarizə aparılmalı olmuşdur.

Xülasə, baş verən bu vəziyyət Azərbaycanda pul siyasətinə dair nəzarət gücünün müəyyən zaman zərfində ortadan qalxa biləcəyini göstərir. Həll yolu olaraq isə ÜDM-dəki artış sürətini də diqqətə alaraq sərt pul siyasətindən müəyyən dərəcədə geri addım atılmışdır.

Pul əvəzləməsi xarici valyuta həcminin, nəticədə ölkədəki mövcud qeyri-qanuni pulun dayaq nöqtəsi olmaqdadır. Bu səbəblə kölgə iqtisadiyyatının inkişafında pul əvəzləməsi xüsusi rol oynayır[214].

Pul həcmini təxmini olaraq 80% M_0, 20% M_2 tərkibində olması isə, dövriyyədə daha çox nəğd pulun olduğunu ifadə edir. Bu isə, bank sektoru və idarə etmə cəhətdən böyük maneələr yaradır. Ümumi pul təklifi içərisində nəğd pulun böyük bir üstünlüyə sahib olması nəzarətdən, dolayısı ilə də vergi nəzarətindən uzaq olmağa zəmin yaradır.[215].

2015-ci ildə tətbiq olunan pul-kredit siyasətinin əsas məqsədləri qiymətlərdə və valyuta məzənnələrində stabilliyin əldə edilməsi, valyuta ehtiyatlarının müəyyən səviyyədə mühafizəsi, bank sisteminin yaxşılaşdırılması və iqtisadiyyatdakı pul qıtlığının aradan qaldırılması olmuşdur. Milli Bank pul siyasəti ilə

---

212 Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türkiye İle Ekonomik İlişkileri", www.ceterisparibus.net/arsiv/s_ogan.pdf. (13.03.2003).

213 Osman Nuri Aras, "Azərbaycan İqtisadıyyatında Ehtimal Olunan Problem: Pul Əvəzi", *Azərbaycan İqtisadiyyatında Strateji Problemləri adlı Konfrans Materialları*, Bakı, 14-15, Mart 2002, ss.315-318.

214 Geniş Məlumat Üçün Bax: Osman Nuri Aras, *Para Talebi Para İkamesi ve Finansal Gelişme*, Qafqaz Üniversitesi Yayınları, Bakü, 2000.

215 İnqilab Əhmədov, "İqtisadi İslahatlarda Pul-Kredit Siyasətinin Rolu", *Məşvərət Bülleteni*, No:7 (43), Oktyabr 2001, ss.47-48.

əlaqədar əvvəlcədən planlaşdırılmış məqsədlərə çatmaq üçün öz idarəsində olan vasitələrdən istifadə etmişdir. 2002-ci ildə açıq bazar fəaliyyətlərinin pul siyasətinin bir vasitəsi olması üçün cəhd göstərilmiş və qiymətli kağızların alınması və satılması xeyli artmışdır. Milli Bank bu dövrdə manatın məzənnəsindəki stabilliyi bazara müdaxilə edərək və manat həcmini tənzimləyərək əldə etmişdir. Bundan əlavə özəl sektorun inkişafı ilə əlaqədar prezident qərarı nəticəsində də özəl sektora verilən kreditlərin faizi 10%-dən 7%-ə endirilmişdir. Azərbaycandakı kredit faizi nisbəti MDB ölkələri arasında ən aşağı səviyyədədir.

Milli Bankın 2015-ci ildə də inflyasiyanın qənaətbəxş bir səviyyədə olmasına, milli pul vahidinin dəyərinin stabil olmasına, beynəlxalq normlara, müvafiq xarici valyuta ehtiyatlarının əldə tutulmasına, bank sisteminin daha da gücləndirilməsinə və iqtisadiyyatda monetarizasiyanın olmasına uyğun olan pul-kredit siyasəti tətbiqi ilə planlaşdırdığı məqsədlərə çatmışdır[216]. Valyuta kursunda meydana gələn dəyişikliklər sabit bir vəziyyətə gəlmişdir. İqtisadiyyatda artım tempi isə 11% olmuşdur. Tətbiq olunan iqtisadi reformaların nəticələri özəl sektoru inkişaf etdirmiş və özəl sektorun ÜDM-dakı payı 70%-i keçmişdir. İxrac həcmi artaraq 5-6 milyard dollar olmuşdur. Bu investisyaların yarısını isə birbaşa investisiyalar əmələ gətirmişdir. Bu müddətdə qeyri-neft sektoruna da xarici sərmayənin axması üçün çalışılmış və nəticədə bir il əvvələ görə qeyri-neft sektoruna xarici sərmayə axımı 90,4% artaraq 9 milyard manat olmuşdur. Umumiyyətlə 1995-ci ildən 2015-cu ilə qədər ölkə iqtisadiyyatına 130 milyard manata yaxın vəsait qoyulmuşdur ki onun da yarısı qeyri-neft sektoruna yatırılıb. 2015-ci ildə neft qiymətlərinin azalması ölkənin valyuta ehtiyatı da azalaraq 7 milyard dollara olmuşdur. Bunu nəzərə alan Mərkəzi bank ilki fevral ayında, digəri dekabr ayının sonlarında olmaqla iki devalvasiya etmiş və il ərzində ABŞ dolları manat qarşısında iki dəfə bahalaşmışdır. 2015-ci ildə tətbiq olunan pul-kredit siyasətinin 2016-ci ildə də davam etdirilməsi nəzərdə tutulub. Mərkəzi Bank 2015-ci ildə də iqtisadiyyatdakı sürətli böyüməyə, makroiqtisadi stabilliyin qorunması və stabil makro-iqtisadi idarəçiliyə köməkçi olacaq pul-kredit siyasətini tətbiq etmişdir. Xüsusilə də inflyasiya nisbətinin 3-4% olaraq həyata keçməsi 2015-cü ildə gözlənilən məqsədlərdən ən asası olmuş və bu məqsədə də çatılmışdır. Xüsusilə neft və xarici sərmayə vasitəsi ilə ölkəyə daxil olacaq pulların xarici valyuta kursuna mənfi təsirini minimuma endirmək üçün lazımi tədbirlər görülmüşdür.

Yuxarıda yazılan hədəflərə çatmaq üçün Mərkəzi Bank kredit siyasəti, faiz siyasəti, qanuni qarşılıq nisbəti, sərbəst bazar əməliyyətları və xarici valyuta bazarına müdaxilə kimi pul-kredit siyasəti vasitələrini uğurla istifadə etmişdir.

2015-cü ildə sürətli iqtisadi artımın dəstəklənməsi makroiqtisadi stabilliyin əsas göstəricilərindən olan qiymətlər, qeyri-neft sektorunun rəqabət gücünün əmələ gəlməsi, iqtisadiyyatın pul ehtiyacının təmin olunmasının daha da yaxşı-

[216] "http://www.cbar.az/assets/3574/Bulleten-2015_noyabr_1_.pdf (01.02.2016).

laşmasına yönələn pul siyasəti tətbiq olunmuş və müəyyən olunmuş hədəflər əldə edilmişdir.

2014-cü ildən etibarən neftin dünyada qiymətinin azalması, bu yolla xarici valyuta gəlirinin azalması Azərbaycanın pul bazarında pulun həcminin azalmasına səbəb olmuşdur. İnflyasiyanın əsas səbəblərindən biri pul həcmindəki artış olduğundan MB bu istiqamətdə bütün gücü ilə çalışacaqdır. Pul həcminin genişlənməsi bank və kredit bazarında faiz dərəcələrinin aşağı düşməsinə səbəb ola bilər. Bu isə iqtisadi böyümənin sürətlənməsi üçün lazımi kredit miqdarının vacib dərəcədə artmasına imkan verəcəkdir. Kredit bazarında hər il bankların kredit imkanlarının artacağı gözlənilir.

Hədəflənən makroiqtisadi vəziyyət Azərbaycan milli pulunun güclənməsinə də səbəb olacaq. Bu amilin ölkənin beynəlxalq rəqabət gücünün artmasında mühüm rol oynayacağını demək mümkündür - milli pulun dəyərinin artması rəqabət gücünü necə artırır? MB pul siyasətinin hədəflərinə uyğun olaraq bazara qiymətli kağız və digər mübadilə vasitələri təklif etməyi düşünür. Maliyə bazarlarının inkişafı üçün Milli Bank Maliyə Nazirliyi ilə birlikdə uzun müddətli qiymətli kağızların təklifi üçün ortaq fəaliyyət göstərməyi planlaşdırır. Belə bir addımın atılması pul bazarında mövcud olan təklifin qarşısını almaqla birgə inflyasiya səviyyəsinin artmasına da əngəl ola bilər.

MB üçün 2016-ci il bank sisteminin etibarlı və effektli inkişafı strategiyasına müvafiq olaraq kompleks tədbirlər görmə ili olmuşdur. Bu tədbirlər bankların iqtisadiyyatdakı rolunun artması, kredit plasmanlarında aktivlik, kiçik və orta sahibkarlığın, regionların inkişafı üçün maliyyə xidmətlərinin genişləndirilməsi kimi sahələri tutur. Milli Bank bank sektorunda güclü bir rəqabət mühiti əmələ gətirmək üçün normalara uymayan banklar haqqında qəti tədbirlər görür. Belə ki, 2015-cı ilin yanvar ayından etibarən bankların nizamnamə sərmayələrini 50 milyon dollara yüksəltməyən ticari banklar ilə etibarlı bank sisteminin yaranması məqsədilə beynəlxalq idarə mexanizmlərini tətbiq etməyən özəl banklar MB-ın diqqət mərkəzində olacaqlar.[217] Xalqın banklara olan etibarını artırmaq məqsədilə "Depozit Sığorta Fondu"nun yaradılması da 2005-ci ildə diqqətə alınan əsas məqsədlərdən olmuşdu.

İpoteka kreditlərinin verilməsi ilə əlaqədar düzəlişlər tamamlanaraq "İpoteka haqqında" qanun 15 aprel 2005-ci ildə qəbul edilmişdir. Qanunun qəbul edilməsi ilə ipoteka ilə kredit verilməsi də mümkün olmuşdur. Bu barədə qəbul edilən qanun çərçivəsində hüquqi, inzibati və nəzəri tənzimləmələr edilərək kreditlər verilməyə başlamışdır.

Xülasə, MB 2005-ci ildə ölkədə sosial-iqtisadi inkişafın sürətlənməsinə yönələn kompleks fəaliyyət proqramının həyata keçirilməsini dəstəkləyən bir pul siyasəti tətbiq etməyi planlamışdı.

[217] http://www.cbar.az/

Bundan əlavə 2005-ci ilin əvvəllərində "Azərbaycan Respublikasının pul vahidinin nominal dəyərinin və dəyər ölçüsünün dəyişdirilməsi haqqında" fərman ölkə prezidenti tərəfindən imzalanmışdır. İmzalanan fərmana görə 1 yanvar 2006-ci il tarixindən etibarən ölkənin pul vahidi yeni manat olaraq 1 yeni Manat 5000 köhnə Manata bərabər olacaq şəkildə dəyişdirilmişdir. "1 yeni manat = 5000 köhnə manat" şəklində bir dəyişiklik, sadəcə sıfır atılması şəklində olan Türkiyədə olan pul dəyişikliyinə görə məqsəd və tərkib baxımından fərqlidir.

Ölkənin müstəqillik qazandığı ilk illərdə dövriyyəyə buraxılan pul vahidinin digər ölkə pul vahidləri qarşısındakı dəyəri, o vaxt meydana gələn hərbi, siyasi, sosial və iqtisadi böhranların təsiri ilə qısa vaxt ərzində sürətlə düşmüş və ölkə hiper-inflyasiya dövrü yaşamışdır. 1996-ci ildən etibarən ölkədə sosial-iqtisadi stabillik ilə birlikdə başlayan inkişaf dövrünə baxmayaraq yüksək inflyasiyaya görə manatın aşağı nominal mübadilə dərəcəsi muhasibat sistemində, statistikalarda, idarələr və banklararası proseslərdə çətinliklərə səbəb olmuşdur. Ən əsası isə ölkədə olan pul vahidinə etibarsızlıq, ölkədə yerli pul vahidindən qaçış bir başqa ifadə ilə dollarlaşma prosesini başlatmışdır. Aparılan ticari münasibətlərdə ölkə pul vahidi daha çox kiçik həcmli ticarətdə mübadilə vasitəsinə çevrilmişdir. İqtisadiyyatda baş verən müsbət hərəkətlilik ölkə pul vahidinin ümumi qəbul edilən pul vahidlərinə yaxın bir kursda dəyərə sahib olması üçün əlverişli bir vəziyyət yaratmışdır.

Müstəqillik qazanılan vaxtdan 2005-ci ilə qədər keçən müddətdə ölkə pul vahidinin dəyərində meydana gələn dəyişmə qarşısında iqtisadiyyatda əldə olunan əlverişli vəziyyətdən alınan cəsarətlə milli valyutanın dəyişdirilməsi ilə 3 əsas məqsəd güdürdü:

1. *İqtisadi Məqsəd:* Ölkə pul vahidinin dəyər itirməsi və valyuta kurslarının manat əleyhinə dəyişməsinə görə ölkə pul vahidinə olan mənfi baxışın dəyişdirilməsi
2. *Texniki Məqsəd:* Dəyərindəki itki ilə mühasibat hesablarında daha çox işgücü xərclənməsinin və meydana gələn xətaların əngəllənməsi
3. *Estetik Məqsəd:* Daha müsair, köhnəlmə və cırılmağa qarşı daha dözümlü pulun hazırlanması

İnflasiya göstəricilərində pula aid ünsürlərin təsirinin təxmini olaraq 30% olduğundan hərəkətlə pul dəyişiminin aşağı səviyyədə inflyasiyaya səbəb olacağı gözlənilərkən, qiyməti 5000 manatdan aşağı olan mal və xidmətlərin qiymətində artışın yüksək olacağı gözlənilirdi. Bu da diqqətə alınsa denominasiyanın ölkədə inflyasiyaya gətirib çıxarmaması istiqamətində bir pul siyasəti tətbiq olunması planlaşdırılmışdır.

Denominasiya ilə ölkə pul vahidinin dəyərinin Avro və Dollara yaxınlaşdırılması da hədəflənirdi. Bununla da demək olar ki, dolların alış gücünə bəra-

bər bir alım gücünə sahib milli pul vahidinə sahib olacaqdır. Bu da dollarlaşmağa qarşı mübarizə hədəfini daşıyır. Ancaq, belə bir adddımın ölkə pul vahidinin dollara indekslənməsi kimi fikirləşilməsi düzgün deyil. Xüsusiylə 2015-ci ildə neft qiymətlərinin azalması fonunda manatın güclənməsi dayandı və il ərzində iki dəfə devalvasiya edilərək manat dollar qarşısında iki dəfə ucuzlaşdı[218].

Pul siyasəti qərarlarının əsas problemi, nə qədər təəccüblü olsa da, manatın həddindən artıq güclü bir vəziyyətdə olmasıdır. Nəticədə yerli istehsalın əleyhinə olacaq şəkildə idxal və ixraca görə cazib hala gəlir[219].

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2015-ci ildə orta illik inflyasiya 3.7% təşkil etmişdir ki, bu da son 10 il üzrə orta illik istehlakçı qiymətləri indeksinin dəyişimindən 3.8 faiz bəndi aşağıdır.

Xarici valyuta təklifinin azalması tələbin isə artması fonunda 2015-ci ildə Mərkəzi Bankın məzənnə siyasəti ölkənin beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi və makroiqtisadi sabitliyin qorunması məqsədləri çərçivəsində həyata keçirilmişdir. 2014-cü ilin sonlarından başlayaraq dünya neft bazarında qiymətlərin kəskin düşməsi və Azərbaycanın əsas ticarət tərəfdaşlarında devalvasiya dalğaları daxili valyuta bazarında xarici valyutaya, xüsusilə ABŞ dollarına tələbin artması ilə müşayiət olunmuşdur. 2015-ci ildə valyuta bazarının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.8 dəfə artmışdır. Valyuta bazarında əməliyyatların 91%-i ABŞ dollarında, qalan 9%-i isə digər valyutalarda aparılmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ABŞ dolları ilə əməliyyatların həcmi 1.8 dəfə, Avro ilə əməliyyatların həcmi isə 2.1 dəfə artmışdır. Banklar tərəfindən əhaliyə ABŞ dolları ilə satılan xalis nağd xarici valyuta ötən ilin müvafiq dövrünə nəzərən 61.7% artmışdır. Nağd xarici valyutaya tələbin artması əsasən I rübdə baş vermişdir. Belə ki, 9 ayda xalis satılan ABŞ dollarının 63%-i, Avronun isə 38%-i I rübdə satılmışdır. 2015-ci ildə pul siyasətinə dair qərarların qəbulu zamanı pul siyasətinin həyata keçirilməsi şəraiti və inflyasiya hədəflərinə nail olma imkanları nəzərə alınmışdır. Dövr ərzində pul siyasəti iqtisadi tsikldəki meyllər və pul təklifinin dinamikası, habelə qiymət və maliyyə sabitliyi hədəfləri nəzərə alınmaqla həyata keçirilmişdir. Qeyri-neft sektorunda iqtisadi artıma maliyyə dəstəyini gücləndirmək, kredit faizlərinin enməsini sürətləndirməklə investisiyaları stimullaşdırmaq, kiçik və orta biznesin maliyyələşməsinin və əhalinin ipoteka kreditləşməsinin dəyərinin optimallaşmasına monetar zəmin yaratmaq məqsədilə 13 iyul 2015-ci il tarixindən etibarən Mərkəzi Bankın uçot dərəcəsi 3.5%-dən 3%-ə endirilmişdir. Pul kütləsinin dəyişimindəki son meyllər nəzərə alınaraq, habelə faiz dərəcələrinin enməsinə şərait yaratmaqla iqtisadi artıma dəstək vermək məqsədilə Mərkəzi

[218] http://www.cbar.az/assets/3574/Bulleten-2015_noyabr_1_.pdf
[219] Nazim İmanov, s.28.

Bankın müəyyən etdiyi məcburi ehtiyat norması 2%-dən 0.5%-ə endirilmişdir[220].

Pul təklifi 2015-ci ildə manatla pul kütləsinin dinamikası əsasən valyuta bazarında gedən proseslərin təsiri altında formalaşmışdır.2015 ilin manatla pul bazası 38.9% azalaraq dövrün sonuna 7050.4 mln. manat təşkil etmişdir. Pul bazasının dəyişiminə dollarlaşma azaldıcı, digər amillər isə (Mərkəzi Bankın apardığı bazar əməliyyatları və s.) artırıcı təsir etmişdir. Bank sisteminin pul yaratma qabiliyyətini ifadə edən pul multiplikatorunun səviyyəsində əhəmiyyətli dəyişiklik baş verməmişdir.AMB Dövr ərzində manatla geniş pul kütləsi (M2) 46.3% azalaraq dövrün sonuna 9369 mln. manat təşkil etmişdir. Geniş mənada manatla pul kütləsi əsasən nağd pul kütləsi hesabına azalmışdır. AMB Dövr ərzində geniş pul kütləsi (M3) 18% azalaraq 01.10.2015-ci il tarixinə 17684 mln. manat olmuşdur. 2014-cü ilin müvafiq dövrünə nəzərən isə M3 pul aqreqatı 16.3% azalmışdır.

2015-ci ildə M3 pul aqreqatının azalması əsasən xalis xarici aktivlərin azalması hesabına baş vermişdir. Geniş pul kütləsinin azalmasında xalis xarici aktivlərin payı 59.5% təşkil etmişdir. AMB 1 Nağd pul, tələb olunanadək, müddətli əmanət və depozitlər manat və xarici valyutada Xarici valyutada depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi dövrün sonuna 68% təşkil etmişdir. Xarici valyutada əmanət və depozitlərin M3 pul kütləsində payı isə dövrün sonuna 47% olmuşdur.

7.2. MALİYYƏ SİYASƏTİ

Makroiqtisadi siyasətin əsas istiqamətlərindən biri büdcə-vergi siyasətidir. Büdcə-vergi siyasəti hökümətin büdcə xərcləri və vergi sistemi ilə bağlı elə tənzimləyici siyasətidir ki, bu, son nəticədə milli gəlirin və xərcləmələrin strukturuna və yenidənbölgüsünə təsir edir.[221] Büdcə-vergi siyasətinin məzmunu olaraq, dövlətin həm sosial sahədə, həm də iqtisadi sahədə birbaşa büdcə ilə bağlı həyata keçirdiyi və nəzərdə tutduğu islahatları, iqtisadi qanunları, tədbirləri qeyd etmək olar. Büdcənin gəlir və xərclərinin çoxluğu, tarazlığı, qeyritarazlığı, kəsrin maliyyələşdirilməsi forması kimi məqsədlərə çatmaq üçün, büdcə-vergi siyasəti bir vasitə kimi istifadə oluna bilər. Büdcə-vergi siyasəti dövlətin maliyyə siyasətinin tərkib hissəsi olmaqla büdcə vəsaitlərinin yaranması və istifadəsi ilə bağlı dövlətin həyata keçirdiyi maliyyə tədbirlərini əhatə edir və güclü tənzimləmə vasitəsi rolunu oynayır. İlk dəfə olaraq, fiskal siyasəti XX əsrin 30-cu illərində dünya iqtisadiyyatında baş vermiş qlobal maliyyə böhranından çıxış vasitəsi kimi C.M.Keyns irəli sürmüşdür. Keyns və onun

[220] http://www.cbar.az/

[221] İnqilab Əhmədov, Kənan Aslanlı, Şəhriyar Əhmədov, **Dövlət Maliyyəsi Terminləri Lüğəti**, Bakı, 2008,s.62-63.

davamçılarının fikirlərinə görə, vergi dərəcələri və büdcə xərclərində müvafiq dəyişikliklər etməklə məcmu tələbi stimullaşdırmaq, beləliklə, iqtisadi prosesləri aktivləşdirmək olar. Keyns nəzəriyyəsinə görə, dövlətin fiskal siyasətdə etdiyi dəyişiklik məcmu tələbə və dolayısı ilə də məcmu təklifə öz təsirini göstərəcəkdir. Deməli, büdcə-vergi siyasəti məcmu tələblə bərabər, məşğulluğun və əhali gəlirlərinin səviyyəsinə də təsir etmək imkanına malikdir.

Büdcə-vergi siyasətinin əsas alətləri

Büdcə-vergi siyasətinin əsas alətləri vergilər və dövlət xərcləridir. Dövlət xərcləri, dövlətin öz funksiyalarını yerinə yetirə bilməsi üçün etdiyi xərclərdir. İctimai ehtiyacların aradan qaldırılması üçün dövlətin bəzi mal və xidmətlərdən yaralanması lazımdır ki, bu da dövləti müəyyən vəsaitlər xərcləməyə məcbur edir. İctimai xidmətlərin yerinə yetirilməsi yanında müasir dövlətin üzərinə götürdüyü iqtisadi vəzifələr də getdikcə xərclər şəklində qarşımıza çıxmaqdadır. Ədalətli gəlir bölgüsünü tənzimləmə, tam məşğulluğu reallaşdırma, iqtisadi inkişafa şərait yaratma kimi məqsədlərin dövləti davamlı olaraq mal və xidmət alımına istiqamətləndirməsi bir reallıqdır. Eyni zamanda, bu məqsədlər dövləti, bəzən xüsusi sektora qarşılıqsız yardımlar etməyə istiqamətləndirməkdədir. Dar mənada dövlət xərcləri kimi, mərkəzi dövlət təşkilatı və yerli qurumların xərcləri nəzərdə tutulur. Geniş mənada isə dövlət xərclərinə vergi xərcləri də aiddir. Vergi xərcləri, dövlətin vergi olaraq almalı olduğu miqdardan müxtəlif səbəblərlə imtina etdiyi miqdardır. Vergidən azad olma, vergi endirimi kimi adlarla dövlət alacağı vergi miqdarının bir qismindən və ya hamısından imtina etməkdədir. Beləliklə, dövlət xərclərini dövlətin xalis maddi dəyərində bir azalma kimi qiymətləndirə bilərik.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir.[222]

Büdcə-vergi siyasətinin növləri

Fiskal siyasətin 3 əsas növü var: neytral, ekspansionist və restriksionist fiskal siyasət.

Neytral fiskal siyasət adətən iqtisadiyyat tarazlıq hökm sürən zaman tətbiq edilir. Bu zaman dövlət xərcləri tam olaraq dövlət gəlirləri hesabına maliyyələşir və iqtisadiyyata neytral təsir göstərir.

Ekspansionist fiskal siyasət zamanı dövlət xərcləri gəlirləri üstələyir. Bu siyasət vergilərin azaldılması və büdcə xərclərinin artırılması hesabına dövri böhranın aradan qaldırılması məqsədi ilə istifadə olunur. Ekspansionist fiskal siyasət iqisadiyyata həm müsbət həm də mənfi təsirlər göstərə bilər. Belə ki, bu

[222] Cihan Bulut, Elçin Süleymanov, **Dövlət maliyyəsi**, Bakı, 2015 s.99-100

siyasətin həyata keçirilməsi nəticəsində tsiklik böhranın aradan qaldırılmasını müsbət, eyni zamanda büdcə kəsirinin və inflyasiyanın artmasını isə mənfi təsir kimi qiymətləndirə bilərik. Ekspansionist fiskal siyasətin həyata keçirilməsi zamanı dövlət xərclərinin çoxalması nəticə etibarı ilə məcmu tələbin və ölkənin ümumi daxili məhsulunun artmasına səbəb olur.

Restriksionist fiskal siyasət həyata keçirilirsə, dövlət gəlirlərinin yalnız bir hissəsi xərclərə yünəldilir. Bu siyasətin əsas məqsədi, büdcə kəsrlərinin sekvestri və vergilərin artırılması hesabına iqtisadiyyatın dövri artımının məhdudlaşdırılmasıdır. Məhdudlaşdırıcı fiskal siyasət də öz növbəsində iqtisadiyyata müsbət və mənfi təsirlər göstərə bilər. Bu siyasətin həyata keçirilməsi nəticəsində büdcə kəsiri və inflyasiyanın azalmasını müsbət, qısamüddətli dövrdə işsizliyin artması və uzunmüddətli dövrdə isə staqflyasiya təhlükəsi yaratmasını isə mənfi hal kimi qiymətləndirə bilər.

Büdcə-vergi siyasətinin tipləri

Büdcə-vergi siyasətinin dövlət iqtisadiyyatında rolu onun xarakteri və tipləri ilə əlaqəlidir, yəni qəbul edilmiş fiskal siyasətin tipi onun reallaşdırılması mexanizmlərini müəyyən edir. Fiskal siyasətin diskresion və avtomatik olmaqla iki əsas tipi var:

Diskresion fiskal siyasət eyni zamanda aktiv fiskal siyasət də adlandırılır. Dövlət aktiv büdcə-vergi siyasəti həyata keçirərkən, vergilər və büdcə xərcləri ilə bilərəkdən manipulyasiya etməklə iqtisadi proseslərə müdaxilə edir. Yəni, dövlət diskresion fiskal siyasət həyata keçirməklə ölkədə ümumi daxili məhsulun həcminin artıb-azalması, məşğulluğun səviyyəsinin optimallaşdırılması, qiymətlərin dəyişməsi və inflyasiyanın tənzimlənməsi məqsədilə vergilərlə dövlət xərcləri arasında manevr etməklə, yaranmış vəziyyətdən səmərəli çıxış yolları tapmağa çalışır. Diskresion siyasət zamanı dövlət ölkənin iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün məqsədyönlü şəkildə vergitutmanı və büdcə xərclərini tənzimləyir. Iqtisadi tsiklin müxtəlif fazalarında bu tənzimləmənin səviyyəsi müxtəlif olur. Belə ki, iqtisadi böhranlar zamanı dövlət öz xərclərini artırır, vergilərin səviyyəsini azaldır. Bütün bunlar da alıcılıq tələbatının genişlənməsinə gətirib çıxarır. Istehsalda artım inflyasiya ilə müşayət olunduqda isə dövlət öz xərclərini azaltmaqla və vergilərin səviyyəsini yüksəltməklə işgüzar fəallığın qarşısını alır. İqtisadi tənəzzül zamanı isə məcmu tələbi stimullaşdırmaq üçün diskresion fiskal siyasət yolu ilə dövlət, xərclərinin həcmini artırmaqla və ya vergilərin səviyyəsini aşağı salmaqla məqsədyönlü şəkildə büdcə kəsiri yaradır. Dövlət xərclərinin stimullaşdırıcı təsir göstərməsi üçün onlar vergi daxilolmaları hesabına maliyyələşdirilməməlidirlər. Vergi dərəcələrinin artımı işgüzar fəallığa olan stimulu azaldır, bu isə istehsalın həcminin aşağı düşməsinə səbəb olur. Buna görə də dövlət xərclərinin artımı bir qayda olaraq büdcə kəsiri ilə müşayət olunur. Beləliklə, istehsalın tənəzzülü dövründə öz

xərclərini artırmaqla və inflyasiya ilə müşayət olunan iqtisadi yüksəliş dövründə öz xərclərini azaltmaqla, dövlət iqtisadi böhranları yüngülləşdirir, milli istehsalın həcminin artımına nail olur.

Avtomatik və ya passiv fiskal siyasət həyata keçirilərkən, vergilər və büdcə xərcləri ilə bağlı dəyişikliklər avtomatik olaraq tənzimlənir. Avtomatik fiskal siyasət iqtisadi yüksəliş dövründə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq artmasını, iqtisadi tənəzzül zamanı isə dövlət büdcəsinə xalis vergi daxilolmalarının həcminin avtomatik olaraq azalmasını nəzərdə tutur. Bu dəyişikliklər «quraşdırılmış özütənzimləyici»lərin təsiri ilə baş verir. Quraşdırılmış özütənzimləyici, dövlətin iqtisadi siyasətində dəyişiklik etmədən istehsalın və məşğulluğun səviyyələrindəki tərəddüdləri azaltmağa imkan verən bir mexanizmdir. Belə avtomat tənzimləyicilər aşagıdakılardır:

- iqtisadi yüksəliş dövründə məcmu tələbin qarşısını alan proqressiv vergi sistemi. Belə ki, əhalinin gəlirləri artdıqca bu gəlirlər daha yüksək dərəcə ilə vergiyə cəlb olunurlar. Bu isə məcmu tələbin qarşısını alır. Iqtisadi tənəzzül nəticəsində gəlirlər azaldıqda isə vergi dərəcələrinin aşağı salınması əldə olan gəlirin artmasına səbəb olur. Bunun da nəticəsində məcmu tələbin stimullaşdırılması baş verir.
- iqtisadi tənəzzül dövründə işsizlərin sayının artması nəticəsində işsizliyə görə ödənilən müavinətlərin və digər sosial ödənişlərin həcmi artır. Iqtisadi yüksəliş zamanı isə işsizliyin səviyyəsi aşağı düşür, bu isə öz növbəsində avtomatik olaraq həmin ödənişlərin həcminin azalmasına gətirib çıxarır.

Avtomatik fiskal siyasətin əsas üstünlüyü ondadır ki, iqtisadi şəraitin azacıq dəyişməsi nəticəsində quraşdırılmış özütənzimləyicilər yubanmadan işə düşürlər. Avtomatik fiskal siyasətin çatışmayan cəhəti isə odur ki, o dövrü tərəddüdləri yalnız hamarlayır, onları tamamilə aradan qaldıra bilmir. Beləliklə, fiskal siyasət dövlət tərəfindən aktiv və ya passiv şəkildə vergilər, onların növləri və dərəcələri, o cümlədən büdcə xərcləri ilə əlaqəli müəyyən dəyişikliklər etməklə milli iqtisadiyyatın bütövlükdə və ya ayrı-ayrı strateji sahə və regionlarının inkişafının tənzimlənməsi sistemidir.

Azərbaycan Respublikasının büdcə-vergi siyasəti 2016-cı ildə iqtisadiyyatın dayanıqlılığının qorunub saxlanılmasına, onun aparıcı sahələrinin modernləşməsinə və şaxələnməsinə, sosial prioritetlik gözlənilməklə ölkədə əhalinin sosial müdafiəsi istiqamətində tədbirlərin davam etdirilməsinə, o cümlədən əhalinin yaşayış səviyyəsinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsinə yönəldilmişdir.

2016-cı ildə qeyri-neft sektorunun daha da stimullaşdırılması, bu istiqamətdə daxilolmaların daha da artırılması üçün vergi öhdəliklərinin vaxtında və tam həcmdə yerinə yetirilməsi, bütövlükdə vergi və gömrük intizamının gücləndirilməsi əsas hədəflərdəndir.

Dünya bazarında xam neftin satış qiymətinin 30-50 dollar səviyyəsinə düşəcəyini nəzərə alaraq, 2016-2019-cu illər üçün dövlət və icmal büdcə əsas istiqamətləri və prioritetləri üzrə optimist (60dollar olarsa), baza (50 dollar olarsa), pessimist (40 dollar olarsa) ssenariləri hazırlanmışdır.[223]

Göstərici	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014
Əlavə dəyər vergisi	599.9	737.8	1179.2	1910.9	2012.8	2082.5	2222.7	2366.9	2710.0	3119.6
Aksizvergisi	141.0	187.4	402.9	486.9	485.1	514.9	480.2	531.5	593.3	797.3
Mənfəətvergisi	355.4	1360.5	2457.7	2862.3	1329.2	1429.9	2134.0	2252.0	2374.8	2302.7
Torpaqvergisi	15.3	18.5	27.1	30.6	26.2	35.3	35.3	30.6	33.1	35.4
Fiziki şəxslərin gəlirvergisi	317.4	407.3	588.6	627.2	581.9	590.2	715.7	813.0	859.7	980.3
Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	205.2	139.3	293.3	449.7	418.1	291.8	433.1	592.5	675.2	684.7
Əmlakvergisi	40.4	55.8	72.4	112.9	66.2	101.8	103.9	105.1	125.1	141.3
Sairgəlirlər	28.1	40.9	68.6	96.8	86.8	90.3	140.6	157.6	161.5	192.7
Mədənvergisi	53.5	100.2	123.2	147.7	121.9	130.1	129.8	125.8	121.5	116.2

Ölkədə 1992-ci ilin dekabrında qəbul edilən "Büdcə Sistemi Haqqında Qanun" çərçivəsində büdcə sistemi Azərbaycan Respublikasının büdcəsi, Naxçıvan MR-nın büdcəsi və yerli büdcələrdən ibarətdir.

Büdcə gəlirləri əsasən gəlir vergisi, ƏDV, gömrük vergiləri, torpaq vergisi və aksizlərdən (siqaret, içki, idxal olunan minik avtomobillərindən və mədənlərdən alınan vergilər) ibarətdir. Büdcə xərclərindən sosial müdafiə xərcləri, müdafiə xərcləri və büdcədən ayrılan dövlət təşkilatlarına edilən xərclər xüsusi yerə sahibdir.

Azərbaycanda Qarabağ müharibəsi ilə əlaqədar atəşkəsin elanı və siyasi stabilliyin olması ilə birlikdə iqtisadi stabilliyi əmələ gətirməyə yönəlmiş prosedurlar da tədbiq olunmağa başlanmışdır. Bu çərçivədə bir vergi reformu tətbiq olunmuşdur.

1991-1994-cü illər arasında Ermənistan ilə olan müharibənin dövlət büdcəsində yaratdığı mənfi təsir böyük olmuşdur. Bu dövrdə dövlət xərclərinin ÜDM-a nisbəti 55%-ə, dövlət büdcə kəsirinin ÜDM-a nisbəti isə 15%-ə qədər yüksəlmişdir. Bir tərəfdən neft və özəlləşdirmə gəlirləri dövlət büdcəsinin kəsirlərinin maliyyələşdirilməsində istifadə edilməyə davam edilərkən, digər tərəfdən dövlət gəlirlərini artırıcı, xərcləri azaldıcı tədbirlər də tətbiq olunmağa çalışılmışdır. 1999-cu ildə dövlət büdcə kəsirlərinin ÜDM-a nisbəti %5.4-ə qalxmasına baxmayaraq alınan tədbirlərlə bu nisbətin daha aşağı səviyyədə tutulması hədəflənir.

[223] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, **Azərbaycan Respublikasının 2016-ci il üçün dövlət və icmal büdcə layihələrinin təqdimatı**, Bakı, 2015.

BVF dəstəkli maliyyə siyasətləri çərçivəsində dövlət xərclərinin azaldılması hədəflənmiş və bu yolla büdcə kəsrinin nəzarət altına alınması qarşıya məqsəd olaraq qoyulmuşdur. Tətbiq edilən sərt pul siyasətinə əsasən aşağı olan inflasiyanın davam etdirilməsi və qonşu ölkələrdəki böhranlardan ən az təsirlənməsi hədəflənmişdir. Bu məqsədlə sərt bir likvidlik inzibati nəzarəti tətbiq edilərək manata olan etibarın yenidən əldə olunmasına çalışılmışdır. Bununla da real və nominal faizlərin aşağı salınması istənmişdir.

BVF dəstəkli maliyyə siyasətləri nəticəsində dövlət xərclərində baş verən azalmalara baxmayaraq, dövlət gəlirlərində də baş verən azalmalar dövlət büdcə kəsrinin aradan qaldırılmasında xarici qaynaq istifadəsinin artmasına yol açmışdır. Bununla birlikdə büdcə kəsrinin maliyələşdirilməsində özəlləşdirmədən[224] əldə edilən gəlir və digər oxşar iç qaynaqlardan da istifadə olunmuşdur. 2000-ci ildə dövlət gəlirləri içərisində ən əhəmiyyətli gəlir qaynağını ƏDV gəlirləri təşkil etmişdir.

Aparılan islahatlar çərçivəsində vergi gəlirlərini artırıcı, vergi sahələrini gücləndirici tədbirlər tətbiq olunmağa başlanılmışdır. Son illərdə görülən dövlət xərclərindəki artışlar əmək haqqı, sosial transferlər ilə sərmayəni artıran investisiyalarda görülən artışlardan qaynaqlanmaqdadır. Dövlət xərcləri içində müxtəlif sahələrə ayrılan hissələrdə azalışlar edilmişdir. Hökümət bu yolla dövlət büdcə balansında vəziyyəti yaxşılaşdırmağa çalışır.

Azərbaycanda vergi sistemi ölkə konstitusiyası və digər qanuni tənzimləmələrlə müəyyən olunmuşdur. Həmin bu hüquqi tənzimləmələrə görə də verginin müəyyən olunması və alınması tətbiq edilir. Xüsusilə, son illərdə büdcə gəlirlərinin böyük bir qisminin vergilərdən təşkil olunması bu mövzunun əhəmiyyətini artırır. Bu baxımdan da vergi ilə əlaqədar təşkilatların əhəmiyyəti də gündən-günə artır. Bu təşkilatların ən əhəmiyyətlisi olan Vergilər Nazirliyi 1990-cı ildə Maliyyə Nazirliyi tərkibində qurulmuş 1991-ci ildə müstəqil vergi müfəttişliyi, 2000-ci ildə də ölkə başçısının qərarı ilə Nazirlik olmuşdur. Bundan sonra da bu nazirliyin digər departamentləri yaradılmışdır. Bundan əlavə fərqli regionlarda da departamentləri açılmışdır. Vergi siyasəti və vergi yığılması Vergi Nazirliyi tərəfindən həyata keçirilir.

Ümumi olaraq ölkədə üç növ vergi vardır. Bunlar dövlət vergiləri, Muxtar Respublika vergisi və yerli vergilərdir. Vergi alınması isə iki şəkildə həyata keçirilir. Birincisi birbaşa qaynaqdan alınarkən, digəri isə bəyannamə əsasına görə həyata keçirilir. 9 növ dövlət vergisi, 8 növ Muxtar Respublika vergisi

[224] Azərbaycanda kiçik ve orta həcmli dövlət müəssisə və təşkilatlarının özəlləşdirilməsi tamamlanmış, böyük həcmli dövlət müəssisələrini özəlləşdirmə prosesinə isə başlanmışdır. Eyni zamanda, hələ dövlət mülkiyətində olan qeyri-neft sektorlarına aid müəssisələrdə faydalı struktur dəyişikliklər edilməmiş, ölkədə böyük potensiala sahib fabriklər olmasına baxmayaraq Azərbaycanın sənaye potensialı bir xeyli zəifləmişdir. Ətraflı məlumat üçün bax: Zenfira Nəsirova, *Sovetlər Birliyi Dağıldıqdan Sonra Azərbaycanda İqtisadi İnkişaf*, Nəşr olunmamış Magistr Diplom İşi, M.Ü, Hümanitar Elmlər İnstitutu, İstanbul 2002, ss.79-80.

(Naxçıvan Muxtar Respublikasına aiddir), 4 növ də yerli (bələdiyə) vergi növü mövcuddur. Müəyyən insanlar isə gəlir vergisindən ya tamamilə azad olmuşlar, ya da bəzi güzəştlər əldə etmişlərdir. Bütün bunlarla bərabər vergi sistemində də mütəmadi olaraq inkişaf və keçid dövrünə davam edilərək vergi sisteminin inkişaf etmiş ölkələrdəki sistemə görə qurulması planlanır.

Vergi Qanunları yenilənərkən, vergi məmurları gücləndirilməyə çalışılmışdır. 2000-ci ildə ƏDV-də, Hüquqi Şəxs Vergisində, Sosial Müdafiə Fondunda sahibkarlardan kəsilən ödənişlərdə güzəştlər edilərək dövlət gəlirləri artırılmağa çalışılmışdır. BVF ilə imzalanan müqavilə çərçivəsində dövlət xərclərinə nəzarət edilməyə çalışılmışdır.

Dövlət sektorunda təşkilati strukturu gücləndirmək məqsədi ilə bir çox yeni düzəlişlər edilməsinə baxmayaraq, dövlət sektorunun hələ də təsirli bir şəkildə işlədiyini söyləmək mümkün deyil.

Bundan əlavə Nazirlər Kabineti də daxil olmaqla bir çox nazirlikdə, dövlət sektorunun tamamiylə yenidən formalaşmasını gərəkdirən bir struktur reform fəaliyyəti ilə məhkəmə gücünü və müstəqilliyini artıracaq fəaliyyətlərə də davam edilir[225].

Tətbiq edilən siyasətin ən əsas məqsədlərindən biri isə bazarı canlandıraraq qeyri-neft sektorunun da inkişafını təmin etməkdir. Yoxsulluğun azaldılması və real iqtisadiyyatın canlandırılması da əsas məqsədlərdəndir. Maliyyə siyasətlərin sürətləndirilməsi kiçik və orta həcmli müəssisələrin iqtisadi vəziyyətlərinə müsbət təsir göstərəcəkdir.

Ölkədə vergi sisteminin sadələşdirilməsi, ƏDV nisbətinin azaldılması vergi yükünün azaldılması istiqamətində addımların atılması lazımdır. Bu cür addımların atılması, qeyri-neft sektorlarının inkişafına imkan verəcək və qiymətdə stabilliyə müsbət təsir göstərəcək. Beynəlxalq təcrübə göstərir ki, ƏDV nisbəti 5-10% arasında olan iqtisadiyyatda inkişaf gözləmək olar. Bu nisbət yüksək olarsa, Cənubi Amerika ölkələrində olduğu kimi, bəzi ciddi problemlər ortaya çıxar.

2016-ci ilin əvvəllərinə qədər Vergi Məcəlləsinə ikiyüzdən çox əlavə və dəyişiklik edilmişdir. Edilən dəyişikliklər vergi nəzarətində faydalılığın artırılması, vergi ödəyənlərin hüquqlarının mühafizəsi, vergidən qaçışların qarşısının alınması məqsədlərinə çatmaq üçündür. Edilən dəyişikliklərə görə bəzi vergi prosedurlarında müəyyən müddət məhdudiyyəti gətirilmişdir. Əmlakını kiralamaq istəyənlər üçün də Vergi Məcəlləsində bəzi dəyişikliklər edilmişdir. Edilən dəyişikliklərlə gömrük sistemi sadələşdirilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalının da torpaq vergisi istisna olmaq üzrə, vergi ödəməmələrinə qərar verilmişdir. Yeni tənzimləmələr çərçivəsində sadələşdirilən vergi sisteminin tətbiq edilmə sahəsi də genişlədilmişdir.

---

[225] Ayhan Karaca, "Azerbaycan'da İqtisadi Dönüşüm Süreci ve Reformların 10 Yılı", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/ocakozel2002/ayhan.htm, (13.03.2003).

Büdcə-vergi siyasətinin əsas istiqamətləri

Ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozuna uyğun olaraq, maliyyə siyasətinin həyata keçirilməsi üçün 2016-ci ildə büdcə-vergi siyasəti üzrə müvafiq icra orqanları tərəfindən bir sıra tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur:

Gəlirlər üzrə:

- qeyri-neft gəlirlərinin büdcə gəlirlərin içərisində xüsusi çəkisini artırmaq;
- Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin tədricən azaldılması;
- mövcud qanunvericiliyə dəyişikliklər edilməklə sadələşdirilmiş vergi sisteminin təkmillşədirilməsi və iqtisadiyyatın bəzi sahələrində fəaliyyət göstə-rən vergi ödəyicilərinə vergi ödənilməsi qaydaları üzrə seçim hüququnun verilməsi;
- iqtisadiyyatın müxtəlif sahələrinə vergi və gömrük ödənişləri üzrə tətbiq edilən vergi güzəştlərinə yenidən baxılması, onların məhdudlaşdırılması və yaxud ləğv edilməsi;
- nizamnamə fondunda və yaxud səhmlərində dövlət payı olan müəssisələrdən həmin paylara görə dövlət büdcəsinə dividentlərin alınması;
- dövlət büdcəsinə hesablanmış vergilərin daxilolmalarının yığım faizinin artırılması;
- hesablanmış məcburi dövlət sosial sığorta haqları üzrə yığım faizinin artırılması istiqamətində işlərin davam etdirilməsi;
- ölkənin şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılması üçün mərkəzləşdirilmiş qaydada vergi uçotunda olan ödəyicilərin vergiləri he-sabına dotasiyaların azaldılması istiqamətində işlərin davam etdirilməsi;
- gömrük tarifləri sisteminin daha azpilləli sistemə keçidinin təmin edilməsi üçün işlərin davam etdirilməsi;
- dövlət torpaqlarının icarəyə verilməsindən əldə olunan gəlirlərin büdcəyə daxilolma əmsalının artırılması;
- dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə daxilolmaların artırılması istiqamətində təsirli tədbirlər görmək.

Xərclər üzrə:

- qeyri-münbit xarici mühit şəraitində, həmçinin dövlət və icmal büdcələrin gəlir və xərclərinin azalması fonunda fiskal yığcamlaşdırma siyasətini davam etdirmək, dövlət sektorunda xərclərin səmərəliliyinin artırılmasını, dövlət və icmal büdcələrin cari və əsaslı xərclərinin idarəolunmasını təkmilləşdirmək;
- sosial siyasəti davam etdirməklə, dövlət büdcəsində nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas dövlət proqramları, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və fiziki infrastruktur layihələri üçün maliyyə təminatı yaratmaq;

- pensiya təminatı üzrə maliyyə dayanıqlılığının daha da artırılması, sığorta prinsiplərinin gücləndirilməsi və qazanılan pensiya hüquqları ilə məcburi dövlət sığorta haqları arasında balanslaşdırma mexanizminin tətbiqi üçün təsdiq edilmiş Azərbaycan Respublikasında Pensiya təminatı sisteminin islahatı Konsepsiyasının həyata keçirilməsi ilə əlaqədar maliyyə təminatı yaratmaq;
- ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi üçün maliyyə təminatı yaratmaq;
- əhalinin əsas ərzaq məhsulları ilə özünü təmin etməsinin həlli üçün aqrar sektora dövlət qayğısının artırılmasını, dövlət tərəfindən fermerlərin dəstəklənməsini, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsini və bu sahələrə subsidiyaların verilməsini davam etdirmək;
- qeyri-neft sektorunun inkişafında büdcə xərclərinin, habelə zərurət yarandığı halda iri maliyyə tutumlu istehsal layihələrinin birbaşa maliyyələşdirilməsindən istifadə edərək maliyyə təminatı yaratmaq;
- dövlət borclarının idarə olunmasında səmərəliliyi daha da artırmaq, dövlət zəmanəti ilə kredit alan təşkilatların maliyyə fəaliyyətinə nəzarəti gücləndirmək, kreditlərə xidmət xərclərinin həmin təşkilatların vəsaitləri hesabına həyata keçirilməsi işini davam etdirmək;
- dövlət proqram və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılmasını, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş yeni dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsini təmin etmək;
- təhsil, səhiyyə, sosial sığorta və sosial yardım sistemində, idman və mədəniyyət sahələrində islahatları davam etdirmək, onların prioritet inkişaf istiqamətlərinə diqqət artırmaq;
- ölkədə infrastruktur layihələrinin həyata keçirilməsi üçün beynəlxalq maliyyə təşkilatları ilə müştərk maliyyələşdirilməni davam etdirmək;
- ölkədə iqtisadiyyatın bir çox sahələrində dövlət maliyyəsinin iştirakını mərhələlərlə məhdudlaşdıraraq, özəl investisiyaların cəlb edilməsinin daha da fəallaşdırılması istiqamətində işləri davam etdirmək.

Büdcə kəsiri üzrə:

- dövlət büdcəsi kəsirinin idarə olunan səviyyədə saxlanılmasına nail olmaq
- dövlət büdcəsi kəsirinin real iqtisadi metodlarla minimum səviyyədə saxlamaq
- dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsində daxili resurslardan istifadə edilməsi və xarici maliyyə mənbələrindən asılılığın minimum olmasına nail olmaq.

7.3. VALYUTA KURSU SİYASƏTİ

Azərbaycanda tətbiq edilən valyuta kursu siyasəti ilə xarici ticarət və ödəmələr balansı arasında yaxın münasibət var. Aparılan araşdırmalarda keçid dövründə olan ölkələrdə valyuta kursunun həm xarici ticarət göstəricisi, həm real sektor imkanları, həm də inflyasiyaya qarşı tənzimləmələrdə rol oynadığı müşahidə edilir. BVF-in istəkləri istiqamətində xarici borcların dəyərini mühafizə etmək üçün valyuta kurslarının sabitlənməsi ölkə daxili istehsal və ixraca mənfi təsir göstərəcəkdir. Bu vəziyyət idxal və ixrac arasında fərqin idxal lehinə olmasına da təsir etmişdir[226].

Azərbaycan Manatı artan inflyasiya sürətinin də təsiriylə tədavülə çıxdığı 1992-ci ildən yeganə pul vahidi olaraq qəbul edildiyi 1994-cü ilə qədər kəskin şəkildə dəyər itirmiş və xüsusilə də 1994-cü ildə həddən artıq dalğalanmalar baş vermişdir.

1995-ci ildən etibarən tətbiqata qoyulan makroiqtisadi stabillik siyasətləri və izlənən kontrollu dalğalanan kurs siyasəti nəticəsində həyata keçən sərmayə daxil olmalarıyla, pul təklifi nəzarət altında tutularaq, qiymətlərin daha da yüksəlməsinin qarşısı alınmağa çalışılmış, ancaq, manatın dollar qarşısında nominal dəyəri də yüksəlməyə başlamışdır. Bu ildən etibarən Milli Bank valyuta kursu siyasətini dəyişdirməmiş və 1998-ci ilə qədər manat nominal və real olaraq dəyərlənmişdir. Bu dəyər qazanmağa qiymət stabilliyinin əldə edilməsi ilə yanaşı neft sektoruna gələn xarici sərmayənin böyük təsiri var. 1998-ci il böhranının da təsiriylə və ixracatda ortaya çıxan azalmalar nəticəsində, 1999-cu ilin ortalarından etibarən dalğalı kurs rejiminə keçilmiş, milli pul vahidinin dollar qarşısında dəyəri azaldılaraq ixrac məhsullarında rəqabət üstünlüyü qazanılmağa çalışılmışdır. 1999-cu ildə dalğalı kurs rejiminə keçidlə bərabər manat, dollar qarşısında dəyər itirməyə başlamış və bu da ixraca təsir etmişdir.

Manatın dollar qarşısındakı dəyər itkisi 1999 və 2000-ci illərdə də davam etmişdir. Ənənəvi olaraq Azərbaycan əhəmiyyətli dərəcədə xarici ticarətdən asılı bir ölkə vəziyyətindədir. Xarici ticarətdəki rəqabət gücü isə qiymət üstünlüklərinə istinad edir. Xüsusilə tətbiq olunan kurs siyasətləri bu nöqtədə mühüm hala gəlir. Digər tərəfdən ən əsas ixrac sahəsi olan neft və neft məhsulları, xüsusilə neft konsersiyumlarının yeni neft yataqlarının istifadəyə başlamasıyla birlikdə mühüm artışlar göstərir[227].

Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi ilə əlaqədar valyuta ehtiyatlarının xərclənəcək olmasına və mühüm xarici borc ödəmələrinin olmasına baxmayaraq 2003-cü il üçün Milli Bank valyuta ehtiyatlarını eyni səviyyədə qorumağı hədəfləmişdir.

---

[226] Sancak, ss.58-60.
[227] Nəsirova, ss. 54-77.

Kurs siyasəti çərçivəsində 2003-2009–cü illərdə manatın dəyərində çox böyük bir dəyişiklik olmamışdır.

2009-cü ildə dünya bazarlarında neftin qiymətinin və valyuta daxil olmalarının sürətlə azalması nəticəsində, ölkənin valyuta bazarında valyuta tələbi, valyuta təklifindən yüksək olmuşdur. Milli Bank tətbiq etdiyi valyuta siyasəti ilə, valyuta kurslarındakı dalğalanmalara əngəl olmuşdur. Tətbiq olunan siyasət ilə güclənən manat, istehlak bazarında daha funksional olması ilə idxal mallarının qiymətlərindəki artımın təsirini bir miqdar azaltmışdır.

Azərbaycanın ölkələr arası ticarətdə sıx münasibət içində olduğu ölkələrin başında gələn Türkiyə, Rusiya, Ukrayna və İranda inflyasiya 8-14% arasında olmuşdur. Manatın bu ölkələrin pul vahidinə qarşı ortalama kursu 2.8% ucuzlaşmışdır. Buna görə də manatın real effektiv kursu 1.6% artmış və ölkə məhsullarının beynəlxalq rəqabət gücü daha da artmışdır.

Pul siyasətinin həyata keçirilməsi

2015-cü ildə Azərbaycanda qiymətlərin sabitliyi təmin edilmiş, inflyasiya aşağı təkrəqəmli səviyyədə təmin olunmuşdur. Dünya İqtisadi Forumunun son hesabatına görə Azərbaycan dünyada inflyasiyanın ən aşağı olduğu ölkələrdən biridir. 2015-cü ildə orta ilik inflyasiya 2014-ci ilin eyni dövrü ilə müqayisədə 0.8 faiz bəndi azalaraq 3.5% təşkil etmişdir. Bu, ticarət tərəfdaşı ölkələrindəki orta inflyasiyadan (5.2%) əhəmiyyətli səviyyədə aşağıdır. Mərkəzi Bank il ərzində inflyasiyaya təsir edən amilləri daim nəzarətdə saxlamışdır. Məqsədyönlü monetar tənzimləmə, daxili tələblə müqayisədə təklifin daha çox genişlənməsi, dünya bazarlarında ərzağın ucuzlaşması inflyasiyaya azaldıcı təsir etmişdir. Mərkəzi Bankın real sektor müəssisələri və ev təsərrüfatları arasında apardığı konyuktur sorğular inflyasiya gözləntilərinin azalmasını göstərir. Dövr ərzində əhalinin pul gəlirlərinin artımı inflyasiya tempini üstələmişdir.

2014-cü ildə Mərkəzi Bank əlverişli xarici iqtisadi mövqeyə əsaslanan məqsədyönlü məzənnə siyasəti həyata keçirərək milli valyutanın - manatın sabitliyini qorumuşdur. Mərkəzi Bank valyuta bazarındakı proseslərə çevik reaksiya verərək burada tarazlığı təmin etmişdir. Məzənnə siyasəti makroiqtisadi və maliyyə sabitliyi, habelə qeyri-neft sektorunun rəqabət qabiliyyətinin qorunması hədəfləri nəzərə alınmaqla həyata keçirilmişdir. Məzənnə siyasətinin həyata keçirilməsi mexanizmi dəyişməz saxlanılmış, ABŞ dolları/manat ikitərəfli məzənnəsi bu siyasətin əməliyyat hədəfini təşkil etmişdir. Bir sıra xarici ticarət tərəfdaşı ölkələrində milli valyutaların əhəmiyyətli devalvasiyaya uğraması şəraitində 2014-cü ildə manatın ABŞ dollarına qarşı məzənnəsi demək olar ki, dəyişməmişdir. Daxili inflyasiyanın partnyor ölkələrdəki inflyasiyadan əhəmiyyətli aşağı olması isə real effektiv məzənnəyə azaldıcı təsir etmişdir. Valyutaya tələb, nağd və qeyri-nağd bazarda xarici valyutanın alışı mənbələri və motivləri, təklif mənbələri, bəzi tərəfdaş ölkələrin valyutalarının dəyərsizləşməsi ilə bağlı

psixoloji amillər Mərkəzi Bank tərəfindən operativ izlənilmişdir. Bu əsasda müvafiq tənzimləmə tədbirləri görülmüş, nəticədə valyuta bazarında sabitlik qorunmuş və manatın məzənnəsində tərəddüdlər baş verməmişdir. Azərbaycan iqtisadiyyatının mövcud xüsusiyyətləri şəraitində manatın məzənnəsinin sabitliyi bir daha öz makroiqtisadi əhəmiyyətini təsdiq edir. Sabit məzənnə inflyasiya və inflyasiya gözləntilərinin idarə olunmasında, əhalinin və real sektorun aktivlərinin dəyərinin qorunmasında, bank sektorunun maliyyə sabitliyində əhəmiyyətli amildir. Eyni zamanda məzənnənin sabitliyində makroiqtisadi dayanıqlığın daha da möhkəmləndirilməsinə yönəlmiş struktur siyasətlər və iqtisadi siyasətin koordinasiyası da mühüm rol oynayır.

Valyuta bazarında yaranmış vəziyyəti nəzərə alaraq Mərkəzi Bankın İdarə Heyəti 21 fevral 2015-ci il tarixində ABŞ dollarının manata qarşı məzənnəsinin 1.05 AZN səviyyəsində müəyyən edilməsi haqqında qərar vermişdir[228]. Qərarın əsas məqsədi milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bu əsasda tədiyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək olmuşdur. AMB Hesabat dövründə Mərkəzi Bank məzənnə siyasətinin əməliyyat çərçivəsinin də təkmilləşdirilməsi haqqında qərar qəbul etmişdir. Belə ki, məzənnə siyasətinin ABŞ dolları və avronun daxil olduğu iki valyutalı səbət mexanizmi əsasında həyata keçirilməsinə başlanmışdır. Mərkəzi Bankın valyuta bazarındakı əməliyyatları müdaxilə dəhlizi çərçivəsində həyata keçirilmişdir. 2015-ci ildə Azərbaycan manatı rus rublu, Qazağıstan təngəsi, Ukrayna qrivnası və Belarus rublu istisna olmaqla bütün partnyor ölkələrin valyutalarına nəzərən ucuzlaşmışdır. Manatın nominal ikitərəfli məzənnələrinin dinamikası real ikitərəfli məzənnələrin, bu isə öz növbəsində real effektiv məzənnənin dəyişiminə təsir etmişdir.

21 dekabr 2015-ci ildə Mərkəzi bank üzən məzənnə siyasətinə keçdiyini elan etmiş və dollar yenidən bahalaşaraq 1.55 azn olaraq rəsmi olaraq 50% lik ikinci devalvasiyaya getmişdir. Mərkəzi Bank bu addımı neft qiymətinin azalmasının kritik həddə çatması və ABŞ da FED in faizləri artırmasından dolayı verdiyini açıqlamışdır.

2015-cü ildə aşağı inflyasiya şəraitində Mərkəzi Bank pul siyasətinin təşviqedici imkanlarından istifadə etmişdir. İqtisadi artımın daxili və xarici amillərini, ümumən, iqtisadi tsikldəki meylləri nəzərə alaraq Mərkəzi Bank pul siyasətini yumşaltmışdır. Qeyri-neft sektorunda investisiya fəallığının daha da artmasına və faiz dərəcələrinin enməsinə şərait yaratmaq üçün Mərkəzi Bank 2014-cü ildə faiz dəhlizi parametrlərinə 2 dəfə dəyişiklik etmişdir. Nəticədə uçot dərəcəsi mərhələlərlə 4.75%-dən 3.5%-ə endirilmişdir. Eyni zamanda bankların xarici və daxili öhdəlikləri üzrə məcburi ehtiyat normaları 3%-dən

[228] http://www.cbar.az/

2%-ə endirilmişdir. Bu tədbirlər depozit və kreditlər üzrə faiz dərəcələrinə azaldıcı təsir etmişdir.

Bank sisteminin xarici və daxili şoklara qarşı dayanıqlığı artırılmış, maliyyə sabitliyi qorunmuş, maliyyə resurslarının effektiv mobilizasiyası və bölüşdürülməsi təmin edilmişdir. Bank sistemində risklərin akkumulyasiyasının qarşısının alınması üzrə zəruri tədbirlər görülmüşdür. Bankların kapitalizasiyası davam etdirilmiş, əsas risklərin tənzimlənməsinə yönəlmiş prudensial nəzarət çərçivəsi tətbiq edilmişdir. Bank sektorunda əsas trendlərin diaqnostikası əsasında sistem əhəmiyyətli risklər preventiv qaydada məhdudlaşdırılmışdır. Bankların kapitalizasiyası davam etdirilmiş, kapitalizasiya potensialı aşağı olan banklar üzrə intensiv nəzarət rejimi tətbiq olunmuşdur. Kapitalizasiya qərarının qəbulundan (avqust 2012) ötən dövr ərzində bankların məcmu kapitalı 95% və ya 2 mlrd. manat artaraq 4,2 mlrd. manata çatmışdır[229]. Sektorun aktivlərinin 99%-nə malik bankların kapitalının həcmi 50 mln. manatdan yuxarı olmuşdur. Bank nəzarətinin risk əsaslı yeni metodoloji çərçivəsi hazırlanmışdır. Bankların davranış standartlarının müəyyənləşdirilməsi, arzuolunmaz biznes praktikasının aradan qaldırılması məqsədilə kredit təşkilatlarının sosial məsuliyyətlərinin artırılmasını nəzərdə tutan "məsuliyyətli" kreditləşmə üzrə yeni metodoloji çərçivə müəyyən olunmuşdur. Banklara etimadın artırılması tədbirləri çərçivəsində maliyyə xidmətləri istehlakçılarının müdafiə mexanizmlərinin formalaşdırılması, mübahisələrin operativ tənzimlənməsi, banklarda istehlakçıların hüquqlarının müdafiəsi işinin institutlaşdırılması davam etdirilmişdir.

Görülmüş tədbirlər nəticəsində bank sistemində əsas dayanıqlıq göstəriciləri yaxşılaşmış, bank sisteminin mümkün risklərə qarşı maliyyə ehtiyatlanması daha da gücləndirilmişdir. 2015-ci ilin sonuna bank sektorunun dayanıqlığının əsas indikatoru olan kapital adekvatlığı 12%-lik normaya qarşı 18,7% təşkil edir. Bank sektorunun likvidliyi yüksəkdir, öhdəlik və hesablaşmaların icrası fasiləsiz həyata keçirilir. Sistemin ani likvidlik əmsalı minimum tələbi 2 dəfə üstələyir. Bank aktivlərinin keyfiyyət göstəriciləri qənaətbəxş səviyyədədir. Real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının portfeldə xüsusi çəkisi 5.5% təşkil edir. Bu da banklar tərəfindən yaradılmış ehtiyatlarla tam örtülür. Xarici borc öhdəliklərinin bank resurslarında xüsusi çəkisi cəmi 22% təşkil edir və bu dayanıqlıq baxımından təhlükəsiz səviyyədir. Cari ildə bankların mənfəəti ötən illə müqayisədə 23% artmışdır. Sistemin aktivlərinin gəlirliliyi 2%, kapitalın gəlirliyi isə 13,8% təşkil etmişdir.

2015-ci ildə bank sektorunun iqtisadi inkişafda rolunun daha da yüksəlməsi müşahidə olunmuşdur. Ölkənin strateji inkişaf hədəflərinə uyğun olaraq Mərkəzi Bank biznes kreditləşməsinin genişləndirilməsi üzrə müvafiq tədbirlər həyata keçirmişdir. Bankların maliyyələşmə mənbələrinin dəyərinin azaldılması,

[229] http://www.cbar.az/pages/financial-stability/financial-stability-review/

biznes kreditləri üzrə xərclərin optimallaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür. Ölkə üzrə maliyyə sistemi aktivlərinin 90%-ni özündə cəmləşdirən bank sektorunun maliyyə dərinliyi cari ildə artmaqda davam etmişdir. Sektorun aktivləri 21.2% artaraq qeyrineft ÜDM-in 78%-nə çatmışdır. Hazırda Azərbaycan bank sektorunun maliyyə dərinliyi bank sistemləri orta inkişaf səviyyəsində olan ölkələrə uyğundur. Bank kreditləri 18%, o cümlədən uzunmüddətli kreditlər 19.2% artmışdır. Hazırda kredit protfelinin 81%-dən çoxunu uzunmüddətli kreditlər təşkil edir. İstehlak kreditlərində mövcud dinamikanı və potensial riskləri nəzərə alaraq 2015-ci ildə bir sıra tənzimləmə tədbirləri görülmüşdür. Nəticədə, istehlak kreditlərinin artım tempi 2014-ci illə müqayisədə 1.9 dəfə azalaraq 19%-ə, ipoteka kreditləri istisna olmaqla isə 11%-ə enmiş, avtomobil kreditlərinin mütləq həcmi 31% azalmışdır. Azərbaycanda istehlak kreditlərinin kredit portfelində payı Avropa Yenidənqurma və İnkişaf Bankı üzrə ölkələrin orta göstəricisindən aşağıdır. İnkişaf etmiş ölkələrdə isə istehlak kreditlərinin portfeldə payı 50% və daha yuxarıdır. 2014-cü ilin ötən dövründə 92 mln. manat məbləğində ipoteka krediti verilmişdir. Nəticədə, İpoteka Fondunun kredit portfeli 628 mln. manata çatmış, ipoteka krediti alanların sayı isə 15700-ü keçmişdir. Müvəkkil banklar, sığorta şirkətləri, qiymətləndiricilər və İpoteka Fondu arasında "Elektron ipoteka"-nın tətbiqinə başlanılmışdır. İpoteka kreditlərinin ümumi həcmi 25% artaraq 1 mlrd. manatı (qeyri-neft ÜDM-in 3%-i) üstələmişdir[230].

Alternativ kreditləşmə mənbələrinin canlandırılması məqsədilə Mərkəzi Bank tərəfindən bank olmayan kredit təşkilatlarının fəaliyyəti cari ildə də dəstəklənmişdir. Qeyri-bank kredit təşkilatlarının sayı 157-ə, onların filiallarının sayı isə 222-ə çatmışdır. İlin əvvəlindən qeyribank kredit təşkilatları üzrə aktivlər 13.3%, kreditlərin həcmi isə 12.3% artmışdır. Əhalinin maliyyə xidmətlərinə çıxış imkanlarının genişlənməsində mühüm rol oynayan elektron bankçılıq xidmətlərinin inkişafı istiqamətində də tədbirlər görülmüşdür. Hazırda 23 bank internet bankçılıq, 15 bank mobil bankçılıq xidmətləri göstərir. Mərkəzi Kredit Reyestri (MKR) tərəfindən xidmətin yaxşılaşdırılması məqsədilə "ASAN xidmət" mərkəzlərində MKR-in 2 xidmət bölməsi fəaliyyətə başlamışdır. Kredit təşkilatları tərəfindən real vaxt rejimində reyestrə daxil olan sorğuların sayı 2,8 milyonu ötmüşdür.

Resurs mənbələri. 2014-cü ildə də banklara inam daha da artmış, nəticədə bank sektorunun resurs bazası genişlənmiş, resurs mənbələrinin dayanıqlığı güclənmişdir. 2014-cü ilin ötən dövründə korporativ depozitlər 35.3% artaraq 8.2 mlrd. manata, əhalinin əmanətləri isə 10.8% artaraq 7.1 mlrd. manata çatmışdır. Əhalinin manat əmanətləri 11 ayda 15% artmışdır. Regionlarda əmanətlər 12.4% artmışdır. Hazırda ölkədə hər 1000 nəfərə 473 əmanətçi düşür.

[230] http://www.cbar.az/pages/financial-stability/financial-stability-review/

Adambaşına əmanətin məbləği 745 manata, fiziki şəxslərin bank hesablarının sayı isə 6,4 milyona çatmışdır. Əhali bank sektoru ilə münasibətdə xalis kreditordur. Əhalinin əmanətlərinin həcmi kreditlərini 2,3 mlrd. manat üstələyir. Cari ilin ötən dövründə əmanətlər üzrə əhalinin faiz gəlirləri 450 mln. manat olmuşdur.

Faiz dərəcələrinin azalması prosesi davam etmiş, bu prosesin sürətləndirilməsi üçün Mərkəzi Bank tərəfindən əlavə tədbirlər görülmüşdür. İlin əvvəlindən əmanətlər üzrə orta faiz dərəcəsi 0.4 faiz bəndi azalaraq 9.4%-ə enmişdir. Mərkəzi Bankın uçot dərəcəsindən əlavə may ayından Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən sığortalanan əmanətlər üzrə maksimal faiz dərəcəsinin 10%-dən 9%-ə endirilməsi də faiz dərəcələrinə azaldıcı təsir göstərmişdir. Kreditlər üzrə faiz dərəcələri də azalma meyllidir. Son 5 ildə bu meyl daha da güclənmiş, hazırda kreditlər üzrə orta faiz dərəcəsi 14.3%, o cümlədən kommersiya kreditləri üzrə 10.8% təşkil edir. İstehlak kreditləri üzrə isə orta faiz dərəcələri kreditin növündən və təminatlılıq dərəcəsindən asılı olaraq fərqlənir. Ümumən, istehlak kreditləri üzrə faiz dərəcələri bir çox ölkələrdəki faiz dərəcələrinə yaxındır.

Ödəniş sistemlərinin sabitliyinin qorunması, bu sahədə yaradılmış müasir infrastrukturun tətbiqi miqyasının genişləndirilməsi və innovasiyaların təşviqi 2014-cü ildə də Mərkəzi Bankın mühüm fəaliyyət istiqamətlərindən olmuşdur. Milli Ödəniş Sistemi vasitəsilə 2014-cü ildə həyata keçirilən ödənişlərin həcmi ÜDM-in 2 mislini təşkil etmişdir. “Elektron hökümət” quruculuğu çərçivəsində yaradılmış "Hökümət Ödəniş Portalı"nın genişləndirilməsi davam etdirilmişdir. Nəticədə kütləvi xidmətlər göstərən 19 təşkilat Portala inteqrasiya olunmuşdur. Bu təşkilatların göstərdiyi 285-dən çox xidmət növü üzrə ödənişlər həyata keçirilir. Hazırda “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının göstərdikləri xidmətlər üzrə ödənişlərin portal vasitəsilə qəbulu, həmçinin “ASAN ödəniş” sisteminin infrastruktura inteqrasiyası istiqamətində işlər tamamlanmaq üzrədir. 2014-cü ildə kart infrastrukturunun inkişafı davam etmişdir. Ölkədə emissiya edilmiş ödəniş kartlarının sayı 5.9 mln. ədədə, bankomatların sayı 2586-a, POS-terminalların sayı isə 68676-ə çatmışdır. Ödəniş kartlarının sayı 5%, bankomatların sayı 6.8%, POS-terminalların sayı isə 2 dəfə artmışdır. II. 2015-ci ildə pul siyasəti, maliyyə sabitliyi və bank sektorunun inkişafı 2015-ci ilin pul və məzənnə siyasəti qlobal iqtisadi risklər, milli iqtisadiyyatın strateji inkişaf çağırışları nəzərə alınmaqla həyata keçiriləcəkdir. İnflyasiyanın aşağı təkrəqəmli səviyyədə saxlanması pul siyasətinin əsas hədəfini təşkil edəcəkdir. Manatın məzənnəsinin sabitliyi növbəti ildə mühüm prioritetlərdən biri olacaqdır. İqtisadi situasiyadan asılı olaraq iqtisadi artıma effektiv dəstək vermək üçün pul siyasətinin çevikliyi artırılacaqdır. Bank sektorunda maliyyə sabitliyinin təmin olunması üçün prudensial nəzarət gücləndiriləcək, kontr-tsiklik tənzimləmə davam etdiriləcəkdir. Biznes kreditlərinə çıxış imkan-

larının genişləndirilməsi, real sektorun kreditləşdirilməsinin stimullaşdırılması, bank-maliyyə infrastrukturunun inkişafı mühüm prioritetlər olacaqdır. Faiz dərəcələrinin azaldılması istiqamətində tədbirlər davam etdiriləcəkdir[231].

2015-ci ildə səlahiyyətləri çərçivəsində qiymət sabitliyinin təmin edilməsi Mərkəzi Bankın pul siyasətinin əsas məqsədini təşkil edəcəkdir. Son qlobal və daxili iqtisadi meylləri nəzərə alaraq, orta müddətli perspektivdə inflyasiyanın aşağı səviyyədə qalması gözlənilir. Növbəti ildə inflyasiya 2-3% səviyyəsində hədəflənir. Pul siyasətinin həm inflyasiya, həm də deflyasiya risklərinə çevik reaksiyası təmin ediləcəkdir. Bu reaksiyanın xarakteri və miqyası inflyasiyaya təsir göstərən tələb və təklif amillərindən asılı olaraq dəyişəcəkdir. Növbəti ildə də Mərkəzi Bank müxtəlif qiymət indekslərinin təhlilinə və inflyasiyanın proqnozdan kənarlaşması risklərinin hərtərəfli qiymətləndirilməsinə xüsusi diqqət yetirəcəkdir. İnflyasiya (deflyasiya) təzyiqlərinin müvəqqəti və uzun müddətli amillərini fərqləndirmək üçün baza inflyasiyanın dinamikası daim izlənəcəkdir. Pul siyasətinin adekvat reaksiyasının formalaşmasında Mərkəzi Bank iqtisadi tsikl modelinin nəticələrini də nəzərə alacaqdır.

Məzənnə siyasəti. 2015-ci ildə məzənnə siyasətini həyata keçirərkən Mərkəzi Bank makroiqtisadi sabitliyin təmin edilməsi, maliyyə sabitliyinin və qeyri-neft iqtisadiyyatının rəqabət qabiliyyətinin qorunması kimi hədəfləri əsas götürəcəkdir. Manatın sabit məzənnəsi aşağı təkrəqəmli inflyasiya hədəfinə nail olunmasında, sosial rifahın və investisiya aktivliyinin qorunmasında mühüm rol oynayır. Bunu nəzərə alaraq 2015- ci ildə manatın məzənnəsinin sabitliyi mühüm prioritetdir. Məzənnə rejimi əsasən dəyişməz saxlanacaq, ABŞ dolları/manat məzənnəsinin hədəflənməsi növbəti ildə də məzənnə siyasətinin əməliyyat çərçivəsini təşkil edəcəkdir. Növbəti ildə də ikitərəfli məzənnə ilə yanaşı, manatın nominal və real effektiv məzənnələri monitorinq ediləcəkdir.

Pul siyasəti alətləri. Pul təklifinin məqbul artım tempinə nail olmaq üçün 2015-ci ildə Mərkəzi Bank pul bazarında likvidliyin verilməsi və ya sterilizasiyası alətlərindən istifadə edəcəkdir. Makroiqtisadi proqnozlar pula tələbin stabilləşməsi meylinin 2016-cı ildə də davam edəcəyini göstərir. Pul bazarındakı vəziyyətdən asılı olaraq Mərkəzi Bank tərəfindən likvidliyin tənzimlənməsi, o cümlədən inyeksiya əməliyyatlarından istifadə diqqətdə saxlanılacaqdır. Bazar əməliyyatları pul siyasəti məqsədləri ilə yanaşı bank sistemində sabitliyin qorunması, maliyyə vasitəçiliyinin stimullaşdırılması və ödənişlərin vaxtlı-vaxtında həyata keçirilməsinə xidmət edəcəkdir. Klassik alətlərlə yanaşı qeyri-ənənəvi pul siyasəti alətlərindən də zəruri hallarda istifadə edilməsi təmin olunacaq, o cümlədən banklar vasitəsilə biznesin kreditləşdirilməsi alətləri inkişaf etdiriləcəkdir. Likvidlik alətləri üzrə faiz dərəcələri "faiz dəhlizi konsepsiyası"na uyğun olaraq müəyyənləşdiriləcəkdir. 2015-ci ildə faiz dəhlizinin para-

[231] http://www.cbar.az/pages/financial-stability/financial-stability-review/

metrləri iqtisadi mühitə çevik şəkildə 10 uyğunlaşdırılacaqdır. Öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirərkən Mərkəzi Bank ölkədə kreditlər üzrə faiz dərəcələrinin azaldılması prioritetini də nəzərə alacaqdır. Pul siyasəti alətlərinin kəmiyyət parametrlərini müəyyən edərkən pul siyasətinin iqtisadiyyata ötürücülük qabiliyyəti - transmissiyası xüsusiyyətləri də nəzərə alınacaqdır. Pul siyasəti alətlərinin təkmilləşdirilməsi və onların iqtisadiyyata təsirlərinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.

Mərkəzi Bank pul siyasətinin strateji çərçivəsini 2015-ci ildə də təkmilləşdirməkdə davam edəcəkdir. Bu təkmilləşdirmə bir tərəfdən inflyasiyanın birbaşa hədəflənməsi rejiminə keçid şərtlərinin reallaşdırılması, digər tərəfdən isə Mərkəzi Bankın tənzimləmə arsenalının genişləndirilməsi istiqamətlərində aparılacaqdır. Beynəlxalq təcrübəyə görə inflyasiyanın birbaşa hədəflənməsi qiymət sabitliyini təmin etməyin ən effektiv çərçivəsidir. Mərkəzi Bankın faiz dərəcələri vasitəsilə məcmu tələbə, iqtisadi artıma və inflyasiyaya yüksək təsir imkanlarını nəzərdə tutan bu siyasət çərçivəsi inflyasiya gözləntilərini sabitləşdirir və makroiqtisadi şokların təsirlərini çevik neytrallaşdırmağa imkan verir. Bunun üçün müvafiq şərait formalaşdıqca (xarici valyuta mənbələrinin şaxələnməsi, maliyyə və kapital bazarlarının dərinləşməsi, bank sektorunun maliyyə dərinliyinin artması və s.) faiz dərəcəsindən məcmu tələbə təsir edən operativ hədəf kimi istifadə olunması imkanları yaranacaqdır. Pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi zamanı son vaxtlar dünyada pul siyasəti dizaynında baş verən dəyişikliklər də nəzərə alınacaqdır. Son qlobal böhran göstərdi ki, mərkəzi banklar dayanıqlı iqtisadi inkişafı yalnız qiymət sabitliyi ilə dəstəkləməklə kifayətlənməməlidirlər. Hazırda dünyada mərkəzi bankların hədəf perimetrinin (qiymət sabitliyi ilə yanaşı, iqtisadi artım və maliyyə sabitliyi) və alət arsenalının genişləndirilməsi məsələsi aktuallaşmışdır. Maliyyə sektorunda riskli artımın makroiqtisadi disbalanslar yarada bilmə ehtimalını nəzərə alaraq monetar siyasət makroprudensial siyasətlə sıx əlaqələndiriləcəkdir. Pul siyasəti alətləri ilə təmin olunan makroiqtisadi sabitlik maliyyə sektorunda hərarətlənmənin qarşısını alan kontr-tsiklik makroprudensial alətlərin tətbiqi ilə gücləndiriləcəkdir.

Maliyyə sabitliyi siyasəti Mərkəzi Bank 2015-ci ildə də bank sektorunun potensial risklərə qarşı dayanıqlığının yüksəldilməsinə, risklərin preventiv rejimdə məhdulaşdırılmasına yönəldilmiş fəaliyyətini davam etdirəcəkdir. 2015-ci ildə bank nəzarəti çərçivəsinin təkmilləşdirilməsi Bazel III prinsipləri, habelə bank fəaliyyətinin yerli mühitinin xüsusiyyətləri nəzərə alınmaqla davam etdiriləcəkdir. Risk 11 əsaslı və kontrtsiklik prudensial tənzimləmənin həyata keçirilməsinə imkan verən siyasət modelinin qurulması, hər bir risk növünün prudensial tələblərlə əhatəsi üzrə işlər davam etdiriləcəkdir. Sektorun aktivlərinin keyfiyyətinin qorunması üçün bankların təmkinli kredit fəallığı və kredit portfelinin strukturunun yenidən balanslaşdırılması təmin olunacaqdır. Kredit qoyu-

luşlarının dinamikasının iqtisadi inkişaf strategiyası ilə uzlaşmasını təmin etmək üçün istehlak kreditləri üzrə artımın tənzimlənməsi davam etdiriləcəkdir. Banklarda "məsuliyyətli kreditləşmə" fəlsəfəsinin tətbiqi inkişaf etdiriləcək, girovların realizasiyası mexanizminin təkmilləşdirilməsinə dair yeni təşəbbüslər göstəriləcəkdir. Bank sektorunda riskli artımın qarşısını almaq üçün növbəti ildə də yeni prudensial nəzarət alətlərinin tətbiqi imkanları araşdırılacaqdır. 2015-ci ildə əməliyyat riskləri üzrə tənzimləmə çərçivəsinin yaradılması və əməliyyat risklərinin kapital adekvatlığının hesablanmasında nəzərə alınması nəzərdə tutulur. Bank sistemində konsolidasiya prosesləri davam etdiriləcəkdir. Sistem əhəmiyyətli bankların risk profilinə uyğun nəzarət çərçivəsinin seçilməsi diqqətdə saxlanılacaq, zəruri hallarda restrukturizasiya istiqamətində tədbirlər görüləcəkdir. Banklarda risklərin idarə edilməsi üzrə daxili potensialın yüksəldilməsi üçün korporativ idarəetmə standartlarının kompleks tətbiqi, idarəetmənin keyfiyyətinə, menecmentin kompetensiyalarına, texnoloji və kadr potensialına tələblərin yüksəldilməsi istiqamətində fəaliyyət davam etdiriləcəkdir. Əhali və korporativ sektorun bank sisteminə etimadının artırılmasına yönəlmiş tədbirlər çərçivəsində maliyyə xidmətləri istehlakçılarının maraqlarının müdafiəsi sisteminin gücləndirilməsi mühüm priortetlərdən biri olacaqdır. Əhalinin maliyyə savadlığı səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyət gücləndiriləcəkdir. Maliyyə Maarifləndirilməsi Portalının bu işdə xüsusi rol oynayacağı gözlənilir. Maliyyə savadlığı sahəsində müxtəlif təşkilatlarla birgə kütləvi tədbirlər davam etdiriləcəkdir. Bu istiqamətdə yeni maarifləndirici vasitə və məhsulların hazırlanması təmin ediləcəkdir.

2015-ci ildə Mərkəzi Bank iqtisadiyyatın şaxələnməsində bank-maliyyə sektorunun rolunun yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Maliyyə resurslarını iqtisadiyyatın şaxələnməsinə yönəldən, iqtisadi artıma effektiv dəstək verməklə gəlirlərin daha səmərəli bölüşdürülməsinə və sosial rifahın daha da yaxşılaşmasına xidmət edən maliyyə sisteminin formalaşması təşviq olunmuşdır. Biznesin uzunmüddətli kredit əldə etməsi imkanlarını artırmaq üçün yeni maliyyələşmə mexanizmlərin yaradılması imkanları araşdırılacaq, bankların real sektora yeni məhsul və xidmətlər təklif etməsi təşviq olunmuşdır. Biznes kreditləşməsinin genişlənməsində real sektor tərəfindən effektiv biznes layihələrinin təqdim edilməsi mühüm amil olmuşdır. Real sektor müəssisələrinin maliyyə hesabatlığının beynəlxalq standartlara tam uyğunlaşması, kreditorların hüquqlarının qorunması mexanizminin gücləndirilməsi biznes kreditlərinə çıxış imkanlarını artıran mühüm amildir. Faiz dərəcələrinin aşağı salınması istiqamətində tədbirlər davam etdirilmişdir. Bu istiqamətdə bank sektorunun resurs bazasının artırılması üçün əhalinin, korporativ sektorun və institusional investorların uzunmüddətli yığımlarının bank sektoruna cəlbinin stimullaşdırılması diqqətdə saxlanılmışdır. Habelə, 2016-cı ildə nağdsız ödənişlərin stimullaşdırılması və nəticədə kreditləşmənin resurs mənbələrinin geniş-

ləndirilməsi istiqamətində fəaliyyət gücləndiriləcəkdir. Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi çərçivəsində qorunan əmanət və əmanətçilərin əhatəsinin genişləndirilməsi imkanlarına baxılacaqdır. Bank sektorunda restrukturizasiyanın davam etdirilməsi, banklararası bazarın inkişaf etdirilməsi, banklarda daxili potensialın gücləndirilməsi və əməliyyat effektivliyinin yüksəldilməsi, habelə bank xidmətlərinin elektronlaşdırılması və distant bank xidmətləri faiz dərəcələrinə azaldıcı təsir edən amillər olacaqdır. Regional bankçılığın inkişafı 2016-cı ildə də diqqətdə saxlanılacaq, kredit institutlarının regional şəbəkəsinin genişləndirilməsi təşviq olunacaqdır. Fiziki filial şəbəkəsi ilə yanaşı distansion bankçılıq mexanizmlərinin, o cümlədən, elektron bankçılıq alətlərinin inkişaf etdirilməsi mühüm prioritetlərdən olacaqdır. Regionlarda sosial rifahın yüksəlməsində mikromaliyyənin rolunu nəzərə alaraq bank olmayan kredit təşkilatlarının inkişafına diqqət artırılacaqdır. Mikromaliyyə institutları, o cümlədən "Azərpoçt" MMC-nin regional xidmət şəbəkəsi vasitəsilə bank xidmətlərinə çıxışın artırılması üzrə əlavə tədbirlər görüləcəkdir. İpoteka kreditləşdirilməsi sisteminin inkişafı istiqamətində fəaliyyət 2016-cı ildə də davam etdiriləcəkdir. Bu istiqamətdə öyrənilmiş dünya təcrübələri əsasında hökümətlə birlikdə yeni təşəbbüslərin həyata keçirilməsi imkanlarına baxılacaqdır. Sosial ipotekanın əhatəsinin genişləndirilməsi də mühüm prioritetdir. İpoteka kreditləşməsi prosesinin sadələşdirilməsi məqsədilə "Elektron ipoteka" sisteminin imkanlarından istifadə ediləcəkdir. Vətəndaşların ipoteka kreditlərinə elektron müraciət imkanı yaradılacaqdır. Adi ipoteka kreditləşməsi-nin genişləndirilməsi üçün əlavə bazar mənbələrinin cəlbi, yeni ipoteka məhsullarının yaradılması, ipoteka kreditləri üzrə zəmanət mexanizminin formalaşdırılması istiqamətində tədbirlər görüləcəkdir.

SƏKKİZİNCİ FƏSİL

AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA PROSESİ

XX əsrin sonlarında siyasi müstəqilliyini yenidən əldə edən Azərbaycan iqtidarının iqtisadi sahədəki əsas vəzifələrindən biri də ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək olmuşdur.

Beynəlxalq iqtisadi inteqrasiya xarici ticarət, sərmayənin beynəlxalq dövriyyəsi, məşğulluğun beynəlxalq dövriyyəsi, beynəlxalq iqtisadi təşkilatlara üzvlük, regional ittifaqlarda iştirak şəklində həyata keçir.

Xarici iqtisadi münasibətlər, hər dövlətin dünya ölkələri arasında yerini və nüfuzunu müəyyən edən faktorlardandır. Bu münasibətlərin möhkəm təməllər üzərində qurulması və genişləməsi müstəqilliyini yeni əldə edən ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda xarici iqtisadi münasibətlər, uzun müddət "dəmir pərdələrlə" çevrilmiş Sovet İttifaqı dövründə iqtisadiyyatın müstəqil bir sahəsi kimi mövcud olmuşdur. Mərkəzdən icazə olmadıqca xarici dünya ilə əlaqə qura bilməyən ölkə, müstəqillikdən sonra yeni bir sistem yaratmağa çalışmışdır.

Azərbaycan iqtisadiyyatının keçmiş ittifaqdan miras qalan strukturu, müstəqil bir ölkənin milli iqtisadiyyatının tələblərinə cavab verməməsi ilə yanaşı, dünya iqtisadiyyatına müvafiq şəkildə inteqrasiya olunmasına, ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasına da imkan vermirdi.

Xüsusilə, Umumili Lider mərhum prezident cənab Heydər Əliyevin ölkə başçısı olmasından sonra həssas tarazılıq siyasətləri çərçivəsində Azərbaycanın beynəlxalq münasibətlərinin formalaşdırdığı və dünya iqtisadiyyatına inteqrasiyanın başladığı görülür.

Coğrafi mövqe baxımından Azərbaycanın əlverişli olması, böyük enerji kompleksləri, neft və neft ekipmanları sənayesi, kimya, elektronik və şərabçılıq sənayesi, nəqliyyat infrastrukturu və xammal ehtiyatlarının zənginliyinə baxmayaraq texnoloji potensialın zəifliyi, istehsalın kifayət qədər olmaması, ucuz işçi kimi faktorlar xarici iqtisadi münasibətlər sistemini istiqamətləndirilən əsas amillər olmuşdur.

8.1. İNTEQRASİYA SƏVİYYƏSİ

Müstəqilliyin ilk illərində sadəcə MDB ölkələri ilə sıx olan əlaqələr, vaxt keçdikcə digər xarici ölkələri də əhatə etmiş və hal-hazırda ticari müqavilələr, xarici investisiyalar və beynəlxalq maliyyə təşkilatlarından alınan kreditlərlə

birlikdə inkişaf etməkdə olan bir sistem halına çevrilmişdir. Bu sistemi idarə edənlər əlaqədar dövlət təşkilatları olan Ticarət Nazirliyinə çevrilən Xarici İqtisadi Əlaqələr Nazirliyi, Dövlət Gömrük Komitəsi, İqtisadi İnikşaf Nazirliyinə bağlı Xarici İnvestisiyalar Müdirliyi ilə Nazirlər Kabineti tərkibindəki Xarici Kredit və Yardımlar Agenti tərəfindən həyata keçirilir.

Azərbaycanın liberal iqtisadi modelə keçməsi ilə ölkənin daxili bazarının dünya bazarlarının bir parçası halına çevrilməsi prosesi, xarici ticarətini liberallaşdırmaq üçün edilən ciddi nizamnamə dəyişiklikləri ilə sürətlə davam edir.

Dünya iqtisadiyyatına inteqrasiya prosesində önəmli bir məsafə qət etdiyinin göstəricisi olacaq şəkildə 2016-cı ildə Azərbaycan, 154 ölkə ilə ticari münasibətlər qurmuşdur. Ancaq, müəssisələrin dünya bazarlarında rəqabət edə biləcək səviyyədə istehsal edə bilməmələri Azərbaycanın hazır məhsul ixrac etməklə inteqrasiya imkanlarını məhdudlaşdırır.

8.2. BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLARLA ƏLAQƏLƏR

Azərbaycanın xarici iqtisdi əlaqələrində yeni olan hallardan biri də, bəzi iqtisadi təşkilatlara üzvlük və bunlardan alınan kreditlərdir. Xarici iqtisadi əlaqələr sisteminin əsasını isə, Azərbaycanın xarici ticarət rejimi təşkil edir.

Azərbaycanın üzv olduğu iqtisadi təşkilatlar bunlardır:

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD), Beynəlxalq Valyuta Fondu (BVF), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC), Commodity Credit Corporation (CCC), Avropa Şurası (CE-müşahidəçi), Miqrantlarla İş Mərkəzi (CIS), Avropa Atlantik Müttəfiqliyi Şurası (EAPC), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Avropa İqtisad Komissiyası (ECE), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Asiya və Sakit Okean İqtisadi və Sosial Komissiyası (ESCAP), Birləşmiş Millətlər Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Hava Müdafiəsi Təşkilatı (ICAO), ICRM, IDA (International Development Association), İslam İnkişaf Bankı (IDB), Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (IFAD), Beynəlxalq Maliyyə Təşkilatı (IFC), Beynəlxalq Əmək Təşkilatı (ILO), Intelsat, Interpol, NAM (Non-Aligned Movement - müşahidəçi), Birləşmiş Millətlər (BM), BM Ticarət və İnkişaf Konfransı (UNCTAD), Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Sənaye İnkişaf Təşkilatı (UNİDO), Dünya Səhiyyə Təşkilatı (WHO), Dünya Ticarət Təşkilatı (WTO-müşahidəçi).

Azərbaycan, ölkədaxili maliyyə ehtiyatlarının məhdud olması səbəbiylə, ölkənin istehsal və sosial strukturunun yenidən qurulmasında beynəlxalq maliyyə təşkilatlarının geniş maliyyə imkanlarından maksimum səviyyədə faydalanmaq üçün bu təşkilatlarla müttəfiqlik etmişdir. Azərbaycana kredit verən təşkilatların başında Avropa İttifaqı (TACIS, TRACECA, INOGATE), BVF, Dünya Bankı (IBRD), ABŞ İxrac və İdxal Bankı, Beynəlxalq İnkişaf Təşkilatı,

Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Türk Eximbankı, İslam İnkişaf Bankı (IsDB), Yaponiya Beynəlxalq Müttəfiqlik Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB), IFC, Kreditanstalt fur Wiesderaufbau (KfW, Almaniya) gəlir. Zəmanət baxımından sərmayə riskinin azaldılması üçün Çox Tərəfli İnvestisiya Zəmanət Agenti (MIGA) Azərbaycanda fəaliyyət göstərir. Bu təşkilatlar tərəfindən açılan kreditlər, bazar iqtisadiyyyatına keçidi asanlaşdırmaq məqsədiylə açılan layihə kreditləridir. Xarici kredit almasıyla yanaşı Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən edilən yardımlar da önəmli dərəcələrə yüksəlmişdir. Bunların arasında, Avropa İttifaqı tərəfindən edilən yardımlar xüsusi yerə sahibdir[232].

Bir çox beynəlxalq iqtisadi təşkilatla əlaqəsi olan Azərbaycan regional iqtisadi və ticari əlaqələr baxımından əhəmiyyət kəsb edən təşkilatlara üzvdür. Digər tərəfdən Avropa İttifaqı ilə də sıx bir münasibət içərisindədir.

Avropa Yenidənqurma və İnkişaf Bankı[233], Yaponiya Beynəlxalq İqtisadi Müttəfiqlik Fondu kimi digər beynəlxalq maliyyə təşkilatlarından da kredit alınmasına baxmayaraq, alınan xarici kreditlərdə üstünlüyün BVF və Dünya Bankında olduğunu qeyd etmək lazımdır.

H. Əliyevin iqtidara gəlməsi ilə alınan ilk əhəmiyyətli qərar milli valyuta vahidi olaraq Manatın tək ödəmə vasitəsi olaraq qəbul edilməsi olmuşdur. İkinci əhəmiyyətli addım isə, enerji ehtiyatlarından faydalanma strategiyasının seçilməsidir. Bundan sonra dünya iqtisadiyyatına inteqrasiya üçün atılan addım BVF və Dünya Bankı ilə əlaqələr qurulmağa başlanmışdır. Azərbaycan 1992-ci ilin sentyabr ayında BVF, Dünya Bankı və Beynəlxalq İnkişaf İttifaqına üzv olmuşdur. Hər nə qədər Dünya Bankı və BVF-yə üzvlük 1992-ci ildə qəbul edilsə də, bu təşkilatlarla ilk kredit müqaviləsi 1995-ci ildə imzalanmışdır.

BVF və Dünya Bankı, inkişaf etməkdə olan ölkələrin dünya bazarına struktur uyğunlaşmasına nail olmaq və onun bir parçası halına gəlməsi üçün xarici kredit və borclandırma mexanizmlərini istifadə etməkdə bu prosesi zəmanət altına almaq üçün də həmin ölkələrə, stabillik və struktur uyum proqramları tövsiyyə edir.

Aşağıda Azərbaycanın qabaqcıl beynəlxalq iqtisadi təşkilatlarla olan əlaqələri ayrı-ayrılıqda ələ alınacaqdır.

---

[232] Nail Fətəliyev-Rafiq Əhmədov, "Beynəlxalq Maliyyə-Kredit Təşkilatları və Onların Azərbaycan Respublikası İlə Əlaqələri Haqqında", *Məşvərət bülleteni*, No:10(46), Yanvar-2002, s.26; Fuad Hüseynov, "Azərbaycanın Geo-siyasi Konumu, Enerji Qaynaqları və Dış Ekonomik İlişkiler Sistemi", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/OCAK2001/azerbaycan.htm, (09.02.2002).

[233] Bax: Elçin Süleymanov, "Azərbaycan və Avropa Yenidənqurma və İnkişaf Bankı Münasibetləri", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.101-102.

8.2.1. BVF ilə Əlaqələr

Sovet İttifaqının dağılmasından sonra bu ölkələrin bazar iqtisadiyyatına keçidini idarə etmə rolunu da üzərinə götürən BVF, bu ölkələrin çoxunda öz siyasətini tətbiq etmə şansı əldə etmişdir.

Azərbaycanın bazar iqtisadiyyatı mexanizminə keçidini və iqtisadi stabilliyi əldə etməyə dair fəaliyyətləri beynəyxalq təşkilatlar da dəstəkləyir. Bu çərçivədə, Azərbaycan və BVF arasında makroiqtisadi stabilliyi və inkişafı dəstəkləmək və ölkəni neft gəlirlərinə hazırlamaq məqsədiylə yardım müqavilələrı imzalanmışdır.

İqtisadi böhrandan çıxma arayışlarında xarici yardıma müsbət baxan və 117 Milyon SDR ilə 18 sentyabr 1992-ci il tarixində BVF-yə üzv olan Azərbaycan, BVF-dən ilk krediti 1995-ci ilin 19 aprel tarixində almışdır[234]. Bu kreditin həcmi 46 milyon dolar olmuşdur.

BVF, Azərbaycanda tətbiq edilən 1995-1996 iqtisadi islahat proqramını 1995-ci ilin noyabr ayında 132 milyon dollarlıq kreditlə dəstəkləmişdir. Bu iqtisadi islahat proqramı müntəzəm pul və maliyyə siyasətləri ilə inflyasiyanın azaldılması ilə yanaşı maliyyə sektorunun yenidən qurulması, qiymət strukturunun rasyonallaşdırılmasına və özəlləşdirmədə sürətli bir inkişafa nail olmaq kimi struktur islahatlarını da əhatə edirdi[235].

1998-ci il proqramını dəstəkləmək üçün isə BVF, 1997-ci ilin dekabr ayında cəmi 64 milyon dollarlıq yeni iki kredit tranşını daha təsdiqlədi. Bu kreditlərlə inflyasiyanın azaldılması və böyümənin yenidən başladılması kimi makroiqtisadi stabillik hədəflənirdi.

1999-cu ilin yanvarında təsdiq edilən və 112 milyon dollar həcmində olan kredit isə, 1999-cu il iqtisadi və maliyyə proqramını dəstəkləmək və 1998-cı ildə dünya neft qiymətlərində baş verən azalmanın ixracata mənfi təsirlərini aradan qaldırmaq məqsədini güdürdü. BVF verdyi bu kreditlə dövlət sektorunun yenidən qurulması istiqamətində struktur reformlarına da dəstək verməyə davam etmiş olurdu.

Azərbaycan hökümətinə iqtisadi reformlarını dəstəkləməyi davam etdirmək üçün 2001-ci ilin iyulunda "Yoxsulluğu Azaltma və Böyümə Asanlığı" adı altında 100 milyon dollarlıq kredit verildi. Bu kreditin əsas məqsədi, makroiqtisadi stabilliyi yenidən əldə etmək, iqtisadiyyatın qeyri-neft sektorlarının böyüməsini təşvik etməkdir.

2002-ci ilin ortalarında Azərbaycan iki dilim olaraq 16.1 milyon SDR aldı. Ancaq, bundan sonra tərəflər arasındakı anlaşmazlıq üzündən proqram bir il

---

"Azerbaijan,: Financial Position in the Fund (IMF)", http://www.imf.org/external/np/tre/tad/exfin2.cfmememberKey1=51. (04.04.2005).

[235] Fuad Aliyev, *The International Monetary Fund and Reforms in Azerbaijan*, Budapest, Hungary, February 2002.

dondurulduğu. 2003-cü ilin mayında BVF 12.87 milyon SDR-lik üçüncü dilimin ayrılmasına qərar verdi.

Azərbaycan BVF-dən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Üzrə Dövlət Proqramı" çərçivəsində də kredit alır. Beynəlxalq Valyuta Fondu (BVF), Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Proqramı (PRGF) çərçivəsində Azərbaycana 80.45 milyon SDR (119 milyon dollar) ayırmışdır. Həyata keçirilməsinə 6 iyul 2001-ci ildə başlanan proqram çərçivəsində kredit 10 illiyinə, illik 0.5% faizlə 5.5 il sonra geri ödəmək üzrə verilmişdir.

"Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafın Təmin Olunmasına Dair Kredit Mexanizması", BVF-nin gəlir səviyyəsi aşağı olan ölkələr üçün nəzərdə tutduğu az faizli kredit mexanizmasıdır. PRGF vasitasiylə həyata keçirilən proqramlar, tətbiq etdiyi ölkəyə mənsub olan, vətəndaşların geniş iştirakı ilə hazırlanaraq təsdiq edilən və Yoxsulluğun Azaldılması haqqında hazırlanan strategiya sənədinə təsirini göstərən yoxsulluğun azaldılması strategiyasına dayanmaqdadır. Məqsəd, PRGF yardımıyla həyata keçirilən hər bir proqramın, ölkənin makroiqtisadi strukturu və sosial siyasəti ilə əlaqədar olmasını, bu mexanizmanın inkişaf və yoxsulluğun azaldılmasına xidmət etməsini təmin etməkdir. Hazırda Azərbaycan BVF-in kredit resursları olmadan fonddan yalnız texniki yardım alır. Azərbaycan Respublikasının üzv olduğu Beynəlxalq Təşkilatlar arasında Beynəlxalq Valyuta Fondunun müstəsna yeri vardır. Azərbaycan 18 Sentyabr 1992-cı ildən etibarən BVF-nun üzvüdür. O zaman təşkilata qəbul edilərkən ilk kvotası 168.000 $ olmuş, 1999-cu ilin yanvar ayının 28-dən etibarən isə ilk kvota yenidən gözdən keçirilmiş və 220.000$-a qədər artırılmışdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası BVF-na üzv qəbul edildikdən sonra ölkədə iqtisadi islahatların həyata keçirilməsi istiqamətində təşkilatın köməyi ilə 6 müxtəlif proqramın reallaşmasına 577,3 mln. $ ümumi məbləğdə kredit cəlb edib. Azərbaycan hökümətinin Beynəlxalq Valyuta Fondundan aldığı kredit üzrə borcların 552 mln. $ geri ödəniş, 2016-ci il yanvarın 1-nə bu quruma cəmi 15,3 mln. $ borcu qalmışdır.

8.2.2. Dünya Bankı ilə Əlaqələr

Azərbaycanın yeni iqtisadi sistemə keçidi mərhələsində qarşılaşdığı problemləri həll etmə və iqtisadi böhrandan mühafizə etmək məqsədi ilə Dünya Bankı müxtəlif proqram və layihələrlə dəstək verir. Bunlar bilavasitə iqtisadi islahatlarla əlaqədar olanlar və iqtisadi inkişafa dolaylı olaraq kömək edən layihələr olaraq ikiyə ayrıla bilər. Dünya Bankı Azərbaycana iqtisadi inkişaf siyasəti mövzusunda tövsiyələr etməklə yanaşı, investisiyalar və dövlət büdcəsinin maliyyəsi məqsədi ilə xarici yardımların koordinasiyası mövzusunda köməklik edir[236].

[236] *World Bank Activities in Azerbaijan*, 1998, s.1. http://lnweb18.worldbank.org/ECA/Azerbaijan.nsf/ (01.03.2003).

Azərbaycan Dünya Bankı və onun şöbələri ilə çox geniş əməkdaşlıq etmək-dədir. Qeyd edək ki, Dünya Bankının 1992-ci ildən üzvü olan Azərbaycan 1995-ci ildən başlayaraq kredit almağa başlamış və 2015-ci ilin ilk rübünə qə-dər umumi həcmi 3 milyard Amerika dollarını keçən yetmiş beş layihəyə kredit ayrılmışdır. Bu layihələrdən qırxı artıq yekunlaşmış və diğərləri isə hazırda aktivdir. Bununla da, Azərbaycan Türkiyə və Qazaxıstandan sonra Avropa və Mərkəzi Asiya regionunda ən iri kredit portfelinə malik üçüncü ölkəyə çev-rilmişdir.

Strategiya siyasəti və investisyaların təmin edilməsi yolu ilə, hökümət büdcəsinin maliyyələşdirilməsi və yardımın tənzimlənməsi ilə keçid dövründə ölkəyə lazımi yardımın təmin edilməsi Dünya Bankının Azərbaycana dair fəa-liyyətlərinin əsasını təşkil edir. Dünya Bankının Azərbaycana yardım proqra-mının əsas məqsədi, neft vəsaitlərini idarə etmək üçün hökümətin struktur im-kanını gücləndirmək istiqamətində texniki yardım təşkil etmək və reformları sürətləndirmək üçün əsas qanunları müəyyənləşdirməkdir[237].

Dünya Bankı xüsusi ilə hökümətin neft ehtiyatlarını idarə etməsində təşki-latı imkanların gücləndirilməsi və dəyişikliklərin əsas siyasətinin formalaşdırıl-ması, reformların sürətləndirilməsi məqsədiylə Azərbaycan höküməti ilə bəra-bər fəaliyyət göstərir[238].

Dünya Bankı, özəlləşdirməyə və investisya mühitinin əlverişli hala gəlmə-sinə, su, təbii qaz və elektrik sisteminin yaxşılaşdırmasına, səhiyyə və təhsil sektorlarının inkişafına, yoxsulluğun azaldılması strategiyasının hazırlanmasına diqqət göstərir.

Azərbaycana ilk növbədə yenidənqurma, qaçqın və məcburi köçkünlərə yardım işlərinə vəsait ayıran Dünya Bankı, artıq bir sıra böyük layihələr də hə-yata keçirmişdir. Misal üçün, ayrılan kreditlər hesabına büdcə fəaliyyətlərində, sosial sahədə reformalar edilir, ölkədə təhsil, səhiyyə və su təchizatı ilə bağlı sahələrdə lazımi addımlar atılır. Dünya Bankı bundan sonra da diqqətini əsas üç istiqamətə verəcəkdir: Birinci, qeyri-neft sektorlarının inkişafı və bu sektorlarda yeni iş yerlərinin yaradılmasına, dövlət idarəçiliyinin şəffaflaşmasına və daha çox məsuliyyət prinsipi ilə işləməsinə, sosial xidmətlərin, təhsil və səhiyyə göst-əricisinin yaxşılaşdırılmasına xidmət etmək. Korrupsiya ilə mübarizə və muha-sibat sisteminin təkmilləşməsi ilə əlaqədar qanuna düzəlişlər də Bankın diqqət göstərdiyi sahələrdir. DB-nin güzəştli və qarşılıqsız kreditləri, ölkədə ÜDM-nin adam başına düşən həcmi arzu edilən səviyyəyə yüksələnə qədər veriləcəkdir.

---

[237] Elçin Süleymanov, "Müstəqillik Sonrası Azərbaycan və Dünya Bankı Münasibətləri", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.102-103; Tarık Aydın, "Azerbaycan ve Dünya Bankı", *Mutasyon.Net,* http://www.mutasyon.net/makalələr/taydin/default.asp (15.09.2002).

[238] Nail Feteliyev-Aygül Şamçıyeva-Ruqiyyet Memmedova, "Dünya Bankı və Onun Azərbaycandakı Fəaliyyəti", *Məşvərət Bülleteni*, No:3(39), s. 26.

Dünya Bankının Azərbaycana ayırdığı ilk kredit neft sektoruna istiqamətlənmişdir. Neftin Azərbaycan iqtisadiyyatındakı çəkisi və yeri diqqətə alındıqda həmin kreditin iqdisadiyyata nə qədər əhəmiyyətli olduğu aydın olur. Dünya Bankı tərəfindən ayrılan kreditlər də xarici investisya kimi iqtisadiyyat üçün eyni müsbət tövhələr verir. Bank kreditlərinin ayrı bir xüsusiyyəti isə, həmin kreditlərin uzun müddətli və çox az faizli olmasıdır. Dünya Bankı Azərbaycana kreditləri 35 il müddətinə və faizsiz verir, hökümət Banka ildə 0.75% xidmət haqqı ödəyir.

Ancaq, kreditlərdən gözlənilən effektlərin əldə edilməsi üçün onların təyinatına uyğun xərclənməsi, lazımi xərclərdən qaçılması vacibdir. Belə olmasa, yəni kredit üzərinə hesablanan faizlər kredit istifadəsi sonrası qazanılan iqtisadi vəsaitlər, artımlar vasitəsiylə qarşılanmazsa, bu səpgidə alınan kreditlər gələcək nəsillər üçün ağır bir maddi yük yaradacaqdır.

Dünya Bankı (DB) ilə 2000-ci ilin may ayında "Kənd Təsərrüffatının İnkişafı və Kreditləndirilməsi" adlı bir layihə imzalanmışdır. Həmin layihənin həcmi 33,7 milyon dollardır. Layihə çərçivəsində, "G&G Consulting" (Türkiyə-Avstraliya) konsersiyumunun yaratdığı İKA tərəfindən 6 mindən çox üzvü birləşdirən 329 ortaq borclular qrupuna həcmi 9.4 milyon manat olan kredit verildi. Bundan əlavə, lahiyə çərçivəsində 566 adam tərəfindən 20 kredit İttifaqı (Beyləqan və Naxçıvan regionlarının hər birində 6, Şəki regionunda 5 və Masallı regionunda 3 kredit İttifaqı) quruldu.

Lahiyə çərçivəsində regionlarda daşınmaz əmlakın qeydiyyat sistemi inkişaf etdirildi və 2010-cu ilə qədər kənd təsərrüfatı sektorunun inkişaf strategiyası hazırlandı.

Dünya Bankı 2003-2016 ci illər arasında Azərbaycanda 19 lahiyə həyata keçirməyi planlaşdırmışdır. Lahiyələr üçün nəzərdə tutulan maliyyə yardımının həcmi isə, bır milyard dollar həcmindədir. Həmin lahiyələr və lahiyələrin maliyyə həcmi aşağıdakı kimidir:

- Su təchizat sisteminin yenidən inşası üçün əlavə lahiyənin reallaşdırılması məqsədiylə 12 milyon dollar,
- Təhsil sisteminin inkişafı ilə əlaqədar layihə üçün 18 milyon dollar,
- Suvarma sisteminin yenilənməsi ilə əlaqədar layihə üçün 30 milyon dollar,
- "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı Üçün Dövlət Proqramı" çərçivəsində isə 2003-cü ildə 17 milyon dollar,
- Kəndlərin inkişafı məqsədi ilə 22 milyon dollar,
- Təqaüd sisteminin yenidən qurulması məqsədiylə 10 milyon dollar,
- Elektrik paylama sisteminin yenilənməsi üçün 40 milyon dollar,
- "Şahdağ" milli parkının yenidən qurulmasına 8 milyon dollar,
- "PRSC-2"nin həyata keçirilməsi məqsədiylə 20 milyon dollar.

Dünya Bankı eyni zamanda "Bakı-Tbilisi-Ceyhan" neft boru kəmərinin tikintisi layihəsinə 300 milyon dollar vəsait ayırmışdır[239].

Bu çərçivədə; Dünya Bankı ölkənin qərb regionlarında özəl sahibkarlığı dəstəkləmək məqsədi ilə qurduğu kredit ittifaqları ilə 2003-2004-cü illərdə Gəncə-Qazax regionunda təxminən 3000 fermerə kiçik faizli 1.2 milyon dollar həcmində kredit vermişdir. DB Böyük Bakının su təchizatı layihəsi-II üçün 10.3 milyon dollar, qaz sisteminin Rehabilitasiyasiyası Layihəsi üçün 13.9 milyon dollar, kənd təsərrüfatı sektorunun özəlləşdirilməsi layihəsi üçün 10.2 milyon dollar vəsait ayırmışdır.

Yuxarıda ifadə edildiyi kimi Dünya Bankının (DB) təqaüd və sosial müdafiə ilə əlaqədar olaraq qəbul etdiyi layihənin ümumi həcmi 10 milyon dollardır. Bu vəsait ölkədə təqaüd sisteminin yenidən qurulması, təqaüd sistemində şəffaflığın təmin edilməsi və sosial yardımın birbaşa ehtiyac sahiblərinə çatması üçün lazımi şərtlərin formalaşdırılması məqsədlərini güdür. Bu layihə, DB-nin Azərbaycan üçün maliyyələşdirdiyi 16-cı layihədir.

Dünya Bankının rayonların inkişafı ilə əlaqədar olan və həcmi 22 milyon dollar olan layihə 4 illik bir müddətdə tətbiq olunacaqdır.

Cədvəl 25. Postsosialist ölkələrin Dünya Bankındakı səhm və kvotası

IBRD-dəki vəziyyətləri	Ölkə adı	Bankın nizamnamə kapitalındakı səhmlərinin sayı	Ümumi səhmlərin sayına görə çəkisi - %lə	Kvotası	Ümumi səslərin sayina görə çəkisi % lə
7	Rusiya	44795	2.99	45045	2.92
27	Ukrayna	10900	0.73	10158	0.72
60	Belarusiya	3323	0.22	3570	0.23
61	Qazaxıstan	2905	0.20	3235	0.21
69	Özbəkistan	2493	0.17	2743	0.18
81	Azərbaycan	1646	0.11	1896	0.12
82	Gürcüstan	1584	0.11	1834	0.12
88	Litviya	1507	0.10	1757	0.11
92	Latviya	1304	0.09	1630	0.11
93	Moldaviya	1368	0.09	1618	0.11
102	Ermənistan	1130	0.08	1380	0.09
103	Qırğızıstan	1107	0.07	1357	0.09
111	Tacikistan	1060	0.07	1310	0.09
121	Türkmənistan	937	0.06	1187	0.08
124	Estoniya	923	0.06	1173	0.08

Mənbə: http://www.worldbank.org/en/country saytına əsasən müəllif tərəfindən hazırlanmışdır.

2005-ci ildən isə Azərbaycan Dünya Bankından (DB) müxtəlif layihələr üçün aldığı kreditlərin geri qaytarılmasına başlanılmışdır. Azərbaycanla DB arasında ilk kredit müqaviləsi 1995-ci ildə imzalandı və bu kreditin müddəti

[239] "Dünya Bankı 2003-2005-ci İllərde Azərbaycanda 9 Layihe, *525-ci Qezet*, 05.08.2004.

2005-ci ildə qurtarır. Azərbaycanın DB-dən aldığı bütün kreditlərin geri qaytarılmasında, prinsip olaraq, ilk 10 il keçdikdən sonra başlanır. Son dövrlər DB ölkənin kənd təsərrüfatı sektorunun inkişafına xüsusi əhəmiyyət verir.

Dünya Bankının 1992-ci ildən üzvü olan Azərbaycan 1995-ci ildən başlayaraq kredit almağa başlamış və 2015-ci ilin ilk rübünə qədər umumi həcmi 3 milyard Amerika dollarını keçən yetmiş beş layihəyə kredit ayrılmışdır. Bu layihələrdən qırxı artıq yekunlaşmış və diğərləri isə hazırda aktivdir. Bununla da, Azərbaycan Türkiyə və Qazaxıstandan sonra Avropa və Mərkəzi Asiya regionunda ən iri kredit portfelinə malik üçüncü ölkəyə çevrilmişdir.

Dünya Bankının kredit və layihələri bankın fəaliyyət prinsipinə əsaslanaraq səhiyyə, təhsil, insan inkişafı, ekologiya, yenidənqurma və s kimi əhəmiyyətli istiqamətlərə yönəlmişdir. Bu layihələrin bir hissəsi də struktur islahatları məzmununda olmuşdur ki, bu da, ümumiyyətlə, Azərbaycanın Dünya Bankı ilə əlaqəsinin yüksələn xəttlə inkişaf etdiyini göstərir.

8.2.2.1. Çox Tərəfli İnvestisya Təminat Agentliyi (MİGA) ilə Əməkdaşlıq

Dünya Bankı Qrupunun üzvü olaraq Çox Tərəfli İnvestisya Təminat Agentliyi (MIGA), inkişaf etməkdə olan ölkələrdə ticari olmayan, siyasi risk faktorunun azaldılması, təminat altına alınması məqsədi ilə xarici sərmayədarlara kömək etmək məqsədi ilə 1988-ci ildə qurulmuşdur. 154 üzvü olan MIGA-nın ümumi sərmayəsi təxminən 1.2 milyard dollar həcmindədir.

MİGA, Azərbaycanda fəaliyət göstərən xarici şirkətlərə yardım olaraq altı dəfə 77.1 milyon dollar həcmində təminat vermişdir. İlk təminat Bakıdakı Coca-Cola şirkətinə 18.3 milyon dollar sərmayə qoyan Türkiyənin Efes şirkətinə verilmişdir. İkinci təminat, Türkiyədən Koçbanka 2.7 milyon dollar sərmayəsinə verilmişdir. Bundan əlavə Almanyanın Bank Kreiss AG, Türkiyənin Pamukbank və Azərtel şirkətlərinə, onların Azercell şirkətinə və Azərbaycanın rəqəmsal əlaqə sektorlarına sərmayələri üçün təminat verilmişdir.

MIGA 2003-cü ilin fevral ayında isə un dəyirmanının genişlədilməsi və müasirləşdirilməsi üçün Türkiyədən Fatoğlu Qıda Sənaye və Ticarət Şirkətinə 529.920 dollar həcmində təminat vərmişdir. Bu sərmayə investisyaları mülkiyyət hüquqlarının məhdudlaşması, özəl mülkiyətin müsadirə edilməsi, müharibə və münaqişələri də nəzərə almaqla siyasi risklərə qarşı sığortalanmışlar.

8.2.2.2. Beynəlxalq Maliyyə Təşkilatı (IFC) ilə Əməkdaşlıq

Beynəyxalq Maliyyə Təşkilatı (IFC), Dünya bankı qrupu içində, inkişaf yolundakı ölkələrin özəl sektora layihə krediti vermək məqsədiylə 1956-cı ildə qurulmuşdur. Təşkilatın 2.4 milyard dollar sərmayəsi və 175 üzvü vardır.

IFC, üzv ölkənin özəl sektor quruluşlarının müxtəlif layihələrinə kredit verə biləcəyi kimi, sendikasiyalarına da iştirak edir. IFC-nin sərmayə ortaqlığına iştirakı da mümkündür.

Azərbaycanda IFC-nin strategiyası maliyyə sektorun güclənməsi, kiçik həcmli müəssisələrin çoxalması, ölkənin sənaye və kənd təsərrüfatı sektoruna yardımın artışı, maliyyə yardımın neft sektoru xaricində olan sahələrə də istiqamətlənməsi və enerji sektoruna olan investisyalara kömək etmək istiqamətində tətbiq edilir.

8.2.3. Avropa Yenidən Qurma və İnkişaf Bankı ilə Əlaqələr

Azərbaycan Respublikasının hərtərəfli əməkdaşlıq içində olduğu iqtisadi təşkilatlardan biri də Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Avropa Yenidən Qurma və İnkişaf Bankı (EBRD), sosialist sistemin dağılmasından sonra mərkəzi və şərqi Avropa ilə yanaşı köhnə Sovet məkanında müstəqilliyini elan edən ölkələrə, sərbəst bazar iqtisadiyyatı və demokratiyaya keçiddə maliyyə dəstəyi vermək məqsədiylə 1991-ci ildə qurulmuşdur. Azərbaycan bu təşkilata 1992-ci il 25 sentyabrda üzv olmuşdur

EBRD, aktiv olaraq Azərbaycandakı neft, nəqliyyat, bank sektoru kimi sahələrın inkişafına dəstək verir. Bu isə, Azərbaycanda qeyri-neft sektorların inkişafını təşviq edir. Ölkədə investisya mühitini formalaşdırmaq üçün, EBRD, xüsusi ilə kiçik və orta həcmli müəssisələrə, özəl sektora yardım edir. Bank bundan əlavə, Azərbaycanda neft və təbii qaz sektoruna etdiyi yardımlara da davam edir.

Azərbaycan həm də AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr" təşəbbüsü proqramına daxil edilmişdir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətində beynəlxalq cəhdlərin əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliyyələşməsi və s. üzrə cəmləşdirmişdir.

Qeyd edmək lazımdır ki, Bankın Azərbaycandakı fəaliyyətinin 50%-i enerji sektoru, 25% maliyyə sektoru, 6%-i mikromaliyyə , 3%-i qeyri-bank təşkilatları və 5%-i koorperasiya sektoru üzrə həyata keçirilir. AYİB bir sıra bankların institusional inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə onlara maliyyə və texniki yardımlar göstərir. Yeri gəlmişkən, bank daha böyük, daha müxtəlifləşdirilmiş və daha davamlı bankların inkişaf etdirilməsi məqsədilə mövcud və yeni partnyor bankları kredit xətləri, sindikatlaşdırılmış və subordinasiyalı kreditlərlə təmin edir. Bununla yanaşı, AYİB qeyri-bank mikro-maliyyə qurumlarını, habelə lizinq və sığorta şirkətlərini də dəstəkləməkdədir. Ümumilikdə AYİB-in Azərbaycanla əməkdaşlıq dövrü ərzində 110 layihə üzrə 1,6 mlrd. dollar məbləğində vəsait ayrılmışdır ki, bundan 70 layihə maliyyə sektorunda həyata keçirilməkdədir. Ümumiyyətlə, bu günə kimi Avropa Bankının maliyyə dəstəyi ilə həyata keçirilən layihələr üzrə vəsaitlərin 44%-i enerji sektoruna yönəldilmişdir. [240].

[240] 'EBRD and Azerbaijan', http://www.ebrd.org/country/azer/index.htm. (10.04.2005).

EBRD 2016-cı ilə qədər, Azərbaycanla 24 layihə ilə əlaqədar müxtəlif müqavilələr imzalamışdır. Bu çərçəvədə Azərbaycana 1500 milyon dollara yaxın kredit vermişdir. Bu kredit əsasən neft sektoruna ayrılmışdır. Kreditlərin 200 milyon dolları, neft və qaz sektorunun inkişafına xərclənmişdir. EBRD 2010-cu ildə isə, elektrik enerjisi, mədən sənayesi və regionlarda qeyri-neft sektorlarına olmaq üzrə, xüsusi ilə kiçik həcmli müəssisələrin inkişafı məqsədiylə kredit verilməsini planlamışdır. EBRD eyni zamanda bank inşaat sektoruna da maraq göstərir. İnşaat sektorunda inşaat materiallarına tələbin artması səbəbi ilə inşaat materialları istehsal edən şirkətlərə yardım etmək və onların sərmayəsini artırılmasına kömək etmək istəyir.

Avropa Yenidən Qurma və İnkişaf Bankı eyni zamanda Azərbaycanda alternatif enerji vəsaitlarının inkişafına da böyük maraq göstərir.

8.2.4. Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə Əlaqələr

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı (Japanese International Coorperation Bank) ilə əməkdaşlığının enerji sektorunda cəmləşdiyi görülür. Yapon Beynəlxalq Əməkdaşlıq Bankı Azərbaycan üçün enerji sektorundakı yenidən qurulmayı reallaşdırmada ən əhəmiyyətli maliyyə donorlarından biri olmuşdur. Bank, 2010-cu ilə qədər sektorunun inkişafı məqsədiylə 339 milyon dollar və Sumqayıtda neft-kimya sənayesi üçün blokların inşa edilməsinə 100 milyon dollar həcmində kredit vermişdir. Təşkilat eyni zamanda Qaradağdan (Bakının cənubunda) regiondakı elektrik satansiyasına qaz kəmərinin çəkilməsini də həyata keçirmişdir.

8.2.5. Asiya İnkişaf Bankı ilə Əlaqələr

2001-ci ildən Azərbaycanda fəaliyyətə başlayan Asiya İnkişaf Bankı (ADB), əsasən xalqın mal və xidmət ehtiyacının qarşılanması və özəl sektorun inkişafı üçün infrastrukturun və iş yerlərinin qurulması istiqmətində fəaliyyət göstərir.

2004-cü ildə Asiya İnkişaf Bankı, Mingəçevirdə yaşayan məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması üçün 2.5 milyon dollar həcmində yardım layihəsi reallaşdırmışdır. Səhiyə Nazirlyi ilə birlikdə həyata keçirilən kiçik uşaqların qidalanması və yod çatışmamazlığı ilə əlaqədar layihəyə isə, 850 bin dollar vəsait ayrılmışdır. Asiya İnkişaf Bankı yoxsulluğun azalması ilə bağlı dövlət proqramına da yardım etmişdir. Bankın layihələrindən biri də sel və daşqından zərər görənlərə yardımlarla əlaqədardir. ADB-nin Bakıda daimi təmsilçiliyinin açılması isə, onun Azərbaycana marağının artacağı şəklində qiymətləndirilir.

2001-2009-cu illərdə Bankın ayırdığı və əsasən yoxsulluğun azaldılmasına, özəl sektorun inkişafına istiqaəmtləndirilən kreditlərin ümumi həcmi 190 milyon dollar olmuşdur. 2009-cu ilin əvvələrinə qədər bank ölkəyə 28 texniki yardım layihəsi çərçivəsində 20.5 milyon dollar qrant ayırmışdır.

2009-2018-ci illər arasında Asiya İnkişaf Bankı (ADB) Azərbaycana 27 kredit ayırmağı planlaşdırmışdır. Asiya İnkişaf Bankı (ADB) 2011-cı ildə Azərbaycana təxminən 300 milyon dollar kredit ayırmışdır. ADB tərəfindən ayrılacaq vəsaitlər ölkədə kiçik həcmli kredit olaraq veriləcəkdir.

2015-ci ildə Asiya İnkişaf İnkişaf Bankı (ADB) Access Bank, Finca Azərbaycan və Dəmirbanka kənd təsərrüfatının inkişafı, kiçik və orta sahibkarlığın dəstəklənməsi üçün 120 milyon dollar ayırmışdır.

8.2.6. İslam İnkişaf Bankı ilə Əlaqələr

Digər tərəfdən Azərbaycan, 1992-ci ildən bəri İslam İnkişaf Bankı (IsDB)-nin üzvüdür.

2004-cü ildə IsDB ilə Ucar-Yevlax avtomobil yolunun inşası ilə bağlı 22 milyon dollar həcmində kredit ayrılması üçün anlaşma imzalandı. Kreditlər ilə uzunluğu 55 kilometr olan yolun yenidən tikilməsi nəzərdə tutulmuşdur.Bu layihə 2006 cı ildə reallaşmışdır.

Bundan əlavə İslam İnkişaf Bankı ilə Xaçmaz elektrik istehsal mərkəzinin inşaatı, onun Yaşma-Dərbənd elektrik verici xəttinə birləşdirilməsi, Samur-Abşeron kanalının Vəlvələçay-Taxtakörpü hissəsinin inşaat layihələrinin qiymətlənditilməsi mövzusunda memorandum imzalanmışdır. İslam İnkişaf Bankının həcmi 42.5 milyon dollar olan Samur-Abşeron kanalının Vəlvələçay-Taxtakörpü hissəsinin inşasına təxminən 10 milyon dollar ayıracaqdır. Bundan əlavə, İslam İnkişaf Bankı Xaçmaz elektrik istehsal mərkəzi tikintisinə və onun Yaşma-Dərbənt elektrik verici xəttinə birləşdirilməsinə 13.5 milyon dollar ayıracaqdır.

2004-cü ilin sonu etibarı ilə IsDB tərəfindən Azərbaycana 152 milyon dollar kredit vermişdir. Verilən kreditlər enerji sektoru ilə əlaqədar layihələrinin reallaşdırılmasına, yolların yenidən tikintisinə, su və kanalizasiya sisteminin yaxşılaşdırmasına istiqamətləndirilmişdir. Bundan əlavə, IsDB Azərbaycanın müəsisələri ilə, bu çərçivədə kiçik və orta həcmli müəssisələr ilə idxal-ixrac fəaliyyətlərinin kreditləndirilməsi ilə əlaqədar əməkdaşlığına maraq göstərir.

İslam İnkişaf Bankı komunikasiya və enerji layihələrinin reallaşdırılması, özəl sektorun inkişafına kömək məqsədiylə Azərbaycana 2005-ci ildə 58 milyon dollar kredit ayırmışdır. Eyni zamanda məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırması məqsədiylə bank tərəfindən 1,5 milyon dollar həcmində qrant ayrılması nəzərdə tutulmuşdur.

Azərbaycanın müstəqiliyini yeni qazanmış müsəlman bir ölkə olması İİB-nın ölkəyə investisyalar ayrılmasını təşviq etmişdir. Bankın əsas məqsədi üzv ölkələrin və müsəlman əhalinin sosial, iqtisadi inkişaflarına yardım etmək və bu ölkədə sosial iqtisadi tərəqqiyə nalil olmaqdan ibarətdir. İİB Azərbaycanda həyata

keçirilən bir çox iqtisadi layihələri maliyyələşdirmək məqsədi ilə ölkəyə 300 milyon dollar həcmində müxtəlif kredit, qrant və texniki yardımlar etmişdir. Bunlara misal olaraq "Mil-Muğan kollektor kanalının tikintisi", "Xanarxı kanalının tikintisi", "Ələt-Qazməmməd yolunun tikintisi", "Mingəçevir SES-nin bərpası" və s. kimi layihələri göstərmək mümkündür.

İslam İnkişaf Bankı Azərbaycana, 1992-ci ildən cəmi 1 milyard 200 milyon dollar borc vermişdir.

8.2.7. Almaniya İnkişaf Bankı ilə Əlaqələr

Almaniya İnkişaf Bankı ilə Azərbaycan Maliyyə Nazirliyi tərəfindən 1999-cu ildə Almaniya-Azərbaycan Fondu (AAF) qurulmuşdur. Bu fondun fəaliyyətləri kiçik və orta həcmli müəssisələrin kredit imkanı qarşılanmasına vəsait ayırmaqdır.

2003-cü ildə Almaniya-Azərbaycan Fondunun (AAF) əməkdaşlıq içində olduğu banklar miqdarı 5.96 milyon avro olan 751 kredit verdi. 2003-cü ilin sonunda Almaniya və Azərbaycan hökumətləri arasında AAF vəsaitlərinin 3.6 milyon Avrodan 8.7 milyon Avroya artırılması haqqında müqvilə imzalanmışdır.

AAF-ın 2004-cü il Azərbaycandakı büdcəsi 666 kredit üzrə 3.3 milyon avrodur. AAF, Azərbaycanda fəaliyyətə başladığı 2001-ci ildən etibarən, kiçik və orta həcmli müəssisələr üçün ümumi miqdarı 9 milyon Avro olan 927 kredit vermişdir. AAF-nın 2004-cü ildə əsas məqsədi regional kreditləndirmənin sürətləndirilməsi və əməkdaşlıq etdiyi bankların fəaliyətlərinin artırılmasına kömək edilməsidir.

Almaniya İnkişaf Bankının (KfW) maliyyə sektoru üzrə ayırdığı kreditlər əsasən, özəl sektorun dəstəklənməsində və "depozitlərin sığortalanması fondu" layihəsində istifadə olunur.

Almaniyanın KfW Bankının krediti hesabına Gəncə və Şəkinin su təchizatı və kanalizasiya sistemi də yenidən qurulmuşdur.

8.2.8. Qaradəniz Ticarət və İnkişaf Bankı ilə Əlaqələr

Azərbaycan, 1997-ci ildə Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB)-nın üzvü olmuşdur. Təşkilat Azərbaycanda fəaliyyətlərini ümumi olaraq; qeyri-neft sektorlarda istifadə olunan layihələrə, özəl müəsisələrin yenidən qurulması və inkişafına yardım etmək məqsədiylə maliyyə yardımları olmaq üzrə ixtisaslaşmışdır. BSTDB, telekomunikasiya, nəqliyyat, istehsal, kənd təsərrüfatı sektor ilə bağlı layihələrin maliyyələşdirilməsi nəzərdə tutulmuşdur.

2013-cü ildə Qaradəniz Ticarət və İnkişaf Bankı Azərbaycanın dörd maliyyə təşkilatına ümumi məbləği 34 milyon dollar olan kredit ayırmışdır.

8.3. XARİCİ BORCUN MƏNBƏLƏR ÜZRƏ QURULUŞU

Enerji sektoru, su sektoru və digər bu nov qlobal sektorlara ayrılan kreditlər üzrə Yaponiya birinci yerdədir. Ümumi kreditin quruluşuna görə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının payı 27%, Dünya Bankının payı 26%, BVF-nun payı 17%, AYİB-ının payı 5.1%, Türk Eksimbankın payı 5%, digərlərinin isə 14 % təşkil edir.

8.4. AVROPA BİRLİYİ İLƏ ƏLAQƏLƏR

Avropalı şirkətlərin Azərbaycana yardımlarının artmasıyla bu ölkələrin Azərbaycanla olan əlaqələri inkişaf etmişdir.

TRACECA layihəsi, INOGATE layihəsi və TACIS proqramı ilə Avropa İttifaqı və Azərbaycan arasındaki əlaqələr inkişaf etmişdir.

Digər cəhətdən 1996-cı ildən başlayaraq Aİ dövlət büdcəsinə dəstək məqsədiylə "Food Security" (ərzaq təhlükəsizliyi) proqramını həyata keçirdir. 1997-98-ci illərdə "Excertional Assistance" (Fövqəladə Yardım) proqramı çərçivəsində Azərbaycana 30 milyon avro ayırmışdır. Bu vəsait hidroelektrik stansiyalarının, kanalların və digər infrastrukturun yenidən tikintisinə istiqamətləndirilmişdir.

"Rehabilitation" proqramı, Erməni işğalından azad olunmuş arazilərin yenidən inşası ilə əlaqədardir. "Demining" proqramı isə göstərilən ərazilərin minalardan təmizlənməsini nəzərdə tutur.

1992-ci ildən başlayaraq Avropa İttifaqı (Aİ) Azərbaycana təxminən 400 milyon Avro həcmində yardım göstərmişdir[241].

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrində əhəmiyyət kəsb edən TRACECA layihəsi, INOGATE layihəsi və TACIS proqramı alt başlıqlar altında aşağıda nəzərdən keçiriləcəkdir.

8.4.1. TRACECA

1996-cı ilin aprel ayında, Avropa İttifaqı və Azərbaycan 1999-cu ildə qüvvəyə minən Müttəfiqlik və Əməkdaşlıq Müqaviləsi imzalamışlardır. Avropa İttifaqı ölkələri içində xüsusi ilə İngiltərə, Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri səbəbiylə diplomatik əlaqələrini gücləndirməyi tərcih edir.

Azərbaycan, Avropa İttifaqının Qafqazda ən böyük ticari əlaqə içində olduğu ölkədir. Bu ticari əlaqənin ən əsas malları isə, neft, təbii qaz və pambıqdır. 1993-cü ildən etibarən Azərbaycanın Avropa İttifaqı ilə ticarət həcmi artım göstərir[242].

---

[241] "EU – Relations with Azerbaijan", http://europa.eu.int/comm/external_relations/azerbaijan/intro/(04.05.2005)

[242] Gülgez Əliyeva, "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri", *Meşveret Büllləteni*, No:11(47), Fevral-2002, s.20.

Yenidən qurulması üçün böyük işlərin görüldüyü İpək Yolu, geo-siyasi əhəmiyyəti ilə birlikdə yenidən inşaasında yer alan ölkələrin iqtisadi inkişafına müsbət təsir edəcəkdir. İpək Yolu, Şərq ilə Qərb arasında körpü olmaqla Azərbaycan mallarının satış bazarının genişləməsinə, daxili bazarın qorunmasına və gəlir səviyəsinin yüksəlməsinə təsir edəcəkdir. Bu yolun yenidən inşaasında Avropa İttifaqının yardımı ilə hayata keçirilən "TRACECA" layihəsi müstəsna rol oynayır[243].

TRACECA, mövcud yollara yenilərinin əlavə edilməsi ilə, Avropadan Qaradəniz və Qafqaz vasitəsi ilə Orta Asiyaya ən tez və ən az maliyyətli iki hərəkət istiqamətli yolun qurulması məqsədini güdür.

İpək Yolunun yenidən fəaliyyətə keçirilməsi məqsədiylə 1991-ci ildə Avropa İttifaqının TACIS proqramı ilə ilk addım atıldı.

1993-cü ilin may ayında Brüsseldə Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanın İqtisad və Nəqliyyat nazirlərinin iştirakı ilə ələ alınan "Böyük İpək Yolu" layihəsi çərçivəsində əsrin ən böyük komunikasiya və nəqliyat müqaviləsi 1998-ci ildə Bakıda imzalandı.

Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, Özbəkistan, Moldoviya, Qırğızıstan, Ukrayna, Rumıniya və Bolqarıstan prezidentlərinin iştirak etdiyi konfransda Avropa-Qafqaz-Asiya Koridorundakı beynəlxalq nəqliyyatın inkişafı istiqamətində bir sıra müqavilələr imzalandı.

Avropa İttifaqının 1991-ci ildə aldığı qərarla Müstəqil Dövlətlər Birliyi ölkələrinə texniki yardım proqramı (TACIS) çərçəvəsində dəstək verdiyi zirvəyə Avropa və Asiya ölkələrinin də daxil olduğu 32 ölkənin təmsilçiləri qatıldı.

32 ölkə ilə yanaşı 12 beynəlxalq təşkilatdan 150 təmsilçinin qatıldığı TRACECA (Böyük İpək Yolunun yenidən hayata keçirilməsi) konfransı sonunda imzalanan müqaviləylə İngiltərədən başlayaraq Yaponiyaya qədər uzanan yeni nəqliyyat dəhlizi rəsmi olaraq istifadəyə verildi.

Konfransın sonunda "Bakı Deklarasiyası" adı altında bir sənədə də tərəflər imza atdı. İştirakçı ölkələrin yaxşı əlaqələrinin inkişafının əhəmiyyətinə diqqət çəkilən sənəddə Avropa-Qaradəniz-Qafqaz-Xazar Dənizi-Asiya arasında qurulacaq nəqliyyat xəttinin 7 may 1993 tarixində Brüsseldə gələn razılıq çərçəvəsində olacağı vurgulandı. Sənəddə bu maddələrə yer verildi[244]:

---

[243] Sahilə Allahverdiyeva, "Bakı dəniz limanının böyük ipək yolunun bərpasında əhəmmiyəti", *Böyük İpek Yolu ve Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.10-12; R. T. Hesenov, "Azərbaycan iqtisadiyyatının inkişaf stratejiyasının perspektivləri", *Azərbaycan iqtisadi islahatlarının həyata keçirilməsi xususiyətləri və problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi iqtisadi islahatlar mərkəzi, Bakı, 2001, ss.10-11.

[244] "Doğu ilə Batı Arasında İpek Köprü", *Zaman Qazetesi*, 9 Eylül 1998.

"Zirvəyə qatılan bütün ölkələr Bruksel Bəyannaməsində yer alan əsaslara tamamı ilə riayət edəcəklərini bəyan edirlər. Avropa İttifaqının TRACECA-nın həyata keçirilməsi üçün göstərdiyi fəaliuyyətlər alqışlanmalıdır. TRACECA-nın həyata keçirilməsinin regiona əmin-amanlıq və stabilliyin gətirəcəyinə ümid verir. Tərəflər İpək Yolunun həyata keçirilməsiylə Qara dəniz və Xəzər limanlarından daha asan şəkildə istifadə edəcəklərdir. Regiondakı ekoloji tarazılığa nəzarət ediləcək, tərəflər yük və sərnişin nəqliyyatında regionun ekoloji tarazılığına zərər vərməmək üçün lazımi köməkliyi göstərəcəklərdir. Bu proqramla böyük əməkdaşlıqların doğacağı ümid edilərək BM, QƏİB və ECO ilə daha böyük həcmli əməkdaşlığın inkişafına qərar verildi. Layihənin tam olaraq həyata keçirilməsi üçün əlaqədar ölkələr vacib olan bütün hüquqi tənzimləmələri ən qısa zamanda reallaşdıracaqdır.

Hökümətlərarası bir komissiya və bu komissiyanın işlərini görməsi üçün bir ümumi katiblik qurulmasına nail olunacaqdır.

TRACECA ilə istər Avropa İttifaqı ölkələriylə və istərsə də digər ölkələrlə koordinasiya daha rahat olacaqdır.

TRACECA çərçəvəsində yeni avtomobil və dəmir yollarının qurulmasına nail olunacaqdır".

Qloballaşma və beynəlxalq iqtisadi əlaqələrin inkişafı mərhələsi xüsusiylə, nəqliyyat sektorunun yenidən gözdən keçirilməsini zəruri edir. Belə ki, dünya iqtisadiyyatının inkişafına dair dəyərləndirmələrə və təxminlərə görə, XXI əsrdə iqtisadi əlaqələr Avropa-Asiya xəttində cəmləşəcəkdir. Bu regionda əlverişli tranzit keçidi reallaşdıracaq "İpək Yolu"nun coğrafi mövqeyindən tam olaraq istifadə edilməsi zərurətini ortaya çıxarır[245].

Beynəlxalq maliyyə təşkilatlarının TRACECA proqramını dəstəkləmələri, layihədə iştirakçı olan ölkələrin sayı, nəqliyyat koridorunun keçdiyi regionun təbii ehtiyatlarla zəngin olması və TRACECA yolunun uzunluğunun digər yollara görə mərkəzi Asiya və dünya bazarları ilə bağlı limanlar arasında ən qısa (6500km) və potensial olaraq çevik yol olması bu yolun üstün cəhətlərindəndir[246].

---

[245] A.A. Salmanov, "Azərbaycan Nəqliyyat Tranzit Potensialı-İqtisadi əlaqələri Stimullaşdıran amil kimi", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xususiyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.54; Natiq Ələsgərov, "Tarixi İpək Yolu və Azərbaycan Neft Sənayesi Müasir Mərhələdə", *Böyük İpek Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.32-33.

[246] Vüqar Dergahov, "Neft Siyasəti və İpək Yolunun Xarici Turizmin İnkişafında Rolu", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.21-24; Rəhime Nurəliyeva, "Azərbaycan İqtisadiyyatında Böyük İpək Yolunun Rolu və əhəmmiyəti", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, s.50; Salmanov, s.56.

8.4.2. TACIS

Romada 1990-cı ilin dekabr ayında Aİ Zirvə iclasında, post-sovet ölkələrini iqtisadi reformlar mövzusunda dəstəkləmək üçün TACIS texniki yardım proqramı qərarlaşdırıldı. Proqramın ən əhəmiyyətli xüsusiyyəti Aİ-nin MDB ölkələriylə iqtisadi əməkdaşlıqlarına vasitəçi olmaları və proqram, müttəfiqlik, əməkdaşlıq müqavilələrinin tətbiqinə köməklik funksiyasını öz üzərinə götürmüşdür.

1992-93-cü illərdə Aİ TACIS proqramının reallaşdırılmasına başladı. Layihə hüquqi, struktur, idari və iqtisadi reformların hayata keçirilməsinə dair texniki yardımı nəzərdə tutur.

Avropa İttifaqı TACIS proqramı vasitəsiylə Avropadan Azərbaycana yeni texnologiyalar gətirən layihələri maliyyələşdirərək, Azərbaycanda sərbəst bazar iqtisadiyyatı və demokratik cəmiyyətin qurulmasına təşviq edir. TACIS proqramı çərçəvəsində maliyyəyə ehtiyac duyulan sektorların araşdırılması üçün, Avropa Komissiyası və Azərbaycan hökuməti və digər təşkilatlar birlikdə fəaliyyət göstərirlər. Azərbaycanın infrastrukturasını təşkil edən körpü və yolların yenidən qurulmasında böyük rol oynayan TACIS nəqliyyat və komunikasiya infrastrukturunun yenidən qurulmasına yardım edir. TACIS kiçik və orta həcmli müəssisələrin inkişafı məqsədiylə təhsil proqramları həyata keçirdir, enerji sənayesindəki istehsal nəticəsində ortaya çıxan ekoloji çirklənmənin və ümumi ekoloji problemlərin həlli və Azərbaycanın əhəmiyyətli sənaye regionlarına enerjinin paylaşdırılması üzrə fikir bildirməkdə, Xəzər regionu və Orta Asiyadan Avropa bazarlarına enerji ehtiyatlarının nəqli ilə əlaqədar alternativ yolların müəyyənləşdirilməsinə yardımçı olur[247].

8.4.3. INOGATE

Neft və təbii qazın Avropaya Beynəlxalq Nəqli Layihəsi (Interstate Oil and Gas Transport to Avrope- INOGATE) isə Aİ-nin köhnə SSSR üçün nəzərdə tutduğu texniki yardım çərçəvəsində əsas regional proqram olaraq həyata keçirilir. Layihənin hədəfləri arasında regional qaz nəqliyyat sisteminin, neft və neft məhsullarının nəqli sistemlərinin yenidən qurulması, inkişafı və Avropa bazarlarına enerji ehtiyatlarının nəqli üçün alternativ yolların tapılması yer alır.

INOGATE layihəsində Azərbaycan, Qazaxıstan və Türkmənistanın enerji ehtiyatlarına böyük yer verilmişdir. Bu çərçəvədə həm qanunvericilik, həm də texniki mövzularda yardım edilmişdir. 1998-ci ilin dekabrında Brüsseldə INOGATE proqramına daxil olan ölkələrin iclası olmuş və həm Bakı-Supsa, həm də Bakı-Tbilisi-Ceyhan neft boru xəttlərini dəstəkləyici qərarlar alınmışdır[248].

---

[247] Gülgəz Əliyeva, "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə Münasibətləri", *Məşvərət Bülleteni*, No:11(47), Fevral-2002, ss.21-25.

[248] *Azerbaycan Ülke Raporu*, DPT Müsteşarlığı Dış Ekonomik İlişkiler Genel Müdürlüğü, Ankara, Mayıs-2002, s.35.

8.5. REGİONAL İQTİSADİ ƏLAQƏLƏR

Azərbaycan eyni zamanda bəzi regional təşkilatların da üzvüdür. Bunlardan ən əhəmiyyətliləri Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı və GU(Ö)AM (Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan, Moldaviya)dır.

8.5.1. Müstəqil Dövlətlər Birliyi

Sovetlər İttifaqının üç slavyan ölkəsi olan Rusya Federasiyası, Belarusiya və Ukraynanın liderləri 1991-ci ilin 8 dekabrında bir araya gələrək Sovet Sosialist Respublikalar İttifaqının (SSRİ) rəsmi olaraq dağıldığını və bu siyasi ittifaqın yerini alacaq yeni bir İttifaqın, "Müstəqil Dövlətlər Birliyi (MDB)"nin qurulduğunu açıqladılar. Bu açıqlamadan qısa bir müddət sonra, 1991-ci ilin 21 dekabrında Qazaxıstanın Alma-ata şəhərində "Alma-ata Deklarasiyası" olaraq bilinən Müstəqil Dövlətlər Birliyinin quruluş bəyannaməsi imzalandı. Beləliklə, SSRİ-nin beynəlxalq bir statusu hüquqi olaraq sona çatdı.

Müstəqil Dövlətlər Birliyi (MDB) 8 dekabr 1991-ci ildə Minskdə Rusiya Federasiyası, Belarus və Ukrayna arasında imzalanmış saziş əsasında yaradılmışdır. 21 dekabr 1991-ci ildə MDB-nin yaradılması haqqında Sazişə əlavə olaraq qəbul edilmiş Protokola əsasən MDB-nin tərkibinə daha 8 ölkə daxil oldu: Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan və Özbəkistan. 1993-cü ilin dekabrında isə Gürcüstan MDB-yə daxil oldu və hazırda 12 ölkə bu təşkilatın üzvüdür.

Birinci mərhələdə (1992-1993-cü ilin əvvəli) keçmiş sovet respublikalarının "sivil boşanması"nın təmin olunması ilə yanaşı, onlar arasında münasibətlərin əsasının yaradılması istiqamətində də işlər həyata keçirildi və bu münasibətlər dövlətlərarası xarakter kəsb etməyə başladı.

1993-cü ildən başlayaraq MDB çərçivəsində mövcud olan münasibətlərin hüquqi əsasları yaradılmağa başlandı. Belə ki:

- 1993-cü il yanvarın 22-də MDB dövlət başçıları Şurası tərəfindən MDB-nin Nizamnaməsi qəbul edildi və bununla da onun funksional və təşkilati əsasları müəyyən edildi;
- 1993-cü milin sentyabrında İqtisadi Birlik yaradılmasında Müqavilə imzalandı və bu, daha sonradan həmin müqaviləni inkişaf etdirən sənədlərin (azad ticarət zonasının yaradılması haqqında saziş; istehsal, kommersiya, kredit-maliyyə, sığorta və qarışıq transmilli birliklərin yaradılması və inkişafına yardım edilməsi haqqında saziş; razılaşdırılmış antiinhisar siyasətinin həyata keçirilməsi haqqında müqavilə; investisiya fəaliyyəti sahəsində əməkdaşlıq haqqında saziş və s.) imzalanması ilə müşaiyət edildi;
- 1994-cü ilin dekabrında MDB ölkələrinin təsərrüfat əməkdaşlığının koordinasiyanın gücləndirilməsi məqsədilə Dövlətlərarası İqtisadi Komitə yaradıldı;

- 1994-cü ilin oktyabrında Valyuta Birliyinin yaradılması haqqında saziş imzalandı.

MDB Nizamnaməsinin iqtisadi, sosial və hüquqi sahələrdə əməkdaşlığa həsr edilmiş bölməsində razılaşdırılmış iqtisadi siyasətin aşağıdakı ümumi istiqamətləri müəyyən edilmişdir:

- bazar münasibətləri və əmtəələrin, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti əsasında ümumi iqtisadi məkanın formalaşdırılması;
- sosial siyasətin koordinasiyası, iqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar yaranan sosial gərginliyin aşağı salınması üçün birgə sosial proqramların və tədbirlərin işlənməsi;
- nəqliyyat və rabitə sistemlərinin, həmçinin energetika sisteminin inkişafı;
- kredit-maliyyə siyasətinin koordinasiyası;
- üzv dövlətlər arasında ticarət-iqtisadi əlaqələrin inkişafına yardım;
- investisiyaların təşviqi və qarşılıqlı müdafiəsi;
- sənaye məhsulları və əmtəələrinin standartlaşdırılması və sertifikatlaşdırılmasına yardım;
- intellektual mülkiyyətin hüquqi qorunması;
- ümumi informasiya məkanının inkişafına yardım;
- birgə ekoloji tədbirlərin həyata keçirilməsi, iqtisadi qəzaların və digər fövqəladə vəziyyətlərin nəticələrinin aradan qaldırılmasında qarşılıqlı yardımın göstərilməsi;
- elm və texnika, təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində birgə layihələrin və proqramların həyata keçirilməsi.

Qısa müddət ərzində MDB-nin strukturu formalaşdı: MDB dövlət başçıları Şurası, MDB hökümət başçıları Şurası, MDB Parlamentlərarası Assambleya. 1993-cü ildən etibarən Minskdə İcraçı Katiblik fəaliyyət göstəriri və bir növ MDB-nin mənzil-qrargahı funksiyasını yerinə yetirir. MDB xarici işlər nazirləri Şurası, MDB müdafiə nazirləri Şurası, həmçinin sahəvi xarakterli bir sıra təşkilatlar yaradılmışdır: MDB xarici iqtisadi qurum rəhbərlərinin Şurası, Neft və Qaz üzrə Hökümətlərarası Şura və s. MDB-ni əsas orqanları sxematik olaraq Sxem 20.1-də göstərilmişdir.

MDB dövlətlərinin qarşılıqlı münasibətlərinin inkişafında keyfiyyətcə mühüm məqamlardan biri 1993-cü ildə imzalanmış İqtisadi Birlik yaradılması haqqında Müqavilə olmuşdur. Bu müqavilə ilə MDB ölkələrinin iqtisadi inteqrasiya istiqamətində mərhələli hərəkəti və uzunmüddətli məqsədləri müəyyən edilmişdir: mərhələ-mərhələ ümumi əmtəə, xidmət, kapital və işçi qüvvəsi bazarlarının yaradılması və bunun üçün azad ticarət zonasının, gömrük birliyinin və daha sonra valyuta birliyinin formalaşdırılması. Bu vəzifələrin yerinə yetirilməsi üçün isə Dövlətlərarası İqtisadi Komitə adlı kollektiv orqan yaradıldı.

Bir neçə il ərzində MDB ölkələrinin iqtisadi, sosial, müdafiə və digər sferalarda qarşılıqlı əməkdaşlıqlarının prinsip və istiqamətlərinin müəyyən edən yüzlərlə çoxtərəfli və ikitərəfli sazişlər hazırlanmış və imzalanmışdır.

Azərbaycan isə, 1993-cü ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur.

Köhnə Sovet İttifaqı tərkibində olan və müstəqilliyini qazanan 15 cümhuriyətdən 12-sinin iştirakı ilə qurulan Müstəqil Dövlətlər Birliyi "başda iqtisadi olmaq üzrə bir çox sahədə bir-birindən müstəqil olan yeni dövlətlər arasında iş ittifaqının inkişafı"məqsədini daşıyırdı. Ana dili, milli pul, mədəni dəyərlər kimi mövzularda hər bir cumhuriyət müstəqil olacaqdır, ancaq, digər mövzularda bu "birliyin" məqsədlərinə riayət edəcəkdir.

Keçən dövr ərzində MDB ölkələri arasındakı əlaqələr diqqətə alındıqda, MDB ilə əlaqədar belə bir qiymətləndirmə aparmaq mümkündür: Soyuq savaş illərində sosialist modeli bütün Avrasiya ölkələrinə zorla ayaqda tutulan Sovetlər İttifaqı modeli çökdükdə, Rusya Federasiyası bu region üçün Müstəqil Dövlətlər Birliyi adı altında bu ölkələri öz idarəsi altında tutmaq məqsədiylə yeni bir model inkişafina diqqət göstərmiş, ancaq, bu məsələdə öz məqsədinə nail olmamışdır. Çünki, Ukrayna, Gürcüstan və Qırğızıstandakı demokratik inqilablar, Azərbaycan-Ermənistan münaqişəsi kimi bir çox faktorlar bu birliyin təməlini hər gün daha da sarsırdı.

Gürcüstan 2008-ci ildə rus ordusunun Gürcüstana daxil olmasından sonra Müstəqil Dövlətlər Birliyini tərk etmişdir. 2014-cü ildə isə Ukrayna MDB-ni eyni səbəbdən tərk etmişdir.

MDB digər iqtisadi qruplaşmalara nisbətən "inteqrasiya yolun" ilə sürətlə hərəkət etmək üçün daha əlverişli şəraitə malikdir. Bu ilk növbədə ölkələr arasında qarşılıqlı asılılıqdan, sahələrarası ölkədaxili əmək bölgüsünün inkişaf prosesində meydana gəmiş xalq təsərrüfatı komplekslərinin hərtərəfli əlaqələrə malik omasından irəli gəlir. Belə ki, 1989-cu ildə SSRİ-yə daxil olan 15 respublikadan 10-u özlərinin daxili ehtiyaclarının 19.8%-dən 24.4%-nə qədərini digər respublikadan gələn əmtəələr hesabına ödəyirdilər. SSRİ xaricindən gələn əmtəə və xidmətlər isə ümumi ehtiyacın 3-6%-nin ödənilməsini təşkil edirdi. 9 respublika istehsal etdiyi əmtəə və xidmətlərin 19.7-25.4%-ni digər respublikalara ixrac edir, SSRİ-dən kənara isə yalnız 2-3% məhsul və xidmət çıxarırdı.

Bu cür üstünlüklərin olmasına baxmayaraq, MDB iqtisadi məkanında inteqrasiyaya tamamilə zidd olan proseslər müşahidə olunmaqdadır: qarşılıqlı ticarətdə kəmiyyət məhdudiyyətləri tətbiq edilir, əlavə gömrük və sərhəd postları müəyyən edilir və s.

Qeyd edilməlidir ki, MDB məkanında iqtisadi inteqrasiyaya təkan verə biləcək 1500-ə yaxın müqavilə və saziş imzalanmışdır. Lakin bu sənədlərdən yalnız 300-ə yaxını reallaşmaqdadır.

İnteqrasiyanın forma və metodlarının uzlaşdırılması məqsədi ilə MDB-də iqtisadi inteqrasiyanın inkişafına dair konsepsiya hazırlansa da, bu sənəd də dövlətlərin inteqrasiya prosesində vahid mövqedən çıxışını təmin etməmişdir.

MDB məkanında inteqrasiya prosesini həm də iştirakçı dövlətlərin qeyri-bərabər iqtisadi inkişaf səviyyəsinə malik olması da çətinləşdirir. Belə bir qeyri-bərabərliyi əsasən aşağıdakı səbəblər şərtləndirmişdir:

- keçmiş sovet iqtisadi məkanının dağılması prosesinin müstəqil dövlətlərin milli iqtisadiyyatına mənfi təsiri heç də eyni dərəcədə olmamışdır;
- iştirakçı dövlətlərin milli iqtisadiyyatlarının dünya bazarına adaptasiyasında da qeyri-bərabərlik müşahidə edilmişdir;
- üzv dövlətlər tərəfindən iqtisadi islahatlar eyni sürətlə həyata keçirilməmişdir;
- ilkin dövrlərdə iqtisadiyyatın idarəolunmaz məcraya yönəlməsi, xarici iqtisadi əlaqələrin effektiv tənzimlənmə mexanizminin olmaması, sosial-iqtisadi sabitsizlik də yeni əsaslarla inteqrasiya üçün qeyri-bərabər start vəziyyəti yaratmışdır;
- iştirakçı dövlətlərin iqtisadi potensialı bir-birindən kəskin şəkildə fərqlənməkdədir.

İqtisadi inteqrasiyaya ticarət və gömrük baryerləri ilə yanaşı, həm də iqtisadi qanunvericiliyin MDB ölkələri üzrə bir-birindən fərqlənməsi də təsir göstərir. Bir çox hallarda ticarət, vergi, gömrük sahəsində qanunvericiliyin MDB üzrə unifikasiyası aparılmır.

Bu cür ziddiyyətlərin mövcudluğu MDB daxilində subregional inteqrasiyanın yaranması ilə nəticələndi. MDB özü regional birlik olsa da, onun tərkibində də müxtəlif birliklər mövcuddur. Bunlar əsasən aşağıdakılardır:

Gömrük Birliyi: Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan;

Mərkəzi Asiya İqtisadi Birliyi: Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan;

ÖGUAM: Özbəkistan, Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova;

İttifaq dövləti: Belarus və Rusiya;

Vahid iqtisadi məkan: Rusiya, Qazaxıstan, Ukrayna, Belarus.

MDB-də vahid iqtisadi məkanın formalaşdırılması istiqamətində ilk real mərhələ Gömrük Birliyinin yaradılması haqqında saziş olmuşdur. Bu saziş Belarus, Qazaxıstan və Rusiya arasında 1995-ci ilin yanvarında imzalanmışdır və vahid gömrük ərazisinin yaradılmasını nəzərdə tutur. 1996-cı ilin martında Qırğızıstan, 1999-cu ilin fevralında isə Tacikistan bu sazişə qoşulmuşlar.

Gömrük Birliyinin mövcudluğu dövründə çoxsaylı sənədlər qəbul edilib ki, onlar arasında da 1996-cı il martın 29-da imzalanmış iqtisadi və humanitar sahələrdə inteqrasiyanın dərinləşdirilməsi haqqında Müqaviləni və onun məntiqi

inkişafı olan 1999-cu il fevralın 26-da imzalanmış Gömrük Birliyi və Vahid İqtisadi Məkan haqqında Müqaviləni göstərmək olar. Bu sənədlərlə əməkdaşlığın əsas istiqamətləri (azad ticarət zonasının formalaşdırılması, Gömrük Birliyinin üçüncü ölkələrlə qarşılıqlı münasibətləri, vahid gömrük ərazisinin, ümumi xidmət və əmək bazarının, ümumi aqrar bazarın, vahid elmi-texniki və informasiya məkanının formalaşdırılması) müəyyən edilmişdir.

Gömrük Birliyinin formalaşdırılması zamanı müəyyən nailiyyətlər əldə olunması ilə yanaşı, qarşıya qoyulmuş məqsədlərin reallaşdırılmasını sual altında qoyan bir sıra ciddi problemlər və çətinliklər də meydana çıxmışdır.

Gömrük Birliyinin formalaşdırılmasının əsas prinsipial məsələləri həll edilməmiş, iqtisadi fəaliyyətdə real nəticələr əldə edilməmişdir. Gömrük Birliyi iştirakçıları arasında inteqrasiyanın ləng getməsi bir sıra əhəmiyyətli amillərlə (sosial-iqyisadi inkişaf səviyyəsində olan fərqlər, iqtisadiyyatın sahəvi strukturunun fərqlənməsi, ölkələrin coğrafi yerləşməsinin xüsusiyyətləri, infrastrukturun zəif inkişaf etməsi, milli nəqliyyat tariflərində əhəmiyyətli fərqlər) izah edilir.

Vahid gömrük tarifinin formalaşdırılması hələ ki üçtərəfli əsasda (Rusiya, Belarus, Qazaxıstan) həyata keçirilir.

2000-ci ildə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanın daxil olduğu Gömrük Birliyi əsasında Avrasiya İqtisadi Birliyi yaradıldı. Bu barədə müvafiq müqavilə 10 oktyabr 2000-ci ildə Astanada imzalanmışdır. Yeni təşkilatın məqsədi beş ölkənin ərazisində vahid iqtisadi məkanın formalaşdırılmasından ibarətdir. Yaxın perspektivdə əsas vəzifələr isə aşağıdakı kimi müəyyən edilib: üzv-ölkələrin iqtisadiyyatlarında həyata keçirilən struktur islahatlarının razılaşdırılması, vahid nəqliyyat strukturunun və vahid nəqliyyat bazarının yaradılması, vahid gömrük tarifinin tətbiq edilməsi, milli qanunvericiliklərin harmonlaşdırılması, beynəlxalq təşkilatlarla münasibətlərdə ümumi siyasi kursun işlənməsi.

1994-cü il aprelin 30-da Qazaxıstan, Qırğızıstan və Özbəkistan arasında vahid iqtisadi məkanını yaradılması haqqında müqavilə imzalanmışdır. 30 mart 1998-ci ildə Tacikistan da bu müqaviləyə qoşulmuşdur. 1998-ci ilin iyulundan etibarən bu regional birlik Mərkəzi Asiya İqtisadi Birliyi adlanır.

Müqavilənin 3-cü və 4-cü maddələrinə görə, vahid iqtisadi məkanın formalaşdırılması zamanı əsas məqsədlər aşağıdakılardan ibarətdir:

- kapital və işçi qüvvəsinin sərbəst hərəkəti üçün zəruri hüquqi, iqtisadi və təşkilati şəraitin yaradılması;
- yüklərin və sərnişinlərin səmərəli daşınmasını təmin edəcək nəqliyyat və kommunikasiyaların inkişafı sahəsində razılaşdırılmış siyasətin həyata keçirilməsi;

- antiinhisar tənzimlənməsi mexanizmi də daxil olmaqla, ədalətli rəqabət üçün müvafiq şəraitin yaradılması;
- daxili bazarların inteqrasiyasını nəzərə almaqla, qarşılıqlı ticarətdə sərbəst (razılaşdırılmış) qiymətlərin tətbiqi və yerli bazarlara əmtəələrin (xidmətlərin) daxilolmasının məhdudlaşdırılması üzrə birtərəfli hərəkətlərə yol verilməməsi;
- təsərrüfat əlaqələri olan subyektlər arasında birbaşa iqtisadi əlaqələrin inkişafının təmin edivə istehsal kooperasiyasının gücləndirilməsi üçün əlverişli şəraitin yaradılması;
- prioritet sahələrdə birgə müəssisələrin, istehsal birliklərinin, kommersiya və maliyyə-kredit qurumları və təşkilatlarının şəbəkəsinin yaradılması;
- qarşılıqlı kapital qoyuluşları üçün bərabər iqtisadi şərtlərin təmin edilməsi və investisiya siyasətinin koordinasiya edilməsi, qarşılıqlı maraq doğuran sahələrə xarici investisiyanın və kreditlərin cəlb edilməsi, investorların hüquq və maraqlarının müdafiəsi üçün real mexanizmin yaradılması;
- gömrük rüsumlarının aradan qaldırılması və vergilərin, yığımların və digər məhdudiyyətlərin ardıcıl olaraq aradan qaldırılması;
- gömrük prosedurlarının sadələşdirilməsi;
- gömrük qanunvericiliyinin harmonlaşdırılması;
- tranzit sərbəstliyi prinsipinin qorunması ilə yüklərin və sərnişinlərin daşınmasına tətbiq edilən tariflərin mərhələ-mərhələ bir-birlərinə yaxınlaşdırılması və s.

10 oktyabr 1997-ci ildə Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova prezidentlərinin Strasburqda keçirilən görüşü zamanı bu dörd ölkənin daxil olacağı dövlətlərarası birliyin yaradılması ideyası bəyənilmiş və müvafiq saziş imzalanmışdı. 24 aprel 1999-cu ildə Özbəkistan da bu təşkilata qoşulduğunu rəsmi olaraq bəyan etdi. Hazırda bu təşkilat ona üzv olan ölkələrinin baş hərfləri əsas götürülərək ÖGUAM (Özbəkistan, Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) adlandırılır.

Adıçəkilən qurumun yaradılmasının əsas məqsədi kimi üzv ölkələrin əməkdaşlığının həm siyasi, həm də iqtisadi aspektləri çıxış edir: siyasi məsələlər, milli dözümsüzlüklə mübarizə, separatçılıq, dini ekstremizm və terrorizm, sülhməramlı fəaliyyət, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Avropa strukturlarına inteqrasiya və NATO ilə "Sülh naminə əməkdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edilməsi.

1996-cı il aprelin 2-də Rusiya və Belarus arasında imzalanmış bu iki ölkə arasında Birlik yaradılması haqqıda müqavilə inteqrasiyanın daha yüksək dərəcəsini hədəf götürdüyünhdən düz bir ildən sonra Rusiya və Belraus ittifaqı haqqında müqavilə imzalandı. Rusiya və Belarus İttifaqı MDB məkanında cərəyan

edən inteqrasiya proseslərində xüsusi yer tutur. Bu onunla müəyyən edilir ki, "subregional" birliklərin ayardılması zamanı söhbət adi inteqrasiyadan gedir. Rusiya və Belarus İttifaqının iri regional birlik kimi formalaşdırılması zamanı isə lap əvvəldən hərtərəfli inteqrasiyanı inkişaf etdirmək niyyəti və son nəticədə iki ölkənin İttifaq dövlətində birləşdirilməsi hədəfi bəyan edilmişdir.

26 yanvar 2000-ci ildə "Rsuiay Federasiyası və Belarus Respublikasının ittifaq dövlərinin yaradılması haqqında müqavilə"yə qüvvəyə mindi. Müqavilənin 2-ci maddəsinə görə, yaradılna ittifaq dövlətinin məqsədləri aşağıdakılardan ibarətdir:

- iştirakçı dövlətlərin qardaş xalqlarının sülh və demokratik inkişafının rəmin edilməsi, dostluğun gücləndirilməsi, rifah və həya t səviyyəsinin yüksəldilməsi;
- sosial-iqtisadi inkişafın təmin edilməsi üçün iştirakçı dövlətlərin maddi və intellektual potensiallarının birləşdirməklə və iqtisadiyyatın bazar mexanizmlərindən istifadə etməklə vahid iqtisadi məkanın yaradılması;
- hamı tərəfindən qəbul edilən beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq, insan və vətəndaşların əsas hüquq və azadlıqlarına daim riayət olunması;
- razılaşdırılmış xarici siyasətin və müdafiə siyasətinin həyata keçirilməsi;
- demokratik dövlətin vahid hüquqi sisteminin formalaşdırılması;
- insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şərtlərin yaradılmasına yönəlmiş razılaşdırılmış sosial siyasətin həyata keçirilməsi;
- Avropa və dünyada təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi, Müstəqil Dövlətlər Birliyinin inkişafı.

Vahid iqtisadi məkanın yaradılması məqsədi ilə iştirakçı dövlətlər İttifaq dövlətinin formalaşdırılacağı zamanı əsas götürüləcək fundamental prinsipləri də müəyyən etmişlər:

- təsərrüfat fəaliyyətinin, o cümlədən mülki və vergi münasibətlərinin tənzimlənməsi sahəsində unifikasiya edilmiş, daha sonra isə vahid qanunvericiliyin fəaliyyət göstərməsi (maddə 20);
- əsas sosial və makroiqtisadi göstəriciərin mərhələ-mərhələ yaxınlaşdırılması və vahid struktur siyasətinin həyata keçirilməsi üçün razılaşdırılmış tədbirlərin qəbul edilməsi (maddə 21);
- vahid emissiya mərkəzinin yaradılması ilə vahid pulun mərhələ-mərhələ tətbiqi (maddə 22);
- vergitutmada vahid prinsiplərin tətbiq edilməsi (maddə 27);
- qiymətlərin və tariflərin tənzimlənməsi məsələləro də daxil olmaqla qiymət əmələgəlmə sahəsində vahid siyasətin həyata keçirilməsi (maddə 23);

- vahid qiymətli kağızlar bazarının yaradılması (maddə 24);
- vahid yenidən maliyyələşdirmə dərəcələrinin və məcburi ehtiyat normalarının tətbiq edilməsi (maddə 25);
- xarici və daxili borcun xidməti və ödənilməsi sahəsində vahid hüquqi bazanın, xarici borclanmanın və investisiyaların həyata keçirilməsi qaydalarının yaradılması (maddə 26);
- üçüncü ölkələrə, beynəlxalq iqtisadi təşkilatlara və iqtisadi birliklərə münasibətdə vahid ticarət siyasətinin həyata keçirilməsi, vahid gömrük rüsumlarının, gömrük rejimlərinin və gömrük rəsmiləşdirməsi və nəzarətinin tətbiq edilməsi, xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi və xarici ticarətin həyata keçirilməsi zamanı iştirakçı dövlətlərin iqtisadi maraqlarının qorunması üzrə qanunvericiliyin unifikasiya edilməsi (maddə 28);
- İttifaq dövlərində vahid gömrük məkanının fəaliyyət göstərməsi: kəmiyyət məhdudiyyətlərinin tətbiq edilməsi də nəzərə alınmaqla vahid qeyri-tarif tənzimlənməsi tədbirləri; lisenziyaların, sertifikatların və icazələrin qarşılıqlı tanınmasının vahid qaydaları (maddə 29);
- İttifaq dövləti sərhədləri daxilində birləşdirilmiş energetika, nəqliyyat, telekommunikasiya və rabitə sistemlərinin fəaliyyət göstərməsi (maddə 30);
- unifikasiya edilmiş əmək qanunvericiliyinin, əhalinin sosial müdafiəsi, pensiya təminatı sahəsində qanunvericiliyin fəaliyyət göstərməsi (maddə 31).

Rusiya və Belarusun İttifaqı bu iki dövlətin maraqlarına cavab verir. Belə olan halda istehsal və təsərrüfat əlaqələri bərpa olunacaq, vahid iqtisadi məkan yaradılacaq. Həm Rusiya, həm də Belarusda başa düşürlər ki, makroiqtisadi və sosial göstəricilərin yaxınlaşdırılması, vahid struktur siyasətinin həyata keçirilməsi, vahid valyutaya keçid və çoxsaylı digər məsələlərin həlli əməktutumlu və mürəkkəb məsələlərdir. Lakin hər iki dövlətin maraqlı olduğu halda, bu problemlərin həlli yalnız zaman məsələsi olacaq.

Sonuncu regional birlik Rusiya, Qazaxıstan, Ukrayna və Belarus prezidentlərinin 2002-ci il sentyabrın 18-də Yalta zirvə görüşündə "dördlər" çərçivəsində "Vahid İqtisadi Məkanın yaradılması haqqında müqavilənin" imzalanması ilə həyata vəsiqə qazanmışdır. Əgər MDB daxilində effektiv iqtisadi inteqrasiya təmin edilmiş olsaydı birliklər daxilində hər hansı bir vahid iqtisadi məkanın və ya digər regional qurumların yaradılmasına təşəbbüs göstərilməzdi. MDB daxilində alternativ inteqrasiya formasına siyasi-iqtisadi, strateji maraqları əsasən üst-üstə düşən ölkələr üstünlük verir.

İnteqrasiyanın bu formasının yaranması heç də təsadüfi deyil. MDB daxilində inteqrasiyanın qeyri-effektivliyi belə bir inteqrasiyaya impuls vermişdir.

Subregional əməkdaşlığa üstünlük verilməsi heç də MDB müstəvisindəki inteqrasiya ilə müqayisədə onun üstünlüyünü və ya daha effektiv olmasını xarakterizə etmir. Təcrübə göstərir ki, yeni müstəvidə qurulan subregional inteqrasiya posesi də öz səmərəsizliyi ilə səciyyələnir və deklorativ xarakter daşıyır.

MDB daxilində inteqrasiya prosesinin dərinləşdirilməsi müxtəlif təşkilati-hüquqi formalarda həyata keçirilə bilər. Bu inteqrasiya çoxtərəfli və ikitərəfli müqavilələrə əsaslana bilər. Məsələn, İqtisadi Birliyin yaradılması haqqında Müqavilə mahiyyətcə inteqrasiyanın çoxtərəflilik prinsipini nəzərdə tutur. Əslində belə bir inteqrasiya forması Avropa Birliyi modelinə əsaslanır.

İqtisadi Birliyə dair müqavilə çoxtərəflilik prinsipinə əsaslansa da, MDB üzvlərindən bir çoxu ikitərəfli sazişlərə üstünlük verirlər. Təcrübə göstərir ki, ikitərəfli əməkdaşlıq sazişləri daha səmərəli xarakter daşıyır və onların icrası sahəsində elə bir problem yaranmır. Belə bir əməkdaşlıq forması dezinteqrasiyaya şərait yaradan mənfi bir hal kimi qiymətləndirilməməlidir. Əsas məsələ inteqrasiyanın müxtəlif formalarda dərinləşdirilməsidir. MDB məkanında iqtisadi inteqrasiya yeni dövrün tələblərini nəzərə almalıdır.

Ümumiyyətlə, MDB daxilində iqtisadi inteqrasiya müstəqil dövlətlərin suverenliyini nəzərə aldığı halda uğurlu ola bilər. Bu o deməkdir ki, hər bir iştirakçı ölkə bir-birinin siyasi müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşmalıdır. MDB üzvü olan ölkələr arasında iqtisadi münasibətlərin qurulmasında və nizamlanmasında onların hər biri üçün prioritet məsələ məhz milli-dövlət maraqlarıdır. Bu maraqların kölgədə qoyulması iqtisadi inteqrasiyanın dərinləşməsinə imkan verə bilməz. Bu baxımdan inteqrasiya çərçivəsinin genişlənməsi yalnız mərhələ-mərhələ, qarşılıqlı razılaşma və kompromislər əsasında həyata keçirilə bilər. Həmçinin separatçılıq meyllərinin müşahidə edildiyi, ərazilərin toxunulmazlığı prinsipinin pozulduğu hər hansı birlikdə davamlı iqtisadi əməkdaşlıqdan və genişmiqyaslı inteqrasiyanın perspektivlərindən danışmaq absurddur.

Digər tərəfdən, inteqrasiya könüllülük əsasında olmalı və bunun üçün obyektiv şərait yetişməlidir. Başqa bir şərt bazar iqtisadiyyatının mövcud reallıqlarının nəzərə alınması ilə bağlıdır. Unutmaq olmaz ki, iqtisadi inteqrasiya yalnız iqtisadi maraqlara əsaslanır.

İqtisadi inteqrasiya həmçinin makroiqtisadi göstəricilərin bir-birinə yaxın olmasını tələb edir. Lakin müşahidələr göstərir ki, MDB üzvü olan ölkələrin makroiqtisadi göstəriciləri, o cümlədən büdcə kəsiri, inflyasiya, investisiya qoyuluşu, iqtisadi artım tempi, iqtisadi tənzimləmə mexanizmləri bir-birindən fərqlənir. Belə bir şəraitdə üzv dövlətlər üçün iqtisadi sahədə vahid oyun qaydalarının müəyyən edilməsi qeyri-mümkündür.

İqtisadi inteqrasiyanın səmərəli nəticələnməsi MDB subyektlərindən daha çox, bazar subyektlərindən asılı olacaq. Belə ki, bazar subyektləri, yəni sahibkarlar, şirkətlər bir-birləri ilə üfüqi əlaqələr quraraq istər-istəməz inteqrasiyanın

dərinləşməsinə şərait yaradacaqlar. Bu baxımdan inteqrasiyaya təkcə makro deyil, həm də mikrosəviyyədə şərait yaradılmalıdır. Konkret şirkət və sahibkar üçün heç bir siyasi çərçivə olmadığına görə onlar öz partnyorları ilə qarşılıqlı münasibətlərini məqsədyönlülük və qarşılıqlı fayda prinsipi əsasında qururlar. Fikrimizcə, MDB ölkələri transmilli şirkətlərin yaradılmasını stimullaşdırmaqla və onların fəaliyyətinə dəstək verməklə iqtisadi inteqrasiyanın üfüqi istiqamətdə inkişafına şərait yarada bilər.

Bəzən MDB məkanında iqtisadi inteqrasiya əvvəlki təsərrüfat əlaqələrinin bərpası kimi qiymətləndirilir. Bu məsələyə belə yanaşma düzgün deyil. Əslində MDB daxilində inteqrasiya prosesi təsərrüfat əlaqələrinin rasionallaşmasını və onun effektivliyinin artırılmasını təmin etməli, elmi-texnoloji, institusional və sosial tərəqqiyə şərait yaradan yeni əlaqələrin qurulmasına yol açmalıdır. Belə bir təsərrüfat əlaqələri sistemi MDB ölkələrində investisiya fəallığının artması, sənaye strukturunun təkmilləşdirilməsi, istehsal edilmiş məhsulun keyfiyyətinin yüksəldilməsi və onun rəqabət qabiliyyətinin təmin edilməsi ilə nəticələnməlidir. Əks halda MDB-ni möhkəm təməl üzərində qurulmuş regional birliyə çevirmək mümkün olmayacaq.

MDB-nin bir inteqrasiya qruplaşması kimi birləşməsini və uzun müddət səmərəli fəaliyyət göstərməsini təmin edə biləcək vəzifələr sırasında yuxarıda qeyd edilənlərlə yanaşı aşağıdakıları da göstərmək olar:

- MDB İqtisadi Birliyinin dünya təsərrüfat münasibətlərində, digər inteqrasiya qruplaşmaları ilə qarşılıqlı əlaqələrdə yerinin müəyyən edilməsi, ona üçüncü ölkələr və digər dövlətlərarası birliklər tərəfindən tətbiq edilən ayrıseçkilik, ədalətsiz rəqabət, hüquqi və iqtisadi məhdudiyyətlər və digər təhlükələrin kollektiv surətdə aradan qaldırılması;
- istehsalın həyata keçirilməsi zamanı itkiləri minimuma endirməyə imkan verəcək istehsalın strukturunun köklü şəkildə yenidənqurulmasının koordinasiya edilmiş şəkildə reallaşdırılması və üzv ölkələrin bütövlükdə və ayrı-ayrılıqda iqtisadi potensiallarını genişləndirmələri;
- əmtəə və xidmətlərin istehsalında texniki və texnoloji əsasların təkmilləşdirilməsində irəliləyişin təmin edilməsi, kollektiv elmi-texniki və təhsil potensialının artırılması, mürəkkəb elmi-texniki və konstruktor layihələrinin birgə həyata keçirilməsi;
- iri ekoloji proqramların işlənməsi və həyata keçirilməsi.

Yuxarıdakı fikirləri ümumiləşdirərək qeyd edə bilərik ki, yeni inteqrasiya ideoloji, siyasi ehkamlar üzərində qurulmamalı və o, bazar iqtisadiyyatının prinsiplərinə və qarşılıqlı faydaya əsaslanmalıdır. Həmçinin inteqrasiya prosesində kiçik və böyük dövlətlərin maraqları arasında balans gözlənilməlidir. MDB daxilində inteqrasiya nə keçmiş SSRİ dövründəki təcrübəyə, nə də beynəlxalq regional birliklərin təcrübəsinin mexaniki olaraq tətbiqinə əsaslana bilməz. MDB

ölkələrinin iqtisadi inteqrasiyası üçün tamamilə fərqli mexanizm nəzərdə tutulmalıdır.

Hazırda isə MDB məkanında iqtisadi inteqrasiya daha çox ikitərəfli münasibətlərə əsaslanır və iqtisadiyyatın tənzimlənməsinin müxtəlif tip bazar mexanizmləri, müxtəlif valyuta-maliyyə, qiymət, vergi qanunvericilikləri və s. ilə məhdudlaşmaya məruz qalır. MDB ölkələrinin bəyanat xarakterli sənədlərin real nailiyyətlərə çevrilməsinə imkan yaradacaq real inteqrasiya mexanizminə ehtiyacı vardır.

8.5.2. Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı

Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC), dünyada qloballaşma və regional səviyyədə beynəlxalq bütünləşmə istiqamətində, siyasi və iqtisadi sahədə yenidən qurulma mərhələsinin bir nəticəsidir. 1980-ci illərin sonlarında, Şərqi Avropada iqtisadi çərçivədə sərbəst bazar iqtisadiyyatına və siyasi olaraq demokratiyaya keçid prosesinin nəticəsi zəminində yerini tapan BSEC, regional bir iqtisadi əməkdaşlıq təşəbbüsüdür.

Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSƏC) Türkiyənin liderliyində, 1992-ci ilin 25 iyununda İstanbulda 11 ölkənin dövlət və hökümət başçılarının iştirak etdiyi iclasda quruldu. Azərbaycanla yanaşı təşkilatda yer alan digər ölkələr bunlardır:[249] Albaniya, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldovia, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Ukrayna və Yunanıstan. Birbirindən fərqli bu ölkələr; rifah, sülh və stabillik regionu quraraq dünya iqtisadiyyatına güc qatmaq məqsədini daşıyırlar.

BSEC nəzəri olaraq və başlıca üç alt siyasi coğrafiyanı (Qafqaz, Orta Şərq, Balkan) və üç dənizi (Qara dəniz, Ege, Xəzər) birləşdirmişdir. Bu vəziyyətlə nə bir sərbəst ticarət regionu və nə də gömrük ittifaqı modeli olmasa da, BSEC Regionu, dünya iqtisadiyyatının gələcəyinin qurulmasında diqqətə alınan bir regiondur.

Qara Dəniz Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin daha da genişləndirilməsinə Azərbaycan böyük əhəmiyyət verir. Azərbaycan bu təşkilat çərçivəsində həyata keçirilən iqtisadi layihələrin reallaşmasında fəal rol oynayır. Bu təşkilatın effektliyini artırmaq məqsədi ilə yeni maliyyə mexanizmalarının qurulması lazımdır. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər geniş coğrafi məkanı əhatə edir və bu ölkələr böyük iqtisadi potensiala sahibdirlər.

BSEC-nin beynəlxalq platformda əhəmiyyətli bir regional təşəbbüs olabilməsi üçün, gələcək perspektivdə bilinən hədəflər daxilində, daha irəli iqtisadi bütünləşmə mərhələləri keçəbiləcək şəkildə nizamnamələrə gedilməsi vacibdir. Bu da üzv ölkələrin sərbəst bazar iqtisadiyyatı sisteminə tez bir zamanda keç-

[249] Bkz. Nail Fətəliyev-Aygül Şamçıyeva, "Qara Dəniz iqtisadi əməkdaşlığı", *Məşvərət Bülleteni*, No:12 (48), Mart-2002, ss.19-38.

mələri, üzv ölkələr arasındakı mövcud köklü problemlərin həllinə qovuşması və üzvlərin digər iqtisadi bütünləşmə girişimlərinə daxil olmaları vəya digər girişimlərdəki öhdəliklərin yerinə gətirilməsinin əngəllənməməsi ilə ola bilər[250].

8.5.3. İqtisadi Əməkdaşlıq Təşkilatı

Türkiyə, İran və Pakistan arasında regional iqtisadi əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək hədəfi istiqamətində 1964-cü ildə qurulan İnkişaf üçün Regional Əməkdaşlıq (Regional Cooperation for Development), şəkil və mahiyyət dəyişiklikləri edərək 1985-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) adını aldı. İqtisadi Əməkdaşlıq Təşkilatı, 1990-cı illərin əvvəlində Avrasiyada meydana gələn köklü tarixi dəyişiklik dövründən genişləyəcək şəkildə faydalandı. 1992-ci ildə Əfqanistan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan İqtisadi Əməkdaşlıq Təşkilatına qatıldı. Genişləmə nəticəsində təşkilat; əhalisi 300 milyon olan 7 milyon km^2 sahəyə yayılmış, zəngin təbii ehtiyatlara sahib on üzvlü bir təşkilat halını almışdır[251].

ECO, orta tarixdə üzv ölkələr arasındakı əməkdaşlıqla əlaqədar olaraq ticarət, nəqliyyat, komunikasiya və enerji sektorlarına üstünlük verilməsi strategiyasını mənimsəmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatı, nəqliyyat və komunikasiya sahəsinə verdiyi əhəmiyyət çərçivəsində, xüsusi ilə dənizə çıxışı olmayan təşkilat üzvlərinin ehtiyaclarına cavab verəcək, beynəlxalq limanlara və bazarlara çıxmalarına imkan verəcək şəkildə regionun infrastrukturunu inkişaf etdirməyi, əksiklərini tamamlamağı, bundan əlavə, kommunikasiya şəbəkəsini müasir standartlara cavab verə biləcək şəkildə inkişaf etdirib genişləndirməyi nəzərdə tutur. Digər tərəfdən regionun zəngin enerji ehtiyatlarının lazımi şəkildə istifadəsi və beynəlxalq bazarlara çatdırılması xüsusi əhəmiyyət daşıyır. Təşkilatın seçdiyi hədəflər istiqamətində bəzı addımlar atdığı görülür[252].

İqtisadi Əməkdaşlıq Təşkilatının, qloballaşmanın təsirinin xüsusi ilə, inkişaf yolundakı ölkələr üzərində açıq bir şəkildə hiss edildiyi günümüzdə, qloballaşmanın mənfi təsirlərini aşağı səviyəyə salma məqsədlərinə kömək göstərdiyi də söylənilə bilər.

---

[250] İrfan Kalaycı, "Karadeniz Ekonomik İşbirliği: Dünya Ekonomisi Açısından Geleceği", *Globallaşma Prosesinde Qafqaz ve Orta Asiya Mövzusunda Beynelxalq Konfransın Materialları*, Bakı, 2003, ss.62-63; "Karadeniz İqtisadi İşbirliği", http://www.foreigntrade.gov.tr/ead/ekonomi/sayi10/kei.htm 5 Haziran 1999. (09.04.2003).

[251] Ferhan Erkmenoğlu, "İqtisadi İşbirliği Teşkilatı (EİT) Devlət veya Hükmet Başkanları Yedinci Doruk Toplantısı (İstanbul; Ekim 2002)", http://www.mfa.gov.tr/durkce/grupe/ues-8/ECO.htm. (09.04.2003).

[252] Ferhan Erkmenoğlu, "İqtisadi İşbirliği Teşkilatı (EİT) Devlət veya Hükmet Başkanları Yedinci Doruk Toplantısı (İstanbul; Ekim 2002)", http://www.mfa.gov.tr/durkce/grupe/ues-8/ECO.htm. (09.04.2003).

8.5.4. GU(Ö)AM

Rusiyanın Müstəqil Dövlətlər Birliyinin üzvləri üzərində daha çox güclü olmasını təşkil edəcək siyasətinə qarşı olan Azərbaycan, GU(Ö)AM (Gürcüstan-Ukrayna-Özbəkistan-Azərbaycan-Moldova) olaraq bilinən bir alternativ regional birliyin qurulması təşəbbüsi ilə çıxış etmişdir. Üzv ölkələr arasında siyasi, iqtisadi və strateji ittifaqı təşkil etməyi hədəfləyən, müstəqil və torpaq bütünlüyü prinsiplərini əməkdaşlıq içində gücləndirməyi hədəfləyən təşkilat, 1997-ci ildə quruldu.

GU(Ö)AM-ın quruluş məqsədləri belə sıralana bilir:

1. Sovetlər İttifaqının dağılmasından sonra sosialist bloka daxil olan dövlətlər müxtəlif qeyri-müəyyənliklərlə qarşı qarşıya qaldılar. Regionda siyasi boşluğun olması diqqət çəkməyə başladı. Beləcə, keçmiş post-sovet məkanı, xüsusi ilə də Qara dəniz və Xəzər hövzəsi dünyanın güc mərkəzi olma iddiasındakı ölkələrin mənfəətlərinin kəsişmə nöqtələrindən biri halına gəldi. Bu vəziyyət region ölkələrini müstəqilliklərini qoruma məqsədiylə bir araya gəlməyə sövq etmişdir.

2. Region enerji ehtiyatlarının istehsalı ilə əlaqədar "Əsrin müqaviləsi" layihəsi ilə, enerji ehtiyatlarının hansı yollarla ixrac ediləcəyinə dair mübahisələri da gündəmə gəldi. Hazırdakı boru xəttlərinin Rusyanın nəzarəti altında olması isə şübhə qaynağı idi. Bu vəziyyət, ən etibarlı ixrac yolunun seçilməsi üçün region ölkələri arasında iqtisadi və siyasi əlaqələrin qurulmasını, bir regional birliyin qurulmasını zəruri qılmışdır.

Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova arasındakı iqtisadi əməkdaşlıq ittifaqı imkanlarının inkişafı məqsədiylə qurulan bu yeni təşkilata 1999-cu ildə Özbəkistan da daxil oldu. Ancaq, Özbəkistan, 2002-ci ildə təşkilatın fəaliyyətini qənaətbəxş hesab etmədiyinə görə öz üzvlüyünü dondurmaq qərarını verdi və 2005-ci ildən isə təşkilatı tərk etdi[253]. Türkiyə və Latviya isə GUAM-ın müşahidəçi dövlətləridir.

Azərbaycan neftinin Gürcüstandan keçən boru xətti ilə Qaradəniz limanından tankerlərlə Ukraynaya və Moldovaya çatdırılması bu ittifaq üçün mühüm bir amildir[254].

Zamanla GUAM-da struktur dəyişikliyi və genişləmə cəhdləri gündəmə gəlmişdir. Türkiyə, Bolqarıstan və Rumıniyanın ittifaqa üzvlüyü müzakirə edilmişdir. Bu proses xüsusilə Ukrayna və Gürcüstanda baş verən siyasi inkişaf və

---

[253] Fikret Ertan, "GUAM Zirvesi", *Zaman Gazetesi*, 23.04.2005; "Özbekistan, l5 uyeli GUUAM'dan çekiliyor", http://www.zaman.com.tr/2002/06/15/dis/h4.htm. (09.04.2003)

[254] Bkz: Rovşen İbrahimov, "GUÖAM Örgütünün Kurulma Sebeplerinin Uluslararası İlişkiler Karar Verme Süreci Teorisi Açısından Değerlendirilmesi", *Azerbaycan Müsteqillikden Sonra Beynelhalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.55-58.

dəyişikliklərdən sonra sıxlaşmışdır. ABŞ-ın ittifaqa dəstək sözü isə GUAM-ın gələcəyi diqqət çəkicidir[255].

8.6. İNTEQRASİYADA YENİ MƏQSƏDLƏR

Aşağıda Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyası çərçivəsində, beynəlxalq təşkilatlarla əlaqələrində yeni məqsəd olaraq Dünya Ticarət Təşkilatına üzvlük, regional iqtisadi münasibətlər baxımından isə, "Türk İqtisadi İttfaqı" na ya da "Avrasiya İqtisadi İttfaqı" düşüncəsi altbaşlıqlarına toxunulacaqdır.

8.6.1. Dünya Ticarət Təşkilatına Üzvlük

Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyası baxımından əsas məqsədlərindən biri Dünya Ticarət Təşkilatına (WTO) üzv olmaqdır.

1947-ci ildən bəri GATT-ın bütün iclaslarda alınan qərarlar dünya ticarətindəki sərbəstliyi məhdudlaşdıran əngəllərin ortadan qaldırılması istiqamətində olmuşdur. 1986-cı ildə Uruqvayda keçirilən 8-ci iclasda, beynəlxalq ticari münasibətləri tənzimləmək məqsədiylə quruması qərarlaşdırılan WTO, nəhayət 1 yanvar 1995-ci ildə quruldu. Təşkilata 145-dən çox ölkə üzv olaraq qəbul edilmişdir. Təşkilat müəyyənləşdirdiyi qaydalarla dünya ticarətinin 95%-ni tənzimləyir.

Dünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı ilə birlikdə yaxın gələcəkdə beynəlxalq iqtisadi əlaqələrin inkişafında ən önəmli üç dünya təşkilatından biri olacaqdır.

WTO-ya üzvlüyün, inkişaf etməkdə olan ölkələr baxımından əhəmiyyəti, təşkilatın qurulduğu ilk illərdə mübahisəli problemdə görülməsi mümkündür: Venesuela və Braziliya, ABŞ-ı neft məhsullarının ticarəti ilə əlaqədar qaydalara zidd hərəkət etməsilə bağlı WTO-ya şikyət etdi. WTO 29 yanvar 1996-cı il tarixli qərarında şikayəti haqlı hesab edildi.

ABŞ 19 iyun 1996-cı ildə qərara tabe olacağını bildirdi. 14 mart 1996-cı ildə isə Hindistan, ABŞ-ın trikotaj məhsulları ilə bağlı olaraq qoruyucu tədbirlərin triko, trikotaj və geyim malları ticarətinin qaydalarına zidd olduğunu iddia edərək WTO-ya müzakirə açılmasını istədi. 17 aprel 1996-cı ildə şikayət qəbul edildi. 24 apreldə isə, ABŞ mübahisə yaradan tədbirləri ortadan qaldırdığı üçün şikayət geri alındı.

Hər iki hadisəyə də nəzər salaraq WTO-ya üzvlüyün inkişaf etməkdə olan ölkələr, bu mənada Azərbaycan üçün də xilas edici olmadığı kimi fəlakət gətirici kimi də dəyərləndirilməməlidir.

Azərbaycan ixracının təqribən 90%-i neft və neft məhsullarından ibarətdir. Bunların isə bazarı və qiyməti WTO qaydlarına əsasən müəyyənləşmir. Bu sə-

[255] Azer Eliyev, 'GUÖAM Yeni Müsteviye Qedem Qoyur', *525-ci Qezet*, No:66 (1922), 09.04.2005.

bəblə, bu təşkilata üzv olunduğu təqdirdə ixrac həcminin artması və müxtəlifliliyi baxımından bir itki olmayacaqdır. Ancaq, WTO qaydalarına müvafiq olaraq daxili bazarın xaricə geniş bir şəkildə açılması, xarici məhsulların istehsalçıları ilə hələ rəqabət apara biləcək səviyyədə olmayan və varlığını davam etdirmək üçün sanki dirənən Azərbaycan sənayesinin və kənd təsərrüfatı və heyvandarlıq sektorunun daha da pis vəziyyətə düşməsinə səbəb ola biləcəkdir. Bu baxımdan WTO-ya üzv olmağın vaxtı və şərtləri çox diqqətlə hesablanmalı ki, ölkə iqtisadiyyatı üçün bu üzvlükdən maksimum fayda əldə edilə bilsin[256].

İdxalı əvəz etməyə əsaslanan bir sənayeləşmənin birinci mərhələsi istehlak malları sənayesindəki inkişaf ilə nəticələnir.

Bundan sonra ölkələr üçün sənayeləşmə siyasətini inkişaf etdirə biləcək iki yol vardır. Birincisi, xarici bazarlara açılmaqdır. Cənubi Koreya, Tayvan və Şərqi Asiya ölkələri kimi, daxili bazarları kiçik olan ölkələr bu yolla inkişaf ediblər. Çünki, sadəcə daxili bazardakı tələbə uyğun istehsalla bu ölkələrin yüksək inkişaf səviyyələrinə qalxmaları mümkün deyil. İkinci yol isə, sənayeləşmə siyasəti ilə xammal və investisiya malları istehsalını artırmağı hədəfləməkdir. Türkiyə və bazarı böyük olan bir çox ölkə bu yolla inkişaf ediblər. Böyük bir daxili bazara sahib olan Rusiyada bu bazarı itirməmək üçün sənayeləşmə siyasətini ikinci yolla həyata keçirməyə çalışır.

Azərbaycan üçün isə, sənayeləşmə siyasəti daxili bazarı kiçik olan bir çox Şərqi-Asiya ölkələri kimi birinci yolla, yəni ixrac üstünlüklü olmalıdır. Buna görə Azərbaycanın WTO tərəfindən təşkil olunan yeni beynəlxalq ticarət sisteminə vaxtında uyğunlaşaraq bu sistemin vermiş olduğu fürsətlərdən faydalanması, ölkənin iqtisadi inkişafında mühüm rol oynaya bilər[257].

Beynəlxalq təşkilatlarla əlaqələrin düzgün qurulması da inteqrasiya olmanın təməl şərtlərindən biridir. Yuxarıda da ifadə edildiyi kimi 1992-ci ildə IMF və IBRD-yə üzv olan, 1993-cü ildən etibarən GATT-a müşahidəçi statusunda qoşulan Azərbaycan, Dünya Ticarət Təşkilatına da üzv olmağı planlaşdırır.

WTO-ya üzvlük isə IMF və IBRD-yə üzvlüklə müqayisədə daha ciddi müzakirələrə səbəb olur. Belə ki, WTO-ya üzvlük iqtisadi müstəqilliyi könüllü olaraq məhdudlaşdırma kimi görülür.

WTO ilə təmasları 1993-cü ildə müşahidəçi statusunda iştirakla başlayan Azərbaycan, 1997-ci ildə müzakirələrə başlamış və 2002-ci ildə üzvlüklə bağlı yaradılan komissiya iclaslarına başlamışdır[258].

---

[256] Rasim Musabəyov, "Qloballaşma və Azərbaycan", *Məşvərət Bülleteni*, No:11(47), Fevral-2002, s.40.

[257] Ekber Eldaroğlu, "Dünya Ticarət Təşkilatı və Azərbaycan", *Azərbaycan Milli Demokratiya Fondu, "Azərbaycan" Bülleteni, No:22 (142),* 31 May 2001.

[258] Ayhan Erdal, "Dünya Ticaret Örgütü ve Azerbaycan'ın Üyelik Süreci", *Azerbaycan Müstəqillikden Sonra Beynelhalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.110-112.

2002-ci il dekabr ayında Cenevrdə verilən qərar və 2003-ci ilin əvvəlində aparılan uzun müzakirələrdən sonra Ermənistan, Dünya Ticarət Təşkilatına üzv olaraq qəbul edildi. Ermənistandan əvvəl Gürcüstan və Moldova da WTO-ya üzv oldular.

Azərbaycandan başqa MDB üzvü olan Rusiya, Ukrayna, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan da WTO-ya üzv olmaq üçün müraciət ediblər.

Azərbaycanın WTO-ya üzv olmamasının səbəbləri arasında başda gömrük vergiləri ilə əlaqədar ortaya çıxan problemini vurğulaya bilərik. WTO tətbiq edilən vergilərin azaldılmasını və ya qaldırılmasını tələb edir. WTO-ya üzvlük üçün irəli sürülən şərtlər arasında kənd təsərrüfatı sektoruna yardım ayrılmasının dayandırılmasını da vurğulaya bilərik.

Azərbaycanın üç əsas dünya təşkilatı IMF, IBRD və WTO ilə münasibətlərinə ciddi əhəmiyyət verməsi zəruridir. Azərbaycan beynəlxalq iqtisadi münasibətlərini bu təşkilatların müəyyənləşdirdiyi qaydalar çərçivəsində qurmalı olacaqdır.

Beynəlxalq inteqrasiya prosesində beynəlxalq təşkilatların sadəcə əmredici vəziyyətdə olması ölkənin milli mənfəətlərinə zərbə vura bilər. Müxtəlif beynəlxalq təşkilatlara üzvlükdə, ölkənin qazancını və itkisini qarşılaşdıraraq, milli mənfəətlərə müvafiq qərar qəbul etmək lazımdır[259].

Azərbaycanın dünyaya inteqrasiyasını sürətləndirən əsas amillərdən biri onun mühüm beynəlxalq iqtisadi təşkilatlara üzv olmasıdır. Bu baxımdan Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmasını dünyaya iqtisadi inteqrasiya prosesi olaraq qiymətləndirmək mümkündür. Yuxarıda ifadə edildiyi kimi, Azərbaycan hökümətinin bu təşkilata üzv olmaq üçün daha əvvəl müraciət etməsinə baxmayaraq, hələ WTO-ya üzvlük baş verməmişdir.

WTO-ya üzvlük bir tərəfdən yerli bazarda geniş isthsal müxtəlifliliyi, inkişaf etmiş texnologiyaların ölkəyə çəkilməsi, digər tərəfdən isə gömrük vergilərinin aşağı salınmasının vacibliliyi, dövlət köməyindən imtina edilməsi deməkdir. Bu səbəblə, Azərbaycan çox diqqətlə bu məsələdə qazanc və itkilərini müzakirə etməlidir. Eyni zamanda müxtəlif məhsul növləri üzrə öz faydasına uyğun qərarların qəbul etdirməlidir.

Ölkənin WTO-ya üzv olması iqtisadiyyatının inkişafına çox böyük sürət qazandıracağı mənasına gəlməməlidir. Çünki, ölkə sənayesi, kənd təsərrüfatında rəqabət qabiliyyətinə sahib məhsul istehsal edə biləcək gücə sahib deyil. Bu baxımdan ölkənin dünya bazarına çıxa biləcək bir məhsula sahib ola bilməsi ixracatçılar üçün kifayət qədər təşvik edici olmur. Bununla yanaşı ölkənin WTO-ya üzv olması gələcəkdə iqtisadi inkişaf üçün mühüm addım olacaqdır. WTO-ya üzv olmaqla ölkə istehsalçıları dünyaya çox böyük informasiya çıxışı

[259] Mehdiyev, s.26.

əldə edə bilərlər. Beynəlxalq bazarlara təminatlı çıxış və tranzit yüklərin daşınmasında təminatlı daşınma şərtləri əldə edəcəklərdir. Bu təşkilata üzv olmaqla yerli istehsalçılar bəzi problemlərlə qarşı-qarşıya qalacaqlardır. Bununla yanaşı ölkə daxili istehsalçılar üçün qarışıq məsələ, WTO-ya üzv olmaqla ölkə liberal sərhədlərini daha çox açmaq məcburiyyətində qalacaqdır. Yəni, gömrük vergiləri azaldılacaq, gömrük nöqtələrində keçid sərbəstləşdiriləcəkdir ki, bu da keyfiyyətli dünya məhsullarının ölkə bazarına axımını artıracaqdır. Bu isə, hələ rəqabət qabiliyyəti olmayan daxili istehsalın çökməsinə səbəb ola biləcəkdir. Sənayenin inkişafı üçün hələ məcburi tədbirlərin görülməməsi WTO-ya daxil olduqda bir çox çətinliklər yaradacaqdır. Bu səbəblə, bu mərhələdə yerli istehsalın güclənməsi üçün addımlar atılmalıdır. Bunun üçün də müəyyən bir vaxta ehtiyac vardır.

8.6.2. "Türk İqtisadi İttifaqı" ya da "Avrasiya İqtisadi İttifaqı" Düşüncəsi

SSRİ dağıldıqdan sonra, müstəqillik qazanan yeni Türk respublikalarının enerji ixrac potensialı, enerji ehtiyatları baxımından böyük ölçüdə xaricdən asılı olan Türkiyənin də bu dilemmadan azad olması üçün fürsət olmuşdur. Türkiyə və yeni Türk respublikaları arasında iqtisadi, siyasi və mədəni sahələrdə möhkəm əlaqələrin inkişaf etməsinin də təsiriylə, neft və təbii qazın, Türkiyə ərazisindən keçərək qərb bazarlarına çatdırılması ilə yeni Türk respublikalarının siyasi müstəqilliklərini inkişaf etdirəcək şəkildə iqtisadi müstəqillik və inkişaflarını həyata keçirtmələri, həm də mühüm bir enerji qaynağı əldə etmək mümkün olacaqdır. Enerji ehtiyatı nəqlinin Türkiyə ərazisindən keçirilməsi, şübhəsiz Türkiyənin qitələrarası geo-siyasi əhəmiyyətini də artıracaqdır.

Ancaq, Türkiyə və yeni Türk respublikaları arasındakı iqtisadi əlaqələrin adının, "Türkiyə İqtisadi İttifaqı", "Müştərək Türk Bazarı" və bir az da hissi və həmasi duyğuların hərəkətə keçməsiylə "Türk İttifaqı" şəklində bir təşkilatlanmaya gedən bir qurum olaraq səsləndirilməsi düzgün deyil. Hətta bu şəkildə bir oluşuma gedən yol və hədəf müəyyən etmə, Türkiyənin və Yeni Türk respublikaları arasında iqtisadi əlaqələrin arzu edilənsəviyyədə inkişafına bəzi əngəllərin qoyulmasında və enerji ehtiyatlarının qərb bazarlarına ixraca dair əsas güzərgahların müəyyənləşdirilməsində, Türkiyəyə keçid xəttlərin həyata keçmə ehtimalında ən əsas səbəblərdən biridir.

Türkiyənin qabağına çıxan fürsətləri dəyərləndirərək, enerji ixrac xəttlərində keçid ölkəsi olaması ilə həm iqtisadi baxımdan inkişaf etməsi, həm də yeni Türk respublikaları ilə münasibətlərini inkişaf etdirməsi; ancaq, bu prosesdə həm qərb mənfəətləri ilə üst-üstə düşəcək, həm də qərbə alternativ muhtemel oluşumlara zəmin hazırlama kimi bir niyətin olmadığını yansıdacaq şəkildə regiona dair bir siyasət izləməsi ilə mümkün ola biləcəkdir. Xüsusilə, müstəqilliyini əldə edən yeni Türk respublikaları ilə daha sürətli şəkildə inkişaf

etdirməsindəki əngəllərin və Türkiyə keçidli enerji ehtiyatı nəql xəttlərinin həyata keçirilməsindəki şübhələrin aradan qaldırılması üçün, Türkiyə, ilk olaraq regionda mədəniyyətlər arası sərhəd ölkəsi olma fürsətini dəyərləndirərək, könüllü təşkilatlar tərəfindən başladılan və rəsmi təşkilatlar tərəfindən mənimsənən mədəniyyətlər arası dialoq səylərində daha aktiv rol almalıdır.

Bundan əlavə Türkiyə və yeni Türk respublikaları arasında "İttifaq" və "Müştərək Bazar" ifadələrini ehtiva etməyəcək bir mahiyyətdə, iqtisadi münasibətlərin inkişafına nail olacaq "müttəfiqliklərə" əhəmiyyət verməlidir. Həta bu münasibətlərin regiondakı digər ölkələri də əhatə dairəsinə almasına diqqət göstərilməlidir. Bu çərçivədə gələcəkdə yaradılması üçün müxtəlif fəaliyyətlərin gündəmə gətirildiyi "Avrasiya İqtisadi İttifaqı" şəklində geniş iştiraklı bir iqtisadi ittifaq düşüncəsi diqqət çəkici və mənalıdır.

DOQQUZUNCU FƏSİL

AZƏRBAYCANDA XARİCİ SƏRMAYƏ QOYULUŞLARI VƏ SƏRMAYƏ POTENSİALI

Bu fəsildə müstəqillikdən sonra Azərbaycanda həyata keçirilən xarici investisiya qoyuluşları, xarici sərmayəni ölkəyə çəkmək üçün edilən dəyişikliklərlə meydana gələn investisiya mühiti, investisiya potensialı və xarici sahibkarlar tərəfindən qazanclı sayıla biləcək olan sərmayə sahələri gözdən keçiriləcək.

9.1. XARİCİ SƏRMAYƏ QOYULUŞLARI

Müstəqillyin qazanılmasından sonra, Azərbaycanda neftlə yanaşı, qeyri-neft sektorlarının da qərb sərmayəsinə açılması üçün təşəbbüslər oldu. Bunun üçün əvvəlcə sərbəst bazar iqtisadiyyatına keçidin hüquqi zəmininin qurulma-sına başlanıldı. 18 oktyabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya maddəsinin qəbulundan sonra, ilk əhəmiyyətli addım 1992-ci ildə atıldı. 1992-ci ildən etibarən xarici sərmayə qoyuluşlarının qorunması üçün bəzi tədbirlər görüldü. 1992-ci ilin yanvarın 15-də "Xarici İnvestisiya Qoyuluşlarının Qorunması" haqqında qanun qəbul edilərək, ölkə ərazisində xarici investisiya qoyuluşularının hüquqi və iqtisadi əsasları müəyyən olundu və bu mühafizəsi üçün dövlət zəmanəti verildi. Zaman keçdikcə üzərində müxtəlif dəyişiklər edilərək yenilənən bu qanunla Azərbaycan hökuməti xarici sərmayəyə; qanunlarının dəyişməsi, milliləştirmə, inventarlaşdırma, təzminat, zərərin ödənməsi, köçürmə və mənfəətin istifadəsi kimi xüsuslarda dövlət zəmanəti verdi[260].

Müstəqillikdən sonra sərbəst bazar iqtisadiyyatına keçid qərarı alan və xarici sərmayəyə qapılarını açan Azərbaycana, xarici sərmayənin diqqəti də gecikmədi.Ancaq, ümumi olaraq 1991-1993-cü illərdə xarici sərmayənin ölkəyə axımını həyata keçirməkdə müvəffəq olunmadığı görülür.1995-ildə qəbul edilərək tətbiq olunan "İnvestisya Fəaliyyətləri Haqqında" qanun, nəhayət 19 aprel 2005-ci ildə bəzi dəyişikliklərlə yenidən Azərbaycan Milli Məclisi tərəfindən qəbul edildi. Bu qanun, ölkə iqtisadiyyatına xarici sərmayənin cəlbi, beynəlxalq iqtisadi əlaqə və müstəqilliyin inkişafı və bütün xarici sərmayə qoyuluşlarının zəmanət altına alınmasını əhatə edirdi.

Azərbaycan iqtisadiyyatına xarici sərmayənin axımı 1994-cü ildən etibarən başlamışdır. 1994-97-ci illərdə xarici sərmayənin ölkəyə axımını təmin etmək

[260] Sancak, s. 44; "Investment Possibilities of Azerbaijan", s.20.

məqsədiylə edilən qanuni və inzibati dəyişikliklər nəticəsində xarici sərmayənin real olaraq axımına nail olunduğu müşahidə edilir. Xüsusi ilə zəngin neft və təbii qaz ehtiyatlarının istismarına istiqamətlənən xarici sərmayəli şirkətlərdən ilk illərdə digər sektorlarda da artmağa başladı.

Azərbaycanda 1996-1997-ci illərdə həyata keçirdilən və iqtisadi stabilliyi əldə edən siyasətlərin, real iqtisadiyyatı təşviq edici dövlət siyasətləriylə dəstəklənməməsi, 1997-ci ildən əvvəl xarici sərmayənin ölkəyə cəlb edilməsi üçün tətbiq olunan vergidən azad edilmələrdən imtina edilməsi və dövlət orqanlarının lazımi həssaslığı göstərməməsi səbəbləriylə 1997-ci ildə istehsal sahəsinə investisiyalar qoyulmamışdır.

1994-cü ildən başlayaraq Azərbaycana xarici sərmayənin axımı 1998-ci ildə 1472 milyon dollar ilə özünün maksimum səviyyəsinə çatmışdır. Ancaq, tətbiq olunan sərt pul siyasəti, iqtisadiyyatdakı durğunluq, gecikən özəlləşdirmə və gözlənilən iqtisadi islahatların həyata keçirilməməsi nəticəsində iqtisadiyyat bir tərəfdən deflyasiyanın təzyiqi altına girmiş, digər tərəfdən də 1998-ci ildən sonra Azərbaycan iqtisadiyyatında, xüsusiylə xarici sərmayə qaynaqlı bir geriləmə müşahidə edilmişdir. 1998-ci il Rusiya böhranı ilə yanaşı ölkədəki mövcud bürokratiya, rüşvət və müəyyən sahələrdə gizli monopoliya da bu tarixdən etibarən ölkədəki xarici firma sayının əhəmiyyətli dərəcədə azalmasına və xarici investisiya nisbətinin azalmasına təsir etmişdir. Azərbaycanda xarici sərmayəyə vergi güzəştlərinin ləğvi isə qeyri-neft sektorlarındakı bu mənfi tendensiyanı daha da təsirləndirmişdir[261].

Xarici şirkətlər 1994-2016–ci illərdə Azərbaycan iqtisadiyyatına təqribən 180 milyard dollar həcmində bir sərmayə qoymuşdular. Bunun 77.2%-i birbaşa sərmayə qoyuluşları, 22.8%-i isə kreditlər vasitəsi ilə reallaşdırılmışdır. Birbaşa sərmayə qoyuluşlarının 73%-i isə neft sənayesinə qoyulmuşdur. Adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB məkanında ön sıralardadır.

Azərbaycan iqtisadiyyatında xarici sərmayənin ÜDM-dəki üstünlüyü yüksək səviyyədədir. 1996-2000–ci illər arasında xarici sərmayə qoyuluşlarının həcminin ÜDM-yə nisbəti 30%-dən 35-40%-ə qədər yüksəlmişdir.1998-ci ildə müqayisədə 1999 və 2000-ci illərdə azalan xarici sərmayə qoyuluşlarının ölkəyə girişi 2000-ci ilin son aylarından etibarən yenidən artmağa başlamışdır. Qanunlarda edilən bəzi dəyişikliklər, gömrük və vergi nisbətlərinin qismən azaldılması və bunun davam etdirilməsi, xarici sərmayənin mühafizəsi və bu yolda dövlət tərəfindən atılan addımlar xarici sərmayə qoyuluşunun artmasına təkan vermişdir.

---

[261] Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türkiye İle İqtisadi İlişkileri", www.ceterisparibus.net/arsiv/s_ogan.pdf. (13.03.2003).

Makroiqtisadi strukturun stabilliyə qovuşması, özəl sektorun gücləndirilməsinə dair edilən dəyişikliklər və neft sektorunun daha da inkişafı, Azərbaycana dünya maliyyə mərkəzlərindən yüksək miqdarlarda sərmayə axımının həyata keçməsi üçün geniş imkanlar yaradır[262]. 2001-ci ildə Azərbaycan iqtisadiyyatına qoyulan sərmayələrin 70%-i xarici sərmayə, 30%-i yerli sərmayə şəklində olmuşdur. 2002-ci ildə sərmayə qoyuluşlarınının 80.9%-i xarici, 19.1%-i isə yerli sahibkarlar tərəfindən həyata keçirilmişdir. Sərmayə qoyuluşlarının sektorlara görə bölgüsü isə belə olmuşdur: 77%-i sənaye, bu çərçivədə 68.5%-i neft və təbii qaz, 11.3%-i inşaat, 9.4%-i bina inşaatı, 38%-i nəqliyyat, 2.4%-i telekommunikasiya, 1.8%-i ticarət və xidmət, 0.8%-i kənd təsərrüfatı və 2.9%-i digər sahələrə qoyulmuşdur.

2003-cü ildə Azərbaycan iqtisadiyyatına qoyulan sərmayənin 80.5%-i xarici, 19.5%-i isə yerli sərmayənin payına düşmüşdür. Qoyulan sərmayənin sektorlar üzrə payına görə isə, sənaye sektorunun payı 79.7% oldu. Bunun 76.2%-i neft və qaz çıxarılmasının, 1.6%-i elektrik enerjisi və su sərfinin, %1.9-i isə emalat sahələrinin payına düşmüşdür. Kənd təsərrüfatı sektorunun payı 1%, inşaat sektorunun 0.2%, ticarət və xidmətlərin payı 0.8%, nəqliyyatın payı 8.7%, telekommunikasiyanın payı 1.4%, mənzil tikintisinin payı 5.5% və digər sahələrin payı 2.7% olmuşdur. 2004-cü ildə Azərbaycana ümumilikdə 24.2 trilyon manat (4.9 milyard dollar) sərmayə qoyulmuşdur. Bu nisbət 2003-cü il ilə müqayisədə 36.1% daha çoxdur. Qoyulan sərmayənin 73.7%-i, yəni, 17.8 trilyon manatı (3.6 milyard dollar) xarici sərmayə, 6.4 trilyon manat (1.3 milyard dollar), yəni, 26.3%-i yerli sərmayədir. Ümumi sərmayənin 86.4%-nə müvafiq edən xarici və yerli firma və müəssisələr tərəfindən qoyulan sərmayələr 28.4% artarkən, dövlət büdcəsindən qoyulan sərmayələr əvvəlki ilə görə 10.5% artaraq 537 milyard manat olmuşdur.

Cədvəl 26. Azərbaycanda İnvestisiya Miqdarı (Milyon $)

	2000	2003	2004	2005	2006	2007	2008
Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):							
mlyn.manat	1289.8	4249.2	5820.4	6733.4	7415.6	10353.9	12481.8
mlyn.dollar	1441.4	4326.4	5922.7	7118.5	8300.4	12066.1	15192.1
Xarici investisiyalar:							
mlyn.manat	829.5	3310.9	4496.4	4628.5	4514.2	5727.2	5625.8
mlyn.dollar	927	3371	4575.5	4893.2	5052.8	6674.3	6847.4
Daxili investisiyalar:							
mlyn.manat	460.3	938.3	1324	2104.9	2901.4	4626.7	6856
mlyn.dollar	514.4	955.4	1347.2	2225.3	3247.6	5391.8	8344.7

* ilkin məlumat

[262] "Azərbaycan Respublikasının Sosial-İqtisadi Vəziyyəti", s.22.

Cədvəl 26-nın davamı ...

	2009	2010	2011	2012	2013	2014
Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla):						
mlyn.manat	10475.0	14118.9	17048.8	20251.1	21448.2	21890.6
mlyn.dollar	13033.5	17591.4	21558.9	25777.8	27340.0	27907.5
Xarici investisiyalar:						
mlyn.manat	4395.1	6619.7	6849.8	8102.7	8269.3	9175.7
mlyn.dollar	5468.6	8247.8	8673.9	10314.0	10540.9	11697.7
Daxili investisiyalar:						
mlyn.manat	6079.9	7499.2	10199.0	12148.4	13178.9	12715.0
mlyn.dollar	7564.9	9343.6	12915.0	15463.8	16799.1	16209.8

Cədvəl 27. Xarici investisiyalar (mlyn. ABŞ dolları)

	2000	2003	2004	2005	2006	2007	2008
Cəmi xarici investisiya	**927**	**3371**	**4575.5**	**4893.2**	**5052.8**	**6674.3**	**6847.4**
o cümlədən:							
Maliyyə kreditləri	262.9	238.3	293	698.4	983.5	1576.6	2357.9
Neft sənayesinə	546.1	2972.4	4088.1	3799.9	3422.3	4003.3	3350.7
Neft bonusu	-	58.6	21.6	1	17	68.2	3.5
Birgə və xarici investisiyalı müəssisələr	118	45.4	104.2	230.5	368.4	439.1	494.1
ondan:							
Türkiyə	31.6	17.1	80.1	96.2	136.6	109.2	145.2
ABŞ	11.2	4.9	8.4	24.8	70	78	87.9
İran	2.9	-	-	1.2	17.5	4.6	-
Almaniya	1.7	-	2.1	21.5	17.4	22.9	48.2
Rusiya	-	1.2	1.8	5.1	4.6	10.7	5.8
Böyük Britaniya	6.8	9	4.2	39.5	39.1	80	89.9
Birləşmiş Ərəb Əmirlikləri	2.8	4.4	4.4	5.7	18.3	12.3	38.5
İsveçrə	-	-	-	0.5	2.7	3.5	3.7
Fransa	39.3	2.2	2.2	2.6	11.1	4.4	-
Kipr	-	-	-	0.2	5.4	13.2	2.2
Çin	-	-	-	0.2	1.3	1.2	8.1
İtaliya	-	-	-	4.6	2.8	14	2
Pakistan	-	-	-	-	3.1	-	-
Yaponiya	16.4	-	-	-	-	-	0.4
Digər ölkələr	5.3	6.6	1	28.4	38.5	85.1	62.2
Digər investisiyalar		56.3	68.6	163.4	261.6	587.1	641.2

Cədvəl 27-nin davamı ...

	2009	2010	2011	2012	2013	2014
Cəmi xarici investisiya	**5468.6**	**8247.8**	**8673.9**	**10314.0**	**10540.9**	**11697.7**
o cümlədən:						
Maliyyə kreditləri	1 438.3	3 405.9	3,692.5	3,135.5	2,655.8	1,880.6
Neft sənayesinə	2 412.7	2 955.3	3,407.8	4,287.8	4,935.2	6,730.7
Neft bonusu	1	2	19.9	2	2.4	17.0
Birgə və xarici investisiyalı müəssisələr	624.4	659.6	886.0	1094.5	1041.0	1318.5
ondan:						
Türkiyə	76.8	147.5	89.1	185.9	401.3	481.4
ABŞ	117.6	40.0	73.8	92.5	24.4	89.3
İran	6.8	3.2	11.2	-	-	40.5

Almaniya	38.8	17.0	32.5	45.6	15.1	51.0
Rusiya	50.3	11.7	35.0	21.8	36.1	13.6
Böyük Britaniya	160	144	148.8	149.3	136.0	153.5
Birləşmiş Ərəb Əmirlikləri	43.2	30.3	75.3	92.4	109.3	90.2
İsveçrə	16	11.7	26.7	79.4	18.2	18.9
Fransa	4.5	6.2	14.3	14.4	6.1	7.2
Kipr	-	1.6	-	6.6	5.4	0.2
Çin	25.9	33.5	-	6.7	5.7	9.7
İtaliya	9.8	10.3	-	22.1	21.3	21.2
Pakistan	-	-	-	-	3.1	-
Yaponiya	2.8	1.4	2.5	5.4	3.0	2.9
Niderland	28	163.5	173.3	186.4	141.6	103.8
Digər ölkələr	43.9	37.7	203.5	186.0	117.5	235.1
Digər investisiyalar	992.2	1225.0	667.7	1794.2	1906.5	1750.9

Birbaşa qoyulan xarici sərmayələr Azərbaycanın iqtisadi canlanmasında əsas rol oynamışdır. İqtisadi inkişaf daha çox neft sektoruna edilən birbaşa xarici sərmayənin nəticəsi olaraq son dərəcə yüksək dərəcədə sərmayə ilə dəstəklənmişdir.

2015-ci ilin əvvəli etibarilə, xarici investorlar tərəfindən Azərbaycana qoyulan 80 milyard dollar həcmində sərmayə Şərqi Avropa və MDB ölkələri arasında ən yüksək nisbətdir. Adam başına düşən xarici sərmayə həcminə görə, Azərbaycan MDB ölkələri arasında ilk sıradadır. Dövrümüzdə, Azərbaycanda sosial-iqtisadi inkişafın təmini məqsədiylə, işsizliyin azaldılması, xalqın rifah səviyyəsinin yüksəldilməsi və Azərbaycanın beynəyxalq iqtisadi əlaqələrinin genişlənməsi üçün mühüm addımlar atılmışdır[263].

1993-2016-cü illər arasında Azərbaycana qoyulan xarici sərmayələrin ölkələrə görə bölünməsi diqqətə alındıqda 25%-lik paylar ilə ABŞ və İngiltərənin ilk iki sırada olduqları müşahidə edilir. Türkiyə isə 15%-lik pay ilə üçüncü sıradadır. İranlı investorlar isə, Azərbaycan iqtisadiyyatına 166 milyon dollar sərmayə qoyublar. Bu sərmayələrin 110 milyon dolları neft sektoruna qoyulmuşdur.

2015-cü ildə Azərbaycana qoyulan xarici sərmayələrin ölkələrə görə bölünməsi diqqətə alındıqda isə Türkiyənin digər ölkələrdən çox öndə olduğu müşahidə olunur. Belə ki, 2014-cü ildə Türkiyə Azərbaycan iqtisadiyyatına 481.4 milyon dollar sərmayə qoymuşdur. İkinci və üçüncü yerlərdə isə Böyük Britaniya və Niderland Krallıqlarıdır. Bu ölkələr Azərbaycana 2014-cü ildə müvafiq olaraq 153.5 və 103.8 milyon dollar sərmayə qoymuşdurlar.

Azərbaycana başlıca xarici sərmayə axımı; beynəyxalq maliyyə təşkilatlarının kreditləri, birbaşa qoyulan sərmayələr, neft faizləri, digər kredit və sərmayələr şəklindədir. Ölkəyə gələn xarici sərmayənin böyük əksəriyyəti kredit xarakterlidir, yəni, gələcəkdə əlavə faizlərlə geri veriləcəkdir. Beynəlxalq maliyyə təşkilatlarından alınan kreditlərdən başqa, neft sektoruna istiqamətləndiri-

[263] Cəfərzadə, s.3.

lən sərmayələr də əslində kreditlərdir və bunlar çox yüksək faiz nisbətləri ilə birlikdə Azərbaycan nefti hesabına geri verilməlidir. Son üç ildə ölkədən kənara sərmayə axımının artmağa başlamasının da bununla bağlı olduğu müşahidə edilir.

Bir tərəfdən Azərbaycan beynəlxalq maliyyə təşkilatlarından aldığı kreditlərlə əlaqədar pulları geri qaytarır, digər tərəftən beynəlxalq təşkilatlara üzvlük haqqı ödəyir. Bundan əlavə, "Əsrin Müqaviləsi"ndə pay sahibi sərmayədarların gəlirlərinin geri qaytarılmasına da başlanılmışdır.

Dünya Bankı və İngiltərənin "Oxford Analytical" şirkəti tərəfindən aparılan hesablamalara görə, keçid dövrünün on ili ərzində Azərbaycan, Orta və Şərqi Avropanın, Orta Asiyanın köhnə sosialist 26 ölkəsi arasında, xarici sərmayə həcmi etibarilə beşinci sıradadır. Azərbaycana qoyulan xarici sərmayələrin həcmi, Polşa, Rusiya, Macarıstan və Çexiya kimi dövlətlərdən daha yüksək olmuşdur[264].

Xüsusilə, enerji sektoru və neft-kimya sahəsində sərmayə qoyuluşları artır. Ancaq, digər sahələrdə, xüsusilə də qida və ipəkçilik sektorunda sərmayə qoyuluşu iqlimi istənilən səviyyədə olmamışdır. Bu hal bəzi tərəfdən investorlar üçün mənfi bir hal olaraq görülsə də, xüsusilə də bazar payı və bazara ilk daxil olma kimi səbəblər daxilində bu hal bir çox tərəfdən müsbət hal olaraq da görülə bilər. Xarici sərmayədarlar ölkəyə dəvət edilir və onlara hər cür rahatlıqların təmini vədi verilir. Azərbaycanda xarici sərmayə əsasən müsbət qarşılanır[265].

Azərbaycan neft sektoruna edilən önəmli miqdarlardakı xarici sərmayə nəticəsində köhnə Sovet Respublikaları içində ən sürətli böyüyən iqtisadiyyatlardan biri halına gəlmişdir. Azərbaycan iqtisadiyyatındakı böyümə neft sektorundan və neft sektoruna bağlı inşaat fəaliyyətlərindən, nəqliyyat sektorlarından və az miqdarda kənd təsərrüfatı sektorundan qaynaqlanır.

İqtisadiyyatın digər sahələrində isə ümumi bir sakitlik hakimdir. Həmin durğunluğu aradan qaldıraraq xarici sərmayələrin neft xarici sektorlara axımını artırmaq məqsədiylə 2004-2018-ci illəri əhatə edən 3 sosial-iqtisadi proqramı hazırlanmışdır.

Azərbaycan İqtisadi İnkişaf və Sənaye Nazirliyi tərəfindən hazırlanan Azərbaycan Sərmayə Xəritəsi isə, xaricdən gələn iş adamlarının, Azərbaycanın hansı bölgəsində, hansı sahələrdə və nə qədərlik bir sərmayə qoya biləcəkləri haqqında köməkçi olma məqsədi daşıyır.

Xəzər enerji qaynaqlarının istehsalı üçün toplam 60 milyard dollardan artıq bir sərmayənin 2012-cu ilə qədər qoyulacağı hesablanmaqdadır[266]. Bakıda fəaliyyət göstərən İngiltərənin "MAİ Consulting" firmasının araştırmalarına görə,

---

[264] İbadoğlu, s.74.

[265] Nizami Süleymanov, *Azərbaycanın İqtisadi Tarixi*, Bakı, 2001, s. 232; Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türkiye İle İqtisadi İlişkileri", www.ceterisparibus.net/arsiv/s_ogan.pdf. (12.03.2003).

[266] Amanda Batters, *Hart's Evroil*, West Byfleet U.K., Vo.8,I.7, July-1997, s.12.

2030-cu ilə qədər isə sərmayə qoyuluşlarının toplamı ikiyüz milyard dollara çatacaqdır[267].

Azərbaycanda mövcud rezervlərin inkişafı, iqtisadiyatın texnoloji strukturunun yenilənməsi, istehsal strukturlarının çeşidlərinin artırılması, yeni kommunikasiya və nəqliyyat şəbəkələrinin yaradılması üçün də ehtiyac olan xarici sərmayənin artaraq ölkəyə gəlməsinin təmini lazımdır.

Azərbaycanda sərmayə qoyuluşlarının daha çox neft sektoruna olunması və bu istiqamətdə ÜDM-nin əsas bir hissəsinin neft gəlirlərindən ibarət olması narahatlıq doğurur. Neft sektorunun tək tərəfli inkişafı səbəbiylə dünya bazarlarındakı qiymət dəyişmələri ÜDM üzərində də dalğalanmalara səbəb olmaqdadır. Bu hal 1998-ci il Rusiya böhranında açıqca görülmüşdür.

Qısacası, Azərbaycan iqtisadi tərəfdən "Hollandiya Sindromu" deyə ifadə edilən və ən ümumi mənada; bir sektorun sürətli inkişafı qarşısında digər sektorların inkişaf etməməsi nəticəsində meydana çıxacaq bir təhlükə ilə qarşı qarşıyadır. Hətta Azərbaycanın bir sektora bağlılığından başqa bir bölgəyə bağlılıq təhlükəsi ilə də qarşı qarşıya olduğu görünür.

Hollandiya Sindromu xaricində Azərbaycan tərəfindən xarici sərmayədən qaynaqlanan problemlər bunlardır[268]:

- Ölkənin xarici borcunun artması,
- Xarici sərmayəli və müştərək müəssisələrin fəaliyyətlərinin daha çox tez gəlir gətirən xammal yönlü və xidmət sahələrinə yönəlməsi,
- Ölkənin istehsal sənayesi sahələrinə xarici sərmayə payının çox az olması,
- Sərmayə qoyuluşlarının hamısının Abşeron bölgəsində toplanması nəticəsində, digər bölgələrdə xarici sərmayənin yox deyiləcək qədər az olması,
- Beynəlxalq maliyyə quruluşlarından alınan kreditlər və maliyyə quruluşlarının verdikləri tövsiyələrin ölkədə makroiqtisadi sabitliyin təminində böyük rol oynamasına qarşı, real sektorda istehsal səviyyəsinin və məhsuldarlığının yüksəldilməsi və xalqın sosial təhlükəsizliiyinin artması kimi sosial-iqtisadi problemlərin həllində gözə çarpacaq dəyişikliklərin təminidir.

---

[267] D. A. Mamedov, O. A. Aliyev, "Kontrakt Veka i Ago Vliyaniye Na Ekonomiçeckoye Rzvitiye Azerbaicanskoy Respublika" (Asrın Kontraktı ve Azerbaycan'ın İktisadi Gelişmesine Etkisi), *Azerbaycan 21. Esrin Astanasında*, (Ziyad Semedzade), Azerbaycan Elmler Akademiyası Neşriyatı, Bakı, 1998, s.87.

[268] V. E. Rüstemov, "Azerbaycan İqtisadiyyatının Struktur Yenidenqurulmasında Xarici Kapitalın Rolu", *Azerbaycan İqtisadi İslahatlarının Heyata Keçirilmesi Xususiyetleri ve Problemleri*, Azerbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Merkezi, Bakı, 2001, ss.27-28; R. X. Şaulov, "Müsteqillik Şeraitinde Regional İnkişafın Strategiyası", *Azerbaycan İqtisadi İslahatlarının Heyata Keçirilmesi Xususiyetleri ve Problemleri*, Azerbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Merkezi, Bakı, 2001, ss.84-86.

9.2. İNVESTİSİYA MÜHİTİ

Azərbaycanın qeyri-neft sektorlarına da investisiya qoyma baxımından cəzbedici edən faktorların başında, ucuz işçi qüvvəsi və zəngin yer altı qaynaqlarına sahib olması gəlir. Bu cəzbedici ünsürlərlə yanaşı digər müsbət parametrlərin də, başda xarici olmaqla sərmayədarları təşviq etmək üçün ümumi mənada investisiya mühitinin əlverişli olması lazımdır. Bu isə ölkədəki investisiya mühitinin müxtəlif cəhətlərdən analiz edilməsini lazımlı edir.

Aşağıda ilk olaraq ölkə investisiya mühitindəki mənfi hallar nəzərdən keçiriləcək, daha sonra isə bu halların aradan qaldırılması üçün atılan hüquqi və inzibati addımlar gözdən keçiriləcək.

9.2.1. İnvestisiya mühitində mənfi hallar

Azərbaycanda investisiya mühitinin əlverişliliyi baxımından, vergi dərəcələrrinin yüksəkliyi, sərbəst bazar mühitinə zidd təsirlər və lazımi qanuni strukturun çatışmamazlığı kimi mənfi xüsusiyyətlər sahibkarlar tərəfindən risk hesab edilən başlıca amillərdir.

Vergi dərəcələrinin yüksək olması səbəbiylə, özəl sektorun qeyri-rəsmi fəaliyyətə üstünlük verdiyi görünür. Özəl müəssisələrin böyük bir qismi, işçilərinə verdikləri maaşların böyük bir qismini qeyri-rəsmi olaraq verirlər. Kölgə iqtisadiyyatı daha çox silah, narkotik maddələr və pornoqrafik malların qanunsuz istehsalı və satışı olaraq qəbul olunmasına qarşılıq, Azərbaycanda əsas olaraq ən bəsit istehsal, ticarət və xidmət sahələrində qeyri-rəsmi iqtisadi fəaliyyətlər edilir. Aparılan bəzi dəyərləndirmələrdə, kölgə iqtisadiyyatının rəsmi iqtisadi fəaliyyətlərdən daha böyük olduğu hesablanır. Ölkədə kölgə iqtisadiyyatının səviyyəsi ilə əlaqəli bəzi beynəyxalq təşkilatlar fərqli rəqəmlər açıqlayırlar. Dünya Bankı mütəxəssislərinə görə kölgə iqtisadiyyatının həcmi ÜDM-nin 60%-dən artıqdır. ÜDM-nin 60%-i kölgə iqtisadiyyatı olaraq qəbul edilkdə bu nisbət on beş milyard dollaradan çoxdur. Bəzi mütəxəssislər bu nisbətın 80% olduğunu iddia edirlər. Azərbaycan Statistika Komitəsi tərəfindən edilən dəyərləndirmələrə görə isə kölgə iqtisadiyyatı ÜDM-nin 18-20%-nə müvafiq gəlir. Kölgə iqtisadiyyatını seçən və ya seçmək məcburiyyətində qalan özəl sektorun qarşısına çıxan başlıca problemlərdən biri isə rüşvətdir[269].

Sovet İttifaqının son dövrlərində, dağılmasının yaratdığı xaos mühitində dövlət əmlakının və xalq sərvətinin şəxsi məqsədlər üçün istifadəsi və paylanması normal hal almışdı. Bu tərəfdən rüşvət və korrupsiya, cəmiyyətin Sovet sistemindən miras aldığı ağır cəmiyyət xəstəliklərindən biridir. Hər nə qədər daha sonra rüşvət və korrupsiya müəyyən şəkil dəyişikliyinə məruz qalsa da, cəmiyyət üzərində varlığını geniş şəkildə hiss etdirir. Belə ki, ölkədə adətən rəsmi və qeyri rəsmi olmaq üzrə iki vergi sistemi mövcuddur. Qeyri-rəsmi ver-

[269] Nazim İmanov, s.30; 'Shadow Economy 20% of GDP', *Azernews,* http://www.azernews.net/view.php?d=5753 (22.03.2005).

ginin sabitləyici rolu, rəsmi verginin sabitləyici rolundan daha böyükdür. Son illərdə bəzi təsirli beynəlxalq təşkilatlar tərəfindən (məsələn "Transparency International") aparılan anket nəticəsində, Azərbaycanın rüşvət və korrupsiynın səviyyəsinə görə qabaqcıl ölkələr arasında qərarlaşdığı ifadə edilir[270].

"Transparency İnternational"ın kprrupsiya göstəricilərinə görə, 2013-cü ildə Azərbaycan 28 balla 177 ölkə arasında 127-ci sırada yer almışdır. Əgər əvvəlki illərdə xallar 10 bal (çox yaxşı), 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyənləşdirilirdisə, 2012-ci ildən 100 bal (çox yaxşı), 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyən edilir. 2012-ci ildə isə Azərbaycan 27 balla, 176 ölkə arasında 139-cu sırada göstərilmişdir.

"Transparency International"a görə Azərbaycanda korrupsiyaya qarşı həyata keçirilən tədbirlər qənaətbəxş səviyyədə deyildir.

2005-ci ilin yanvar ayında qüvvəyə minən "Korrupsiya ilə Mübarizə Haqqında Qanun" ölkədə rüşvət səviyyəsinin aşağı düşməsinə müəyyən qədər təsir göstərmişdir.. Bu cür dəyişikliklər ölkədə demokratikləşmə, iqtisadiyyatda liberallaşma və dövlət orqanlarının şəffaflaşması ilə nəticələnə bilər. Rüşvət və korrupsiya ilə mübarizədə, dövlət müəssisələrinin, əvvəlcə bu problemin genişlənməsinə və dərinləşməsinə, sosial-iqtisadi sistemi tamamı ilə əhatə etməsinə mane olması lazımdır.

Keçid dövrünü yaşayan ölkələrdə rəqabət siyasətinin əsas ünsürlərdən biri olaraq qəbul edilir. İqtisadiyyatda eyni şərtlərin olmaması iş adamlarının fəaliyyətlərini əngəlləyir, iqtisadi inkişafı gecikdirir. Azərbaycan hökuməti tərəfindən iqtisadiyyatda qeyri-bərabərlik mühitinin aradan qaldırılması ilə əlaqədar bəzi tədbirlər görülür. Korrupsiya ilə mübarizə proqramının qəbulu buna nümunə göstərilə bilər.

Azərbaycanın kredit reytinqi (kreditin geri qaytarma etimadı) Rusiya və Qazaxıstanla müqayisə edildikdə olduqca aşağıdır. Buna görə də, hələlik ölkənin özəl sektorunun dövlət zəmanəti olmadan kreditləndirilməsi riskli görünür. Azərbaycan dövlət zəmanəti ilə ən az kredit çəkən ölkədir. Əgər Azərbaycanın reytinqi Qazaxıstan və Rusiya səviyyəsinə yüksəlsə, hər il əlavə olaraq çox aşağı faizlə 300-500 milyon dollar kredit alına bilər.

Əvvəlki illərdə Azərbaycanın kredit reytinqini "Fitch" adlı beynəlxalq təşkilat həyata keçirirdi. Azərbaycan hökuməti ölkənin kredit reytinqinin hesablanmasının "Standart&Poors" və "Moodys" şirkətləri tərəfindən hesablanmasını təmin etməyə çalışır.

9.2.2. Aparılan Qanuni Tənzimləmələr

Keçid dövründəki ölkələrdə investisiya mühitinin əlverişliliyi baxımından, lazım olan qanuni tənzimləmələrin azlığı, sahibkarlar tərəfindən narahatlıq doğuran nöqtələrin başında gəlir.

[270] Əmiraslanov, ss.62-63, Nazim İmanov, s.32.

Bu narahatçılığı diqqətə alan Azərbaycan, xüsusilə 1995-ci ildən etibarən lazımi qanun tənzimləmələri mövzusunda əhəmiyyətli məsafə qət etmişdir. Gömrük, vergi, əmək, torpaq, dövlət xidməti və anti-monopoliya sahələrində qəbul edilən qanunlar ilə bir çox islahat həyata keçirilmişdir.

1995-2015-ci illər arasında Azərbaycanın iqtisadiyyatının bütün sahələrinə dair ölkənin spesifik şərtləri diqqətə alınaraq qanunlar qəbul edilmişdir. Bu qanunlarla ölkədə iqtisadi strukturun sərbəst bazar iqtisadiyyatına görə yenidən şəkilləndirilməsi ilə əlaqədar hüquqi infrastrutur, bir başqa ifadəylə həm ölkə daxili həm də beynəlxalq bazarlar baxımında rəqabətçi bir mühit meydana gətirməyə çalışılmışdır.

Avropa Yenidən Qurma və İnkişaf Bankı (EBRD) tərəfindən aparılan bir araştırmaya görə, Azərbaycandakı ticarət qanunları kifayət olduğu hesab edilir.

Əlbəttə bugünə qədər aparılan tənzimləmələrdən başqa aparılması lazım olan tənzimləmələr və atılması olan əhəmiyyətli addımlar vardır. Aparılması lazım olan islahatlar üçün Azərbaycan prezidentinin çıxartdığı fərmanlar xüsusi bir əhəmiyyətə sahibdir. Prezident tərəfindən 2002-ci ilin iyul ayında alınan qərarla, Azərbaycanın xarici investisiyaya qarşı açıq qapı siyasətinin yeridildiyi və lazımi əlverişli mühitin təmininə çalışıldığı müşahidə edilir.

Milli müdafiə kimi istisnalar xaricində yeni tənzimləmələrə görə xarici sərmayədarlarla yerli sərmayədarlar eyni hüquqa sahibdirlər. Xarici sərmayədarlar tərəfindən qurulan müəssisələr, qanuni olaraq Azərbaycan müəssisəsi hesab edilir. Yəni yerli və xarici sahibkarlara eyni qanuni prinsiplər tətbiq olunur. Ancaq, şöbə və təmsilçiliklər bunun xaricindədir.

Vergi qanununda və prosedurunda aparılan dəyişikliklər vergi ödəyicilərinin vergi rejiminin şəffaflığı mövzusundakı qənaətlərini artırmışdır.

Vergi qanunlarına edilən əlavə və dəyişikliklərə görə, 2004-cü ildən etibarən pul cəzalarının tətbiqi mexanizmi sadələşdirilmişdir. Vergi qanunlarında edilən dəyişikliklərə görə, il boyunca təkrar olunan qanun pozuntularına görə, tətbiq edilən pul cəzaları ortadan qaldırılacaqdır. Bu mexanizmin tətbiq edilməsində məqsəd, kiçik və orta həcmli sahibkarlığın inkişafına mane olan şərtlərin aradan qaldırılmasına yardım etməkdir.

Xarici fiziki və hüquqi şəxslərin, qanuni olaraq, torpaq özəlləşdirmə haqları yoxdur, ancaq müqavilə yoluyla kirayə hüquqları vardır. Kirayəçi olmaqla birlikdə xaricilərə bir çox hüquqlar da verilmişdir.

Regionların sosial-iqtisadi inkişaf proqramı ilə birlikdə, hökümət 2005-ci ildən başlayaraq Dövlət İnvestisiya Proqramı çərçivəsində layihələr həyata keçirməyi planlaşdırmışdır. Bundan əlavə ölkənin iqtisadi inkişafına təkan verəcək şəkildə "İnvestisiya Fəaliyyətləri Haqqında" qanun qəbul edilmişdir. Qəbul edilən yeni qanun 1992 və 1995-ci illərdə qəbul edilən qanunların yerinə qüvvəyə minmişdir. Bu qanun xüsusilə ölkədə investisiya qoyuluşlarını artırmaq

üçün xarici iş adamları üçün daha şəffaf investisiya mühiti meydana gətirməyi hədəfləmişdir.

"İnvestisiya Fəaliyyətləri Haqqında" qanunun üstünlüklərindən biri, ölkəyə istehsal və ya xidmət məqsədi ilə təchiazat və kənd təsərrüfatı texnikası gətirən iş adamlarının vergilərdən azad olmasıdır. Bu isə, kompleks istehsal və xidmət sahələrinin yaradılması üçün ciddi amildir ki, gələcəkdə azad iqtisadi regionların təşkilində bunun əhəmiyyəti özünü göstərəcəkdir. Bundan əlavə, sənaye şəhərlərinin, azad iqtisadi regionların qurulmasında xarici iş adamlarına bəzi imtiyazların verilməsi düşünülür. Beləliklə, qanunun qüvvəyə minməsi Azərbaycanın regionlarına xarici sərmayə axımına imkan verəcəkdir.

Sərbəst rəqabət mühitinin yaradılması üçün isə anti-monopoliya məcəlləsinin tətbiqi böyük köməklik göstərəcəkdir.

9.2.3. Müəsisələrin Hüquqi Qeydiyyat Müddəti

Azərbaycanda istər yerli, istərsə də xarici sərmayəli müəssisələrin qurulması üçün ilk növbədə qeydiyyatdan keçməlidirlər. Hüquqi şəxslərin dövlət qeydiyyatı - Azərbaycan Respublikasının ərazisində hüquqi şəxs statusu almaq istəyən qurumların, habelə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasının ərazisində yaratdıqları nümayəndəlik və ya filialların hüquq qabiliyyətinin təsdiq edilməsi, hüquqi statusunun müəyyənləşdirilməsi və onlar barəsində məlumatların (qeydlərin) hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsidir. Qeydiyyat prosesində istənilən sənəd və arayışların təqdimi məcburidir. Kommersiya və qeyri kommersiya hüquqi şəxslərin qeydiyyatı Azərbaycan Respublikasının Vergilər Nazirliyi və ASAN xidmət şöbələrində həyata keçirilir, Azərbaycan Respublikasının Vergilər Nazirliyi orta və ali təhsil müəssisələrinin, siyasi partiyaların, fonda, bank, sığorta şirkətləri, ictimai qurumlar, həmkarlar ittifaqlarının peşəkar, sektor və ərazi assosiasiyalarının, xarici investisiyalı kommersiya hüquqi şəxslərin və xarici hüquqi şəxslərin nümayəndəliyinin və filiallarının qeydiyyatını həyata keçirir. Eyni zamanda Sosial Sığorta Təşkilatında və Dövlət Statistika Komitəsində də qeydiyyatdan keçməsi lazımdır. 2002-ci ilin sentyabr ayında prezident tərəfindən elan edilən fərmanla, şirkətlərin qeydiyyatdan keçmə prosesində bir çox sadələşdirmələr aparılmışdır.

Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatına alınması üçün qeydiyyatı aparan müvafiq vergi orqanına "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə"si ilə müraciət edilməlidir. Ərizə təsisçi və ya onun müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir. Ərizəyə aşağıdakılar əlavə edilir:

- nümayəndəliyi və ya filialı yaradan xarici hüquqi şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş əsasnamə 2 nüsxədə;
- nümayəndəliyin və ya filialın yaradılması və onun rəhbərinin və ya qanuni təmsilçisinin təyin edilməsi barədə həmin nümayəndəliyi və ya filialı yaradan

xarici hüquqi şəxsin qərarının əsli və ya notariat qaydada təsdiq edilmiş surəti. Qanuni təmsilçinin və ya rəhbərin ərizədə göstərilmiş pasport rekvizitləri Daxili İşlər Nazirliyinin pasport qeydiyyatı məlumatlarında təsdiqini tapmadıqda, onun şəxsiyyət vəsiqəsinin surəti nin ərizəyə əlavə edilməsi tələb oluna bilər;

- nümayəndəliyin və ya filialın təsisçisi olan hüquqi şəxsin xarici ölkədə qeydiyyatını təsdiq edən sənədlər- qeydiyyat şəhadətnaməsinin (reyestrdən çıxarışın) və nizamnaməsinin notariat qaydasında təsdiq olunmuş surəti. Bu halda həmin sənəd hüquqi şəxsin yerləşdiyi ölkədə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya bu ölkədə Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin diplomatik nümayəndəliyi tərəfindən (belələri olmadıqda, müstəsna hal kimi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Konsulluq idarəsi tərəfindən) qanunvericilikdə nəzərdə tutulmuş qaydada leqallaşdırılmalıdır;
- nümayəndəliyin və ya filialın hüquqi ünvanını təsdiq edən sənəd;
- nümayəndəlik və ya filial xüsusi vergi rejimi ilə fəaliyyət göstərəcəksə, bu barədə məlumat "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə"nin müvafiq əlavəsi ilə təqdim olunur;
- ərizə təsisçinin (təsisçilərin) müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalandıqda vəkalətnamə ərizə ilə birlikdə təqdim olunur.

Qanunvericiliklə nəzərdə tutulmayan digər sənədlərin tələb edilməsinə yol verilmir.

Xarici bankların və sığorta şirkətlərinin, xarici ali və orta təhsil müəssisələrinin nümayəndəlikləri və ya filialları yaradıldıqda həmçinin müvafiq fəaliyyətin keçirilməsi üçün aidiyyatı orqanın ilkin razılığı barədə sənəd tələb olunur.

Bank, qiymətli kağızlar bazarı, sığorta şirkətləri, xarici hüquqi şəxslərin nümayəndəlik və filiallarının qeydiyyatı üçün dövlət rüsumunun məbləği 220 AZN, kənd təsərrüfatı biznesi ilə məşğul olan hüquqi şəxslərin qeydiyyatı üçün dövlət rüsumu isə - 5,5 AZN (5 manat 50 qəpik), bütün digər hüquqi şəxslərin qeydiyyatı üçün dövlət rüsumu 11 AZN təşkil edir.

Əməliyyatların növlərinin xüsusiyyətləri ilə bağlı olaraq lisenziya verilməsi üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, lisenziya verilməsi üçün ödənməsi lazım olan dövlət rüsumunun miqdarı böyük miqdarda azaldılmış, lisenziyanın müddəti artırılmış və verilən lisenziyanın tək dövlət proseduru yaradılması təmin edilmişdir. Müəssisə lisenziyası almaq üçün görülməli əməliyyatların sayı azaldılaraq 240-dan 30-a endirilib və lisenziya müddətləri 2 ildən 5 ilə qaldırılıb.

Xarici investor 100% xarici investisiya və ya "joint-venture" olaraq Azərbaycan iş dünyasında fəaliyyətə başlaya bilər. Şirkət və ya sərmayədə xaricilər üçün spesifik olaraq lazımi bir hüquqi pay nisbəti və ya limit mümkün deyil. Lisenziyanın alınması təqribi olaraq 40 gün ərzində mümkün olur.

Hüquqi baxımdan müəssisələr dörd fərqli kateqoriyaya bölünür: Limitsiz məsuliyyətli ortaqlıq (general partnership), məhdud ortaqlıq (limited partnership), məhdud məsuliyyətli cəmiyyət (limited liability company-LLC) və açıq tipli səhmdar cəmiyyəti (joint-stock company-JSC). Xüsusilə, son iki şirkət kateqoriyası daha çox seçilən hüquqi müəssisə növləridir.

Xarici sərmayəli müəssisə qurucuları, müəssisə qurduqları zaman Azərbaycan Respublikası qanunlarına müvafiq olaraq təyin olunmuş vəziyyət və hallarda ekspertdən təbiətin qorunmasıyla əlaqədar rəy almaları lazımdır. Xarici investisiyalı komplekslərin fəaliyyəti müddətincə və adı hallanan komplekslərin fəaliyyətinə son verildiyi zaman belə rəy alınması məcburidir. Təbii ehtiyatların istismara verilməsi, böyük komplekslərin qurulması və ya rekonstruksiyası həyata keçirildiyi zaman əlavə olaraq biznes plan ilə əlaqəli ekspert rəyinin olması məcburidir.

9.2.4. Mülkiyyət Hüquqlarının Mühafizəsi və Müqavilələrə Hörmət

Keçid dövründəki ölkələrdə sərmayədarlar, mülkiyət hüquqlarının və müqavilələrin təhlükəsizliyindən narahat olurlar. Ancaq, bu mövzuda AYİB-in apardığı araştırmaya görə, Azərbaycan keçid dövründəki ən yaxşı ölkələr arasında sayılır. Mülkiyyət hüquqlarının mühafizəsi Azərbaycan Konstitusiyası tərəfindən nəzərdə tutulur. 2001-ci ildə qüvvəyə minən mülki məcəllənin, müqavilələrin, ticari münasibətlərin, mülkiyyət hüquqlarının və qiymətli kağızların struktur şərtlərini də əhatə edir. Son zamanlarda qəbul edilən mülki məcəllə məhkəmə prosesini asanlaşdırır. Digər tərəfdən, mərhum prezident Heydər Əliyevin 2002-ci ilin sentyabr ayında verdiyi qərarla, hökümətin mülkiyyət hüquqlarında qeyri-qanuni məhdudiyyətlərin və mülkiyyət sahiblərinə olan qeyri-qanuni təzyiqlərin qarşısının alınması nəzərdə tutulur.

9.2.5. Əqli Mülkiyyət Hüquqlarının qorunması

Müəllif hüququ, ticarət markası və patent qüvvədə olan qanunlar ilə tənzimlənir. 1990-cı illərin ortalarından Azərbaycan, əqli mülkiyyət hüquqlarının mühafizəsi və qeydə alınması ilə bağlı öz milli sistemini hazırlamışdır. Müəllif hüququna dair qanun (Müəllif Hüquqları və Əlaqədar Hüquqlara Dair Qanun-1996), (Patentlə Əlaqədar Qanun-1997) və ticarət markasının mühafizəsinə dair (Ticarət Markası və Coğrafi Yer Elmlərinə Dair Qanun-1998) qanun qüvvədədir. Bundan əlavə, Azərbaycan, Sənaye Mülkiyyətinin Mühafizəsinə Dair Paris Müqaviləsi; Ədəbiyyat və İncəsənət İşlərinin Qorunması Müqaviləsi kimi beynəlxalq müqavilələrdə iştirak etmişdir.

9.2.6. Özəl Sektora Dövlətin Maliyyə Yardımı

Hökümət tərəfindən "Sahibkarlığa Yardım Fondu" qurulmuşdur. 2003-2005-ci illər arasında fondun 250 milyard manat dəyərində özəl sahibkarlar üçün maliyyə yardımı etməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə 2003 və 2004-cü

illərdə də kredit verilmişdir. 2015-ci ildə də "Sahibkarlığa Yardım Fondu" kənd təsərrüfatı başda olmaqla iqtisadiyyatın bir çox sahəsində fəaliyyət göstərən sahibkarlara maliyyə yardımı etmişdir.

9.2.7. Tənzimləmə Sisteminin Şəffaflığı, Ümumi Standartların İdarəsi və Korrupsiyayla Mübarizə

Sərmayədarlar və iqtisadiyyata dəstək verən beynəlxalq təşkilatlar hökumətin hüquq sahəsindəki tənzimləmələrini müsbət dəyərləndirir və iş həyatına təsir edən qanun və nizamnamələri məqsədə uyğun və faydalı görürlər. Qanuni tənzimləmələr bəzi boşluqların olmasına baxmayaraq, bu mövzularda qət olunan məsafə bazar iqtisadiyyatına yeni addım atan ölkə üçün təqdirə layiqdir.

2000-ci ilin iyun ayında mərhum prezident Heydər Əliyev, rüşvətlə mübarizə ilə əlaqədar qanun imzalamışdır. 2001-ci ildə dövlət xidməti mövzusunda qanun qəbul edilmişdir. Bu qanunda dövlət məmurları üçün davranış qaydaları təyin edilməkdə və onların vəzifəyə təyini, vəzifədə irəliləməsi və əmək haqqlarının verilməsi ilə bağlı qaydalar öz əksini tapmışdır. Qanun, dövlət xidmətinin gücləndirilməsi və rüşvətə qaynaq ola biləcək faktorların azaldılmasını nəzərdə tutur.

Hökümət, eyni zamanda məhkəmə orqanlarında məhkəmələrin təsirliliyinin və müstəqilliyinin inkişafı üçün islahatlara başlamışdır. Mülki prosesual və cinayət məcəlləsinə gətirilən yeni qanunlar hakimlərin təyinində yeni metodlar ortaya çıxartmışdır. 2002-ci ilin sentyabr ayında ölkə başçısının qərarına müvafiq olaraq, xüsusi icazə və sənədlərin sayı 240-dan 30-a salınmışdır. Bu sahibkarların qarşısındakı lüzumsuz bürokratik əngəllər aradan qaldırır və icazə alma müddətini sürətləndirmək üçün əlavə ödəmələri azaldır.

9.2.8. Milli Tənzimləmələr

Xarici Sərmayənin Mühafizəsinə Dair Qanunda, heç olmasa xarici sahibkarlara yerli sahibkarlarla bərabər şərtlərdə sahibkarlıq etmə şəraitinin yaradılması nəzərdə tutulur.

Qanunda göstərilən tək istisnai hal, xarici sahibkarların sərmayə qoyacaqları sahənin əhəmiyyəti diqqətə alınaraq yerli sahibkarların gəlirlərinə mənfi təsir etməyəcəyi halda üstün olmasıdır.

9.2.9. Milliləşdirmə

Xarici Sərmayənin Mühafizəsinə Dair Qanun, xarici sərmayədarların mülklərini milliləşdirir və istimlakdan qoruyur. Yalnız, ölkənin milli mənfəətləri və ya yerli xalqa qarşı bir zərər ehtimalı ortaya çıxarsa, ya da təbii fəlakət və başqa zəruri vəziyyətlərdə təsirli, sürətli və sərmayənin əsl dəyəri üzərindən təzminatla yuxarıda adı keçən əməliyyatlar aparıla bilər.

Milliləşdirilmə qərarları ancaq Azərbaycan Respublikası Milli Məclisi tərəfindən verilə bilər. İstimlak qərarı Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə alına bilər.

Ölkədə son illərdə heç bir milliləşdirmə olmamışdır.

Dövlət gücünün hüquqi olmayan fəaliyyəti nəticəsində meydana gələn zərərlərin təzmini də zəmanət altına alınır.

9.2.10. Gəlirin Köçürülməsi və ya Yenidən Plasmanı

Bundan əlavə, gəlirin xarici sərmayədarın öz ölkəsinə getməsi zəmanəti də verilir. Xarici sərmayədarlar gəlir və ya digər pul gəlirlərini və qanuni sərmayədarlıq fəaliyyəti sayəsində aldığı valyuta gəlirini əlaqədar vergiləri ödədikdən sonra xarici banklara köçürə bilər.

Xarici sərmayədarlar Azərbaycanda əldə etdikləri gəlirlə yenidən investisiya qoya bilər, Azərbaycan banklarına qoya bilər, Azərbaycan Respublikası Milli Bankının təyin etdiyi kurs və qaydalarla valyuta ala bilirlər.

9.2.11. Mübahisələrin Həlli

Mübahisələrin məhkəmə yolu ilə həllində bir sıra əksikliklər olsa da, son illər Azərbaycanda bu sahədə mühüm islahatlar həyata keçirilmişdir. Beynəlxalq Arbitraj Haqqında Qanun 2000-ci ildə qüvvəyə minmişdir. Qanuna görə, tərəflər öz istəklərinə görə hər hansı bir xarici məhkəməyə müraciət edə bilərlər. Xarici məhkəmənin qərarı ölkədə siyasi stabilliyi pozmayacaq şəkildə, yerinə yetiriləcəkdir. Milli Məclis, Xarici Arbitrajın Qəbulu və Məqbul Sayılması haqqında 1958-ci il Nyu York müqaviləsini də təsdiq etmişdir. Bu, Azərbaycan hökuməti ilə xarici sərmayədarlar arasında ortaya çıxa biləcək problemlərin Azərbaycan məhkəmələrində baxılmadan, problemin Beynəlxalq Arbitraj Məhkəməsinə aparılması məsuliyyətini daşıyır. Azərbaycan hökuməti və üçüncü tərəflər arasındakı bəzi müqavilələr, xarici sərmayədarlara Sərmayə Mübahisələrinin Həlli Üçün Beynəlxalq Mərkəzə (ICSID) müraciət etməyə imkan verir. Azərbaycan, ICSID tərkibində imzalanmış, "Bir Dövlətlə Başqa Bir Dövlətin Vətəndaşı Arasında Çıxan Sərmayə Müqavilərinin Həlli Üzrə Beynəlxalq Müqavilə"nin üzvüdür.

9.2.12. İkitərəfli İnvestisiya Müqavilələri

Azərbaycan Çin, Fransa, Gürcüstan, Almaniya, İngiltərə, İran, İtaliya, Qazaxıstan, Qırğızıstan, Pakistan, Polşa, Türkiyə, Ukrayna, ABŞ və Özbəkistanla iki tərəfli sərmayə qorunması müqaviləsinə imza atmışdır.

Beynəlxalq müqavilələr yerli Azərbaycan həyatına aid olduğu üçün, İkitərəfli Sərmayə Müqavilələri, bəzi sərmayədarlar üçün ölkədə inam verici müsbət mühiti təmin edə bilər.

9.2.13. Sərmayəyə İştiraklar və Köməklər

Prezidentin 2003-ci ilin sentyabr ayında çıxartdığı fərman səpgisində sahibkarların inkişafına yardım üçün, İş Adamları İttifaqı qurulmuşdur. İttifaq mütəmadi olaraq mövcud problemlərin təsbiti və analizi və bu problemlərin həlli üçün fəaliyyətlərlə məşğul olacaqdır. İttifaq, xarici sərmayədarların da problemləri ilə maraqlanaraq onların səslərinin eşidilməsində köməkçi olacaqdır.

9.2.14. Vergilər və Vergi Dərəcələri

Azərbaycan Respublikasının vergi sistemi müstəqillik elan edildikdən sonra, 1991-ci ilin sonu, 1992-ci ilin əvvəllərində təşəkkül tapmağa başlamışdır.

Bu təşəkkül prosesini 3 mərhələyə ayırmaq olar:

1991-1992-ci illəri əhatə edən I mərhələdə əsasən gəlirlərə və xərclərə qoyulan vergilər haqqında qanunlar qəbul edilmişdir. 1991-ci ilin dekabrında "Əlavə dəyər vergisi" və "Aksizlər"haqqında, 1992-ci ilin iyununda "Hüquqi şəxslərin mənfəətindən və gəlirlərin ayrı-ayrı növlərindən vergilər" və "Fiziki şəxslərdən gəlir vergisi" haqqında qanunlar qəbul olunmuşdur. 1992-ci ilin ortalarından başlayaraq respublikanın müstəqil vergi xidməti orqanı formalaşmağa başladı.

1993-1996 ci illəri əhatə edən II mərhələdə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra yeni vergi növləri haqqına qanunlar qəbul edilmiş, onların normativ-hüquqi bazası yaradılmışdır. Belə ki, 1993-ci ilin fevralında "Torpaq vergisi", 1995-ci ilin martında "Əmlak vergisi" və "Mədən vergisi", 1996-cı ilin dekabrında "Dövlət yol fonduna vergilər" haqqında qanunlar qəbul edilmiş, vergi qanunlarının tədbiqi ilə bağlı təlimatlar, əsasnamələr işlənib hazırlanmışdır. 1996-cı ilin sonu 2000-ci il də daxil olmaqla son dövrü əhatə edən III mərhələdə cəmiyyətdə və iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərindən asılı olaraq əvvəlki mərhələdə qəbul edilmiş qanunların təkmilləşdirilməsi istiqamətində işlər aparılmış, müvafiq vergi qanunlarında dəyişikliklər və düzəlişlər edilmiş, Respublika Prezidenti 1999-cu ilin yanvarında bilavasitə vergi orqanlarına da aidiyyatı olan "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərman imzalamışdı. Bu mərhələnin yekunu kimi 2000-ci ilin iyulunda "Vergi Məcəlləsi"nin qəbul edilməsini göstərmək olar.

Hazırkı dövrdə Azərbaycan Respublikasının vergi sistemi ölkənin təsərrüfat mexanizminin fəaliyyətini təmin edir, dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verir, büdcə kəsirinin artımının qarşısını alır, ümumiyyətlə bazar iqtisadiyyatına keçidin bütün tələblərinə cavab verir.

Azərbaycan Respublikasının dövlət vergi xidməti Vergilər Nazirliyindən və bilavasitə ona tabe olan ərazi vergi orqanlarından ibarət olan vahid mərkəzləşdirilmiş sistemdir. Azərbaycan Respublikası Vergilər Nazirliyinin strukturuna Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, Vergilər Nazirliyinin

Tədris Mərkəzi, İri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssələr ilə iş üzrə Departament,Vergi cinayətlərinin ibtidai araşdırılması Departamenti, Bakı şəhəri Baş Vergilər İdarəsi, Ərazi Vergilər İdarələri, Respublikanın şəhər və rayonları üzrə Vergilər idarələri və şöbələri daxildir.

Vergilər Nazirliyi dövlət idarəetmə orqanları sisteminə daxildir və Azərbaycan Respublikasının Prezidentinə və Hökümətinə tabedir. Vergi xidmətinin mərkəzləşdirilmiş sistem kimi qurulması ölkənin bütün ərazisində vahid vergi siyasətinin keçirilməsinə imkan verir.Nazirlik və ona tabe olan bütün vergi orqanları hüquqi şəxsdirlər, onların hər birinin müstəqil xərclər smetası, bankda cari hesabı, xəbərdarlıq orqanında xəzinə hesabı, Azərbaycan Respublikasının dövlət gerbi təsvir olunmuş möhürü, müvafiq möhür və ştampları, VÖEN-ni vardır. Vergilər Nazirliyinə vergi orqanları qarşısına qoyulan tələblərin və vəzifələrin yerinə yetirilməsinə şəxsən cavabdeh olan nazir rəhbərlik edir. Onu bu vəzifəyə Azərbaycan Respublikasının Prezidenti təyin edir. Dövlət vergi xidməti orqanları şaquli tabeçilik prinsipi əsasında fəaliyyət göstərir. Şaquli tabeçilik informasiya mübadiləsini sürətləndirir və təlimat xarakerli qanunvericik materiallarının vergi orqanları üzrə yayılmasını şərtləndirir.

Vergi məbləğləri aşağıdakı formalarda tutulur: bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması); bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması); bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergi ödəyicisi tərəfindən verginin ödənilməsi).

Azərbaycanda dövlət vergilərinə aşağıdakılar aiddir:

1) fiziki şəxslərin gəlir vergisi;
2) hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa);
3) əlavə dəyər vergisi;
4) aksizlər;
5) hüquqi şəxslərin əmlak vergisi;
6) hüquqi şəxslərin torpaq vergisi;
7) yol vergisi;
8) mədən vergisi;
9) sadələşdirilmiş vergi.

Azərbaycanda xarici sərmayənin iştirakı ilə qurulan müəssisələrin və xarici müəssisələrin quruluş sərmayəsinə eyni sərmayə olaraq qoyulmaq üzrə Azərbaycana gətirilən əmlak, gömrük vergisi və ƏDV-dən azad olaraq idxal edilə bilər. Daha sonra qoyulacaq sərmayələrdə, bəzi istisnalar xaricində 5% gömrük vergisinə tabe tutulacaq. ƏDV-dən isə azaddır.

Vergilər Nazirliyi tərəfindən tətbiq olunan vergi siyasətinin və vergilərin yığılmasının həyata keçirildiyi Azərbaycanda iki fərqli növdə vergi rejiminin olduğu müşahidə edilir. İstehsalın Bölgüsü Müqavilələri (PSA) çərçivəsində daha çox neft və təbii qaz sektorunda fəaliyyət göstərən şirkətlər neft konsersiyum vergi rejiminə bağlıdırlar. Rəsmi vergi rejimi digər bütün hüquqi şəxslər üçün məqbuldur.

Azərbaycanda vergilərlə əlaqədar xarakteristik struktur aşağıdakı kimidir[271]:

Yerli və xarici sahibkarlardan alınan şirkətin mənfəət gəliri vergisi 20%-dir. Sosial yardım təşkilatının gəliri, qrantlar, üzvlük haqqları və ticari olmayan təşkilatlar tərəfindən qəbul edilən yardımlar gəlir vergisi xaricində tutulur.

Gəlir vergisi 14%-25% arasında, artan nisbətli üsula görə dəyişir. 182 gündən daha az fəaliyyət göstərən xaricilərin gəlir vergisi, səfirlik işçilərinin gəlirləri istisnadır.

ƏDV nisbəti 18%-dir. İstehlak vergisi qeyri-sabitdir. Sərvətlərdən (maşın, bina v.b.) əmlakın növünə görə vergi alınır. Yenə 182 gündən daha az qalan xaricilərin gəlir vergisi, diplomat və konsulluq işçilərinin mal varlıqları vergidən azaddır.

Ərazilər isə növünə və olduğu regiona görə fərqli nisbətdə vergiləndirilir. Mədən vergisi isə 3-26% arasındadır.

Azərbaycan ərazisinə daxil olan xarici vətəndaşlara aid avtomobillər, növünə, həcminə, məsafəsinə v.s. görə vergiləndirilir. Bundan əlavə, sadələşdirilmiş sistem vergisi adı altında fəaliyyət göstərən sahibkar və şəxslərdən, satışla əlaqədar olmayan fəaliyyətlər mal və xidmət satışlarından Bakıda 4%, digər regionlarda 2% nisbətində vergi alınır və ƏDV, əmlak və mənfəət vergilərini ödəməkdən azad edilirlər.

9.3. İNVESTİSİYA POTENSİALI

Azərbaycanda sərmayə qoyuluşuyla əlaqədar planlamada, sadəcə ölkənin bazar potensialının diqqətə alınması doğru olmayacaqdır. Azərbaycanın coğrafi mövqeyi, diqqətə alındıqda, region ölkələri ilə birlikdə mühüm bazar potensialına sahib olduğu görülür. Azərbaycan Qafqaz və Orta Asiyanın "iqtisadi nəfəs borusu"dur. Belə bir əhəmiyyətə sahib olduğu Bakı-Tbilisi-Ceyhan neft boru xətti və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xəttinin fəaliyyətə keşməsi ilə daha açıq olaraq görüləcək, Xəzərdən keçəcək boru xəttləri ilə Qazaxıstan neftinin və Türkmənistan təbii qazının dünya bazarlarına ixracının həyata keçməsi ilə dəyərini və əhəmiyyətini artıracaqdır. Digər tərəfdən bu potensial hər keçən gün İpək Yolunun yenidən canlılıq qazanması ilə daha da artacaqdır. Azərbay-

[271] *Brief Overwiev of Business Practices, New Investment Opportunities and Legal Environment*, Azerbaijan Investment Promotion and Advisory Foundation, Baku, 2005, ss.32-35.

cana investisiya qoyularkən, Azərbaycan bazar potensialından çox regionun bazar potensialının, regionun da bu gündən daha çox gələcək potensialının diqqətə alınması lazımdır.

Region bazar potensialı diqqətə alınacağına görə, Azərbaycanda ixraca dair, dünya qiymətləri ilə rəqabət edə biləcək şəkildə malın maya dəyərini və qiymətini aşağı səviyyələrdə tuta bilən ölçüdə və böyüklükdə etmək şərtiylə bir çox sahədə investisiya qoyuluşu mümkündür. İqlim şərtləri və toprağın münbit olması, kənd təsərrüfatı sənayesinə investisiya qoyuluşunu mümkün edir. Neft sektorundakı investisiya qoyuluşlarının da təsiri ilə bank və maliyyə sektoru və digər xidmətlər sektorundakı investisiya qoyuluşları da daha cazibəli hala gələcəkdir[272].

Mərhum ümummilli lider cənab Heydər Əliyev tərəfindən 2002-ci ildə yerli və xarici iş adamları ilə aparılan müzakirələr və müzakirələrdən sonra alınan yeni qərarlarla, sahibkarları təşviq edən və qabağını açacaq şəkildə, sərbəst bazar iqtisadiyyatına keçid üçün lazımi hüquqi və təşkilati strukturdakı müsbət inkişafları ilə birlikdə məşğuliyyətə ehtiyacın sürətlə artması, Azərbaycana investisiya qoyulması və iqtisadi əlaqələrə aparılması üçün sərmayə və bazar iqlimini daha əlverişli hala gətirmişdir. Eyni siyasət hazırda prezident İlham Əliyev tərəfindən həyata kecirilir və xüsusiylə 2015-ci ildən neft qiymətlərinin azalmasından dolayı gəlirlərin azalması qeyri-neft sektorunun inkişafını zəruri etdi və bu istiqamətdə sahibkarlığın inkişafına mane olan bütün baryerlərin aradan qaldırılması istiqamətində bir çox muhim qərarlar alındı.

Qloballaşmanın maliyyə sferasi ilə birlikdə, sərmayənin sərhəd tanımadığı müasir dünyada, Almanya, Fransa, İngiltərə, Yaponiya kimi regiona daha uzaq ölkələrdən gələn investorlar, Azərbaycanda həyata keçiriləcək olan böyük həcmli müəssisələrin özəlləşdirilməsiylə maraqlanarkən, Türkiyəli investorlar, Türkiyədə yaşanan iqtisadi problemlər səbəbiylə xarici bazarlara çıxmaları vacib olduğundan, dövlət dəstəyini də alaraq, Azərbaycandakı özəlləşdirməyə maraq göstərmələri və fərqli sektorlara investisiya qoymaları, həm investorlara, həm də ölkə iqtisadiyyatına faydalı olmuşdur.

9.4. İNVESTİSİYA VƏ TİCARƏT SAHƏLƏRİ

Aşağıda fərqli sektorlarda başlıca sərmayə və ticarət sahələri yer almaqdadır[273].

---

[272] Osman Nuri Aras, "Azerbaycan İqtisadiyyatında Sermaye Strategiyasının Nezeri İnfrastrukturu", *Azerbaycan İqtisadiyyatında Strateji Problemleri adlı Konferans Materialları*, Bakı, 14-15 Mart 2002, ss.209-212.

[273] Geniş bilgi için Bkz: www.economy.gov.az.

9.4.1. Kənd Təsərrüfatı və Qida

- Kənd Təsərrüfatı Texnikasının İstehsalı Kompleksi,
- Süd və Süd Məmulatları İstehsalı və Emalı,
- Uşaq Qida Məhsulları Istehsalı,
- Bitki Yağları (Qarğıdalı və Günəbaxan Yağı) Istehsalı,
- Qida Konsantratları İstehsalı,
- Zeytun və Zeytun Yağı İstehsalı,
- Şokolad və Qənnadı Malları İstehsalı,
- Peçenye İstehsalı,
- Nar Suyu Və Nar Şirəsi Konsentratları İstehsalı,
- Tomat İstehsalı,
- Gülyağı İstehsalı,
- Un və Un Məmulatları İstehsalı,
- Heyvandarlıq və Quşçuluq Yem Məhsulları İstehsalı ,
- Konserv Malları İstehsalı,
- Konserv Fabrikinin Müasirləşməsi,
- Kənd Təsərrüfatı Mallarının Saxlanması və Paketlənməsi,
- Müasir İstixanaların İnşası,
- Soyuducu Anbarlarının İnşası,
- Şəkər Fabriklərinin İnşası,
- Şərab Fabriklərinin İnşası,
- Arıçılıq,
- Kürü və Balıqçılıq Müəsisələri,
- Çiçəkçilik,
- Quşçuluq,
- Ət Məhsulları İstehsal Müəssisələrinin İnşası və s

9.4.2. Kimya Sənayesi

- Yuyucu Tozu, Sabun, Şampun v.s. İstehlak Malları İstehsalı,
- Etilen-Propilen Fabrikinin Müasirləşməsi,
- Gübrə İstehsalı,
- Yod və Brom Emalı,
- Polietilen Emalı,
- Polipropilen İstehsalı,
- Boya İstehsalı,
- Soda və Xlor İstehsal Müəssisələrinin İnşası,
- Şüşə İstehsalı.

9.4.3. Yüngül Emal Sənayesi

- Kondisioner Emalı,
- Kompressor Emalı,
- Elektrikli və Elektronik Alətlər Emalı,
- Transformatorların Təmiri və Emalı,
- Ev Alətləri Emalı,
- Təsərrüfat Malları Emalı,
- Kağız və Salfetka Emalı,
- Boru v.b. Plastik Mallar Emalı,
- Soyuducu və Dondurucu Emalı,
- Sabun İstehsal Müəssisələrinin Müasirləşməsi,
- Rezin Emalı,
- Kabel Emalı,
- Təbii və Sintetik Parçaların İstehsalı,
- Fosfat İstehsal Müəssisələrinin Müasirləşməsi,
- İpək İstehsalı,
- Toxuculuq Fabrikinin Yenidən Qurulması,
- Pambıq və Yun Əyirmə Fabriklərinin İnşası,
- Smartkart Tipli Qaz Sayğaclarının Emalı,
- Təbii Qaz İstehlakı İlə Əlaqədar Malların İstehsalı
- Uşaq Bezlərinin İstehsalı,
- Dəri Geyim və Ayaqqabı Emalı,
- Xalçaçılıq.

9.4.4. İnşaat və Turizm

- İnşaat Materialları İstehsalı,
- Dəmir Filizi İstehsalı,
- Dağçılıq İdmanı, Turizm və Əyləncə Mərkəzi İnşası,
- Mehmanxana İnşası,
- Turizm Kompleksinin Qurulması,
- Müalicəvi İstirahət Mərkəzi İnşası,
- İnşaat Və Yenidənqurma İşləri,
- Sənaye Zonalarının Tikintisi,
- Mozaik və Mərmər İşləri
- Tibbi Kompleks və Geramika Materiallar İstehsalı

9.4.5. Nəqliyyat

- Lokomotiv Deposunun Yenidən Qurulması,
- Vaqon Deposu Nəzdində Yük Vaqonlarının Təmiri Fabrikinin Tikintisi,
- Bakı Metropoliteninin 3-cü Bənövşəyi xəttin və diğər xəttlərdəki yeni stansiyaların İnşası,
- Avtonəqliyyat Yollarında İctimai Nəqliyyat Xidmətləri.
- Körpü və yol ötürücülərinin tikilməsi
- Beynəlxalq səviyyəli dəmir yolu nəqliyyat dəhlizinin tikilməsi
- Beynəlxalq gəmi yükdaşımacılıq istiqamətində fəaliyyətlər
- Xüsusiylə 2015-ci ildə Rusiya hərbi təyyarəsinin Turkiyə torpaqlarında Türkiyə tərəfindən vurulmasından sonra Türkiyə-Rusiya münaqişəsi və Rusiyanın bu ölkəyə sankiyaları Türkiyədən gələn yüklərin Xəzər üzərindən Orta Asiyaya çatdırılması marşrutunu aktivləşdirdi. Bu xəttin fəallaşması həm avtomobil, həm də dəmiryol və həm də dəniz nəqliyyatı sistemində zəruri işlər görülməsini tələb edir.

ONUNCU FƏSİL
ÖLKƏ İQTİSADİYYATININ SWOT ANALİZİ

SWOT analizi, incələnən ölkənin, sektorun, quruluşun, üsulun, prosesin və ya vəziyyətin güclü və zəif tərəflərini müəyyən etməkdə və xarici çevrədən qaynaqlanan imkan və təhlükələri müəyyən etməkdə istifadə edilən bir üsuldur[274].

SWOT analizi ilə hədəflənən; daxili və xarici təsirləri diqqətə alaraq, ən üst səviyyədə faydalanacaq şəkildə güclü olunan və böyük fürsətlərin yatdığı sahələrə hədəflənib, təhdid və zəif tərəflərin təsirini ən aza salacaq plan və strategiyalar inkişaf etdirməkdir.

SWOT analizi, stratejik bir plan inkişaf etdirilməsi mərhələsində ya da problem müəyyən etmə və həll axtarılması mərhələlərində istifadə edilir.

Yuxarıda qısa olaraq izah edilən SWOT analizi həm ölkə iqtidarı, həm yerli və xarici investor, həm də ölkə iqtisadiyyatı haqqında ümumi olaraq məlumat sahibi olmaq istəyənlər tərəfindən əhəmiyyət kəsb edir.

Dövrümüzün qlobal rəqabət şəraitində, Azərbaycanda bazar iqtisadiyyatına keçid və iqtisadi inkişafı əldə etmək məqsədi ilə proqramlarla inkişaf siyasətləri və strategiyaları müəyyən edən ölkə iqtidarı üçün bilərəkdən və sistematik analizlər edərək, ölkənin potensial qaynaqlarını və imkanlarını ən yaxşı şəkildə istifadə edə bilməsi və yeni strategiyaları inkişaf etdirə bilməsi üçün, SWOT analizi stratejik əhəmiyyətə sahibdir.

Yerli və xarici investor üçün isə, neft sektoru xaricindəki sektorlara investisiya qoya bilmə baxımından, ölkə iqtisadiyyatı haqqında makro iqtisadiyyat, sektoral və iqtisadiyyat xaric sahələrə dair ampirik olmayan bir analiz, stratejik ilk addım olaraq lazımdır.

Yuxarıdaki əhəmiyyət və lazımlılığa sahib olan SWOT üsulu ilə bu hissədə Azərbaycan iqtisadiyyatı analiz ediləcəkdir. Analizdə metod olaraq ölkə iqtisadiyyatının güclü və zəif tərəfləri; makro iqtisadi, sektoral-regional və iqtisadiyyat xaric olaraq, təhdid və fürsətlər isə; iqtisadiyyat və qeyri-iqtisadiyyat olaraq analiz ediləcəkdir.

SWOT analizinə aid güclü və zəif tərəflər, təhdid və fürsətlər əsas başlıqlar olaraq vəriləcəkdir. Bu səbəblə aşağıda bəhs olunan SWOT analizində bir tərəfdən daha əvvəlki hissələrdə edilən makro iqtisadi, regional və sektoral analiz-

---

[274] SWOT ifadəsi, ingilis dilindəki Strengths (Güclü Tərəflər), Weaknesses (Zəif Tərəflər), Opportunities (Fürsətlər) və Threats (Təhdidlər) sözlərinin baş hərflərindən əmələ gəlir.

lərin və dünya iqtisadiyyatına inteqrasiya səviyyəsinin ümumi bir şəkli çəkilmiş olacaqdır.

Həyata keçirilən analiz sonrasında ölkə idarəçiləri ilə yerli və xarici investorlara baxan tərəflərilə xəbərdarlıq edəcəklər.

10.1. GÜCLÜ TƏRƏFLƏR

10.1.1. Makro İqtisadi Baxımdan Güclü Tərəflər

- *Başda qiymət stabilliyi olmaqla ümumi olaraq makro* iqtisadi *baxımdan stabil bir şəraitin mövcud olması:*

Ölkədə müstəqilliyin qazanıldığı ilk illərdə baş verən siyasi, iqtisadi qeyristabilliklə yanaşı Ermənistan ilə Yuxarı Qarabağ müharibəsi səbəbiylə 1995-ci ilə qədər makroiqtisadi göstəricilərdə qeyri-stabillik müşahidə edilmişdir. Ancaq, ölkədə əldə edilən siyasi stabillik və daha sonra tətbiq edilməyə başlanan iqtisadi siyasətlərlə birlikdə, 1996-cı ildən etibarən iqtisadiyyatda qeyristabillik yerini stabilliyə buraxmışdır. Bu səbəblə təxminən 20 ildir ölkədə makroiqtisadi rəqəmlərdə sabitlik mövcuddur.

- Xarici *borcların ÜDM-yə nisbətinin yüksək olmaması:*

Azərbaycanın xarici borc miqdarı 01 oktyabr 2015-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6,730.9 milyon ABŞ dolları (7,054.0 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 12.4 faiz təşkil etmişdir. Borc vəsaitlərinin 8.0%-i 10 ilə qədər, 58.6%-i 10 ildən 20 ilə qədər, 33.4%-i isə 20 ildən artıq olan müddətə cəlb olunmuşdur. Adam başına düşən xarici borc miqdarına görə, MDB ölkələri ilə qarşılaştırıldıqda siya-hıda ortalarda qərarlaşır. 2016-ci ilin əvvəlində isə Azərbaycanın xarici dövlət borcu 6 milyard 778 milyon 200 min dollar olmuşdur. Bu göstərici ÜDM-nin 12.6%-i nisbətindədir.

- *Valyuta Kursunun stabil olması:*

Azərbaycan 1992-ci ildə "Rubl Regionu"ndan çıxaraq, milli pul vahidi olan manatı tədavülə çıxarmışdır. İlk mərhələdə rubl ilə birlikdə tədavüldə olan manat 1994-cü ildən etibarən ölkədə tək rəsmi pul vahidi olmuşdur. İdxalın mühüm bir hissəsinin rubl ilə aparılması və idxalın edildiyi ölkələrdə, xüsusilə Rusiyada qiymətlərin liberallaşmasına paralel olaraq yüksəlməsi nəticəsində, manat 1993-cü ildə rubl qarşısında dəyər itirməyə başladı. Digər tərəfdən 1993-94-cü illərdə bank sektorunda baş verən böhran və manatın dəyərinə aid proqnozlarin mənfiliyi manatın digər ölkə pul vahidləri qarşısında da dəyər itirməsinə səbəb oldu.Eyni proses 2015 ci ildəki iki develvasiyada da ortaya çixsa da hələlik manatın dəyər itirməsi çox da təhlükəli həddə deyil.İnflyasiya səviyyəsi çox azdır.

Ölkədə əldə edilən siyasi və ondan sonra da iqtisadi stabillik ilə birlikdə ölkədə valyuta kursu 2015 devalvasiyaları xaricində da stabil bir seyr izləyir.

- *Ucuz əməyin olması:*

Ölkədə işsizlik nisbətinin yüksək olması səbəbiylə əmək haqları aşağı səviyyədədir. Ölkədə minimum əmək haqqı 105 manatdır. İstehsal faktoru olaraq əmək ödəmələri, toplam maya dəyərləri baxımından üstünlük yaradır. Nəticədə işçi qüvvəsinin ucuz olması, sərmayə qoymağı təşviq edən ünsürlərdən biri olur. Xususilə devalvasiya sonrası bu nisbət daha da azalacaqdır.Ortalama əmək haqqının 350-500 AZN təşkil etməsi bu istiqamətdə güclü mövqe sayıla bilər. Eyni zamanda Azərbaycanda təhsil səviyyəsinin ətraf ölkələrə görə yüksək olmasını da xüsusiylə qeyd etmək lazımdır.Yüksək ixtisaslı kadrlar dünya səviyyəli işləri eyni keyfiyyətdə daha ucuz əmək haqqıyla görə bilərlər.

10.1.2. Sektoral və Regional Baxımından Güclü Tərəflər

- *Kənd təsərrüfatı və heyvandarlıq sektorunun əlverişli bir iqlim və ərazi tərkibinə sahib olması:*

Subtropik iqlimdən tundra iqliminə qədər uzanan bir zolaqda Azərbaycanda yer üzündə mövcud olan 11 iqlimdən 9-u mövcuddur. Bu müxtəliflilik bir mövsümdə birdən çox məhsul əldə etməyə və fərqli məhsulları istehsal etməyə imkan verir. Ölkə ərazisinin 53%-i kənd təsərrüfatına yararlıdır.

İqlim və ərazi forması heyvandarlıqla məşğul olmağa da əlverişlidir.

- *Qida sənayesi üçün mühüm xammal olaraq kənd təsərrüfatı və heyvandarlıq məhsulları istehsalına imkan olması:*

*Kənd təsərrüfatın*a əlverişli iqlim və ərazi formasına sahib olması, təbii olaraq ölkədə qida sənayesinin inkişaf etməsi üçün lazımi xammala ən uyğun şərtlərin, bu isə qida sənayesinə sərmayə qoymağı cazib qılan ən əhəmiyyətli ünsürün var olduğu deməkdir. Qida sənayesinə sadəcə ölkədaxili deyil, Asiya və Qafqaza xitab edəcək bir həcmdə investisiya qoyulması mümkündür.

- *Turizmin inkişafına əlverişli ekolojik bir formaya, təbii, tarixi və mədəni zənginliklərə sahib olması:*

Turizm sektorunun inkişaf etməsi üçün lazımi iqlim, təbii gözəlliklər, tarixi və arxeolojik əsər potensialına sahib olan Azərbaycanda, əlverişli iqlim şərtləri, Xəzər dənizinin sahilləri, fərqli regionlardakı meşə sahələri və müalicə məqsədiylə faydalana bilinəcək potensialdakı qaynaq suları diqqət çəkir.

- *Güclü bir neft və təbii qaz sektorunun varlığı:*

Xəzərdə kəşf edilən neft və təbii qaz rezervləri ilə birlikdə ölkə dünyada neft və təbii qaz ixrac potensialına sahib olmasıyla diqqət çəkməyə başlamışdır. 2015-ci ilə qədər qoyulan sərmayənin mühüm bir hissəsi enerji qaynaqları istehsalına xərclənmişdir. Son illərdəki layihələri də diqqətə alsaq bu sektora

qoyulacaq olan ümumi sərmayə miqdarı isə təqribən 110-120 milyard dollar olacaqdır.

2005-ci ildə neftin, 2006-cı ildə isə təbii qazın ixracı ilə birlikdə enerji qaynaqlarından böyük miqdarlarda gəlir əldə edilməyə başlanılmışdır.

- *Neft-kimya sənayesinin inkişaf etməsi üçün lazımi xammalın və informasiya yığımının ölkədə kifayət səviyyədə olması.*

Neftə bağlı bir iqtisadiyyata sahib olması səbəbiylə sənaye sektorunun təməlini kimya, neft-kimya, təchizat, emalat sektoru təşkil edir. Müstəqillikdən sonra neft və təbii qaz hasilatına bağlı imzalanan müqavilələrdən sonra sənaye sektorunda sərmayələrin daha çox neft-kimya sahəsində üstünlük təşkil etməyə başladığı görülür. 2005-ci ildən etibarən neft və təbii qaz hasilatında önəmli bir miqdara çatan ölkədə, bu vəziyyət bu sahənin inkişaf etməsinə bir sözlə bu sahəyə sərmayə qoymağa imkan verir.

- *Nəqliyyat və rabitə sektorlarının inkişaf potensialı:*

Keçid prosesində nəqliyyat və rabitə infrastrukturunun yenidən qurulması səbəbiylə, sektorlar mühüm investisiyalar qoymağa imkan verən inkişaf potensialına sahibdir.

- *Dövlət təşviq siyasətinin mövcud olması:*

Başda 2004-2018-ci illəri əhatə edən regional inkişaf planları olmaqla, müxtəlif dövlət proqramları ilə qeyri-neft sektorlarının və Bakıdan başqa digər re-gionların inkişaf etməsi üçün lazımi təşviq siyasəti, vergidən azad olmalar və dövlət dəstəyi mövcuddur.

- *Maliyyə sektorunun inkişaf potensialı:*

Neft gəlirlərinin ölkəyə daxil olması ilə birlikdə, maliyyə sektorun sürətlə inkişaf edəcək bir potensiala sahib olacaq. Sektorun neft gəlirlərinin ölkəyə daxil olmasına bağlı önəmli hazırlıqlar gördüyü diqqət çəkir. Ölkə regionda ən mühüm bir maliyyə mərkəzi ola biləcək vəziyyətdədir.

- *İnşaat sektoru və inşaat materialları istehsalı üçün inkişaf potensialı:*

Yenidən dirçəliş prosesində inşaat sektoru da mühüm bir inkişaf potensialına sahibdir. Xüsusilə son iki ildə Bakıda mühüm canlanmanın görüldüyü inşaat sektoru həm Bakıda, həm də digər şəhərlərdə ciddi bir inkişaf potensialına sahibdir. Bu səbəblə də inşaatla birlikdə inşaat materialları istehsalına dair də sərmayə qoymağa əlverişli bir potensialın olması diqqət çəkir.

- *Xəzərin balıqçılıq və kürü istehsalına əlverişli olması:*

Xəzər dənizi dünya həcmində əhəmiyyət kəsb edən neft və təbii qaz rezervləri ilə yanaşı, keyfiyyətli və zəngin balıq ehtiyatına də sahibdir. Xəzər, ən qiymətli balıq növü olan Mərsin (Nərə) balığının ana vətəni olaraq qəbul edilir.

Nərə balığı eyni zamanda kürü əldə edilən balıq növüdür. Xəzərdə, xüsusilə Nərə balığı istehsalı və bu balığın məhsulü olan qara kürü istehsalı əhəmiyyətli bir iqtisadi gəlir olaraq qarşımıza çıxır. Qara kürünün 80-90%-nin Xəzərdən əldə edildiyi də diqqətə alındıqda balıqçılıq sektorunun da inkişafa əlverişli və güclü bir potensiala sahib olduğunu görürük.

10.1.3. İqtisadi Olmayan Güclü Tərəflər

- Əhalinin təhsil səviyyəsi:

Hər nə qədər iqtisadi vəziyyətdəki geriləmə ilə birlikdə şərtlərin çətinləşməsinə baxmayaraq, Sovet adətinin davamı olaraq insanların təhsilə qarşı maraq göstərdikləri müşahidə edilir. Ölkədə oxuma-yazma faizi 98% və lisey-ali təhsilli əhali nisbəti təqribən 60%.

Təhsilli əhali qoyulacaq olan sərmayələrdə lazımi kadrların praktik və ixtisas bilikləri qısa zamanda xidmət daxili təhsillə həll olunmasına da imkan verir.

- Siyasi stabilliyin və iradənin olması:

Hər bir ölkədə, iqtisadi inkişaf üçün ilk əvvəl siyasi stabillik və bu stabilliyi davam etdirəcək bir iradənin idarəçilərdə olması lazımdır. Siyasi stabillik, yeridilən iqtisadi proqramın axsaqlıqlara məruz qalmayacağının bir göstəricisi olaraq bazarlara zəmanət verir.

Azərbaycanda Heydər Əliyevin iqtidara gəlməsindən sonra əldə edilən siyasi stabillik və mövcud olan siyasi stabilliyin davamı üçün lazımi iradə baxımından narahat edici qeyri-müəyyənliklər İlham Əliyevin prezident seçilməsi ilə minimum səviyyəyə salınaraq yaxşılığa doğru addım atılmışdır.

10.2. ZƏİF TƏRƏFLƏR

10.2.1. Makro İqtisadi Baxımından Zəif Tərəflər

- İşsizlik problemi:

Rəsmi statistika Azərbaycanda işsizlik nisbətinin təqribən 1.5% olduğunu ifadə etməsinin müqabilində, beynəlxalq təşkilatıların verdiyi məlumatlara, aparılan fərqli hesablamalara və mütəxəssislərin fikrinə görə bu nisbət 16-25% arasındadır. Bu da o deməkdir ki, ölkədə işsizlik faizi yüksəkdir.

İşsizlik səviyyəsinin səbəblərindən biri, Qarabağın Ermənilər tərəfindən işğalından sonra təqribən 1 milyon insanın məcburi köçə məruz qalmasıdır. Digər tərəfdən keçid dövründəki müasir istehsal ilə rəqabət gücündə olmayan iş yerlərinin bağlanmasından sonra işini itirənlər də işsizlər ordusundakı ən önəmli faizi meydana gətirir.

*- İxtisaslı kadrların xarici ölk*ələrə *miqrasiyası:*

İş imkanının kifayət olmaması səbəbiylə təhsilli və ixtisaslı insanlar ölkə xaricinə köçürlər. İxtisaslı və təhsilli insanların böyük əksəriyyəti Rusiya, Tür-

kiyə, İran kimi qonşu ölkələrə tərəf üz tuturlar. Ölkəni bu şəkildə tərk edənlər arasında gənclərin və orta yaşlı insanların daha çox olduğu diqqət çəir. “Beyin köçü” olaraq ifadə edilə biləcək olan bu prosesin xüsusilə son illərdə daha çox artdığı müşahidə edilir.

- Böyük müəssisələrin özəlləşdirmə zamanın yavaş işləməsi:

Ölkədə 2000-ci ildə başlayan ikinci özəlləşdirmə proqramı ilə başda rabitə, nəqliyyat, kimya və enerji sektoru olmaqla, orta və böyük həcmli müəssisələrin özəlləşdirilməsi planlanmışdır. Ancaq, plan çərçivəsindəki böyük həcmli müəssisələrin özəlləşdirmə prosesinin yavaş işlədiyi görülür.

- Korrupsiya və rüşvət dərəcələri:

"Transparency International" tərəfindən 133 ölkəni əhatə edəcək mahiyyətdə hazırlanan "Korrupsiya Haqqında Təsəvvür İndeksi" rəqəmlərinə əsasən, Azərbaycan 124-üncü sırada qərarlaşıb. Rəqəmlərə görə ölkədə başda ticarət və investisiya sahəsi olmaqla dmək olar ki hər sahədə korrupsiya səviyyəsi yüksəkdir. Digər tərəfdən "Transparency International", Azərbaycanda korrupsiyaya qarşı həyata keçirilən tədbirləri də qənaətbəxş sayır.

- İxracın və dövlət büdcəsinin neft gəlirlərindən asılı olmağı:

Neft və neft gəlirlərinin ixracdakı payı təqribən 90%-dir. Digər tərəfdən büdcə gəlirlərinin isə 50%-i neft və neft ilə bağlı sahələrdən əldə edilir. Beləliklə, büdcənin neft gəlirlərindən, neft gəlirlərinin isə dünya bazarlarındakı konjonktüradan asılı olması Azərbaycanı “Hollandiya Xəstəliyi” təhlükəsi ilə qarşı qarşıya gətirmişdir.

- Gömrüklərdə ortaya çıxan problemlər:

Gömrüklərdə ortaya çıxan problemlər və qarşılaşılan çətinliklər xarici ticarətə, həyata keçirilən xarici ticarətin də sağlam bir şəkildə aparılmasına əngəl olur.

- Gəlir səviyyəsinin aşağı, gəlir bölgüsünün qeyri-bərabər olması:

Adam başına gəlir səviyyəsi hər keçən il yüksəlməklə birlikdə, orta səviyyədədir. Bu isə insanların alım gücünün orta olması deməkdir.

Digər tərəfdən gəlir bölgüsündə də ədalətsizlik mövcuddur. Xüsusilə, neft və neftə bağlı sektorlarda işləyənlərin iqtisadi vəziyyətləri çox yaxşı ikən, digər sektorlarda işləyənlərin gəlir səviyyəsi çox aşağıdır. Bu isə müəyyən nisbətdə əhalini lüks istehlaka istiqamətləndirir. Ölkədə orta təbəqənin hələ yaranmadığı görülür.

- Monopoliya və haqsız rəqabət mühitinin olması:

Ölkədə sahibkarların qarşılaşdığı əsas problemlərdən biri də monopoliyanın olması ya da haqsız rəqabət mühitinin olmasıdır. Müəyyən sahələrdə monopoliyanın olması özəl sahibkarlığın inkişafını və ehtiyatların səmərəli istifadəsini

əngəlləyir. Monopoliyanın olması qiymətlərin tez-tez xaotik şəkildə artmasına da səbəb olur.

- Valyuta kursunda dalgalanma ehtimalı səbəbiylə yerli pul vahidinə hiss edilən inamın azlığı.

Müstəqilliyin ilk illərində baş verən siyasi və iqtisadi böhranlar mühitində ortaya çıxan inflyasiya və devalüasiyalarla insanların yerli pul vahidinə qarşı inancı yaranmamışdır.

- *Kölgə iqtisadiyyatı:*

Ölkədə kölgə iqtisadiyyatının ÜDM-yə nisbəti yüksəkdir. Hətta Azərbaycan, MDB dövlətləri ilə müqayisədə korrupsiyanın səviyyəsinə görə olduğu kimi kölgə iqtisadiyyatının da həcminə görə ilk sıralarda qərarlaşıb.

Rəsmi məlumatlara görə kölgə iqtisadiyyatı ÜDM-nin 18-20%-nə uyğun gəlir. Ancaq, edilən bəzi dəyərləndirmələrdə, kölgə iqtisadiyyatının qeydiyyata alınan iqtisadi fəaliyyətlərdən daha böyük olduğu hesablanır. Dünya Bankı mütəxəssislərinə görə kölgə iqtisadiyyatının həcmi ÜDM-nin 60%-indən çoxdur. ÜDM-nin 60%-i qeydiyyatdan keçməmiş hissə olaraq qəbul edildikdə bu miqdar 5 milyard dollara müvafiq gəlir. Bəzi mütəxəssislər bu nisbətin 80% olduğunu iddia edirlər. Rəqəmlər fərqli olmaqla birlikdə əsasən kölgə iqtisadi fəaliyyətlərin yüksək olduğu görülür.

10.2.2. Sektoral və Regional Baxımından Zəif Tərəflər

- *İnfrastruktur çatışmamazlığı və köhnə texnologiya:*

Kənd təsərrüfatı və həyvandarlıq üçün lazım olan sulama v.b. *infrastruktur* azdır. Digər tərəfdən kənd təsərrüfatı və həyvandarlıq üçün lazım olan texnologiya həm köhnə həm də azdır.

Turizm sektoru üçün də lazımi yol, nəqliyyat vasitələri və gecələmə kompleksləri həm az, həm də köhnədir.

Sənaye sektoruna dair infrastrukturun da az və köhnə texnologiyaya sahib olduğu görülür. Bu da dövrümüz müasir texnologiyası ilə həm ucuz, həm də keyfiyyətli olaraq istehsal edilən dünya bazarında istehsal etməyə imkan vermir.

- *Neft və təbii qaz hasilatından asılı bir iqtisadi struktur səbəbi ilə digər sektorların diqqətdən uzaq qalması:*

Müstəqillik sonrasında daha çox neft və təbii qaz hasilatına bağlı olaraq enerji sektoru xarici və yerli sərmayədarlar tərəfindən diqqət mərkəzində olmuşdur. Bundan əlavə ixtisaslı kadrlar da daha çox bu sektorda iş tapmağa çalışmışdır. Həm sərmayə, həm də ixtisaslı kadrların tək bir sektora istiqamətlənməsi nəticəsində digər sektorlarda istənilən ciddi bir inkişaf olmamışdır.

- *Maliyyə sektorunun mümkün qədər inkişaf etməmiş olması:*

Müstəqilliyin ilk illərində baş verən bank böhranlarından sonra maliyyə sektorunun mərkəzində qərarlaşan bank sektoru hələ inkişaf etməmişdir.

Böyük həcmli müəssisələrin özəlləşdirməsinin baş verməməsi daşınan qiymətlər bazarının inkişaf etməməsinə ən mühüm təsiri göstərmişdir.

Gəlir səviyyəsinin aşağı olması isə sığorta sektorunun inkişaf etməsinə əngəl olmuşdur.

- *Hollandiya Xəstəliyi təhlükəsi:*

İxrac, xarici sərmayələrin neft və təbii qaz hasilatına istiqamətlənməsi, ixracın neft və təbii qaz üstünlüklü olması, büdcə gəlirlərinin yenə neft və təbii qazdan asılı olması səbəbiylə sektoral baxımdan iqtisadiyyatın neft və təbii qazdan asılı olduğu görülür. 2006-cı ildən etibarən isə neft ixracındakı artımla birlikdə bu asılılıq daha da artmışdır.

- *Sektoral monopoliyanın olması:*

Monopoliyanın bəzi sektorlarda mövcud olması, həmin sektorlada istehsal edilən məhsulun keyfiyyətinə, qiymətinə mənfi təsir edir və istehsal qaynaqlarının səmərəli istifadəsinə mane olur.

- *Regional inkişafda qeyri-bərabərlik:*

Digər tərəfdən iqtisadi müəssisələrin daha çox Bakı və ətrafında cəmləşmiş olması və vergi gəlirlərinin Bakı və ətrafından əldə edilməsi səbəbiylə də ölkə regional olaraq Bakı və ətrafına asılılıq göstərən bir iqtisadi struktura sahibdir.

10.2.3. İqtisadi Olmayan Zəif Tərəflər

- *Regionlar arası nəqliyyat əngəli:*

Erməni işgalından sonra, Naxçıvan ilə ölkənin digər regionları arasında əlaqəyə imkan verən 130 km-lik dəmir yolu işğal edilmişdir. Yuxarı Qarabağ torpaqlarının Ermənilər tərəfindən işğal edilmiş olması səbəbiylə, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər regionları arasında avtomobil və dəmir yolu nəqliyyatı mövcud deyildir.

Dövrümüzdə Naxçıvana sərnişin və yük nəqliyyat imkanı ancaq İran ərazisindən mümkündür. Nəqliyyatdakı bu çətinlik dövlət büdcəsində ildə 2.5 milyon dollar itkiyə səbəb olur. Yenə bu nəqliyyat problemini həll etmək məqsədiylə Bakı-Naxçıvan hava yolu nəqliyyatına qoyulan transfer xərclərinin də dövlət büdcəsinə gətirdiyi əlavə yük təqribən ildə 10 milyon dolar təşkil edir.

- *Fikir dəyişikliyi:*

Sovet rejimindən, sərbəst bazar iqtisadiyyatına və demokratiyaya keçid prosesində fikir dəyişikliyi hələ baş verməmiş, daha doğrusu tamamlanmamışdır. Sovet sisteminə bənzər bir nəzər nöqtəsiylə problemlər dəyərləndirilir və həll edilir. Bu isə, iqtisadi baxımdan bazar iqtisadiyyatının ölkədə yerləşməsini gecikdirir. Əlbətdə ki fikir dəyişikliyi bir prosesdir, vaxta ehtiyacı vardır.

10.3. TƏHDİDLƏR

10.3.1. İqtisadi Təhdidlər

- *Neft qiymətlərindəki dalğalanmalar:*

Neft qiymətlərindəki dalğalanma iqtisadi baxımdan ən əsas təhdidlərdir. Hər nə qədər son illərdə qiymətlərdə yüksəlmə baş verirsə də,2014-cü ildən əhəmiyyətli dərəcədə azalması iqtisadiyyata mənfi təsir təhlükəsi mövcuddur. Qiymətlərdəki gözlənilməyən azalma ölkənin gəlirlərində mühüm problemlərə səbəb ola biləcəkdir.

Əslində qiymətlərin yüksək olması da iqtisadi performans zəifliyinə səbəb olaraq, qeyri-neft sektorlarının inkişafı üçün lazımi diqqətin verilməməsinə də səbəb ola bilər.

10.3.2. İqtisadi Olmayan Təhdidlər

- *Yuxarı Qarabağ probleminin davam etməsi:*

Yuxarı Qarabağ hələ erməni işğalından azad edilməmişdir. Bu regiona yaxın sərhədlərdə müəyyən vaxtlarda münaqişələr də olur. Problemin dialoq ilə həll edilməməsi halında güc istifadə edərək işğal edilən torpaqların alınması qərarlılığı, ölkənin bir müharibə ilə qarşı qarşıya olması deməkdir. Bu problem xarici sərmayədar baxımından, xüsusilə qeyri-neft sektorlarına sərmayə qoymaqda yayındırıcı bir təsirə səbəb olur.

2016-cü ilə qədər qoyulan 150-160 milyard dollarlıq sərmayənin 70%-i xarici investisiyadır. Xarici investisiyalardan birbaşa investisiyaların isə sadəcə 27%-i qeyri-neft sektorlarına istiqamətlənmişdir. Yerli sahibkarların da qeyri-neft sektorlarına ciddi şəkildə investisiya qoymadığı görülür. 2007-ci ildən etibarən yerli sərmayənin xarici sərmayəni üstələdiyi görülməkdədir.

- *Sərhəd ölkələrin vəziyyəti:*

Digər sərhəd dövlətlərindən; Gürcüstanda müəyyən vaxtlarda baş verən siyasi və sosial problemlər, Rusiya ilə sərhəddə olan Dağıstan Muxtar Respublikasında Çeçenistan problemi səbəbiylə müəyyən vaxtlarda baş verən hadisələr və İranın siyasi strukturu səbəbi ilə xarici dünya ilə həssas əlaqə içərisində olması xarici və yerli sərmayədarlar üçün mənfi təsir göstərir. Azərbaycana qoyulacaq investisiya, xüsusilə böyük həcmli investisiyalar, sadəcə ölkə daxili bazar potensialı diqqətə alınaraq həyata keçirilmək istənilməyəcəkdir. İnvestor regiondakı digər ölkələri də diqqətə alaraq investisiya qoymaq istəyəcəkdir. Azərbaycanın sərhəd ölkələrində müəyyən vaxtlarda baş verən hadisələr sərhəddə problemlərə səbəb olur, xarici ticarətə mənfi şəkildə təsir edir. Və ya həssas əlaqələr içərisində olunması isə xarici ticarətə mənfi təsir etdiyindən xarici sərmayədara yenə mənfi şəkildə təsir göstərəcəkdir.

- *Xəzərin status problemi:*

Xəzər dənizinin statusunun müəyyən edilməməsindən qaynaqlanan problemlər də ölkə iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. Bəzi neft yataqlarının mübahisəli olması səbəbiylə, neft şirkətləri həmin yataqlarda neft hasil etmək istəmirlər.

Neft və təbii qaz ehtiyatlarıyla yanaşı çox mühüm balıq və kürü potensialına sahib olan Xəzərin bu iqtisadi imkanlarından da faydalı şəkildə istifadə edilmir.

Digər tərəfdən Xəzərdə çevrə çirkirliliyi problemi də zərərli xarici təsir olaraq iqtisadiyyata mənfi təsir göstərir.

Status problemi Xəzərdə dəniz nəqliyyatının inkişaf etməsinə də əngəl olur.

- *Dəniz və okeana çıxışının olmaması:*

Ölkənin dəniz və okeana çıxışının olmaması isə qitələrarası nəqliyyatda dəniz yolu nəqliyyatından faydalana bilməməsinə səbəb olur.

10.4. FÜRSƏTLƏR

10.4.1. İqtisadi Fürsətlər

- *Dünya iqtisadiyyatına inteqrasiya səviyyəsi:*

Qloballaşma prosesinə sürətlə uyğunlaşaraq, region ölkələri ilə müqayisədə, dünya iqtisadiyyatına inteqrasiyada xarici ticarət, xarici investisiyalar, beynəlxalq iqtisadi təşkilatlarla əlaqələr, regional ittifaqlara qoşulma baxımından gəldiyi yerin daha yüksək olduğu görülür.

Xarici iqtisadi əlaqələrdə ölkənin coğrafi baxımdan əlverişli olması, böyük enerji kompleksləri, neft və neft ekipmanları sənayesi, kimya, elektronik və şərabçılıq sanayesi, nəqliyyat infrastrukturu və xammal ehtiyatlarının zənginliyi, istehsalın kifayət qədər olmaması, ucuz əmək kimi faktorlar əsas təsiredici ünsürlər olmuşdur.

Xarici ticarətdə 150-dən çox ölkə ilə iqtisadi münasibətə girən Azərbaycan bir çox beynəlxalq və bəzi regional təşkilatların üzvüdür.

İmzalanan neft müqavilələri, neft müqavilələrinə dəstək verən ölkələr, ölkələrə aid neft şirkətləri və qoyulan investisiyaların vermiş olduğu inam mühiti də ölkədə mövcuddur.

- *Sərbəst bazara keçiddə regiondakı ölkələrə görə daha irəlidə olması.*

Sərbəst bazar iqtisadiyyatına keçid prosesində, regionda müstəqilliyini əldə edən yeni respublikalarla müqayisə edildikdə, hüquqi və nəzəri infrastrukturu reallaşdırmaqda daha irəlidə gedir.

- *Müstəqillik əldə edən ölkələr arasında ən çox xarici investisiyanın qoyulduğu ölkə olması:*

Regionda müstəqilliyini əldə edən digər ölkələr ilə müqayisə edildikdə ən çox xarici investisiyanın Azərbaycana qoyulduğu görülür. Bu isə neft hasilatına başlanmasından sonrakı prosesdə, digər sektorlara investisiya qoyulmasında, investor üçün müsbət bir göstərici olacaqdır.

- *Neft və təbii qaz ixracatçısı ölkələr arasında qərarlaşması:*

Neft yataqlarının kəşfindən sonra görülən işlərlə, 2005-ci ildən etibarən neftin, 2006-cı ildən etibarən isə təbii qaz ixrac edən ölkələr arasında qərarlaşması, ölkəyə xarici investisiyanı çəkmək və dünya iqtisadiyyatına inteqrasiya etmək baxımından ən mühüm fürsatlərdən biridir.

10.4.2. İqtisadi Olmayan Fürsətlər

- *Tarixi keçid və ticari yollar üzərində olması:*

Coğrafi mövqeyi ilə Azərbaycan, iki qitəni və üç dəniz hövzəsini bir-birinə bağlayan Yeni İpək Yolu kimi çox mühüm tarixi və ticari yolların keçid güzərgahında yerləşir.

Əsrlər boyu şərqin zənginliklərini qərbə daşıyan karvanların keçdiyi, beş Türk respublikasıyla yanaşı, Tacikistan, Gürcüstan və Ermənistanı da əhatə edən, Qaradənizdən Çinə tarixi İpək Yolunun XXI əsrə bir rabitə, nəqliyyat və enerji dəhlizi olaraq daşınmasını məsləhət görən və 1998-ci ildə Bakıda imzalanan müqavilə ilə Azərbaycan qlobal iqtisadi münasibətlər zəncirinə yeni bir halqa əlavə etmişdir.

- *Stratejik mövqeyi:*

Asiya ölkələrinin Avropaya keçid dəhlizində olması ilə yanaşı İrana və Rusiyaya sərhəd olması səbəbiylə də stratejik mövqeyi etibariylə ABŞ və Avropa ölkələri üçün əhəmiyyət daşıyır.

10.5. TƏKLİFLƏR

Yuxarıda SWOT analizi çərçivəsində Azərbaycan iqtisadiyyatının ölkə iqtisadiyyatı baxımından daxili imkanlarına baxan tərəfləriylə güclü və zəif tərəfləriylə yanaşı xarici dünyaya baxan tərəfləriylə fürsət və təhdidlər əsas xətləriylə sıralanmışdır.

Xarici və yerli investorların qoyacaqları investisiyalara dair verəcəkləri qərarlar baxımından ilk stratejik addımı, ölkə iqtisadiyyatının ölkədaxili güclü və zəif tərəfləri və ölkə xaricinə baxan tərəfləriylə fürsət və təhdidləri diqqətə alaraq atmaları uyğun olacaqdır. Güclü tərəflərin fürsətlərlə uyğunlaşan sahələrə investisiya qoyulmasının planlanması düzgün olacaqdır. İnvestorlar ancaq bu addımdan sonra verəcəkləri qərar çərçivəsində alt sektor, məhsul və region həcmində qərar vermələri mümkün olacaqdır. İlk addımdan sonra hüquqi və dip-

lomatik dəstək və inamla yanaşı fərdi münasibətlərin vacibliliyinə də əlavə diqqət çəkmək lazımdır.

Yuxarıdakı analizdə diqqət çəkilən güclü və zəif tərəflər ölkənin iqtisadi inkişafında hansı sektorlara və nə şəkildə, ölkənin fürsət və təhdidləri isə həm iqtisadi inkişaf, həm də dünya iqtisadiyyatına inteqrasiya baxımından siyasi iradə tərəfindən alınacaq qərarlar, həyata keçirdiləcək proqramlar, müəyyənləşəcək layihələr üçün də əhəmiyyət kəsb edir.

Ölkə iqtidarı güclü tərəflərlə fürsətlərin uyğunlaştıracaq, bir başqa ifadəylə iqtisadiyyatın güclü tərəflərini fürsətlərdən faydalanacaq şəkildə istifadə edəcək qərarlar almalı və tətbiq etməlidir. Digər tərəfdən zəif tərəfləri güclü tərəflərə çevirəcək, təhdidlərin güclü tərəflərlə bütünləşdirilə biləcək fürsətlərə çevriləcəyi stratejik qərar və siyasətlər almalıdır.

Ölkə iqtidarının lazımi investisiya mühitinin yaradılmasında daha realist, qərarlı və inam verici addımları atması, təşviq etməsi, investisiya mühitinə mənfi şəkildə təsir edən zəif tərəfləri və təhdid edən ünsürləri aradan qaldırıcı iqtisadi, siyasi və sosial siyasətlər müəyyən etməsi və daha da əhəmiyyətlisi müəyyənləşdirdiyi siyasətlər çərçivəsində praktiki addımlar atması vacibdir.

Azərbaycanda xüsusiylə neft qiymətlərindən dolayı neft gəlirlərindəki azalma ölkəni təcili iqtisadi reformlara getməyə məcbur edir.Büdcənin neftdən asılılığını aradan qaldırmaq üçün qeyri neft sektorunun inkişafı zəruridir. Bu istiqamətdə 2016-cı ildə bir çox islahat və yeniliklər həyata keçirilir.Prezident İlham Əliyevin son sərəncamlari qeyrə neft sektorunun inkişafina yönəlik mütərəqqi addımlardır.Eyni zamanda dövlət sektorunda bürokrasiyanın aradan qaldırılması məqsədi ilə aparılan reformlar, ASAN xidmətin fəaliyyət sferasının artırılması, lisenziyaların sayının azaldılması, sahibkarlıq subyektlərinə yoxlamaların və haqsız müdaxilələrin aradan qaldırılması bu istiqamətdə mütərəqqi addımlardandır.

Cədvəl 28. SWOT Analizi ilə Əlaqədar Qiymətləndirmə

	MÜSBƏT	MƏNFİ
DAXİLİ	**GÜCLÜ TƏRƏFLƏR** **Makro iqtisadi** - Ölkədə qiymətlərin stabilliyi və ümumi olaraq makro iqtisadi stabilik şəraitinin mövcudluğu. - Xarici borcların ÜDM-dəki payının azlığı (12.4%). - Ucuz kadr potensialı. **Sektoral və Regional** - Kənd Təsərrüfatı və heyvandarlıq sahələrində əlverişli təbii iqlim və münbit coğrafi mövqeyinə sahib olması. - Turizmin inkişafına əlverişli təbii, tarixi və mədəni sərvətlərə sahib olması. - Ərzaq sənayesi üçün lazım olan xammal olaraq aqrar və heyvandarlıq məhsullarının istehsalına münbit şəraitin olması. - Güclü bir neft və təbii qaz sektorunun mövcud olması. - Neft-kimya sənayesinin inkişafı üçün lazımi xammalların və məlumat və kadr bazasının ölkədə lazımi səviyyədə olması. - Hökümətin iqtisadi inkişafı təşviq siyasətinin mövcud olması. - Nəqliyyat və kommunikasiya sektorlarının inkişaf potensialı. - Maliyyə və bank sektorunun inkişaf potensialı. - Tikinti sektoru və inşaat materialları istehsalı üçün inkişaf potensialı. - Xəzər dənizinin balıqçılıq və kürü istehsalında əlverişli mövqeyi. **İqtisadi Olmayan** - Əhalinin təhsil səviyyəsi. - Siyasi stabilliyin və iradənin mövcudluğu.	**ZƏİF TƏRƏFLƏR** **Makro iqtisadi** - İşsizlik problemi. - Təhsilli və keyfiyyətli əməyin ölkə xaricinə köçü. - İri dölət müəssisələrinin özəlləşdirmə prosesinin yavaş getməsi. - Bürokrasiya və inhisarçılıq meylləri. - İxracın və dövlət büdcəsinin neft gəlirlərindən asılı olması. - Gömrük məntəqələrindəkı problemlər. - Gəlir səviyyəsinin aşağı, gelir bölgüsünün qeyri-mütənasib olması. - Valyuta kursunda dalğalanma müşahidə olunma ehtimalıyla yerli valyutaya olan inamın azlığı. - Kölgə iqtisadiyyatı. - Monopoliya və haqsız rəqabət zəmininin olması. **Sektorlar və Regional** - İnfrastruktur əksikliyi və köhnə texnologiya. - Neft və təbii qaz sektoruna indeksli bir iqtisadi sistem formalaşdırılması səbəbiylə digər sektorların diqqətdən kənarda qalması. - Maliyyə sektorunun və malıyyə bazarlarının lazımi səviyyədə inkişaf etməmiş olması. - Sektoral inhisarının mövcud olması. - Holland Sindromu təhlükəsi. - Regional inkişafda qeyri-bərabərlik. **İqtisadi olmayan** - Regionlar arası nəqliyyat problemi. - Zehniyyət dəyişikliyi. - Mütəxəssis qıtlıüı və idarəetmədə müdaxilələrin çoxluğu - İsraf və bədxərclilik meylləri - Bürokratik baryerlər

	FÜRSƏTLƏR	TƏHDİDLƏR
X A R İ C İ	**İqtisadi** - Sərbəst bazar iqtisadiyyatı sisteminə keçiddə region ölkələrinə görə daha irəlidə olması. - Post Sovet məkanındakı ölkələrə görə xarici investisiyanın həcminə görə qabaqcıl mövqeyi - Dünya iqtisadi sisteminə sürətli şəkildə inteqrasiya. - Neft və təbii qaz ixrac edən ölkələr arasında yer alması. **İqtisadi olmayan** - Tarixi keçid və ticarət yolları üzərində olması. - Stratejik mövqeyi. - Coğrafi mövqeyi	**İqtisadi** - Neft qiymətlərindəki dalğalanmalar. - Neft qiymətlərinin azalması fonunda neft gəlirlərinin azalması - Neft sektoruna bağlılıq və neft hasilasının azalması - Son illərdəki devalvasıya sonrası iqtisadiyyatdakı dollarlaşma prosesi və manata inamın azalması - Dünyadakı maliyyə böhranı və iqtisadi tənəzzüldən dolayı iqtisadiyyatdakı böyümənin yavaşlaması **İqtisadi olmayan** - Dağlıq Qarabağ probleminin davam etməsi. - Sərhədyanı ölkələrin vəziyyəti. - Xəzərin status problemi. - Dəniz və okeanlara birbaşa çıxışının olmaması.
	MÜSBƏT	**MƏNFİ**

ONBİRİNCİ FƏSİL

AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ MÜNASİBƏTLƏRİ

Azərbaycanın 18 oktyabr 1991-ci ildə elan etdiyi müstəqilliyini ilk olaraq tanıyan Türkiyə, Azərbaycanın siyasi müstəqilliyinin güclənməsinin, iqtisadi müstəqilliyini həqiqi mənada əldə etməsi və iqtisadi inkişafa nail olması ilə mümkün olacağını nəzərdə tutaraq, sahib olduğu iqtisadi imkan və təcrübələri, dövlət və özəl sahibkarlıq olaraq Azərbaycanla bölüşməyə başlamışdır. Türkiyə Azərbaycanda 25.05.1991 tarixindən etibarən konsulluq və 14.01.1992 tarixindən etibarən isə səfirlik olaraq təmsil edilməyə başlanmışdır. Beləcə Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq praktiki olaraq nəqliyyat, kommunikasiya, inşaat, neft, təhsil kimi bir çox sektorda müttəfiqliyə gedilmişdir.

Aşağıda Azərbaycan və Türkiyə arasındakı iqtisadi və ticari münasibətlər, münasibətlərin gələcək dövrlərdəki gələ biləcəyi yerlər və iki ölkə arasındakı sərmayə hərəkətləri ələ alınacaqdır.

11.1. İQTİSADİ MÜNASİBƏTLƏRİN HÜQUQİ TƏMƏLLƏRİ

Tarixi, coğrafi və mədəni dəyərləri ilə bir-birinə bağlı olan iki ölkə arasında, Azərbaycanın müstəqilliyindən etibarən müxtəlif sahələri əhatə edən və eyni zamanda iki ölkə arasındakı iqtisadi və ticari münasibətlərin hüquqi infrastrukturunu əmələ gətirən təqribən 150 müxtəlif müttəfiqlik, müqavilə və protokollar imzalanmışdır[275].

Azərbaycan və Türkiyə arasında iqtisadi və ticari münasibətlər 01.11.1992 tarixli "Ticarət və İqtisadi Müttəfiqlik Müqaviləsi" çərçivəsində davam edir. Digər tərəfdən investorlar üçün əhəmiyyət daşıyan "Azərbaycanla Türkiyə Arasında İkili Vergiləndirmənin Qarşısının Alınması Müqaviləsi" 09.02.1994 tarixində, "İnvestisyaların Qarşılıqlı Təşviqi və Qorunması Haqqında Müqavilə" 09.02.1995 tarixində imzalanmışdır.

Ticari və iqtisadi münasibətlərin inkişaf etdirilməsində mühüm vasitələrdən biri olan Birgə İqtisadi Komissiyası (KEK) Birinci Dövr İclası Protokolu 20.02.1997 tarixində imzalanmış və münasibətlərin inkişaf etdirilməsi yolunda qərar alınmışdır. İkinci Birgə İktisadi Komissiya İclas Protokolu isə 30.01.2002 tarixində imzalanmışdır. Həmin bu protokol iki ölkə arasında KOSGEB, OSTİM

[275] Bahri Özdemir, "Azerbaycan Ekonomisi ve Azerbaycan-Türkiye Ticarət İlişkileri", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Mart-2003, ss.24-25.

və MKE kimi təşkilatlar arası müttəfiqliyi istiqamətində əvvəlcədən atılan addımların gələcək illərdə həyati olma baxımından əhəmiyyət daşıyır.

11.1.1. Kənd təsərrüfatı Sahəsində Müttəfiqlik

Kənd təsərrüfatı sektorunda müttəfiqlik, hər iki ölkə arasında 09.02.1994 tarixində imzalanan "Kənd təsərrüfatı Sahəsində Elmi, Texniki və İqtisadi Müttəfiqliyə Dair Protokol"a əsasən davam etdirilir. Aqrar sektor İcra Komitəsi İkinci Toplantısı 17-21 iyul 2001 tarixlərində Bakıda hazırlanmış bir protokol imzalanmışdır.

Türkiyə kənd təsərrüfatı Nazirliyi ilə Birləşmiş Millətlər Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən Azərbaycanda ərzaq güvənliyinin əldə edilməsi üçün bir layihə hazırlanmışdır[276].

Azərbaycanda yaşayan Axısqa Türklərinə qarşılığı Türk Müttəfiqliyi və İnkişaf Agenti (TİKA) İdarəsi tərəfindən qarşılanmaq üzrə, T.C. Kənd təsərrüfatı Nazirliyi, Kənd Təsərrüfatı Müəssisələri Baş Müdirliyi tərəfindən 25 ton toxumluq buğda göndərilmiş və əkimi əsnasında müşavirlik xidməti təqdim edilmişdir.

Azərbaycanın Xaçmaz regionunda bir Azərbaycan-Türkiyə müştərək toxum müəssisəsi qurulmuşdur. 2005-ci ilə qədər arpa və buğda toxumları istehsal edən müəssisə, 2005-ci ildən etibarən qarğıdalı, günəbaxan, zeytun və digər bitkilərin də istehsalı üçün yoxlamalara başlanması planlanmışdır.

T.C. Kənd Təsərrüfatı Nazirliyi və TİKA ilə müttəfiqlik içərisində davam edən "Avrasiya Ölkələrində Kənd Təsərrüfatı Seminarlarını Araşdırma və İnkişaf Etdirmə Layihəsi" çərçivəsində Azərbaycan Bitki mühafizəsi və karantina laboratoriyalarının yenidən qurulması və müasirləşdirilməsi layihəsi davam edir.

11.1.2. Sənaye Sahəsində Müttəfiqlik

T.C. Sənaye və Ticarət Nazirliyi tərkibində olan Türk Patent İnstitutunun vəzifə sahələrinə daxil olan Sənaye Mülkiyyət Hüquqları səpgisində, Türk Respublikaları Patent təşkilatları arasında müttəfiqliyini başlatmaq və inkişaf etdirmək üçün 12 noyabr 1998-ci ildə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan və Tacikistan arasında niyət protokolu imzalanmışdır.

Türk Respublikaları ilə texniki müttəfiqlik sahəsində iqtisadi, ticari, texniki, təhsil mövzularında Azərbaycanın da tərkibində olduğu təhsil proqramı 22-28 may 2000 tarixində razılaşılmışdır.

11.1.3. Standartlar Sahəsində Müttəfiqlik

Azərbaycan Dövlət Standartlaşdırma və Meteoroloji Mərkəzi (Azərbaycan Standartlaşdırma İnstitutu-AZS) ilə Türkiyənin Türk Standartları İnstitutu (TSE) arasında ilk müttəfiqlik protokolu 1990-cı ilin dekabrında imzalanmışdır. Bu

[276] *Azerbaycan Ülke Raporu*, DPT Müsteşarlığı Dış Ekonomik İlişkiler Genel Müdürlüğü, Ankara, Mayıs-2002, s.22.

protokol və imzalanan digər protokollarda tərəflərin razılığı əsasına bağlı olaraq ticarətə mövzu olan mal və xidmətlərdə, beynəlxalq keyfiyyəti ifadə edən təşkilat, marka və sənədlərini tanıdıqları bildirilir.

Bu sahədə ən vacib inkişaf 1996-cı ilin iyunun 13-də imzalanan icra protokoludur. Bu müqavilə ilə hər iki ölkə, bir-birlərindən və ya üçüncü bir ölkədən gələn malların hər iki ölkənin əlaqədar təşkilatlarından sənəd aldıqları təqdirdə ölkəyə girişlərdə Standart Təşkilatlar tərəfindən ayrı bir nəzarətə tabe tutulmayacağı barədə razılığa gəliblər.

Azərbaycan qanunlarına görə idxalda standartlara uyğun sənədli mal gətirmə məcburiyeti var. MDB və Türkiyədən TSE sənədli mallar ölkəyə gəldikdə "Azərbaycan Standartlaştırma Meteoroloji və Patent Üzrə Dövlət Agentliyinə TSE sənədini verib AZS sənədi almalıdırlar. İmzalanan müqavilələr səbəbiylə digər ölkələrin əksinə bu mallar labororiyalarda test edilmirlər. Bu da Türkiyədən və digər MDB ölkələrindən gələn TSE sənədli mallara üstünlük verir.

1997-ci ildə Azərbaycanda təmsilçilik açan TSE, fəaliyyətlərini birbaşa tanıda bilmək imkanına qovuşmuşdur. TSE Azərbaycanda İSO sənədi verir. TSE-nin Azərbaycandakı ISO sənədləndirmə fəaliyyətlərinin əsas məqsədi, keyfiyyət səviyyəsi yüksək mal və xidmət istehsalının təşviq edilərək ölkə iqtisadiyyatının inkişafına kömək etməsi, müəssisələrdə keyfiyyət məfhumunun inkişaf edərək, mənfəətin, bazarın və məhsuldarlılığın artması, təsirli bir idarə etmənin əldə edilməsi, maya dəyərlərinin azalması, işləyənlərin razı qalması, qaynaqların optimum istifadəsi, müştəri məmnuniyyətilə yanaşı beynəlxalq səviyyədə qəbul edilən sistem sənədləndirmə işlərində Azərbaycanda nümunə olmaqdır[277]. Bundan əlavə Azərbaycanın da daxil olduğu "Regional Standartlaşdırma Birliyi (BASN)"nin fəaliyyətləri davam edir.

11.1.4. Enerji Sektorunda Müttəfiqlik

Azərbaycan və Türkiyə arasındakı stratejik baxımdan diqqət çəkən ən vacib iqtisadi müttəfiqlik enerji sektorundadır. Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti Layihəsi və Bakı-Tbilisi-Ərzurum Təbii Qaz Boru Xətti Layihəsi isə iqtisadi və stratejik əhəmiyyət kəsb edən enerji sektorundakı ən vacib iki layihədir.

Bu iki layihə xaricində Azərbaycanla müttəfiqlik sahələri arasında tərkibində olan və BOTAŞ-ın Türkiyə içində yeraltı anbarları hazır olana qədər Türkiyə xaricində anbar icarəyə götürmək strategiyası istiqamətində Bakının 50 km yaxınlığında yer altı anbarların kirayə edilməsi də mövzuya daxildir.

11.1.4.1. Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti Layihəsi

Bakı-Tbilisi-Ceyhan Neft Boru Xətti Layihəsi, 18 noyabr 1999-cu ildə İstanbulda keçirilən ATƏT Zirvəsində Azərbaycan, Türkiyə və Gürcüstan Hökümətləri arasında imzalanan "Hökümətlərarası Müqavilə" ilə fəaliyyətə keçmişdir.

---

[277] Yavuz Selim Çelebi, "Türk Standartları Enstitüsü ve Azerbaycan", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Bakı, Sayı:16, Ağustos-2004, s.22.

Azərbaycan tərəfindən 3 oktyabr 2000-ci ildə Layihəni dəstəkləmək üçün bir "Sponsor Qrup" yaradılmışdır. Əlaqədar qrup 17 oktyabr 2000-ci ildə imzalanan "Sponsor Qrup Maliyyə və Müttəfiqlik Müqaviləsi" ilə rəsmiyyət qazanmışdır. Bu qrupda ExxonMobil, Lukoil və Devon xaricində bütün AIOC üzvləri iştirak etmişlər.

11.1.4.2. Bakı-Tbilisi-Ərzurum Təbii Qaz Boru Xətti Layihəsi

Bakı-Tbilisi-Erzurum Təbii Qaz Boru Xətti Layihəsi ilə əlaqədar olaraq 18 Noyabr 1999-cu ildə, İstanbulda keçirdilən ATƏT Zirvəsində Türkiyə, Azərbaycan və Gürcüstan Enerji Nazirləri səviyyəsində aparılan müzakirələr nəticəsində imzalanan ilkin razılıq protokolu ilə ilk addım atılmışdır.

Əldə edilən razılıq çərçivəsində iki ölkə arasında Azərbaycan təbii qazının Türkiyəyə daşınmasına dair əməkdaşlığın 12 mart 2001-ci ildə "Hökümətlərarası Müqavilə" imzalanmışdır. İmzalanan müqavilə səpgisində BOTAŞ və SOCAR arasında 15 illik dövrü əhatə edəcək şəkildə təbii qazın alım-satımına dair əməkdaşlıq barədə razılığa gəlinmişdir.

11.1.5. Turizm Sektorunda Müttəfiqlik

Azərbaycan və Türkiyə arasında 1992-ci ildı Turizm Müttəfiqlik Müqaviləsi imzalanmışdır.

Azərbaycan turizm sektorunda işləyən işçilər Türkiyəyə təhsil almaq üçün gedirlər. Bundan əlavə imzalanan müqavilələr çərçivəsində, özəl şirkətlər tərəfindən Azərbaycan və Türkiyə arasında qarşılıqlı turlar təşkil olunur.

11.1.6. Mədənçilik Sektorunda Müttəfiqlik

Türkiyə Mədən Tədqiq və Axtarma İnstitutu Rəhbərliyinin 1994-1995-ci illərdə hər bir ölkənin yer elmləriylə əlaqədar təmsilçilərinin iştirak etdiyi "Türkçə Danışan Ölkələr Yer Elmləri və Mədəncilik Konfransı" olmuşdur. Konfransda bütün ölkələrin təbii resurs potensialları və mədənçilik fəaliyyətləri ilə əlaqədar müzakirələr aparılmışdır. Bundan əlavə, Azərbaycanın 1/500.000 miqyaslı mədən yataqları xəritəsi, "Azərbaycan Respublikası Dövlət Ehtiyatlar Komitəsi" ilə Türkiyə Mədən Tədqiq və Axtarma İnstitutu Rəhbərliyi tərəfindən müştərək iş olaraq nəşr olunmuşdur.

11.1.7. Təhsil Sektorunda Müttəfiqlik

Böyük Tələbə Layihəsi həcmində digər Türkiyə Respublikalarından olduğu kimi Azərbaycandan da Türkiyəyə bakalavr, magistratura və doktorantura təhsili almaq məqsədiylə tələbə gedir. Türk Respublikalarından Türkiyəyə təhsil almaq üçün gedən tələbələrin 11%-i azərbaycanlıdır.

Azərbaycandakı məktəblərin təmiri, dərs kitablarının qarşılanması, inventar alımı kimi ehtiyaclarının qarşılanması məqsədiylə Türkiyə 1993-2001-ci illər arasında 102.570 dollar kömək etmişdir. Bundan əlavə Türkiyə Dəyanət Vəqfı tərəfindən Bakı Dövlət Universiteti tərkibində İlahiyyat Fakultəsi açılmışdır.

Bununla yanaşı eyni təşkilat tərəfindən açılan Bakı Türk Lisəyi, həm azərbaycanlı tələbələrə həm də Azərbaycanda yaşayan türkiyəli tələbələrə təhsil vərir.

Sektoral analiz fəslində geniş olaraq yer verildiyi kimi, Türk iş adamları tərəfindən qurulan Çağ Öyrətim İşletmelerinə aid təhsil müəssisələri ölkə təhsil sektorunda mühüm yerə sahibdir. Bundan əlavə Türk Dünyası Araşdırmalar Vəqfi tərəfindən açılan Biznesin Təşkili və İdarə Edilməsi Fakultəsi isə, Azərbaycan İqtisadiyyat Universiteti tərkibində xidmət göstərir.

11.1.8. Nəqliyyat Sektorunda Müttəfiqlik

1 noyabr 1992-ci ildə Türkiyə ilə Azərbaycan arasında əhatəli bir Avtomobil Nəqliyyatı Müqaviləsi imzalanmışdır. Naxçıvan yolu ilə birbaşa əlaqə əldə edilmiş, ancaq bu Naxçıvandan o tərəfə getməmişdir. Türkiyə ilə avtomobil yolu əlaqəsi Gürcüstan və İran ərazilərindən mümkündür.

11.1.9. Gömrük Müttəfiqliyi

İki ölkə arasında 09.02.1994 tarixində imzalanan İnzibati Yardım Müqaviləsı çərçivəsində 1992, 1995 və 2000-ci illərdə (ECO ölkələriylə birlikdə) Azərbaycan gömrük fəaliyyəti üçün Türkiyə Gömrük Qanunları və İcraatlarının təqdim edildiyi seminarlar təşkil edilmişdir.

11.1.10. Sosial Müdafiə Sahəsində Müttəfiqlik

Türkiyə Respublikası Çalışma və Sosial Təhlükəsizlik Nazirliyi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasındakı müttəfiqlik 1993-cü ildə başlamışdır. Sosial müdafiə sahəsində iki ölkə arasında 1995-ci ildə müttəfiqlik protokolu, 1997-ci ildə Müttəfiqlik Müqaviləsı imzalanmışdır. 17 İyul 1998-ci ildə isə, iki ölkə vətəndaşlarının Sosial müdafiələri zəmanət altına alan Sosial Müdafiə Müqaviləsi imzalanaraq 9 Avqust 2001-ci ildə qüvvəyə minmişdir. Bu müqaviləni tamamlayan İnzibati Müqavilə isə 6 May 2004-cü ildə imzalanmışdır. Beləcə hər iki ölkə vətəndaşlarının Sosial Müdafiələri qarşılıqlı olaraq əldə edilmişdir[278].

11.1.11. Eximbank Krediti

1992-ci ilin noyabrında iki ölkə arasında hazırlanan razılaşma protokolu çərçivəsində Türk Eximbank, dövlət bankı olan Azərbaycan Beynəlxalq Bankına 250 milyon dollar kredit açmışdır. Ancaq açılan kreditin geri ödəməsində bəzi problemlər yaşanmışdır. Bu səbəblə 7 iyul 1995-ci ildə və 14 iyun 1996-cı illərdə imzalanan protokollarla borcun geri ödənilmə müddətinin uzadılmasına gedilmişdir. Nəhayət 2004-2005-ci illərdə aparılan müzakirələr nəticəsində, Azərbaycanın Türkiyəyə olan mübahisəli borc problemi haqqında iki dövlət razılığa gəlmişdir.

---

[278] İbrahim Kuluöztürk, "Türkiye-Azerbaycan Sosial Güvenlik Sözleşmesi", *Diyalog Azerbaycan İş Dünyasi Dergisi*, TÜSİAB Cemiyeti, Bakı, Sayı:16, Ağustos-2004, ss.24-26.

11.1.12. Türk Müttəfiqlik və İnişaf Agentinin (TİKA) Fəaliyyətləri

Türkiyə, Türk dilli dövlətlərə verdiyi əhəmiyyət çərçivəsində müttəfiqliyi gücləndirmək məqsədiylə 1992-ci ildə Xarici İşlər Nazirliyinə bağlı bir qurum olaraq TİKA-nı qurmuşdur. Bu təşkilat 1999-cu ildən etibarən isə, birbaşa Nazirliyə tabe olaraq fəaliyyət göstərir.

TİKA quruluşunun ilk illərində humanitar və maliyyə yardımları edərkən, daha sonra fəaliyyətlərini genişləndirərək texniki yardım və müttəfiqlik layihələrində cəmləşdirmişdir. Layihə mövzuları enerji, ətraf mühit, sənaye, kənd təsərrüfatı, şəhərləşmə, turizm, təhsil, səhiyyə, mədəniyyət, sənət kimi geniş bir sahəyə yayılır.

TİKA Azərbaycanda aşağıdakı sahələrdə fərqli layihələri həyata keçirtmiş və ya keçirdir:

- Təşkilati və İnzibati Strukturların İnkişaf Etdirilməsi Proqramları
- Avrasiya Ölkələrində Kənd Təsərrüfatı Sistemlərini Araşdırma və İnkişaf Etdirmə Proqramları
- Avrasiya Ölkələrində Sahibkarlığı və Kiçik və Orta Həcmli Sənayeni İnkişaf Etdirmə Proqramları
- Turizm və Xidmət Sektorunu İnkişaf Etdirmə Proqramları
- Sosial Müttəfiqlik Proqramları
- Təhsil və Mədəniyyət Müttəfiqliyi Proqramları

TİKA Azərbaycanda xüsusilə kənd təsərrüfatı sektorunda mühüm layihələri hayata keçirdir:

- Xaçmaz rayonunda bir Azərbaycan-Türkiyə müştərək toxum müəssisəsi qurulmuşdur. 2005-ci ilə qədər arpa və buğda toxumları istehsal edən müəssisə, 2005-ci ildən etibarən qarğıdalı, günəbaxan, soya və digər bitkilərin də istehsalı üçün yoxlamalara başlamışdır.
- Samux və Astarada 120 min dollar məbləğində zərərli bitkilərin müəyyən edilməsi və yox edilməsi məqsədiylə bir müəssisə qurulmağa başlanılmışdır.
- Torpaq tərkibinin araşdırılması məqsədiylə Gəncə və Qubada da yeni bir müəssisənin inşası planlanmışdır.

TİKA sosial sahədə yardım fəaliyyətləri çərçivəsində isə Gəncədə kimsəsiz uşaqlar üçün və Şəkidə əlil uşaqlar üçün müxtəlif binaların təmirini həyata keçirdir.

Azərbaycanda ilk dəfə internetin istifadəsinə dair layihəni də maliyyələşdirən TİKA, 2004-cü ildə turizm, sığorta və vergi sahələrində təhsil kursları təşkil etmişdir.

11.2. TİCARƏT MÜNASİBƏTLƏRİ

Azərbaycan və Türkiyə iqtisadiyyatları struktur və coğrafi mövqe etibariylə bir-birlərini tamamlayacaq xüsusiyyətdədirlər. Türkiyə iqtisadiyyatı xaricə meylli və istehsal sənayesi üstünlüklü bir struktur görüntüsü göstərərkən Azərbaycan iqtisadiyyatı daha çox xammal üstünlüklüdür.

Dünya iqtisadiyyatına inteqrasiya mərhələsində mühüm bir mövqe tutduğuna isbat olacaq şəkildə 2016-cı ildə 154 ölkə ilə iqtisadi əməkdaşlıq quran Azərbaycanın xarici ticarət həcmində Türkiyə mühüm yerə sahibdir.

Rəsmi statistikaya görə 2009-cü ildə, Azərbaycan və Türkiyə arasında illik ticarət həcmi təxminən 700 milyon dollar həcmində olmuşdur. Ancaq, başda kiçik həcmli ticarət olmaqla, qeyri-rəsmi ticari fəaliyyətlər də nəzərə alınarsa iki ölkə arasındakı xarici ticarət həcmi rəsmi rəqəmlərdən daha artıqdır.

Qeyri-rəsmi hesablamalara görə, bu rəqəm bir milyard dollardan çoxdur. Azərbaycanın ticarət həcminin cəmi 5 milyard dollar olduğu diqqətə alındıqda, Türkiyə ilə Azərbaycan arasındakı ticarət münasibətlərin həcminin yüksək olduğu ifadə edilə bilər. Yəni Azərbaycanın ticarət həcminin təxminən 20%-i Türkiyənin payına düşür. Əlbətdə iki qardaş ölkə arasındakı ticarət həcmini daha da artırmaq mümkündür. 2016-ci ilə qədər iki ölkə arasındakı ticarət həcminin 5 milyard dollara çatdırılması planlaşdırılır. Ölkələr arasında bəzi problemlər həll edilərsə iki ölkə arasındakı ticarət həcminin 5-7 milyard dollara çata biləcəyi proqnozlaşdırılır.

Azərbaycanın Türkiyədən idxal etdiyi mal qrupları arasında ilk sıranı ərzaq mallları almaqdadr. Türkiyədən ixrac edilən əsas mallar isə, bunlardır: yağ, təzə və dondurulmuş toyuq əti, qənd və şəkər tozu, şokolad və qənnadı məmulatları, meyvə suları, süd və süd məhsulları, yumurta, makaron, kartof, diyər ərzaq məhsulları, dəftərxana ləvazimatı, duz, kükürd, gips, sement, elektrik enerjisi, boya, boya qatqı maddələri, yuyucu toz, müxtəlif kimyəvi məhsullar, kağız, karton və karton məhsulları, divar kağızı, dəmir polad əşyaları, toxuculuq dəzgahları, minik və yük avtomobilləri və avtomobil ehtiyat hissələri, mebel, dəri məmulatları, trikotaj məhsulları, hamam-mətbəx avadanlıqları, təkər, plastik əşya, elektron və məişət avadanlıqları, telekommunikasiya avadanlıqları və s.

Azərbaycanın Türkiyəyə ixracında isə əsas mallar bunlardır: Neft və neft məhsulları, pambıq və pambıq məhsulları, polietilen, şəkər çuğunduru, xam dəri, yun, spirtli içkilər, biyan kökü, alma şirəsi, ipək, xalça, digər toxuma məhsulları, mis, alüminium, titan, yanğın söndürmə cihazları və s.

1991-ci ildən etibarən inkişaf edən siyasi və iqtisadi münasibətlərə paralel olaraq Türk iş adamlarının Azərbaycana böyük marağı və Türk şirkətlərinin Azərbaycan bazarında şöbə açaraq Türkiyədən idxal nəticəsində müntəzəm bir yüksəlmə içərisində reallaşan iki ölkə ticarəti Türkiyə lehinə bir üstünlük göstərir.

Türkiyənin müstəqilliyinin ilk illərində Azərbaycanla iqtisadi və ticari münasibətlərində olan üstünlüyü müəyyən vaxt ərzində həm digər ölkələrin bu bazara girməsi və həm də yerli müəssisələrin inkişaf etməyə başlaması səbəbiylə azalmağa başlamışdır.

Türkiyənin Azərbaycana olan ixracındakı azalmanın əsas səbəblərindən biri də Türk inşaat firmalarının həyata keçirdikləri inşaat işlərinin böyük həcmdə tamamlanmış olması və yeni layihələrdə isə hələlik iştirak etməmələridir.

Azərbaycan və Türkiyə arasında birbaşa avtomobil yolu əlaqəsinin olmaması iki ölkə arasındakı münasibətlərin xüsusiylə də iqtisadi və ticari münasibətlərin tez-tez çətinliklərə məruz qalması və digər ölkələrə (Rusiya və İran) görə Türkiyənin qeyri rentabelli vəziyətə düşməsinə səbəb olur. Belə ki, Türkiyə-Azərbaycan münasibətlərində bu vəziyyət iqtisadi və siyasi münasibətlərin üzərində üçüncü ölkələrin təsirini də müntəzəm olaraq gündəmə gətirir. Avtomobil yolu əlaqəsinin Gürcüstanın qoyduğu yüksək vergilər və İranın gətirdiyi tonnaj məhdudlaşdırmaları, Azərbaycanın eyni zamanda MDB üzvü olması və MDB ölkələri ilə gömrük müqavilələrinin mövcudluğu Azərbaycanla Türkiyənin iqtisadi və ticari münasibətlərində bəzi çətinliklərə səbəb olmuşdur. Türk yük maşınlarına tətbiq olunan yüksək dərəcəli yol vergiləri, gömrük problemləri, bürokratiyanın çoxluğu, qanunvericilik bazasındakı əksikliklər, "kölgə iqtisadiyyatının" gətirdiyi haqsız rəqabət mühiti, gizli monopollaşma, bəzi dövlət məmurlarının öz mənfəətlərini məqsəd güdərək özəl sektor üzərində qurduğu təyziq imkanları və bəzən bazar iqtisadiyyatının məntiqiylə uyğun gəlməyən bəzi qanunlar və tənzimləmələr Azərbaycanda türkiyəli iş adamlarının rəqabət imkanlarını çətinləşdirir və ölkəyə maraqlarını azaldır[279].

11.3. TÜRKİYƏ İNVESTİSİYALARININ AZƏRBAYCANDAKI ÜSTÜNLÜYÜ

Müstəqilliyin ilk illərindən bü günə qədər, türk iş adamları Azərbaycana investisiya qoyaraq hər iki ölkənin iqtisadi inkişafına öz tövhələrini verir.

Keçid dövründə olan və investisiya qoyuluşlarına ehtiyacı olan Azərbaycana türk sərmayəsinin köməyi əhəmiyyətli dərəcədədir. Türk iş adamları daha çox qeyri-neft sektoruna qoyduqları investisiyalarla diqqət çəkirlər[280]. Azərbaycandakı türk investisyaları ölkədəki qeyri–neft sektoruna qoyulan investisiyalar içində ilk sırada gəlirlər. Azərbaycanda fəaliyyət göstərən türk firmalarının böyük bir hissəsi ticarətlə məşğul olur və ya kiçik və orta həcmdə investisyaları seçirlər. Bu firmaların fəaliyyət sahələri; neft, telekommunikasiya, bank və sığorta sektoru, ərzaq malları istehsalı, təhsil, nəşriyyat, toxuculuq və geyim səna-

[279] Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türkiye İle Ekonomik İlişkileri", www.ceterisparibus.net/arsiv/s_ogan.pdf. (13.03.2003).
[280] Musayev, s.12.

yesi, nəqliyyat, avtomatika sənayesi, meşə materialları, dəmir-polad, digər metallar, inşaat, inşaat materialları və mənzil tikintisi xidmətləri kimi sektorlarıdır.

Azərbaycanda fəaliyyət göstərən 2500 xarici şirkətin, mindən çoxu Türkiyəli iş adamları tərəfindən qurulmuşdur. Bunlardan 380-nin tamamilə Türk sərmayəli, 370-i Azərbaycan-Türkiyə müttəfiqliyi, 60-ı isə təmsilçilikdir. Türk firmalarından 300-dən çoxu fəal olaraq ölkədə fəaliyyət göstərir.

Türk iş adamları müasir otellər, banklar, sığorta şirkətləri, istehsal və təhsil müəssisələrini Azərbaycana qazandıraraq bir ilkə imza atmışdırlar. Azərbaycanın Ümumi Daxili Məhsulunun 7%-ni təşkil edən Türkiyə sərmayəli şirkətlər Azərbaycan iqtisadiyyatına məşğulluq nəzər-nöqteyindən, yeni iş yerlərinin açılması səbəbiylə mühüm bir köməklik göstərir.

Azərbaycanın dövlət büdcəsinin mənbələri içində Türk sərmayəsinin 6% həcmində bir paya sahib olduğu da görülməkdədir[281].

Türkiyə sərmayədarları tərəfindən Azərbaycanda açılan müəssisələrdə 40-45 min Azərbaycan, 5 min Türkiyə vətəndaşı işləyir.

Ziraat Bankının ortaqlığı ilə qurulan "Azər-Türk Bank" bank sektorundakı əməkdaşlığın ilk nümunəsidir. Türk sərmayəli Koçbank və Cibank, Günay Anadolu Sığorta və Başak İnam Sığorta maliyyə sistemində xidmət verən müəssisələrdir.

Türk şirkətləri eyni zamanda Bakıdan Gürcüstan sərhəddinə qədər uzanan yolun yenidən qurulmasında da mühüm rol oynayırlar.

Ancaq son illərdə Azərbaycan və Türkiyə arasındakı ticarət həcmində tənəzzül yaşanarkən, bir tərəfdən də Azərbaycana Türkiyənin investisyalarının həcmində azalma və Türk sərmayəli şirkətlərin sayısında azalma görülür. Misal üçün, 1997-ci ildə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar içində Türkiyənin payının 14% olmasına baxmayaraq, 2007-ci ildə bu rəqəm 7.1% olmuşdur[282].

Qısacası, Türkiyə sərmayəsi, xarici sərmayə olmaqdan çox "bir millət iki dövlət" ifadəsiylə ayaqlaşacaq şəkildə dost və qardaş sərmayə olaraq Azərbaycan iqtisadiyyatının inkişafında və dünya iqtisadiyyatına inteqrasiyasına müsbət təkan verir.

11.3.1. Türk İnvestisyalarının Sektoral Bölgüsü

Azərbaycanın xarici investisyaya açılan neft və təbii qaz sektorunda qurulan beynəlxalq konsorsiyumların dördündə Türkiyə Petrolları Anonim Ortaklığı (TPAO) iştirak edir. TPAO, Azərbaycanın neft və təbii qaz ehtiyatlarının istifadəsi üçün hazırlanan və ümumi investisya həcmi; 11 milyard dollar olan

---

[281] *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Sayı:10, Ekim-2001, s.15.

[282] S. Eyyuboğlu, "Türkiye Azerbaycanla İqtisadi Elaqelerini İnkişaf Etdirmek Niyyetindedir", *525-ci Qezet*, 01.11.2003.

(Azəri, Çıraq və Günəşli) layihəsində 6.5%; layihə dəyəri 4.1 milyard dollar olan Şahdeniz layihəsində 9%; 2.5 milyard dollar olan Kürdaşı layihəsində 5%; 10 milyard dollar olan Araz-Alov-Şərq layihəsində isə 10% həcmində pay almışdır. Bəhs edilən layihələr çərçivəsində Türkiyənin 2007-ci ilin sonlarında qoyduğu investisya həcmi 2 milyard dollardan artıq olmuşdur. Eyni zamanda Pet Holdinq və Atilla Doğan adlı iki özəl Türk Şirkəti, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə qurduqları şirkətlər (Joint Venture) ilə quruda (Mişovdağ və Xıllı Babazanan sahələri) neft çıxarırlar.

İmzalanan neft müqavilələrini dəstəkləyən və neftin dünya bazarlarına çatdırılmasında Bakı-Ceyhan neft boru kəmərinin ən qısa zamanda fəaliyyətə başlamasıyla Azərbaycanın iqtisadi inkişafında mühüm bir yer alması proqnozlaşdırılan Türk iş adamlarının Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorlarına qoyduğu investisya həcmi isə 4 milyard dollar həcmindədir. Reallaşdırdıqları investisyalarla Türk iş adamları, qeyri-neft sektorlarına ən çox investisiya qoyan xarici sərmayədarlardır. Qeyri-neft sektorlarına qoyulan investisyalar içərisində Türkiyənin payı 40% həcmindədir. Türk investisyalarının böyük bir hissəsi inşaat, kommunikasiya, nəqliyyat və ərzaq sənayesinə istiqamətləndirilmişdir.

Azərbaycanda neft və təbii qaz hasilatı xaricindəki həyata keçirilən Türk investisyalarının sektorlar üzrə bölgüsü belədir[283]:

1. Sənaye Sektoru:

Azərbaycan sənaye sektorunda boya, alüminium, metallurgiya, kabel, akumlyator v.b. bir çox fərqli sahələrdə istehsal və montaj fəaliyyətlərində olan türk investisyalarının şirkət sayına görə nisbəti 19%-dir. İnvestisya həcmi təxminən 410 milyon dollardır. Şirkətlərdə işləyən işçi sayı isə 10.000 həcmindədir.

2. Ticarət Sektoru:

Türk investisyaları bu sektorda daha çox ərzaq, toxuculuq, mebel və təsərrüfat mallarının satışında ixtisaslaşmışdır. Ticarət sektorunun şirkət sayına görə 30%-lik bir paya sahibdir. İnvestisya həcmi təxminən 370 milyon dollar olan şirkətlərdə işləyən işçi sayı isə 16.000-ə yaxındır.

*3. Xidm*ət *Sektoru:*

Xidmət sektorundakı Türk investisyalarının payı, şirkət sayına görə 26%-dır. Səhiyyə, təhsil, otel, restoran, bank və sığorta xidmətləri göstərən xidmət sektorundakı şirkətlərə qoyulan investisya həcmi təxminən 310 milyon dollardır. Xidmət sektorundakı müəssisələrdə işləyən işçi sayı isə 10.000-ə yaxındır.

[283] 'Sektörel Bazda Azerbaycan'daki Türk Yatırımları', *TÜSİAB 10. Yıl Tanıtım Kataloğu*, Aralık-2004, ss.110-112; 'Sektörel Bazda Azerbaycan'daki Türk Yatırımları', *TÜSİAB Ekonomi ve Haber Bülteni*, No:19/136, 29 Haziran 2004. s.1.

4. *Nəqliyyat və Kommunikasiya Sektoru:*

Nəqliyyat və Kommunikasiya sektorundakı Türk investisyalarının həcmi, şirkət sayısına görə 10%-lik bir paya sahibdir. Telekommunikasiya, avtomatika, nəqliyyat, nəşriyyat sahəsində fəaliyyət göstərən Türk sərmayəli şirkətlərin investisya həcmi təxminən 470 milyon dollardır. İşləyən işçi sayı isə 6.000-ə qədərdir.

5. İnşaat Sektoru:

Mənzil tikintisi, inşaat və dekorasiya materialları satışı sahələrində Türk investisyalarının həcmi, fəaliyyət göstərən şirkət sayına görə 11%-lik bir paya sahibdir. İnvestisya həcmi 360 milyon dollar olan Türk sərmayəli müəssisələrdə təxminən 6.000 nəfər işləyir.

6. *K*ənd Təsərrüfatı *və Heyvandarlıq Sektoru:*

Bu sektorun fəaliyyət göstərən şirkət sayına görə həcmi 4%-dir. Kənd təsərrüfatı və heyvandarlıq sektorundakı Türk sərmayəsi isə 70 milyon dollar həcmindədir. Sektorda işləyən işçi sayı isə təxminən 3.000 nəfərdir.

11.3.2. Azərbaycan Türk Sənayeci və İşadamları Beynəlxalq Cəmiyyəti (TÜSİAB)

1994-cü ildə türk iş adamları təşkilatlanaraq "Azərbaycan Türk Sənayeci və İş Adamları Beynəlxalq Cəmiyyəti TÜSİAB"ı qurdular.

Azərbaycan və Türkiyə arasında qurulan münasibətlər çərçivəsində "bir millət iki dövlət" reallığı işığında ürəkləri ilə, "qloballaşma" reallığı istiqamətində isə sərmayələri ilə Azərbaycana gələn Türk iş adamları tərəfindən qurulan TÜSİAB, türk iş adamlarının Azərbaycana investisya qoyuluşuna təşviq etməyi və fəaliyyətlərinə kömək etməyi, üzvləri arasında əməkdaşlığın artırılması və iki ölkə arasındakı iqtisadi və ticari münasibətləri inkişaf etdirməyi öz qarşısına məqsəd qoymuşdur.

Quruluş məqsədi çərçivəsində 20 ildən artıq bir müddətdir fəaliyyət göstərən cəmiyyət, Azərbaycanda bazar iqtisadiyyatının formalaşması və sahibkarlıq fəaliyyətlərində bir nümunə olmaqla yanaşı, iki ölkə arasındakı iqtisadi münasibətlərin inkişafında və münasibətlərin inkişafının qarşısındakı əngəllərin ortadan qaldırılmasında çox mühüm köməkliklər göstərərkən, təşkilatlandırmadakı müvəffəqiyyətləri ilə də digər ölkələrdəki Türk iş adamları dərnəklərinə gözəl bir model olmuşdur.

Ümumiyyətlə dünyada, xüsusilə Azərbaycan və Türkiyədə baş verən iqtisadi böhranlara baxmayaraq Türk iş adamları uzun müddətli planlar quraraq, səbrlə inkişaf etməkdə olan Azərbaycan iqtisadiyyatının bir çox sektorunda fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər.

11.4. TÜRKİYƏDƏ AZƏRBAYCAN SƏRMAYƏSİ

Azərbaycandan Türkiyəyə investisya qoyan rəsmi qeydiyyatdan kecən yüzə yaxın şirkət fəaliyyət göstərir. Bu firmaların çoxu xidmət sektorunda fəaliyyət göstərir. Ümumi sərmayəsi təxminən 7 milyard dollar olan bu firmaların Azərbaycan mənbəli kapitalın payı təxminən 86%-dir. 2009 ci ildən PETKİM kimi böyük bir neft kimya kompleksinin yarısını Azərbaycan Dövlət Neft Şirkətinin alması Azərbaycanın dövlət olaraq Türkiyəyə qoyulan investisiya olaraq Bakı Ceyhandan sonra ən əhəmiyyətli addımıdır. Perspektivdə Türkiyədə neft terminalı və neftayırma kompleksləri tikilməsi hədəflənməkdədir.

Türkiyədə fəaliyyət göstərən Azərbaycanlı iş adamları, həm firma sayı həm də qoyulan investisiya həcmi baxımından dəyərləndirilərsə, Qafqaz və Orta Asiya Türk dövlətlərindən ən çox investisiyası olan investorlardır. MDB çərçivəsində isə, Azərbaycanın investisiya həcmi Rusiyadan sonra ikinci yeri tutur[284].

11.5. YENİ DÖVR

Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi 2015-ci ildən sonra xaricdən ərzaq məhsullarının idxalına məhdudiyyət qoymağı planlaşdırır. Türkiyənin Azərbaycana ixrac etdiyi məhsulların böyük bir hissəsi isə ərzaq məhsullarıdır. Bu vəziyyət, iki ölkə arasındakı xarici ticarət həcminin müəyyən vaxt sonra daha da azalacağını göstərir. Ona görə, iki ölkə arasında ticarət həcminin azalmaması, əksinə daha da çoxaldılması üçün, iqtisadi münasibətlərdə daha çox sənaye sahələrində, eyni zamanda inşaat, turizm, toxuculuq və emal sənayesində əməkdaşlığın artırılmasına diqqət göstərməsi vacibdir.

Düzdür, Azərbaycanda hələ də keçid dövrü problemləri, bürokratiya və rüşvət problemi investisiya mühitinə bir az mənfi təsir göstərsə də, prezident İlham Əliyevin investisya mühitinin sağlamlaşdırılması istiqamətində qərarlılığı və siyasi iradəsi Türk iş adamlarının və digər xarici ölkə kapitalının Azərbaycana gəlməsi üçün hər gün bir az daha əlverişli investisiya mühiti formalaşdırır.

Ümumiyyətlə, Türk iş adamlarının Azərbaycan iqtisadiyyatındakı üstünlüyünün, bundan sonrakı dövrlərdə də həm iri, həm də kiçik və orta həcmli investisiyalar şəklində artacağı proqnozlaşdırılır.

Eyni zamanda "Bakı-Tbilisi-Ceyhan" neft və "Bakı-Tbilisi-Ərzurum" təbii qaz boru kəmərlərinin istismara başlaması ilə, Azərbaycanın iqtisadiyyatındakı inkişafıyla yanaşı, Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətləri də intensivləşdirəcəkdir.

Bakı-Ceyhan neft kəməri 2006-cı ilin iyun ayında, Bakı-Ərzurum qaz kəməri isə 2007-ci ilin ortalarında istismara verilməsi planlaşdırılır. Eyni zamanda Türkiyə siyasi həyatındakı stabilliklə birlikdə iqtisadiyyatda müşahidə edilən

[284] *Azerbaycan Ekonomisi ve Türkiye ile İlişkileri*, DEİK Yayınları, Mart-2001, s.11.

stabillik və inkişaf mərhələsinin, Azərbaycanla Türkiyə arasındakı ticarət münasibətlərinə və Türkiyə sermayəsinin Azərbaycana axımına müsbət təsir edəcəyi də proqnozlaşdırılır. Çünki, Erdoğan hökuməti Azərbaycanla həm siyasi, həm də iqtisadi hər cür əməkdaşlığın artırılması və inkişaf etdirilməsi üçün müntəzəm olaraq əllərindən gələn dəstəyi verir.

Bu istiqamətdə ilk addım mərhum ümummlilli lider Heydər Əliyevin ECO zirvəsi çərçivəsində 2002-ci ilin axırlarında Türkiyəli iş adamları ilə görüşməsi və müzakirə sonrası Türkiyəli iş adamlarının Azərbaycana gəlmələridir. İkinci və daha vacib addım isə 2003-cü ilin əvvələrində Rəcəb Tayyib Erdoğanın böyük bir iş adamı kollektivi ilə bərabər Azərbaycana ziyarət etməsidir. Hər iki ziyarətdə, Türkiyədən gələn iş adamlarına bir çox əhəmiyyətli və böyük layihənin təqdim edildiyi də nəzərə alındıqda, gələcəkdə Türkiyə sərmayəsinin Azərbaycana axınının daha da artacağı şübhəsizdir. Eyni zamanda Azərbaycanın gənc lideri İlham Əliyevin də bu istiqamətdə bir sıra mühüm addımını da xüsusiylə qeyd etmək lazımdır. 2006-cı ilin aprelində İstanbulda keçirilən biznes forum da buna əyani sübutdur.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi iki ölkə arasındakı iqtisadi münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Gələcək illərdə Azərbaycan dəmir yolunun Türkiyə dəmir yolu ilə birləşdirilməsi planlaşdırılır. Qars-Axalkalaki dəmir yolunun tikintisi ilə bu məqsədə nail olunacaqdır. Hər iki ölkə bu layihənin reallaşmasında maraqlıdır. 2005-ci ildə bu layihənin smeta işlərinə başlanılmış və yaxın illərdə başa çatdırılması nəzərdə tutulur.

Azərbaycanda başda kənd təsərrüfatı sektoru, turizm, sənaye, maliyyə sektoru, nəqliyyat, kommunikasiya, inşaat olmaqla müxtəlif sektorların inkişafı üçün türk iş adamlarına mühüm məsuliyyətlər düşür. Digər Orta Asiya respublikaları üçün körpü mövqeyində olduğu da diqqətə alındıqda, Türkiyə baxımından Azərbaycanın əhəmiyyəti daha da artır.

Azərbaycan və Türkiyə arasında siyasi və iqtisadi əməkdaşlığın inkişaf edərək strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini,."Şahdəniz-2", TAP və TANAP layihələri çərçivəsində ölkələrimiz arasında uğurlu əməkdaşlıq həyata keçirilir. Hazırda Azərbaycanda 2500-ə yaxın türk şirkəti kənd təsərrüfatı, xidmət, sənaye, ticarət, tikinti, nəqliyyat və s. sahələrdə fəaliyyət göstərir. Azərbaycandakı xarici şirkətlərin 36%-dən çoxunu türk şirkətləri təşkil edir. Türkiyədə isə 1100-ə yaxın Azərbaycan şirkəti uğurla fəaliyyət göstərir.

2013-cü ildə daha yeni bir layihənin - Türkiyədə “STAR” neft emalı zavodunun inşasına başlanıldı. Layihənin təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulmuşdur. “STAR” neft emalı zavodu Türkiyənin iqtisadi cəhətdən kifayət qədər güclü hesab olunan qərb hissəsində, İzmir şəhərinə yaxın olan Əliağa liman bölgəsində inşa edilməklə İzmir və İstanbul ərazilərində daxili bazarın tələbatını ödəməyə yönəldiləcəkdir. Zavodun iri neft-

kimya kompleksi olan Petkimin yaxınlığında tikilməsi şaquli istiqamətdə inteqrasiya yaratmaqla yüksək səmərəliliyə səbəb olacaqdır. Neft emalı zavodunun ümumi gücü 10 milyon ton təşkil edəcək və zavodun əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti çıxış edəcəkdir. Zavodun istehsal edəcəyi təqribən 1,6 milyon ton nafta Türkiyədə neft-kimya sənayesinin xarici ölkələrdən xammal asılılığını azaldacaq, dizel və aviasiya yanacağı cari hesab defisitinin azalmasına yardım edəcək və neft-kimya sənayesi məhsulları üçün xammal rolunu oynayacaqdır. Layihənin toplam dəyəri təqribən 5,6 milyard ABŞ dollarıdır. 2014-cü ildə "Star" neft emalı kompleksinin tikintisi layihəsinin maliyyələşdirilməsinə Fond tərəfindən 224 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. 30.09.2014 tarixinə Neft Fondu tərəfindən bu layihənin maliyyələşdirilməsinə ümumilikdə 596,1 milyon manat, o cümlədən 2014-cü ilin 9 ayı üzrə 223,5 milyon manat vəsait yönəldilmişdir. "STAR" neft emalı kompleksinin tikintisi layihəsi üzrə Neft Fondu tərəfindən ümumilikdə 596,1 milyon manat vəsait ayrılmış və layihənin maliyyələşdirilməsi başa çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2007-ci il 1974 saylı Fərmanına uyğun olaraq, "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsini Azərbaycan Respublikası Dövlət Neft Fondu həyata keçirir. Bu Fərmana müvafiq olaraq, Azərbaycan Respublikası Hökuməti adından kreditləşmənin təşkili və bank xidmətinin həyata keçirilməsi üzrə agent bank "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti təyin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2007-ci il 2222 saylı Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti tərəfindən ikitərəfli Saziş üzrə səlahiyyətli orqan Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi müəyyən edilmişdir. Layihələrin maliyyələşdirilməsinə başlayandan etibarən 01.10.2015 tarixə qədər Dövlət Neft Fondu tərəfindən xəzinədarlıq vasitəsilə Nəqliyyat Nazirliyinə ümumilikdə 559,3 milyon ABŞ dolları, o cümlədən 2015-ci ilin ilk doqquz ayı üzrə 22,5 milyon ABŞ dolları vəsait ayrılmışdır. Bu vəsait Azərbaycan Beynəlxalq Bankı vasitəsilə Gürcüstan və Azərbaycan hökümətləri arasında imzalanmış ikitərəfli sazişə müvafiq olaraq, Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin və müvafiq infrastruktur obyektlərinin layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiya və istismarı üçün yaradılmış "Marabda – Kartsaxi Dəmir Yolu" MMC-nin hesabına köçürülmüşdür.

30 may 2008-ci il tarixində keçirilmiş hərracda "Petkim Petrokimya Holdinq" A.Ş.-nin səhmlərinin 51%-i 2 milyard 40 milyon dollara SOCAR&Turcas Enerji A.Ş. tərəfindən əldə edilmişdir. Hazırda "Petkim"in nəzdində aşağı sıxlıqlı polietilen, yüksək sıxlıqlı polietilen, polipropilen, polivinil xlorid, akrilonitril, etilen qlikol, saflaşdırılmış turşu, aromatik karbohidrogenlər, etilen-propilen, xlor qələvi, vinil xlorid monomer, plastik işlər və ftal anhidridi fabrikləri fəaliyyət göstərir. Türkiyə sanayesini xammalla təchiz edən "Petkim"in istehsal etdiyi neft-kimya məhsulları inşaat, kənd təsərrüfatı, elektrik enerjisi, elektron, tekstil sənayesində,

eyni zamanda əczaçılıq, boya, yuyucu məhsullar, kosmetika məhsulları istehsalı və digər sahələrdə geniş istifadə olunur. 2010-ci ildə "Petkim Petrokimya Holdinq" A.Ş. istehsal, ixrac və istehsal güclərindən istifadə faizinə görə 46 illik tarixinin rekordunu vurmuşdur.

"Petkim" "İstanbul Sənaye Palatası"nın "İlk 500 böyük sənaye qurumu" sıralamasında 12-ci, Türkiyə İxracatçılar Məclisinin "Ən çox ixrac edən 1000 şirkət" sıralamasında 20-ci, Egey bölgəsi Sənaye Palatası tərəfindən açıqlanan "Egeyin ən böyük 100 sənaye qurumu" və "Ən çox ixrac edən şirkətlər" sıralamasında isə 3-cü yerdə qərar tutmuşdur.

Azərbaycan və Türkiyə ikitərəfli iqtisadi əməkdaşlığı və sərmayələrə verdikləri böyük əhəmiyyət də ölkələrimizin inkişafını şərtləndirən amillərdəndir. Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi 5 milyard dollardan çoxdur. 2020-ci ilədək Azərbaycanın Türkiyə iqtisadiyyatına yatıracaq sərmayələrin həcmi 20 milyard dollara çatacaq ki, bunun da 15 milyard dolları Dövlət Neft Şirkətinin payına düşəcək. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng layihələr Türkiyə ilə Azərbaycan əməkdaşlığının gələcək inkişafında xüsusi əhəmiyyətə malikdir. Adı çəkilən layihələrdən sonra 2012-ci il iyunun 26-da Prezident İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın imzaladıqları sazişlə həyata keçirilməsinə başlanılan Trans-Anadolu (TANAP) təbii qaz boru xətti layihəsi də ölkələrimizin regionda və dünyada nüfuzunu artırıb. Beləliklə də, yaxın beş ildə TANAP layihəsinin icrasına nail olunacaq və Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olmaqla yanaşı, eyni zamanda, Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artıb. 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində Trans-Anadolu kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilib. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi həyata keçirildikdən, yəni 2017-ci ildən sonra Avropanın təbii qaz bazarında ölkənin rolu daha da yüksələcək. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını təmin etmək üçün ciddi vasitə olacaq. Azərbaycanın mövcud qaz ehtiyatları bundan sonrakı 100 il ərzində respublikanın və tərəfdaş dövlətlərin mavi yanacağa olan tələbatının ödənməsinə imkan verəcək. Bununla yanaşı, 2013-cü ildə TAP layihəsi - Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə olub. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasim keçirildi. Bu tarixi mərasimdə layihəyə Azər-

baycan, Gürcüstan və Türkiyə ilə yanaşı, bütün Avrasiya coğrafiyasının ehtiyacı olduğu qeyd edilərək bildirildi ki, layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirəcək. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatacaq. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. Bu tarixi hadisə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yeni və dinamik inkişaf mərhələsi kimi qiymətləndirilə bilər.

Türkiyənin başda Azərbaycan olmaqla Qafqaz və Orta Asiya meylli siyasətinə əhəmiyyət verəcəyi nüanslardan aşağıdakıları qeyd etmək mümkündür:

1. Region ölkələrini əhatə edəcək ortaq əməkdaşlıq və inkişaf stategiyasına üstünlük vermək,
2. Regiona dair sığorta birliyinin qurulmasına,
3. Regionda fəaliyyət göstərəcək beynəlxalq bir arbitraj sisteminin qurulmasına,
4. Eximbank kreditləri verilərkən investorların regiondakı daşınmaz əmlaklarının da ipotek olarak qəbul edilməsinə,
5. Qars-Tbilisi dəmir yolunun tez bir zamanda tamamlanmasına,
6. Azərbaycan və Türkiyə arasında ticarət həcminin, informasiya və texnologiya axımının artmasına,
7. Ticarət hüququ, vergi hüququ, icra-iflas hüququ, rəqabət hüququ və sərmayə bazarı qanunvericiliyi infrastrukturunun inkişafına dəstək verməkdir.
8. Region bazarında rəqabət edə biləcək bir iqtisadi sistemin qurulması üçün əməkdaşlığın daha da sürətləndirilməsi
9. Türkiyənin Avropa İttifaqına daxil olma mərhələsində bu coğrafiyaların Avropa ilə əməkdaşlığına vasitəçilik etməsi.
10. Yük daşımalarda və gömrük məntəqələrində şərtlərin yumşaldılması və Avropadakı ölkələr arasında rahat və sərbəst hərəkət mühitinin Azərbaycan və Orta Asiya dövlətlərində də tətbiqi üçün fəaliyyət göstərmək.
11. Türk dövlətləri arasında Avropa İttifaqına alternativ Türk İqtisadi İttifaqının qurulmasına vasitəçilik etmək. Xüsusilə MDB nin gözlənilən effekti verməməsi səbəbiylə bu dövlətləri daha effektli və öz milli iqtisadi sistemlərini möhkəmlətmək və sürətlə inkişaf edən dünya bazarlarındakı rəqabət sistemində güclü bir iqtisadi region formalaşdırmaq.

ON İKİNCİ FƏSİL

QLOBAL MALİYYƏ BÖHRANININ AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

12.1. QLOBAL MALİYYƏ BÖHRANI VƏ ONUN ORTAYA ÇIXIŞ SƏBƏBLƏRİ

ABŞ-da ipoteka kreditlərindəki xaos və şişkinlik ilə başlayan maliyyə problemləri dərinləşərək davam etməkdədir. Mənzil kreditlərində təkrar bazarın inkişafı üçün təşkil olunan Freddie Mac və Feniye Manin dövlət nəzarətinə keçməsinin ardından iri investisya bankı Lehman Brothers iflas etdi, Merrill Lynch çox aşağı bir qiymətlə "Bank of Amerika"ya satılmış və nəhəng sığorta şirketi AIG fəaliyyətinə davam edəbilmək üçün FED'dən (ABD Mərkəz Bankı) iri məbləğdə kredit istifadə etmək məcburiyyətində qalmışdır. Böhranın İngiltərə, Avropa və İEÖ-də hiss edilməsi və qlobal bir ölçü qazanmasının ardından təxminən 700 milyard dollarlıq qurtarma paketi (bailout bill) ABŞ məclisində təsdiq edilmişdir.

2008-ci ildə dünya iqtisadiyyatında əvvəlki illərdəki inkişaf və böyümə azalmağa başladı. Dünya iqtsadiyyatın taleyini həll edən ölkələrdən (ABŞ, Yaponiya, Çin, Böyük Britaniya, Hindistan, Almaniya, Fransa, İtaliya, Rusiya) heç biri qlobal böhranın təsirindən yaxa qurtara bilmədi. Dünya ÜDM-sinin təxminən 80%-i bu ölkələrdə formalaşmaqdadır. Yer kürəsi əhalisinin təqribən yarısı onların payına düşür. Dünya üzrə orta illik artım tempi 2 dəfəyədək azalaraq 2007-ci ildəki 5%-dən 2,5%-ə endi.

Elə 2008-ci ilin ilk aylarından banklar ipoteka altında olan evləri təkrar satış bazarına qaytarmağa başladı. Artıq iyun ayında ümumi dəyəri 1 trln. dolları ötən 4 mln. mənzil bazarda özünə müştəri axtarmağa başladı. Əmlak bazarında qiymətlərin düşməsi nəticəsində ABŞ mənzil bazarının 4 tirilyon ABŞ dolları vəsait itirdiyi bildirilir. Proqnozların əksinə olaraq, dünyanın əksər ölkələrində iqtisadi inkişafın səviyyəsi daha da aşağı düşüb. Mütəxəssislərin fikrincə, vəsait çatışmazlığı ilə müşahidə olunan maliyyə böhranı səngiyir və öz yerini daha ağır olan istehsal böhranına verir. Başqa sözlə, böhran maliyyə sektorundan istehsala keçib. Böhranın bu mərhələsi daha ciddi problem yaradır. Son vaxtlar dünyanın əksər ölkələrində avtomobil, elektrotexnika, yüngül sənaye müəssisələrinin müflisləşməsi, daşınmaz əmlak bazarında baş verən durğunluq kütləvi işsizliyə gətirib çıxaran amillər sayılır. Təsadüfi deyil ki, böhran daha çox əməktutumlu sahələrə təsir edir və kütləvi işsizlik qeydə alınır. Dünyada istehlakın azalma prosesləri daha da ağırlaşdırır.

Hazırkı qlobal böhranın zəif nöqtəsi sayılan banklar müxtəlif ölkələrdən depozit şəklində gələn və ilbəil artmaqda davam edən pullarla davrana bilmədilər. Çox da uzaq olmayan keçmişdə həmin pullar qısa müddətə və yüksək faizlərlə ticarət və xidmət sektoruna yönəldilirdi. Nisbətən sərfəli şərtlərlə borc götürüb köhnə borcları qaytarmaq təcrübəsi də kifayət qədər geniş yayılıb. Son illərdə isə həmin kreditlərin axını Şanxay, Nyu-York, London, Frankfurt kimi iri şəhərlərdə mənzillərin ipoteka ilə alınmasına yönəlməyə başladı. Hətta İngiltərə və İsveçrənin kifayət qədər konservativ bank sistemi də bu maliyyə piramidasının tələsinə düşdü- müştərilərin etibarlılığını diqqətlə öyrənmədən on milyardlarla dolları ipotekaya yönəltdi. Belə şəraitdə investorlar öz kapitallarını real mülkiyyətə - mənzilə və digər daşınmaz əmlak növlərinə yönəltməyə başladılar. İpoteka bazarında izafi maliyyə daşınmaz əmlakın qiymətinin artmasını qaçılmaz edirdi. Əvvəllər ipoteka alınan mənzilin dəyərinin 70%-dən yüksək verilmirdi. Geriyə qalan 30%-i müştəri ödəyirdi. Sonralar ilkin ödəniş 80, az sonra 90, bir qədər keçidikdən sonra isə 100 % həcmində verilməyə başladı. Hətta banklar evin dəyərinin 105-110%-i həcmində kredit verirdi. Bu, müştəri gətirmək üçün cəlbedici bir metod idi - əlavə 5-10% mənzili mebellə təmin etməyə hesablanmışdı.

İpoteka bumu dövründə maaş və gəlirlər də yüksək idi. Amma heç kim nəzərə almırdı ki, iri dövlətlərin, ilk növbədə ABŞ və Böyük Britaniyada büdcənin xərcləri gəlirləri, idxal isə ixracı davamlı olaraq üstələyirsə, bu cür inkişaf bir gün dayancaq. Bu böhran sonrası ABŞ və Avropada 1000-ə yaxın aparıcı bank və maliyyə qurumu öz iflasını elan etdi və ya dövlətin yardımları ilə iflasdan özünü qismən sığortaladı

12.2. MALİYYƏ BÖHRANIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

12.2.1. İqtisadi böyüməyə təsiri

Ölkə iqtisadiyyatına ümumi olaraq nəzər saldıqda ÜDM-nin artımı, inflyasiya tempinin aşağı düşməsi, işsizliyin azalması və başqa pozitiv iqtisadi inkişaf templərinin artmasını görə bilərik. Azərbaycanda ÜDM-un artması ölkənin daha çox neft hasilatı və artan neft qiymətləri ilə asılı olduğu bilinməkdədir. Qlobal maliyyə böhranından əvvəl Azərbaycan ÜDM-nin artım templərinə görə, 2005-cı ildə 26.4%, 2006-cı ildə 34.5%, 2007 ci ildə iqtisadi artım 25% olmasına baxmayaraq, 2008-ci ildə 10.8%-lik bir iqtisadi artım qeydə alınmışdır. Beynəlxalq Valyuta Fondunun məlumatlarına əsasən Azərbaycanın 2009-cu ildə ÜDM-nin artım səviyyəsi ilk dəfə olmamış, -11,5 faiz həddində geriləmə olmuşdur. 2005-ci ildən sonrakı iqtisadi artımı analiz edilmiş olsa, ölkə əvvəlki həddə neft hasil etməsinə baxmayaraq neftin qiymətinin düşməsi fonunda ölkədə istehsal olunan mal və xidmətlərin də dinamikasında azalmalar olmuş-

dur. Bu isə onu sübut edir ki, Azərbaycanın gəlirləri neftdən, neft gəlirləri isə dünya bazarında baş verən qiymət konyukturundan birbaşa asılıdır. ÜDM-nin davamlı olaraq inkişafı üçün iqtisadi artımın neft gəlirlərindən asılığını minimuma endirmək lazımdır. 2009-cu ildə ilk dəfə olaraq ÜDM-də əvvəlki illərə görə azalma olmuşdur. Bu əsasən neft qiymətlərindəki azalma, tikinti sektorundaki tənəzzül səbəbi ilə mey-dana gəlmişdir.

12.2.2. Neft və qeyri-neft sektoruna təsiri

Neft istehsalçısı olan ölkələr kimi Azərbaycan dünya bazarında neftin qiymətinin ucuzlaşmasıyla çox əhəmiyyətli zərərə məruz qalmışdır. Böhrana qədər bareli 150 dollar olan neft böhran sonrası 30-40 dollara qədər ucuzlaşdı. Bu ucuzlaşma Azərbaycanın neft gəlirlərinə olduqca mənfi təsir etdi. Ümumiyyətlə, neftin ucuzlaşması dövlət büdcəsinin 75%-nin neft sektoru hesabına formalaşdığı, ixracatının 90%-dən çoxunu neft və neft məhsullarının hesabına təşkil edilməsi ölkə iqtisadiyyatının inkişafı üçün bir çox problemləri də öz yanında gətirməkdədir. Enerji daşıyıcılarının qiymətinin azalması təkcə iqtisadi deyil, o cümlədən sosial baxımdan mənfi nəticələr meydana çıxara bilər.

Qlobal maliyyə böhranı sonrası Azərbaycan hökuməti bir çox irihəcmli infrastruktur layihəsinin reallaşmasını bir neçə il sonraya geciktirməsinə məcbur etdi. Xüsusi ilə yeni metro tikintisi layihələri, Xəzər dənizi ustündə körpü və bir sıra qurğuların qurulması layihələri böhranın nəticələrinin səngiməsindən sonraya təxirə salındı.

12.2.3. Aqrar sektora təsiri

Qlobal maliyyə böhranın təsirinin azaldılmasında və xüsusiylə ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasında kənd təsərrüfatının rolu əvəzedilməzdir. Azərbaycanda aqrar sahənin, xüsusilə kənd təsərrüfatının öz maliyyə resursları hesabına səmərəli fəaliyyət göstərməsi demək olar ki, qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin bəzilərində belə son onilliklərə qədər dövlətin aqrar sahəyə məqsədyönlü təsiri, əsasən, böhranlı vəziyyətlərdən çıxmağa yönəldilirdisə, hazırda həmin ölkələrdə də bu təsir xeyli dərəcədə kənd təsərrüfatının dayanıqlı inkişafının təminatına xidmət edir.

Azərbaycanda aqrar məhsullarına olan tələbatın daxili istehsal hesabına ödənilməsi həm ölkənin aqrar təhlükəsizliyi baxımından, həm də idxalatda asılılığın azaldılması baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatının dövlət büdcəsindən maliyyələşdirilməsi sahədə investisiya siyasətinin əsaslandırılma dərəcəsindən, onun reallaşdırılması və innovasiyaların təşviqi mühitindən, ayrılan vəsaitlərin istifadəsi səmərəliliyindən asılıdır. 2008-ci ildə mal qrupları üzrə xarici ticarət dövriyyəsində ixracın 97%-ni mineral məhsullar yer almaqdadır, amma kənd təsərrüfatı isə 1.1%-i keçməməkdədir. Bunu üçün kənd təsərrüfatı müəssisələrini ixrac qabiliyyətini artırılması şərtdir. Aqrar sahənin, o cümlədən kənd təsərrüfatının cəlb edilən maliyyə vəsaitlərinə tələbatı, həlledici surətdə

məsrəf və gəlirlər arasında nisbətən asılıdır. Bu nisbətin müəyyənləşdirilməsi, prosesində sahənin inkişafının müasir səviyyəsində hələ də ilkin informasiyanın natamamlığı problemi meydana çıxır. Məsələ ondadır ki, mövcud statistika (ev təsərrüfatlarının tədqiqatı üzrə aparılan seçmə sorğu materialları istisna olmaqla) ailə kəndli və ev təsərrüfatlarının maliyyə nəticələrini lazımi dəqiqliklə hesablamağa imkan vermir. Odur ki, istehsal xərcləri, gəlirlər və rentabellik göstəricilərinin müəyyənləşdirilməsi zamanı əsasən, fərdi aqrar sahibkarların və kənd təsərrüfatı müəssisələrinin məlumatları ilə kifayətlənmək lazım gəlir.

Belə ki, Azərbaycanda ümumi məşğulluğun 40%-nin çalıştığı agrar sektorun ÜDM-dəki payı 2000-ci ildən etibarən azalaraq 2008-ci ildə 5.7% təşkil etmişdir. Maliyyə böhranı bir daha göstərdi ki, Azərbaycanın davamlı inkişafı üçün sadəcə xam neft və təbii qaz hasilatına bağlı sənaye sektoru deyil eyni zamanda kənd tesərrüfatının inkişafına daha çox diqqət yetirmək lazımdır.

12.2.4. Ticarət sahəsinə təsiri

2008-ci il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən 141 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi 54.9 milyard dollar olmuşdur. Bu müddət ərzində 47.8 milyard dollar dəyərində 2127 adda mal ixrac, 7.2 milyard dollar dəyərində 5893 adda mal isə idxal olunmuş ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 40.6 milyard dollar təşkil etmişdir.[285] 2009-cu ildə Azərbaycan ticarət sahəsində 136 ölkə ilə 16,5 milyard dollar məbləğində idxal-ixrac əməliyyatları aparılmışdı. Böhran sonrası Azərbaycanın hər nə qədər də xarici ticarət həcminin artdığı müşahidə edılsə də ıxracatın doxsan faizinin neft məhsulları olmasından qaynaqlanan bir tendensiya olmasını unutmamalıyıq. Mal grupları olaraq tədqiq edildiyində böhranın Azərbaycanın neft xarici ixracının və idxalının azaldığını görmək olar.

12.2.5. Azərbaycanın xarici dövlət borcuna təsiri

Böhran dövründə Azərbaycanın xarici dövlət borcunun həcmi 2008-ci il ərzində 22.9% artaraq 2009-cu ilin yanvar ayının 1-nə 3 milyard dollara çatdı. Xarici borcun ÜDM-ə qarşı nisbəti son bir il ərzində 8.2%-dən 6.4%-ə düşdü. Adambaşına düşən xarici dövlət borcunun məbləği isə əksinə, 283.8 dollardan 344.9 dollaradək artdı.[286] Hökümət və dövlət qurumları tərəfindən cəlb olunan kreditlərin əsas hissəsi investisiya layihələrinin həyata keçirilməsi ilə bağlıdır.

01 oktyabr 2015-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6,730.9 milyon ABŞ dolları (7,054.0 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 12.4 faiz təşkil etmişdir. İqtisadi islahatlar üçün cəlb edilən kreditlərin məbləği 644.9 mln. dollar təşkil edib.

---

[285] www.azstat.org/publications/azfigures/.../018.shtml, 16 Dekabr 2009

[286] ***"Azərbaycanın xarici dövlət borcu 2008-ci ildə 23% artıb",*** http://www.editor.az/economy/1049.html , 13 Fevral 2009

Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə istifadə edilmişdir.

Azərbaycanın xarici dövlət borcunun ÜDM-də payı təhlükəli həddə olmasa da, xarici borcların sürətli artım tendensiyası müşahidə olunması narahatçılıq doğurur. Əlavə olaraq bu cür kəskin artım tempi Azərbaycanın maliyyə imkanlarının əvvəlki illərlə müqayisədə kifayət qədər daraldığı bir vaxta təsadüf edir. Nəhayət indi alınan və istifadə olunan yüksək məbləğli kreditlərin qaytarılması Azərbaycanın neft gəlirlərinin azaldığı dövrə - 15-20 il sonraya təsadüf edəcək.

12.2.6. Tikinti sektoruna təsiri

2009-cu ildə Azərbaycanda tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin həcmi 3 158,9 mln. manat olub ki, 2008-ci illə müqayisədə işlərin həcmi 12,2% azalıb. Hesabat ilində görülmüş işlərin 2,163 mlrd. manatını (ümumi həcmin 68,5%-i) yeni tikinti, yenidənqurma və genişləndirmə, 610 mln. manatını (müvafiq olaraq 19,3%) əsaslı təmir, 132,4 mln. manatını (4,2%) cari təmir, 253,5 mln. manatını (8%-i) isə sair tikinti işləri təşkil edib. Qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələri 2 363,6 mln. manatlıq, dövlət tikinti müəssisələri isə 795,3 mln. manatlıq inşaat işləri görüb.Bundan başqa, 2009-cu ilin on bir ayında inşaat bölməsində çalışmış 62,1 min nəfərin orta aylıq nominal əmək haqqı 449,8 manat təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,7% artıb. İri və orta tikinti müəssisələrində işləyənlərin orta aylıq nominal əmək haqqı isə 500,4 manat olub. Dövlət mülkiyyətinə məxsus tikinti müəssisələrində işçilərin orta aylıq nominal əmək haqqı 365,9 manat olub. Əmək haqqı tikinti sahəsinin hazırlanması sahəsində 43%, bina və qurğuların tikintisi sahəsində 11,4% artıb, bina və örtüklərin mühəndis avadanlıqlarının quraşdırılması və bəzək işləri sahələrində isə əvvəlki ilin səviyyəsindən yüksək olmaqla müvafiq olaraq 443,6 və 264,9 manat olub. Bütün bu göstəricilərə baxmayaraq real olaraq Qlobal böhranın Azərbaycanda ən çox təsirinin hissedildiyi sektor tikinti sektoru olmuşdur. əvvəlki illərdə çiçəklənən tikinti sektoru müştəri və kapital qıtlığından tənəzülü gözlə görüləcək qədər hissedilən bir sektor olmuşdur.

12.2.7. Birbaşa investisiya təsiri

Qlobal böhranın inkişaf etməkdə olan ölkələrə ən mühüm təsir kanallarından biri xaricə birbaşa investisiya axınının azalmasıdır. Azərbaycanda əsasən dövlət investisiya proqramı çərçivəsində infrastruktur layihələrinə qoyulan sərmayələr hesabına daxili investisiyanın artımı qarşılığında, 2008-ci ildə ölkə

iqtisadiyyatına yönələn birbaşa xarici investisiya bir qədər azalıb. Xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici investisiyanın həcmi 2008-ci ildə 2.2 milyard manat (2.75 milyard dollar) təşkil edərək, əvvəlki ilin müvafiq dövründəkindən 16.3% az olub. Əgər əvvəlki illərdə (bu trend 2006-cı ildən sonra müşahidə olunur) azalmanın səbəbi daha çox neft-qaz layihələrinin investisiya repatriasiyası mərhələsinə keçməsi ilə əlaqədar olmuşdursa, 2008-ci ildə buna qlobal iqtisadi böhranın təsirlərini də əlavə etmək lazımdır.

Cədvəl 29. İqtisadiyyata yönəldilən investisiyalar

	2000	2003	2004	2005	2006	2007	2008
İnvestisiya qoyuluşları							
mlyn.manat	1289.8	4249.2	5820.4	6733.4	7415.6	10353.9	12481.8
mlyn.dollar	1441.4	4326.4	5922.7	7118.5	8300.4	12066.1	15192.1
Xarici investisiyalar:							
mlyn.manat	829.5	3310.9	4496.4	4628.5	4514.2	5727.2	5625.8
mlyn.dollar	927	3371	4575.5	4893.2	5052.8	6674.3	6847.4
Daxili investisiyalar:							
mlyn.manat	460.3	938.3	1324	2104.9	2901.4	4626.7	6856
mlyn.dollar	514.4	955.4	1347.2	2225.3	3247.6	5391.8	8344.7
*ilkin məlumat							

Cədvəl 29-un davamı ...

	2009	2010	2011	2012	2013	2014
İnvestisiya qoyuluşları						
mlyn.manat	10475.0	14118.9	17048.8	20251.1	21448.2	21890.6
mlyn.dollar	13033.5	17591.4	21558.9	25777.8	27340.0	27907.5
Xarici investisiyalar:						
mlyn.manat	4395.1	6619.7	6849.8	8102.7	8269.3	9175.7
mlyn.dollar	5468.6	8247.8	8673.9	10314.0	10540.9	11697.7
Daxili investisiyalar:						
mlyn.manat	6079.9	7499.2	10199.0	12148.4	13178.9	12715.0
mlyn.dollar	7564.9	9343.6	12915.0	15463.8	16799.1	16209.8

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycana 2008-ci ildə yatırılan investisiya qoyuluşu üzrə xarici ölkələr və beynəlxalq təşkilatlar arasında ən böyük paya Böyük Britaniya malik olub. Britaniya rezidentlərinin Azərbaycanda əsas kapitala yönəltdiyi investisiyanın həcmi 1.27 milyard dollara yaxın və yaxud manat ekvivalentində 1 milyard manat təşkil edib. Əvvəlki ilin analoji göstəriciləri ilə müqayisədə Britaniya investorlarının sərmayə yatırımı 202 mln. manat və ya 16.5% azalıb. Böyük Britaniya ilə yanaşı Azərbaycan iqtisadiyyatının əsas xarici investorlarının ilk beşliyinə ABŞ, Yaponiya, Türkiyə və Norveç rezidentlərini daxil etmək olar. Bu dörd

ölkəni təmsil edən investorların kapital qoyuluşu ümumi hesabda 941.3 mln. manata yaxındır, onların xüsusi çəkisi isə 42.3%-ə bərabərdir. Xatırladaq ki, 2008-ci ildə Azərbaycanın iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 9 milyard manat həcmində və ya 2007-ci ildəkindən 34.3% çox investisiya yönəldilib. Ölkədə müxtəlif idxal mallarının satış həcmində də azalma var. Məsələn, bəzi avtomobil markaları üzrə 2008-ci ildə satış həcmi 40%-ə qədər azalıb.[287]

Cədvəl 30. Xarici investisiyalar (mlyn. ABŞ dolları)

	2000	2003	2004	2005	2006	2007	2008
Cəmi xarici investisiya	927	3371	4575.5	4893.2	5052.8	6674.3	6847.4
o cümlədən:							
Maliyyə kreditləri	262.9	238.3	293	698.4	983.5	1576.6	2357.9
Neft sənayesinə	546.1	2972.4	4088.1	3799.9	3422.3	4003.3	3350.7
Neft bonusu	-	58.6	21.6	1	17	68.2	3.5
Birgə və xarici investisiyalı müəssisələr	118	45.4	104.2	230.5	368.4	439.1	494.1

Cədvəl 30-un davamı ...

	2009	2010	2011	2012	2013	2014
Cəmi xarici investisiya	5468.6	8247.8	8673.9	10314.0	10540.9	11697.7
o cümlədən:						
Maliyyə kreditləri	1 438.3	3 405.9	3,692.5	3,135.5	2,655.8	1,880.6
Neft sənayesinə	2 412.7	2 955.3	3,407.8	4,287.8	4,935.2	6,730.7
Neft bonusu	1	2	19.9	2	2.4	17.0
Birgə və xarici investisiyalı müəssisələr	624.4	659.6	886.0	1094.5	1041.0	1318.5

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

12.2.8. Dövlət büdcəsinə təsiri

Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsinin gəlirləri 12 mlrd. 177 mln. manat, xərcləri 12 mlrd. 355 mln. manat məbləğində nəzərdə tutulmuşdur. 2008-ci ilə nisbətən dövlət büdcəsinin neftdən asılılığı bir qədər də güclənib. 2008-ci ildə birbaşa neft gəlirlərinin dövlət büdcəsinin gəlirlərində payı 62.4% səviyyəsində gözlənilirsə, 2009-cu ildə həmin göstəricinin 65.4%-ə çatmışdır. 2009-cu ildə neft sektorundan birbaşa daxilolmalar 7595 mln. manat, o cümlədən, 2680 mln. manat neft sektoru üzrə birbaşa vergi ödənişləri, 4915 mln. manat ARDNF-nin transfertləri (büdcə gəlirlərin 40.4%-i) təşkil etmişdir.

2009-cu ildə büdcə gəlirlərinin artımının (1693 mln. manat) 74%-i (1264.5 mln. manat) məhz neft sektoru üzrə ödənişlərin məbləğinin artımı hesabına baş

[287] ***"Qlobal iqtisadi böhranın Azərbaycana təsirləri: yeni miflər yeni reallıqlara qarşı",*** Azərbaycan-Türkiyə İş Adamları Birliyi , Layihələr və Tədqiqatlar Şöbəsinin nəşri, s-2

vermişdir. Eyni zamanda, büdcənin neft gəlirlərindən asılılığı qeyri-neft büdcə kəsirinin artımında da özünü büruzə vermişdir. Əgər 2007-ci ildə dövlət büdcəsinin qeyri-neft büdcə kəsirinin qeyri-neft sektorunda formalaşan ÜDM-ə nisbəti 32% təşkil etmişdisə, 2009-cu ildə həmin göstəricinin 42.5%-ə qədər yüksəlmişdir.

2008-ci ildə iqtisadi böhranla əlaqədar olaraq neftin qiymətinin illik amplitudası da yüksək olmuşdur. Belə ki, brent markalı neftin qiyməti il ərzində 144.9 ABŞ dollarından 38.1 ABŞ dollarına qədər dəyişmişdir. Azərbaycan üçün isə neftin hər barelinin 10 dollar ucuzlaşması 2.2 milyard dollar itki deməkdir.

Lakin xam neftin hər bareli üçün qiymətin hətta 40 dollara düşəcəyi halda belə dövlət büdcəsinin icrasında problem gözlənilmir. Nəzərə almaq lazımdır ki, dövlət büdcəsində neft gəlirlərinin dörddə üçü DNF-nin transfertlərindən ibarətdir. 2016-cu il üzrə icmal büdcənin gəlirləri proqnozlaşdırılan zaman neftin hökümət tərəfindən hesablama bazası kimi istifadə etdiyi qiymət həddi (səlahiyyətli dövlət qurumlarının təmsilçilərinin çıxışlarında büdcə hesablamalarında xam neftin hər bareli üçün 50 dollar götürüldüyü qeyd olunsa da, DNF transferləri son beş ildə ilk dəfə kəskin şəkildə 40% dən çox azaldılaraq 6 milyard manat olmuşdur.Bu halda, cari il üçün Fonddan proqnozlaşdırılan büdcə ayırmaları DNF-nin gəlirlərinin cəmi 90%-ni təşkil edəcək. Yuxarıda qeyd olunduğu kimi, ən pis qiymət ssenarisinin (məsələn, hər barel üçün 40 ABŞ dolları) olacağı halda DNF-nin proqnozlaşdırılan gəlirləri qədər azalması mümkündür.

Göründüyü kimi, hətta bu cür kəskin azalma şəraitində belə, DNF nəinki dövlət büdcəsi üzrə öhdəliklərini, habelə Fondun öz xərc öhdəliklərini də icra etmək imkanında olacaq. Lakin bu halda DNF-nin ümumi gəlirlərinin 50-70%-ə qədəri dövlət büdcəsinə transfert edilə bilər.[288]

Nəticədə neftin qiymətinin enməsindən itkilər dövlət bücəsində deyil, icmal büdcədə hiss olunacaqdır. Büdcə xərclərindən istifadə edilməsində qənaət prinsipindən yararlanamq lazımdır. Böhranla bərabər neft qiymətinin aşağı düşməsi büdcə gəlirlərinin formalaşmasında bir neçə problemlər meydana çıxarmaqdadır. Buna nümunə olaraq 2010-cu ilin dövlət büdcəsinin həm gəlirlərində həm də xərclərində ilk dəfə azalış olduğunu göstərə bilərik.

12.2.9. Makroiqtisadiyyata təsiri

Ciddi problem yarada bilən əsas məsələ böhranın Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) gəlirlərinə təsir etməsidir. "Azeri light" markalı neftin 1 barrelinin qiymətinin son 3 il ərzində ən kritik psixoloji həddən - 50 $-dan da aşağı düşməsi. Nəzərə alsaq ki, 2009-cu ildə dövlət büdcəsində neftin qiyməti proqnozlaşdırılmış qiymətindən aşağı olmuşdur. Dünya maliyyə bazarındakı böhranın Azərbaycanın ticarət dövriyyəsinə təsiri böyük olmuşdur. Rəsmi

[288] ***"Qlobal iqtisadi böhranın Azərbaycana təsirləri: yeni miflər yeni reallıqlara qarşı",*** Azərbaycan-Türkiyə İş Adamları Birliyi , Layihələr və Tədqiqatlar Şöbəsinin nəşri, s-3

statistik məlumatlara əsasən, ölkənin ixrac bəndində xam neft ən çox xüsusi çəkiyə malikdir (93,80 faiz). Eyni zamanda böhran xarici investorların ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının təxirə salınmasına gətirib çıxardır ki, bu da iqtisadi inkişafın ləngiməsinə və iqtisadi artımın ilin sonuna gözlənilən səviyyədən aşağı olmasına səbəb olacaq.

- İqtisadiyyatımızın əsasını təşkil edən neft gəlirlərinin azalması;
- Bir sıra iri sosial-iqtisadi investisiya layihələri təxirə salınmışdır;
- İqtisadi artımın ilin sonuna gözlənilən səviyyədən aşağı olması;
- Tələbin azalması nəticəsində iqtisadi subyektlərin fəaliyyətinin zəifləməsi.

12.2.10. Mikroiqtisadi sistemə təsiri

2008-ci ilin sonu 2009-cu ilin əvvəlində Milli Bank preventiv monetar tədbir olaraq pul siyasətini bir qədər yumşaltdı. MB İdarə Heyətinin qərarı ilə 2009-cu il fevralın 2-dən etibarən uçot dərəcəsi 3% endirilərək 5%-ə çatdırıldı. Faiz dəhlizinin yuxarı həddi 13%-dən 10%-ə qədər endirilib. Manat və xarici valyutada məcburi ehtiyat norması 6%-dən 3%-ə qədər endirildi. Qlobal iqtisadi böhranın dərinləşməsi şəraitində, 2009-cu ilin pul siyasətinin istiqamətinə uyğun olaraq Milli Bank, makroiqtisadi tarazlığın, maliyyə sabitliyinin dəstəklənməsi və ölkədə iqtisadi fəallığın saxlanılması məqsədilə onun yüngülləşdirilməsini davam etdirir.

Anti böhran tədbirlərindən biri, hökümətin maliyyə dəstəyinə sübut kimi sığorta şirkətlərinin üç il müddətinə mənfəətin kapitallaşmasının artırılmasına yönəldilən hissəsinin vergidən azad edilməsi oldu. Böhranın sığorta şirkətlərinə təsirinin minimuma endirilməsi üçün bu dövr ərzində gərəksiz xərcləri azaltmaq, müştəri sayını artırmaq və bazar üçün yeni məhsullar hazırlamaq lazımdır. Hökümət isə öz tərəfindən 2008-ci ilin sonunda həm sığorta şirkətlərini, həm də bankları mənfəət vergisindən azad edərək mühüm bir addım atmış oldu.[289]

Azərbaycanın maliyyə sisteminin böhrana qarşı daha zəif sektoru - bank sektorudur. Azərbaycan Milli Bankı faiz dərəcələrini 2 dəfə azaltmağa və bankları bazardakı vəziyyətin bütün elementlərini qiymətləndirməklə ehtiyatlı siyasət aparmağa çağırıb. Kreditin daha az riskli sahibkarlara verilməsi tövsiyyə olunur. Artıq özəl bankların kredit verməsi məhdudlaşıb. Azərbaycan bankları xarici maliyyə mənbələrindən 3 milyard dollar sərbəst vəsait cəlb etmişdilər. Hal-hazırda belə sərbəst vəsaitlərin cəlb olunması prosesi dayanmışdır. Çünki dünyada kreditlərin sərbəstliyi əsaslı şəkildə azalıb, faiz dərəcələri xeyli artıb. Bu ona gətirib çıxarır ki, Azərbaycan kommersiya bankları xaricdən lazımi miqdarda kredit cəlb edə bilmirlər və müvafiq olaraq ölkədə banklar əhaliyə və sahibkarlara istehlak və korporativ kredit vermir.

---

[289] Əliyev E.,***"Milli iqtisadiyyatın lokomotivi olan bank sektoru qlobal böhranı əzmlə dəf edir",*** Azərbaycan Qəzeti, 13 mart 2009,

Maliyyə-bank sektorundakı problemlər real sektora sıçrayacaq. Çünki bankdan kredit ala bilməyən sahibkarların iqtisadi fəaliyyəti zəifləyəcək istehsalat və inşaat müəssisələrinin əksəriyyətində dövriyyə həcmi aşağı düşəcək, xidmət və satış sahələrində geriləmə başlayacaq. Bütün bunlar isə minlərlə insanın işsiz qalması ilə nəticələnəcək. Digər tərəfdən, Azərbaycanın bank bazarının qapalı olması bizim xeyrimizə olub. Ölkədəki şirkətlərdə və özəl strukturlarda ciddi ixtisarlar başlanıb. Bəzi ekspertlər maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsirini təkzib etsələr də, ən iri 12 şirkətdə ümumən 3400 nəfərin işdən çıxarıldığı bildirilir.

Ölkənin valyuta ödəmə balansında iri həcmli profisit (9.7 mlrd.$) 2 dəfə artıb. Əvvəlki illərə nisbətən ixracın həcminin hiss olunacaq dərəcədə artması idxalı 5 dəfə üstələyir.

Strateji ehtiyatlar 28 ay ərzində qeyri-neft sektorunun idxalını fasiləsiz maliyyələşdirməyə kifayət edir. Beynəlxalq praktikada minimal norma 3 ay sayılır, bankların cəmi öhdəliklərində xarici öhdəliklərin az olması. Qeyd etdiyimiz kimi bank sektorunun xarici borcu 3 mlrd. dollardır. Bu isə öhdəliklərin cəmi 20%-ni təşkil edir.

Milli Bank ölkənin valyuta bazarına tam nəzarət edir və nəticədə valyuta bazarı sabitdir. İqtisadiyyatın effektivliyi hiss olunacaq dərəcədə artır.

Azərbaycanın Qlobal Maliyyə böhranından MDB ölkələrindən ən az təsirləndiyini qeyd etsək də, yenə də aşağıdakı təkliflər böhranın təsirini minimuma endirə bilər.

- Kənd təsərrüfatına investisiya və kredit qoyuluşlarını artırmaq;

Nəzərə alsaq ki, Azərbaycan əhalisinin 46%-i kənddə yaşayır və iqtisadiyyatlarının əsasını kənd təsərrüfatı təşkil edir və kənd təsərrüfatı məhsulları sənaye sahələri üçün xammaldı, nəticədə bu, sənaye sahələrinin inkişafına təkan verəcək.

- Neft gəlirlərindən asılılığı azaltmaq və qeyri neft sektorunun inkişafını təmin etməklə iqtisadiyyatın istesal sahələrini yüksək artım templərinə hazırlamaq;

- Dövlət büdcəsinin defisitini azaltmaq üçün büdcənin icrasının yerinə yetirilməsinə yenidən baxmaq və bəzi xərc maddələrini azaltmaq;

- Neft fondu hesabına keçirilən sosial və tikinti layihələrində əldə olunan vəsaitlərin mənimsənilməsinin qarşısını almaq üçün ictimai nəzarəti və dövlət nəzarətini artırmaq;

- Qısa müddətli investisiyaların uzunmüddətli investisiyalarla əvəz etmək.

- Süni qiymət artımlarına, inhisarçılığa və haqsız rəqabətə qarşı dövlət nəzarət tədbirlərinin gücləndirilməsi;

- Xaricdə saxlanılan valyuta ehtiyatlarının bir hissəsinin güzəştli şərtlərlə yerli bankların istifadəsinə verilməsi, ümumiyyətlə, banklararası və əhaliyə ünvanlanmış güzəştli kreditlərin stimullaşdırılması;

- Fermerlərə və digər sahibkarlara (xüsusən satış və ya istehsal dövriyyəsi azalan) dövlət köməyinin artırılması, regional və sektoral vergi güzəştlərinin tətbiqi;
- Qeyri-neft sektoru üzrə ixracın stimullaşdırılması;
- Dövlət investisiya proqramının prioritetlərinə yenidən baxılması, büdcə vəsaitlərindən səmərəli istifadənin və dövlət maliyyə intizamının gücləndirilməsi;
- Problemli borc öhdəliklərinin bəziləri üçün seçməli qaydada dövlət zəmanətinin tətbiqi və qeyri-formal iqtisadiyyatın uçota götürülməsi;
- Sayı getdikcə artan işsizlərin təkrar peşə hazırlığını təmin edən layihələrin maliyyələşdirilməsi və onlara verilən müavinətlərin artırılması;
- Ev təsərrüfatlarında və mülkiyyətindən asılı olmayaraq müəssislərdə bütün növ qənaətin stimullaşdırılması üçün məlumatlandırma kampaniyalarının aparılması;
- Qiymətli kağızlar bazarında korporativ borc kağızları sektorunun inkişafının iqtisadi yollarla təşviq edilməsi; anti-inflyasiya tədbirləri kimi fiskal və monter alətlərdən heç birinə birmənalı üstünlük verməmək və onların kombinasiyasına çalışmaq.

Beləliklə, aparılan təhlil nəticəsində belə bir qənaətə gələ bilərik ki, son qlobal iqtisadi böhran öz unikallığı ilə fərqlənir və Azərbaycana bütün əsas maliyyə və mübadilə kanalları üzrə ciddi təsir göstərir. Lakin bu təsirin tam rəsmi diaqnostikası sistemli olmasa da, atılan bəzi addımlar hökümətin və biznes sektorunun mümkün risklərin fərqində olduğunu söyləməyə əsas verir.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Zəngin təbii sərvətləri, təbii gözəllikləri və coğrafi mövqeyi ilə Cənubi Qafqazın ən stratejik və inkişaf perspektivinə sahib ölkəsi olan Azərbaycan, müstəqilliyinin ilk illərində, Ermənistanın Qarabağı işğalının da təsiriylə yaşadığı siyasi, iqtisadi və sosial problemlər səbəbiylə, beynəlxalq arenadakı mövqeyi çox parlaq olmamaqla bərabər, zəngin enerji qaynaqları sayəsində iqtisadi cəhətdən perspektivli bir ölkə olaraq tanınmış və beləcə dünyanın qabaqcıl ölkələrinin diqqət mərkəzində olmuşdur.

Nəhayət, Ümummilli Liderimiz Heydər Əliyevin iqtidara gəlməsi ilə birlikdə siyasi stabilliyə qovuşan Azərbaycan, iqtisadi baxımdan çətin vəziyyətdən özünü çıxartmağı bacarmış və dünya miqyasında neft hasil edən bir ölkəyə çevrilmə yolunda inkişaf etməyə başlamışdır.

Heydər Əliyev iqtidarı ilə bərabər ölkədə siyasi və iqtisadi stabillik təmin edilmiş, 1760%-ə çatan inflyasiya tətbiq edilən sərt pul-kredit siyasəti nəticəsində 1995-ci ildən etibarən azalmağa başlamış və ümumi istehlak qiymətləri səviyyəsində də stabillik təmin edilmişdir.

Azərbaycanın Xəzər dənizində yerləşən enerji ehtiyatlarının hasilatıyla bağlı beynəlxalq neft şirkətləri ilə 1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi"ndən sonra, ölkənin xüsusilə enerji sektoruna xarici investisiya qoyuluşları müvəffəqiyyətli şəkildə davam edir. Neft və təbii qaz ehtiyatları iqtisadiyyatının bel sütunu və lokomotividir. Enerji ehtiyatlarının Qərb bazarlarına çatdırılması ilə Azərbaycan regionun ən əhəmiyyətli və ən zəngin ölkəsi mövqeyinə gələcəkdir.

Digər tərəfdən bir çox Qərb şirkətinin xüsusilə enerji sektoruna maliyyə baxımından çox böyük investisiya qoyduğu bir ölkə olması, Azərbaycanda digər sektorlara da qoyulacaq investisiyalar baxımından bir növ beynəyxalq zəmanət mənasına gəlir.

İxracatda neft və neft məhsullarının payı 85-90%-dir. 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan boru xətti ilə neftin, 2006-cı ildə Bakı-Tbilisi-Ərzurum boru xətti ilə təbii qazın ixracına başlanması ilə bu nisbət daha da yüksəlmişdir. Ancaq, bu iqtisadiyyatın neftə və neft qiymətlərindəki dalğalanmalara indeksliliyi mənasına gəlir. Belə ki, tədiyyə balansındakı kəsirlər neft qiymətlərinin artımına paralel olaraq əldə edilən neft gəlirləriylə ortadan qaldırılır.

1997-ci ildən etibarən başladılan özəlləşdirmə proqramı nəticəsində daha çox kiçik həcmli müəssisələri əhatə edən, birinci özəlləşdirmə proqramı başa çatmış, 2001-ci ildən etibarən isə ikinci özəlləşdirmə proqramı tətbiq edilməyə başlanmışdır. Bu proqram ilə orta və böyük həcmli şirkətlərin və stratejik əhəmiyyətə sahib bir sıra şirkətlərin özəlləşdirilməsi planlanmışdır.

1998-ci ildəki Rusiya iqtisadi böhranı və neft qiymətlərindəki azalma ölkə iqtisadiyyatına mənfi təsir göstərsə də, 2000-ci ildəki neft qiymətlərində proq-

nozlaşdırılandan artıq olan artım iqtisadiyyata canlılıq gətirmişdir. Ölkədə, iqtisadiyyatda nail olunan stabillik və nəzarət altına alınan inflyasiya, valyutaya da şamil edilmiş və Dolar/Manat nisbətində ciddi bir dəyişiklik olmamışdır.

Azərbaycan xarici ticarət siyasətini bazar iqtisadiyyatı şərtlərinə görə təşkil etməyə çalışır. Müəyyən edilən gömrük rüsumları ilə bəzi stratejik məhsullardan başqa, xüsusiylə də ərzaq sektorunda hər hansı bir məhdudiyyət yoxdur.

Bank və maliyyə sektorunda müstəqilliyin ilk illərində yaşanan qarışıqlıq ortadan qalxmış və bu sektor Milli Bankın ciddi nəzarəti altına keçmişdir. Hüquqi tənzimləmələr hələ tamamlanmamış olmaqla birlikdə, iqtisadiyyatın ümumi tarazlığını tənzimləyən əsas qanunlar mövcuddur. Ancaq, Azərbaycanda dövlətin maliyyə sisteminə ciddi müdaxiləsi var. Bu isə, maliyə sisteminin liberallaşmasına imkan vermir. Maliyyə sektoru sürətlə inkişaf etməklə bərabər, sektor hələ də olduqca zəif və həssasdır.

Kənd təsərrüfatı, sənaye və xidmət sektorlarında özəlləşdirmənin başlamış olması və özəl mülkiyyətə icazə verilməsi nəticəsində özəl sektorun ÜDM içindəki payı 1990-cı ildə 13% olarkən, 1999-cu ildə 62%-ə, 2005-ci ilin əvvəlində isə 74% -ə qalxmışdır. 2015-ci ildə isə özəl sektorun ÜDM içindəki payı 83.2% olmuşdur.

Əlbəttə, Azərbaycanın iqtisadi inkişaf prosesində hələ bir çox işlər görülməli, bir sıra addımlar atılmalıdır. Azərbaycan sərbəst bazar iqtisadiyyatının deyil, keçid dövrünün problemlərini yaşayır. Ancaq, ifadə etmək lazımdır ki, təqribən 25 illik müddət ərzində bundan sonrakı dövrdə lazımi tədbirlərin görülməsi üçün hüquqi və inzibati baza qurulmuş, makroiqtisadi, regional və sektoral hədəflər müəyyən edilərək bu hədəflər istiqamətində addımlar atılmağa başlanmışdır.

Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycan iqtisadiyyatında ümumi olaraq ciddi bir dirçəliş yaşanmışdır. Həyata keçirilən proqramların bu layihə mərkəzli olduğu müşahidə edilir.

Azərbaycanın Xəzər enerji ehtiyatlarının istehsalı və beynəlxalq bazarlara nəqlinə dair seçimində, iqtisadi olmaqla yanaşı, həm də stratejik mənfəətləri də nəzərə aldığı görülür. Regionda köhnə Sovet İttifaqı dövründəki təsirini davam etdirməyə çalışan Rusiyaya qarşı Azərbaycanın, siyasi müstəqilliyini davam etdirmə və iqtisadi müstəqilliyini inkişaf etdirmə məcburiyyətində olması, qaçınılmaz olan bu seçimdə əhəmiyyətli bir rol oynayır.

Bütün bunlara baxmayaraq, zəngin təbii ehtiyatların mövcud olması, güclü kadr potensialı, iqtisadiyyatın və iqtisadiyyatın ilk keçid dövrünə başladığı səviyyə, əhəmiyyətli nəqliyyat yollarının kəsişdiyi bir nöqtədə yerləşməsi Azərbaycan iqtisadiyyatının gələcəyinə nikbin baxmağa imkan verir.

Siyasi problem olaraq Ermənistan tərəfindən işğal edilən Dağlıq Qarabağ probleminin həll edilməsinin də iqtisadi inkişafa və iqtisadi stabilliyin davam etməsinə mühüm təsiri olacaq.

Yavaş, ancaq əmin addımlarla irəliləyən və gələcək üçün ümid verən Azərbaycan iqtisadiyyatında mövcud olan problemlərin həlli üçün iqtisadi inkişafda həlli üçün aşağıdakı bir sıra təkliflərin və bəzi dəyişikliklərin reallaşması lazımdır:

– İqtisadiyyatı yenidən qurmaq üçün lazımi addımlar sürətlə atılmalı və bu prosesdə xarici sərmayədən istifadənin əhəmiyyətini mənimsəyən Azərbaycanda daha geniş və böyük investisiyalara imza atılmalıdır.

– Azərbaycan iqtisadiyyatına xarici investisiyaların axımının gücləndirilməsi və qorunması üçün hər cür şərtlərin yerinə yetirilməsi ilə yanaşı, "Hollandiya Xəstəliyindən" xilas olmaq da iqtisadi siyasətin əsas məqsədləri arasında olmalıdır. İqtisadi inkişafın sadəcə təbii ehtiyatların ixracına əsaslanması, ölkə ehtiyatlarının tükənməsi və sosial ədalət prinsipinin əksinə olaraq əhalinin yalnız kiçik bir hissəsi xaric, əksəriyyətin həyat səviyyəsinin pisləşməsi ilə nəticələnir. Bu səbəblə iqtisadiyyatını sadəcə təbii ehtiyatlara indeksləyən ölkələrin həm daxili həm də xarici əlaqələrdə müstəqilliklərini itirmə mövqeyinə düşməsi səbəbiylə, iqtisadi baxımdan neftdən əldə ediləcək sərvətin digər sektorlara və insan qaynaqlarının inkişafına istiqamətləndirilməsi lazımdır. Beləcə, iqtisadiyyatda tək bir sektordan asılılıq da əngəllənmiş olacaqdır. Neftdən əlavə iqtisadiyyatın hərtərəfli inkişafı Azərbaycana həqiqi mənada iqtisadi və siyasi müstəqilliyi təmin edə biləcəkdir.

– Bəzi sektorların və ixracın inkişafı üçün dövlət subsidiyalarının tətbiqi vacibdir. Xüsusilə, sektor asılılığı nəzər nöqteyindən gələcəkdə təhlükə yaranmaması üçün, qeyri-neft sektorları daha həssaslıq və sıxlıqla dəstəklənməlidir. Dəstəklənməsi əsas olan sektorların başında kənd təsərrüfatı, heyvandarlıq, qida və sənayə kimi sektorlar gəlir. Bu sektorlara ilk olaraq xarici sərmayənin cəlb edilməsi, bundan əlavə bu sektorlarda məhsuldarlıq və keyfiyyətin artırılması lazımdır. Bu sahələrə ayrılan kreditlərin istifadəsinin sadələşdirilməsi isə, sektorun ixrac yönümlü istehsala, məşğulluğun artmasına və gizli işsizliyin azalmasına gətirib çıxaracaqdır.

Milli səviyyədə ekolojik problemlərin həlli, ətraf mühitin qorunması, kimyəvi tullantılara dair tənzimləmələr, kanalizasiya təmizləmə sisteminin yenidən təşkili, Xəzər dənizində biolojik rəngarəngliyi qorumaq istiqamətində işlərin görülməsi, torpaq çirkliliyinin qarşısının alınması, meşə təsərrüfatının yaxşılaşdırılması, ağac əkmə layihələrinin genişlədilməsi ilə kənd təsərrüfatı, heyvandarlıq və qida sənayesində mühüm irəliləyiş qeyd ediləcəkdir.

– Sovet sistemindən miras qalan cəmiyyətin ağır xəstəliklərindən biri olan və hər nə qədər müəyyən şəkildə dəyişikliyə məruz qalsa da, varlığını vaxt keçdikcə cəmiyyətin bütünündə hiss etdirməkdə olan rüşvət və korrupsiya ilə mübarizə davam etməlidir. Bu mübarizədə dövlət müəssisələrinin, ilk növbədə mövcud problemin genişlənməsinə və dərinləşməsinə, sosial-iqtisadi sistemi tamamiylə əhatə etməsinə mane olmaları vacibdir. Bu istiqamətdə dövlət sektorunda işləyənlərin orta aylıq gəlirlərinin, minumum həyat standartlarının üzərinə çıxardılması vacibdir.

– Dövrümüzdə iqtisadiyyata hakim olan nəzəriyyə qloballaşma fikridir. Bu fikir daha çox son illərdə "yeni iqtisadiyyat" termini çərçivəsində formalaşır.

Yeni iqtisadiyyat termini, cihaz və texnikanın yerinə yeni fikirlərin və ixtiraların əhəmiyyət qazandığı bir dünyanı ifadə edir.

Yeni iqtisadiyyat, Alvin Tofflərin "üçüncü dalğa" kitabında ifadə etdiyi "biliyə dayanan istehsal" bir iqtisadiyyat növüdür. Birinci dalğa olan kənd təsərrüfatı cəmiyyətində sahib olunan torpaq və kənd təsərrüfatı texnikası kimi istehsal amillərinin sahibliyi iqtisadi inkişafın və rifahın müəyyən edicisi ikən, ikinci dalğa olan sənayə cəmiyyətində bu amillərin yerini mədən, enerji ehtiyatları kimi ünsürlər almışdır. Üçüncü dalğa olaraq adlandırılan bilik cəmiyyətində isə, artıq iqtisadi inkişaf və rifahın müəyyən edicisi nə torpaqdır, nə də enerji ehtiyatları. Bilik cəmiyyətlərində inkişaf və rifah, zehni istehsal tərəfindən müəyyən ediləcək şəkildə birbaşa elmin çevrilməsi və sərmayə halına gətirilməsindən asılıdır.

Beləcə, iqtisadi inkişaf mübarizəsi fərqli perspektivlər qazanaraq, iqtisadiyyatın infrastrukturu əllə tutula bilən mallardan elm tutumlu mallar üzərində möhkəmlənməyə başlamışdır. İnformasiyanın istehsal mərhələsindəki yerinin get-dikcə artması nəticəsində, sənaye mallarının dəyər itirdiyini deyə bilərik. Avtomobil, mobil telefonu, peyk və genetikanın qiyməti arasında müqayisə edildikdə, dövrümüzdə bilginin çox vacib və dəyərli hala gəldiyi görüləcəkdir. Yeni iqtisadiyyatda əlavə dəyərin çoxu beyin tərəfindən istehsal olunur.

Bu çərçivədə, informasiya boşluğunun azaldılması üçün; biliyin əldə edilməsindən daha çox hazırlanması, qavranması və yayılması lazımdır.

O halda Azərbaycanın siyasi müstəqilliyini həqiqi mənada qazanması baxımından vacib olan iqtisadi müstəqillik, iqtisadi inkişaf və iqtisadi inteqrasiya üçün, elmə və elm insanına ehtiyacı vardır. Yoxsa, Azərbaycanın sadəcə neft və təbii qaz ehtiyatarının varlığına arxayınlaşarsaq, siyasi müstəqilliyini əbədi qılacaq iqtisadi müstəqilliyini və inkişafını həyata keçirtmək dövrümüzdə mümkün olamayacaqdır. Qaldı ki, Azərbaycan mühüm bir kadr potensialına sahibdir. Vacib olan iş gücünün potensial qabiliyyətinin, yeni iqtisadiyyatın şərtlərinə uyğun olaraq, inkişaf etdiriləcəyi bir təhsil strukturunu formalaşdırmaqdır.

Enerji ehtiyarlarından əldə edilən gəlirin, informasiyanın əldə edilməsinə və daha da əhəmiyyətlisi informasiyanı ortaya çıxaracaq insanları yetişdirəcək təhsil müəssisələrinin təşəkkülünə və inkişafına istiqamətləndirilməsi ən doğru qərar olacaqdır. Bu mövzuda Hindistan, Cənubi Koreya və Hollandiya misalından istifadə edilməsi üçün lazımi işlərin görülməsi və görülən işlərə dəstək verilməsi də lazımdır.

– Qloballaşan dünyada sərmayənin də qlobal bir sima qazanaraq qloballaşdırılması səbəbiylə, beynəlxalq sərmayə hərəkətləri iqtisadiyyatdakı konjonktüra dalğalanmaların da əsas təsir obyekti olmuşdur. İqtisadiyyatdakı konjonktür dalğalanmalar xüsusilə 1980-ci illərdən sonra maliyyə böhranı şəklində başlayaraq ümumi iqtisadi böhrana çevrilən bir mahiyyət qazanmışdır.

Maliyyə böhranlarından minimum dərəcədə təsirlənmək üçün beynəlxalq sərmayənin ölkə daxilində məhsuldar sahələrə istiqamətləndirilməsi, yəni, xarici sərmayədən birbaşa xarici sərmayə qoyuluşu şəklində faydalanılması lazımdır. Onsuz da inkişaf etməkdə olan ölkələrdə də iqtisadi böyümənin sağlam təməllərə dayanması üçün "isti pul" yerinə uzun müddətli borclara ehtiyac vardır.

İnkişafda olan və keçid dövründəki ölkələrdə də, inkişaf və böyümə baxımından iqtisadiyyatın istehsal həcmini artırıcı siyasət yeridilir. Təklif Əsaslı İqtisadiyyat olaraq məlum olan bu siyasət çərçivəsində yeni vergi güzəştlərinin edilməsi vacibdir. Nəzəri olaraq, 1970-ci illərdən sonra ortaya çıxan Təklif Əsaslı İqtisadiyyat Nəzəriyyəsi durğunluğun aradan qaldırılması üçün iqtisadiyyatın təklif tərəfinin yəni, istehsal faktorları təklifinin təşvik edilməsi vacibliliyini, bunun üçün də xüsusilə vergi güzəştlərinin vacibliliyini müdafiə edir. Tələb qıtlığından çox, təklif qıtlığının müşahidə edildiyi inkişafda olan və ya keçid dövründəki iqtisadiyyatlarda də bu nəzəriyyəyə görə vergi güzəştləri başda sərmayə olmaqla, istehsal faktorları, istehsalı artıracaq şəkildə hərəkətə keçrilməlidir.

Bu səbəblə də, 1998-ci ildəki Rusiya Maliyyə Böhranı ilə birlikdə sarsılan Azərbaycan iqtisadiyyatının "Hollandiya Xəstəliyi"ndən xilas ediləcək şəkildə, xarici sərmayənin və gəlirinin ölkədən çıxmasının qarşısını almaq və ölkəyə yeni bir sərmayə axımı başlada bilmək; xüsusilə, portfel investisiyası yerinə əlavə dəyəri yüksək birbaşa qoyulan investisiyaları artırmaq üçün, xarici sərmayə girişini və bu istiqamətdə istehsala dair investisiyaları təşvik edici və dəstəkləyici siyasətlərə ehtiyac var. Bu siyasətlərin başında; neft və təbii qaz ilə əlaqədar olmayan sahələrin istehsal və məşğulluq səviyyəsinin inkişafı üçün lazımi investisiya mühitinin əlverişli hala gətirilməsi gəlir. İnvestisiya mühitinin əlverişliliyi üçün, ölkədə siyasi və makroiqtisadi stabilliyin olmasını vacib qılır. Bunun üçün isə əvvəlcə ticari olmayan risklərin ortadan qaldırılması, daha sonra vergi dərəcələri, vergi toplama sistemi və mədəniyyəti, xarici sərmayəni qoruyucu hüquqi və inzibati tənzimləmələrin mövcudluğu və tətbiqi, vergi və gömrük sistemlərinin optimizasiyası ilə əlaqədar tənzimləmələr aparılmalıdır. Ticarət həcminin artırılması üçün isə xarici ticarətdə liberallaşma və gömrük sisteminin müasirləşdirilməsi lazımdır. Bundan əlavə, ölkənin ixrac potensialının artırılması üçün də sərbəst regionlar yaradılmalıdır.

– Xarici investisiyaların ölkəyə axımına çalışan təşkilatların dövlət tərəfindən daha aktiv şəkildə koordinasiya edilməlidir. Dünya sərmayə bazarlarında ölkənin enerji ehtiyatları xaricindəki sektorlarla bağlı xarici investisiyanı cəlb edici reklam və informasiya da təşəkkül etdirilməlidir. Beynəlxalq maliyyə təşkilatları ilə investisiya müttəfiqliyinin daha çox inkişafı lazımdır.

– Mövcud nəqliyyat, infrastruktur və telekommunikasiya sisteminin yenilənməsinə dair işlərə üstünlük və sürət verilməlidir.

– Bank sektoru və maliyyə sektorunun beynəlxalq standartlara çatdırılması üçün lazımi tənzimləmələr tezliklə həyata keçirilməlidir. Bakı-Ceyhan boru xəttinin fəaliyyətə keçməsi ilə birlikdə ölkəyə daxil olan yeni maliyyə vəsaitləri ilə sərmayə ehtiyatının artmasıyla yanaşı, görüləcək hüquqi və inzibati tənzimləmələrlə iqtisadiyyatın daha çox qeydiyyata alınması maliyyə sisteminin inkişafına, həm də özəl sektorun bu bazarlardakı üstünlük qazanmasına güc qazandıracaqdır.

– Xarici borc miqdarının artmasına imkan verilməməli, büdcə kəsirləri bu yolla aradan qaldırılmamalıdır.

– Azərbaycanda həyata keçirilməsi vacib olan bir sıra böyük həcmli investisiya və layihənin maliyyələşdirilməsi üçün xarici maliyyə mənbələrinə ehtiyac vardır. Xarici maliyyə mənbələri investisiya və layihələrə kredit vermələri üçün, dövlət zəmanəti tələb edirlər. Layihə və investisiyalara dövlət zəmanəti verilməsi üçün isə, lazımi hüquqi tənzimləmələr edilməlidir: Vergi və gömrük rüsumlarının uyğun yəni ödənə biləcək bir səviyəyə gətirilməsi, vergi nəzarət sisiteminin qarışıq və sahibkarlığı qaçırdacaq bir mahiyyətdə olması və ticari fəaliyyəti olan bütün müəssisələrdən vergi alınması, yəni verginin geniş kütlələrə yayılması, bu istiqamətdə ƏDV-nin yenidən gözdən keçirilməsi lazımdır.

– İnvestisiya siyasətində yeni bir addım olaraq, investisiyaların sığortalanması sisteminin formalaşdırılması, investisiya fondları və qiymətli kağızlar bazarının formalaşmasının sürətləndirilməsi vasitəsi ilə ölkəyə portfel investisiyalarının cəlb edilməsinə nail olunmalıdır. Bu nöqtədə Avroya keçən Avropa ölkələrinin mümkün ola biləcək təsirindən müsbət mənada faydalanmaq Azərbaycan baxımından mümkün ola biləcəkdir. İnvestisiya siyasətində yerli investorların ölkə iqtisadiyyatının inkişafına iştiraklarını artırmaq üçün də əlavə bir əhəmiyyət verilməlidir.

– Bürokratiya minumum səviyyəyə salınmalı və süni maneələr ortadan qaldırılmalıdır. Ölkədə müstəqil rəqabət və mülkiyət zəminində yerli sahibkarlığı qoruyacaq mexanizmin formalaşması, yəni iqtisadiyyatda liberallaşma axımının davam etməsi, özəl sahibkarlığın gücləndirilməsi lazımdır.Bu istiqamətdə ASAN xidmət təqdirə layiq bir layihədir.Eyni zamanda "elektron hökümət" və "Bir Pəncərə Sistemi" kimi mütərəqqi layihələr artırılmalıdır. Bunun üçün bazar iqtisadiyyatı anlayışına zidd olan monopoliyanın formalaşmasına icazə verilməməli, iqtisadiyyatın mövcud olan monopoliyalardan xilas edilməsinə davam edilməli və təbii monopoliyaların müvafiq tədbirlərlə tənzimləməlidir. Bir başqa ifadəylə, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında klassik görüntülərdən olan monopoliyaların da ortadan qaldırılaraq haqsız rəqabət mühitini ortadan qaldırılmalıdır.

İstehsal faktorlarının optimum bölgüsü, maksimum istehsal səviyyəsinə çatmaq üçün lazımi şərtlərdən biridir. Bunun üçün isə, istehsal faktorlarının hər birinin istfadə edildikləri sahələrdə və sektorlardakı marjinal məhsuldarlıqları-

nın bir-birinə bərabər olması lazımdır. "Alternativ marjinal məhsuldarlıqların bərabərliyi nəzəriyyəsi" olaraq adlandırılan bu vəziyyət, bir ölkədə ancaq tam rəqabət şərtlərində həyata keçir. İnkişaf etməkdə olan ölkələrin xüsusiyyətlərindən biri olan monopoliyaların qarşısının alınaraq rəqabət mühitinin əldə edilməsi yüksək iqtisadi inkişaf üçün lazım olan əsas şərtlərdən biridir. Ehtiyatların qıt olduğu da diqqətə alındıqda, ehtiyatların optimum istifadəsində həssaslığı daha əhəmiyyətli qılır. Əlbəttə istehsal faktorlarının regional və sektoral çevikliyinin əldə edilməsi üçün lazımi şərtlərin də yaradılması lazımdır.

İqtisadiyyatda rəqabət mühitinin yaradılmasıyla, xarici və yerli sərmayənin ölkəyə investisiya qoymasına, istehsal faktorlarının sektorlar arasında bərabər şəkildə paylanmasına və qiymətlər ümumi səviyyəsinin qəbul edilə biləcək səviyyədə olması ən son faydanın maksimum olmasında pay sahibi olacaqdır.

– Tətbiq olunacaq siyasət kompeks bir xarakter daşımalıdır. Belə bir xarakter daşıya bilməsi üçün reallaşan mənfəətlərin ölkə xaricinə çıxarmaq əvəzinə, yenidən ölkə daxilində istifadəsini təşvik siyasətlərinə ehtiyac vardır.

– Xəzərin statusundakı qeyri-müəyyənlik isə, xarici investorlara mənfi təsir edir. Buna görə də, problemin həlli üçün atılacaq müsbət addımlar həm sahil dövlətləri, həm də regionun enerji ehtiyatlarının istifadəsinə qoşulmaq istəyən xarici şirkətlər üçün müsbət nəticələr yaradacaqdır.

– Özəlləşdirmədə ən qısa zamanda və ən sağlam şəkildə mühüm addımlar atılaraq dövlətin iqtisadiyyatdakı təsirliliyinin azaldılması lazımdır. İqtisadiyyatda dövlətin rolunun azaldılması və dövlət mülkiyyətinin özəlləşdirilməsi yeni iqtisadi münasibətlərin yaranma vasitəsi kimi dəyərləndirilməlidir.

Mülkiyyət münasibətlərinin sərbəst bazar prinsiplərinə əsasən yaradılmasının sürət qazanması, "gizli iqtisadiyyat" və "kriminal iqtisadiyyat" və vergidən qaçma və qeyri-qanuni sərmayə axımı kimi vəziyyətlərə qarşı tədbir almağı daha zəruri edir.

Mülkiyyət münasibətlərinə mülki xarakter vermək üçün, əvvəlcə istifadə etmə mexanizması və maliyyə-pul siyasətlərində şəffaflıq əldə edilməli, bürokratik əngəllər ortadan qaldırılmalıdır.

– Müasir iqtisadi idarə etmə sistemi ilə dövlətin iqtisadi inkişafdakı istiqamətləndirici rolu artırılmalıdır. Bunun üçün dövlət büdcəsində sosial investisiyalara üstünlük verilərək dövlət xərclərinin, inkişafı tempində rolunun artırılması əldə ediliməlidir.

– Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını dərinləşdirmək, sürətləndirmək və genişlətmək lazımdır: Beynəlxalq iqtisadi inteqrasiyanın dərinləşdiyi dövrümüzdə xarici ticarətin əhəmiyyəti bir xeyli artır. Xarici iqtisadi fəaliyyətlər də daha çox dünya bazarlarının müasir qaydalarının tətbiqi, beynəlxalq iqtisadi və maliyyə təşkilatları ilə müttəfiqliyin gücləndirilməsi və beynəlxalq ikili vəya çox tərəfli müttəfiqliyin dərinləşdirilməsinə əhəmiyyət verilməlidir.

Beynəlxalq bazarlarda özünə xas bir yer tutmaq üçün ölkələr arasında rəqabət getdikcə kəskin bir hal alır. Bu prosesdə geridə qalmanın, sürətli hərəkət etməməyin hər bir ölkə üçün mənfi təsirləri ola bilər. Bu səbəbdən də, Azərbaycan öz iqtisadiyyatının indiki vəziyyətini nəzərdə tutaraq, dünya iqtisadiyyatına inteqrasiya etməsinə imkan verən bütün potensialını müəyyənləşdirməli və bundan lazımi şəkildə faydalanılmalıdır. Kifayət qədər potensiala sahib olan ölkənin geosiyasi və coğrafi mövqeyi, təbii ehtiyatlarının zənginliyi, böyük elmi-texniki və kadr potensialı, insanların yüksək iş görmə qabiliyyətinə sahib olması diqqətə alınmalı, bu imkanlar dünya iqtisadiyyatına səmərəli və faydalı inteqrasiya üçün səfərbər edilməlidir.

Heç bir ölkə, hətta ən böyük ölkələr belə, dünya iqtisadiyyatına inteqrasiya olmadan, beynəlxalq iqtisadi münasibətlər qurmadan inkişaf edə bilməz. Beynəlxalq iqtisadi münasibətlərə bağlanma isə, əvvəlcə və daha üstünlüklü olaraq regional inteqrasiya şəklində həyata keçir. Çünki, regional inteqrasiya tərəfləri müxtəlif qaynaqlar və texnologiyaların əldə edilməsində, yeni bazarlara çıxış, üçüncü ölkə şirkətləri ilə müqayisədə bu bazarlara daha sərbəst girmə və rəqabət üstünlüyü qazanması kimi bəzi əlverişli şərtlər təmin edir. Eyni zamanda ölkənin dünya iqtisadiyyatına inteqrasiya olmasının iqtisadiyyatın tamamiylə idxaldan asılı vəziyyətə düşməsi kimi bəzi mənfi nəticələrin də ortaya çıxa biləcəyi nəzərdə tutularaq lazımi tədbirlər alınmalıdır.

– Yerli istehsala dəstək verilməlidir: Sənayedə aparıcı sahələrin, bu nöqtədə yerli xammal istifadə edən və dünya bazarlarında yüksək tələbə sahib məhsullar istehsal edən əsas sektorların müasir texnologiya ilə dinamik inkişafı əldə edilməlidir. Asiyadakı yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, yerli istehsalın inkişafı və gücləndirilməsi üçün müəyyən dövrlərdə daxili bazarnın qorunması və yerli istehsalın himayə edilməsi istiqamətində ciddi tədbirlər alınmalıdır. İnkişaf Etmiş Ölkələr iqtisadi inkişafın müəyyən mərhələlərdə yerli istehsalçılarını himayə edən və daxili bazarı qoruyan siyasət yeritmişlərdir. Azərbaycanda yerli istehsalçılara xarici məhsullarla rəqabətdə müəyyən nisbətdə uyğun şərtlər yaratmaq, yerli məhsulların rəqabət imkanlarının gücləndirilməsi üçün lazımlıdır.

– Neft hasilatının son halqası və ölkənin mineral ehtiyatları ilə birbaşa əlaqədar olan neft-kimya sənayesi "Hollandiya Xəstəliyi"nə düşməmə nöqtəsində inkişafı vacib olan ən əhəmiyyətli sektorların başında gəlir.

– Metallurgiya sənayesi, zəngin xammal ehtiyatına sahib olan və istehsal edilən məhsulların dünya bazarında yüksək likviditliyə sahib olması səbəbiylə üstünlük verilməsi vacib olan sektorlar arasında yer alır.

– Dünya bazarlarında mühüm tələb potensialına sahib olan istehsal sahələrinə üstünlük verilməyə çalışılarkən, üstünlük ölkədə mövcud olan təbii ehtiyatlardan faydalana biləcək sahələr üzərində cəmləşməlidir.

– Xəzərdə neft və təbii qazla yanaşı mühüm gəlir qaynağı olan balıq və kürü istehsalı ilə əlaqədar olaraq Azərbaycan, Xəzərin statusuna dair son qərarın verilməsini gözləmədən dənizdəki çirklənmə və qadağan olunmuş ovlanmağın qarşısını almaq məqsədiylə almış olduğu tədbirləri artıraraq kompleks tədbirlər həyata keçirməlidir.

– Regional inkişafı əldə etmək üzrə qərarlaşdırılan regional inkişaf proqram və siyasətlərinin tətbiq edilmə mərhələsinə son dərəcə diqqət göstərilməlidir. Regional inkişafda tarazlığın əldə edilməsi üçün yerli təbii ehtiyatların müəssisələrdə istifadəsinə diqqət göstərilməlidir.

– ÜDM artımı ildə 10%-dən yuxarı reallaşdırmağa çalışılmalıdır. Davam etdirilə biləcək bir iqtisadi inkişafın, dövlət idarəsinin və inkişafda olan siyasi mexanizmin təsirli işləməsinə, bəşəri sərmayənin inkişafına bağlı olduğu düşünülür. Ölkənin siyasi müstəqilliyi, milli iqtisadiyyatın inkişafına mühit yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı da ölkənin müstəqilliyinin əsaslarını daha da qüvvətləndirəcəkdir. Müstəqilliyin ilk on ilini, siyasi müstəqilliyin iqtisadiyyata xidmət etdiyi bir dövr olaraq dəyərləndirmək mümkündür. On illik dövrdən sonrakı zaman isə, iqtisadiyyatın ölkənin siyasi müstəqilliyinin güc qazanmasına xidmət etməsi lazım olan bir dövr olaraq diqqətə alınması lazımdır.

– Gəlir səviyyəsinin yüksəldilməsi ilə birlikdə gəlirin paylanılmasında ədalətli olmaq da lazımdır. Xüsusilə, cəmiyyətdə orta sinfin gücləndirilməsi lazımdır.

– Sosial müdafiə sisteminin müasir tələblərə uyğun olaraq formalaşdırılması və xalqın rifah səviyyəsinin yüksəlməsinə nail olunmalıdır. Bu səpgidə iqtisadi inkişafın və dövlət büdcəsinin sosial tərəfinə üstünlük verilməsi lazımdır. Azərbaycanda zaman içində orta təbəqənin gedərək azaldığı müşahidə edilir. Bu mənfi gedişatın təhlükəli səviyyəyə qalxmaması üçün, iqtisadi qərarların sosial tərəfinə daha çox əhəmiyyət verilməlidir.

– Neft və təbii qaz hasilatı ilə yanaşı metallurgiya, enerji, kimya kimi yüksək səviyyədə su və enerji istifadəsi nəticəsində böyük miqdarda tullantıların yaranmasına səbəb olacaq sahələrdən təşkil olunması və ərazisinin 20%-i işğal edilmiş olması səbəbiylə dünyanın ekolojik baxımdan ən təhlükəli regionlarından biri halına gələn Azərbaycanda ekolojik təhlükəsizliyin formalaşdırılacağı bir sosyo-iqtisadi sistemin yenidən qurulmasına diqqət artırılmalıdır.

– Manatın alım gücünün qorunması məqsədi ilə, əhalinin real gəlirlərinininin artırılması ilə yoxsulluq səviyyəsinin azaldılmasına nail olunmalıdır.

– Ölkədə tətbiq olunan iqtisadi siyasətlərinin dəyişən şərtlərə görə sürətlə yenidən gözdən keçirilərək zamanın tələbi ilə uyğunlaşdırılması lazımdır. Real iqtisadiyyatın normal fəaliyyəti üçün pul-kredit siyasətinin şəffaflığının və iqtisadi şərtlərə uygunlaşmanın əldə edilməsinə çalışılmalıdır.

– 2016-ci ildə Azərbaycanın Neft Fondu və Mərkəzi Bankında 40 milyard ABŞ dollarıından çox valyuta rezervinin olması onun beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığının aktuallığına mane olmur. Azərbaycanın maliyyə imkânlarının artması, xüsusilə, neft gəlirlərinin idarə edilməsi məqsədi ilə yeni-yeni layihələrin həyata keçirilməsini zəruri edir. Azərbaycan bu gəlirlərin bir hissəsini xarici ölkələrdə müxtəlif layihələrin reallaşması üçün xərcləyir. Bu layihələrin reallaşması prosesində əğər hər hansı bir anlaşmazlıq zamanı Dünya Bankının Beynəlxalq İnvestisiyaların Anlaşmazlıqlarının Həlli Mərkəzi və ya MİGA təşkilatının köməyi zəruri olur.

– Beynəlxalq Maliyyə Təşkilatlarına görə Azərbaycanın inkişaf göstəriciləri , bəzi sahələrdə çox müsbət inkişafa səbəb olmuş, adambaşına düşən illik gəlir 2005-ci ildə 1.270 dollardan 2015-cu ildə 7.850 dollara qalxmış (Atlas metodu vasitəsilə hesablanıb), Dövlət Neft Fonduna yatırımlar etməklə neft gəlirləri daha da sərfəli idarəsinə və gələcək nəsillərə saxlanmasına cəhd edilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan 2009-cu ildə Mədən Sənayesi üzrə Şəffaflıq Təşəbbüsünə əməl etdiyi təsdiqlənən ilk ölkə olmuşdur. Bununla yanaşı, Biznes qurmaq yönündə əhəmiyyətli proqres qeydə alınmış, 2007-ci ildə biznesin qeydiyyata alınması müddəti 51 gün idisə, 2015-cu il Biznes Qurma Hesabatında 8 günə düşmüş və bütün bu müsbət göstəricilər yeni əməkdaşlıqlar üçün əlverişli zəmin yaratmışdır.

İqtisadiyyatda yenidən bərpa istiqamətində əsas addımların sürətlə atılmağa və bu prosesdə xarici sərmayədən qeyri–neft sektorlarına daha intensiv olaraq istifadə edilmənin əhəmiyyətini daha yaxşı dərk etməyə, beləliklə, investisiya mühitinin daha əlverişli hala gətirilməyə başlandığı Azərbaycanda qeyri-neft sektorlarında böyük investisiyalara imza atılmağa başlanmışdır.

2004-2018-ci illəri əhatə edən 3 Regionların Sosial-İqtisadi İnkişaf Proqramı və 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, 2006-ci ildə isə Bakı-Ərzurum təbii qaz boru xəttinin fəaliyyətə başlaması diqqətə alınaraq, demək olar ki hər bir sektorda ehtiyac hiss olunan investisiya və sahibkarlıqlarda, investor və sahibkar olaraq iştirak etmək fürsətini türk iş adamlarının maksimum şəkildə qiymətləndirməsi lazımdır. Eyni zamanda Azərbaycanın neft gəlirlərinin əhəmiyyətli bir hissəsini Türkiyəyə yatırması Azərbaycan Türkiyə iqtisadi əlaqələrini gücləndirməkdədir. Azərbaycanla Türkiyə arasında enerji sektorunda əlaqələrin yeni vəziyyəti yeni dövrdə alternativ enerji mənbələrindən birgə istifadə təşkil etməlidir. Bu sferada Azərbaycanın Türkiyənin zəngin bazar iqtisadiyyatı təcrübəsinə və texnologiyasına, Türkiyənin isə Azərbaycanın enerji resurslarına ehtiyacı var.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. A. V. Vəliyev, "Azərbaycanın İstehlak Bazarının Formalaşmasında MDB Ölkələri ilə İqtisadi Əlaqələrin Rolu", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.185-186.
2. A. A. Salmanov, "Azərbaycan Nəqliyyat Tranzit Potensialı-İqtisadi Əlaqələri Stimullaşdıran Amil Kimi", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.54.
3. A. Nadirov – Ş. Muradov – v.d., *Azərbaycan İqtisadiyyatı*, Elm Nəşriyyatı, Bakı, 2003.
4. Ahmet Ünal Çeviköz, "Türkiye Azerbaycan Ekonomik İlişkileri - İşbirliğinde Yeni Ufuklar", *Diyalog Azerbaycan Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Bakü, Mart-2003, ss. 6-7.
5. Agajan Ahmedov, "Regions Develop Dynamically", (Interview), *Media News*, March 31 – April 08, 2005, s.4.
6. Akif Musayev, "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Strategiyası və Vergi Siyasəti", *İqtisadiyyat və Audit Jurnalı*, No: 10, Oktyabr-2001, s.12.
7. Alkan Soyak–Zenfira Nesirova, "Küreselleşme Sürecinde IMF Politikalarının Sonuçları: Azerbaycan Deneyimi", *Articles of The International Conference On A Theme 'Caucasus and Central Asia in The Globalization Process'*, Bakı, 2003, p.14-20.
8. Altan Türker, "Tükenmiş Bir Çevresel Miras Orta Asya'da Sınır Ötesi Çevre Sorunları ve Doğal Kaynakların Tahribi", *Avrasya Etüdleri*, C.1, S.1, İlkbahar 1995, s.42.
9. Amanda Batters, *Hart's Evroil*, West Byfleet U.K., Vo.8,I.7, July-1997, s.12.
10. Ariel Cohen, "Caspian Basin Confronts Boom and Bust Energy Cecle", http://www.sibnet.tm/article.php?sid=7334&mode=thread&order=0&thold=0 (04.04.2005).
11. Arif Vəliyev, *Həftənin Qonağı Proqramı-AZTV1*, 26.01.2003.
12. Asəf Nadirov, "İqtisadiyyatın Yeni İnkişaf Mərhələsi", *Azərbaycan,* 15 Sentyabr 2001, s.2.
13. Atila Artam, *Türk Cumhuriyetlerinin Sosyo Ekonomik Analizleri ve Türkiye İlişkileri*, Sabri Artam Vakfı Yayınları, İstanbul, 1993.
14. *Avrasya Dosyası*, TİKA Bülteni, Çeşitli Sayılar.
15. Ayhan Erdal, "Dünya Ticaret Örgütü ve Azerbaycan'ın Üyelik Süreci", *Azərbaycan Müstəqillik-dən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.110-112.
16. Ayhan Karaca, "Azerbaycan'da Ekonomik Dönüşüm Süreci ve Reformların 10 Yılı", http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/ocakozel2002/ayhan.htm. (13.03.2003)
17. Azad M. Cavadov, "Banking System and Real Business", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.368-369.
18. Azər Əmiraslanov, "Dövlət Müstəqilliyi və Milli İqtisadiyyatın Formalaşması Problemləri", *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr 2001, ss.50-57.
19. Azər Mehdiyev, "Azərbaycanın Dünya İqtisadiyyatına İnteqrasiyasının Reallıqları", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001, s.26.
20. *Azerbaijan International Magazine*, Müxtəlif Sayıları.
21. Azerbaijan, *IMF Economic Review*, Washington DC, May-1992.
22. *Azerbaycan Cumhuriyeti*, http://www.yesevi.org/tdbm/azerbaycan.html. 13.03.2003.
23. *Azərbaycan Qəzeti*, 11 Noyabr 1995.
24. *Azərbaycan Qəzeti*, 23 Yanvar 1997.

25. *Azərbaycan İnsan İnkişafı Haqqında Hesabat 1997*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1997.
26. *Azərbaycan Rəqəmlərdə*, ARDSK Nəşrləri, Bakı, 2003.
27. *Azərbaycan Respublikası Bank Sistemi Haqqında Məlumat Məcmusu*, Azərbaycan Banklar Assosasiyası, Bakı, 2000.
28. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2002, www.azstat.org. (8.4.2003).
29. *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1996*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1996.
30. *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1998*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1998.
31. *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 1999*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 1999.
32. *Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat 2002*, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, 2002.
33. *Azərbaycan Respublikasının Konstitusiyası*, Azərbaycan Nəşriyyatı, Bakı, 1996.
34. Azərbaycan Respublikasının Milli Bankı, http://www.nba.az. 8.4.2003.
35. *Azərbaycan Statistik Göstəriciləri 2002*, ARDSK Nəşrləri, Bakü, 2002.
36. *Azerbaycan Ülke Raporu*, DPT Müsteşarlığı Dış Ekonomik İlişkiler Genel Müdürlüğü, Ankara, Mayıs-2002.
37. *Azərbaycanın İqtisadi İcmalı*, Rüblük Bülleten, TASİS Avropa Ekspertiza Xidməti, Bakı, Aprel-İyun 2000.
38. *Azərbaycanın İqtisadi İcmalı*, Rüblük Bülleten, TASİS Avropa Ekspertiza Xidməti, Bakı, İyul-Dekabr 1999.
39. Əzim Abbasov, Azərbaycanda Maliyyə Bazarının Formalaşması və bazar İqtisadiyyatında Maliyyə-Kredit Sisteminin Problemləri, Poliqraf Nəşriyyatı, Bakı, 2003.
40. *BP Statistical Review of World Energy 2004*, http://www.bp.com/centres/energy (07.04.2005).
41. Bahri Özdemir, "Azerbaycan Ekonomisi ve Azerbaycan-Türkiye Ticari İlişki-leri", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Mart-2003, ss.24-25.
42. *Brief Overwiev of Business Practices, New Investment Opportunities and Legal Environment*, Azerbaijan Investment Promotion and Advisory Foundation, Baku, 2005.
43. Budaq Budaqov–Yaqub Qərbli, *Azərbaycan Respublikasının Fiziki Coğrafiyası*, Öyretmen Nəşriyyatı, Bakı, 1996.
44. C. B. Rosenberg-T. O. Saavalainen, "Dealing with Azerbaijan's Oil Boom*", Finance and Development,* Vol.35, No.3, September-1998, ss.35-38.
45. C. Şərifov, "Azərbaycanda Valyuta Bazarının Müasir Vəziyyəti ve Onun İnkişaf Perspektivləri", *Azərbaycan XXI Əsrin Astanasında*, Azərbaycan Elmlər Akademiyası Nəşri, Bakı, 1998, ss.551-552.
46. Charles S. Fairbanks, "Moskova Darbesinden Sonra", (Çev: Levent Köker), *Demokrasinin Küresel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, ss.333-341.
47. Cihan Bulut, "Non-Oil Sectors in Azerbaijan", *Journal of Caucasian Studies*, Number:1, Fall-2004, ss.20-25.
48. Cihan Bulut, 'Bilgi Toplumunda Yeni Ekonomi Anlayışı ve Bu Çerçevede Azerbaycan Değerlendirmesi', *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Sayı:15, Bakü, Şubat-2004, ss. 38-39.
49. Cihan Bulut, "Azerbaijan Valuation in The Light of Model of Indian Information Technologies", *Articles of The International Conference On A Theme 'Caucasus and Central Asia in The Globalization Process'*, Bakı, 2003, ss.58-63.

50. *Consulting & Business*, Baku, Oktyabr-1997.
51. *Consulting & Business*, S.9, Baku,1999.
52. Çingiz Abbasov, *Azərbaycanın Dünya İqtisadiyyatına İnteqrasiya Yolları*, Elm Nəşriyyatı, Bakı, 2005.
53. D. A. Mamedov, O. A. Aliyev, "Kontrakt Veka i Ago Vliyaniye Na Ekonomiçec-koye Rzvitiye Azerbaicanskoy Respublika" (Əsrin Müqaviləsi və Azərbaycanın İktisadi İnkiçafına Təsiri), *Azərbaycan XXI Əsrin Astanasında*, (Ziyad Səmədzadə), Azərbaycan Elmlər Akademiyası Nəşri, Bakı, 1998, s.87.
54. Daniel Yergin–Thane Gustafson, *Rusya 2011 ve Dünyadaki Yeri*, (Çev: Özden Arıkan), Sabah Yayınları, İstanbul, 1994.
55. Dilarə Elma, "Azerbaycan Bank Sektörunda Elektronik Ödeme Uygulamaları", *Journal of Caucasian Studies*, Number:1, Fall-2004, ss.29-33.
56. *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Sayı:10, Bakü, Ekim-2001.
57. *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, TÜSİAB Cemiyeti, Bakü, Mart-2003.
58. *Doing Business in Azerbaijan*, Baker&McKenzie, May-2000.
59. "Dövlət Statistika Komitəsi Məlumatları", *Azərbaycan Zaman Qəzeti*, 13-14 Fevral 2003, s.6.
60. E. Əhmədov - M. Hacıyev, *Azərbaycan İqtisadiyyatı*, Səda Nəşriyyatı, Bakı, 2004.
61. E. Ö. Hüseynov, "Reformatika və Onun Hiper dövrə Uyğunlaşdırmağın Zəruriliyi", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.92-99.
62. E. Ş. Səmədzadə, "Ekoloji Təhlükəsizlik – Menecement və Audit Obyekti Kimi", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.164-165.
63. E. S. İmanov - E. M. Babaşov - R. H. Dayıyev, "İqtisadi İslahatlar Şəraitində Əhalinin Sosial Müdafiəsinin Təşkili Məsələləri", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı-2001, s.102.
64. E. V. Əliyev, "Azərbaycanın Vergi Siyasəti və Onun GUÖAM Təşkilatı Çərçivəsindəki İqtisadi Əməkdaşlığa Təsiri", *İqtisadiyyat və Həyat Jurnalı*, No:3-4, Mart-Aprel-2004, ss.87-91.
65. Əbülfəz Qarayev, "Azərbaycan Bu Gün Beynəlxalq Olimpiada Oyunlarına Müvəffəqiyyətli İmza Atan Dövlətlər Sırasındadır", *Diyalog Azərbaycan İş Dünyası Jurnalı*, TÜSİAB Cəmiyyəti, Bakı, Mart-2003, s.16.
66. Əkbər Eldaroğlu, "Azərbaycan Hökuməti Yoxsulluq Problemini Həll Etməyə Çalışır", *Azərbaycan Milli Demokratiya Fondu "Azərbaycan" Bülleteni,* No:32 (152), 09 Avqust 2001.
67. Əkbər Eldaroğlu, "Dünya Ticarət Təşkilatı və Azərbaycan", *Azərbaycan Milli Demokratiya Fondu "Azərbaycan" Bülleteni, No:22 (142),* 31 May 2001.
68. Əkbər Eldaroğlu, "Neft Fondunun Vəsaitləri Hansı İstiqamətə İstiqamətləndirilməlidir?", *Azərbaycan Milli Demokratiya Fondu "Azərbaycan" Bülleteni,* No:25 (145), 21 İyun 2001.
69. Əkbər Eldaroğlu, "Qeyri-Neft Sektorunun İnkişafında Azad İqtisadi Zonalar Mühüm Rol Oynaya Bilərdi", *Azərbaycan Milli Demokratiya Fondu "Azərbaycan" Bülleteni,* No: 30 (150), 26 İyul 2001.
70. Elçin Süleymanov, "Azərbaycan və Avropa Yenidənb Qurma və İnkişaf Bankı Münasibətləri", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.101-102.
71. Elçin Süleymanov, "Müstəqillik Sonrası Azərbaycan və Dünya Bankı Münasibətləri", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.102-103.
72. Eldar Şahbazov, "XXI Əsrin Əvvəllərində Azərbaycan Respublikasının Neft və Qaz Sənayesi", *Dirçəliş - XXI Əsr Jurnalı*, No 5 (63), May-2003, ss.104-109.

73. Elman Nəsirov, "Azərbaycan Neftinin Dünəni Bugünü ve Sabahı", *Azərbaycan Neftinin Dünəni Bugünü ve Sabahı*, (Ed. M Mərdanov v.d.), Bakı, 1997, s.141.
74. Elman Rustamov, "Development Strategies in the Banking Sector of Azerbaıjan", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.270-288.
75. Elmar Daigov, "Banking Development in Azerbaijan", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.226-237.
76. Elnur Mustafayev, "Banking Development in Azerbaijan Republic", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.270-288.
77. Elövset Qocayev, "Azerbaycan İqtisadiyyatında Siğortanın Rolu", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:15, TÜSİAB Cemiyeti, Bakü, Şubat-2004, ss.40-41.
78. Elşan Memmedov, "Asrın Müqavilesi Azerbaycan Neft Saneyisinin İnkişafında Mühüm Merheledir", *Azerbaycan Neftinin Düneni Bugünü ve Sabahı*, (Ed. M Merdanov v.d.), Bakı, 1997, ss.48-50.
79. Ercan Sancak, *Azerbaycan İqtisadiyyatı*, Qafqaz Üniversitesi Yayınları, Bakı, 1999.
80. Ersan Bocutoğlu, *Orta Asya ve Kafkasya'daki Durum ve Avrupa Güvenliği*, Karadeniz Teknik Üniversitesi Matbaası, Trabzon, 1998.
81. *Ətraf Mühitin Mühafizəsi Üzrə Milli Fəaliyyət Planı*, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Bakı, 1998.
82. Eyüp Zengin-Nesimi Kamalov, 'Azerbaycan Ekonomisinin Gelişimi İçerisinde KOBİ'ler', Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.99-120.
83. F. K. Həşimov, "Milli İqtisadiyyatın Kreditləşməsində Əhalinin Maliyyə Potensialının Rolu", *İqtisadiyyat və Həyat Jurnalı*, No:7-8, İyul-Avqust-2004, ss.89-91.
84. F. Ş. Əliyev, *Azərbaycan Respulikasının Yeraltı Suları və Ehtiyatlarından İstifadə və Geokoloji Problemləri*, Çaşıoğlu Nəşriyyatı, Bakı, 2000.
85. F.V. Quliyev, "Ərzaq Bazarının Qorunmasında Maliyyə-Kredit Mexanizminin Rolu", *İqtisadiyyat və Həyat Jurnalı*, No:7-8, İyul-Avqust-2004, ss.92-95.
86. F. Y. Bayramov-S. E. Nəcəfov, "Dövlət Büdcəsinin Kəsiri və İnflasiya", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.148.
87. Faruk Arslan, "Azerbaycan Ekonomisinde Geçiş Dönemi", *Hazar Bilim Sanat ve Kültür Dergisi*, S.1, Bahar-2000, s.17.
88. Fazil Memmedov, "Azerbaycan'da Vergi Oranları", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:10, Ekim-2001, s.12.
89. Fazıl Məmmədov, "Vergi Sistemində Islahatlar Əlverişli Vergi Mühitinin Yaradılmasına Yönəlib", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, ss.10-11.
90. Ferhan Erkmenoğlu, "Ekonomik İşbirliği Teşkilatı (EİT) Devlet veya Hükumet Başkanları Yedinci Doruk Toplantısı (İstanbul; Ekim 2002)",
91. http://www.mfa.gov.tr/turkce/grupe/ues-8/ECO.htm, (09.04.2003).
92. Fikret Aliyev, "Kontrakt Veka: 5 Let Spustya", *Consulting & Business*, S.9, 1999, s.40-41.
93. Fikrət Sucayev, "Azərbaycanda Qaz Hasilatı və Ona Olan Tələbatın Ödənilməsinin Başlıca İstiqamətləri", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfransın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.36-37.
94. Fuad Aliyev, *The International Monetary Fund and Reforms in Azerbaijan*, Budapest, Hungary, February-2002.

95. Fuad Hüseynov, "Azerbaycan'ın Jeopolitik Konumu, Enerji Kaynakları ve Dış Ekonomik İlişkiler Sistemi",
96. http://www.foreigntrade.gov.tr/ead/DTDERGI/OCAK2001/azerbaycan.htm, (9.2.2002).
97. Gahir Mikailov-Eyüp Zengin, 'Azerbaycan'da Azgelişmişlik Sorunu', Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.71-98.
98. http://www.geocities.com/ganigonullu/kafkasyaortaasya.html, 7.4.2003.
99. Qubad İbadoğlu, "Azərbaycanın İnkişaf Strategiyasında Neftin Rolu: Ortodoks Bakış Açısıyla", *2023 Dergisi*, S.18, 15 Ekim-2002, ss.72-75.
100. Gülgəz Əliyeva, "Azərbaycan Respublikasının Avropa İttifaqı İlə Münasibətləri", *Məşvərət Bülleteni*, No:11(47), Fevral-2002, s.20.
101. Güner Gücük, "Azerbaycan'ın Ekonomik Gelişimi ve Girişimcilik", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, s.44.
102. H. Məmmədov - R. Axundov, "Qədim İpək Yolunun Nəqliyyat Marşutları", *İpək Yolu II. Respublika Elmi-Praktiki Konfransının Materialları*, Bakı, 2001, ss.11-14.
103. Hasan Selçuk, "Azerbaycan Bankacılığı", Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.43-70.
104. *Xalq Qəzeti*, 26 Dekabr 1998, s.1-2.
105. *Hart's EUROIL*, Dekabr-1995, s.32.
106. Haydar Aliyev, *Dünya Siyasetinde Azerbaycan Petrolü*, (Der. İlham Aliyev - Akif Muradverdiyev, Çev. Abdullah Çiftçi - Ergun Kocabıyık), Sabah Kitapları No.77, İstanbul, 1988, ss.101-102.
107. Heydər Əliyev, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Onuncu İldönümü Haqqında", *Azərbaycan Respulikası Prezidentinin 20 Mart 2001 Tarixli Fərmanı*, Bakı, 20 Mart 200.
108. Huseyn Mamedov, "Banking Legislation and Improvment Aspects", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.292-295.
109. İbrahim Kuluöztürk, "Türkiye-Azerbaycan Sosial Güvenlik Sözlşemesi", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, ss.24-26.
110. *Investors' Handbook*, International Conference Investing in Azerbaijan- Gateway to the Newly Insdependent States, Baku, May 7-9 2003.
111. *Investment Guide to Azerbaijan 1998*, USACC, Washington, 1998, s.70.
112. İlhan Uludağ - Salih Mehmedov, *Sovyetler Birliği Sonrası Bağımsız Türk Cumhuriyetleri ve Türk Gruplarının Sosyo-Ekonomik Analizi Türkiye İlişkileri*, TOBB Yayınları, İstanbul, 1992.
113. İlkin Sabiroğlu, "Neft Böhranları və Holland Sindromu", *Azərbaycan Milli Demokratiya Fondu Azərbaycan Bülleteni, No: 19 (139),* 10 May 2001.
114. *İllik Hesabat*, Azərbaycan Respublikası Milli Bankı, 2000.
115. *İllik Hesabat*, Azərbaycan Banklar Assosiyası, 2003.
116. İmran Cəfərzadə, "Əsaslı İnkişaf İlləri", *İqtisadiyyat*, 18 Oktyabr-1 Noyabr 2001, s.3.
117. İnqilab Əhmədov, "İqtisadi İslahatlarda Pul-Kredit Siyasətinin Rolu", *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr 2001, ss.43-48.
118. İrfan Kalaycı, "karadeniz Ekonomik İşbirliği: Dünya Ekonomisi Açısından Geleceği", *Articles of The International Conference On A Theme 'Caucasus and Central Asia in The Globalization Process'*, Bakı, 2003, p.52-57.
119. İrşad Əliyev, "Aqrar Sahəyə İnvestisiya İmkanları", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, ss.12-13.
120. İsmail Özsoy, *Dağıstan'ın Sosyo-Ekonomik Tarihi*, Kaynak Yayınları, İzmir, 1997.

121. İsmet Ergün, "Kollektivist Bir Sistemde Piyasa Ekonomisine Geçiş Sorunları", *Türkiye Modeli ve Türk Kökenli Cumhuriyetlerle Eski Sovyet Halkları*, Yeni Forum Yayınları, Ankara, 1992, ss.109-113.

122. İ. T.Akbarov, "The Role and Economic Importance of Caspian Sea Region", *Materials of The İnternational Conference on a Theme Caucasus and Central Asia During Globalization*, Baku, 2003, ss.66-67

123. Javid Ahmadi, "Development Perspectives of Azerbaijan Agriculture", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001, ss.8-9.

124. Karin Dalva, "Global payment Cards in Azerbaijan", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.212-225.

125. Ken Jowitt, "Yeni Dünya Düzensizliği", (Çev: Levent Köker), *Demokrasinin Küresel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, s.303-313.

126. Kenan Çelik – Cemalettin Kalaycı, "Azeri Petrolünün Dünü ve Bugünü", *Journal of Qafqaz University*, V.2, No.2, 1999, s.63.

127. M. F. Gadcizade, "Nekatorıye Vaprosı Organı Akrujayuşey Sredı na Ploşadyah Ekspulutatsiyi Neftegazovıh Mestarajdeniy Mejdunarodhıh Kampaniy", *Azerbay-can 21. Esrin Astanasında*, Azerbaycan İlmler Akademiyası Neşriyyatı, Bakı, 1998, s.235.

128. M. V. Əliyev, "Qaradəniz Regionunun İqtisadi İnteqrasiya Prosesi və Bu Prosesdə Azərbaycan Amili", *İqtisadiyyat və Həyat Jurnalı*, No.3-4, Mart-Aprel-2004, ss.99-102.

129. Marc F Plattner, "Demokrasi Anı", (Çev: Ergun Özbudun), *Demokrasinin Küre-sel Yükselişi*, (Der: Larry Diamond – Marc F. Plattner), Yetkin Yayınları, Ankara, 1995, ss.53-65.

130. Martin Czurda, "Raising Finance for Azerbaijani Borrowers from the International Markets", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.298-313.

131. Məhəmmədhəsən Vəlili, *Azərbaycan*, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.

132. Mehmet Binay, "İpek Yolu Yeniden Canlanıyor",

133. http://www.turkiye.net/mbinay/news/analiz1.htm, 7.4.2003.

134. Mehmet Dikkaya, "Türk Cumhuriyetleri Enerji Kaynakları:Yeni Büyük Oyunun Temel Dinamikleri", *Akademik Araştırmalar Dergisi*, Y.1, S.3, Kasım-Aralık 1999 Ocak 2000, s.33-64.

135. Məzəddin Eyyubov, "Bazar İqtisadiyyatına Keçid və Sənaye Kompleksi" *Məşvərət Bülleteni*, No:7(43), Oktyabr 2001, ss.66-67.

136. Michael Gerlic, "Role of Banks in the Development of Leasing in Azerbaijan", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.338-347.

137. Mikhail Gorbachev, *Perestroika: New Thinking for Our Country and the World*, New York, 1987.

138. Misir Mərdanov, "Heydəer Əliyev və Azərbaycan Təhsili", *Azərbaycan Müəllimi Qəzeti*, 7-13 Mart 2003, ss.2-3.

139. Murad İskender, "Azerbaycanda Ekonomik Sistemin Dönüşümü", Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.15-42.

140. Murad İskender-Halkan Kitapçı, *Değişim, Dönüşüm ve Dünya Ekonomisine Entegrasyon Süre-cinde Azerbaycan Ekonomisi,* Türk Dünyası İşletme Fakültesi Yayınları, No:001, Bakı, 2003.

141. Mustafa Özel, *Değişim ve Kriz*, İz Yayıncılık, İstanbul, 1994. s.120.

142. Mübariz Bağırov, *Banklar və Bank Əməliyatları*, Nurlan Nəşriyyat, Bakı, 2003.

143. *Mülkiyyət Qəzeti*, 27 Oktyabr-3 Noyabr 1998.

144. *Mülkiyyət Qəzeti*, 27 Yanvar 1999, s.4.

145. *Müsteqil Azərbaycan*, Azərbaycan Republikası Dövlət Statsitika Komitəsi, Bakı, 2001.

146. N. Əliyev, E. Şahbazov, *Heydər Əliyev və Azərbaycan Neft Sənayesinin İnkişafı,* Azərbaycan İnternational Mətbəəsi, Bakı, 1998.

147. N. E. Cavadov, "Azərbaycanın Aqrar İqtisadiyyatı Müstəqillik Dövründə", *Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfrasın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.58-60.

148. N. E. Fərruxov, "Əsrın Müqaviləsi - XX Əsrin ən Əhəmiyyətli Hadisəsi", *Azərbaycan 21. Əsrin Astanasında*, (Redaktor. Ziyad Səmədzadə), Azərbaycan Elmler Akademiyası Nəşriyyatı, Bakı, 1998, S.196.

149. N. İbrahimov - İ. Şükürov, *Geydar Aliev Otkrıvaet Miru Azerbaydjan*, Baku, 1994, s.32.

150. N. Ö. Hacıyev, "Sahibkarlıq Sektorunun İnkişafının Sürətləndirilməsi ilə Bağlı Problemlər", *Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, s.117.

151. N. Səfərəliyev, "Neft Bahalaşır. İqtisadiyyatımız Bundan Yararlanacaq", *İki Sahil Qəzeti*, 5 Mart 2003.

152. Nail Fətəliyev-Aygül Şamçıyeva, "Qara Dəniz İqtisadi Əməkdaşlığı", *Məşvərət Bülleteni*, No:12 (48), Mart-2002, ss.19-38.

153. Nail Fətəliyev-Aygül Şamçıyeva-Ruqiyyet Məmmədova, "Dünya Bankı və Onun Azərbaycandakı Fəaliyyəti", *Məşvərət Bülleteni*, No:3(39), ss.20-34.

154. Nail Fətəliyev-Rafiq Əhmədov, "Beynəlxalq Maliyyə-Kredit Təşkilatları və Onların Azərbaycan Respublikası İlə Əlaqələri Haqqında", Məşvərət *Bülleteni*, No:10(46), Yanvar-2002, ss.24-43.

155. *Narodnoye Hozyaistvo Azerbaicanskoi SSR V 1983 Godı* Stat. Ejegodnik, Bakı, 1983.

156. Nasser Sagheb-Masoud Cavadi, "Azerbijan's 'Contract of the Century' Finnally Signed With Western Oil Consortium", *Azerbaijan International Magazine*, Winter 1994, s.27.

157. Natık Aliyev, "Petrol Azerbaycan'ın Milli Serveti (Eyvaz Gasanov'un Röportajı)", *Diyalog Avrasya Dergisi*, Şubat-2001, s.82.

158. Natig Aliyev, 'The Azerbaijan Oil and Gas Industry in the 1949-1999 Period', http://www.caspenergy.com/no3rus21.html. 04.04.2005.

159. Natiq Ələsgərov, "Tarixi İpək Yolu və Azərbaycan Neft Sənayesi Müasir Mərhələdə", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.32-33.

160. Nazim İmanov, "İlk On İlin Yekunları: İqtisadiyyat", *Məşvərət Bülleteni*, No:7 (43), Oktyabr 2001, s.32.

161. Nəbi Nəbiyev, *İqtisadiyyat Cəmiyyət və Ekoloji Muhiti*, Ağrıdağ Nəşriyyatı, Bakı, 2000.

162. Nesimi Kamalov, "1990-2000 Yılları Arasında Azerbaycan'da Enflasyon", *Journal of Qafqaz University*, Number 6, Fall-2000, ss.65-74.

163. Nesimi Kamalov, 'Arz Yönlü İktisat Teorisi ve Azerbaycanda Uygulanabilirliği', Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.143-158.

164. Niko Hobdari, "Impact of Banking Sector and Structural Reforms in Financial Intermadiation", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.60-63.

165. Nizami Süleymanov, *Azərbaycanın İqtisadi Tarixi*, Bakı, 2001.

166. Nuray Altuğ, *İstikrar Politikaları ve Ülke Örnekleri,* Türkmen Kitabevi, İstanbul, 2001.

167. Osman Nuri Aras, "Azerbaycan İqtisadiyyatında Sermaye Strategiyasının Nezeri İnfrastrukturu", *Azerbaycan İqtisadiyyatında Strateji Problemleri Konfrans Materialları*, Bakı, 14-15 Mart 2002, ss.209-212.

168. Osman Nuri Aras, "Geçiş Sürecinde Azerbaycan'da Yaşanan "Hollanda Sendro-mu" ve Çözüm Önerileri", *Nesreddin Tusinin 800 İllik Yubileyine Hesr Edilmiş Republika Elmi Konferansda Sunulan Tebliğler*, Bakü, 2-3 Nisan 2001, ss.130-133.

169. Osman Nuri Aras, "Azerbaycan İqtisadıyyatında Ehtimal Olunan Problem: Pul Evezi", *Azerbaycan İqtisadiyyatında Strateji Problemleri adlı Konfrans Materialları*, Bakı, 14-15 Mart 2002, ss.315-318.
170. Osman Nuri Aras, *Azerbaycan'ın Hazar Ekonomisi ve Stratejisi*, Der Yayınları, İstanbul, 2001.
171. Osman Nuri Aras, *Para Talebi Para İkamesi ve Finansal Gelişme*, Qafqaz Üniversitesi Yayınları, Bakü, 2000.
172. Osman Nuri Aras, *Rusya'da Tıkanan Sosyo-Ekonomik Değişim Dalgası*, Qafqaz Üniversitesi Yayınları, Bakü, 2000.
173. Osman Nuri Aras, "Türkiye-Azerbaycan İlişkileri", Hasan Selçuk (Ed.), *Yeni Yüzyılda Azerbaycan'ın Sosyo-Ekonomik Yapısı*, Tasam Yayınları, İstanbul, 2004, ss.173-203.
174. *Poverty Reduction Strategy Paper (Interim Report)*, Baku, May-2001
175. P. Məmmədov, "Xəzərin Ekoloji Problemlərinin Həllində Ölkələrarası Əməkdaşlığın Əhəmmiyyəti", *Azərbaycan XXI. Əsrin Astanasında*, (Ed. Ziyad Səmədzadə), C.II, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1998,, Bakı, 1998, s.208.
176. R. Abbasov, "Azərbaycan Turizm Üçün Əhəmiyyətli Bölgədir", *Hərbi And Qəzeti*, 1-15 Aprel, 2003, s.2.
177. R. T. Həsənov, "Azərbaycan İqtisadiyyatının İnkişaf Strategiyasının Perspektivləri", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.10-11.
178. R. X. Şaulov, "Mütəqillik Şəraitində Regional İnkişafın Strategiyası", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.84-86.
179. Rasim Həsənov, "Azərbaycanın İqtisadi İnkişaf Paradigması və İqtisadi Təhlükəsizlik Konsepsiyasının Seçimi", *Məşvərət Bülleteni*, No:7(43), Bakı, Oktyabr-2001, ss.6-8.
180. Rasim Musabəyov, "Qloballaşma və Azərbaycan", *Məşvərət Bülleteni*, No:11 (47), Fevral-2002, ss.31-45.
181. Raif Kutluk, "Azerbaycan Tarım Sektörüne Genel Bakış", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, ss.28-34.
182. Rauf Hüsseynov, "CIPCO Clinging to Life Support", *Baku Sun Newspaper*, 17 December 1998, s.21.
183. Rəhimə Nurəliyeva, "Azərbaycan İqtisadiyyatında Böyük İpək Yolunun Rolu və Əhəmmiyəti", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, s.50.
184. Rəşad Süleymanov, "Xəzərin Səviyyəsinin Qalxmasından Ən Çox Ziyan Görən Azərbaycandır", *525-ci Qəzet*, No:56 (1913), 26 Mart 2005.
185. Rəşad Süleymanov, "Azərbaycan Mikro Maliyyə Assosiasiyası Daşınmaz Əmlakın Təmirinə də Kredit Verir", *525-ci Qəzet*, No:43 (1900), 5 Mart 2005.
186. Rovşən İbrahimov, "Böyük İpək Yolu Proqramı və Gözlənilən Nəticələri", *İpək Yolu II. Respublika Elmi-Praktiki Konfransının Materialları*, Bakı, 2001, ss.22-24.
187. Rovşen İbrahimov, "GUÖAM Örgütünün Kurulma Sebeplerinin Uluslararası İlişkiler Karar Verme Süreci Teorisi Açısından Değerlendirilmesi", *Azerbaycan Müsteqillikden Sonra Beynelhalq Konfransın Materialları*, Bakı, 3-4 Mart 2003, ss.55-58.
188. Rovşən Quliyev, "Aqrar Bazarların Tənzimlənməsi Üzrə Dünya Təcrübəsi", *Məşvərət Bülleteni*, No:12(48), Mart-2002, ss.39-56.
189. Sevil Yıldırım, *Dünyada ve Türkiye'de Petrol*, T.C. Başbakanlık Dış Ticaret Müsteşarlığı Ekonomik Araştırmalar ve Değerlendirme Genel Müdürlüğü, Ankara, Ağustos- 2003.
190. S. Bölükbaşı, "Ankara's Bakü-Netred Transcaucassa Policy", *The Middle East Journal*, Winter 1999, s.87.
191. S. Eyyuboğlu, "Qeyri-Bank Kredit Təşkilatları Bazarda Hökümranlıq Edir", *525-ci Qəzet*, 04.01.2003.

192. S. Eyyuboğlu, "Türkiyə Azərbaycanla İqtisadi Əlaqələrini İnkişaf Etdirmək Niyyətindədir", *525-ci Qəzet*, 11.01.2003.

193. S. Eyyuboğlu, "Xəzər Bölgəsi Neft Qiymətlərinə On İldən Sonra Təsir Edə biləcəkdir", *525-ci Qəzet*, 08.01.2003.

194. Sahilə Allahverdiyeva, "Bakı Dəniz Limanının Böyük İpək Yolunun Bərpasında Əhəmmiyyəti", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.10-12.

195. Sakit Hüseynov, *Davamlı İnsan İnkişafının Stratejik İstiqamətləri*, Adiloğlu Nəşriyyat, Bakı, 2003.

196. Saleh Məmmədov, *İnflyasiya və Maliyyə Bazarı*, Bakı, 1998.

197. Samir Veliyev, "Main Objectives and Nature of State Policy in Privatization Program", *Conference Report*, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004, Baku, 2004, ss.100-102.

198. Səttar Səfərov, "Əvəzsiz Milli Sərvətimiz: Müstəqillik", *İqtisadiyyat və Audit Jurnalı*, No: 10, Oktyabr-2001, ss.5-6.

199. Sevil Yıldırım, *Dünyada ve Türkiye'de Petrol*, T.C. Başbakanlık Dış Ticaret Müsteşarlığı Ekonomik Araştırmalar ve Değerlendirme Genel Müdürlüğü, Ankara, Ağustos-2003.

200. Sinan Oğan, "Bağımsızlığının Onuncu Yılında Azerbaycan Ekonomisi ve Türki-ye İle Ekonomik İlişkileri", www.ceterispariibus.net/arsiv/s_ogan.pdf. 12.03.2003

201. Sinan Oğan, Türkiye-Azerbaycan Ekonomik İlişkilerinin Geliştirilmesi Konferansı, İAV-TİKA, Bakü, 1996.

202. Stanislav Zhukov, "The Macroeconomic Situation in Azerbaijan: At the End of the First Post-Soviet Decade", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001, ss.6-7.

203. *Statisticeskiye Pokazateli Azerbaicana V 1997 Godı Stat. Ejegodnik*, Bakı, 1998.

204. *State Programme on Poverty Reduction and Economic Development 2003-2005*, Baku, 2003.

205. Ş. E. Yaqubov – A. M. Mahmudzadə, "Azərbaycan Respublikasında Aparılan Aqrar İslahatların Qiymətləndirilməsi", *Azərbaycanda İqtisadi İslahatların Həyata Kəçirilməsi Xüsusiyyətləri və Problemlər*, İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.60-63.

206. Şəfa Əliyev, "Kimya və Neft-Kimya Kompleksinin İnkişaf Mərhələləri, Mövcud Problemləri və Perspektvləri", *İqtisadiyyat və Həyat Jurnalı*, No:7-8, İyul-Avqust-2004, ss.61-70.

207. T. A. Abbasov, "Aqrar Bazarın İnkişafında Tələbatın Təkmilləşdirilməsi Problemləri", *İqtisadiyyat və Həyat Jurnalı*, No:7-8, İyul-Avqust-2004, ss.110-115.

208. Tarık Aydın, "Azerbaycan ve Dünya Bankası", *Mutasyon.Net,*

209. http://www.mutasyon.net/makaleler/taydin/default.asp, 15.9.2002

210. Təbriz Vəfalı, "Qarabağın İqtisadıyyatımıda İzi", *Hərbi And Qəzeti*, 1-15 Aprel 2003, s.3.

211. *Diyalog Azerbaycan İş Düntası Dergisi,* TÜSİAB Cemiyeti Bülteni, No:03/91, 4 Şubat 2003, s.2.

212. V. A. Hüseynov, v.d., *Manatın Bahalaşması və İqtisadi İnkişaf: 'Hollandiya Xəstəlyinin Məzmunu və Əlamətlərinin Tədqiqi*, Səda Nəşriyyatı, Bakı, 2005.

213. V. E. Rüstəmov, "Azərbaycan İqtisadiyyatının Struktur Yenidən qurulmasında Xarici Kapitalın Rolu", *Azərbaycan İqtisadi İslahatlarının Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri*, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi, Bakı, 2001, ss.27-28.

214. Vural Savaş, *Politik İktisat*, Beta Yayınları, İstanbul, 1998.

215. Vüqar Dərgahov, "Neft Siyasəti və İpək Yolunun Xarici Turizmin İnkişafında Rolu", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.21-24.

216. *World Bank Activities in Azerbaijan*, 1998, s.1.

217. http://lnweb18.worldbank.org/ECA/Azerbaijan.nsf/ 1.03.2003.

218. *Xalq Qəzeti*, 17 Dekabr 1996.

219. Yasin Aslan, *Hazar Petrolleri, Kafkas Kördüğümü ve Türkiye*, Ankara, 1997, s.75-76.

220. Yavuz Selim Çelebi, "Türk Standartları Enstitüsü ve Azerbaycan", *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, ss.22.

221. Yavuz Kahraman, Globalleşme Sürecinde Ulus Ötesi İşletmeler, Tüketici Davranışları ve Azerbaycan, *Articles of The International Conference On A Theme 'Caucasus and Central Asia in The Globalization Process'*, Bakı, 2003, ss.80-84.

222. Yavuz Kahraman, 'Yabancı Girişimci Açısından Azerbaycan Ekonomisinin SWOT Analizi', *Diyalog Azerbaycan İş Dünyası Dergisi*, Sayı:16, Ağustos-2004, s.48.

223. Yusif Vəzir Çəmənzəminli, *Tarixi Coğrafi və İqtisadi Azərbaycan*, Bakı Universiteti Neşriyyatı, Bakı, 1993.

224. Z. N. Eminov, *Azərbaycan Fiziki və İqtisadi Coğrafiyası*, Azərbaycan Coğrafiya İnstitutu Nəşriyyatı, Bakı, 2000, ss.153-156.

225. Zahid Məmmədov, *Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələri*, Kooperasiya Nəşriyyatı, Bakı, 2004.

226. Zakir Nuriyev, "Azerbaıjan Banking Sistem in 2002-2003 Years", *Conference Report, 1st International Conference 'Banking Development in Azerbaijan' 12-14 November 2004*, Baku, 2004, ss.64-69.

227. Zenfira Nesirova, *Sovyetler Birliği Dağıldıktan Sonra Azerbaycan'da Ekonomik Gelişme*, Yayımlanmamış Yüksek Lisans Tezi, M.Ü, Sosial Bilimler Enstitüsü, İstanbul, 2002.

228. Zərifə Musayeva, "Böyük İpək Yolu və Azerbaycan Nefti", *Böyük İpək Yolu və Azərbaycan Nefti*, Mars-Print, Bakı, 1999, ss.34-46.

229. *Zerkalo Qəzeti*, 5 Oktyabr 1996.

230. Y. Həsənli, Neft Gəlirlerinin Azərbaycanın İqtisadiyyatına Təsirinin Səmərəlilik Problemləri – Valyuta Böhranı: "Dağıdıcı Artım", "Holland Xəstəliyi", və Asiya Maliyyə Virusu", *Qloballaşma Prosesində Qafqaz və Orta Asiya Mövzusunda Beynəlxalq Konfransın Materialları*, Bakı, 2003, ss.217-219.

231. "2002-ci İlin Yekunları Üzrə Pul-Kredit Siyasətinin Yerinə Yetirilmesi Vəziyyəti Haqqında", http://www.nba.az/az/analitic/2002yekunu.shtml. 11.06.2003.

232. "Azerbaijan", *Eurasian File*, TICA, S.103, July 1998/2, s.2.

233. "Azerbaycan", *Avrasya Dosyası*, TİKA Bülteni, S.128, Mart 2000, s.2.

234. "Azerbaycan'ın Petrol Anlaşmaları", *Avrasya Dosyası*, S.85, Ekim-97/2, s.4-5.

235. "Yaponskie Kompanii v Azerbaydjane - Tam Gde Net Riska, Net i Bolşoy Pribıli", *Capital Magazine*, Aprel-May 1997, s.48-49.

236. "5,1 Milyard Kubmetr Qaz Çıxarılıb",

237. http://www.express.com.az/second.asp?id=2909. (09.04.2003).

238. "Azerbaijan,: Financial Position in the Fund",

239. http://www.imf.org/external/np/tre/tad/exfin2.cfm?memberKey1=51, (04.04.2005).

240. "Azərbaycan Respublikası Milli Bankının 2003-cü İl Üçün Pul-Kredit Siyasətinin Başlıca İstiqamətləri Barədə Bəyanatı",

241. http://www.nba.az/az/analitic/bayanat2003-10.shtml, (18.04.2003).

242. "Azərbaycan Respublikasının Sosial-İqtisadi Vəziyyəti", *Milli Bank İllik Hesabat-2000*, Azərbaycan Respublikası Milli Bankı, Bakı, 2001, s.6.

243. "Azərbaycan Təhsil Nazirliyinin Bəyanatı", *Azərbaycan Zaman Qəzeti*, 15-17 Mart 2003, s.2.

244. "Azərbaycanın Qızıl Yataqlarının Çıxarılmasına Başlanılacaq", *Üç Nöqtə Qəzeti*, No:41(521), 4 Mart 2003.

245. "Azerbaycan-Türkiye Tohum Üretim ve Araştırma İşletmesi Projesi ile İlgili Görüntüler", http://www.tika.gov.tr/tur/projeler/tarim/main.htm. 12.03.2003.

246. "Baku-Tblisi-Ceyhan Pipeline", *Energy Ecology Economy Popular – Science Journal*, 13/2003, ss.2-15.

247. "Banki i Biznes", *Zerkalo Qezeti*, 28 Fevral, 2001.

248. "Caspian Staging a Comeback", *Offshore Engineer*, June-2000, s.38.

249. 'Consultation With the Azerbaijan Republic', *Public Information Notice (PIN)*, No.05/6, January 21 2005, http://www.imf.org/external/np/sec/pn/2005/pn0506.htm (10.04.2005).

250. "Country Assistance Strategy For The Azerbaijan Republic", *The World Bank Report*, No:19892-AZ, 29 November 1999. s.11.

251. "Dünya Bankı 2003-2005-ci İllərdə Azərbaycanda 9 Layihə Həyata Keçirdəcək", *525-ci Qəzet*, 17.04.2003.

252. "Dünya Bankı Təhsilin İnkişafına 63 Milyon Dollar Kredit Ayıracaq", *525-ci Qəzet*, 18.03.2003.

253. "Doğu ile Batı Arasında İpek Köprü", *Zaman Gazetesi*, 9 Eylül 1998.

254. 'EBRD and Azerbaijan', http://www.ebrd.org/country/azer/index.htm. (10.04.2005).

255. 'Enerji Sektorunun Vəziyyətini Yaxşılaşdırmaq Üçün 1 Milyard Dollar Lazımdır', *525-ci Qəzet*, No:53 (1910), 23 Mart 2005.

256. 'EU-Relations with Azerbaijan', http://europa.eu.int/comm/external_relations/azerbaidjan/intro/ (04.05.2005).

257. 'Gov't Says New Program Will Halve Poverty Level', *Azernews*, No:10(400), March 8–March 15, 2005, s.3.

258. "Investment Possibilities of Azerbaijan", *Ekspert İqtisad Jurnalı*, No.7-8, 2001.

259. www.byegm.gov.tr/yayinlarimiz/anadolununsesı/147/AND11.html, (7.4.2009).

260. "İqtisadiyyatımız Dirçəlir", *Azərbaycan Zaman Qəzeti*, 12-14 Noyabr 2002, s.2.

261. "Karadeniz Ekonomik İşbirliği",

262. www.foreigntrade.gov.tr/ead/ekonomi/sayi10/kei.htm 5 Haziran 1999. (09.06.2009).

263. "Kommersiya Banklarının Sayı Azalıb", *525-ci Qəzet,* 14.01.2003.

264. 'Mikromaliyyələşdirmə Bankı On Mininci Kreditini Verdi', *525-ci Qəzet,* No:57 (1914), 29 Mart 2005.

265. "Milli Bank Himayədarlıq Siyasəti Yeridir", *Azadlıq Qəzeti*, No:2(2665), 5 Yanvar 2005.

266. "Minfin Podvodit Itogi 'Strahovogo' Goda", *Zerkalo,* No. 15(108), Bakı, 2002, s. 16-18.

267. "Neft Fondunun Vəsaiti 727 Milyon Dollara Çatıb", *525-ci Qəzet*, 17.04.2003.

268. Oil and Gas Investment Projects: Azerbaijan and Georgia', *Bisnis Home Page*, http://www.worldbank.org/ogmc/ifcoginvestmentsprojectsazerbaijan.htm. (12.04.2009).

269. "Orta Asya Türk Cumhuriyetleri Telekominikasyon ve İnternet Altyapısı İle İlgili Olarak Hazırlanan Teknik Rapor", http://www.foreigntrade.gov.tr/turkcumhuriyetleri/teknik_rapor.htm. (19.04.2003).

270. 'Process of Privatization', www.msp.gov.az/html/eng/xod.html, (18.04.2009).

271. 'Sektörel Bazda Azerbaycan'daki Türk Yatırımları', *TÜSİAB 10. Yıl Tanıtım Kataloğu*, Aralık-2004, ss.110-112.

272. 'Sektörel Bazda Azerbaycan'daki Türk Yatırımları', *TÜSİAB Ekonomi ve Haber Bülteni*, No:19/136, 29 Haziran 2004. s.1.

273. "Sığortacıların Nizamnamə Kapitalı Artırılır", *Ekspert İqtisad Jurnalı*, No:5-6 (17-18), 2001, s.4.

274. "Son Beş İldə Kənd Təsərrüfatına 300 Milyon Dollar Xarici Sərmayə Qoyulub", *525-ci Qəzet*, 20.03.2003.

275. 'State Program on Social-Economic Development of Regions of Azerbaijan Republic for the Years of 2004-2008',

276. http://unpan1.un.org/intradoc/groups/public/documents/UNTC/UNPAN016803.pdf, (05.04.2009)

277. "Türkiyə Azərbaycanla İqtisadi Əlaqələrini İnkişaf Etdirmək Niyyətindədir", *525-ci Qəzet*, 11.01.2003.

278. "World Bank Lending to Azerbaijan", http://lnweb18.worldbank.org/ECA/Azerbaijan.nsf/ECADocbyUnid/EB90853C3B704B85C4256C3A001980A7?Opendocument, (01.04.2005).

279. http://www.eia.doe.gov/emeu/cabs/azerproj.html, (04.04.2009).

280. http://www.invest-in-azerbaijan.com/docs/facts_azerbaijan.shtml, (21.05.2009).

281. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının 2016-ci il üçün dövlət və icmal büdcə layihələrinin təqdimatı, Bakı, 2015

S P O N S O R D A N . . .

“FAB Boya və Kimya Sənayesi” MMC 2001-ci ildə qurulmuşdur. Müəssisə alman texnologiyası və Türkiyənin məşhur kimyaçılarının əməyinin tətbiqi, çevik və işgüzar kollektiv sayəsində müasir standartlara, daxili və xarici bazarların tələblərinə tam cavab verən yüksək keyfiyyətli su əsaslı, sintetik, sellülozik boya məhsulları və həlledicilər fabriki öz işinə başlamışdır. 2004-cü ilinfevral ayında “Beynəlxalq Standartlaşdırma Təşkilatı”nın yoxlamasından uğurla çıxmış, məhsullarımızın və müəsissəmizdəki idarəetmə sisteminin keyfiyyəti həmin təşkilatın ISO 9001:2000 beynəlxalq sertifikatına layiq görülmüşdür. 2006-cı ildən alman layihəsi əsasında müasir tələblərə cavab verən "Polimerlər" fabriki fəaliyyətə başlamışdır ki, bu istehsal sahəsində PVA əsaslı yapışdırıcılar, akrilik bağlayıcılar və s. istehsal edilir. Bununla yanaşı müəssisəmiz 2012-ci ildə isə mövcud fabriklər sırasına tam avtomatlaşdırılmış və Avropanın qabaqcıl ölkələrinin istehsalı olan avadanlıqlarla təchiz olunmuş "FABKİM" kafel və metlax ara doldurucuları istehsal edən və PVC, PPR borular, boru birləşmələri, kabel kanalları və digər inşaat malları istehsal edən "HİLLFAN" plastik məhsullar fabriki də əlavə olunmuşdur.

İstehsalla yanaşı müəsissənin 5 ünvanda ən yüksək xidmət standartlarına cavab verən, müasir dizaynda tərtib olunmuş topdansatış mağazaları da fəaliyyət göstərir. 2014-cü ildən öz işinə başlamış "FAB Akademiyası" I korpusunun nəzdində fəaliyyət göstərən, İngiltərədən gətirilmiş ölçmə və yoxlama cihazları tətbiq olunan Keyfiyyətə Nəzarət, Polimerlər, Keramika Yapışdırıcıları, Araşdırma və İnkişaf Laboratoriyalarımız Dövlət Standartlaşdırma və Metreologiya İdarəsinin Texniki Akkreditasiya Sertifikatını almışdır. Şirkətimiz həmçinin 2010-2015-ci illərdə "İlin Keyfiyyətli Boya Şirkəti" adına layiq görülmüşdür.

İctimai fəaliyyətini uğurla həyata keçirən şirkət 2014-cü ildən öz işinə başlamış "FAB Akademiyası"-nda respublikamızın ali və orta təhsil ocaqlarında təhsil alan gənclərimiz, habelə, respublikamızın müxtəlif bölgələrindən olan ustalar üçün müxtəlif səpkili təlim-tədris seminar proqramlarını təşkil edir.

2015-ci ildən fəaliyyətə başlayan "FAB Akademiyası"-nın II korpusunun nəzdində Plastik Məhsulların Keyfiyyətinə Nəzarət Laboratoriyası öz işinə başlamışdır.

Müəsissə istehsal etdiyi məhsulların xammaddələrini dünyanın qabaqcıl xammaddə firmalarından idxal edir və ölkə xaricində tanınmış boya müəsissələri ilə yaxından əməkdaşlıq edir. Şirkətimizin amalı müassir texnologiyanı tətbiq etmək, daim yeniləşən tələblərə cavab verməklə ölkə daxilindəki nüfuzumuzu qoruyub saxlamaq, qloballaşmaq,beynəlxalq səviyyədə tanınmaq və xarici bazarlarımızın sayını artırmaqdır. Missiyamız, məhsul çeşidlərimizin sayını artırmaq, daxili və xa-

rici müştəri məmnuniyyətini maksimum səviyyədə təmin etməklə ölkə daxili və xarici bazarlarda özümüzə layiqli yer tutmaqdır. Müəssisəmizdə hər zaman keyfiyyət hədəfləri müəyyənləşdirilir, xammal mənbələri araşdırılır, müştəri tələblərini nəzərə almaqla istehsalat planlanlaşdırılır və bütün sistemə beynəlxalq standartlara uyğun səviyyədə nəzarət edilir. Müəsissəmiz daima inkişaf etmək, müştəri tələblərinə yüksək səviyyədə cavabvermək, keyfiyyət idarəetmə sistemini təkmilləşdirmək, tətbiqi və təsirliliyini artırmaq məqsədi ilə aşağıdakı prinsipləri özünə əsas götürür:

- *Ölkəmizin inkişafı, iqtisadi gücünün artırılması və işıqlı gələcəyənin təmin olunması yolunda hər zaman çalışmaq*
- *Boya sektorunda qabaqcıl dünya təcrübəsini araşdırıb yenilikləri tətbiq etmək və ölkəmizdə bu sektorun inkişaf etməsi üçün bu təcrübədən istifadə etmək.*
- *Müştəri tələblərini daima diqqət mərkəzində saxlamaq, öyrənmək və onların tələblərini yüksək səviyyədə yerinə yetirmək.*
- *Keyfiyyət hədəflərini müəyyən etmək və istehsalda keyfiyyətin yüksəldilməsinə daima çalışmaq*
- *İşçilər üçün lazimi iş şəraitini və onların məmnuniyyətini təmin etmək*
- *İstehsal qüvvəsini və kadr potensialını təmin etmək*
- *Müasir texnologiyalardan istifadə edərək rəqabət gücünü artırmaq və hər zaman öndə olmaq*
- *Müştəri məmnuniyyəti və şikayətlərini müasir metodlarla mütamədi olaraq öyrənmək*
- *İctimaiyyəti və müştərilərimizi müəssisəmizdə olan yeniliklər və yeni məhsullar haqqında məlumatlandırmaq, onlar üçün hər zaman açıq olmaq.*

İstehsalda keyfiyyətimizi yüksəltmək üçün əsas prinsiplərimiz:

- *Müəssisəmizin istehsal etdiyi məhsulların ölkə daxili və xarici bazarlarda yüksək keyfiyyətli məhsul kimi tanınmasına nail olmaq*
- *Müasir texnologiyalardan istifadə etməklə yüksək keyfiyyət əldə etmək və bununla müştəri məmnuniyyətini yüksək səviyyədə təmin etmək*
- *Bu hədəfə tam şəkildə nail olmaq üçün müəyyən etdiyimiz keyfiyyət hədəflərini davamlı olaraq gözdən keçirmək və daimi yaxşılaşdırma prinsipi ilə çalışmaq*
- *Yeni məhsullar istehsal etmək və mövcud məhsulların keyfiyyətinə nəzarət etmək üçün müasir labaratoriya imkanlarına sahib olmaq.*

Fab Boya və Kimya Sənayesi şirkəti olaraq Sizinlə bərabər olmaqdan və Sizə xidmət etməkdən hər zaman qürur duyuruq.

Boya və Kimya Sanayesi MMC